SARA
AŞURBƏYLİ

AZƏRBAYCAN DİLİ VƏ TARİXİ

BAKI ŞƏHƏRİNİN TARİXİ

ORTA ƏSRLƏR DÖVRÜ



63.3(2Az)
A-94

SARA
AŞURBƏYLİ

AZƏRBAYCAN DİLİ VƏ TARİXİ

BAKI ŞƏHƏRİNİN TARİXİ

ORTA ƏSRLƏR DÖVRÜ



2491

AVRASİYA PRESS

BAKI 2006

M.S. [illegible] adına
Naxçıvan Muxtar Respublikası
KİTABXANASI

Bu kitab "Sara Aşurbəyli. Bakı şəhərinin tarixi" (Bakı, Azərnəşr, 1998) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır.

Elmi redaktoru: **Ziya Bünyadov**
Ruscadan tərcümə edəni: **Azər Bağırov**

947.54-dc22
AZE

Sara Aşurbəyli. Bakı şəhərinin tarixi. Bakı, "Avrasiya press", 2006, 416 səh.

Sara Aşurbəylinin bu kitabı Bakı şəhərinin orta əsrlər tarixinə həsr olunmuşdur. Erkən və inkişaf etmiş orta əsrlərdə Bakı neftinin çıxarılması və emalı üzrə mühüm mərkəz kimi məşhur olan Bakı şəhərinin sosial-iqtisadi, siyasi və mədəni həyatı öyrənilmiş, müasir dövrədək qalmış memarlıq abidələrinin təhlili verilmiş, uzun tarixi dövr ərzində elm və təsviri incəsənətin vəziyyəti göstərilmişdir.

Arxeoloji materiallara istinad edərək, Bakını antik dövrün şəhəri adlandırmaqla bu kitabda Bakı tarixinin ən parlaq dövrü – XII-XV əsrlər Şirvanşahların hakimiyyəti dövrü olduğu bu materiallar əsasında sübut edilmişdir.

ISBN10 9952-421-67-0
ISBN13 978-9952-421-67-5

©AVRASİYA PRESS, 2006

1937–1938-ci illər repressiyasının qurbanı olmuş əziz atam Balabəy Teymurbəy oğlu Aşurbəyovun nurlu xatirəsinə ithaf edirəm

MÜƏLLİFDƏN

Bu əsər oxucuları Bakının, onun ətrafının tarixi ilə tanış edir. Burada orta əsrlərdə Yaxın Şərqin ən mühüm feodal şəhərlərindən biri, Şirvanın, Bakı xanlığının, nəhayət, Azərbaycan Respublikasının paytaxtı Bakının sosial-iqtisadi, siyasi-tarixi və mədəni həyatı tədqiq olunur.

Kitabda Abşeronda neft çıxarılmasına və neft sənayesinə dair ətraflı məlumat verilir. Şəhərin iqtisadi vəziyyəti (sənətkarlıq istehsalı, ticarət, pul tədavülü məsələləri), əhalinin tərkibi, sosial münasibətlər, hərbi toqquşmalar, şəhər hakimlərinin həyat və fəaliyyəti, şəhər mədəniyyəti (memarlıq, ədəbiyyat, incəsənət) araşdırılır.

Son illərdə İçərişəhər ərazisində və Bakının ətrafında aşkara çıxarılmış bir sıra arxeoloji materiallar şəhərin tarixi məsələsinə yenidən baxmağa, onu bir neçə əsr geri çəkməyə imkan verir. Əsərdə Suraxanı Atəşgahının tarixinə dair materiallar, onun bəzi kitabələrinin tərcüməsi verilmişdir. Kitabda Bakının "Böyük ipək yolu"nda, Şamaxıdan və Ərəşdən Yaxın Şərqin və Qərbi Avropanın müxtəlif ölkələrinə ixrac edilən xam ipək ticarətində rolu və mövqeyi göstərilir.

Əsərdə Bakının, başlıca olaraq, feodal şəhərinin inkişafında əsas amil olan sosial-iqtisadi həyatı, yəni 2000 il ərzində istehsalın, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı araşdırılır. Orta əsr şəhərinin feodal cəmiyyətinin daxili quruluşu məsələləri ilk mənbələrin və maddi mədəniyyət abidələrinin məlumatları əsasında açıqlanır. Bakının təkcə Azərbaycanın deyil, eləcə də bütün Yaxın Şərqin iri şəhərlərindən birinə, Xəzər dənizində Şərq və Qərblə tranzit ticarətdə iştirak edən birinci limana çevrildiyi Dərbəndilər sülaləsi şirvanşahlarının hakimiyyəti dövründəki parlaq tarixi açılıb göstərilir.

Əsər Şərq (ərəb, fars, türk), Azərbaycan (türk), gürcü, rus, Qərbi Avropa mənbələri əsasında yazılmış, numizmatik, epiqrafik və arxeoloji materiallardan geniş istifadə edilmişdir.

Kitab tarixçilər, şərqşünaslar, ali məktəblərin müəllim və tələbələri üçün nəzərdə tutulmuşdur.

Müəllif kimi kitabın redaktoru, Azərbaycan Respublikası EA-nın akademiki Z.M.Bünyadova təşəkkürümü bildirirəm.

MƏNBƏLƏRİN VƏ ƏDƏBİYYATIN MÜXTƏSƏR XÜLASƏSİ

Kitabda, zənnimcə, ən vacib sayılan mənbələr və əsərlər göstərilir.

İstifadə etdiyimiz Şərq (əsasən ərəb və fars) mənbələri əksərən kompilyativ xarakter daşıyır; onlarda tarixlər bir çox hallarda qarışdırılmışdır. Buna görə də, onların məlumatlarına çox tənqidi yanaşmaq lazım gəlmişdir. Həmin mənbələrin Bakı haqqında məlumatları çox müxtəsər olub, adətən, X-XIV və sonrakı əsrlərdə burada neft və duz hasilatına aiddir. Ərəbdilli müəlliflərin – əl-İstəxri, əl-Məsudi, Əbu Dülaf, əl-Müqəddəsi, əl-Biruni, Əbu Həmid əl-Əndəlusi, Yaqut, Zəkəriyyə əl-Qəzvini, Əbü-l-Fida və başqalarının məlumatları bu qəbildəndir. Həmin müəlliflərin həyatı və əsərlərinin xarakteristikası İ.Y.Kraçkovskinin əsərlərinin dördüncü cildində[1] ətraflı işıqlandırılmışdır.

Bakının X-XI əsrlər tarixinə aid ən mühüm mənbələrdən biri "Tarix əl-Bab"dır. Təəssüf ki, XI əsrin son çərəyində yazılmış bu əsərin müəllifinin adı qalmamış, Şirvan və Dərbənd tarixinə aid salnaməsinin isə yalnız türk tarixçisi Münəccimbaşının (1702-ci ildə Məkkədə ölmüşdür) əsərinə daxil edilmiş ayrı-ayrı fəsilləri mühafizə olunmuşdur. Həmin fəsilləri prof. V.Minorski ingilis dilinə tərcüməsi, geniş şərhləri və ərəbcə mətni ilə birlikdə çap etdirmiş, habelə rus dilinə çevirmişdir (biblioqrafiyaya bax).

Atası Bakıdan olan XV əsrin əvvəli ərəbdilli tarixçi Əbdürrəşid ibn Salih ibn Nuri əl-Bakuvinin verdiyi dəyərli məlumatlar qeyd olunmalıdır. Əl-Bakuvinin tarixi-coğrafi "Təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar" ("Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri") əsəri h.806 (1403)-cı ildə yazılmış və dövrümüzədək 1614-cü ildə köçürülmüş və hazırda Paris Milli Kitabxanasında 5299 nömrəsi ilə saxlanılan yeganə əlyazmasında gəlib çatmışdır.[2] Həmin əlyazmasını 1789-cu ildə de Gin bəzi ixtisarlarla fransız dilinə tərcümə etmişdir.[3] Akademik Z.M.Bünyadov əl-Bakuvinin əsərini ərəb dilindən rus dilinə çevirərək 1971-ci ildə nəşr etdirmişdir.

Müxtəlif Şərq ölkələri haqqında məlumat verən əl-Bakuvi Azərbaycanın şəhərlərindən, o cümlədən, ehtimal ki, gəlib gördüyü Bakı şəhərindən çox ətraflı bəhs edir. Əl-Bakuvi şəhər və Abşeron, onun iqlimi, iqtisadiyyatı, neft və duz hasilatı, əhalisi haqqında qiymətli məlumatlar verir. O, dənizin səviyyəsinin xeyli qalxdığını göstərir, şəhərin su ilə təchiz olunmasından danışır, qala tikililərini təsvir edir. Onun Bakı haqqındakı məlumatları orijinaldır. Onlara əvvəlki müəlliflərin əsərlərində rast gəlinmir. İbn İyas XVI əsrin əvvəllərində əl-Bakuvinin məlumatlarını təkrar etmişdir.[4]

Bakının iqtisadiyyatına dair irandilli mənbələr – X əsr anonim müəllifin "Hüdud əl-aləm" (Tumanskinin əlyazması; V.Bartoldun girişi və göstəriciləri ilə V.F.Minorski tərəfindən ingilis dilinə tərcümə və qeydlərlə nəşr olunmuşdur)[5], XIII əsr müəllifi Məhəmməd ibn Nəcib Bəkranın "Cahannamə" (keçmiş SSRİ EA Asiya xalqları İn-tu Leninqrad şöbəsinin əlyazması, C-612; Y.Y.Borşşovski tərəfindən nəşr olunmuşdur), XIII əsrin anonim coğrafiyaşünasının əsəri[6], Həmdullah Qəzvininin (XIV əsr) "Nühzət əl-qülub"[7] və Əmin Əhməd ər-Razinin (XVI-XVII əsrlər) "Həft iqlim"[8] əsərləri də çox qiymətlidir. Həmin əsərlərdə neftin müxtəlif növləri və hasilatı, onun müxtəlif ölkələrə ixracı haqqında məlumat verilir. XIII-XIV əsrlərdə monqol istilaları ilə əlaqədar və Elxanilərin hakimiyyəti dövründə Azərbaycanda və Bakıda baş verən hadisələr Elxanilərin baş vəziri, həkim və alim Rəşidəddinin "Cami əl-təvarix" adlı diqqətəlayiq əsərində təsvir edilmişdir.[9] Köçəri Rumlu tayfasının adlı-sanlı nəslindən olan Azərbaycan tarixçisi Həsən bəy Rumlunun (d.1531/2) çox qiymətli "Əhsən ət-təvarix" ("Tarixlərin ən yaxşısı") əsərində Bakının 1501-ci ildə I Şah İsmayılın qoşunları tərəfindən mühasirəsi və alınmasından, Şirvanda baş verən üsyanlardan ətraflı bəhs olunur, Dərbəndilər sülaləsindən olan şirvanşahların hakimiyyətinə dair məlumat verilir.

Həsən bəy Rumlunun XVI əsrin birinci çərəyindən 80-ci illərinədək verdiyi məlumatlar böyük dəyərə malik ilkin mənbədir.

Həsən bəy Rumlunun on iki cilddən ibarət "Əhsən ət-təvarix" əsərinin hələlik dövrümüzədək bir neçə nüsxədə gəlib çatmış XI və XII cildləri tapılmışdır. Sankt-Peterburq kütləvi kitabxanasında hər iki son cildin mövcud olduğu əlyazması saxlanılır.[10] Bu salnamənin mətni Hindistanda iki cilddə nəşr olunmuşdur: I cild farsca

mətndən, II cild ingilis dilinə müxtəsər tərcümədən ibarətdir.[11] Biz hər iki cilddən istifadə etmişik.

Xandəmir ləqəbli Qiyas əd-din ibn Hümam əd-din əl-Hüseynin-in (1475-ci ildə doğulmuş, təqribən 1536-cı ildə Hindistanda ölmüşdür; XV əsr məşhur İran tarixçisi Mirxondun nəvəsidir) "Həbib əs-siyər fi əxbar əfrad əl-bəşər" ("Görkəmli adamlar haqqında xəbərləri təsvir edən dost") əsərində də Bakının müdafiəsindən (1501-ci il) bəhs olunur. O, Şah İsmayılın yürüşlərini, Bakının alın-masını məddahcasına təsvir edir. Xandəmirin şərhləri dəqiqliyi və faktik materialın zənginliyi ilə seçilsə də o, Həsən bəy Rumluya nis-bətən qeyri-obyektivdir. Əsərin müxtəlif kitabxanalarda çoxlu əlyaz-ması qalmışdır; bir neçə daşbasma nəşri də var.[12]

Farsdilli Azərbaycan tarixçisi İsgəndər bəy Türkman Münşinin (1560/61-1633/34) dəyərli əsərində Bakının I Şah Abbasın haki-miyyəti dövründəki tarixinə aid mühüm məlumatlar verilmişdir. Yaxşı ədəbi təhsil almış İsgəndər Münşi I Şah Abbasın "böyük katibi" vəzifəsində çalışmışdır. Şah arxivlərinə yolu olmasından isti-fadə edən, həmin dövrün siyasi hadisələrinin şahidi və iştirakçısı olan İsgəndər Münşi I Şah Abbasın hakimiyyət tarixinə dair böyük bir əsər yazaraq, onu şahın ölümünədək (1628/29) gətirib çıxar-mışdır. Onun əsəri 1578-1628-ci illər dövrünə aid son dərəcə mühüm ilkin mənbədir.

İsgəndər Münşinin giriş və iki bölmədən ibarət olan "Tarixi-aləm arayi Abbasi" ("Dünyanın bəzəyi Abbasın tarixi") əsərində Azərbaycanda antifeodal üsyanlardan bəhs olunur, ölkənin daxili həyatına dair məlumat verilir. Lakin onun türklərə qarşı hərbi əmə-liyyatlardan və I Şah Abbasın qoşunlarının 1606-cı ildə Bakını tut-masından bəhs edən hekayətləri bizim üçün xüsusilə qiymətlidir.

Biz onun əsərinin Tehranda daş basması üsulu ilə çap olunmuş nəşrindən (h.1314-cü il), habelə L.Bellanın Münşinin əsərinin yığ-cam nəqli olan əsərindən istifadə etmişik.[13]

Tanınmış Azərbaycan alimi və səyyahı Zeynalabdin Şirvani XIX əsrin əvvəllərində Bakının təsərrüfat həyatına, əhalisinə və siyasi tarixinə dair bəzi məlumatlar verir. Z.Şirvani farsca yazdığı "Büstan üs-səyahə" və "Riyaz üs-səyahə" adlı coğrafi əsərlərində 25 illik səyahəti ərzində gəzib dolaşdığı Şərq ölkələrini təsvir

etmişdir. O, alimlər, şairlər, müxtəlif müsəlman təriqətləri və təlimləri haqqında geniş məlumat verir.[14]

Bakı xanları nəslindən olan, rus ordusunun polkovniki, məşhur Azərbaycan tarixçisi Abbasqulu Ağa Bakıxanovun (1794-1846-cı illər) əsəri Bakının xanlıqlar dövrü (1743-1813) tarixinə dair çox qiymətli mənbədir. O, 1840-cı ildə farsca yazdığı "Gülüstani-İrəm" əsərini özü rus dilinə tərcümə etmişdir.

Bakıxanovun bir neçə əlyazmasında məlum olan əsərinin 1926-cı ildə rus, 1951-ci ildə isə Azərbaycan dillərində tərcüməsi nəşr olunmuşdur. Müəllif bu əsərdə Şərq və Qərbi Avropa müəlliflərinin məlumatlarından istifadə edərək, Şirvan və Dağıstanın ta qədim zamanlardan 1813-cü ilə qədərki tarixini əks etdirmişdir. Onun əsərinin XVIII əsrin sonundan 1813-cü ilə qədərki hadisələrdən bəhs edən hissəsi həmin ölkələrin o dövr tarixinə dair ilkin mənbədir. Müstəqil xanlıqların tarixini işıqlandıran müəllif, əsasən, feodal çəkişmələrindən bəhs edərək, sosial münasibətlərə nadir hallarda toxunur. Biz əsərin 1970-ci ildə nəşr olunmuş farsca mətnindən istifadə etmişik.

Ölkənin inzibati quruluşundan danışarkən biz XVIII əsrin birinci çərəyində naməlum müəllifin farsca yazdığı və V.F.Minorski tərəfindən giriş, şərhlər və ingilis dilinə tərcüməsi ilə birlikdə nəşr olunmuş "Təzkirət əl-müluk" ("Məliklər üçün yaddaş") əsərinə müraciət etmişik.[15]

Feodal Bakısının tarixinə dair narrativ mənbələr arasında türk müəlliflərinin əsərləri də, xüsusilə XVII əsr məşhur türk səyyahı Övliya Çələbi ibn Dərviş Məhəmməd Zillinin (1611-1682) yol qeydləri mühüm yer tutur.[16]

Mükəmməl təhsil alan Övliya Çələbi bir neçə il İstambulda sultan IV Muradın sarayında xidmət etmişdir. O, səfirliyin üzvü və xüsusi tapşırıqlar üzrə məmur kimi Yaxın və Orta Şərqin bir sıra ölkələrində olmuşdur. Çələbi özünün zəngin təəssüratlarını oncildlik "Səyahətnamə" əsərində əks etdirmişdir. "Səyahətnamə"nin[17] ikinci cildində Çələbi 1647-ci ildə səfərdə olduğu Azərbaycan, Gürcüstan və Ermənistanın şəhər və kəndlərindən ətraflı bəhs etmişdir. Övliya Çələbi o dövrdə Bakının iqtisadiyyatına, sosial həyatına, siyasi hadisələrinə dair məlumat verir, Abşeronda çıxarılan neftin müxtəlif növlərindən, becərilən kənd təsərrüfatı bitkilərindən,

oranın ticarətindən, ixracat mallarından ətraflı danışır, şəhərin qala divarlarını və zahiri görünüşünü təsvir edir. Övliya Çələbi, bundan əlavə, etnoqrafik xarakterli məlumatlar da verir. Onun Bakı haqqında məlumatları orijinal olub, başqa mənbələrdə rast gəlinmir və XVII əsrin birinci yarısında Bakının sosial-iqtisadi və siyasi tarixini araşdırmaq baxımından dəyərli materiallardır. Türk tarixçiləri Katib Çələbi və İbrahim Pəçəvi də Bakı haqqında bəzi məlumatlar vermişlər. Türk tədqiqatçısı B.Kütükoğlu mənbələr əsasında Türkiyə – Səfəvi müharibələri haqqında, Osmanlıların Bakını işğal etməsi dövrünə aid olduqca qiymətli məlumatlar vermişdir.[18] Biz özlərinin yol qeydlərində XIII-XVIII əsrlərdə Bakının təsərrüfat həyatını, sosial münasibətlərini və siyasi tarixini əks etdirən Qərbi Avropa səyyahlarının da məlumatlarını veririk. Ticarət üçün və diplomatik məqsədlərlə Azərbaycana gəlmiş italyan – Venesiya və Genuya səyyahları Marko Polo (XIII əsr), Barbara Kontarini, Ancolello və Donato da Lezenin (XV əsr) yol qeydlərində Abşeronda neft hasilatına, ondan təsərrüfat həyatında və müalicə məqsədi ilə istifadə olunmasına, Bakı şəhərində ticarətə dair müxtəsər məlumatlar vardır. XIV-XVII əsrlərdə Azərbaycana Fransanın Şərqdə müstəmləkə siyasəti ilə əlaqədar buraya can atan fransız səyyah-tacirlərinin əlaltıları olan katolik missionerləri ayaq açmağa başladı. Şərq ölkələrini təkcə kommersiya deyil, həm də, öz hökumətlərinin siyasi tapşırıqlarını yerinə yetirmək, habelə bu ölkələrdə katolikliyi yaymaq məqsədilə gəzib dolaşan həmin missionerlərin yol qeydləri, tendensiyalı və subyektiv xarakter daşımasına baxmayaraq, Azərbaycanın, eləcə də Bakının tarixi üçün mühüm əhəmiyyət kəsb edir. Avropa səyyahlarının məlumatları Şərq müəlliflərinin verdikləri məlumatları xeyli dərəcədə tamamlayır.

XIV əsrin birinci yarısında monqollar arasında katolikliyi yaymaq imkanının yollarını öyrənmək məqsədilə Şərqə səyahətə çıxmış fransız missioneri rahib Jurden Katalani de Severakın yol qeydlərində[19] onun 1320-ci ildə gəlib keçdiyi Ermənistan, Azərbaycan və Gürcüstan haqqında müxtəsər məlumat verilir. O, qeydlərində Bakını və onun neft mənbələrini də xatırlayaraq, Bakı neftinin müalicəvi xassələrini göstərir.

XVII əsr fransız missionerlərinin xatirələrində neft hasilatı ilə yanaşı, Bakı bölgəsində becərilən kənd təsərrüfatı bitkiləri haqqında

da məlumat verilir. Onların öz adını çəkməyən birisi, İrandakı yezuit missioneri Fransada abbat Flerionun ünvanına məktub şəklində bir məlumat tərtib etmişdir.[20] Müəllif XVII əsrin sonlarındakı Şirvanı təsvir edərək, Azərbaycan şəhərləri, o sıradan Bakı haqqında müəyyən məlumatlar verir. Çinə quru ilə ən kəsə yol tapmaq məqsədilə Şərqə səyahətə çıxmış fransız yezuiti rahib Villotun qeydləri çox maraqlıdır.[21] Müəllif Azərbaycana 1689-cu ildə gəlmiş, Gəncədən keçib Şamaxıya getmiş, beş ay burada yaşadıqdan sonra oradan cənuba, Kür, Araz çaylarından və Muğandan keçərək İrana getmişdir. Görünür, müəllif özü Bakıda olmamış, lakin onun haqqında ruhani ata Lamazın dilindən məlumat vermişdir. O, ölkənin inzibati quruluşundan, Abşerondakı kəndlərin sayından, burada becərilən kənd təsərrüfatı bitkilərindən, neft və duz hasilatından, bitki və heyvanlar aləmindən və s. danışır.

XVII əsrdə İrandakı karmelitlər salnaməsində[22] ölkədə məhsuldar qüvvələrin vəziyyətindən, XVII əsrin əvvəllərində I Şah Abbasın qızılbaşları Bakını türklərdən alarkən orada baş vermiş dağıntılardan bəhs edilir. Salnamədə Şirvan bəylərbəyi Zülfüqar xanın Papa V Pavelin gizli tapşırıqla I Şah Abbasın yanına göndərdiyi missionerlər üçün düzəltdiyi qəbul təsvir olunur və etnoqrafik xarakterli maraqlı məlumatlar gətirilir.

1603-1607-ci illərdə Şirvanda baş verən hadisələrin şahidi olmuş Portuqaliya missioneri, avqustinli Antuan de Quveanın xatirələrində[23] XVII əsrin əvvəllərində I Şah Abbasın türklərlə apardığı müharibələr müfəssəl təsvir edilmişdir. Onun verdiyi məlumatlar İsgəndər Münşinin məlumatlarını tamamlayır və onları tutuşdurmağa imkan verir.

XVI əsrdə Avropa tacirlərinin Şərq ölkələri ilə ticarət əlaqələrinin canlanmasıyla bağlı olaraq Avropa səyyahlarının uzaq ölkələrə – Hindistana və Çinə getmək cəhdləri xeyli genişləndi. Şərq ölkələrinin malları Avropaya ta qədimdən çox baha başa gələn və xeyli vaxt aparan quru karvan yolları ilə gedib çıxırdı. Lakin XVI əsrdən etibarən Volqa-Xəzər yolu adlandırılan dəniz ticarət yolu mənimsənilməyə başladı. XVI əsrdə ingilis səyyah-tacirləri dəniz yolunu öyrənmək məqsədilə Azərbaycana səfər etdilər. 1561-1563-cü illərdə İngiltərə ticarət şirkətinin agentlərindən biri – Cenkinson Azərbaycana gələrək bir sıra şəhərlərdə oldu.[24] O, öz xatirələrində

iqtisadi-coğrafi xarakterli məlumatlar verərək, Bakının da adını çəkir. 1573-cü ildə Bakıda olmuş Deket Ceffri Abşeronda çoxlu neft hasil edilməsindən danışır.[25] 1580-ci ildə göstərilən şirkətin Şirvana gəlmiş başqa bir qulluqçusu – Xristofor Berrou Azərbaycanda türk işğalı ilə bağlı siyasi hadisələr haqqında məlumat verir.[26] O, Bakı şəhərinin "rəisinin"[27] onun şərəfinə düzəltdiyi qəbulu təsvir edir, Abşeron kəndlərinin məişətinə dair bir sıra məlumatlar verir.

XVII əsrin sonunda Bakı şəhərinin sosial-iqtisadi tarixini işıqlandıran Qərbi Avropa səyyahları arasında İsveç səfirliyinin katibi sifəti ilə Moskva dövlətində və İranda olmuş alman səyyahı, təbiətşünası və həkimi Engelbert Kempfer mühüm yer tutur. 1683-cü ildə Bakıda olmuş Kempfer şəhəri olduqca ətraflı və dəqiq təsvir etmişdir. O, həmçinin neft və duz mədənlərinə, Abşeronda yanar qazların çıxmasına baxmış, Bakı və Abşeronun iqtisadiyyatına, sosial həyatına, etnoqrafiya, memarlıq və məişətinə dair bir sıra dəyərli məlumatlar vermişdir. Onun əsəri latın dilində nəşr edilmişdir.[28]

XVIII əsrdə Bakının iqtisadi inkişafının ümumi səciyyələndirilməsində Qərbi Avropa səyyahlarının həmin dövrə aid xatirələri qiymətli mənbələrdir. Bu müəlliflərin feodal münasibətlərinə, sosial quruluşa dair məlumatlarına gəldikdə isə onlar çox qısa və pərakəndədir və Şərq mənbələrinin verdiyi məlumatlarla tutuşdurulmalıdır. XVIII əsrdə Bakıda olmuş, əsərlərində şəhərin sosial-iqtisadi və siyasi həyatına dair mühüm məlumatlar vermiş səyyahlar arasında holland rəssamı De Brüini (1703), Hindistandan Əfqanıstana, sonra isə İrana və Azərbaycana gəlmiş ingilis C.Forsteri (1784), Şərq ölkələrini gəzmiş fransız səyyahı Q.Olivyeni (1798), alman botanika alimi M.Fon Biberşteyni və bir sıra başqalarını qeyd etmək lazımdır. Onların hər birinin əhəmiyyəti üzərində dayanmaq imkanımız olmadığından M.A.Poliyevktovun bu mövzuya həsr olunmuş xüsusi əsərinə isnad edirik.[29]

Rus mənbələrindən Bakı şəhərinin tarixi üçün böyük əhəmiyyətə malik olanı I Pyotr dövründə Xəzəryanı bölgələrə yürüşün iştirakçıları – F.İ.Soymonovun[30] və İ.Q.Gerberin[31] qeydləridir. Onlar Bakı və Abşeronun iqtisadiyyatına dair məlumatlar vermiş, I Pyotrun qoşunları şəhəri alarkən baş verən hərb səhnələrini şahid kimi təsvir etmişlər. Həmin müəlliflərin xatirələri, tendensiyalılığına baxmayaraq, mühüm əhəmiyyətə malikdir. İşğal olunmuş Xəzəryanı bölgələr-

dəki rus qoşununda həkim işləmiş İ.Lerx də (1733) Bakının sosial-iqtisadi həyatına dair bəzi məlumatlar qoyub getmişdir.

Rusiya Elmlər Akademiyasının üzvü, elmi ekspedisiya ilə İranı və Azərbaycanı tədqiq etməyə göndərilmiş S.Q.Qmelin[32] 1770-ci ildə Bakıda olmuş və onu ətraflı təsvir etmişdir.

P.Q.Butkovun XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərinin tarixinə aid mənbə kimi istifadə etdiyimiz "Qafqazın 1722-ci ildən 1803-cü ilə qədər yeni tarixinə dair materiallar" əsəri də mövzumuz üçün müəyyən əhəmiyyətə malikdir. XVI-XVIII əsrlərdə ölkənin sosial münasibətlərinə, inzibati quruluşuna dair məsələlər mühafizə olunmuş fərmanlar[33], epiqrafik kitabələr[34], "Təzkirət əl-müluk", habelə dü Man, Sanson, de Teveno Herbert və başqalarının əsərləri əsasında araşdırılmışdır.

Bakının erkən dövr – V-VII əsrlər tarixi üçün mənbələr, Anani Şirakatsinin əsərləri, A.Sukrinin nəşr etdirdiyi "VII əsr erməni coğrafiyası", Gevondun "Xəlifələrin tarixi" və b. əsərlər mühüm əhəmiyyətə malikdir. XII əsr gürcü mənbələri – "Tacdarların vəsfi" və "Kartlis Tsxovreba"da, XI-XII əsrlərdə Şirvanda baş vermiş hərbi hadisələr tendensiyalı təsvir olunmasına baxmayaraq, çox əhəmiyyətlidir.

Əsərdə görkəmli alimlər V.V.Bartold, İ.Y.Kraçkovski, V.A.Qordlevski, İ.P.Petruşevski, A.Y.Yakubovski və Ş.A.Mesxianın, tanınmış rus və əcnəbi şərqşünaslar B.A.Dorn, N.V.Xanıkov, V.F.Minorski, Hadi Həsən, d'Osson, L.Bellan, Ç.Dauset və başqalarının tədqiqatlarından geniş istifadə olunmuşdur. Azərbaycan tarixçiləri Ə.Ə.Əlizadənin, Ə.Ə.Ələsğərzadənin, İ.H.Əliyevin, Z.M.Bünyadovun, V.N.Leviatovun, Ə.Ə.Rəhmaninin, O.Ə.Əfəndiyevin, arxeoloqları İ.M.Cəfərzadənin, S.M.Qaziyevin, V.M.Sısoyevin, O.Ş.İsmizadənin, Q.M.Əhmədovun, Q.M.Aslanovun, F.İbrahimovun, tarixçi-numizmatları Y.A.Paxomovun, Ə.Rəcəblinin, M.Seyfəddinin, S.Dadaşovanın, memarları S.Ə.Dadaşovun, M.Ə.Hüseynovun, L.S.Bretanitskinin, Ə.V.Salamzadənin tədqiqatlarını və əsərlərini göstərmək vacibdir.

Yuxarıda qeyd etdiyimiz kimi, V.M.Sısoyevin 1928-ci ildə çap olunmuş "Bakı keçmişdə və indi" adlı kiçicik (85 səh.) elmi-kütləvi işi istisna olunmaqla indiyədək Bakının tarixinə dair nə ölkəmizdə, nə də xaricdə xüsusi əsər yazılmamışdır. Adı çəkilən

kitabçanın 44 səhifəsi Bakının Rusiyanın tərkibinə qatıldığı dövrə qədərki orta əsrlər tarixinə ayrılmışdır. Həmin kiçik oçerkdə Bakının keçmişi ilə bağlı hadisələrdən bəhs olunur və bəzi memarlıq abidələri haqqında məlumat verilir. Əsərdə sosial-iqtisadi həyat və mədəniyyət məsələlərinə toxunulmur. Bundan əlavə, burada bir sıra nöqsanlara və səhvlərə yol verilmişdir: məsələn, Bakının adı "bad" – külək və "kuh" – dağ sözləri ilə izah edilmişdir; "İsgəndərnamə"də Makedoniyalı İsgəndərin Bakıya gəlməsi səhvən şair Nizamiyə isnad edilir; Həmdüllah Qəzvininin daş yarğanındakı qala haqqında məlumatı V.M.Sısoyevin iddia etdiyi kimi Bakıya deyil, Makuya aiddir və s.

Əsəri yazarkən istifadə etdiyimiz ən mühüm mənbələri nəzərdən keçirdik.

Lapidar mənbələrə aid materiallar Ə.Ə.Ələsgərzadənin, M.X.Nemətovanın, S.Kərimzadənin əsərlərindən götürülmüşdür.

Bu əsərin müəllifinin Bakının tarixi ilə bağlı bir sıra məsələlərə dair araşdırmaları dərc olunmuşdur.

GİRİŞ

Azərbaycan bəşər sivilizasiyasının ən qədim beşiklərindəndir (Tur Xeyerdal). Qarabağın dağlıq bölgəsində, Qarabulaq deyilən yerdəki (indiki Füzuli rayonu) Azıx mağarasında Paleolit dövrünə aid qədim preneandertal insanın dünyada ən qədim düşərgələrindən biri tapılmışdır. Onun 1,5 milyon il yaşı var.[1] Çoxtəbəqəli (təqribən 14 metr qalınlığında 10 təbəqə) Azıx mağarasında aparılan arxeoloji qazıntılar zamanı onun qədim sakinlərinin tarixə qədərki dövrdə həyat tərzini səciyyələndirən heyvan və bitki qalıqları, ocaqlar aşkara çıxarılmışdır.

V təbəqədə qazıntı zamanı adam sümüklərinin qalıqları – təqribən 400 min il bundan əvvəl yaşamış 18-22 yaşlı gənc qadının alt çənə sümüyünün bir hissəsi tapılmışdır.[2]

Azıx mağarasındakı arxeoloji tapıntılar Cənubi Qafqazda insanın 1,5 milyon il bundan əvvəl, Aşağı Paleolit dövründə, çay daşı mədəniyyəti – Quruçay mədəniyyətindən başlayaraq Mustye mədəniyyətinin əvvəlinədək (eramızdan 100 min il əvvəl) – dövründən yaşadığını təsdiq edir.[3] Paleolit dövrünün digər diqqətəlayiq abidələrindən biri də M.M.Hüseynov və A.K.Cəfərov tərəfindən aşkar edilmiş və qədim insanın Azərbaycanda 100 min il bundan əvvəl məskunlaşdığını sübut edən çoxtəbəqəli Tağlar mağara-düşərgəsidir. Tağlar mağarasının 6 mədəni təbəqəsində daş alətlər, heyvan və insan qalıqları tapılmışdır. Tağlar materialı daş alətlərin, Mustye dövründən başlayaraq Yaxın Şərqlə – İran və İraqla əlaqələrin inkişaf mərhələlərini izləməyə və burada daş alətləri – Tağlar tipli ərsini ayırd etməyə imkan verir.[4]

Bakı şəhərindən 60 km cənub-qərbdə yerləşən Qobustan Mezolit (Orta Daş dövrü), Neolit (Yeni Daş dövrü), Tunc, Dəmir dövrlərindən başlayaraq son orta əsrlərə qədərki tarixi mərhələni əhatə edən nadir abidədir. Yer kürəsinin müxtəlif qitələrində aşkar edilmiş qaya təsvirləri içərisində Azərbaycan xalqının qədim dövr tarixinin öyrənilməsində qiymətli mənbə olan Qobustan petroqlifləri böyük

maraq doğurur. Azərbaycan Respublikası EA Tarix İnstitutunun İ.M.Cəfərzadənin rəhbərliyi ilə arxeoloji ekspedisiyaları tərəfindən 1947-1965-ci illərdə Qobustan rayonunun cənub-şərq hissəsində Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları və Yazılıtəpə hüdudlarında 750-dən çox qayanın üzərindəki dörd mindən yuxarı insan, heyvan, balıq, bütöv kompozisiyalı rəsmlər, kasavarı batıqlar və s. aşkar edilib öyrənilmişdir.[5] C.N.Rüstəmovun başçılığı ilə Qobustanda və yeni aşkar edilmiş Şonqardağ və Şıxqaya rayonlarında üzərində 2000 rəsm olan daha 300 daş tapılmışdır[6].

1986-cı ilədək artıq altı minədək qaya təsviri var idi. Qobustan petroqlifləri Cənubi Qafqazın şərqinin böyük bir dövr (e.ə. 10 000 ildən çox) ərzində – Mezolitdən son orta əsrlərədək – illüstrasiyalı tarixidir. Bəzi tədqiqatçıların (İ.M.Cəfərzadə, A.A.Formozov) fikrincə petroqliflərdə əks olunmuş süjetlərin dairəsi Qobustan təsvirlərinin ibadət xarakteri daşıdığını göstərir. Onlar qədim insanın öz icmasının rifahını bilavasitə bağladığı əfsun-ovsun mərasimlərinin tərkib hissəsi idi.[7]

Qobustanın qədim daşlarında uzaq keçmişdəki nəsillərin həyat lövhələri – qadının başçılıq etdiyi əkin, kollektiv əmək; ov, döyüş, kişinin qız, yaxud qadın qaçırması səhnələri, qaya rəsmlərini həkk edənlərin əhatəsindəki heyvanat aləminin təsviri əksini tapmışdır. Qobustan və Abşeron bölgəsində vəhşi heyvan ovlayan qədim insan daş və qaya üzərində gördüyü və ovladığı heyvanların şəklini həkk edirdi. Adsız rəssamlar bir neçə min illər ərzində qaya təsvirlərində qədim qəbilə adamlarının fəaliyyətinin, həyat və məişətinin müxtəlif cəhətlərini əks etdirmişlər. Qobustan qayalarında dini ayinlər, qurbankəsmə, "Yallı"nı xatırladan mərasim rəqsləri bol təmsil olunmuşdur. Bu Daş dövrü rəsmləri dünyanın ən qədim incəsənət – qrafika, rəssamlıq, rəqs, musiqi və s. örnəkləridir. Qaya rəsmləri Qobustanın qədim sakinlərinin təsərrüfatından, məişətindən, incəsənətindən söhbət açır. Qobustan petroqliflərində qədim insanların təsərrüfat həyatının, məişətinin, dünyagörüşünün başqa mənbələrdən təsəvvür əldə etmək mümkün olmayan cəhətləri əksini tapmışdır.

Daş dövründə Qobustanın landşaftı isti və rütubətli iqlimə, zəngin bitki və heyvanlar aləminə, bol yem ehtiyatına malik savannadan ibarət idi. Burada iri və vəhşi öküz, saqqallı keçi, maral, vəhşi

at, gur ceyran sürüləri var idi; şir (yaxud pələng), canavar, çöldonuzu və digər heyvanlara da rast gəlinirdi.[8]

Dənizin yaxınlığı və balıq ehtiyatının bolluğu Mezolit dövründə Qobustan bölgəsində yığıcılıq və ovçuluqla məşğul olan qəbilələrin yaşayış yerlərinin oturaq xarakter daşıdığını ehtimal etməyə imkan verir. Balıq rəsmləri balıqçılığın mövcud olduğunu göstərir. Qobustanda torla balıq (ağbalıq) tutulmasının təsvir edilməsi, Mezolit laylarındakı balıq (ağbalıq və digər nərə balıqları) və suiti sümüklərinin qalıqları e.ə. X-IX minilliklərə aid edilir və şəksiz, Qafqazın bütün ərazisində ən erkən inkişaf etmiş dəniz ovçuluğuna sübutdur.[9] Suiti sümüyünün tapılması çox maraqlıdır. Suiti əti çətin ki, yeyilmiş olsun. Ehtimal ki, suitinin yağından işıqlandırma vasitəsi, dərisindən isə paltar kimi istifadə edilmişdir. Strabon (I əsr) massagetlərdən danışarkən yazırdı: "Bataqlıq adamları balıqla qidalanır və burada dənizdən keçən suiti dərisi geyirlər".[10] Görünür Qobustanın qədim sakinləri suiti dərisindən paltar kimi istifadə etmişlər.

E.ə. VI-IV minilliklərdə təsərrüfat fəaliyyətinin yeni sahələri – əkinçilik və maldarlıq qədim qəbilələrin istehsal həyatına möhkəm daxil oldu.[11]

C.N.Rüstəmov və F.M.Muradovanın Qobustanda apardığı arxeoloji qazıntılar Daş-Mezolit və Neolit dövrlərində qəbilələrin uzun müddət bu bölgənin qayaaltı mağaralarında yaşaması ehtimalını təsdiq edir. Qəbilələrin Tunc dövrünün (e.ə. III minilliyin əvvəlindən I minilliyədək) qədim yaşayış yerlərində uzun müddət yaşadığını Ana zağa, Çardağ zağa daşaltı sığınacaqlarının, Firuz düşərgəsinin, habelə dairəvi planlı möhkəmləndirilmiş Dairə, təbii istehkam olan Böyükdaş yaşayış yerlərinin materialları təsdiq edir. Ana zağa mağarasında mədəni təbəqənin altında bəzək şeyləri xırda çaydaşından, habelə molyusk çanağından deşmə yolu ilə hazırlanmış asmalar tapılmışdır.

Məlumdur ki, qədim insanlar balıqqulağından boyunbağı, ehtimal ki, həm də mübadilə vasitəsi kimi istifadə etmişlər. Bu balıqqulaqları içərisində Qobustandakı 6№-li kurqandan tapılmış "kauri" adlandırılan balıqqulağı növü tropik dəniz və okeanlara (Hind okeanı) məxsusdur.[12] Bu, Qobustanda yaşayan tarixə qədərki insanların hələ uzaq erkən – Tunc dövründə okean dünyası ilə əlaqəsindən xəbər verir.

Naxçıvan Muxtar Respublikası
Kitabxanası

Qazıntı zamanı qalıqları tapılmış qırmızı oxradan bəzək materialı kimi, habelə qaya təsvirlərini rəngləmək məqsədilə istifadə olunmuşdur. Böyükdaş dağının yuxarı hissəsində qırmızı oxra ilə işlənmiş, üzərinə xallı bəbirə oxşar vəhşi heyvanın hücum etdiyi buynuzlu maral təsviri tapılmışdır.[13]

Qobustanın Tunc dövrü kurqanları arxeoloq F.M.Muradova tərəfindən tədqiq olunmuşdur. Bu yaşayış yerlərinin mədəni təbəqələri arxeoloji materiallarla – çoxlu keramika, yapma qab qırıntıları, dən daşları, toxa, yığma oraq dişləri və s. əmək alətləri ilə, silahlarla – ox və nizə ucluqları, toppuzlar, xəncər tiyələri – zəngindir.[14]

E.ə. III-I minilliklərin hüdudunda Azərbaycanın əhalisi artıq metalla, əkinçilik və maldarlıqla tanış idi. E.ə. III minillikdən etibarən Azərbaycanın yerli qəbilələrinin təsərrüfatı müvəffəqiyyətlə inkişaf edirdi. Təsərrüfatın əsasını metallurgiyanın inkişafı ilə yanaşı, heyvandarlıq, istər iri, istərsə də xırda buynuzlu mal-qaranın yetişdirilməsi təşkil edirdi.

Qobustanın qaya təsvirləri bu dövrün zəngin heyvanlar aləmini əyani şəkildə illüstrasiya etdirir, at təsviri isə ondan e.ə. IV minillikdə təsərrüfatda istifadə olunmasından xəbər verir.[15] Əlində oraq tutmuş biçinçi rəsmi əkinçiliyin inkişaf etdiyini göstərir. Arxeoloji qazıntılar zamanı qayaaltı mağaralardan tapılan çoxlu (xüsusilə, tunc) əşyalar həmin dövrdə metallurgiyanın inkişafına dəlalət edir. Bunu qaya rəsmlərində əlində silah – üçbaşlı əsa, nizə, balta və s. tutmuş insan təsvirləri də təsdiqləyir.[16]

Qobustan kurqanlarının mədəni təbəqələrində keramika, əmək alətləri və silahlarla yanaşı, bəzək şeyləri – tunc qolbağılar, müxtəlif yarımqiymətli daşlardan hazırlanmış çoxlu muncuqlar və ehtimal ki, Misirdən, Hindistandan və İrandan gətirilmə şüşə muncuqlar[17] da aşkar edilmişdir. Azərbaycanda aparılan qazıntılar zamanı tapılmış həmin gətirilmə bəzək şeyləri ölkəmizin İran vasitəsilə Qədim Şərq ölkələri – Suriya, Finikiya, Misir və Hindistanla çox qədim əlaqələrini sübut edən qiymətli mənbələrdir. Qafqaz və Azərbaycanın qədim qəbilələri Qədim Şərq sivilizasiyası ölkələri ilə təkcə Assuriya, Mesopotamiya, İran, Misir və Hindistan vasitəsilə dənizlə deyil, eləcə də, şimalda Dərbənd, cənubda isə Naxçıvan vasitəsilə quru – karvan yolu ilə əlaqə saxlayırdılar.

Qobustanda Böyükdaş dağının aşağı hissəsində içərisində avar-çəkənlər, oxla silahlanmış adamlar oturmuş çoxlu qayıq rəsmləri var. Qayıqların burun tərəfində şüa saçan günəş şəkli çəkilmişdir. Onlardan daha aydın seçilən ikisi Xəzər dənizinin səviyyəsinin indiki qayalıqların həndəvərinə çatdığı e.ə. III minilliyə aid edilir. Eramızdan təqribən dörd min il əvvəl Xəzər dənizinin səviyyəsi daha yüksək olmuş, yuxarı hissədə qədim insanın mağarasını tez-tez su basmışdır. Buradakı mədəni təbəqələrdə üzərində Daş dövrü adamlarının qamış qayıqlarının ibtidai təsviri olan uçulub tökülmüş yastı əhəngdaşı parçaları qalmışdır. Onlar təbəqələrinə görə, İ.M.Cəfərzadənin fikrincə, e.ə. VI minilliyə aid edilə bilər. Qayıqların Qobustan qayalarının arasına yanaşdırılıb bağlandığını buradan tapılmış və Qobustan muzeyində saxlanılan lövbərə bənzər daşlar sübut edir. Qobustan qoruğunda olmuş və İ.M.Cəfərzadənin fərziyyəsini təsdiq etmiş məşhur Norveç tədqiqatçısı Tur Xeyerdalın fikrincə dərin dibli qayıqların gövdəsi hörmə qamış gəmilər üçün səciyyəvidir. Görünür, bu ehtimal tamamilə mümkündür, belə ki, VII əsr mənbəyində[18] göstərildiyi kimi, Abşeronda və Azərbaycanın digər yerlərində böyük qamışlıqlar var idi. İ.M.Cəfərzadə qayıqların bəzilərini daha erkən dövrə – e.ə. VI minilliyə, bir qismini isə e.ə. V-IV minilliklərə aid edir. Belə bir fərziyyə yürüdülmüşdür ki, qayıqların birində ölülərin aparılması mərasimi təsvir olunmuşdur. Bəzi tədqiqatçıların fikrincə isə həmin rəsm günəşlə bağlı Misir əsatirini əks etdirir.

İ.M.Cəfərzadənin fikrincə, içərisində oxla silahlanmış adamlar olan qabaqdakı qayıq ardınca yedəyə aldığı ikinci bir qayığı, o isə öz növbəsində üçüncü kiçik bir qayığı dartıb aparır. Tədqiqatçılara görə, burada içərisində silahsız adamlar, ehtimal ki, əsirlər oturmuş iki qayığın çəkilib aparılması təsvir olunmuşdur.[19]

Qaya təsvirlərindəki gəmi rəsmləri, şübhəsiz, Tunc dövründə və ondan daha əvvəllər (e.ə. VI-III minilliklər) Xəzərin qərb sahilində gəmiçiliyin mövcud olduğunu, qayıqların burnundakı günəş şəkli isə, ehtimal ki, dəniz yolunun səmtini – şərqi, gündoğanı göstərir.

İkitəkərli araba rəsmi (Yazılıtəpə, 55-ci daş)[20] e.ə. II minilliyə aid edilir. Karvan dəvələri, araba və at rəsmləri Qobustanı Qafqaz və İranın bir sıra qonşu ölkələri ilə birləşdirən quru karvan yollarının,

Mezolit, Neolit və Tunc dövrlərində qəbilələrarası mübadilənin mövcudluğuna dəlalət edir.

Qobustan qaya təsvirlərinin mövzu və süjet rəngarəngliyi, habelə xronoloji təbəqələşməsi Mezolitdən, Neolitdən, Tunc və Dəmir dövrlərinin bütün mərhələlərindən başlayaraq, son orta əsrlərə qədərki arxeoloji materiallarla birlikdə qədim insanın düşərgə və məskən saldığı bu yerdə uzun müddət yaşadığını göstərir.

Yuxarıda göstərilən materiallar Daş (Mezolit, Neolit), Tunc dövrlərində və daha sonralar Abşerona və Bakıya çox yaxın bölgədə yaşamış qədim insanın həyatından, məişətindən, maddi və mənəvi mədəniyyətindən söhbət açır.

1991-ci ildə Qız qalasının yaxınlığında arxeoloji qazıntı zamanı qayanın səviyyəsində Azərbaycanın digər rayonlarındakı anoloji əmək alətlərinə – ərsin və bıçağa oxşayan iki çaxmaqdaşı parçası tapılmışdır. Onlar Mezolit və Neolit dövrlərinə (e.ə. 12000-8000-ci illər) aid edilir. Bu materiallar köhnə Bakı qalasında qədim yaşayış məskəni olduğunu sübut edir*.

---

* Bakı arxeologiya ekspedisiyasının rəisi Fərhad İbrahimov. Bakıda 1991-ci il arxeoloji qazıntılarının nəticələri.

I Fəsil

ARXEOLOJİ MƏLUMATLAR ƏSASINDA ABŞERONUN VƏ BAKININ ERKƏN TARİXİ

Qobustanın yaxınlığındakı mərkəzi Bakı olan Abşeron yarımadası da qədim insanın məskunlaşdığı ərazilərdəndir. Paleontoloji və arxeoloji tədqiqatlar göstərmişdir ki, dördüncü dövrdə (təqribən yüz min il bundan əvvəl) Abşeronda müxtəlif qazıntı heyvan növləri yaşamışdır.[1] Keşlə, Binəqədi, Digah, Xırdalan və s. kəndlərin yaxınlığında çoxlu miqdarda dünyada kökü çoxdan kəsilmiş heyvan sümükləri, habelə quş, həşərat və bitki qalıqları aşkar edilmişdir.[2] Bakıdan azacıq aralı, Keşlə kəndi yaxınlığındakı daş karxanasında atın çənəsi və kəllə sümüyü, qədim kaftar kəlləsi, dördüncü dövrə aid edilən kərgədan skeletinin bir hissəsi aşkar olunmuşdur.[3] Pirallahı adasında qır qatlarında qazıntı maral kəlləsi üzə çıxarılmışdır.[4] Digah kəndi yaxınlığında nəhəng ibtidai öküz-tur kəlləsi tapılmışdır.[5]

Bakının 7-8 kilometrliyindəki Binəqədi kəndi yaxınlığındakı paleontoloji qazıntılar daha zəngin material vermişdir. On min illər bundan əvvəl Binəqədi kəndinin yerləşdiyi təpənin ətəklərində sahilləri qara neft layı ilə örtülmüş şirin sulu göl yaranmışdır. O vaxtlar Abşeronun relyefi "savanna landşaftı"ndan, yəni ardıc, cır armud, püstə ağaclıqları olan çöllükdən ibarət idi. İqlimi rütubətli idi. Göl qamışlıqla əhatə edilmişdi. Yarımsəhra yerlərdə müxtəlif tarixəqədərki vəhşi heyvanlar gəzib-dolaşırdı. Gölün üzərindən köçəri quşlar uçurdular. Heyvanlar su içmək üçün bu gölün qırağına gəlirdilər. Lakin təmiz su sahildən uzaqda olduğundan heyvanlar suya çatmaq üçün sahilyanı neft layından keçməyə çalışırmışlar, lakin qatı yapışqan neft onları çəkib udur və öz kütləsində batırırdı. Binəqədi neftli gölü zaman keçdikcə tədricən quruyaraq qalın qır yatağı əmələ gətirmişdir. Binəqədi kəndinin yaxınlığındakı qır qatlarında tarixəqədərki müxtəlif heyvanların qalıqlarının toplandığı qəbiristanlıq belə yaranmışdır.[6] Burada mağara şiri, canavar, nəhəng maral,

mağara ayısı, porsuq, kaftar, kərgədan, at, eşşək və nəsli kəsilmiş digər heyvan növlərinin skeletlərinin qalıqları aşkar edilmişdir.[7] Bundan əlavə, çoxlu miqdarda quş sümükləri, həşərat və bitki qalıqları tapılmışdır.[8]

Bakının mərkəzində metro tikintisi ilə bağlı torpaq işləri aparılarkən 33 metr dərinlikdəki gil layları arasında yaşca Paleolit (orta Pleystosen) dövrünə aid nəhəng maralın daşlaşmış buynuzu tapılmışdır. Azərbaycan ərazisində nəhəng maral üç məntəqədə – Binəqədidə, Azıx mağarasında və Bakının mərkəzində aşkar edilmişdir. Mustye dövründə Kiçik Qafqazda yaşayan Paleolit adamı nəhəng maral ovlamış və onun əti ilə qidalanmışdır. Daş dövrü adamı ovla yanaşı, ehtimal ki, əmək alətləri hazırlamaq üçün təsadüfən rastlaşdığı nəhəng maral buynuzlarını toplamışdır.[9]

Bu dövrdə Abşeronda insan yaşamışdırmı? Dördüncü dövrə aid iri məməli heyvan sümükləri qalıqlarının tapılması Paleolit dövründə Abşeronun qədim insan tərəfindən məskunlaşdığını ehtimal etməyə əsas verir. "At, müxtəlif öküz və maral növləri, kərgədan, fil kimi məməli faunanın zənginliyi ibtidai insanın yaşaması üçün zəruri şərt idi. Harada belə heyvanlar vardısa, orada onları ovlayan insan yaşaya bilərdi. Və çox vaxt inanmaq olar ki, yaşamışdır".[10]

Binəqədi bitki layında iki yerdə aşkar edilmiş kiçik ağac kömürü yığını da bunun tarixəqədərki insan ocağının qalıqları olduğuna dəlalət edə bilər.[11]

Paleolit adamının alətlərinə bənzəyən bir neçə tapıntı da Paleolitə, yəni Binəqədi qır çöküntüləri flora və faunasının mövcud olduğu dövrə aiddir. Birinci tapıntı – 1936-cı ildə Bakıdan 10 km şərqdəki Zığ gölünün sahilində tapılmış çaxmaq daşından düzəldilmiş kiçik yadro Y.A.Paxomov tərəfindən öyrənilmiş və dərc olunmuşdur.[12] Yadro torpağın üstündə tapılmış və kələ-kötür kəsilmiş çoxüzlü piramida şəklindədir. Y.A.Paxomovun sözlərinə görə insanın qədim düşərgəsini düzənlikdə deyil, gölün sahilindən şimal-qərbdəki uçurumda axtarmaq lazım idi.[13] Abşeronda Güzdək platosunun şərq yamacında Güzdək kəndinin 2-3 kilometrliyində aşkar edilmiş ikinci bir tapıntı – çaxmaqdaşından hazırlanmış kiçik ərsin də vardır. O, uzunu 3-4 m, hündürlüyü 1,5 m olan kiçik mağarada torpağın üst qatından çıxarılmışdır. N.O.Burçaq-Abramoviçin

fikrincə, ərsinin açıq-aşkar insan tərəfindən düzəldildiyini göstərən əlamətlər vardır.[14] Bakı rayonunda, Bibiheybət sıldırımının altında bir neçə öyrənilməmiş mağara olmuşdur. Həmin mağaralardan birində boz gildən hazırlanmış 46 muncuq (onlardan beşi qaradır), iki gil lövhə və bir çaxmaqdaşı qəlpəsi tapılmışdır.[15] Arxeoloq Q.Aslanov Bakıda, Bibiheybətlə Bayıl arasındakı rayonda, məktəbin arxasında, yağışın yuyub apardığı dağın yamacında Tunc dövrünün əvvəlinə aid Qobustandakı öküzlərə bənzər qaya təsvirləri aşkar etmişdir. Bu rayonda gələcəkdə aparılacaq arxeoloji qazıntılar dağın torpaqla örtülmüş ətəyində Bakı bölgəsində yaşamış insanların qədim dövr həyatını işıqlandıran yeni materiallar aşkara çıxara bilər. Bakı yaxınlığındakı Şıx çimərliyinin qayalıq sahilində balıq ovunu əks etdirən qaya təsvirləri aşkar olunmuşdur. Balıqçıların fiqurları insan boyundan ucadır. Qız qalasının yaxınlığındakı qazıntıdan tapılmış tunc balığa oxşayan balıq rəsmi maraqlıdır. Sonra tor və qağayıya bənzər quşlar göstərilir. Təsvirin yarısı suyun altındadır. Bu da onu Xəzərin səviyyəsinin aşağı və buxtanın hələ quru olduğu eramızın 1-ci əsrinə aid etməyə imkan verir.[16]

Mezolit dövrünün izləri Şüvəlan daş karxanasından şərqdə Şüvəlan burnu ilə damba arasında sahildən 1,5 km aralıqdakı qaya çıxıntısının özülündəki Kələ zağası yaşayış yerində də nəzərə çarpır. Burada aparılan arxeoloji qazıntılar zamanı Mezolit dövrünə aid çaxmaqdaşından düzəldilmiş ərsin və digər materiallar aşkar edilmişdir.[17] Qaya təsvirləri Qobustandan başlayaraq, Xəzər dənizi sahilləri boyunca şimala doğru Bakıya qədər və Abşeronda müşahidə edilir. Qədim insanın yaşayış yerləri bu bölgədə də mövcud olmuşdur.

Görünür, Qobustandakı kökü kəsilmiş müxtəlif heyvan növləri rəsmləri ilə Paleolit dövründə Abşeronda, Binəqədidə, Digahda, Keşlədə, Bakıda və digər yerlərdə yaşamış məmələlər arasında əlaqə mövcuddur. Belə ki, qaya rəsmləri arasında həmin dövrdə Abşeronda yaşamış bəzi balıq, öküz, nəhəng maral, keçi, kərgədan, pələng və digər heyvanların təsvirləri (ən qədim təsvirlər) vardır. Qaya təsvirləri Abşeron yarımadasındakı bir sıra məntəqələrdə, Mərdəkan, Şüvəlan, Zirə, Suraxanı, Ramana, Qala qəsəbələrinin ətrafında və materiki Pirallahı adası ilə birləşdirən dambanın girəcəyində də aşkar edilmişdir.

Xəzər dənizinin sahilində, Qala qəsəbəsinin yaxınlığındakı Dübəndi deyilən yerdə qaya sallağının üzərində müxtəlif heyvanların – öküz, keçi, maral və s. – ətrafında rəqs edən insanlar təsvir olunmuşdur. Qayalarda buralarda yaşamış qədim insanın maldarlıq və ovçuluq həyatından söhbət açan müxtəlif rəsmlər tapılmışdır. Onlar Qobustandakı qaya təsvirlərinə oxşayır. Bu, Abşeron ərazisində Daş dövründən Tunc dövrünə keçid mərhələsinə aid ilk abidədir.[18]

Materiki Pirallahı adası ilə birləşdirən dambanın girəcəyindəki məzarlıqda Abşeron əhəngdaşından düzəldilmiş lövhə tapılmışdır. Onun üzərində kontur xətlərlə qayakeçisi (qılıncvarı buynuzlu keçi) rəsmləri qazılmışdır. Bu rəsmlər e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərinə aid edilir.[19]

Şübhə etməmək olar ki, Qobustan mağaralarının Daş dövrü adamları Abşerona buradakı vəhşi heyvanları ovlamaq məqsədilə, ehtimal ki, dəniz sahilləri ilə gəlirmişlər. Yuxarıda bəhs edilən çaxmaqdaşından düzəldilmiş bəzi alətlər göstərir ki, Abşeronun da bir sıra məntəqələrində qədim insan düşərgələri olmuşdur.

Qobustandakı mağaraların yaxınlığında diametri 15-40, dərinliyi 10-30 sm olub, bir-biri ilə novçalarla birləşdirilmiş kasavarı çuxurlar vardır. Onların su torlamaq və saxlamaq, eləcə də qurbanlıq heyvanların qanını yığmaq üçün istifadə edilən tərpənməz ibtidai qablar olduğu fərz edilir. Bu qablar Neolitin sonu və Tunc dövrünün əvvəlinə qədərki dövrə (e.ə. V-III minilliklər və daha sonralar) aid edilir.[20] Onlara bənzər qaya çuxurları köhnə Bakı qalasındakı (İçərişəhər) Şirvanşahlar sarayı ərazisində, təpənin üstündə saray tikililərinə qədərki köhnə bünövrələrin və Güzdək kəndinin həndəvərindəki qaya sallaqlarının altında da aşkar olunmuşdur.

XVII əsr səyyahı Lerx Böyük Zirə* adasında əksərən bir-biri ilə novçalarla birləşdirilmiş dəyirmi, yaxud dördkünc belə çuxurların olduğunu qeyd etmişdir.[21] Köhnə Bakı qalasındakı Şirvanşahlar sarayı ərazisindəki, Güzdək kəndi və Böyük Zirə adasındakı Qobustan kasavarı çuxurlarına bənzər çuxurlar Abşeronun qədim abidələridir.

---

* Nargin

Qədim abidələrdən biri də Bilgəh və Nardaran qəsəbələri arasındakı Ümidqayanın zirvəsindəki göy cisimlərinin təsviridir. Qaya üzərindəki bu rəsədxana günəşi və müxtəlif bürc adlarını – Böyük Ayı bürcü, İlan bürcü və s. – təsvir edən rəsmlərin zənginliyinə görə digər məşhur bürc təsvirlərini ötüb keçir. Göstərilən rəsmlərlə yanaşı, qayada astronomik hesablama cədvəli də həkk olunmuşdur. Bu qayada əkinçilik, maldarlıq mövzusunda rəsmlər də çoxdur. Ümidqaya təsvirləri Tunc dövrünün əvvəlinə aid edilir.[22]

Son illərdə aparılmış arxeoloji tədqiqatlar Abşeronda Tunc dövrünə aid yaşayış yerləri olduğunu göstərir.

1963-cü ildə Abşeron yarımadasının şərq hissəsində Mərdəkan və Şüvəlan qəsəbələri zonasında aparılan arxeoloji qazıntılar zamanı bir sıra qədim abidələr aşkar edilmişdir. Bəndüstü deyilən yerdə keçmiş karxanaların yaxınlığında kiçik qum təpəsində (sahəsi 65x70 m) müxtəlif ölçülü və planlı (dördkünc və dairəvi) daş bina və tikililər üzə çıxarılmışdır. Daş lövhələr üzərində bir sıra qaya rəsmi aşkar olunmuşdur. Binaların divarlarının hörüldüyü daşlar üzərində həkk edilmiş insan təsvirləri böyük maraq doğurur. Kişi və qadınlar çılpaq halda, ibadət vəziyyətində təsvir olunmuşlar.

Tikililərdən birinin, ehtimal ki, məbədin divarlarında da müxtəlif təsvirlər var. Onlar Qobustandakı qaya təsvirlərinə oxşayır. Təpədə çoxlu ocaq yeri, xeyli kül, tonqal izləri, qara, boz və qırmızı rəngli saxsı qab qırıqları tapılmışdır. Bu ərazidə aparılmış arxeoloji qazıntılar zamanı bir sıra əşyalar – daş həvəngdəstələr, çaxmaqdaşından ox ucluqları, gil iplikbənd, dəvəgözü daşından nukleuslar, dəmir xəncər və bıçaq, habelə çoxlu müxtəlif heyvan – at, eşşək, öküz, inək, qoyun, keçi, it, ceyran, canavar, dovşan, tısbağa, suiti və i.a. sümükləri aşkar olunmuşdur. Göstərilən materiallar bu ərazinin e.ə. II minilliyin sonundan I minilliyin yarısınadək olan dövrə aid yaşayış yeri olduğuna dəlalət edir.[23] Ev heyvanları sümüklərinin tapılması Abşeronda qədimdə maldar qəbiləsinin yaşadığını göstərir. Burada, həmçinin, əkinçilik, ovçuluq, balıqçılıq, toxuculuq, dulusçuluq və bənnalıqla, incəsənətlə məşğul olan qəbilələr yaşamışdır.[24]

Tapıntılar arasında dəvəgözü daşının olması Abşeronda yaşayan qəbilələrin Cənubi Qafqazın başqa qəbilələri ilə əlaqələrindən xəbər verir.

Göstərilən təpədən bir kilometr aralı, Ağdaş düzü deyilən yerdə iki məntəqədə aparılan qazıntı zamanı digər qədim abidə – dördkünc şəkilli qədim bir binanın divar qalıqları və bünövrəsi, onun yaxınlığında dairəvi formalı bir tikili aşkara çıxarılmışdır. Divarların uzunluğu 110 metrdən çoxdur. İri divar daşlarında at, it, dağ keçisi, öküz və başqa heyvanların, quşların, habelə ov səhnələrinin və insanların təsvirləri həkk olunmuşdur. Mərdəkan qəsəbəsinin digər yerlərində də qaya təsvirləri aşkar olunmuşdur. Yaxınlıqda avadanlıqla birlikdə 13 qəbir tapılmışdır ki, onların da çoxu qarət edilmişdir. Lakin həmin qəbirlərdə (xüsusilə qarət olunmamışlarda) qara, boz və qırmızı saxsı qablar, dəmir qılınc, xəncər, nizə ucluğu, bıçaq, zəngin heyvani naxışlı tunc kəmər, bilərzik, üzük, zınqrov, iynə, müxtəlif muncuqlar və digər əşyalar aşkar edilmişdir. İki qəbirdə tısbağa qını və sümükləri tapılmışdır.[25] Tısbağa qını və sümükləri həmin dövrə aid Mingəçevir qəbirlərində də aşkar olunmuşdur.[26] Qəbirlərdə tısbağa qını və qalıqlarının olması, ehtimal ki, burada yaşamış qəbilələrin dəfn mərasimi ilə bağlıdır. Tısbağa qədim Çində əbədiyyət rəmzi olmuşdur. Qədim türklərin qəbir əşyaları sırasında da tısbağa vardır. Şimali Monqolustanda türk xaqanı Gültekinin 731-ci ildə imperator Syuantszunun göndərdiyi çinli ustaların tikdiyi yaraşıqlı abidəsində də kürəyinə üzərində runa yazısı olan stela bərkidilmiş nəhəng mərmər tısbağa (onun uzunluğu 2,25 metrdir) aşkar edilmişdir.[27] Qədim türklərin çinlilərdən götürdükləri bu adət onlardan da Azərbaycana keçmişdir. I əsrə aid deformasiyaya uğramış kəlləli bəzi Mingəçevir katakomba qəbirlərinin əşyaları arasında tısbağa qınları da vardır[28] ki, bu da bir sıra katakombaların qədim türk abidələrinə aid olduğunu göstərir. 1935-ci ildə Y.N.Qummel Xanlardan cənub-qərbdə, Gəncəçay hövzəsindəki 7№-li kurqanda qazıntı aparmışdır. Altı qədim qəbirdən təkcə III məqbərə[29] qarətçilər tərəfindən talan edilməmişdi. Nisbətən iri olan qəbir çalasında ağ gildən düzəldilmiş 10 sm qalınlığında xüsusi döşənəkdə uzadılmış 2 adam və 1 tısbağa dəfn edilmişdi; tısbağa qəbirin qərb küncündə arxası üstə idi.[30] Görünür, tısbağa müqəddəs heyvan sayılmış və onu öldürmək qadağan olunmuşdur. Bu günə qədər də tısbağanı öldürmürlər, bu, günah hesab edilir. Azərbaycandakı qədim qəbirlərdə, katakombalarda, kurqan

qəbirlərində məzarın küncündə tısbağa qınına rast gəlinir. Ehtimal ki, Strabonun I əsrin hüdudunda qeyd etdiyi 26 yerli Albaniya tayfası arasında qədim türk tayfaları da olmuşdur. Bunu göstərilən arxeoloji məlumatlar da təsdiq edir.

1963-cü il mart ayında Binəqədi kəndindəki neft quyularından birində cavan qadın skeletinin qalıqları və zəngin avadanlığı olan qədim qəbir aşkar olunmuşdur. Skeletin barmağında tunc üzük, döş qəfəsində tunc sancaq, qolunda muncuqla bəzədilmiş bilərzik tapılmışdır. Qəbirdə 200-dən çox müxtəlif ölçülü muncuq var idi. Burada cilalanmış qara gil qab qırıqları və kobud əl işi olan kasalar da aşkar edilmişdir. Göstərilən qəbir Tunc dövrünün sonuna aid edilir.[31]

1941-ci ilin avqustunda Abşeron yarımadasını Pirallahı adası ilə birləşdirən dambanın tikilməsi ilə əlaqədar torpaq işləri görülərkən bir sıra arxeoloji obyektlər aşkara çıxmışdır. Həmin obyektlər dənizin sahilində, yerli əhalinin "Gürgan"*, yaxud "Əfşaran" adlandırdığı qədim yaşayış yerinin xarabalıqları ilə Abşeron mayakı arasındadır. Orada, Abşeron mayakının yaxınlığında çoxlu daş qutu tipli qəbirlər olan məzarlıq aşkar edilmişdir. Qəbirlərdən boz və qırmızı gil qablar, muncuqlar, çoxlu qab qırıqları, yuxarıda bəhs etdiyimiz üzərində kontur xətlərlə qayakeçisi rəsmləri qazılmış daş lövhə, "skif (iskit) tipli" tunc ox ucluğu, dəvəgözü daşı parçası, çürümüş lülə sümüyü qalıqları tapılmışdır. Boz gildən hazırlanıb yaxşı bişirilmiş küpələrdən biri formaca e.ə. III minillik-I minilliyin birinci yarısına aid edilən Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti abidələri arasında rast gəlinən qablara oxşayır.[32] İ.M.Cəfərzadənin fikrincə, göstərilən arxeoloji materiallarda e.ə. VII-VI əsrlərə aid əşyalar üstünlük təşkil edir. Bütün bu materiallar (qəbirlər və s.) Abşeronda eramızdan bir neçə min il əvvəl Qobustandan başlayaraq Xəzər dənizinin sahilləri boyunca şimala tərəf uzanıb gedən qədim yaşayış yerlərinin olduğunu şəksiz sübut edir. Abşeronun qədim əhalisi haqqında digər tapıntılar da vardır. Əmircan kəndində həyətdə yer qazılarkən tapılmış terrakotadan hazırlanmış sınmış heykəlciyin bir hissəsi (hündürlüyü 4,5 sm, eni 2,5 sm) xüsusi maraq doğurur. Heykəlcik başı başlığa bənzər bir şeylə örtülmüş kişi

---

* Gürgan – Girkaniya adını xatırladır: "Girkan dənizi" və Abşeron yarımadasının digər toponimika faktlarını müqayisə edin.

büstünün təsvirindən ibarətdir. Çiyinin yaxınlığında əlləri və kürəyi, sanki iki dəfə qalın kəndirlə sarınmışdır. Almacıq sümükləri çıxmış yaşlı kişinin uzun saqqallı və bığlı, geniş alınlı, yoğun burunlu, qalın dodaqlı, qaşüstü qövsləri aydın seçilən sifəti olduqca realistcəsinə təsvir edilmişdir. Heykəlcik əsir qulu, ehtimal ki, "skifi" xatırladır.[33]

Gəncə şəhərinin həndəvərində buna bənzər ikinci bir heykəlcik də tapılmışdır. "Yumşaq qalpaq (papaq), sifətin ümumi görünüşü və üzün təsvirindəki bir sıra təfərrüat əlamətləri – badamı gözlərin yerləşdirilməsi, sivri saqqalın və alın saçının təsviri həmin başı Kül-Oba kurqanındakı kəhrəba qabdakı, gümüş Voronej qabındakı və Amudərya dəfinəsinin qızıl lövhələrindəki məşhur skif təsvirlərinə oxşatmağa imkan verir". Gəncə tapıntısını qədim Gəncədə və Azərbaycanın digər rayonlarında, Gürcüstanda, Ermənistanda aparılan qazıntılar zamanı tapılan tipik skif tunc ox ucluqları ilə tutuşdurmaq olar. Məhz bu paralellər həmin tapıntını e.ə. V-IV əsrlərə aid etməyə imkan verir. Gəncədən tapılmış skif başının əhəmiyyəti bundadır ki, o, Avropa skiflərinin, yaxud Orta Asiya saklarının ikonoqrafiyasının nadir nümunəsidir.[34]

Abşeronda arxeoloji qazıntılar zamanı skif tipli tunc ox ucluqları tapılmışdır.[35]

Biz Əmircandan tapılmış heykəlciyi, Gəncə "skif" başına müvafiq olaraq, e.ə. V-IV əsrlərə – ehtimal ki, köçəri skiflərin Cənubi Qafqaza və Abşerona girdikləri dövrə aid edirik.

Abşeronun etnoqrafik tədqiqi burada qədim qəbirlərin olduğunu meydana çıxarmışdır ki, bu da Abşeronda qədim yaşayış yerlərinin mövcudluğunu sübut edir. Abşeron kəndlərinin – Maştağa, Buzovna, Məhəmmədi sakinləri burada içərisində, yanlarında qırmızı gil bardaqlar qoyulmuş skeletlər olan böyük təndirvari qədim qəbirlər olmasına dair məlumatlar toplamışlar.[36] Belə dəfn mərasimi nə müsəlman, nə də xristian normalarına xas olmayıb, ehtimal ki, daha erkən dövrlərə aiddir.

Bu cür arxaik qəbirlər 1898-ci ildə Bakıda, köhnə müsəlman qəbiristanlığının yerində tikiləcək Aleksandr Nevski kilsəsinin bünövrəsi qazılarkən də tapılmışdır. Burada bir-birinin üstündə bir neçə cərgə daş qutu tipli qədim qəbirlər və böyük təndir tipli bir qəbir aşkar edilmişdir. "Formaca bizim çörək yapılan böyük diametrli adi

təndirimizə bənzəyən yeraltı mağara və onun içərisində divar boyu çömbəltmə oturdulmuş və qabaqlarına xırda gil çömlək qoyulmuş beş-altı skelet. Bu, cəmiyyətin sosial-siyasi əsasını qəbilə-tayfa quruluşu təşkil edən həmin uzaq keçmişdən qalma qəbilə qəbri idi.[37]

Həmin sahənin sonrakı tədqiqi[38], eləcə də kilsənin bünövrəsinin qoyulmasında iştirak edən qocaman yerqazan fəhlə Məşədi Xudaverdinin verdiyi məlumat həmin ərazidə qədim, islamaqədərki qəbirlərin olduğunu təsdiq etdi. Məşədi Xudaverdinin məlumatına görə, o və onunla birlikdə yer qazan başqa fəhlələr "quyuya, təndirə oxşayan və divar boyunca oturmuş halda 7-8 insan skeleti olan çala aşkar etmişlər; skeletlərin bəziləri dağılıb tökülmüş, bəziləri isə olduğu kimi qalmışlar, skeletlərin hər birinin qabağında nahamvar formalı sarı-qırmızı gil kasa qoyulmuşdu. Skeletlər çalanın ətrafında oturdulmuşdu. Təndirin ortasında isə kobud yonulmuş yastı, dəyirmi şəkilli kiçik kələ-kötür daş qoyulmuşdu. Daşın ortasında həvəngə oxşayan içi oyulmuş daş kasa, kasanın yanında isə dəstəcik şəklində oxlov var idi".[39]

Bu məlumatlar yuxarıda göstərilənlərlə uyğun gəlir və onların doğruluğuna şübhə doğurmur.

Görünür, sonralar orta əsr şəhəri Bakının salındığı təpə qədim yaşayış yeri, təpədən 150-200 metr aralıdakı qeyd olunan məzar yerləri isə qəbiristanlıq olmuşdur. Beləliklə, bu təpənin bilavasitə yaxınlığında olan Bakı qalasının ərazisi eramızdan çox-çox əsrlər əvvəl məskun olmuşdur. Bizcə, bunu Şirvanşahlar sarayı ərazisindəki qayada qazılmış novçalı kasavarı çuxurlar və dördkünc şəkilli çalalar da təsdiq edir. Qız qalasının şimal tərəfində aparılan qazıntılar zamanı küçənin səviyyəsində 2,2 metr dərinlikdə tapılmış orijinal tunc balıq fiquru (uzunluğu 8,2 sm, hündürlüyü 4,5 sm, gövdəsinin eni 2 sm, qalınlığı 0,7 sm) böyük maraq doğurur. Balığın başı dombalan, ağzı açıq, gözləri düyməcik kimi qabarıq formadadır, qulaqları uzunsov çıxıntılar şəklində göstərilmişdir. İki üzgəci vardır; quyruğu halqavarı şəklində yuxarıya doğru qatlanmışdır. Balığın gövdəsinin hər yeri böyük ustalıqla sədəflə örtülmüşdür.[40] Bu fiqur arxaik xarakter daşıyır və formaca, ehtimal ki, antik dövrə məxsusdur.

Balıq təsvirlərinə Qobustan qayalarında rast gəlinir və onlar e.ə. X-IX minilliklərə aid edilir.[41] Balıq obrazları Zərdüştilik

panteonunda müəyyən tanrıların inkarnasiyası olmuşdur.[42] Balıq rəsmlərinə Abşeron evlərinin fasadında, Şirvanşahların Bakıda kəsdirdikləri sikkələrdə rast gəlinir və əhali bunu qədim ənənə ilə izah edir. Yuxuda balıq görən Abşeron sakini bunu var-dövlət əlaməti kimi yozur. Görünür, balığa sitayiş Abşeronda ən qədim ayinlərdən olub, ehtimal ki, dəniz tanrısının rəmzini təcəssüm etdirir.

Şirvanşahlar sarayının yuxarı həyətində aparılan arxeoloji qazıntı zamanı boğazı Yaloylutəpədə tapılmış e.ə. III-I əsrlərə aid küpələrinkinə bənzəyən küpə aşkar olunmuşdur.[43] 1986-cı ildə İçərişəhərdə aparılmış arxeoloji qazıntının materialları Bakının qədimliyi haqqında daha tutarlı məlumat verə bilər. Ümumi həcmi 144 m^2 olan qazıntı sahəsi cənub-qərbdə dövrümüzədək qalmış Məhəmməd ibn Əbu Bəkr (Sınıqqala) məscidinə (h.471-ci, miladi 1078/9-cu il) bitişir. Qazıntı sahəsi iki təbəqəli abidədən ibarətdir: üst təbəqə XIV-XVII əsrlərə, alt təbəqə IX-VIII əsrlərə aiddir. Alt mədəni təbəqənin materialları böyük maraq doğurur. Qazıntının cənub hissəsində bünövrəsi təbii qaya üstündə qoyulmuş düzbucaqlı şəkilli böyük otağın şimal və qərb divarlarının qalıqları qalmışdır. Bu təbəqədə qayada qazılmış beş quyu, habelə, müxtəlif diametrli çoxlu təndir aşkar edilmişdir. Onların yaxınlığında, sahənin cənub-qərb hissəsində torpağa iri təsərrüfat küpləri basdırılmışdır. Alt təbəqədə, qayanın səviyyəsində formasına və gilin tərkibinə görə orta əsr keramikasından fərqlənən və daha erkən dövrə aid olan saxsı qab qırıqları tapılmışdır. F.İbrahimov bu qabları Nüydüdə və Şamaxıda tapılmış materiallarla analogiyasına, forma və bəzəyinə görə antik dövrə aid edir.[44]

1986-cı ildə Şamaxı arxeoloji dəstəsi Şamaxı şəhərindəki VIII sahədə qazıntı işlərini davam etdirmişdir. Burada torpaq səthindən 3-4 metr aşağıda orta əsr hamamının sabun zalının bir hissəsi aşkara çıxarılmışdır. Soyunma otağının tikili əlamətləri olmayan cənub-şərq hissəsində qazıntı işləri materikə qədər davam etdirilmişdir. IX-XII əsrlərə aid mədəni təbəqədən altda erkən orta əsr və son antik dövr qatı vardır. Bu qat əl işi olan adi keramika qırıqları ilə səciyyələnir. Buna bənzər keramika nümunələri Ağsu rayonundakı Nüydü kəndində aşkar olunmuşdur. Onlar e.ə. IV-I əsrlərə və eramızın I əsrinə aid edilir.[45] Arxeoloq A.Zeynalovun İçərişəhərdə,

tikinti-bərpa işləri aparılarkən tapdığı boz gildən düzəldilmiş qadın heykəlciyi böyük maraq doğurur. Materialına görə ehtimal etmək olar ki, o, Bakıda düzəldilmişdir; hündürlüyü 12 sm, omba yerində eni 5 sm, başı dəyirmidir; qulaq çıxıntıları deşilmişdir; qaşları, burnu və ağzı dərin batıq xətlərlə verilmişdir. Göz yerlərinə yaşıl-mavi rəngli mina qırıqları qoyulmuşdur. Ayaqları yoxdur. Döşləri seçilir, qolları qırılmışdır. Paltarı nöqtəli oymalarla təsvir edilmişdir. Batıq oymalarla göstərilən boyunbağısı var.[46]

Heykəlciyin tarixini müəyyənləşdirən əlamət E.Resslerin Xocalı kurqanlarında, J.Morqanın Lənkəranda tapdıqları və son Tunc və erkən Dəmir dövrünə aid Ön Asiya ölkələrindən – Mesopotamiyadan gətirilmə şirli kasaların örtüldüyü mavi və yaşıl minaya bənzəyən yaşıl-mavi minadır.

Qobustandakı Böyükdaş dağının ətəyində Roma qoşunlarının Bakının yaxınlığında olmasını göstərən latınca kitabə eramızın I əsrinə, 84-96-cı illərə aiddir:

İmr Domitiano
Caesare Avg
Germanig
L Julius
Maximus
Leg XII Ful

Azərbaycanca tərcüməsi belədir. "İmperator Domisian Sezar-Avqust Germanik zamanında, İldırımsürətli XII Legionun sentu-rionu Lutsi Yuli Maksim".[47] IV əsrin ikinci yarısı latın müəllifi Yevtropi xəbər verir ki, Domisian dörd yürüş etmişdir: onlardan biri iki dəfə – e.ə. 89-cu (Dio, LXIX, 7) və 92-ci illərdə – vuruşduğu sarmatlara, ikincisi katlara, qalan ikisi isə daklara qarşı. Daklar və katlar üzərində zəfər çaldığına görə iki dəfə triumf mərasiminə layiq görülmüş, sarmatlar üzərində qələbəyə görə isə yalnız dəfnə budağından çələng almışdır. Lakin o, həmin müharibələrdə xeyli bədbəxtliklərə düçar olmuşdur: Sarmatiyada onun legionu sərkər-dəsi ilə birlikdə məhv edilmişdir.[48] Görünür, burada Qobustan kita-bəsində Abşeronun yerli sakinləri tərəfindən məhv edilmiş məhz

həmin XII legionun bölməsi xatırlanır. Ramana, yaxud Romana qəsəbəsinin adı da ehtimal ki, Roma qoşununun I əsrdə Abşeronda olmasından xəbər verir. Bar Ebreyin XIII əsrdə Kiçik Asiyada xatırladığı Ramana şəhərinin adı da, ehtimal ki, Roma istilaları ilə bağlıdır.

Roma qoşunlarının Qobustanda cəmləşməsi yaxınlıqda iri yaşayış məntəqəsinin, yaxud şəhərin olduğunu göstərir. Belə bir şəhər o vaxtlar Bakı ola bilərdi və Roma qoşunu da, ehtimal ki, oraya yollanırdı.

Bakının qədimliyini bir neçə tədqiqatçı qeyd etmişdir. Elmi ədəbiyyatda Bakı adının qədim mətnləri e.ə. III minilliyin sonlarına aid edilən "Ölülər kitabı" Misir mifologiyası toplusunda əksini tapmış "Vakhau" adı ilə eyniyyəti barədə ingilis misirşünası Flinders Petrinin[49] irəli sürdüyü fərziyyə mövcuddur. Flinders Petri Qafqaz toponimikasını Misir mətnlərindəki adlarla eyniləşdirməklə öz fərziyyəsini Misir mifologiyasının Qafqaz zəminində yaranması üzərində qurur. O Bakı adının üzərində səma dayanan "Günəş doğan Bakhau dağı" adlandırılan böyük dağ – "Vaxhau" adı ilə eyniyyəti fərziyyəsini irəli sürür. İngilis aliminin fikrincə hər iki sözün etimologiyası eynidir, belə ki, o, "baka" – səhər şəfəqi kimi yozula bilər.[50] Bu ad Böyük Qafqazın şərq qolunda yerləşən Bakı ilə eyniləşdirilir.

Flinders Petrinin ehtimalına görə, qədim Azərbaycanın Misirlə əlaqələri yalnız "Ölülər kitabı"nda əksini tapmış Misir mifologiyasının məlumatlarına əsaslanır, arxeoloji məlumatlarla təsbit olunmur. Flinders Petrinin müşahidələrinin şübhəli olmasına baxmayaraq, Qədim Misirin Azərbaycanla əlaqəsini göstərən bir sıra arxeoloji tapıntıları qeyd etməmək olmaz. Bu sıradan pişik başlı Misir ilahəsi Bastın tunc heykəlciyini (Çovdar bölgəsindəki Dananab kəndi)[51], mavi Misir pastasından e.ə. II minilliyə aid edilən muncuqları (Mingəçevir, Xocalı, Xanlar), Misir gözcüklərini (Mingəçevir, Yaloylutəpə), skarabeylərini (Mingəçevir), iki kiçik fallos təsvirini, başsız plaşlı insan heykəlciyini (hamısı mavi Misir pastasından hazırlanmışdır) göstərmək mümkündür.[52]

Flinders Petrinin göstərdiyi toponimin Bakının adı ilə eyniləşdirilməsi məsələsi əlavə tədqiqat tələb edir.

Mənbələrin Bakı sahilləri ilə bağlı erkən məlumatlarından biri V əsrin əvvəli Bizans müəllifi Panili Priskin verdiyi məlumatdır.

O, romalıların dilindən Skifiyadan Midiyaya gedən yolu təsvir etmişdir: "Bu yol hunlara məlum deyildi. Və keçmişlərdə onların ölkəsində aclıq tüğyan edəndə onlar yerlərə soxuldular və onlarla xeyli vuruşdular. Onlar (yəni skiflər)* midiyalıların şəhərlərinə girdilər..."[53] Ehtimal ki, Panili Priskin Roma qoşunlarının Bakının yaxınlığında olmasına dair məlumatı romalıların Azərbaycana basqın edən skif tayfalarına qarşı hərbi əməliyyatları ilə izah edilir. Prisk daha sonra xəbər verir ki, sonralar hərbi ittifaq üçün Romaya gələn skif knyazları bu yolu belə təsvir etmişlər:

Yol Meotiya bataqlığından (Azov dənizi – *S.A.*) keçirdi. Sonra skiflər dağları (ehtimal ki, Böyük Qafqaz dağları – *S.A.*) aşaraq Midiyaya endilər və buranı qarət etməyə başladılar. Geri dönərkən "düşmənin həmləsinə məruz qalmamaq üçün onlar başqa yolla və sualtı qayalarından alov qalxan yerlə gedərək (*ex Petra maritima flamma ardet*)" Skifiyaya qayıtdılar.[54] Priskin dəniz daşlarından, yaxud qayalarından qalxan alova dair maraqlı məlumatı, şübhəsiz Bakının əbədi odlarına (yanar qazlarına) aiddir, belə ki, *maritima* sözü açıq-aydın dəniz sahillərindən söhbət getdiyini göstərir. Bu, Bakı yaxınlığındakı odlar haqqında xronoloji cəhətdən ilk (eramızın ilk əsrləri) məlumatdır.

Bakı ətrafındakı qədim yaşayış məskənləri, ehtimal ki, indi dənizin altında qalan yerlərdə, o cümlədən indiki buxtanın ərazisində, Bibiheybət və Bayıl sahilləri rayonunda olmuşdur. Alim və səyyahlar Xəzər dənizinin səviyyəsinin dəyişdiyini və bunun nəticəsində adı çəkilən ərazilərin quruya çevrildiyini qeyd etmişlər. Professor S.A.Kovalevski hesab edir ki, ilk əsrlərdə Bakı yaxınlığındakı adalar quru ilə birləşmiş, buxta quru olmuşdur. O, indiki buxtanın yerində yaşayış məskəni olması imkanını ehtimal edir. Bu alimin fikrincə, Xəzər dənizinin Bakı arxipelaqı bankələrinin bütünlüklə qitə ilə qovuşduğu və Bakı buxtasının tamamilə quruya çevrildiyi ən aşağı səviyyəyə enməsi II əsrdən VII əsrə qədərki dövrə təsadüf edir. VII əsrdən etibarən Xəzərin səviyyəsi Bakı buxtasının əmələ gəldiyi IX əsrədək sürətlə qalxmağa başlayır. XIV əsrin əvvəlində suyun səviyyəsi indikindən xeyli yüksəyə qalxmışdı.[55]

---

* "Hun" və "skif" etnonimləri bəzən sinonim kimi işlədilir.

Ola bilər ki, Bakı buxtası VII əsrdən də əvvəl yaranmışdır. Belə ki, Bakı qalasının konfiqurasiyası göstərir ki, köhnə Bakı artıq buxta mövcud ikən dəniz sahilində liman şəhəri kimi salınmışdı. Əks halda, IX-X əsr ərəb coğrafiyaşünasları Xəzərin səviyyəsinin bərk qalxması faktını qeyd edərdilər. Görünür, dənizin sahili xeyli cənubda, böyük Zirənin arxasında olmuşdur. Belə ki, Bayıl buxtasında istehkam quruda tikilmiş və 1234/5-ci ildə başa çatmışdır.

Xəzər dənizinin səviyyəsinin dəyişməsinə dair alimlərin son tədqiqatları göstərmişdir ki, Xəzərin son transqressiyası hardasa eramızın hüdudlarında başlanmışdır. Lakin əvvəllər dənizin səviyyəsinin qalxması çox ləng getmiş, suyun səviyyəsi tez-tez xeyli aşağı düşmüşdür. Xəzərin səviyyəsi XIII əsrin sonunadək aşağı olmuşdur. Lakin XIII əsrin sonu-XIV əsrin birinci yarısında, yüz ildən də az bir dövrdə dənizin səviyyəsi 10 metrdən də çox qalxmışdır. Marino Sanutonun xəritəsində (1320) belə bir qeyd vardır. "Dəniz hər il bir əl içi boyda qalxır və artıq bir neçə yaxşı şəhər məhv olmuşdur". XIV əsrin birinci yarısında Nəcati, Həmdüllah Qəzvini Abaskunun qərq olmasından, Bakıdakı Səbayıl

istehkamlarından bəhs etmişlər. Əbdürrəşid Əl-Bakuvi (1403) yazır ki, dəniz Bakıda bir çox qala bürclərini basmış və məscidə yaxınlaşmışdır. Sonralar dənizin səviyyəsi 600 ildən çox – XX əsrin əvvəlinədək yüksək olmuş, həmin vaxtdan enməyə başlamışdır. Onun səviyyəsi 1929-1945-ci illərdə xüsusilə kəskin surətdə enmiş, 16 il ərzində 2 m aşağı düşmüşdü.[56]

Bakı buxtasında dəniz hamamı tikilərkən buxtanın dibində qədim daş döşəmə aşkar olunmuşdur.[57]

XIX əsrin birinci yarısında tikinti işləri aparılarkən Qız qalasından buxtadakı qərq olmuş istehkama doğru dənizdə uzaqlara qədər uzanıb gedən uçub-dağılmış divarların qalıqları tapılmışdır.[58] Bir sıra müəlliflər Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə əlaqədar yerli əhalinin nəsildən-nəslə ötürdükləri əfsanələrdən, indiki Bakı buxtasının yerindəki qərq olmuş Səbayıl, yaxud Şahbağ şəhərindən xəbər vermiş, bu faktın sübutu üçün suyun altından bürclərin, yarım uçmuş qala hasarlarının, qəbir daşlarının göründüyünü qeyd etmişlər.[59] Xalq rəvayətlərinə təkcə Səbayıl şəhəri deyil; guya Bakının yaxınlığında mövcud olmuş "Şəhri-Yunan" adlı digər bir böyük

şəhər haqqında da dumanlı məlumatlar qorunub saxlanılmışdır.[60] Başqa adlar da çəkilir: Xaraba şəhər, Xunsar və s. Digər bir versiyaya görə, Xunsar əvvəllər onun adı ilə adlanan Bakı şəhərinin təməlini qoymuş adamdır.[61] Bəzi rəvayətlərdə Bakının yerində olmuş şəhərin qərq olması Makedoniyalı İsgəndərin adı ilə bağlanır.[62] Lakin bəllidir ki, Makedoniyalı İsgəndər Abşeron ərazisində olmamışdır. Bütün bu əfsanələr və xalq rəvayətləri əfsanəviliyinə baxmayaraq Bakının qədimliyindən xəbər verir və çox uzaq keçmişlərdə Bakının yerində, yaxud onun yaxınlığında olmuş qədim yaşayış yerinin su altında qalması faktının mümkünlüyünü əks etdirir.

Ehtimal ki, Xəzər dənizində bütöv bir şəhərin qərq olması haqqındakı bütün rəvayətlərin əsasında həqiqətən zəlzələ nəticəsində materikin çökməsi və yaşayış yerinin, yaxud şəhərin dəniz sularının altında qalması faktı durur.

1830-cu ildə Bakıda olmuş akademik E.Lents yerli əhalidən eşitdiyi bir rəvayəti danışır: "Xeyli vaxt bundan əvvəl dəniz indikindən 20 verst uzaqda idi və Pirallahı və Çilov adaları kimi Böyük və Daş Zirə adaları da materikin bir hissəsi idi: bir dəfə qəfildən dəniz xeyli qabağa gəldi və sahili indiki görkəminə saldı".[63]

Bakı ilə Böyük Zirə adası arasındakı zonanın bir çox əsr bundan əvvəl su altında qalmasını Böyük Zirə adası daşlarındakı dənizə doğru gedən ikitəkərli arabanın təkər izləri də təsdiq edir.

Təkər izlərinin səmtinə görə bu yol ada boyunca Bakı buxtasının cənub sahilinin son nöqtəsi olan Şıx burnuna gedirdi. Lents adanı tədqiq edərək, zaman keçdikcə xeyli silinib getmiş həmin izləri tapmışdır.[64] XVIII əsrin 30-cu illərində səyyah Lerx adaya gələrkən o məskun deyildi. Lakin Lerx orada tikili, quyu qalıqları və qayada oyulmuş bir neçə dördkünc çuxur aşkar etmişdir.[65] Ehtimal ki, nə vaxtlarsa adada və buxtanın ərazisində Xəzər dənizinin səviyyəsinin qalxması nəticəsində su altında qalmış qədim yaşayış məskəni olmuşdur. Dənizin sahili xeyli uzaqda, materikdən ayrılmış Böyük Zirə (Nargin) adasının arxasında olmuşdur.

Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov aşağıdakıları da qeyd edir: "Bakı qəzasında Bilgəh, Zirə, Bibiheybət və sair kəndlərdə və bəzi adalarda daşlar üzərində dənizə doğru gedən araba yolları görünür. Bakı şəhərində Hacı Ağa Hüseyn oğlu Hacı Babanın

otağının yerində quyu qazdıqları zaman dəniz səthindən aşağıda daşla döşənmiş bir yol çıxmışdır".[66]

Dənizə doğru gedən ikitəkərli araba izləri Bilgəh və Nardaran qəsəbələri yaxınlığındakı Ümidqayada bugünədək qalmışdır ki, bu da Abşeron bölgəsində materikin bir hissəsini su basdığını bir daha təsdiq edir.

Eramızın əvvəlində Bakının yerində, yaxud onun yaxınlığında yaşayış yerinin və ya şəhərin olduğunu antik müəlliflərin məlumatları da ehtimal etməyə imkan verir. Yunan coğrafiyaşünası Klavdii Ptolemey (II əsr) özünün "Coğrafi təlimnamə"sində Qafqaz Albaniyasının 29 şəhər və kəndinin adını çəkir. Ptolemey onların arasında Qaytara şəhərini də qeyd edir.

Ptolemeyin mətnində şəhərlər haqqında deyilir: "Soana çayının mənsəbində Telayba şəhəridir... Alban çayının mənsəbində Qaytara şəhəri, onun arxasında isə Kira (Kür) çayının mənsəbidir".[67]

Ptolemey başqa bir yerdə onu Qanqara[68] adlandırır. Şəhərin adının Ptolemeyin əsərinin əlyazma nüsxələrindən birində rast gəlinən üçüncü variantı – Qaqara da var. Bəzi tədqiqatçılar bu şəhərin adının "qarqarlar" etnik termini ilə bağlılığını ehtimal edirlər.[69]

Ptolemeyin 1584-cü ildə çap edilmiş xəritəsində Qaytara çox mürəkkəb və iri rəsm olunmaqla yanaşı, onun mühüm məntəqə olduğunu göstərən ikiqat dairəyə alınmışdır. Mətnə görə, bu şəhər dəniz sahilində olmuşdur və bir sıra alimlərin (Tomaşek, Marşall fon Biberşteyn, D'Anvil və b.) fikrincə Bakının yerində ola bilərdi. Ptolemey Qaytaradan cənubda, yenə də dəniz sahilinə yaxın olan "Baruka" şəhərini yerləşdirir. Bəzi alimlər (Tsellari, Barbye və b.) Bakını Baruka ilə eyniləşdirirlər. Q.Qeybullayevin fikrincə Ptolemeyin xatırladığı Baruka Dərbənd bölgəsində olmuşdur. Sonralar ərəb coğrafiyaşünasları (İbn Xordadbeh, IX əsr və b.) burada Bab Barika qalasının adını çəkmişlər. Ehtimal ki, bu ad İran dillərindəki "baru" – "qala divarı" sözündən və "ka" şəkilçisindəndir.[70] Bakı haqqında 1618-ci ildə yazmış italyan səyyahı Pyetro della Valle Bakını Ptolemeyə görə Kaysi çayının mənsəbində olan Albana ilə eyniləşdirir.[71]

Həmin yaşayış məntəqələrini qədim Bakı ilə eyniləşdirmək çox çətindir. Baruka səslənməsinə görə qədim Bakıya uyğun gələ

bilər. Lakin Qaytaranın dəniz sahilinin şərqə döndüyü yerin lap yaxınlığında olması Abşeron yarımadasının görünüşünü xatırladır və ehtimal ki, Bakı şəhərinə müvafiq gəlir.

Başqa alimlərin fikrincə, Qanqara Bakıdan cənubda, "Tiflisdən gələn dəmiryolunun Xəzər dənizinə yaxınlaşdığı Ələtin yerində", yəni Pirsaat çayının mənsəbində olmuşdur.[72]

Duvannı dəmir yol stansiyasının 8 kilometrliyində, Ələtdən azacıq aralı, dəniz sahilinin yaxınlığında qum altında qalmış qədim şəhər yeri tapılmışdır. Küləyin süpürüb apardığı qumun altından IX-XIV əsrlərə aid edilən çoxlu şirli qablar və digər məişət əşyaları aşkara çıxmışdır.[73] Bu şəhər yerinin tapılması böyük maraq doğurur.

Yuxarıda göstərilən bütün mülahizələr Xəzər dənizinin Bakı şəhərinə yaxın qərb sahillərində arxeoloji tədqiqat və qazıntı işləri aparılana qədər fərziyyə olaraq qalacaqdır. Ptolemeyin xəbər verdiyi kimi, eramızın ilk əsrlərində şəhərlərin mövcud olması ehtimalına gəldikdə isə, V.V.Bartold aşağıdakıları deyir: "Pompeyin yürüşündən bir neçə əsr sonra burada mədəniyyətin artıq eramızın I və II əsrlərində şəhərlərin meydana gələ biləcəyi qədər güclənəcəyini söyləmək çətindir".[74]

Lakin Qəbələ və Gəncə şəhər yerlərində, Mingəçevir yaşayış məskənlərində, Gilgilçayda, Beşbarmaqda, Zaqatala yaxınlığında və başqa rayonlarda müdafiə divarlarının, sədlərinin, istehkamların xarabalıqlarında aparılan arxeoloji qazıntılar Bartoldun şübhələrini dağıdır və erkən orta əsrlər dövründə Azərbaycan ərazisinin sıx məskunlaşdığını və burada şəhərlərin mövcudluğunun labüdlüyü səviyyəsində yüksək mədəniyyətin olduğunu göstərir.

1. BAKININ SALINMA (YARANMA) TARİXİ VƏ ADI HAQQINDA

Bakı şəhəri Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin sahilində, külək və fırtınalardan yaxşı qorunan buxtadadır. Köhnə Bakı qalası amfiteatr şəklində Bakı platosunun cənub yamacında, Abşeron yarımadası üçün səciyyəvi olan isti iqlimə malik yarımsəhra zonasında yerləşir. Onun şimal hissəsi qumlu sahillər, kəndlər, bağ

yerləridir. Şimal sahillərinin qənşərində Abşeron arxipelaqına daxil olan Pirallahı, Çilov, cənub sahillərinin qənşərində isə Böyük Zirə, Daş Zirə, Qum Zirə, yaxud Təzə Zirə adaları yerləşir.

Abşeronun təki neft və qaz yataqları ilə zəngindir. Yarımadanın səthində bollu əhəngdaşı və ağardıcı gil vardır. Abşeronun şimal hissəsi palçıq vulkanları və şor göllərlə – Böyükşor, Bülbülə, Masazır – örtülmüşdür. Cənubi Qafqaz ölkələrindən şimala – Rusiyaya, şərqə – Orta Asiyaya və Hindistana və cənuba – İrana gedən karvan və dəniz yollarının üstündə yerləşən şəhərin son dərəcə əlverişli coğrafi mövqeyi, rahat buxtanın mövcudluğu onun liman və qala kimi inkişafına təkan verən amillər olmuşdur.

Bakı təkcə Azərbaycanın deyil, eləcə də bütün Yaxın Şərqin qədim şəhərlərindən, iqtisadi və mədəni mərkəzlərindəndir. Bakının yaşayış məntəqəsi və şəhər kimi nə vaxt meydana gəlməsi onun arxeoloji baxımdan az öyrənilməsi və erkən tarixinə dair mənbələrin kasadlığı üzündən indiyədək dəqiqləşdirilməmişdir.

Məlumdur ki, məhsuldar qüvvələrin (sənətkarlığın) inkişafı və ticarətin yüksəlişi şəhərin sosial-iqtisadi kateqoriya kimi təşəkkülünün həlledici amilləridir. Bu zəmində orta əsr Azərbaycan şəhərləri, adətən, qədim yaşayış yerlərində və qalaların ətrafında meydana gəlirdi. Bəzi şəhərlər təbii sərvətlərin – mis və dəmir filizi, neft, duz və digər faydalı qazıntıların istismarı ilə əlaqədar yaranırdı. Ehtimal ki, qədim yaşayış məskəninin yerində meydana gəlmiş Bakı da belə şəhərlərdəndir.

Bakı ətraf torpaqların təkindəki neft və duzu, ticarət üçün gözəl təbii limanı olan əlverişli coğrafi mövqeyi ilə qədim zamanlardan insanları özünə cəlb edirdi.

Görünür, hələ uzaq keçmişlərdə şimaldan, Dərbənd keçidindən və cənubdan, ehtimal ki, Qobustandan keçərək Abşeron ərazisinə gələn qəbilələr buranın aborigen əhalisi ilə qaynayıb-qarışaraq, onun bir sıra kəndlərinin və Bakının özünün adında iz buraxmışlar.

Azərbaycanın bir sıra şəhərlərinin salınmasını Sasani şahlarının adına çıxan ərəb və fars coğrafiyaşünasları Bakını xatırlayarkən onun meydana gəlməsi haqqında heç nə demirlər. Lakin məlumdur ki, Sasani hökmdarları, əksər hallarda şəhərlər salmır, şimaldan onların torpaqlarına basqın edən xəzərlərin və digər xalqların hücum təhlükəsinin qarşısını almaq üçün dövlətlərinin şimal sərhəddin-

dəki mövcud yaşayış məskəni və şəhərlərini qala divarları və bürclərlə möhkəmləndirirdilər. Daha sonrakı müəlliflər – XVII əsr türk səyyahı Övliya Çələbi[75] heç bir mənbəyə isnad etmədən Bakı şəhərinin təməlinin qoyulmasını Əhəməni şahı Daranın[76], XIX əsrin əvvəli Azərbaycan səyyahı Zeynalabdin Şirvani[77] isə Sasani şahı Ənuşirəvanın (VI əsr) adına çıxmışlar.[78]

Bakının yaranma tarixi məsələsinin aydınlaşdırılmasında Abşeron yarımadasının qədim zamanlardakı həyat şəraiti və məskunlaşmasının əhəmiyyəti böyükdür.

Arxeoloji tədqiqatlar və qazıntılar Abşeron yarımadasının yaxınlığındakı ərazilərin – Qobustanın çox qədim zamanlardan – Daş Dövründən qədim insan tərəfindən məskunlaşdığını göstərmişdir. Abşeronda Tunc və Dəmir dövrlərinə məxsus inkişaf etmiş həyat tərzinə malik yaşayış yerləri olmuşdur. Bakının tarixinin qədimliyinin aydınlaşdırılmasında köhnə Bakı qalasında – İçərişəhərdə və onun hüdudlarından kənarda aşkar edilmiş arxeoloji materialların mühüm əhəmiyyəti var. Q.Aslanovun Bayılda aşkara çıxardığı Tunc dövrünə aid qaya rəsmləri, İçərişəhər ərazisində tapılmış tunc balıq fiquru, Bakı yüksəkliyinin zirvəsində Şirvanşahlar sarayındakı qayada Qobustandakı kasavarı oyuqlara bənzər oyuqlar və içərisinə saxsı qablar qoyulmuş qəbirlər olan islamaqədərki çoxtəbəqəli qəbiristanlıq Bakı ərazisində Tunc və antik dövrlərdə yaşayış məskəninin mövcud olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı Şirvanşahlar sarayının yuxarı həyətində boğazının forması e.ə. IV-I əsrlərə aid edilən Yaloylutəpə küpələrinin boğazına oxşayan küpənin, Sınıqqala məscidi ərazisində antik dövrə – e.ə. IV-I əsrlər və eramızın I əsrinə aid Şamaxı və Nüydü saxsı qablarına oxşayan əl ilə hazırlanmış saxsı qab qırıqlarının, boz gildən hazırlanmış Tunc dövrünə aid qadın heykəlciyinin, dəmir ox ucluğunun, saxsı qab qırıqlarının, formaca antik amforalara bənzəyən antik dövrə aid böyük küpənin, habelə, İçərişəhərdə antik dövrün böyük şəhər binalarının sütun bazarlarına oxşayan iki altlığın tapılması köhnə Bakı qalasını antik dövr şəhəri hesab etməyə və onun yaşını iki min ildən çox müəyyənləşdirməyə imkan verir.

Qız qalasının şimal ətəyində aparılan qazıntılar (*F.İbrahimova görə*) zamanı Bakı şəhərinin erkən dövrünə aid köhnə binanın yarımxaraba otaqları aşkar edilmişdir.

Bakı Dərbənd keçidindən keçən köçəri şimal tayfalarının tez-tez baş verən basqınları ilə əlaqədar qala divarları da xəndəklə əhatə edilən qədim yaşayış məskənlərində meydana gələn Azərbaycan şəhərləri tipinə mənsub olmuşdur.[79]

Bakı qədim zamanlardan əhalini buraya cəlb edən neft və duz kimi iqtisadi bazaya malik idi. Əvvəllər məişət ehtiyaclarına sərf olunan neft sonralar ixrac malına çevrildi.

Müxtəlif Şərq ölkələrinə aparılan neft və duz hasilatı və zəfəran becərilməsi Bakının şəhər kimi böyüməsinin mühüm stimulu idi. Neft istehsalı neft təsərrüfatı ilə bağlı bir sıra sənətlərin, o cümlədən nefti ixrac etmək üçün gildən və suiti dərisindən qablar hazırlanmasını tələb edirdi. Bu zəmində kiçik bir yaşayış məskəni böyüyüb adı orta əsrlərdə neftlə və odla əlaqələndirilən Bakı şəhərinə çevrilə bilərdi. Musa Kalankatlının (VII əsr) "Albaniya tarixi" əsərində Kür çayı hövzəsində neft və duz hasil edildiyi göstərilir. IX-XI əsrlər ərəb və fars tarixçi və coğrafiyaşünaslarının (Bəlazuri, İstəxri, Əbu Düləf və b.) əsərlərində Bakının erkən dövr tarixinə aid məlumatlar qalmışdır. Onlar Bakının adını neft və qaz fontanları, neftlə hopdurulmuş Abşeron torpağında bol olan isti mineral çeşmələr və palçıq vulkanları ilə bağlı çəkmişlər. Yazılı mənbələrdən başqa, əlimizdə həm arxeologiya, həm də numizmatikaya aid maddi mədəniyyət abidələrinə məxsus məlumatlar vardır. Köhnə qaladakı təpədə, Şirvanşahlar sarayı ərazisində aparılan arxeoloji qazıntılar zamanı VIII əsrə aid çoxlu saxsı qab qırıqları və həmin dövrə aid əhalisi sıx olan orta əsr şəhər məhəlləsindəki tikili və evlərin qalıqları aşkar edilmişdir.[80] İlk numizmatika tapıntısı köhnə qala ərazisində aşkar edilmiş eramızın VIII əsrinə aid Abbasi sikkəsidir.[81] IX və sonrakı əsrlərə aid sikkələr də tapılmışdır. Ən mühüm tapıntı Bakı bölgəsində aşkar edilmiş V-VII əsrlərə aid üç Sasani sikkələri dəfinəsidir.[82]

Bu dəfinələrin yeri dəqiq məlum olmasa da, Bakı bölgəsində hər birində 80-dən çox gümüş Sasani sikkəsi olan üç böyük dəfinənin tapılması onun ərazisindəki qızğın ticarət münasibətlərindən xəbər verir.

Şübhəsiz, Bakı artıq I əsrdə, sonralar ərəb mənbələrinin qeyd etdikləri kiçik liman şəhəri olmuşdur. Onun təşəkkülü isə daha erkən dövrə aiddir. Şəhər, ehtimal ki, uzaq keçmişlərdə meydana

gəlmiş kiçik yaşayış yerində inkişaf etmişdir.[83] Beləliklə, ehtimal etmək olar ki, Bakının antik şəhər kimi yaşı iki min ildən çoxdur. Bakının daha erkən yaranma tarixini dəqiqləşdirmək üçün, göstərdiyimiz kimi, bu ərazidə arxeoloji tədqiqatlar davam etdirilməlidir.

* * *

Bakı adının mənşəyini aydınlaşdırmaq üçün bu bölgənin qədim etnik qatlarını və qədim əhalisinin dilini aşkara çıxarmaq zəruridir. Mənbələr göstərir ki, e.ə. birinci minilliyin sonu və eramızın ilk əsrlərində, Abşeron yarımadası da daxil olmaqla, Xəzər dənizinin qərb sahillərində öz hökmdarlıqları olan skiflər – massagetlər (maskutlar) yaşamışlar. Həmin hökmdarlığın başında Parfiya Arşakilərindən olan hakimlər durmuşlar. Məşqətə, indiki Maştağa kəndinin adı massagetlərlə bağlıdır.

Massagetlərin dəfn adətləri onların Məzdəkiliyə və Zərdüstiliyə mənsub olduqlarını göstərir. Şirvan və Muğan düzlərinin, eləcə də irandilli tatların yaşadığı Abşeronun toponimik və etnoqrafik məlumatları bu dini ayinlərin həmin bölgələrdə geniş yayıldığını göstərir.

Abşeron toponimikasının tədqiqi göstərmişdir ki, onun kəndlərinin adı, əsasən, bizdən çox uzaq zamanlarda yarımadada məskunlaşmış və bir sıra yaşayış məntəqələrinin adlarında iz qoymuş tayfa və xalqların adları və dilləri ilə bağlıdır. Həmin kənd adlarının bəziləri bugünədək qalmaqdadır. Abşeron ərazisi qədim zamanlarda buranın toponimikasında öz izlərini qoymuş maskutlar, mardlar, kürdlər, türklər və b. tayfalarla məskunlaşmışdı. Mardların yaşadığı yeri bildirən Mərdəkan, türklərin məskənini bildirən Türkan, kürdlərin yaşayış yerini bildirən Kürdəxanı etnonimləri açıq-aydın istər mardların, istərsə də türklərin və kürdlərin yarımadanın özgə tayfalara mənsub əhalisi olduğunu və həmin tayfaların Abşeron ərazisində etnik azlıq təşkil etdiyini göstərir. Abşeron toponimikasında İran qatı olduqca güclüdür. Ehtimal ki, irandilli əhali bu bölgəyə artıq e.ə. I minilliyin birinci yarısında gəlmişdir. Məlumdur ki, skif tayfaları Azərbaycan ərazisindən gəlib keçmiş və onların bir

hissəsi, şəksiz, göstərilən bölgədə məskunlaşmışdır. Bunu arxeoloji materiallar da sübut edir. Bilgəh, Zabrat, Bülbülə, Ramana, Buzovna, Masazır, Corat, Mərdəkan, Novxanı, Suraxanı, Balaxanı, Nardaran, Digah, Goradil, Xırdalan və digər toponimlər İran leksikasına məxsusdur.[84]

Bakıxanovun XIX əsrin 40-cı illərində verdiyi məlumata görə, Abşeronun təmiz türk dilində danışan altı kəndi istisna olunmaqla, qalan kəndlərin (30-dan artıq) əhalisi türk və tat dillərində danışmışdır.[85] Ərəb və fars mənbələrinin verdiyi məlumata görə, Sasani şahları Qubad və Ənuşirəvan V-VI əsrlərdə öz dövlətlərinin şimal sərhədlərini köçəri türklərin basqınlarından qorumaq məqsədilə bir sıra sədlər və Dərbənd divarını çəkdirmişdilər. Lakin Dərbənd yüksəkliyinin şimal-şərq hissəsində aparılan arxeoloji işlər zamanı e.ə. VIII-VI əsrlərə aid təbəqələrdə Dərbənd istehkamlarının divar qalıqları aşkar edilmişdir. e.ə. V əsrdə, Sasani şahı II Yəzdigərdin hakimiyyəti zamanında (438-457-ci illər) həmin istehkamların əsasında Dərbənd qalasından dənizə qədər bütün keçidin qabağını kəsən və təpənin zirvəsinədək uzanaraq, möhtəşəm Narınqala ilə birləşən divar ucaltmışdı. Sonralar Ənuşirəvanın zamanında çiy kərpicdən hörülmüş divara bitişik, bir növ, ona üzlük olan şimal daş divarı tikilmişdir.[86] Sasani şahları V-VI əsrlərdə Lahican, Təbəristan, Gilan və s. yerlərdən bir sıra irandilli tayfaları şimal-şərqi Azərbaycana köçürmüşdülər. Bəzi tədqiqatçıların (A.Bakıxanov, M.H.Vəliyev-Baharlı) fikrincə, Azərbaycan tatları həmin köçürülmüş qədim iranlıların qalıqlarıdır.[87] Tatlar, şəksiz Abşeron ərazisinin qədim etnik qatlarından biridir. Abşeronda İran mənşəli toponimlərlə yanaşı, ərəb leksikasına mənsub bir sıra kənd adları da – Xilə, Binəqədi, Qala, Zirə və s. qalmışdır. Abşeronda qeydə alınan antroponimiya islamiyyətdən sonrakı dövrə aid olur, ehtimal ki, həmin kəndləri salmış, yaxud onların sahibi olmuş şəxslərin adları ilə bağlıdır. Fatmai, Məhəmmədi, Xocasən (Xoca Həsən), Hökmalı və s.[88]

Abşeronda qeyd olunan İran və ərəb dilləri üçün səciyyəvi toponimlərlə yanaşı, etimoloji cəhətdən türk dillərinə söykənən etnonimlərlə bağlı kənd adları da mövcuddur. Toponimika ilə yanaşı arxeoloji, narrativ və lapidar mənbələrin öyrənilməsi türklərin

Abşeronda e.ə. birinci minillikdə və erkən orta əsrlərdə məskunlaşdığına dəlalət edir. Mənbələr erkən orta əsr mənbələrində türklərlə eyniləşdirilən hunların[89] Midiyaya dəfələrlə basqın etmələrindən xəbər verir.

Hunlar – türklər eramızın ilk əsrlərində Abşeronda olmuş və ehtimal ki, burada məskunlaşmışlar.[90] Hunların Albaniyaya gəlmələrini və basqın etmələrini V əsr müəllifləri Yeğişe və Favstos qeyd etmişlər.[91]

Abşeronun toponimikasında türk ünsürlərinin mövcudluğunu Biləcəri, Əhmədli, Keşlə-qışlaq, Güzdək, Qobu kənd adları təsdiq edir. Buranın səlcuqlardan sonrakı türkləşdirilməsi monqol basqınları ilə bağlıdır. Bunun izləri Saray kəndinin adında özünü göstərir. Məlum olduğu kimi monqollar zamanında bu adda bir neçə şəhər mövcud idi. Ağburun, Çəmbərəkənd, Lökbatan, Sabunçu, Dərin ağıl və s. adlar da türk mənşəli toponimlərə mənsubdur.[92]

Abşeron toponimikasının tədqiqi aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir. Toponimika məlumatları göstərir ki, yarımadanın əsas sakinləri eramızın əvvəlindən Azərbaycan xalqının etnogenezində mühüm komponentlərdən biri kimi iştirak etmiş türkdilli tayfalar tərəfindən intensiv infiltrasiyaya məruz qalmış irandilli əhali olmuşdur.

Ərəb tayfaları Azərbaycanın müxtəlif yerlərində yerləşdirilmələrinə baxmayaraq, türkdilli, irandilli və qafqazdilli tayfalardan ibarət yerli əhali tərəfindən assimilyasiyaya uğradılmışdır. Onların dilləri toponimikada və yerli dillərin leksikasında iz buraxaraq aradan çıxmışdır. Bu, ərəb istilası başlayarkən ölkədə türk və İran ünsürlərinin sabitləşdiyini göstərir.

Abşeronun araşdırdığımız toponimləri arasında ən çətin izah olunanı və maraqlısı Bakı şəhərinin adıdır. Biz Bakının unudulmuş qədim adını aydınlaşdırmağa, onun etimologiyasını müəyyənləşdirməyə, uzun bir tarixi dövr ərzində məruz qaldığı dəyişiklikləri izləməyə və izah etməyə cəhd göstərəcəyik.

Bakı şəhərinin adına ilk dəfə V-VIII əsr mənbələrində Baqavan, Atli (Atşi) Baqavan və Atşi (Atəşi) – Baquan* rast gəlinir. Bir sıra müəlliflərin fikrincə, bu ad altında Bakı nəzərdə tutulur. "Baqavan"

---

* Atşi (Atəşi) – yəqin ki, bu Baqavan deməkdir.

toponimii Hind-Avropa dillərinin bir çoxunda "allah", "günəş" mənalarını bildirən "baqa" kökündən ibarətdir.

Sanskrit dilində "bhaqa" – günəş, ay, Siva (ilahə) deməkdir; Avesta və qədim İran dillərində "baqa" "allah"dır.[93] "Baqa" sözünə "allah" mənasında e.ə. VI əsr Bisitun mixi kitabəsində də rast gəlinir.[94] Pəhləvi dilində "baq", qədim erməni dilində "baqa" allah deməkdir.[95] Məlum olduğu kimi bu söz qədim erməni dilinə qədim fars dilindən keçmişdir. "Baqa" sözünə böyük, ilahə, allah mənalarında qədim türk dillərində də rast gəlinir.[96] "Baqavan" toponimi "Baqa", yaxud "Baq" söz kökündən və "van" şəkilçisindən ibarətdir. Azərbaycan, Ermənistan, İran və digər Şərq ölkələrinin bir çox şəhər və yer adlarında təsadüf olunan "van" şəkilçisi böyük, mühüm şəhər mənası bildirir. 50-yə yaxın, o cümlədən Şir-van, Naxçı-van, Həftə-van, Mehre-van, Kəmüşa-van, İrə-van, Sar-van, Bacir-van və s. adları misal çəkmək olar.[97]

Sasanilər dövründə və ondan xeyli əvvəl Azərbaycanın şimal-şərq və cənub hissələrində, Ermənistanda, İranda, "Baqa-van", "Baqa-ran", "Baq-in", "Baqa-yaric"[98] və s. adlı şəhərlər və yaşayış məntəqələri mövcud olmuşdur. Bu məntəqələrin hər birində sönməz od yanırdı, onlarda, V-VIII əsr tarixçilərinin qeyd etdiyi atəşpərəstlik bütxanələri, qurbangah və məbədləri var idi.[99] Atəşpərəstlərin belə müqəddəs dini yaşayış məntəqələrindən biri də Movses Xorenli (V əsr)[100], Anani Şirakasi (VII əsr)[101] və Gevondun (VIII əsr)[102] adını çəkdikləri Baqavan, Atli (Atəşi) – Baqavan və Atəşi – Baquan şəhəri idi.

Qeyd edilməlidir ki, bir neçə "Baqavan" olmuşdur.* Movses Xorenlidə aşağıdakıları oxuyuruq: "O (eramızın III əsrində hakimiyyət sürmüş Sasani şahı Ərdəşir – *S.A.*), məbədlərdə ibadəti daha da gücləndirdi, Hürmüzdün Baqavandakı qurbangahlarında odun daim yandırılmasını əmr etdi".[103] Bakıda olmuş hind alimi, atəşpərəst – pars Modi qeyd etmişdir ki, qədim hind kitabələrində Xəzər dənizinin qərb sahillərində atəşpərəstlərin çoxlu məbədlərinin olduğu göstərilmişdir.[104] Bakı sakinləri arasında qədimdə İçərişəhərdə atəşpərəstlərin məbədi olması haqqında rəvayət qalmaqdadır.

---

* Bax: И.А.Орбели. Избранные труды, 1963, с.371.

"VII əsr erməni coğrafiyası"nda Xəzər dənizi sahillərinədək uzanan və Araza gedib çatan Paytakaran (Beyləqan) əyalətinin adı çəkilir. Bu əyalət bir vaxtlar Atropatenanın tərkibinə daxil olmuşdur.[105] Coğrafiyanın müəllifi bu əyalətin 12 "vilayətinin" (rayonunun – *S.A.*), o sıradan Atli (Atşi-Atəşi) Baqavanın adını çəkir.[106] Həmin coğrafiyanın tərcüməçisi K.P.Patkanov "Baqavan" sözünü çağdaş Bakı ilə eyniləşdirir və belə hesab edir ki, qədimdə neft və qaz mənbələri ilə zəngin olan bu əyalətin ayrı-ayrı yerlərinin adlarında "od", "qurbangah" mənalarını bildirən sözlər olmuşdur.[107]

Ərəb coğrafiyaşünası əl-İstəxrinin 930-cu ildə yazdığına görə, Bakının yaxınlığında atəşpərəstlər yaşayırdı.[108] Şübhəsiz, bu bölgədə atəşpərəstlərin pirləri və qurbangahları olmuşdur. Onların qalıqları Bakının ətrafında hələ XIX əsrin sonlarınadək dururdu. Xəzərlərin 730-cu[109] ildə Albaniyaya basqını və onun bir sıra şəhər və qalalarının dağıdılması ilə əlaqədar Albaniyada baş verən hadisələri təsvir edək. VIII əsr müəllifi Gevond xəzərlərin dağıtdıqları vilayətlər sırasında Atşi-Baquanın da adını çəkir.[110] Atəş sözünün təhrif olunmuş şəkli olan Atş-od, Atşi-Baquan isə – "Baquanın odları" deməkdir. Şübhə etməmək olar ki, burada söhbət Bakıdan gedir.

Şərqşünas M.S.Sen-Marten XIX əsrin əvvəllində göstərirdi ki, V-VII əsr mənbələrində adı çəkilən Baqavan elə qədim Bakının adıdır. O yazırdı ki, çoxlu neft mənbələrinə və öz-özünə alışıb yanan qaz çıxdığına görə Bakı ta qədimdən parsların sitayiş etdikləri müqəddəs yer olmuşdur. Atəşpərəstlər buradakı bir çox yerlərdə "əbədi" od yandırırdılar. Və təəccüblü deyil ki, Bakının hakimləri, yaxud onların təbəələri onu atəşə sitayiş yerinə çevirmişdilər.[111]

Movses Xorenlinin, Anani Şirakasinin və Gevondun məlumatlarına isnad edən Əhməd Kəsrəvi Təbrizi Baqavan və Atəşi Baquanı Bakı ilə eyniləşdirir və bu sözün mənasını "allah şəhəri", yaxud "allah yeri" kimi yozurdu.[112] Şəhər atəşpərəstlərin baş məbədlərindən biri burada yerləşdiyi üçün belə adlanırdı. Kəsrəvi qeyd edirdi ki, "Badkubə" şəhərin sonrakı və təhrif olunmuş adıdır.[113]

Beləliklə, bəzi müəlliflərin etimologiyası Sasanilər dövründən qədim fars dili ilə izah olunan Baqavan, Atli (Atəşi) Baqavan və Atşi (Atəşi) – Baquan toponimləri qədim Bakının adlarıdır. Gürcü

salnaməsi "Kartlis Tsxovreba"da da Şirvandakı bizim Bakı ilə eyniləşdirdiyimiz Baqavanın adı çəkilir. "Kartlis Tsxovreba"da gürcü hökmdarı IV Georgi Laşanın 1222-ci ildə bacısı Rusudanın şirvanşahla nikah və toy mərasimlərində iştirak etmək üçün Şirvanşahların iqamətgahı Baqavana gəldiyi xəbər verilir. Lakin toy baş tutmamışdır, belə ki, hökmdar Georgi burada on gün qaldıqdan sonra xəstələnmiş və 1222-ci il yanvarın 18-də gündüz saat 4-də ölmüşdür. Rusudana Gürcüstana qayıtmış və elə həmin il hökmdar elan edilmişdir. Mənbədə şirvanşahın adı çəkilmir. Ehtimal ki, Rusudana I Gərşəsbin oğlu III Fəribürzə, yaxud şirvanşahın özünə ərə getməli imiş.

Toy nə üçün şirvanşahların paytaxtı Şamaxıda deyil, Baqavanda – Bakıda olmalıymış? Bu sualın cavabını XIII əsrin əvvəlinə aid gürcü mənbəyində tapırıq. Orada 1191-ci ildə Şamaxıda şəhəri yerlə-yeksan edən zəlzələ baş verdiyi göstərilir. Şamaxı dağıldıqdan sonra Şirvanşahların iqamətgahı Bakıya köçürülür. Gürcü salnaməsində Bakı şəhərinin VII əsr erməni coğrafiyasında təsbit olunmuş adının – Baqavanın qorunub saxlanması bizə bu iki adı eyniləşdirməyə imkan verir.[114]

XIX əsr İran müəllifi Məhəmmədhəsən xan Etimad əs-Səltənə Sasani dövrü tarixçisi Həmzə əl-İsfahaninin Sasanilər dövründə Dəryaye-Akfudə adlandırılan Xəzər dənizi haqqında məlumatına istinad edərək, Akfudəni Bakının qədim adı sayır.[115] XVII əsrdə qədim fars mənbələri əsasında tərtib olunmuş fars dili lüğəti "Bürhane-qate"də "Akfudə" sözündə Həmzə əl-İsfahaninin məlumatı təsdiq olunur.[116]

Çağdaş İran müəllifi Bastani Pərizi Bakının qədim müqəddəs şəhərlərdən biri və onun adının müqəddəs "boq" sözündən nəşət etdiyini yazır. Və ehtimal ki, onun adı atəşpərəstlərin bu şəhərdəki ziyarətgahı və məbədi ilə bağlıdır.[117]

"VII əsr erməni coğrafiyası"nda Sarmatiyada*, "Qafqaz dağları qollarının gəlib çatdığı və dənizdə nəhəng istehkam olan Dərbənd divarının ucaldıldığı Xəzər dənizinin lap yaxınlığındakı" ərazilərdə yaşayan 53 xalqın, o cümlədən xellərin, kaspilərin, şirvanların, ijamaxların, baqanların, maskutların adları sadalanır.[118] Mətndə

---

* Bu coğrafiyanın müəllifi Sarmatiya dedikdə Azərbaycanın şimal hissəsini, Dağıstanı və Şimali Qafqazdakı digər bölgələri nəzərdə tutur.

xatırlanan "baqanlar" etnonimi, ehtimal ki, "baqa", yaxud "baq", yəni, "boq" sözündəndir. "An" orta İran dillərində cəm şəkilçisidir. (Sonralar, orta əsr toponimlərində "yer", "yaşayış yeri" bildirmişdir). Beləliklə, "baqan" sözü "atəşpərəstlər" mənasını bildirə bilər. Xəzər dənizinin qərb sahillərindəki baqan tayfasının yayıldığı həmin ərazi Abşeronda və Bakıda olmuş və cənubda Muğana, şimalda isə Dərbəndə qədər uzanmışdır.

Abşeron toponimikasında qorunub saxlanmış tayfa adları tədqiqatçıya müxtəlif tarixi dövrlərdə onun əhalisinin etnik tərkibini müəyyənləşdirməyə imkan verir. Bir çox hallarda söz birləşməsindən ibarət olan xüsusi adlar da yerin qədim sakinlərinin dil və dini əlamətlərini açıqlamaq baxımından mühüm mənbədir. Məlumdur ki, hidronimlər kimi toponimlər də çoxyaşarı olub, min illər boyu qorunub saxlanmaqla, nə vaxtlarsa həmin ərazidə yaşamış xalqların adlarını özlərində əks etdirirlər.

Xatırlanan coğrafiyada göstərilən xalq adları öyrənilərkən aydın olur ki, bir sıra şəhər və vilayətlərin adları qədim zamanlarda bu yerlərdə yaşamış tayfaların adlarından götürülmüşdür. Bu ehtimalı Abşeron toponimikasının öyrənilməsi də təsdiq edir. Məsələn, qədim müəlliflər iqrar edirdilər ki, Kaspi dənizinin adı kaspi tayfasının[119] adındandır. Abşerondakı Məşqədə (indiki Maştağa) kəndinin adını Xəzər dənizinin sahillərində yaşamış maskutlar vermişlər.[120] Maskutlar antik müəlliflərdə adı çəkilən massaketlərdir.[121] Xellər qədim türk tayfası xaylandurların müxtəsər adıdır, ijamaxlar şamaxılılardır; Abşerondakı Gürgan şəhər yeri girkanların, Mərdəkan mardların[122], Türkan türklərin[123], Kürdəxanı kürdlərin[124] adındandır və s. Əhmədli[125] kəndinin adı "Əhmədli" türk tayfasının adı ilə bağlıdır.

Adlarından Abşerondakı yer adlarının törəndiyi bəzi tayfalar atəşpərəst idilər və onların burada öz məbədləri, səcdəgahları olmuşdur. Bunu Atəşi-Baqavan adı da sübut edir.

Çox ehtimal ki, qədimdə Bakı yaxınlığındakı Bibiheybət yüksəkliyində sonralar, islamiyyət dövründə, pirə çevrilmiş atəşpərəstlik məbədi mövcud olmuşdur. Təsadüfi deyildir ki, Bakı sakinləri arasında indiyədək belə bir rəvayət qalmaqdadır ki, İçərişəhərdəki "Cümə məscidi" və erməni kilsəsi qədim atəşpərəstlik məbədlərinin yerində tikilmişdir.[126] Suraxanıda təbii qazın yandığı yer-

dəki "Atəşgah" da, görünür, qədim atəşpərəstlik məbədinin yerində tikilmişdir. Abşeron kəndlərinin əhalisi islamı qəbul etdikdən sonra həmin yer hindlilərin ibadətgahına çevrilmişdir. Bizcə bu, Abşeron əhalisinin ta qədimlərdən atəşpərəst olduğunu göstərir.

Cənubi Qafqaz ölkələrinin ərəblər tərəfindən istilasından sonra, IX-X əsrlərdə ərəb müəlliflərinin istila olunmuş ölkələrdən, o cümlədən, Arran və Şirvandakı bəhs edilən və ən mühüm şəhərlərinin siyahısı verilən bir sıra tarixi-coğrafi əsərləri meydana gəldi. Ərəb transkripsiyası həmin şəhərlərin qədim adlarını olduqca dəqiq əks etdirirdi. Bakı sözünün ərəb transkripsiyasında həmin şəhərin dəqiq adına uyğun gəlməsi şübhə doğurmur.

Digər erkən orta əsr mənbələrinin tədqiqi ərəb müəlliflərinin Bakının adını düzgün ifadə etdirdiyini təsdiqləyir.

Bu məsələnin tədqiqinə başlamazdan əvvəl Şərq mənbələrində "Bakı" sözünün müxtəlif yazılışlarının üzərində dayanmaq lazımdır. Onun X əsrə aid ən erkən yazılış forması aşağıdakı şəkildədir:

باکو، باکو (Bakuh) əl-İstəxri, 930-cu il.[127]

باکه ، باکو (Bakuh) əl-Məsudi, 943-944-cü illər.[128]

باکویه (Bakuyə) Əbu Düləf, 942-952-ci illər.[129]

باکو (Baku) Hüdud əl-aləm, 982-ci il.[130]

باکوه (Bakuh) əl-Müqəddəsi, 985-ci il.[131]

XI əsrdən başlayaraq sonrakı mənbələrdə Bakının adı aşağıdakı şəkildə verilir:

باکوه (Bakuh) əl-Biruni (XI əsr)[132], Əbu Həmid əl-Əndəlusi əl-Qərnati (XII əsr)[133].

باکو (Baku) Xaqani Şirvani (XII əsr)[134], Rəşidəddin (XIV əsr)[135], Həsən bəy Rumlu (XVI əsr)[136], Əmin Əhməd ər-Razi (XVI-XVII əsrlər)[137], Övliya Çələbi (XVII əsr)[138], Hacı Xəlifə (XVII əsr)[139].

باکویه (Bakuyə) Yaqut (XII əsr)[140], Nəsirəddin Tusi (XIII əsr)[141], Zəkəriyyə Qəzvini (XVIII əsr)[142], Həmdullah Qəzvini (XIV əsr)[143], Əbu-l-Fida (XIV əsr)[144], İbn İyas (XVI əsr)[145], Sadiq İsfahani (XVII əsr)[146].

باکویه (Bakuyə) Bakuvi (XV əsr)[147].

Bununla yanaşı, XVI-XVII əsrlərdən etibarən və sonralar bir sıra yerli və fars mənbələrində "Bakı"nın qədim formasından fərqlənən yeni yazılış şəkli – بادکوبه (Badkubə) meydana çıxır: "Dər-

bəndnamə"[148], İsgəndər Münşi (XVII əsr)[149], Mirzə Məhəmməd Mehdi xan Astarabadi (XVIII əsr)[150], Məhəmmədhəsən xan Etimad əs-Səltənə (XIX əsr)[151] və s.

بادکوبه (Badkubə) sözü fars dilində (bad-külək, kubə, kubidən – döymək, vurmaq sözündən) "külək döyən (vuran, tutan) yer" deməkdir. Bu ad Bakının şimal küləklərinə (xəzri) məruz qalması ilə bağlı meydana gəlmişdir. Lakin bu cür yozum xalq etimologiyası olub, həmin sözün qədim yazılış şəklini təhrif edir. Bu yazılışın XVI əsrdə təsadüf olunan بادکویه (Badkuyə), yaxud بادکو (Badku) formasında müxtəsər şəkli də var.[152]

Şəhərin çağdaş adına – Vasi, yaxud Vashi (Baku) XIII əsrdən etibarən Qərbi Avropa səyyahlarının əsərlərində rast gəlinir.

XVII əsr italyan səyyahı Pyetro Della Valledə rast gəlinən Vahsüh[153] (Bakuh) forması, B.Dornun fikrincə, mazandaranca باد-وا (bad-va) – külək və کوه (kuh) – dağ sözlərindəndir.[154]

Rus mənbələrində Bakının adı "Baka" kimi yazılır. Nəhayət, azərbaycanlılar, o cümlədən Abşeron əhli öz şəhərlərini Bakı (i), adlandırırlar.

Əgər X-XVII əsrlər ərəb, Qərbi Avropa və rus coğrafiyaşünas və səyyahlarının xəritələrini tutuşdursaq, Bakı şəhərinin adının yazılışı aşağıdakı şəkildə olacaqdır:

Əl-İstəxri (X əsr)[155]	– Bakuh
Katalon (1375)	– Bacu
Fra Mauro (1459)	– Bachu
Lezi (XV əsr)	– Bachu
Valdzemüller (XVI əsr)	– Bacu
Cenginson (XVI əsr)	– Bakhow
Harrits (XVII əsr)	– Baca
Fyodor Qodunov (1613)	– Baca
Oleari (XVII əsr)	– Bakuie
Stryuys (XVII əsr)	– Backu
Palmkvist (XVII əsr)	– Backu[156]

Bakı şəhərinin adının qorunub saxlandığı sənədlər arasında köhnə qala – İçərişəhər ərazisindəki məscidlərin divarlarındakı kitabələr də çox qiymətlidir.

Qız qalası yaxınlığındakı Cümə məscidi minarəsinin bünövrə daşındakı kitabədə Elxani sultanı Məhəmməd Əlcaytunun (hakimiyyət illəri 1304-1316) yarlığının mətni həkk olunmuşdur.[157] Orada "Bakı" sözü باکویه – Bakuyə şəklində çəkilir.

Numizmatik məlumatlardan göründüyü kimi, Elxanilərin, Cəlairilərin və Şirvanşahların XIV-XV əsrlərdə Bakıda kəsdirdikləri sikkələrdə "Bakı" sözü باکویه – Bakuyə şəklində yazılmışdır.[158]

Beləliklə, yazılı mənbələr, xəritələr, kitabələr və numizmatik tapıntılar göstərir ki, "Bakı" sözünün ən erkən və geniş yayılmış şəkli باکو (Baku) və onun tez-tez xüsusi adlara və vilayət, şəhər, yaxud yaşayış məntəqəsi bildirmək üçün mücərrəd mənalı isimlərə əlavə edilən یه (yə) və ه (h) ərəb şəkilçiləri[159] (məsələn, Muğan – Muğaniyyə, Yəzid – Yəzidiyyə, Şamaxı – Şamaxiyyə, Baku – Bakuyə və s.) qoşulmaqla yaradılan variantlarıdır.

"Boq" (dolayısı ilə – "günəş", "od") bildirən "baqa" sözü "baqlar"* ("baqan–bakan") atəşpərəstlər tayfasının (yaxud təriqətinin), eləcə də VII əsr mənbəyində qeyd olunmuş "Atəşi-Baqavan" şəhər və vilayətinin adının kökünü təşkil edir. VIII əsrdə (Gevond) Bakının adına Atəşi-Baqavanın bir qədər dəyişilmiş forması olan "Atşi-Baquan" şəklində rast gəlirik. VIII əsrdə "Baqa" sözünün kökü Bakıda, Abşeronda və Azərbaycanda türk əhalisinin artması ilə əlaqədar, Badkubə sözündə olduğu kimi, xalq etimologiyası nəticəsində dəyişə bilərdi; türkcə "Baqu–Baku" "təpə"** mənasında işlənə bilərdi, fars dilindəki "an" şəkilçisi isə orta əsr toponimlərində "yer, məskən, yaxud şəhər" bildirirdi. "Baku" sözünün kökü ərəblər ölkəni istila etdikdən sonra, artıq VIII əsrdə asanlıqla dəyişilib "Baku"ya çevrilə bilərdi, belə ki, "q" səsinin "k" səsinə keçməsi.

(غ–ا) həm türk – Azərbaycan, həm də, fars və ərəb dillərində qanunauyğun haldır. Baku sözünün ərəbcə yazılışında "Baquan" adındakı "ان" fars şəkilçisi ərəb dilinin fonetik qanunlarına görə

---

* "Baqlar" tayfasının adına Musa Kalankatlının "Albaniya tarixi"ndə 827-ci il hadisələri ilə əlaqədar rast gəlirik (səh.267). "Bakanlar" Xəzər dənizinin Qafqaz dağları qollarının gəlib çatdığı sahillərində, yəni Abşeronun yaxınlığında və onun özündə lokallaşdırılır. "Baqan" etnoniminin adı Sükrinin "Coğrafiya"sında çəkilir (səh.37).

** Древнетюркский словарь. Л., 1969; Mahmud Kaşqari. Divani-lüğəti-t-türk, III cild, XI əsr.

şəhər, yaxud yaşayış məskəni bildirən "يه" şəkilçisi ilə əvəz edilmiş və həmin söz "Bakuyə" şəklinə düşmüşdür. Bakı – Baku adının çağdaş yazılışı özünün qədim şəklinə tam uyğundur, o, Baqavan toponimindən Atşi-Baqavan, Atşi-Baquan, Baku, Bakuh, Bakuyə, Badkubə, Badku, Baku və Bakı toponimlərinədək mürəkkəb dəyişmə yolu keçərək xalq etimologiyasının təsiri altında yeni şəkil almışdır. Bu dəyişikliklər tarixi amillərin inkişafının labüd nəticəsidir və çağdaş Bakı – Baku toponimində onun təpə ilə deyil, yanar neft və qaz fontanları ilə bağlı "Boq – allah şəhəri, allah yeri" kimi qədim mənasını görürük.

Ə.Hüseynzadə və İ.Abdullayevin Bakı sözünün "təpədə yaşayış məskəni"[160] mənasını bildirməsi barədə L.Q.Lopatinskinin fərziyyəsinin təkrarı olan ehtimalları tənqidə dözmür, belə ki, Mahmud Kaşqarinin (XI əsr) qeyd etdiyi "Bəqu" – təpə sözü nə tələffüz, nə də yazılış baxımından X əsrin birinci yarısından etibarən ərəb-fars mənbələrdəki "Baku" sözünə uyğun gəlmir. "Baqu – Baku" sözü Azərbaycanda, İranda və əhalisi türkdilli olan başqa ölkələrdə bu cür yaşayış yerləri təpə adlanmışdır və belə komponentli bir sıra toponimlər – Təpə Giyan, Təpə Sialk, Təpə Hissar və i.a. – bizə məlumdur. "Bəqu" – "təpə" toponimi ayrılıqda işlənilmişdir. İran leksikasına məxsus olan Baqavan, eləcə də bakan – baqan terminləri həmin ərazidə və ona yaxın yerlərdə atəşpərəstlik və Zərdüştiliyə sitayişlə bağlı olub, eyni məna daşıyır ki, bu da tarixi və arxeoloji məlumatlara zidd deyil.

II Fəsil

ERKƏN FEODAL BAKISI (VII-X ƏSRLƏR)

1. SİYASİ TARİX. BAKI ƏRƏB XƏLİFƏLƏRİNİN VƏ ŞİRVANŞAHLARIN HAKİMİYYƏTİ ALTINDA

Şimali Azərbaycan – antik müəlliflərə görə Albaniya, erkən orta əsr erməni müəlliflərinə görə Ağvank və IX-X əsrlər ərəb və fars müəlliflərinə görə Arran III-VII əsrlərdə Sasanilər İranından asılı olan vassal knyazlığı, yaxud hökmdarlığı olmuşdur. I Xosrov Ənuşirəvanın hakimiyyəti dövründə (531-579-cu illər) və ondan

əvvəl Arran və Azərbaycan[1] İberiya və Ermənistanla birlikdə Sasani imperiyasının dörd inzibati vahidindən – kustaklarından birinin – Şimal mərzbanlığının tərkibinə daxil idi.[2] Kustaklar bir sıra az-çox müstəqil vilayətlərə (şəhərlərə) bölünürdü. Şimal kustakı 13 şəhərdən ibarət idi. Buraya Azərbaycan (Atrpatakan), Ermənistan (Ərmiyə), İveriya (Varcan), Arran (Ran), Balasakan Sisakan və digər vilayətlər (Muğan, Deyləm və i.a.) daxil idi.[3]

İbn Xordadbehin (IX əsr) məlumatına görə "Cərbi", yaxud Şimal ölkələri imperiyanın dörddə bir hissəsini təşkil edirdi. Onun hakimi Şimalın spahbedi (hərbi rəisi) Azərbaycan-spahbed idi. Buraya Azərbaycan, Ermənistan, Arran, Rey və digər ərazilər daxil idi.[4] İbn Xordadbeh xəbər verir ki, Sasani şahı I Ərdəşirin vaxtında (224-241-ci illər) Azərbaycan, Ermənistan və digər ölkələrin hakimləri şah titulu daşıyırdı, məsələn: Azərbazkanşah (Azərbaycanda), Şiryanşah (Şirvanda), Balaşacanşah (Balasakanda), Allanşah (Dərbənddə), Amukanşah (Muğanda), Ərmənşah (Ermənistanda), Filanşah (Dağıstanda)[5] və i.a. Bu məlumatda hələ III əsrdə Şirvanşah (ehtimal ki, Şirvanşah) titulunun mövcudluğu diqqəti cəlb edir. Sasani şahları şah titulunu, ehtimal ki, yarımasılı, vassal hakimlərə verirdilər. VI əsr müəllifi Mitilenli Zaxari Cənubi Qafqazın yerli hakimləri haqqında maraqlı məlumat verir: "Bu şimal məmləkətində 24 yepiskopu olan beş xalq yaşayır. Onların katalikosu İran Ermənistanındakı böyük Dvin şəhərində yaşayır. Qurzan da dilləri yunan dilinə bənzəyən bir yerdir; onların fars şahına tabe olan xristian hakimi var. Arran da öz dili, xaçpərəst xalqı olan bir diyardır. Onların fars şahına tabe olan hökmdarı var".[6] Bu məlumatda VI əsr yunan müəllifinin adının çəkilməsi, Arranın özünün dilinin olması və yerli əhalinin dini haqqında xəbərlər diqqətəlayiqdir. Fars şahına tabeçiliyin qeyd olunması Sasanilərdən vassal asılılığını göstərir.

Arranın ərazisi şimal qonşular – Xəzərlər və Bizans tərəfindən daim müharibə və basqın meydanına çevrilmişdi. Sasanilər dövlətin şimal sərhədi olan Arrana böyük əhəmiyyət verir, eramızın ilk əsrlərindən xəzərlərin və digər türk tayfalarının basqınlarından qorunmaq üçün Dərbənd keçidini möhkəmləndirirdilər.

VII əsrin birinci yarısının sonunda Bizansla və xəzərlərlə sürəkli müharibələr, habelə daxili çəkişmələr nəticəsində zəifləyən Sasani imperiyası yenicə meydana gəlmiş və çiçəklənmə dövründə Atlan-

tik okeanından Hindistan və Çinə qədər uzanan ərəb Xilafəti qoşunlarının zərbələri altında süqut etdi. 642-ci ildə Nihavənd yaxınlığındakı döyüş bir sıra ölkə və vilayətlərin daxil olduğu möhtəşəm Sasani imperiyasının taleyini həll etdi. Bu ölkə və vilayətlərin hakimləri həmin dövrdə o qədər müstəqil idilər ki, mərkəzi hakimiyyətə tabe olmamağa başladılar. Ayrı-ayrı vilayətlərin hakimləri müqavimətin faydasız olduğunu nəzərə alıb, ərəblərə itaət edərək, onlarla sülh müqavilələri bağlayırdılar. Həmin müqavilələrdə istilaçılar cizyə vermək şərtilə onların şəhərlərinə, həyatlarına və mülklərinə toxunmamağı öhdələrinə götürürdülər.[7]

Ərəb qoşunları Rey və Qəzvini tutduqdan sonra h.18 (639)-ci ildə Cənubi Azərbaycanı işğal etdilər.[8]

Ərəb qoşunlarının bir hissəsi Azərbaycandan şimal-şərqə doğru irəliləyərək, bir neçə vuruşmadan sonra əhalisi ərəblərə cizyə ödəməyi boynuna götürən Muğanı zəbt etdilər.[9] H.21 (642)-ci ildə ərəb qoşunları Bukayr ibn Abdullahın komandanlığı altında Xəzər dənizinin sahili ilə şimala doğru hərəkət edərək, elə həmin il Bab əl-Əbvaba (Dərbəndə) çatdılar.[10]

Təbərinin məlumatına görə Şirvan 642/43-cü ildə sərkərdə Süraqə ibn Əmri qoşunla Dərbəndi tutmağa göndərmiş ikinci xəlifə Ömər ibn əl-Xəttab (634-644) zamanında fəth olunmuşdur.[11] Süraqə ibn Əmir Şirvana yollandı. Ərəb ordusunun Əbdürrəhman ibn Rəbiə əl-Bəhilinin komandanlığı altında olan ön dəstələri Dərbənd qalasının divarları yanında Bukayrın dəstəsi ilə birləşdi. Onlar Şirvana yaxınlaşdıqda bu vilayətin irsi hakimi, ehtimal ki, Şirvanşah Şəhriyar onlara itaət göstərdi, lakin cizyə verməmək, onu sərhədləri şimaldan gələn köçərilərin basqınlarından qoruyan qoşunun saxlanmasına sərf etmək şərti ilə sülh müqaviləsi bağlamağı tələb etdi. Süraqə Şəhriyarın tələbini nəzərdən keçirib bunu xəlifə Ömərin ixtiyarına buraxdı. Ömər razılıq verdi və Şirvanın hakimləri ərəb hökmranlığı dövründə cizyədən azad olundular.[12] Təbərinin IX əsrin sonu X əsrin əvvəllərində verdiyi bu məlumat diqqətəlayiqdir, belə ki, ona əsasən ehtimal etmək olar ki, həmin qayda Sasanilər dövründə də mövcud olmuşdur. Bu dövrdə Dərbənd keçidi şimaldan Qafqaz Albaniyasına soxulan türklərin və başqa xalqların köçəri ordularının qarşısında sipər olduğundan Sasanilər onun möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdilər. V əsrin ikinci yarısının müəllifi Yeğişe yazırdı ki,

Sasanilər Dərbənd keçidini hunlardan qoruyurdular. Sasani şahı I Yəzdigərdin dövründə, 451-ci ildə "farsların hun vilayətinin sərhədində bir çox əsrlər boyu böyük çətinliklə tikdirdikləri" Dərbənd istehkamları təməlinədək dağıdıldı.[13] Beləliklə, Yeğişenin məlumatına görə, Dərbənd istehkamları bir çox əsrlər boyu mövcud olmuşdur.

Yuxarıda göstərdiyimiz kimi, arxeoloji qazıntılar nəticəsində V-VI əsrlərdə Sasani hökmdarlarının və sonralar VII-VIII əsrlərdə ərəblərin dəfələrlə bərpa etdikləri və tikintisini başa çatdırdıqları e.ə. VIII-VI əsrlərə aid qədim divarlar aşkar olunmuşdur. Bu istehkamlar ərəblərə öz şimal sərhədlərini ərəb mənbələrindən xəzərlər adı ilə məlum olan müxtəlif türk tayfalarının basqınlarından qorumaq üçün lazım idi.

Ərəblər VII əsrin birinci yarısında Şirvanı işğal edərkən şirvanşah Şəhriyar xəlifədən sərhədləri şimaldan gələn köçərilərin basqınlarından qoruyan qoşunu saxlamaq şərtilə, cizyədən azad olunmasını xahiş etmişdi.

Burada söhbət, şübhəsiz, Dərbənddən gedirdi. Mənbələrin məlumatına görə Sasani şahları bu diyara böyük əhəmiyyət verirdilər. Onlar müdafiə sədləri və qala[14] tikdirməklə Dərbəndi möhkəmləndirir, burada onların etibar etdikləri müxtəlif xalqların nümayəndələrindən ibarət böyük qarnizon saxlayırdılar; onların arasında şirvanlılar da var idi. Qarnizon saxlamaq üçün daimi vəsait mənbələri lazım idi.[15] Yaqut maraqlı məlumatlar gətirir: "Bu adamlara (mühafizəçi xalqlara) diyarı müxtəlif kafir türk tayfalarından və digər xalqlardan müdafiə etmək üçün lazım bildikləri hər şeyi tikməyə icazə verilirdi və onlar mərkəzi hakimiyyətdən heç nə istəmir, onu xərcə salmırdılar".[16] Buradan belə bir nəticə çıxarmaq olar ki, onlar Dərbənd istehkamlarının müdafiəsi üçün lazım olan vəsaiti də hələ ərəb istilasından xeyli əvvəl neft mədənlərinin istismar edildiyi və yerində yaşayış məskəni, yaxud şəhərcik olan Bakıdan alırdılar.[17]

Məlumdur ki, türklər VI əsrin ikinci yarısında şərqdə Çindən tutmuş, qərbdə Qafqaz, Bizans və İrana qədər uzanan geniş imperiya yaratmışdılar. VI əsrin ikinci yarısında türklər Qafqaza lap yaxınlaşaraq, həmin vaxtdan etibarən Şirvana daim basqınlar etməyə başladılar. Türklər buna qədər Qafqazdan keçən yola bələd

idilər, belə ki, VI əsr müəllifi Bizanslı Menandrın verdiyi xəbərə görə, türk xaqanı Dizavul İran, sonralar isə Bizansla ipək ticarəti aparmaq və ticarət əlaqələri yaratmaq məqsədi ilə 568-ci ildə Altaydan elçilik göndərmiş və həmin elçilik "Qafqaz dağlarının özünü" aşaraq Bizansa gəlmişdi. Görünür elçiliyin yolu Dərbənd keçidindən və Şirvandan keçmişdir.[18] Şirvan son Sasani şahları və ilk ərəb valiləri dövründə köçəri türklərin və xəzərlərin bir sıra dağıdıcı basqınlarına məruz qalmışdı.[19]

Toponimika ilə yanaşı, bir sıra narrativ və lapidar mənbələrin öyrənilməsi köçəri türklərin Abşerona erkən orta əsrlərdə gəldiyini göstərir. V əsrin birinci yarısı Bizans müəllifi Panili Prisk erkən orta əsr mənbələrinin türklərlə eyniləşdirdiyi hunların dəfələrlə Midiyaya hücum etdiklərini xəbər verir. Yol, ehtimal ki, Böyük Qafqaz dağlarından keçirdi. Eramızın ilk əsrlərində belə basqınların birində hunlar geri qayıdarkən düşmənlərin təqibindən qurtarmaq üçün "sualtı qayalardan od qalxan başqa yolla gedərək öz ölkələrinə qayıtmışdılar".[20]

Priskin Abşeron sahillərinə və onun yanar qazlarına aid məlumatları hun-türklərin eramızın ilk əsrlərində Abşeronda olduqlarını, ehtimal ki, burada məskunlaşdıqlarını göstərir. Abşeron ərazisindəki toponimika burada erkən orta əsrlərdən etibarən qismən türkləşmə prosesi getdiyinə dəlalət edir.[21]

Türklərin Dərbənd keçidindən Qafqaz Albaniyasına köçməsi VI əsrdən başlayaraq və sonralar, VIII əsr mənbələrində qeyd edilir. Türklər Abşerona girərək VIII əsrin birinci yarısında Bakını tutdular. Türklərin bu dövrdə Bakıya basqınları ərəb və erməni mənbələrində qeyd edilir. Ərəblər VIII əsrin əvvəllərində şimala – Dərbəndə doğru və ondan şimal tərəfdəki ərazilərə işğalçılıq yürüşlərinə başladılar. Burada onlar artıq V əsrdən dəfələrlə Albaniyaya hücum edərək onların qala və şəhərlərini dağıdan xəzərlərin və türklərin saysız-hesabsız ordusu ilə toqquşdular.[22] 729-cu ildə xəlifə Hişam (724-743) Cərrah ibn Abdullahı geri çağırdığı Məsləmə ibn Əbdülməlikin yerinə ikinci dəfə olaraq "Ərminiyə[23] və Azərbaycanın" valisi təyin etdi. Cərrah tezliklə şimala yeni hücuma başladı.[24]

VIII əsr müəllifi Gevondun verdiyi xəbərə görə, xəlifə Hişam (724-743) dövründə xəzərlər (yəni, türklər) xaqanın oğlunun komandanlığı altında 300 minlik ordu çıxararaq ərəblərə qarşı əks-hücuma

keçdilər. Türklər hun və Cor keçidi ilə Maskut torpaqlarından keçərək Paytakaran ölkəsinə basqın etdilər. Onlar Araz çayından adlayaraq İrana keçdilər, Ərdəbili, Təbrizi, Atşi-Baquan adlanan vilayəti, Spatar-Perozu və Hürmüzd-Perozu dağıtdılar.[25]

Gevondun göstərdiyi marşrut olduqca dəqiqdir. Türklər Şimali Qafqazdan keçərək Xəzər dənizi sahilləri boyunca və Dağıstanla irəliləyirdilər. Onlar Dərbənd və Dəryal keçidlərindən keçərək indiki Quba rayonu ərazisindən Albaniyaya basqınlar edirdilər. Türklərin saysız-hesabsız ordusu Albaniyanın və Cənubi Azərbaycanın bir sıra qala və şəhərlərini dağıdır və talan edirdi.

Gevondun mətnində "Atşi-Baquan" vilayətinin adının çəkilməsi burada Bakı, yəni Abşeron vilayətindən söhbət getdiyinə şübhə yeri qoymur. Ərəb müəllifləri Bəlazuri (ö.892), Yəqubi, Təbəri (X əsr) və b. ərəblərin demək olar ki, 250 il ərzində dəfələrlə Albaniyaya soxulmuş türklərə qarşı yürüşlərini olduqca müfəssəl təsvir etmişlər. Ərəb müəllifləri Gevondun bəhs etdiyi yürüşü 725/26, yaxud 730-cu ilə aid edir, həm də türk ordusunun başında xaqanın, ya da onun oğlunun adını çəkirlər, Təbəridə onun adı Barxebey, X əsr müəllifi İbn Asəmdə isə Barsbəy[26] kimi çəkilir. Görünür, bunların ikisi də eyni adamdır, bəy sonluğu isə həmin şəxsin əyan titulundan xəbər verir.

XII əsr Suriya tarixçisi Suriyalı Mixail ərəblərin türklərə qarşı müharibələri haqqında maraqlı məlumatlar verərək ərəb sərkərdəsi Məsləmə ibn Əbdülməlikin yürüşündən danışır. Ehtimal ki, söhbət türklərin Gevondun təsvir etdiyi yuxarıda adı çəkilən basqınından gedir. "1039-cu ildə (eramızın 728-ci ili) Məsləmə böyük qoşunla yenidən türklərin ölkəsinə soxuldu. Vuruşma qırx gün davam etdi, təyayelər (ərəblər – *S.A.*) türkləri məğlub edə bilməyəcəklərini görüb əmlakını ataraq qaçdılar. Bu zaman türklər oraları tərk etməyə başladılar. 1042-ci ildə (eramızın 731-ci ili) türklər təyaye torpaqlarına girdilər. Onlar Azərbaycan torpaqlarında çoxlu şəhər və kənd ələ keçirdilər. Türklərin başqa təyaye şəhərlərini tutmasına imkan verilmədi. Onlar işğal etdikləri şəhərlərdə kök saldılar".[27]

Suriya tarixçisinin bu məlumatında Azərbaycanın şəhər və kəndlərinin türklər tərəfindən kütləvi surətdə məskunlaşdığı göstərilir. Mənbələr şahidlik edir ki, I Xosrov Ənuşirəvan (531-578) savirlər üzərində qələbə çaldıqdan sonra ailəsi ilə birlikdə üç min qoşun

başçısını və Şimali Qafqazın 4 türk tayfasından olan 50 min türk əsirini Arranda və Azərbaycanda yerləşdirmişdi. İbn Misqəveyhin sözlərinə görə, türk əsirlərin cərgəsi on fərsəngə (60-70 km) qədər uzanırdı.[28] Başqa mənbələrə görə, əsirlərin sayı 10000-ə çatırdı.[29] Savirlərin bir qismi könüllü surətdə Arrana keçərək Bələncər, Gəncə, Qazax bölgələrində və Arran, Şirvan və Azərbaycanın digər yerlərində məskunlaşdılar. I Xosrov Ənuşirəvan Bizansla müharibədə istifadə etmək məqsədilə onların Sasani dövlətinə köçmələrinə icazə vermişdi. Onlar torpaq payı almış, Arran və Azərbaycan mərzbanlarına tabe edilmişdilər.

Bizans tarixçisi Menandrın məlumatına görə, savirlər 575-ci ildə Kür və Araz çayları arasındakı torpaqlara və Kür çayının şimal-qərb sahillərinə köçürüldülər.[30] Savirlərin adı Azərbaycan toponimikasında Qala Suvar, Bilə Suvar yer adlarında əksini tapmışdır; buradakı "Bilə" komponenti şəhər, yer deməkdir. VI əsrin ortalarında Dağıstanda Albaniya ilə sərhəd yaxınlığında savirlərin sayı yüz minə yaxın idi.[31] Həmin vaxtlar və ondan əvvəl olan Dərbənd keçidindən Albaniyaya tez-tez basqınlar edirdilər. VI əsrin ortalarınadək Qafqazda ən güclü və çoxsaylı xalq olan savirlər Dərbənddən savir yaşayış yerlərinin mərkəzi olan Qəbələyədək bütün Şimali Albaniyanı (Şirvan və Arran) zəbt edərək 100 ildən çox burada qaldılar.[32] Ehtimal ki, savirlərin çoxu avtoxton əhali ilə qaynayıb-qarışaraq oturaq həyat tərzinə keçmişlər. Bu ünsiyyət Arranda və Şirvanda türk dilinin yayılmasına kömək göstərmişdir. Sonralar, h.117 (735/6)-ci ildə ərəb sərkərdəsi, Şirvan və Arran valisi Mərvan ibn Məhəmməd xəzərlərin ölkəsinə soxulmuş və 40 min türk əsiri tutaraq Samur və Şəbəran çayları arasındakı düzənlikdə yerləşdirmişdi.[33]

Beləliklə, eramızın VI əsrində və sonralar türklərin Arran, Şirvan və Azərbaycana intensiv surətdə miqrasiyası baş vermişdir.

Abşeronun toponimikasında türk ünsürlərinin mövcudluğu (Sabunçu, Qobu, Türkan, Güzdək və i.a.) müxtəlif türk tayfalarının Qafqaz Albaniyası bölgəsinə, o cümlədən Abşerona gəlməsinə dair narrativ və lapidar mənbələrin məlumatlarını təsdiq edir və erkən orta əsrlər dövründən, eramızın ilk əsrlərindən ölkədə türkləşmə (hunlar) prosesinin getdiyini və daha sonralar, VI-VIII əsrlərdə bunun intensiv

şəkil aldığını göstərir. Arxeoloji məlumatlar isə qədim türk tayfalarının Abşeronda və Azərbaycanda eramızdan xeyli əvvəl yaşadığına dəlalət edir.

Gətirilən faktlar ərəblərin VIII əsrin birinci çərəyində Azərbaycanda və Dağıstanda tam və qəti şəkildə möhkəmlənmədiyini və sonralar da aramsız olaraq bu ölkələrə basqın edən türklərlə müharibələr apardığını göstərir. Görünür, ərəblər Azərbaycanda yalnız VIII əsrin ikinci yarısında, türk xaqanlığının süqutundan sonra möhkəmlənmişlər.

VIII-X əsrlərdə Bakıda baş vermiş siyasi hadisələr haqqında məlumatımız çox pərakəndədir. Ərəb müəllifləri Bakının adını çəkmədən Şirvanın şəhər və digər yerlərində əhalinin ağır vergilər, zülm və istismarla bağlı ərəb ağalığı əleyhinə üsyanları haqqında məlumat verirlər.[34] Bu və ya digər əyalət xəlifəyə itaətsizlik göstərərək, istila dövründə ərəb valiləri ilə bağlanmış müqavilələri pozaraq üsyan qaldırdıqda onlar amansızcasına yatırılırdı.[35] Hələ Sasanilər dövründə Sasani dövlətinin əlahiddə, strateji cəhətdən mühüm əyaləti olan Şirvan ərəb hökmranlığı dövründə ərəblərin böyük diqqət yetirdiyi ən iri siyasi quruma çevrildi. Ehtimal ki, Abşeron, mərkəzi Bakı olmaqla, Şirvan vilayətinin tərkibinə daxil olan əlahiddə inzibati vahid olmuşdur.

Azərbaycan Ərəb xilafəti tərəfindən istila olunarkən Bakı, Şamaxı, Dərbənd və b. şəhərlərin daxil olduğu Şirvan vilayətinin hakimləri Şirvanşahlar idi. Ərəb müəllifləri onlar haqqında IX əsrin əvvəllərindən məlumat vermişlər. İbn Xordadbeh (IX əsr) Sasani imperiyasının şah I Ərdəşir (224-240) tərəfindən şah titulu bəxş edilmiş bir sıra vilayət hakimlərinin siyahısını gətirir, onların arasında Şiyranşahın (Şirvanın hökmdarı) da adı çəkilir. Cənubi Qafqazın bu vilayətləri Sasani imperiyasının tərkibinə I Şapur (242-272)[36] zamanında daxil edilmişdi. Sərhədləri köçəri türk ordalarının basqınlarından qorumaq məqsədilə Xəzəryanı vilayətlərindəki təbəələrindən vassal mülklərinin, yaşayış yerlərinin və iri koloniyaların yaradılmasını I Xosrov Ənuşirəvanın adı ilə də bağlayırlar.

Əl-Bəlazuri (IX əsr), Məsudi və digər ərəb müəllifləri xəbər verirlər ki, Xosrov Ənuşirəvan şahları seçdi, onların hər birini ayrıca vilayətin şahı təyin etdi. Onların arasında Şirvanşah adlanan Şirvan hakiminin də adı çəkilir.[37]

I Xosrov Ənuşirəvanın sərhəd vilayətlərinin hakimlərinə şah titulu verməsi iri torpaq sahibləri olan bu feodalların xeyli dərəcədə müstəqil olduqlarını göstərir. Bu qüdrətli feodallar dəstəsi Sasani hökmdarı – şahənşahın sarayında keçirilən yığıncaqlarda (məclislərdə) iştirak edirdilər. Onları saraya gəlməyə vadar edən Xosrov Ənuşirəvan bununla onların mərkəzi hakimiyyətdən asılılığını nəzərə çarpdırır və onları itaətdə saxlayırdı.[38] Bir sıra orta əsr müəllifləri – Beydəvi (XIII əsr), Dövlətşah (XV əsr), Xandəmir (XVI əsr) və b. – Şirvanşahlar sülaləsinin mənşəyini Sasanilərlə bağlayırlar.

Sasanilərin dağ keçidlərinin müdafiəsi üçün təyin etdikləri ilk Şirvanşahlar sülaləsi haqqında başqa məlumatımız yoxdur. Çox ehtimal ki, bu ilk şirvanşahlar yerli əhalidən deyil, Sasani şahlarına qohum və tabe olan, onların öz şimal sərhədlərini qorumağı etibar etdikləri adamlardan olmuşlar. Ərəblər h.22 (642/3)-ci ildə Şirvanı işğal edərkən onlardan biri ilə görüşmüşdülər.[39]

Bəlazuri, Yəqubi və əl-Kufinin məlumatlarına görə, Xilifətin Şirvanı işğal etdiyi ilk dövrlərdən IX əsrin birinci yarısının sonunadək ərəblər Şirvanşahları xəlifəyə xərac verən və onun xəzərlərə qarşı yürüşlərində iştirak edən vassal kimi hakimiyyətdə saxlamışlar. Bəlazuri 797/8-ci ildə Ərminiyənin valisi olan Səid ibn Səlm əl-Bəhili ilə bir vaxtda hakimlik etmiş əş-Şəmax ibn Şücanı Şirvanın məliki adlandırır.[40] Ehtimal ki, o, ərəblərin hakimiyyətdə saxladıqları, islam dinini və ərəb adını qəbul etmiş, xəlifənin vassalına çevrilmiş və ona xərac verən şirvanşah – Şirvan hakimi olmuşdur. Şirvanşahlar Xilafətin inzibati bölgüsünə görə Şirvanın da daxil olduğu Azərbaycan və Ərminiyə valisinə tabe idilər. Bəlazuri xəbər verir ki, yerli feodallar öz mülklərində yaşayır və hər biri öz vilayətini qoruyurdu.[41]

IX əsrin ikinci yarısında Abbasilər Xilafətinin zəifləməsi və dağılmağa başlaması, habelə onun daxilində mərkəzdənqaçma qüvvələrinin güclənməsi ilə bağlı olaraq, Azərbaycan ərazisində bir sıra müstəqil feodal dövlətləri meydana gəldi. Onların ən mühümü Şirvan idi. Bu dövlətin başında Məzyədilər sülaləsindən şirvanşah titulu daşıyan hakimlər dururdular. Məzyədilər Xilafətin vassalı və ərəb valisinə – Bərdədə oturan əmirə tabe olan ilk müsəlman Şirvanşahlar sülaləsi idi.[42]

Mənbələr xəbər verir ki, xəlifə ərəb mənşəli Məzyədi Şirvanşahlar sülaləsinin banisi, şeybani tayfasından olan Yəzid ibn Məzyədi Ərminiyə, Azərbaycan, Arran, Şirvan və Bab əl-Əbvabın valisi təyin etdi. O, h.172 (788)-ci ildə xəlifə Harun ər-Rəşid tərəfindən valilikdən çıxarılmış, lakin h.183 (799)-cü ildə yenidən bu vəzifəyə təyin olunmuş və ömrünün sonunadək h.185 (801)-ci ilədək hökmranlıq etmiş, Bərdədə ölmüş və orada da dəfn olunmuşdur. Mənbədə onun ölümünün təfsilatı belə nəql edilir. "Söyləyirlər ki, bir qonaqlıqda ona bir gözəl qız bağışlayırlar, o, məclisi tərk edərək qızla intim əlaqəyə girir və onun ağuşunda ölür. Bu, Bərdədə olmuşdur..."[43]

Sonrakı hakimlər – onun oğulları və bu sülalənin digər nümayəndələri müstəqilliyə cəhd göstərərək Xilafət əleyhinə üsyanlar qaldıran qonşuları gürcülər və şəkililərlə feodal müharibələri aparmışlar. Onlar torpaqlarına basqın edən xəzərlər və alanlarla da vuruşmuşlar. h.237 (851)-ci ildə xəlifə Mütəvəkkil Bab əl-Əbvab (Dərbənd) şəhərini ondan asılı olan torpaqlarla birlikdə iqta kimi Məhəmməd ibn Xalidə bağışladı. Buna görə də sonra gələn şirvanşahlar Dərbəndə özlərinin iqta mülkü kimi baxmış və bu torpaqlara sahiblik iddiası edərək Dərbənd Haşimilər sülaləsinin yerli hakimləri ilə daim müharibələr aparmışlar.

Xilafətin mərkəzi hakimiyyətinin zəiflədiyi bir məqamda, h.247 (861)-ci ildə, xəlifə Mütəvəkkil öldürüldükdən sonra Heysəm ibn Xalid qədim İran "şirvanşah" titulunu[44] qəbul edərək müstəqil hökmdar kimi hakimiyyət sürməyə başladı. Həmin vaxtdan etibarən Məzyədi Şirvanşahlar sülaləsinin nümayəndələri öz iqta torpaqlarında irsi vassallara çevrildilər. Dərbənd və Dağıstanın bir hissəsi vaxtaşırı Şirvanşahların torpaqlarına daxil edilirdi. Məzyədi Şirvanşahlar sülaləsinin Layzan qolunun güclənməsi Layzanın Şirvanı işğal etməsi ilə nəticələndi. "Tarix əl-Bab"ın verdiyi məlumata görə, h.305 (917)-ci ildə atasının əmisi oğlu – şirvanşah Əli ibn Heysəmi öldürən Layzan hakimi Layzanşah Əbu Tahir Yəzid ibn Məhəmməd Şirvanı işğal etdi və h.306 (918)-cı ildə Şirvan torpağında Yəzidiyyə şəhərini saldırdı.[45] Burada söhbət həmin vaxtdan xeyli əvvəl mövcud olmuş Şamaxı şəhərinin ətrafında istehkamlar tikilməsindən gedir. Əbu Tahir Yəzidin ekspansiya siyasəti Layzanın güclənməsi və şirvanşah Əli ibn Heysəmin Şəndanla və Bakı yaxınlığında ruslarla mübarizədə hərbi uğursuzluqları ilə bağlı idi.

Şirvana türklərdən başqa, ruslar da dəfələrlə basqın edirdilər. Mənbələrdə rusların artıq VII əsrin birinci yarısında Xəzər dənizinin cənub-qərb sahillərini talan etdiklərinə, Şirvanşahların və Dərbənd hakimlərinin bu basqınlara qarşı mübarizə apardıqlarına dair məlumatlar vardır.[46]

Xəzər dənizinin əhalisi sıx olan cənub-qərb sahilləri ta qədimdən yadelli işğalçıların diqqətini cəlb edirdi. Öz gəmilərində ticarət məqsədilə Xəzər sahillərinə üzüb gələn rus tacirləri bu diyara yaxşı bələd idilər, türklər və xəzərlər kimi Azərbaycan vilayətlərinin zənginliyi barədə məlumatları yayırdılar.[47] Ruslar təqribən 914-cü ildə Bakı sahillərinə basqın etdilər. "...Qarətçi rus dəstələri nabələd deyildilər və ta qədimdən Şərqi Avropa ölkələri, Qafqaz və İranla qızğın mal mübadiləsi apardıqları, yaxşı tanıdıqları yolla gəlirdilər".[48]

Məsudi rusların bu yürüşünü çox müfəssəl təsvir etmişdir. O göstərir ki, h.300 (912-913)-cü ildən sonra rusların hərəsində yüz adam olan 500-ə qədər gəmisi Don çayı ilə yuxarı qalxaraq Xəzər boyuna qədər gəldi. Rus gəmiləri xəzərlərin körfəzin ağzını qoruyan gözətçi postuna çatdıqda qənimətin yarısını vəd etməklə Xəzər xaqanından onun ölkəsindən keçərək Volqaya, sonra isə üzü aşağı üzüb çayın mənsəbinə və Xəzər dənizinə çıxmağa razılıq aldılar.[49] Bundan sonra rusların gəmiləri dənizə səpələndi və onların dəstələri Gilana, Deyləmə və Təbəristan vilayətinə üz tutdu. Onlar Cürcan sahilindəki Abaskuna həmlə etdilər və Azərbaycana yaxınlaşdılar. Məsudinin sözlərinə görə, ruslar Xəzər dənizinin sahilindəki zəngin vilayət və şəhərləri viran və qarət etdilər. Ruslar gilanlılarla, deyiləmlilərlə və İbn Əbu əs-Sacın sərkərdələrindən biri ilə vuruşa-vuruşa tezliklə Şirvan şahlığındakı Bakı adı ilə tanınan neftverən sahilə gəlib çatdılar. "Ruslar qan tökür, qadınlar və uşaqlara istədiklərini edir və var-dövləti çalıb-çapırdılar. Onların göndərdikləri dəstələr qarətçilik edir və yandırırdı". Qayıdanbaş ruslar neftverən yerdən cəmisi bir neçə mil məsafədə olan adaya çıxdılar. Görünür, bu, qədim tikililərin, quyuların və s. izləri nəzərə çarpan Böyük Zirə adası olmuşdur. Ehtimal ki, Xəzər dənizində donanması olmayan şirvanşah Əli İbn Heysəm qoşununu silahlandırıb barkalarda və balaca ticarət gəmilərində Bakının yaxınlığındakı adalara göndərdi. Ruslar şirvanşahın qoşununa hücum etdi, Məsudinin sözlərinə görə, minlərlə müsəlman

öldürüldü və dənizdə boğuldu.[50] Dənizdən edilən bu hücum başının üstü qəfildən alınmış Bakı və Abşeron əhalisi üçün gözlənilməz olmuşdu. Şirvanşahın dəniz hücumunu dəf etməyə donanması və silahı yox idi. Ona görə də Azərbaycanın cənubunun, Arranın, Beyləqanın, Bərdə vilayətinin və b. şəhərlərin, onlarla birlikdə Deyləmin, Gilanın, Təbəristanın əhalisi evlərini və torpaqlarını qoyub ölkənin içərilərinə qaçırdılar. Məsudinin məlumatına görə, ruslar bu dənizdə bir neçə ay qaldılar. Rusların Abşeron yaxınlığındakı adaları tutması və onların ticarət gəmilərinə hücum təhlükəsi ilə əlaqədar gəmiçilik dayandı.[51]

Abşeronda bol qənimət əldə edən ruslar Xəzər vilayətinə, Volqanın mənsəbinə və Şimali Qafqaza qayıtdılar. Məsudiyə görə, ruslar Xəzər torpaqlarında müsəlmanların hücumuna məruz qaldılar. Onların çoxu (30.000-ə yaxın) qırıldı və yalnız az bir hissəsi vətənlərinə qayıda bildi.[52] Məsudinin bu məlumatından belə nəticəyə gəlmək olar ki, rusların basqını dövründə Xəzər dənizinin qərb sahillərinin əhalisi sıx olmuşdur. Bu sahillər Bakı şəhəri ilə birlikdə Abşeronun da daxil olduğu feodal Şirvan dövlətinin ərazisi idi.[53] Həmin məlumatdan, həmçinin, bu dövrdə Şirvanın hakiminin şirvanşah Əli ibn əl-Heysəm olduğu aydınlaşır; bunu başqa müəlliflərin məlumatları da təsdiq edir.[54] Məsudinin verdiyi xəbərə görə keçmişdə düşmənlər həmin ərazilərə heç vaxt dənizdən hücum etməmişdilər. Lakin Təbərinin əsərində də rusların hələ VII əsrdəki hücumundan danışılır.[55] Çox ehtimal ki, Məsudinin bəhs etdiyi hücum ilk hücum deyildi və ruslar yaxşı bələd olduqları yolla gəlmişdilər. Xəzər dənizinin sahillərini və Şirvan vilayətini talan edən xəzərlərin də gəmiləri yox idi. Göründüyü kimi, bəhs edilən hücum ərəb mənbələrində rusların Abşerona ilk məlum hücumu olmuşdur. Sonralar Bakı və Abşerona dəfələrlə hücumlar edilmişdir.

X əsrin ortalarında Şirvanın iqtisadi və siyasi cəhətdən güclənməsi ilə əlaqədar Şirvanşahların öz torpaqlarını genişləndirmək cəhdləri artdı ki, bu da qonşuları ilə toqquşmalara səbəb oldu. Şirvanşahlar "kafirlərə" və daha çox Dağıstandakı Sərir və Şəndana qarşı müharibələr aparır və bu dövrdə Dərbəndə və onun qazilərinə hər cür yardım göstərir, şəhərin əhalisinə neftin və duzun gəlirindən pul paylayırdı. Şirvanşah Heysəm ibn Məhəmməd Şirvanın bir neçə kəndinin məhsulunu da bu məqsəd üçün ayırmışdı.[56]

Layzan iqta şəklində Əbu Tahir Yəzidin oğluna – Təbərsəran hakimi olan Məhəmməd ibn Yəzidə verilmişdi. Mənbələrin məlumatına görə IX-X əsrlərdə Şirvan və Dağıstanın siyasi münasibətləri mürəkkəb və gərgin olmuşdur. Dağıstanın bəzi bölgələri Şirvanşahların ayrı-ayrı nümayəndələrinin hakimiyyət uğrunda sülalədaxili mübarizələrinə cəlb edilirdilər. Şirvanşahların işğalçılıq siyasəti X əsrin sonunda da davam edirdi. Şirvanşahın oğlu Məhəmməd ibn Əhməd h.371 (981/2)-ci ildə Qəbələ şəhərini onun hakiminin əlindən aldı. Bir ildən sonra o, Bərdə şəhərini də ələ keçirdi.[57] Bərdənin h.372 (982)-ci ildə zəbt edilməsi Şəddadilərin nəzarəti altında olan zonaya girmək demək idi.[58] Şirvanın qədim şəhərlərindən olan Şəbəran da Şirvanla əl-Bab (Dərbənd) arasında nifaqa səbəb olub, əl-Bab hakimlərinin basqın və dağıntılarına məruz qalırdı.

H.378 (988)-ci ildə Dərbəndin hakimi Meymun qovuldu və şəhər Şirvanşahlara verildi. Şəhər əldən-ələ keçirdi. Nəhayət, şirvanşah Dərbənd qalasını yenidən tikdirib, daha doğrusu, bərpa etdirib möhkəmləndirdi və burada öz adamlarından ibarət qarnizon qoydu. Bundan sonra o, paytaxtına qayıtdı və h.381-ci ilin Ramazan ayında (991-ci ilin noyabr ayında) orada öldü.[59] Ondan sonra Şirvanın hakimi onun qardaşı Yəzid ibn Əhməd oldu.

2. ABŞERONUN VƏ BAKININ İQTİSADİ HƏYATI

a) Neft və duz istehsalı

Mənbələrdə Abşeron və Bakının erkən feodalizm dövründəki iqtisadi və təsərrüfat həyatına dair məlumatlar olduqca kasaddır. Bakı təpəsində, Şirvanşahlar sarayı ərazisində aparılan arxeoloji işlər nəticəsində hələlik bəzi az əhəmiyyətli material əldə edilmişdir. Bu material şəhərin və Abşeronun həmin dövrdəki təsərrüfat və iqtisadi həyatının geniş mənzərəsini təsəvvür etməyə imkan vermir. Ona görə də şəhər, onun əhalisi və Abşeronun təbii sərvətləri haqqındakı cüzi məlumatlarla kifayətlənmək lazım gəlir.

Orta əsr əsərlərində – onların arasında VII əsr alban salnaməsi[1] tədqiq olunan dövrə aid mühüm mənbədir – müəlliflər Albaniyadan danışarkən onun təbii sərvətlərini qeyd edirlər. "Albaniya tarixi"ndə

deyilir ki, onun ərazisində Kür çayının sahilləri boyu bolluca müxtəlif kənd təsərrüfatı məhsulları istehsal olunur.

"Uca Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır və iri və xırda balıq gətirib, sularını Xəzər dənizinə tökür. Çayın sahilləri boyu münbit çöllərdə külli miqdarda taxıl və üzüm, neft və duz (seyrəltmə mənimdir – *S.A.*), ipək və pambıq və çoxlu zeytun ağacları var. Onun dağlarında qızıl, gümüş və oxra çıxarılır..."[2]

Şübhə etməmək olar ki, alban müəllifi Musa Kalankatlı həmin mətndə Abşeronda neft və duz istehsalından danışmışdır, belə ki, IX-X əsr ərəb müəlliflərinin daha sonrakı əsərlərində və "Dərbəndnamə"də[3] VIII və sonrakı əsrlərdə Bakı və Abşeronda neft və duz istehsalından bəhs edilir.[4] Görünür, neft istehsalı daha əvvəllər, Sasanilər dövründə də mövcud olmuşdur. Həm də, neft o qədər çox çıxarılmışdır ki, bu, Bakıdan çox-çox uzaqlarda da məlum olmuşdur.

Ərəblər Şirvanı və Azərbaycanı işğal etdiyi vaxtlar Abşeronun neft quyuları və duz mədənləri xeyli gəlir gətirirdi.

Ərəb tarixçisi Bəlazurinin (ö.892) məlumatına görə, Xəlifə Mənsurun hakimiyyəti dövründə VIII əsrin ikinci yarısında Arran və Şirvanın hakimi Yəzid ibn Usayd öz vergi yığanlarını Şirvana, "...Şirvanda neft və duz istehsalçılarının yanına göndərirdi və onlardan vergi yığdırırdı. Sonralar isə o, bunu xüsusi vergiyığanlara tapşırdı".[5] Ehtimal ki, burada Bakı neftinə və duzuna işarə edilir. Yəzidin bu tədbiri Dərbənd qarnizonunun saxlanmasına çəkilən xərclərlə bağlı idi. Xəlifələr Xilafətin şimal sərhəddini qoruyan Dərbənd keçidini köçəri şimal tayfalarının dövlətin təhlükəsizliyinə təhlükə törədən aramsız basqınlarından müdafiə etmək üçün Dərbənddə ərəb qarnizonunun saxlanılmasına xeyli vəsait sərf edirdilər. Onlar bu vəsaiti Bakının neft quyularının və duz mədənlərinin gəlirindən götürürdülər. Göründüyü kimi ərəblər bu qaydanı burada etibar etdikləri müxtəlif xalqların nümayəndələrindən – şirvanlılar da onların arasında idi – ibarət böyük qarnizon saxlayan Sasanilərdən əxz etmişdilər. Yaqutun verdiyi xəbərə görə, Sasanilər də Dərbənd istehkamlarının qorunması üçün vəsaiti Bakıdan alırdılar.[6]

Bu məlumat Bakının Sasanilər dövründə mövcud olması fikrini təsbit edir. İçərişəhərdəki Şirvanşahlar sarayı ərazisində aparılan arxeoloji qazıntılar zamanı əldə edilən bəzi məlumatlar neftdən Bakının şəhər təsərrüfatında istifadə olunmasına dair mülahizə yürütməyə imkan verir.

Neftdən çox şeydə istifadə olunurdu. O, təsərrüfatda, məişətdə, evlərin damının örtülməsində, çıraqlarda və i.a. işlədilirdi. Neft o qədər çox çıxarılırdı ki, ərəblərin vaxtında onu nəinki ölkənin müxtəlif yerlərinə, hətta onun hüdudlarından çox-çox uzaqlara da aparırdılar. Qəbələdə aşkar edilmiş arxeoloji materiallar göstərir ki, VIII əsrdə bəzi evlərin damı qalın qır qatı ilə örtülmüşdür.[7] Qəbələ bölgəsində neft çıxarılmırdı, onun gətirilə biləcəyi yeganə yer isə Bakı şəhəri və Abşeronun neft verən yerləri və kəndləri idi.

Bu vaxt xeyli miqdarda neft Dərbəndə gətirilir və burada hərbi əməliyyatlar zamanı istifadə olunurdu. Ərəb sərkərdələri Dərbəndi zəbt edərkən orada neft ehtiyatı üçün anbarlar tikdirmişdilər.

"Dərbəndnamə"də xatırlanır ki, "Ərminiyə və Azərbaycan" valisi Məsləmə Əbdülməlik h.115 (733)-ci ildə 20 minlik ordu ilə Dərbəndi aldı və Narınqalada özünün sökdürdüyü köhnə bir imarətin yerində cəbbəxana, su, sursat və neft anbarları tikdirdi.[8] Məlumdur ki, neft həm qədim zamanlarda, həm də orta əsrlərdə çox qorxulu silah olmuşdur. Antik müəlliflər xəbər verirlər ki, yunanlar, farslar, ərəblər, müharibə vaxtı yanar neftdən istifadə edərək, düşmənə içərisində yanan kükürd və neft olan qablar atmışlar.[9] Ərəb mənbələrində deyilir ki, ərəb və fars qoşunlarının tərkibində xüsusi yanar neftatan dəstələr olmuşdur. "Dərbəndnamə"də xəbər verilir ki, xəlifələr neft quyularını və duz mədənlərini Şirvan hakimlərinin əlindən alaraq, onları vəqf kimi Dərbənd qazilərinə bağışlayırdılar. Bu məqsədlə xəlifələr xüsusi məmurlar təyin edərək, həmin mədənlərdən gələn gəliri yığıb, keçidləri qoruyan əsgərlər arasında bölmək üçün Dərbəndə göndərilməsini onlara tapşırmışdılar.[10]

777-ci ildə xəlifə əl-Mehdi (775-785) Dərbəndin ətrafından illik xəracı yığıb onu qalanın müdafiəçiləri və şəhər əhalisi arasında bölməyi əmr etmişdi.[11] 873-cü ildə Şirvan hakimi xəlifə əl-Mütəmidin (870-892) vəqf kimi Dərbənd əhalisinə verdiyi hər şeyi onların əlindən aldı.[12]

"Dərbəndnamə"də deyilir ki, h.270 (883/84)-ci ildə xəlifə (Mötəmid – *S.A.*) neft quyularının və duz mədənlərinin

yarısını (seyrəltmə mənimdir – *S.A.*) şirvanlılardan alaraq vəqf şəklində Dərbənd əhalisinə bağışladı. O, Bakıda dəniz sahilində anbar qazılmasını əmr etdi. Yer qazılarkən üzərində neft və duz mədənlərinin Dərbəndin vəqfi olduğu yazılmış böyük bir daş tapıldı. Xəlifə bundan xəbər tutduqda fərman verdi. Orada deyilirdi ki, kim həmin neft və duz mədənlərini Dərbənd əhalisinin əlindən alsa, Allahın və peyğəmbərin düşməni olacaqdır; h.272 (885)-ci ildə o, bütün neft və duz mədənlərinin (seyrəltmə mənimdir – S.A.) şirvanlılardan alınıb Dərbənd əhalisinə bağışlanmasını əmr etdi və bundan sonra Məhəmməd ibn Əmmarı həmin mədənlərin rəisi təyin etdi ki, onların gəlirini keçidləri qoruyan əsgərlərə paylamaq üçün Dərbəndə göndərsin.[13]

IX əsrdə Şirvanın hakimi şirvanşah Məhəmməd ibn Yəzid oldu. O, inanılmış şəxs kimi, hasilatı qəbul edib, qəbz vermək üçün neft və duz mədənləri üzərində rəis təyin etdi. Məhəmməd ibn Yəzid neft və duz haqqında yeni fərman yazaraq, onların mədaxilini Dərbənd əsgərlərinə bağışladı (vəqf verdi). Şirvanşah, bütün əmirlər və canişinlər Dərbənd hakiminə möhürlə təsdiqlənmiş qəbz verdilər, itaət göstərməyənləri lənətləyən fərman yazdılar. Rəislər ona görə təyin edilirdilər ki, Dərbənd əhalisinin gəliri israf olunmasın, şirvanşah özü isə "bir dənəciyə, bir dinara da tamah salmasın".[14]

Göründüyü kimi, Şirvanşahlar Dərbəndin müdafiəsinə böyük əhəmiyyət verir, hətta gəlirləri yığıb Dərbənd hakiminə vermək üçün xüsusi şəxslər – rəislər təyin edirdilər. Lakin Dərbənd hakimlərinin həmin pulları mənimsədiyi hallar da olurdu.[15]

Mərkəzi hakimiyyət zəiflədikdə və Xilafət tənəzzülə uğradıqda yerli hakimlər – istər Şirvanşahlar, istərsə də Dərbənd hakimləri – neftin və duzun gəlirini özlərinə götürürdülər.[16] H.290 (902)-cı ildə, xəlifə Müktafi (902-908) zamanında Bişütur "Dərbəndin hakimi təyin olundu. O, Dərbənd əhalisinə pul verilməsini dayandırdı və neftin, duzun və kəndlərin digər məhsullarının bütün gəlirini mənimsədi. Hər bir vəsaitdən məhrum olan əsgərlər ticarət və muzdurluqla məşğul olmağa başladılar və tezliklə Dərbənddə iğtişaşlar və pozğunluq meydana gəldi".[17]

VII əsr alban salnaməsinə, Bəlazurinin VIII əsrə, "Dərbəndnamə"nin VIII-IX əsrlərə aid yuxarıda gətirilən materiallarına isnad edərək belə bir nəticəyə gəlmək olar ki, ərəblərin vaxtında o qədər

çox neft çıxarılmışdır ki, xəlifələr Xilafətin şimal sərhədini köçərilərin basqınlarından qoruyan qarnizonu onun gəliri hesabına saxlaya bilmişlər.

Bakı nefti ölkənin hüdudlarından uzaqlarda da məlum idi. Daha sonrakı mənbələrdə (X əsr) Bakı nefti və Bakı şəhərinin özü haqqında ətraflı məlumat verilir. Məsələn, ərəb coğrafiyaşünası əl-İstəxri 930-cu ildə Bakıda ağ və tünd boz neft çıxarıldığını yazmışdır.[18] "Bu ölkələrin sahillərini Təbəristan dənizi[19] yuyur. Bab əl-Əbvabın şəhərləri həmin dənizin ətrafındadır və bu dənizdəki Bakı və Muğan şəhərlərində ağ və tünd boz neft mənbələri, onların arasında isə dəniz körfəzi var; burada "sərmahlar"[20] tutur və bütün ölkələrə ixrac edirlər...".[21] Göründüyü kimi, bu dövrdə Abşeronda müxtəlif növ neft çıxarılırdı ki, onların arasında ağ neft daha qiymətli sayılırdı. Abşerondan başqa, köhnə Bakı qalasının lap yaxınlığında, dənizin sahilində də neft quyuları var idi. Bunu Bayıl rayonundakı buxta torpaqla doldurularkən aşkar olunmuş qədim quyu nişanələri də təsdiq edir. Əl-İstəxri daha sonra Xəzər dənizinin sahilində balıqçılığın inkişaf etdiyini xəbər verir. Bir sıra balıq növləri başqa ölkələrə də aparılırdı. Xəzər dənizinin qərb sahillərində balıqçılığın inkişafı barədə antik və erkən orta əsr müəlliflərı də məlumat vermişlər.[22] Əl-İstəxrinin məlumatları ilə yanaşı, 942-ci ildə Bakıda olmuş ərəb səyyahı Əbu Düləf də şəhəri aşağıdakı şəkildə təsvir etmişdir. "Mən Böyük Təbəristan dənizinin sahili ilə Şirvan vilayətlərindən olan Bakuyə deyilən yerə gəlib çatanacan ağacların altı ilə səksən fərsəng yol getdim. Burada neft mənbəyi gördüm. Onun gündəlik icarə haqqı (qəbələsi) min dirhəmdir. Yanında gecə-gündüz fasiləsiz olaraq zanbaq kimi ağ neft axan başqa bir mənbə də var. Onun da icarə haqqı elə birincininki kimi idi".[23]

Əbu Düləfin bu məlumatı çox qiymətlidir, belə ki, hər birindən gündə 1000 dirhəm olmaqla təkcə iki quyunun gəliri haqqında təsəvvür yaradır.[24]

Bu məbləğ həmin dövrdə böyük miqdarda neft hasil olunduğunu və ərəblərin vaxtında neft istehsalında icarədarlıq sisteminin mövcudluğunu göstərir. Gətirilən parçada xatırlanan icarə haqqına gəldikdə isə, görünür burada söhbət icarədarlara verilən dövlətə məxsus neft quyularından gedir və hər quyudan götürülən 1000 dirhəm

məbləğində gəlir isə dövlətin icarədardan aldığı icarə pulu idi. Neft quyularının bu cür istismar üsulundan sonralar, monqollar və digər istilaçılar dövründə də istifadə edilmişdir.

Neftdən məhdud şəkildə istifadə olunması böyük gəlir gətirə bilməzdi. Əbu Düləfin gəlirin məbləğinə dair gətirdiyi rəqəm, yuxarıda deyildiyi kimi, o vaxtlar neftin hərbi texnikada geniş tətbiq edilməsi ilə izah olunur. Xəzərlərlə və Bizansla vuruşan müsəlman orduları haqqında hekayətlərdə daim neftdən istifadə edən dəstələr, bir növ, artilleriya hissələri idi. Neft hasilatından alınan böyük gəliri məhz onun hərbi texnikada belə geniş tətbiqi ilə izah etmək mümkündür.[25]

Bakıda ağ neft çıxarılması barədə əl-Məsudi də məlumat verir. O, həmçinin yerdən püskürən od mənbələrini də xatırlayır.[26]

"Bu dənizdə Bakı deyilən yer var, Bab-əl-Əbvabın qonşuluğundakı Şirvan şahlığının neft mənbələri buradadır. Bakıda ağ neft çıxarılır. Burada vulkanlar (atma)*, yəni, yerdən püskürən od mənbələri də vardır".[27] Məlum olduğu kimi, ağ neft Bakı yaxınlığındakı Suraxanı kəndində çıxarılırdı. Mətndə adı çəkilən "atma" sözü, ehtimal ki, Suraxanı kəndindəki məbədin daxilində çıxan yanar qazlara işarədir.[28]

Əl-Məsudi başqa bir əsərində də "ağ neft və digər neft növlərinin olduğu" Bakı haqqında məlumat verir. O yazır: "Buradan savayı dünyanın heç bir yerində ağ neft istehsal olunmur, hərçənd, düzünü təkcə allah bilir. O, Şərvanın sahilindədir. Neftverən vilayətdə (əl-nəffətə) od püskürən vulkan (atma) var; o daim püskürür və uzun alov dilləri çıxarır..."[29]

Sonra Məsudi həmin sahilin yaxınlığında bir neçə ada olduğunu və onlarda da gecə vaxtı uzaq məsafədən görünən alov dilləri qalxdığını xəbər verir: "Həmin adalardan biri sahildən üç günlük yolda yerləşir. Burada nəhəng vulkan (atma) var. O, ilin müəyyən dövrlərində fışıltı salır və uca dağ boyda nəhəng alov dilləri göyə ucaraq dənizin böyük bir hissəsini işıqlandırır. Bu mənzərə qurudan yüzlərlə fərsəng uzaqdan görünür".[30] Burada yerin təkindən fışqıran yanar neft fontanı, yaxud palçıq vulkanı püskürməsi təsvir edilir.

---

* Türkcə "atmaq" felindən olan bu söz türk dilinin Bakı və Abşeronda yayıldığını sübut edir.

Bu məlumatlar göründüyü kimi, səhihdir, belə ki, Xəzər dənizi adalarında və Abşeronda yanar neft fontanları və palçıq vulkanlarının püskürməsi bu gün də müşahidə edilir.

982-983-cü illərdə yazmış naməlum fars coğrafiyaşünasının əlyazmasında belə bir məlumat var ki, "Bakı dəniz sahilində və bir dağın yanında yerdir (şəhərcikdir) və Deyləməndə işlədilən neftin hamısı oradan gətirilir".[31] Deyləmənə Xəzər dənizinin bütün cənub və cənub-şərq sahili vilayətləri daxil edilirdi.

Beləliklə, mətndən görünür ki, Bakı nefti İrana da aparılır və burada geniş istifadə olunurdu. Göründüyü kimi, X əsrin sonlarına doğru Bakı Yaxın Şərqdə mühüm əhəmiyyətə malik işıqlandırma və dərman vasitəsi, məişətdə yanacaq, müharibədə qorxunc silah olan qiymətli məhsulu – nefti Şərqə ixrac edilən mühüm şəhər kimi tanınırdı.

b) Sənətkarlıq və ticarət

985-ci ildə yazmış ərəb coğrafiyaşünası əl-Müqəddəsi deyir ki, Arran ər-Rihib iqliminin (vilayətinin – *S.A.*) üçdə birini təşkil edib, Xəzər dənizi ilə Araz çayı arasında yarımadaya bənzəyir, əl-Məlik (Kür – *S.A.*) çayı isə onu ikiyə bölür. O vaxtlar Arranın paytaxtı ərəb canişininin iqamətgahı olan Bərdə idi. Müqəddəsi üçüncü əmirliyin böyük şəhərləri sırasında "Tiflis, Qala, Xunan, Şəmkur, Cənzə, Bərdic, Şəmaxiyyə, Şirvan, Bakı, Şəbəran, Bab-əl-Əbvab, Abxaz, Qəbələ, Şəkki, Mələzkerd və Təblənin"[32] adlarını çəkir. Bakı haqqında o belə deyir: "Bakı dənizin kənarında şəhərdir. İqlimin yeganə limanıdır..."[33] Həmin vaxt Bakı Şirvanın mühüm iqtisadi mərkəzlərindən biri idi və X əsrin sonunda o, bir sıra ölkələrlə ticarət aparmaq üçün rahat limanı olan iri şəhərə çevrilmişdi.

Əgər ərəblərin Arranı və Azərbaycanı işğal etdikləri ilk əsrlərdə ölkə dağılmış və tənəzzülə uğramışdısa, IX və X əsrlərdə o, artıq iqtisadi inkişaf dövrünə daxil oldu. İbn Havqəl, bir sıra digər ərəb tarixçiləri və coğrafiyaşünasları əsərlərində Arran və Azərbaycanın şəhər və yerlərinin tərəqqisini qeyd edir, əhalisinin rifahından danışırlar.[34] Bu dövrdə Arran və Azərbaycan şəhərlərinin təkcə bir-biri ilə deyil, bir sıra digər Şərq ölkələri ilə də ticarət əlaqələri canlanır.

Əl-İstəxrinin məlumatına görə müsəlman ölkələrinin tacirləri Xəzər dənizi ilə xəzərlərin torpaqlarına, Arran, Cil (Gilan – *S.A.*), Təbəristan və Cürcanın (Gürganın – *S.A.*) vilayətlərinə üzürdülər.[35]

İstəxri daha sonra Bərdəni, Bab əl-Əbvabı, Tiflisi Arranın ən böyük şəhərləri adlandırır.[36] Görünür, böyük ticarət yollarından kənarda qalan, gəmiçilik zəif inkişaf etdiyindən hələ mühüm dəniz limanı olmayan Bakı VIII əsr-IX əsrin əvvəllərində ölkənin iri ticarət mərkəzləri sırasına daxil deyildi.

Digər ərəb müəllifi əl-Məsudi X əsrin sonlarında Xəzər dənizində ticarətdən ətraflı bəhs etmişdir. O xəbər verir ki, ticarət gəmiləri daim Cil (Gilan), Deyləm vilayətləri və İtil şəhəri arasında üzürlər. "Gəmilər Xəzərin cənub sahillərində Bakuha qədər adını çəkdiyimiz yerlərdə də üzürlər..."[37]

Ərəb coğrafiyaşünası İbn Havqəl İstəxrinin məlumatlarını təkrarlayır. Bundan əlavə o, Arranda və Xəzər dənizi adalarında boyaqotu yığıldığını və dəniz vasitəsilə Cürcana, oradan isə karvan yolu ilə hind torpaqlarına aparıldığını qeyd edir.[38] Beləliklə, uzaq ölkələrlə də ticarət aparılırdı.

Xarici və daxili ticarətin, eləcə də, pul tədavülünün inkişafı ilə əlaqədar şəhər həyatında böyük dirçəliş nəzərə çarpır. Xəlifə Əbdülməlikin (685-705) islahatlarından sonra Arran və Azərbaycanın şəhərlərində Sasani pul vahidlərini sıxışdırıb aradan çıxaran ərəb sikkələri işlənməyə başlayır.

Artıq VIII əsrdən etibarən və sonralar Arran şəhərlərinin özündə ərəb sikkəxanaları meydana gəlir. Ticarət əməliyyatları uzaq şimala qədər yayılır. Rusiyanın şimalında, Almaniyada, İsveçdə, Norveçdə, Baltikyanı ölkələrdə Arran şəhərlərində kəsilmiş sikkə xəzinələrinin tapılması Şamaxı, Dərbənd, Bərdə və digər Arran şəhərlərinin həmin ölkələrlə qızğın ticarət apardığını göstərir.[39] IX-X əsrlərdə Bakıda da sikkə kəsildiyi istisna edilmir.

Feodal münasibətlərinin inkişafı, əmək bölgüsü, sənətkarlığın və ticarətin yüksəlişi ilə əlaqədar X əsrdə Arran və Azərbaycanın şəhərlərində əmtəə istehsalı artır. Bu dövrdə Bərdə, Bakı, Bab əl-Əbvab, Gəncə, Beyləqan, Şamaxı, Şəbəran, Şəmkir, Naxçıvan, Ərdəbil, Marağa, Təbriz kimi şəhərlər iri ticarət mərkəzlərinə çevrilirlər. Bu şəhərlərin sənətkarları qızğın ticarət gedən bazarlar üçün mallar stehsal edirdilər. Bir qismi Arran şəhərlərində hazırlanan gözəl, nazik

şüşə qablara, şirli keramikaya, ipək parçalara, xalçalara, gümüş və qızıl məmulatlarına feodal əyanları arasında böyük tələbat var idi.[40] Arran şəhərləri bir çox malların istehsalı və satışı sahəsində ixtisaslaşırdı ki, bu da onlarda çoxlu sənətkarların cəmləşdiyini göstərirdi.

Beynəlxalq ticarət yolları üstündə duran Şirvan şəhərləri Bakı, Şamaxı və Dərbənd Xilafəti bir sıra Şərq və Qərb ölkələri ilə bağlayaraq, özləri də bu ticarətdə fəal iştirak edirdilər.

Beynəlxalq ticarət yollarının qovşağında yerləşən, Bərdə, Naxçıvan kimi şəhərlər bütün Yaxın Şərqin ən böyük ticarət və sənətkarlıq mərkəzlərinə çevrilərək öz əhəmiyyətlərini demək olar ki, X əsrin birinci yarısının sonunadək saxlamışdılar.[41] Bərdə X əsrin sonlarında tənəzzülə uğradıqdan sonra ipək parça istehsalı ilə şöhrət qazanan Gəncə sürətlə böyüməyə başladı.[42]

Xəzərlər ölkəsindən, Rusdan, İrandan, Bizansdan və uzaq Şərq ölkələrindən – Hindistandan, Çindən, İraqdan və Suriyadan Dərbəndə, Şamaxıya və Bakıya gələn tacirlər, başlıca olaraq, mis, mum, xəz, silah, bahalı ipək parça, ədviyyə, çini qablar, qiymətli daşlar və s. ibarət mallarının əvəzində karvanlarla neft, duz, balıq, mal-heyvan (qatır, at), zəfəran, koşenil (qırmızı boyaq), boyaqotu və b. mallar alıb aparırdılar. Sənətkarların istehsal etdiyi mallar, başlıca olaraq xamna, ipək və yun parçalar, xalça və xalça məmulatı, örtüklər, qaytan da ixrac olunurdu.[43]

Bakı ərazisində tapılmış müxtəlif sikkələr də bu ticarət əlaqələrindən xəbər verir. Bakı ilə digər bölgələr arasında ticarət əlaqələri hələ Sasanilər dövründən mövcud olmuşdur. Bunu onun ərazisindən tapılmış Sasani sikkələri dəfinələri də təsdiq edir. Bakının şəhər rayonlarının birindən qiymətli metallar bölməsinə 83 gümüş Sasani sikkəsindən ibarət dəfinə təhvil verilmişdir. Onlardan ən erkəni I Xosrovun hakimiyyətinin 12-ci, yaxud eramızın 542-ci ilinə, ən sonuncusu isə III Ərdəşirin hakimiyyətinin 2-ci, yaxud eramızın 629-cu ilinə aiddir.[44]

Bir qədər sonra Bakının başqa bir şəhər rayonundan 86 ədəd gümüş Sasani sikkəsindən ibarət yeni dəfinə daxil olmuşdur. Onlardan ən erkəni I Qubadın hakimiyyətinin 4-cü, yəni b.e. 490-cı ilinə aiddir. Sonuncu sikkə isə II Xosrovun adından 638/9-cu ildə kəsilmişdir.[45]

Bu sikkələr həmin dövrdə Bakı şəhərinin mövcud olduğunu, eləcə də, onun başqa ölkələrlə ticarət əlaqələrinin inkişaf etdiyini

göstərir. Keçmiş Bakı quberniyasının ərazisində və Azərbaycanın digər rayonlarında da bir neçə Sasani sikkələri dəfinəsi tapılmışdır.[46]

Bakı qalasında (İçərişəhərdə) bürcün yaxınlığında (Bakı Soveti və keçmiş universitet binalarının arasında) tapılmış Abbasi sikkəsi VIII əsrə aid ilk ərəb sikkəsidir. Həmin sikkə h.II əsrə (eramızın VIII əsri) aiddir.[47]

IX əsrə aid numizmatik tapıntılar arasında Bakı ərazisində, liman körpüsü yaxınlığında dənizdən torpaq çıxarılarkən təqribən 7-8 metr dərinlikdə tapılmış bir sikkəni qeyd etmək olar. Suyun altından kəsildiyi yer göstərilməyən h.207 (822-823)-ci ilə aid qızıl əğləbi dinarı çıxarılmışdır: I – aşağıda məsrur; II – yuxarıda qalab; aşağıda I Ziyadətüllahın adı – h.201-223 (817-838)-cü illər.[48]

Dəniz qırağında su altından əğləbi sikkəsinin tapılması IX əsrin birinci yarısında, ərəb mənbələrində qeyd edildiyi kimi, gəmiçiliyin mövcud olduğunu göstərir.

Bakıda Abbasi xəlifələrinin kəsdirdiyi qızıl, gümüş və mis pullar işlənmişdir.[49]

VIII əsrdə mis sikkələrin geniş yayılması və kəsilməsi şəhərlərdə xırda pul ticarətinin inkişaf etdiyini göstərir. Arranda gözəl şirli keramika qabları hazırlanıb Bakıya aparılır, Bakı, Gəncə, Beyləqan, Qəbələ, Şəbəran kimi şəhərlərlə ticarət əlaqələri saxlayırdı.

Ərəb müəllifinin məlumatına görə, rus tacirləri Xəzər dənizinin cənub və qərb sahillərindəki ölkələrlə ticarət aparırdılar. Onlar slavyan çayı Tanaislə (Donla) üzüaşağı üzərək gəmilərini sürüyüb Volqaya keçir və xəzərlərin paytaxtı Həmlicə enirdilər. Burada onlardan $^{1}/_{10}$ həcmdə gömrük haqqı tutulurdu. Bundan sonra ruslar öz gəmilərində Xəzər dənizinə üzürdülər.[50] Rus tacirləri, əsasən, qiymətli xəzlərdən (su samuru, qaraqonur tülkü), qılınc və əsirlərdən ibarət malları ilə Xəzər sahillərinə yan alır[51], ehtimal ki, Abşerona və Bakıya da gəlirdilər. Ərəb mənbələri Arran və Azərbaycan şəhərlərinin Uzaq Şərq ölkələri ilə ticarət əlaqələrinə dair məlumat verirlər. Arran və Azərbaycan tacirləri Trapezundda toplaşaraq buradan ticarət üçün Bizansa gedirdilər.[52] Bizans zərxarası, bahalı ipək parçalar, kətan və pal-paltar Trapezund vasitəsilə islam ölkələrinə aparılırdı.[53] Trapezund və Kiçik Asiyadan gələn karvan yolu Araz düzənliyindən keçərək Azərbaycana və İrana gedirdi.[54] Ticarət baxımından mühüm şəhərlər olan Bakı, Şamaxı, Dərbənd, Gəncə, Bərdə

magistral beynəlxalq ticarət yollarının üstündə idilər. Baş yol Muğandan keçərək Kürün sağ sahili ilə Tiflisə və oradan Qara dənizə və Bizansa gedirdi.

Əl-İstəxri Azərbaycandan Qara dənizdəki Trapezund limanına toplaşaraq, buradan Rum (Bizans – *S.A.*) ölkələrinə yollanan tacirlərin[55] ticarət əlaqələrindən bəhs edərkən göstərirdi ki, "Zərxaranın, ipək parçaların, Rum kətanının, mahudunun və paltarının çoxu islam torpaqlarına Tərəbəzundədən keçirilib gətirilirdi".[56]

Xəzər dənizinin sahili ilə Bakı və Dərbənd limanlarından keçərək Xəzər və türk torpaqları ilə şimala gedən yolun da böyük ticarət əhəmiyyəti var idi. Başqa bir mühüm yol Bərdədən Ərdəbilə və İrana, habelə Bərdədən Dvinə, oradan da Suriya və Mesopotamiyaya gedirdi.[57]

X əsrin sonlarında bir sıra ərəb mənbələrində Bakı artıq Xəzər dənizində beynəlxalq tranzit ticarətində mühüm əhəmiyyət kəsb edən liman kimi qeyd edilir. Köhnə Bakı təpənin üstündə yerləşib Azərbaycanın başqa şəhərləri kimi qala divarları ilə əhatə olunmuşdu. Onun ərazisində, Şirvanşahlar sarayında aparılan arxeoloji qazıntılar nəticəsində qədim Bakının zahiri görkəmi aydın şəkildə görünür. Burada Divanxananın həyətində və sarayın girəcəyində qala divarlarının qalıqları üzə çıxarılmışdır. Həmin ərazidə erkən orta əsrlərdə əhalisi müxtəlif sənətlərlə məşğul olan və başqa şəhərlərlə ticarət aparılan Bakı şəhərinin mövcud olması haqqında mənbələrin məlumatlarını təsdiq edən materiallar əldə edilmişdir. Sarayın cənub-şərq fasadı yaxınlığında aparılan arxeoloji işlər zamanı böyük dərinlikdə yaşayış evlərinin bünövrə və divar qalıqları, çoxlu təndir, taxıl, su və zibil quyuları, xeyli şirli saxsı qab qırıqları, sikkələr və digər maddi mədəniyyət və məişət qalıqları meydana çıxarılmışdır. Həmin tapıntılar göstərir ki, saray tikilənə, yəni XIV-XV əsrlərə qədər bu sahədə bir neçə əsr ərzində orta əsr şəhərinin əhalisi sıx olan məhəllələrindən biri mövcud olmuşdur. Tapılmış şirli keramikaya əsasən bu orta əsr şəhərinin ən erkən təbəqəsi eramızın VIII əsrinə aid edilir. Lakin mədəni təbəqənin böyük dərinliyə (6 metr) malik olması göstərilən tarixi daha bir neçə əsr geri çəkməyə imkan verir. Şəhərin ən qədim təbəqəsinin tarixinin müəyyənləşdirilməsində keramika qırıqları böyük əhəmiyyətə malikdir. 1986-cı ildə İçərişəhərdə, Bakı yüksəkliyinin

cənub-qərb ətəklərində orta əsr şəhərinin ticarət dükanları, karvan-saraları, hamamları, məscidləri yerləşən baş küçəsinin yaxınlığında aparılmışdır. Ümumi həcmi 144 m^2 olan qazıntı sahəsi cənub-qərbdən XI əsrdə tikilmiş Sınıqqala adı ilə tanınan Məhəmməd ibn Əbu Bəkr məscidinə bitişir; bu sahə ikitəbəqəli abidədir: üst təbəqə XIV-XVII, alt təbəqə IX-XIII əsrlərə aiddir. Alt mədəni təbəqənin materialları böyük maraq doğurur. Qazıntının cənub hissəsində bünövrəsi təbii qayanın üstündə qoyulmuş düzbucaqlı formalı böyük otağın şimal və qərb divarlarının qalıqları qalmışdır. Divarlar pis yonulmuş daşlardan hörülmüşdür. Qazıntının bu təbəqəsində qayada oyulmuş beş quyu aşkar olunmuşdur. Alt mədəni təbəqədə yaxınlıqlarında böyük təsərrüfat küpləri basdırılmış müxtəlif diametrli çoxlu təndir üzə çıxarılmışdır. Alt təbəqədən tapılan əşyalar adi və şirli saxsı qablardan ibarətdir. Bu təbəqədə qayanın səviyyəsində formasına və gilin tərkibinə görə orta əsr keramikasından fərqlənən və daha erkən dövrə aid olan əl üsulu ilə qayırılma bir neçə adi saxsı qab qırığı tapılmışdır. F.İbrahimov forma və rəng uyarlığına görə Nüydü və Şamaxıda tapılmış qablarla oxşarlığına əsaslanaraq bu qabları e.ə. IV-I əsrlərə və eramızın I əsrinə aid edir.[58]

1971-ci ildə Bakı yüksəkliyinin cənub-qərb yamacında İçəri-şəhərdə aparılan arxeoloji qazıntı zamanı qaya üzərində tikilmiş bina qalıqları aşkar edilmişdir. Qayada məişət qablarını əvəz edən çoxlu kasavarı çuxurlar, həvəngdəstələr, çənlər oyulmuşdur. Qobustandakı kasavarı oyuqlara oxşayan bu oyuqlar Bakı şəhərinin erkən dövr tarixinə aiddir.[59] Şirvanşahlar sarayı ərazisinin şərq tərəfində qayada sal daşlarla örtülmüş və üstündə binalar tikilmiş müxtəlif çuxurlar qazılmışdır. Qobustandakı bənzər kasavarı oyuqlar Şirvanşahlar sarayının bünövrəsi altındakı qayada və İçərişəhər ərazisində, Bakı təpəsinin şərq ətəyində (Məmmədyarov və Hərbi[60] küçələrinin kəsişdiyi yerdə) və köhnə Bakı qalasının bir sıra digər məntəqələrində də aşkar edilmişdir. Bütün bunlar onun ərazisinin çox qədim (VIII əsrdən xeyli əvvəllər) yaşayış yeri olduğunu göstərir.

İçərişəhərin şimal tərəfində üç sahədə qazıntı işləri aparılmışdır. Bakı şəhərinin sənətkarlar məhəlləsi şimal divarları rayonunda olmuşdur. Onun nişanələrinə İçərişəhərin müxtəlif sahələrində uçulub-dağılmış emalatxanalar, şlak tullantıları, kül topaları, yandı-

rılmış gil şəklində təsadüf edilir. 1985-ci ilin payızında indiki İstiqlaliyyət küçəsində rabitə xətti çəkilərkən dulusçu məhəlləsi aşkar olunmuşdur. Bu sahədə, qala divarlarının şimal-qərb hissəsindən 70-80 m aralı, külli miqdarda saxsı qablar, istehsalat tullantıları, habelə dulus kürəsinin qalıqları tapılmışdır. Dulusçuluq sənətinin inkişafına təkan verən başlıca şərtlərdən biri yerli xammalın olmasıdır. Bakı üçün səciyyəvi olan boş sarı keramika Bakı şəhərinin həndəvərində və Abşeronda olan yerli sarı gil xammal yataqlarından istifadə olunduğunu göstərir.[61]

Dəmir şlakı topaları, dəmirçi çəkici, gürz, dəmir bıçaq tiyəsi və dəstəsinin qırıqları, ayaqqabı və heyvan nalları, mismar, halqalar, toqqalar isti və soyuq döymə ilə metal məmulat istehsal olunan sənətkarlar məhəlləsinin səciyyəvi əlamətləridir.

Adi keramika bardaqlardan, çıraqlardan, kasa və küpələrdən ibarətdir. Bardaqların boğazaltı hissələri və boğazı müxtəlif düz və dalğalı xətlərlə bəzədilmişdir. Qabların müəyyən hissəsini ştamplamaq üçün qəliblərlə birlikdə qırmızı naxış vurulmuş sarı rəngli basmaqəlib bardaq və mətərə tapılması həmin keramikanın hazırlandığı gilin Abşeronda çıxarılan yerli mənşəli xammal olduğunu göstərir. Şirli keramika tutqun, şəffaf şirin altında anqob və manqanla naxışlanmış camlar, kasalar, nəlbəkilər, bardaqlarla təmsil olunmuşdur.

Oyma qırışıq çoxlu polixrom və süjet naxışlı qablar aşkar olunmuşdur. Qablara nəbati və həndəsi naxışlar vurulmuşdur. Qabların bir hissəsində ayrı-ayrı sənətkar – ustaların, qabarıq möhürü vardır. Qabların möhürləri Şəbəran, Gəncə, Beyləqan, Qəbələ və b. şəhərlərdən fərqli olaraq, Bakı üçün səciyyəvi dörd, altı, səkkiz və çoxləçəkli palmetlərdən, habelə kvadrat və romb şəkilli şəbəkələrdən, konsentrik dairə və spirallardan ibarətdir. Üçbucaqlı altlıqların, qabları bişirmək üçün üzərində şir sızmasının və altlığın millərinin izləri qalmış silindrik gil qəliblərin tapılması da bu keramikanın yerli mənşəli olduğunu göstərir. Həmin ərazidə aparılan arxeoloji qazıntılar zamanı dulusçuluq istehsalı şlakı, dağılmış dulus kürələri və zay keramika qalıqları tapılması da saxsı qabların yerli, Bakı istehsalı olduğunu göstərir. Bu sahədən nazik şüşə məmulat – kuzə, vaza, badə, flakon, kiçik əczaxana və ətriyyat qabları, naxışla işlənmiş və burulmuş, əlvan rəngli – mavi, göy, yaşıl və s. – dəyirmi və oval

qolbağılar, şüşə muncuq qırıqları tapılmışdır. Şüşə məmulat hazırlanmasında xammal kimi Bakı yaxınlığındakı Xırdalan kəndindəki qumdan istifadə edilmişdir. Şir altından göy rəngli kobaltla naxışlanmış az miqdarda, ehtimal ki, gətirilmə saxsı camlar da aşkar edilmişdir. Materiküstü alt təbəqə VIII–X əsrlərə aid olunur. Qız qalası yaxınlığında qazıntı zamanı xəlifə əl-Mənsurun adı ilə h.138 (755)-ci ildə Dər əs-Salamda kəsilmiş gümüş sikkə, habelə X əsrin sonunda şirvanşah Yəzid ibn Əhmədin adından kəsilmiş və digər sikkələr də tapılmışdır.[62]

Kiçik qala küçəsi və Birinci qala döngəsinin kəsişdiyi yerdə, Şirvanşahlar sarayının yaxınlığındakı (şimal-qərbində) sahədə aparılan qazıntılar zamanı materikin üstündə yerləşən alt mədəni təbəqədə, 4, 8 m dərinlikdə, böyük bir divarın bünövrəsi yanında torpağa şaquli surətdə qırmızı gildən yastı oturacaqlı və iki qulplu iri təsərrüfat küpü basdırılmışdı. Küpün tutumu 15 vedrə idi. Buna oxşar küplər Bakı təpəsinin cənub ətəklərində də tapılmışdır. Buradakı anbarda iri daş altlıq – çən üzərində yerləşdirilmiş 5 iri qalın divarlı küp aşkar edilmişdir. Həmin sahədə və bir sıra digər yerlərdə qırmızı rənglə boyanmış saxsı qablar da tapılmışdır. Bardaqların üz tərəfi bütövlüklə tünd qırmızı rənglə örtülmüşdür. Boyalı saxsı qabların kökü son Tunc və erkən Dəmir dövrünə gedib çıxır və keramika sənətində ənənələrin davamlığını göstərir.[63]

Bakı təpəsinin başdan-başa iri sal qayalıqdan ibarət şərq yamaclarında təsərrüfat küpləri yoxdur. Onların əvəzinə qayada çuxurlar oyulmuşdur. Bədii cəhətdən nəfis, anqob və manqanla işlənmiş, monoxrom və polixrom naxışlı şirli qablarla yanaşı, qırmızı və bozsarı gildən külli miqdarda adi məişət qablarının qırıqları Bakıda həmin qabları hazırlayan çoxlu sənətkarların yaşadığını göstərir. Tünd göy rəngli açıq şəffaf şirlə örtülmüş halqavarı altlıqlı, üzərində ərəb əlifbası ilə sahibinə xoşbəxtlik arzusu bildirilən kitabə olan cam və piyalələrin tapılmasına Bakı qazıntılarında digər şəhərlərlə – Beyləqan, Şamaxı, Bərdə ilə müqayisədə az-az təsadüf olunur. Ola bilər ki, onlardan bəziləri Bakıda da istehsal edilmişdir. Təkində şəffaf şirin altında kobaltla göy rəngli nəbati naxışlar və quş rəsmləri çəkilmiş saxsı camlar isə Bakının Rey, Kaşan, Yəzd, Sultanabad və s. saxsı keramika istehsalı mərkəzləri ilə ticarət əlaqələri saxladığını göstərir. Bakıda və digər şəhərlərdə aparılan qazıntılar

zamanı tapılan bu qablar naxışlarının yüksək bədiiliyi və keyfiyyəti ilə seçilir.[64]

Bakı təpəsinin şərq ətəklərində şəhərlilərin sıx yerləşmiş yaşayış evləri, sənətkar emalatxanaları, ticarət dükanları ilə yanaşı, Qız qalası, Karvansara, Hacı Qayıb hamamı, sütunlu və çatma tağlı məbəd, məscidlər və feodal şəhərinin həyatı ilə bağlı olan digər diqqətəlayiq memarlıq abidələri də var idi. VIII-XIII əsrlərə aid edilən alt mədəni təbəqə 5 m dərinlikdə olub, materikə söykənir. Arxeoloji qazıntı zamanı divarları dördkünc formalı yonulmuş böyük daşlarla cilalanmış, yaxşı qalmış türbənin aşağı hissəsi aşkar edilmişdir. Türbənin şimal divarındakı üzlük daşlardan birinin üzərində beşguşəli ulduz, romb və dairələr şəklində özəkləri olan zərif kvadrat şəbəkələr həkk olunmuşdur. Belə daş şəbəkələrə Bakı və Azərbaycanın digər şəhərlərinin məbəd, ictimai və saray abidələrində indiyədək də rast gəlinir.[65]

Hal-hazırda daşda və ağacda böyük ustalıqla oyulan 20-dək şəbəkə motivi mövcuddur və bu ənənə nəsildən-nəslə ötürülür.

Şirvanşahlar sarayının 3 nömrəli sahəsinin qərb hissəsində 4,5 metr dərinlikdə "qayalar arası" xeyli miqdarda açıq çəhrayı gil qarışıq qumla dolu iri nəhəng daş parçalarından ibarətdir. Qaya parçaları arasındakı yarğanların birində xeyli kül aşkar edilmiş qayanı his basmışdır (yanğın izləri). Bu yarğandan tünd-qırmızı gildən bişirilmiş bardağın boğazı və gövdəsinin bir hissəsi tapılmışdır. Bardağın boğazının forması Yaloylutəpə məmulatlarını xatırladır. Bu cəhət belə bir fikir doğurur ki, həmin bardaq göstərilən sahələrdən tapılmış digər materialdan fərqli olaraq, daha erkən dövrə aid edilməlidir.[66] Məlumdur ki, Yaloylutəpə mədəniyyəti e.ə. III-I əsrlərə aid edilir. Beləliklə, bu qab, ehtimal ki, həmin dövrə aiddir.

Şirvanşahlar sarayı ərazisində qazıntı zamanı qaya üzərində müxtəlif divarların bünövrələri və hissələri aşkar olunmuşdur. Həmin ərazidə aşkar edilmiş tikili və binalar müxtəlif dövrlərə aiddir. "Görünür, bu yerlər dəfələrlə tikilib abad edilmiş, köhnə binalar uçub-dağılmış. onun yerində əmələ gəlmiş qalaqların yerində yeniləri tikilmişdir. Yuxarıda deyilənlər göstərir ki, bu yer sıx tikilmiş və məskunlaşmışdır. Tikililərin qalıqlarına görə onların hansı dövrə aid olduqlarını müəyyənləşdirmək mümkün deyil, lakin həmin tikililərlə eyni təbəqədən tapılmış şirli keramika məlumatı bu yerin artıq VIII əsrdə yaşayış məntəqəsi olduğunu təsdiq etməyə imkan verir".[67]

Ehtimal ki, VIII əsr keramikasının qırıqları altında qalan tikili qalıqları daha erkən dövrə, eramızın əvvəlinə aiddir. Həmin binalar əsrlər boyu tikilib uçulduğundan inşaat materialının bir hissəsi yerində qalmışdır ki, bu da şəhərin qala hissəsi ərazisinin səviyyəsinin qalxmasına səbəb olmuşdur. Dövrümüzədək qaya üzərində ümumi qalınlığı bəzi yerlərdə 3-4, bəzi yerlərdə isə 5-6 və daha çox metrə çatan torpaq örtüyü əmələ gəlmişdir. Bütün bunlar orta əsr şəhərinin ən qədim təbəqəsinin tarixinin müəyyənləşdirilməsini xeyli çətinləşdirir. Arxeoloji məmulatlar şəhərin ən azı eramızın birinci əsrinin əvvəllərində artıq mövcud olduğunu təsdiq etməyə imkan verir. Evlərin bir-birinə çox yaxın yerləşməsi şəhərin müxtəlif sənətlərdə çalışan əhalisinin sıx olduğunu göstərir. İçərişəhər ərazisində aşkar edilmiş mədəniyyət qalıqları erkən orta əsr feodal şəhərinin həyat və məişətindən xəbər verir. Əhali məişətdə şəhərin yaxınlığında və Abşeronda çıxarılan neftdən istifadə edirdilər. Çoxlu miqdarda çıraqların olması neftdən işıqlandırma vasitəsi kimi istifadə edildiyini göstərir. Şəhərin onunla vahid nahiyə təşkil edən həndəvərində bağ və bostanlar var idi. Qazıntı zamanı təndirlərdə çörək yapmaq üçün yandırılan üzüm meynələrinin qırıntıları tapılmışdır. Şəhər əhalisi yeməkdə Azərbaycanın başqa bölgələrindən gətirilən düyüdən, üzümdən (çəltik qabıqları və üzüm toxumları aşkar olunmuşdur), ceyran, qoyun, mal, quş-ördək, yaxud qaz, balıq – çəki, nərə balıqları ətindən istifadə edirdi. Nərə balığının yaxşı qalmış tikanları göstərir ki, əhali hələ müsəlman deyilmiş, çünki, məlum olduğu kimi müsəlmanlar bu balığı yemirlər.

Böyük dərinlikdə tapılmış kristallaşmış gəc, gips parçaları və ovuntuları binaların gəclə bəzədildiyini göstərir. Altı metrədək dərinlikdən tapılmış camlar və digər saxsı qablar VIII-IX əsrlərə aid edilən ən qədim rəngli şirli keramika məmulatı tipini göstərir. Altı metrədək dərinlikdən tapılmış camlar və digər saxsı qablar VIII-IX əsrlərə aid edilən ən qədim rəngli şirli keramika məmulatı tipini göstərir. Onlardan bəzisinin anqobu və qırmızı kərpic rəngli gil və manqan oksidi ilə rənglənmiş mina ilə çəkilmiş şiraltı naxışları vardır. İçəridən şəffaf şirin altında bilavasitə saxsı qırığında tünd bənövşəyi rəngli zolaq şəklində naxışlar vurulmuşdur. Naxışlar, adətən, iri olur, geniş zolaqlı halqalar, ovallar, bəzən ulduzlar təsvir edilirdi. Bu əşyaların ayaqları "dabanlıdır".

Sarayın ərazisində, 2,4 m dərinlikdə, qum təbəqəsində tapılmış bir-birinin yanındakı üç tökmə metal, ehtimal ki, tunc əşya çox maraqlıdır. Onlardan biri dayaz, ağzıgen, ayaqlı camdır (hündürlüyü 8,8 sm). Üz səthi tillənmişdir. Qalan iki əşya çıraqdır: birinin hündürlüyü 12,9 sm, digərininki isə 10,7 sm-dir. "Onların tapıldığı şərait (hər üçü xalis qumun üstündə yan-yana qoyulmuşdur) həmin əşyaların gizlədildiyini göstərir".[68] Onlar formaca qədim əşyalara oxşayır, ehtimal ki, Zərdüştiliyə məxsus oda sitayiş əşyaları olmuşlar.

Həmin ərazidə 0,4 metrdən 1 metrədək dərinlikdə qırmızımtıl rəngli xeyli yanmış gil, his, çoxlu kömür və kül dəmir və mis təbəqə kəsikləri və çubuqları aşkar edilmişdir. Görünür, burada, ehtimal ki, metal emalı ilə əlaqədar oddan çox istifadə olunmuşdur.[69]

Şirvanşahlar sarayı ərazisində, əhəngdaşı layları arasında qayada qazılmış otuzdan çox quyu aşkara çıxarılmışdır. Onlardan 14-ü saray binasının birinci mərtəbəsində, qalanı isə Divanxana ərazisində və saray binasına bitişik meydançalardadır. Həmin quyuların quru olduğu və sulu laylara gedib çatmadığı müəyyənləşdirilmişdir. Onların dərinliyi müxtəlif olub, 3 metrdən 15 metrə qədərdir. Ağızlarının diametri 0,7 metrdən 1,3 metrədəkdir. Görünür, həmin quyular saray tikilənədək qazılmışdır, belə ki, onların bəziləri saray divarlarının küncündə, bəziləri isə qapı astanasındadır.[70] Bu quyular təpənin sarayın tikilməsindən bir neçə əsr əvvəl yaşamış qədim əhalisindən xəbər verir. Onlardan taxıl və su saxlamaq məqsədilə və zibilxana kimi istifadə edilmişdir. Ehtimal ki, bəziləri kütləvi dəfn yeri olmuşdur. Divanxananın həyətində də ondan əvvəllər tikilmiş yaşayış evlərinin izləri qalmışdır. Onun həyətinin sahəsini əhatə edən balıqqulağına bənzəyən əhəngdaşının, demək olar ki, bütün üst təbəqəsində qədim bünövrələrin nişanələri gözə çarpır.[71]

Yuxarıda gətirilən qazıntı materialları göstərir ki, təpənin üstü VIII əsrdən xeyli əvvəl məskunlaşmış və qədim yaşayış yeri olmuş, eramızın I əsrinin əvvəlində isə onun ərazisində əhalisi sıx olan antik şəhərin məhəllələrindən biri yerləşmişdir. Erkən orta əsr şəhərinin ərazisi çox böyük bir sahəni tutaraq dənizin sahilinə qədər uzanırdı. Bunu antik dövrə aid edilən az miqdarda adi saxsı qablar və VIII-X əsrlərə məxsus çoxlu şirli keramika məmulatı sübut edir. Bütün bunlar təpənin zirvəsində, Şirvanşahlar sarayının ərazisində, təpənin ətəyində və Neftçilər prospektində tikilmiş evin bünövrə yerində tapılmışdır.[72]

Bakıda şəhərin erkən dövrünə (VIII əsrədək) aid yerüstü memarlıq abidələri qalmamışdır. Lakin Şirvanşahlar sarayı ərazisində aparılan qazıntılar zamanı VIII və ondan daha əvvəlki əsrlərə aid edilən divar hissələri, tikili, təndir və quyuları olan həyət qalıqları aşkar edilmişdir. Burada daha sonrakı IX–X və saray kompleksinin tikilməsindən qabaqkı XIV əsrin sonu-XV əsrin əvvəlinə qədərki binaların, divar və bünövrələrin qalıqları qalmışdır. Yəqin ki, təpənin zirvəsində içqala olmuşdur. Belə ki, sarayın binasının altında onun inşasından qabaq mövcud olmuş hansısa böyük bir tikili bünövrəsinin izləri nəzərə çarpır. Bakı şəhərinin erkən dövrü haqqında cüzi məlumatlar belədir.

3. ŞƏHƏRİN İDARƏ OLUNMASI, SOSİAL MƏNASİBƏTLƏR VƏ MƏDƏNİYYƏT

X əsrin birinci yarısı ərəb mənbələrində VIII-X əsrlərdə Bakı şəhərində sosial münasibətlərə və şəhər quruluşuna dair heç bir məlumat verilmir. Həmin mənbələrdə böyük gəlir götürən iri feodallar tərəfindən idarə olunan Azərbaycan vilayətlərinin zənginliyindən danışılır.[1] İbn Havqəl şirvanşahı və iri mülklərə sahib olan həmin feodalları vilayətlərin hökmdarı (malik) adlandırır. Onların böyük sürüləri, malikanələri, gözəl qalaları, atları və çoxlu nökərləri var idi. Feodallar şəhər, vilayət və nahiyələrə, onlara böyük qazanc gətirən məhsuldar torpaqlara sahiblik hüququna malik idilər.[2] İbn Havqəl daha sonra məlumat verir ki, bu feodalların gözəl xidmətçiləri, müğənni-cariyələri, kişi və arvad aşbazları vardır. Onlar "...qızıldan və gümüşdən qayırılmış qablardan, tabaqlardan, taslardan, dolçalardan, əhəngdaşından (şirli keramika – *S.A.*) və qızıldan düzəldilmiş satıllardan, bununla yanaşı nəfis şüşə qablardan, rəngli büllurdan və əla cəvahiratdan istifadə edirdilər".[3] Bakı qalası (İçərişəhər) ərazisində aparılan qazıntılar zamanı şirvanşahların, feodalların, habelə dövlətli şəhərlilərin istifadə etdikləri VIII-X əsrlərə aid çoxlu miqdarda gözəl şirli saxsı qab, şüşə məmulat qırıqlarının tapılması ərəb mənbələrinin məlumatlarını təsdiq edir.

Məzyədilər Xilafətin vassalı olan ilk müsəlman Şirvanşahlar sülaləsi idi. Onlar Bərdədə oturan ərəb canişininə – əmirə tabe idilər. Əmirlər ərəblərin qoyduqları yerli hakimlərin fəaliyyətinə, şəhər və

kənd əhalisinin üzərinə qoyulan vergilərin (cizyə, xərac və s.) yığılmasına nəzarət etməli idilər.[4] Əmir öz bölgəsindəki qoşunun komandanı, inzibati aparatın başçısı idi. Ərəblərin hökmranlığı dövründə Bakının neft quyuları və duz mədənləri vəqf kimi Dərbənd qazilərinə verilmişdi. Şirvanşahlar neft quyularından və duz mədənlərindən vergiləri (rüsum ən-nəffətə və-l-məllaha) toplamaq və yığılan vəsaiti Dərbənd qazilərinə göndərmək üçün xüsusi vergi yığanlar təyin edirdilər. Vəqf təsisatı çoxdan mövcud idi. Şirvanşah Heysəm ibn Məhəmməd Şirvanın bir neçə kəndinin məhsulunu da həmin məqsəd üçün ayırmışdı.[5]

X əsrdə Şirvan şəhərlərində – Bakıda, Şamaxıda, Dərbənddə ölkənin siyasi həyatına müdaxilə etməyə başlayan rəislərin – sex təşkilatlarının, yaxud tacir silklərinin başçılarının hakimiyyəti gücləndi. Haşimilər sülaləsinin hakimiyyət sürdüyü Dərbənddə iğtişaşlar baş verdikdə rəislər şəhər əhalisi ilə birlikdə tez-tez öz hakimlərini qovaraq şirvanşahı şəhərə hakim olmağa dəvət edirdilər.[6] Şirvanşahlar sülaləsinin nüfuzu əl-Babın yerli zadəganları arasından çıxmış Haşimilər sülaləsinin nüfuzundan qat-qat üstün idi. Şirvanşahlar Dərbəndə sahib olmaq uğrunda bu şəhərin hakimləri, habelə, öz ərazilərini genişləndirmək məqsədilə qonşuları ilə tez-tez müharibə aparırdılar. H.382 (992)-ci ildə Qəbələ rustağında şirvanlılarla şəkərlilər arasında şiddətli vuruşma baş verdi. Döyüşdə şirvanşahın vəziri Müsəddid ibn Həbəşi öldürüldü, onunla birlikdə Şirvan qoşununun adlı-sanlı 400 süvari əsgəri də həlak oldu.[7] Şirvanşahlar süvari döyüşçülərdən və daimi ordudan (əsgər) ibarət yerli qoşun (cünd) saxlayırdılar. Onlar hərbi quruculuqda muzdlu döyüşçülərdən də geniş istifadə edirdilər. Belə ki, h.455 (1063)-ci ildə Arran hakimi Əbüləsfər Şirvanın paytaxtını mühasirəyə alarkən "Ləkz və diduvan (Dağıstandakı dido tayfası) zadəgan gənclərindən" 50 süvari öldürülmüşdü. Şirvanşah qoşununun tərkibində qarnizon xidməti göstərən qeyri-nizami dəstələr (növbətiyyə) də var idi. Onlar hər ay dəyişdirilirdilər.[8] Şirvanşahların silahlı mühafizəçiləri (qulamları), nökərləri (xadim) və qulları var idi. Onlar müstəqil hökmdar kimi öz adlarından xütbə oxudurdular.[9]

Şirvanşahlar sarayında vəzirlər böyük nüfuza və hakimiyyətə malik idilər. Şirvanşahlar onlarla hesablaşırdılar. Belə ki, vəzir İbn Əl-Məraqi hakimiyyəti ələ keçirməyə cəhd göstərərək, şirvanşah Məhəmməd ibn Yəzidi və onun qardaşı Əhmədi qətlə yetirmişdi.[10]

Bizim əlimizdə VIII-X əsrlərdə Bakının sosial təbəqələri və şəhər idarəçiliyinə dair mənbələrin məlumatı yoxdur. Lakin "Tarix əl-Bab"ın Şirvanın başqa şəhərləri haqqında verdiyi məlumatlar bu məsələni Bakı ilə əlaqədar da müəyyən dərəcədə aydınlaşdırmağa imkan verir.

Şəhərləri əmirlər, hakimlər idarə edirdilər. Qoşunun başında isfahsalar, sahib əl-cəyş dururdu. Bələdiyyə rəisləri – darğalar və amillər də inzibati işlərlə məşğul olurdular. Şəhərin hakim təbəqəsi zadəganlar idi; rəislər feodal şəhərinin həyatında mühüm rol oynayan sənətkarlıq sexlərinin və tacir silklərinin başçılarından ibarət idi.

Maliyyə məsələləri ilə Divan əl-Xərac məşğul olurdu. Amillər vergi yığanlar idi. Bakıda neft və duz mədənlərini idarə edən nazir var idi. Şəhərlərdə, rəislər kimi şirvanşahlara heç də həmişə tabe olmayan ruhanilər, qazılar, müsəlman hüquqşünasları – fəqihlər və Quran[11] oxuyanlar da yaşayırdı".

Şəhərlərin ən yoxsul əhalisi qullar və "qara camaat" (övbaş) idi. Onlar şəhərin feodal hakim təbəqələrinə qarşı qiyamlar qaldırırdılar.

Hələ Sasanilər zamanı Sasanilər Dövlətinin mühüm strateji əhəmiyyətli əyaləti olan Şirvan ərəb hökmranlığı dövründə ərəblərin böyük diqqət göstərdikləri ən iri siyasi quruma çevrildi. Şirvanşahlar Şirvanın paytaxtı Şamaxıda yaşayırdılar. Ehtimal ki, mərkəzi Bakı olan Abşeron Şirvan vilayətinin tərkibində əlahiddə inzibati vahid olub, şirvanşahın təyin etdiyi hakim tərəfindən idarə edilirdi. X əsrin sonlarında Şirvanın başlıca şəhərləri Şamaxı, Dərbənd, Bakı və Şəbəran idi.

Şirvanşahlar bütün tarix boyu müstəqillik uğrunda mübarizə aparmış, ayrı-ayrı vaxtlarda müstəqil hakimiyyət sürmüşlər. Lakin Şirvan bu və ya digər işğalçının hakimiyyəti altına düşdükdə Şirvanşahlar vassal asılılığında olub süzerenlərinə xərac verirdilər. Ərəblərin Arranda hökmranlığı zamanı Məsləmə Əbdülməlik (VIII əsr) Şirvanın üzərinə 20 min batman buğda və 50 min dirhəm pul vergisi qoymuşdu.[12]

X əsrin ortalarında Şirvanşah Salari Mərzuban ibn Məhəmməd ibn Müsafirə 1 000 000 dirhəm xərac ödəyirdi.[13] Ərəb müəlliflərinin məlumatına görə, vergi kimi qul, pul, təsərrüfat ləvazimatı, qatır, yük

heyvanları və bəzək şeyləri alınırdı.[14] Mənbələrdə Bakı əhalisindən alınan verginin məbləği göstərilməsə də, neft, duz, buğda, zəfəran və boyaqotu ilə zəngin olan şəhər və Abşeron kəndlərinin əhalisindən xeyli vergi toplandığını ehtimal etmək olar. Şəhər sənətkarları işğalçılara və şirvanşahın xəzinəsinə böyük miqdarda vergi verməklə ərəblərin və yerli feodalların ikiqat zülmünə məruz qalırdılar.

Xilafətdə xərac və cizyədən əlavə, şəhər əhalisindən alınan bir sıra digər vergilər də mövcud idi: xüms zəkatdan, yəni, bütün əmlakdan, sənətkarlıq məmulatından, hasilatdan, qul halına salınmış əsirlərdən, arvad və uşaqlardan və bütün daşınar əmlakdan alınırdı. Zəkat, yaxud sədəqə mal-heyvandan bu hesabla yığılırdı: dəvədən – 4-9 başdan bir quzu, yaxud iki keçi, 10-14 başdan 2 quzu, 15-19 başdan 3 qoyun və s.; inək və camışdan – 30-39 başdan 1 baş, 40-50 başdan 2 baş və s.; qoyundan – 40-120 başdan 1 quzu, yaxud 2 keçi, 121-199 başdan 2 quzu, 200-399 başdan 3 qoyun və s.

200 dirhəm və 20 misqal qızıl və gümüşdən artıq məbləğdən, yaxud onun dəyərindən qırxda biri alınırdı. Qeyri-müsəlman tacirlər mallarının dəyəri 200 dirhəmdən artıq olmadıqda ildə bir dəfə onun üçdə biri dəyərində zimmi vergisi verirdilər. Başqa ölkələrdən gələn tacirlərdən mallarının dəyəri 200 dirhəmi keçmədikdə onun onda biri məbləğində vergi alınırdı.[15]

Abşeronda neft quyularına və duz mədənlərinə vergi qoyulmuşdu. VIII əsrdə Bakıda neft və duz istehsalçılarından vergi yığan xüsusi adamlar təyin olunmuşdur.[16] Abşeronun neft verən torpaqları, neft quyuları və şor gölləri, habelə əkin yerləri həm dövlətin, həm də ayrı-ayrı feodalların mülkiyyəti idi və adətən, vergi verən əhalini amansızcasına istismar edən bu və ya digər feodala iltizama, yaxud icarəyə verilirdi.[17]

Bakı əhalisi şəhərin idarə olunmasını əllərində saxlayan feodal zadəganlarından, neft verən torpaqların və əkin sahələrinin, şor göllərin və bağların sahiblərindən, habelə böyük sərmayə toplamış iri tacirlərdən və ruhanilərdən ibarət idi.

Şəhər əhalisinin əsas kütləsini sənətkarlar və tacirlər təşkil edirdi. Burada daş üzərində oyma, qravür ustaları, rəssamlar, zərgərlər, memarlar, bənnalar, dulusçular, misgərlər, dəmirçilər,

gəmiqayıranlar, qayıqçılar və müxtəlif istehsal sahələrində çalışan sənətkarlar, habelə iri və xırda alverçilər, dükançılar, şəhər yoxsulları və qullar yaşayırdı.

Məhkəmə işləri ilə şəriət hakimləri – qazılar məşğul olurdu. Onlar vəqf məsələlərini, amillərin hərəkətlərindən narazı qalanların işlərini araşdırırdılar. Vergilərin toplanması ilə bilavasitə əmirə tabe olan xüsusi məmurlar – amillər[18] məşğul olurdu.

Vilayətlər yenə də əmirin başçılıq etdiyi Divan tərəfindən idarə olunurdu. Xilafətlə əyalətlər və ucqarlar arasında rabitə saxlamaq üçün poçt – barid yaradılmışdı.[19] Ərəb hərbi qarnizonları (rabatlar) əsas şəhər və məntəqələrdə, o cümlədən Abşeronda yerləşdirilmişdi.

İbn Havqəl xəbər verir ki, Azərbaycan şəhərlərinin əhalisi arasında Azərbaycan (Arran) və fars dillərindən başqa ərəb dili də yayılmışdı. Lakin o qeyd edir ki, bu dildə danışanların sayı az idi. Xalis ərəb dilində tacirlər və mülk sahibləri danışırdı.[20] Görünür, ərəb müəllifləri Azərbaycan, yaxud Arran dili dedikdə türk dilini nəzərdə tuturdular. Yuxarıda göstərdiyimiz kimi, Arranın türkləşməsi artıq eramızın ilk əsrlərindən başlamış və türk tayfalarının Dərbənd keçidi vasitəsilə şimaldan intensiv axını ilə əlaqədar VI əsrdə güclənmişdi.

Ölkə ərəblər tərəfindən istila edildikdən sonra islam dini Bakı və Abşeron kəndlərinin əhalisi arasında yayılmağa, zərdüştiliyi və qədim astral etiqadları sıxışdırmağa başladı. Abşeronda bu günə qədər çox qədim dini ayinlərin qalıqları kimi müqəddəs ağaclara (Mərdəkan və Əmircan kəndlərində Pir Çinar) və daşa (Buzovnada Əli ayağı) sitayiş mövcuddur. Ağaclara sitayişi VII əsr alban tarixçisi Musa Kalankatlı da qeyd etmişdir.[21]

Abşeron əhalisi islam dinini qəbul etdikdən sonra VIII–X əsrlərdə müsəlman ənənələrini və ərəb-müsəlman dini adlarını qəbul edən qədim pirlərin (Buzovnada Əli ayağı, Pirallahı adasında Pirallahı və s.) müsəlmanlaşdırılması başlandı.

III Fəsil

BAKI ŞİRVANŞAHLARIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ (XI-XVI ƏSRLƏR)

1. SİYASİ TARİX

X əsrin sonunda və XI əsrdə Abbasilər Xilafətinin tənəzzülü ilə əlaqədar bir sıra vilayətlərin və ölkələrin hakimləri, o cümlədən Şirvanşahlar müstəqil hakimiyyət sürməyə başladılar və onların hakimiyyəti get-gedə irsi şəkil alır.

Şirvanşahlar IV Yəzidin hakimiyyəti dövründə – h.381-418 (991-1027)-ci illər – sülalənin iranlaşdırılması baş verdi. Bu, Məzyədilərin ənənəvi ərəb adlarının (Xalid, Yəzid) dəyişdirilərək, Ənuşirəvan, Mənuçöhr, Qubad və s. kimi Sasani İran adları ilə əvəz olunmasında əksini tapdı.

Həm prof. Y.A.Paxomov, həm də V.F.Minorski bu dəyişikliyi şirvanşahların öz şəcərələrini Sasani şahlarına bağlayan hansısa yerli hakimlər (Deylem və ehtimal ki, Şabran) nəsli ilə nikah əlaqələri ilə izah edirlər.[1] Daha sonrakı müəlliflər Rəşidəddin, Qaffari və b. şirvanşahların və qədim İran əsilzadə mənşəyini göstərmişlər.[2] Ehtimal ki, ərəblər Şirvanı və Azərbaycanı istila etdikdən sonra ərəblərin hakimiyyətdə saxladıqları şirvanşahlar Xilafətə xərac verən və onun xəzərlər üzərinə yürüşlərində iştirak edən vassal hüququnda Şirvanın idarə olunmasını davam etdirmişlər. Lakin ərəblər Azərbaycanda və Cənubi Qafqazda öz hakimiyyətlərini möhkəmləndirdikdən sonra yerli hakimlərin, o cümlədən Şirvanşahların hakimiyyətini ləğv etdilər. Şirvanın ərəb hakimi Məzyədi Heysəm ibn Xalid xəlifə Mütəvəkkil öldürüldükdən (h.247 (861)-ci il) sonra Xilafətdə baş verən qarışıqlıqdan istifadə edərək öz müstəqilliyini elan etdi. Ərəb hakimləri tərəfindən təqib olunan şirvanşahlar mərkəzdən uzaq ucqar yerlərə çəkilərək gizlənmiş və onların nəsilləri bir neçə əsr ərzində gözə çarpmadan davam etmişdir. Ehtimal ki, bu nəslin qadın nümayəndələrini Məzyədilər ərəb sülaləsinə mənsub şirvanşahlarla nikahı tarixdə Kəsranilər adı ilə tanınan sonrakı Şirvanşahların iranlılaşmasının stimulu olmuşdur.

Arrandakı Şəddadilərdən və Dərbənddəki haşimilərdən xeyli yüksək nüfuza malik olan bu sülalənin hakimiyyəti onun ayrı-ayrı nümayəndələri – qardaş və oğullar, əmi və əmioğlanları arasında düşmənçiliklə əlamətdardır.

H.416 (1025)-cı ildə şirvanşahın oğlu Ənuşirəvan ibn Yəzid atasının əleyhinə qiyam qaldırdı, lakin yaxalanıb həbsxanaya salındı və burada aclıqdan və susuzluqdan öldü.[3]

H.425 (1034)-ci ildə şirvanşah Mənuçöhr yeddiillik hökmranlıqdan sonra öz evində hakimiyyəti ələ keçirən qardaşı Əbu Mənsur ibn Yəzid tərəfindən xaincəsinə öldürüldü.[4]

Dərbəndə sahib olmaq uğrunda aramsız mübarizə Mənuçöhr ibn Yəzidin dövründə h.420 (1029)-ci ildə də davam edirdi. Bu vaxt Dərbənd Şirvanşahların torpaqlarına daxil idi. Dərbənd hakimləri müstəqillik əldə etmək uğrunda şirvanşahlarla tez-tez ara müharibələrində iştirak edirdilər və vaxtaşırı buna nail ola bilirdilər.

H.421 (1030)-ci ildə "əl-Babın əhalisi şirvanşahın torpaqlarına basqın edərək onun ərazisindəki bir çox yaşayış yerlərini dağıtdılar".[5]

Şirvanın varlı şəhərləri – Şamaxı, xüsusilə Bakı yadelli işğalçıların diqqətini özünə cəlb edirdi. Onlar dəfələrlə bu şəhərlərə basqın edərək: çalıb-çapır, əhalisini qırırdılar. Mənbələr göstərir ki, h.421 (1030)-ci ildə rus dəstəsi otuz səkkiz gəmi ilə Şirvana hücum etdi. Şirvanşah I Mənuçöhr ibn Yəzid (hakimiyyət illəri h.418-425 (1027/8-1033/4)-ci illər) onları Bakı (Bakuyə) yaxınlığında qarşıladı. Ruslarla vuruşmada xeyli şirvanlı, o cümlədən zadəganlardan Əhməd ibn Xasskin* həlak oldu. Sonra ruslar Kür çayınadək qalxdılar. Mənuçöhr rusların hərəkətini dayandırmaq üçün Arazın qabağını bəndlə kəsdi, lakin onlar müsəlmanların bir çoxunu suda batırdılar. Bununla belə, rusların Arazla irəliləməsinin qarşısı alındı.[6] Sonralar Cənzə (Gəncə) hakimi Şəddadi Musa ibn Fəzl rus dəstəsindən muzdlu kimi öz qardaşının əleyhinə istifadə etdi. O, ruslarla sahilə çıxmağı təklif etdi, onlara çoxlu pul verib əhalisi ona qarşı üsyan qaldırmış Beyləqanın üzərinə göndərdi. Musa ibn Fəzl rusların köməyi ilə Beyləqanı ələ keçirdi, qardaşı Əskəriyyəni tutub öldürdü. Sonra ruslar Arranı tərk edərək Ruma getdilər, oradan isə öz ölkələrinə qayıtdılar.[7] Mənbədə göstərilir ki, ruslar tezliklə – h.421-ci

---

* Ehtimal ki, Xasstəkin (*V.F.Minorskinin qeydi*)

ilin zilhiccə ayında (19.XI-18.XII.1031-ci il) yenidən gəldilər. Bu dəfə Şəddadilər sülaləsindən olan Arran hakimi Musa ibn Fəzl ruslara hücum etdi, Bakuyə yaxınlığında onlarla vuruşdu, çoxunu qıraraq, sıxışdırıb ölkədən çıxardı.[8] Göründüyü kimi, ruslar dəniz yolu ilə Bakıya gəlib Şirvana basqın edirdilər.

XI əsrin 40-cı illərində Şirvanşahlar Şirvanı təhdid edən köçəri oğuz türklərinin hücum təhlükəsi ilə əlaqədar şəhərlərin ətrafında qala divarları çəkdirməyə başladılar.[9] Bu vaxtlar şirvanşahlar öz qoşunları ilə feodal ara müharibələri aparır, habelə Şirvan şəhərlərində baş verən antifeodal hərəkatlarla mübarizə edirdilər. Mənbənin verdiyi məlumata görə, h.458-ci ilin cəmadiyüləvvəl ayında (31.III-30.IV.1066-cı il) şirvanşah Fəribürzün "öz paytaxtı Yəzidiyyənin əhalisinə qəzəbi tutdu, kafir gürcüləri onun üstünə saldırdı. Onlar əhalini qarət edib, oradakı müsəlman üləmasını, rəisləri və zadəganları əsir aldılar..."[10] və amansız divan tutdular. Şirvanşahlar oğuzların bir qolu olan səlcuqlarla da mübarizə aparırdılar. Səlcuqlar XI əsrin əvvəllərində güclü imperiya yaradaraq, Ön Asiya ölkələrini – Azərbaycanı və onun qonşularını təhdid edirdilər. XI əsrin ortalarınadək səlcuqlar İranı, Azərbaycanı və bir sıra digər şərq ölkələrini işğal etmişdilər.

XI əsrin 40-cı illərində mənbələrdə oğuz türklərinin Azərbaycana girməsi təhlükəsi ilk dəfə olaraq qeyd edilir.[11]

H.458 (1066)-ci ildə oğuz türkləri Şirvana hücüm etdi. Onlar kürd düşərgəsini qarət edərək, çoxlu qənimət apardılar. Şirvanşah I Fəribürz bir Salar h.455 (1063)-cü il türkləri Şirvandan getməyə vadar etmək üçün böyük təzminat verməli oldu.[12] H.459-cu il məhərrəm ayının birində (22 noyabr 1066-cı il) türklərin başçısı Qaratəkin ikinci dəfə Fəribürzün onunla ittifaq bağlamış əmisi Məmlan bin Yəzid bin Məhəmmədin müşayiəti ilə Şirvana hücum etdi. Qaratəkin Yəzidiyyənin (Şamaxı) qapıları qarşısında çadır quraraq şəhəri mühasirəyə aldı. Sonra o, ölkənin dağ və dərələrinə hücum çəkərək, onları viran qoydu, xeyli adamı qırdı, sürüləri apardı, qadın və uşaqları əsir aldı, Şirvanı "boş səhraya" (Quran, XX, 106) döndərdi. Oradan Bakuyəyə enən Qaratəkin burada əhalinin xeyli hissəsini qırdı, qadın və uşaqları, sürüləri qovub apardı.[13] Vəziyyət qorxulu hal alanda Şirvanşah 4000-dən çox cins atdan ibarət ilxısını Məsqətə göndərdi. Qaratəkinin dəstələri Bakıdan Şabranadək

qabaqlarına çıxan hər şeyi qarət edib dağıdırdılar. "Türklər Şabranın həndəvərində düşərgə salaraq ətraf kəndləri qarətə çıxdılar. Onlar müsəlmanları və onların müttəfiqlərini yandırırdılar". Onlar dağlara qalxdılar və oradan Məsqət üzərinə hücuma keçdilər, Fəribürzün ilxısını qovub apararaq Şabrana qayıtdılar.[14] Qaratəkinə 2000 türk döyüşçüsündən ibarət kömək gəldiyindən şirvanşahın vəziyyəti daha da ağırlaşdı. Yəzidiyyənin mühasirəsi davam etsə də, türklərin şirvanşahı qaladan çıxmağa məcbur etmək cəhdləri baş tutmadı. Şirvanşah öz adamını sultanın hacibinin yanına göndərdi. Hacib Fəribürzün yanına gəldikdə şirvanşah, hər şeydən əvvəl, öz daxili düşmənini – doğmaca əmisini məhv etmək üçün ona 6000 dinar verərək öz tərəfinə çəkdi. Ehtimal ki, bu hədiyyə türkləri Kürü keçib topladıqları qənimətlə geri qayıtmağa sövq etmişdir. Türklərin ölkəni zəbt etmək təhlükəsi şirvanşahı onlara xərac verməyə vadar etdi.[15] H.459 (1067)-cu ildə Qəzvin hakimi türk Elbasan Şirvanı türklərin basqınlarından qorumasını vəd etməsi müqabilində Qaratəkinə hər il verməyə öhdəsinə götürdüyü 30. 000 dinarı almaq üçün öz məmurlarını şirvanşah Fəribürzün yanına göndərdi.[16]

Qaratəkinin yürüşündən sonra türklərin Azərbaycana gəlmələri intensiv şəkil aldı. H.459 (1067)-cu ildə qoşun başçıları Qaymas və Qaratəkin türk süvari dəstəsi ilə şirvanşahın yanına gəldilər və o, əmisi Qubadın qızını Yəzidiyyəyə köçüb gələn Qaratəkinə ərə verdi.[17] Həmin il səlcuq sultanı Alp Arslan Arrana daxil oldu. Şirvanşah Fəribürz qiymətli hədiyyələrlə onun hüzuruna gedərək öz xidmətini təklif etdi və h.460 (1068)-cı il səfərində onu müşayiət etdi.[18]

Alp Arslan h.460 (1068)-cı ildə Gürcüstan səfərindən qayıtdıqdan sonra Gəncədən keçib Bərdəyə gələndə əl-Babın nümayəndələri şəhərin bir neçə rəisini həbs etmiş şirvanşahdan ona şikayət etdilər. Sultan onların azad olunmasını əmr etdi. Fəribürz onun əmrini yerinə yetirdi. Sonra sultan şirvanşahı həbsxanaya saldı, nəhayət, onu azad edərək, hər il böyük məbləğdə xərac verməyə məcbur etdi.[19] Şirvanda sonralar baş verən hadisələr şirvanşahın hücumları və Dərbəndlə mübarizəsi ilə bağlıdır. Mənbələrin verdiyi məlumatlarda həm yerli hakimlərin, həm də səlcuq işğalçılarının ikiqat zülm və istismarı altında əzilən Şirvan və Arran şəhərlərinin ağır vəziyyətindən danışılır. Şirvanın və bütün ölkənin səlcuqlar tərəfindən işğalı Səlcuqilər sülaləsinin öz qüdrətinin zirvəsinə çatdığı

Məlik şahın hakimiyyəti dövründə (1072-1092) baş verdi.[20] Numizmatik məlumatların təsdiq etdiyi kimi, bu dövrdə Şirvanşahlar səlcuq sultanının vassalına çevrilirlər. Şirvanşahların kəsdirdikləri sikkələrdə xəlifə ilə yanaşı səlcuq sultanının da adı çəkilir.[21]

II Mənuçöhr dövründə (XI sonu-XII əsrin əvvəli) kəsilmiş sikkədə həkk olunmuşdur:

Məhəmməd rəsulillah	əl-məlik
Əl-Müst əzhir billah	Mənuçöhr
Sultan Məhəmməd	bin Fəribürz[22]

Şirvanşah Fəribürzün Məlik şahın xəzinəsinə ödəməyə iltizam verdiyi illik xəracın məbləği əvvəlcə 70000 dinar idi. Lakin sonralar bu məbləğ 40 000 dinara endirildi.[23] Bununla belə, XIII əsrin tarixçəsi ən-Nəsəvinin sözlərinə görə, Məlik şah Arranı zəbt etdikdən sonra şirvanşah onun hüzuruna gələrək onunla saziş bağladı. Həmin sazişə görə şirvanşah sultanın xəzinəsinə hər il yüz min dinar verməli idi.[24] Məlik şahın Şirvana yürüşünə, ehtimal ki, şirvanşah Fəribürzün səlcuq sultanının öz üzərində ali hakimiyyətini tanımaqdan imtina etməsi səbəb olmuşdur. I Fəribürz igid sərkərdə, böyük diplomat idi. Onun bütün fəaliyyəti qonşu əraziləri zəbt etmək hesabına feodal torpaqlarını genişləndirməyə yönəldilmişdi. Sultan canişinlərinin bütün cidd-cəhdlərinə baxmayaraq, Fəribürz 8 il ərzində Şirvanın müstəqil idarə edilməsinə nail oldu.[25]

Şirvan dəfələrlə ölkəni qarət edən və viran qoyan türk qoşunlarının basqınlarına məruz qalmasına baxmayaraq, şirvanşah hələ də müstəqil hökmdar kimi hakimiyyət sürürdü. Lakin sultanın sərhəd vilayəti əl-Babı iqta kimi bağışladığı hər iki İraqın – İraqi-Ərəb və İraqi-Əcəmin hakimi Savtəkinin nümayəndəsi buraya gəldikdən sonra hər il sultanın xəzinəsinə xərac (mal) verən vassal vəziyyətinə düşdü.[26]

Sonuncu səlcuqlar dövründə Azərbaycanın şimal vilayətlərində iki iri feodal məlikliyi var idi: Şərqdə – XI-XIV əsrlərdə səlcuqların vassalı hüququnda şirvanşahların hökmranlıq etdikləri Şirvan və qərbdə – Eldəgiz atabəylərinin hakimiyyəti altında olan Arran Eldəgizlər, həm də Cənubi Azərbaycanın hakimi olub, səlcuq sultanlarının vassalı idilər.

Mənbələr xəbər verirlər ki, XII əsrin ikinci çərəyində Eldəgiz, Bakı da daxil olmaqla, bütün Şirvanı zəbt etdi. "Nəhayət, səlcuqi Toğrulun qardaşı sultan Məsud (1133/4-1152) Eldəgizi qoşunun bir hissəsi ilə Arrana tərəf göndərdi və qısa müddətdə Arranı, Gəncəni, Şirvanı və Bakını tamamilə tutan Eldəgiz qoşun və rəiyyətlə elə münasibətlər yaratdı ki, hamının ürəyində ona məhəbbət oyandı".[27] Lakin, görünür, bu məlumat Eldəgizin həmin ərazinin gürcülərin işğalı altında olduğu h.558 (1162/3)-ci ildə gürcü hökmdarı III Georgini məğlubiyyətə uğratmasına aiddir. Ehtimal ki, Şirvan Eldəgizin, sonralar isə Qızıl Arslanın ölkədən qovduqları gürcülərin əlindən alınmışdır.[28]

1170-ci ildə I Axsitan dayısı oğlu olan gürcü hökmdarı III Georginin köməyi ilə Bakı yaxınlığında rusların 73 gəmidən ibarət donanmasını məğlub etdi və xəzərlərin tutduqları Şəbəranı və Dərbəndi geri aldı.[29] Brodniklər adlandırılan ruslar Volqa ilə üzüaşağı üzərək Xəzər dənizinə çıxdılar və Ruinas (ehtimal ki, Nargin) adasının yaxınlığında lövbər saldılar. Sonra onlar Kür çayı ilə üzüyuxarı qalxaraq, Ləmbərana gəlib çatdılar, daha sonra isə düz yolla Şamaxıdan Şəbərana getdilər. Eyni vaxtda rusların müttəfiqləri olan xəzərlər Dərbəndi və Şəbəranın Narınqalasını tutdular. Ağır vəziyyətə düşən Axsitan kömək üçün III Georgiyə müraciət etdi.[30]

Həmin hadisə gürcü salnaməsində təsvir olunmuşdur. "Vaxtilə Dərbənd xəzərlərinin sıxışdırdığı bu şirvanşah (I Axsitan – *S.A.*) kömək üçün ona müraciət etdi. Hökmdar (III Georgi – *S.A.*) İmeriyadan və Ameriyadan qoşun topladı, yunan hökmdarının qardaşı oğlu Androniki də özü ilə götürüb Dərbənd qapılarına yaxınlaşdı. O, Maskut və Şarabam torpaqlarını viran qoyaraq Şaburani şəhərini aldı. Andronikin bu şəhərin qapıları qarşısındakı şücaəti döyüşü izləyən hökmdarın xoşuna gəldi. O, şəhəri atasının dayısı oğlu şirvanşaha verdi..."[31]

XII əsrin sonlarında Şirvanşahlar nominal şəkildə müstəqil olsalar da, əslində, Eldəgizlərin hakimiyyəti altında idilər.

1191-ci ildə Şamaxı güclü zəlzələ nəticəsində xeyli dərəcədə dağıldı. Bu zəlzələdə Şirvanşah I Axsitanın arvadı və uşaqları həlak oldu.[32] Ehtimal ki, bu vaxt Axsitan öz iqamətgahını Şamaxıdan Bakıya köçürmüşdü.

XII əsrin sonu-XIII əsrin əvvəli Bakı şəhərinin feodal inkişaf dövrü idi. Şirvanşahlar şəhərdə bir sıra binalar tikdirərək onu möhkəmləndirdilər. XII əsrin birinci yarısında şəhərin qala divarları çəkildi və bir sıra fortifikasiya işləri aparıldı. Şəhərin müdafiə tikililəri sisteminə Qız qalası da daxil idi. Səlcuqların, sonralar isə Eldəgizlərin ağalığından azad olmaq uğrunda mübarizədə şirvanşahlarla gürcü hökmdarları arasında sülalə nikahları ilə möhkəmləndirilən yaxınlaşma gedirdi. Gürcü salnaməsində xəbər verilir ki, 1222-ci ildə gürcü hökmdarı, Tamaranın oğlu IV Georgi Laşa Baqavana, yəni Bakıya getmiş və 10 gün orada qalmışdır. Şirvanşah, ehtimal ki, III Fəribürz onun bacısı Rusudanaya evlənmək istəmişdir. Georgi Laşa toy məclisində iştirak etmək üçün Baqavana gəlmiş, lakin yanvarın 18-də orada ölmüş və toy baş tutmamışdır.[33]

Bu zaman Şirvanın varlı şəhərlərindən biri və Xəzər dənizində mühüm liman kimi Bakının əhəmiyyəti daha da artır. Bu dövrün mənbələrində Bakı alınmaz qala və şərqin mühüm şəhərlərindən biri kimi təsvir edilir.

Xaqani (XII əsr) Axsitan ibn Mənuçöhrü mədh edən məşhur qəsidəsində Bakıdan basılmaz qala, Şərqin mühüm şəhərlərindən biri kimi danışaraq, onu Xorasanın çox yaxşı möhkəmləndirilmiş Bastam şəhəri ilə müqayisə edir.[34] Məlumdur ki, XII əsrdə Bakı qala divarları ilə əhatə olunmuşdu. Onun müdafiə tikililəri sisteminə Qız qalası da daxil idi. Şair Bəstamdan danışarkən buna işarə edirdi. XII əsrin sonlarında, Qızıl Arslanın ölümündən (1191) sonra Eldəgizlər dövləti tədricən tənəzzülə uğramağa başladı. Bununla əlaqədar olaraq Eldəgizlərin vassalı olan şirvanşahlar hakimiyyətini tanımaqdan imtina edərək qısa müddət müstəqillik qazanırlar. Bu, Şirvanın dirçəlişi və iqtisadi inkişaf dövrü idi. Lakin ölkənin bu dinclik dövrü uzun sürmədi.

Səlcuq imperiyası dağıldıqdan az sonra Şərq ölkələrinin üstünü monqol hücumları təhlükəsi aldı. Azərbaycan da monqol istilasından xilas ola bilmədi. 1220-ci ildə Gərşəsb ibn I Fərruxzadın hakimiyyəti dövründə monqollar Şirvana soxuldular. Cəbə-noyonun və Sabutay Bahadurun başçılığı ilə otuz minlik monqol ordusu gürcü və erməni qoşunlarını məhv edərək qışı Muğanda qışladılar,[35] sonra isə Ərdəbilə qayıtdılar, şəhəri dağıdaraq zəbt etdilər. Bundan sonra monqollar Təbrizi mühasirəyə aldılar. Şəhərin əhalisi pul və parça

verməklə xilas oldu. Monqollar qabaqlarına çıxan şəhər və kəndlərin əhalisini amansızcasına qırırdılar. Onlar Sərab və Beyləqanı tutub, Gəncəyə doğru yollandılar. Gəncə əhalisi pul və bahalı parçalarla canlarını qurtardı.[36]

Sonra monqollar Gürcüstana soxuldular.[37] Onlar tezliklə Şirvana qayıtdılar, Şamaxını mühasirəyə alıb dağıtdılar, əhalisini qırdılar. Bundan sonra onlar 1222-ci ildə Dərbənd keçidindən keçib şimala getmək üçün Dərbəndə yönəldilər.

Bu zaman Dərbəndin hakimi şirvanşah Rəşid idi. O, on nəfər adlı-sanlı adamını monqolların yanına göndərdi. Monqollar onlardan birini öldürüb, qalanlarının köməyi ilə kəsə yolla, dağlardan aşaraq şimala getdilər.[38]

Monqol hücumundan sonra qıpçaqlar Azərbaycana soxularaq Arranın bir sıra şəhər və kəndlərini dağıtdılar. Qıpçaqların ardınca h.622 (1225)-ci ildə Şirvan xərac vermək tələbi ilə kifayətlənməyən xarəzmşah Cəlaləddinin hücumuna məruz qaldı. O, əvvəlcə, şirvanşah Əfridun bin II Fəribürzdən 50 min dinar verməyi tələb etdi. Cəlaləddin Arrana qayıtdıqdan sonra Əfridun sultanın hüzuruna gedərək hədiyyə kimi ona 500 at verdi.[39]

Vəzirinin etirazına baxmayaraq, Cəlaləddin onun öz torpaqlarında hakimiyyətini təsdiq etdi və xəracı 50 min dinardan 20 min dinara endirdi. Beləliklə, şirvanşah öz müstəqilliyini qoruyub saxlaya bildi.

Monqollar Azərbaycana ikinci dəfə 1231-ci ildə hücum edərək 8 il ərzində Şirvan və Arranın şəhərlərini işğal etdilər.[40] Monqol qırğınlarından yaxa qurtarmış feodallar, əyanlar, şəhər və kənd əhalisi dağlara çəkildi.

XV əsrin əvvəli Azərbaycan coğrafiyaşünası Bakuvinin verdiyi məlumata görə, monqollar dəniz sahilindəki möhkəmləndirilmiş qalanı – əhalisi onlara inadlı müqavimət göstərən Bakını uzun müddət ala bilməmişdilər.[41] Yalnız bütün ölkə işğal olunduqdan sonra şəhər təslim olmaq məcburiyyətində qaldı. Monqollar nəhəng monqol imperiyasının tərkibinə qatılan Azərbaycan, Ermənistan və Gürcüstanı işğal etdilər.[42]

Monqollar Azərbaycanda böyük dağıntılar törətdilər, bir sıra iri şəhərləri məhv etdilər. Onların bəziləri sonralar dirçələ bilməyib süqut etdi. Gəncə, Bərdə, Beyləqan, Şəbəran kimi iri ticarət-

sənətkarlıq mərkəzləri bərk dağıdılaraq öz əvvəlki əhəmiyyətlərini itirdilər. İşğalçıların gəldiyi böyük yoldan kənarda yerləşən Bakı, görünür başqa şəhərlərə nisbətən az zərər çəkmişdi. Hərçənd, monqollar şəhəri alarkən Qız qalasının yuxarı hissəsi dağıdılmışdı.[43]

XII-XIII əsrlərdə yadelli işğalçıların basqınları ilə əlaqədar şirvanşahlar Bakı və Abşeronda qala divarları, bürclər, müdafiə istehkamları tikdirirdilər. Onların üzərində şirvanşahların adları onların dəbdəbəli titulları ilə çəkilirdi ki, bu da Şirvanşahların və onların vassalları olan iri feodalların müstəqilliyini göstərirdi. Yəqin ki, Bakı da Şirvanşahlar dövlətinin paytaxtı Şamaxı ilə yanaşı, onların iqamətgahı idi.

Çingiz xanın nəvəsi Hülakü xan 1258-ci ildə Bağdadı aldı, sonuncu xəlifəni qətlə yetirərək Abbasilər Xilafətinə son qoydu və Cənubi Azərbaycanda Hülakülər, yaxud Elxanilər sülaləsinin əsasını qoydu. Elxanilər Şimali Azərbaycanı, Ermənistanı və Gürcüstanı da işğal etdilər. Onlar Cucilərin həmin vilayətlər barəsində iddialarını rədd etdilər ki, bu da Qızıl Orda ilə Elxanilər dövləti arasında toqquşmaya səbəb oldu.[44] İki dövlət arasında hərbi əməliyyatlar yüz ilə yaxın davam etdi. Bu müddət ərzində onların sərhədləri tez-tez dəyişərək gah Dərbəndin, gah da Bakının yaxınlığından keçirdi.

Göstərilən hadisələr aramsız müharibələr nəticəsində dağıdılan ölkənin rifahına son dərəcə fəlakətli təsir göstərirdi. XIII əsrin sonlarında şirvanşah III Axsitan ibn II Fərruxzad öz iqamətgahını Güştəsbiyə köçürdü. Bu, görünür Dərbənd bölgəsinin Bakıya qədər Hülakülərlə Cucilər arasında hərbi əməliyyat meydanına verilməsi və şirvanşahların həmin yerlərdə qalmasının təhlükəli olması ilə bağlı idi.[45]

Monqol istilası Şirvanın müstəqilliyinə son qoydu. Öz torpaqlarında monqolların vassalı kimi hakimiyyət sürən Şirvanşahlar öz adlarından pul kəsdirməyə davam etsələr də, artıq təmtəraqlı titullarını göstərmir, öncə monqol xaqanının adını çəkdilər.[46] Şirvanşahlar Elxani hökmdarlarının bütün yürüşlərində öz qoşunu ilə iştirak edir və süzereni qarşısındakı bütün təəhhüdlərini yerinə yetirirdilər.

Mənbələrdə xəbər verilir ki, şirvanşah II Axsitan ibn II Fəribürz təqribən h.653 (1256)-cü ildə Azərbaycan, Gürcüstan, Xorasan və b. vilayətlərin feodal hakimləri ilə birlikdə "layiqli

hədiyyələrlə" İsmaililərə qarşı yürüşə çıxmış Hülakü xanın yolüstü qərərgahına gəlmişdi.[47]

Elxanilər dövründə Bakı monqol hökmdarlarının qışlaq yeri idi. H.697 (1297)-ci ildə elxan Arqunun oğlu Qazan xan qışlamaq məqsədilə Bakıya gəlmişdi.[48] Fransız rahibi Odorik de Pordenon (1274-1331) yazır: "Xan yayı burada (Sultaniyyədə) keçirir, qışda isə Bakuk ("Bacuc") adlanan başqa şəhərə gedir".[49]

Elxanilər Dərbəndin tənəzzülə uğraması ilə əlaqədar əhəmiyyəti artan Bakıya böyük diqqət yetirirdilər. Elxanilərlə Cucilər arasındakı hərbi əməliyyatlarla əlaqədar Elxanilər Cucilərin əlində olan Dərbənd limanından istifadə edə bilmirdilər. Lakin onlar Dərbəndin yaxınlığında onların mənafeyini təmin edən rahat və təhlükəsiz limanlarının olmasında maraqlı idilər.

Böyük iqtisadi əhəmiyyətə malik olan Bakı belə gözəl təbii liman idi. Bununla əlaqədar, Dərbənd tənəzzülə uğradığı halda, Bakının əhəmiyyəti artır.[50] İrandan və Orta Asiyadan gələn gəmilər Bakı limanına üstünlük verməyə başladılar.[51]

Monqol dövlətinin tənəzzülə uğrayaraq dağılmağa və bir sıra xırda feodal torpaqlarının yaranmağa başladığı XIV əsrin əvvəllərində Şirvanşahlar hakimiyyətinin mövcudluğu Bakıda təsərrüfat həyatının və tikinti işlərinin dirçəlişində böyük rol oynadı. Bu vaxt Şirvanşahlar Şəbəran və Dərbənd şəhərlərinə də sahib idilər. Rəşidəddin oğluna məktubunda şirvanşahı "Şəbəran, Şamaxı və Dərbəndin məliki" adlandırır.[52] XIV əsrin 40-cı illərində Bakıda Hülakülər – sultan Süleyman və Ənuşirəvan adından sikkə kəsilən zərbxana var idi.[53] Bakı ərazisində həmin sikkələrin bütöv dəfinələri tapılmışdır.

Monqol dövlətinin dağıldığı dövrdə Azərbaycanın şimal vilayətlərinin bir müddət yadelli işğalçıların əsarətindən azad olan şəhərləri siyasi qüvvə əldə etdilər. Bu vaxt Şirvanda şirvanşahlar Keyqubad, sonralar isə onun oğlu Kavus hakimiyyət sürmüşdür. Elxanilər dövləti dağıldıqdan sonra onun ərazisində digər xırda müsəlman sülalələri ilə yanaşı, nümayəndələri Şirvanşahlarla mübarizə aparan Çobanilər, sonralar isə Cəlairilərin hakimiyyəti bərqərar oldu. Həmin mübarizələrin nəticəsi numizmatika materialında əksini tapmışdır. Cəlairi Şeyx Üveysin vassalı olmasını qəbul edən şirvanşah Kavus dövründə h.762 (1360/1)-ci və 766 (1362/3)-cı illərdə Bakıda onun adından gümüş sikkə kəsilmişdir[54]. Lakin 766-cı ildə Kavus Şeyx

Üveysə qarşı çıxdı və h.769-770 (1367/8-1368/9)-ci illərdə Bakıda kəsilmiş sikkələrdə bu sultanın adı yox oldu.[55] Cəlairilərlə mübarizədə məğlubiyyətə uğrayan Kavus təslim oldu, üç ay həbsxanada saxlanıldıqdan sonra buraxıldı və ömrünün sonunadək Şeyx Üveysin sadiq vassalı olaraq qaldı.[56]

Göründüyü kimi, göstərilən hadisələr Bakıya da şamil idi. Belə ki, mənbələrin məlumatına görə, bir sıra yerlərin, o cümlədən Bakı vilayətinin feodal malikləri Hacı Fəramərz və Hacı Firidun sultan Üveysin hüzuruna gedib itaətlərini bildirməyə məcbur oldular. Onlar hər il Üveysə "mal", yaxud "xərac" adlandırılan vergi verməyi öhdələrinə götürdülər.[57]

Kavusun oğlu, cəlairilərlə dostluq münasibətləri saxlayan şirvanşah Huşəngin zamanında Şirvanın Bakuyə, Güştəsbi, Şəbəran və Şamaxı şəhərlərində üzərində Şeyx Üveysin oğlu, h.776 (1374/5)-cı ildən h.784 (1382)-cü ilədək hökmranlıq etmiş Cəlaləddin Hüseynin, habelə, onun qardaşı Qiyasəddin Əhmədin (h.782-813 (1382-1410)-cü illər) adları çəkilən kitabə olan gümüş pullar zərb edilirdi.[58]

XIV əsrin sonlarında Şirvanda xırda feodalların və kəndlilərin zadəganlar əleyhinə üsyanı baş verdi. Bu hadisələr zamanı şirvanşah Huşəng şirvanlılar tərəfindən öldürüldü. Feodallar Huşəngin əmisi oğlu şeyx I İbrahim Sultan Məhəmməd ibn Keyqubadı şirvanşah seçdilər. O, Məzyədilər sülaləsinin bir qolu olan Dərbəndi Şirvanşahları sülaləsinin (1382-1538-ci illər) əsasını qoydu. Şeyx İbrahim Şəki kəndlərindən birində əkinçiliklə məşğul olan zadəgan mənşəli yoxsullaşmış feodal idi. Böyük feodal və görkəmli dövlət xadimi olan şeyx İbrahim Teymurun Azərbaycana hücumu zamanı ona itaət göstərərək, ölkənin dağıdılmasının qarşısını aldı və onun rəğbətini qazanaraq Şirvanın hakimi təyin olundu. 1392/3-cü ildə Teymur oğlu Miranşahı Şirvanın, o cümlədən Bakının hakimi təyin etdikdə belə şirvanşah özünün şirvanşah titulunu saxladı.[59]

H.787 (1385/6)-ci ildə Qızıl Orda xanı Toxtamış 90 minlik ordu ilə Azərbaycana soxuldu. O, Şirvanın bir sıra şəhərlərini viran edərək Təbrizə yollandı. H.791-792-ci illərdə (1388/9 və 1389/90-cı illər) Bakıda, Şamaxıda və Şəbəranda Toxtamışın adından sikkə kəsilmişdi.[60] Lakin Toxtamışın ordusu ölkəni tezliklə tərk etdi.

1387-ci ildə Teymurun qoşunları yenidən Şirvana girdi. Mənbələr xəbər verirlər ki, Teymur XIV əsrin sonlarında Dərbənd limanından

keçmişdir. Onun burada olmasını XIV əsrin sonunda Bakıda onun adından kəsilmiş gümüş və mis sikkələr də təsdiq edir.[61] Yeddiillik müharibə (1399-1405-ci illər) zamanı Teymur Kiçik Asiyaya (Ruma), Osmanlı sultanı Bəyazidə qarşı yürüş etdi. Bu müharibədə Teymurun tərəfində şirvanşah İbrahim də iştirak edirdi. Teymur h.803 (1400)-cü ildə Suriyaya daxil olarkən onu müşayiət edən Şeyx İbrahim Hələbə gəlmişdi.[62]

Teymur h.807 (1405)-ci ildə öldükdən sonra Şirvan qısa bir müddət müstəqillik əldə etdi. Bu illərdə bir sıra şəhərlərdə Teymurilər əleyhinə üsyanlar qalxdı.

Daxili siyasi vəziyyətdən, şəhər və kənd əhalisinin müxtəlif təbəqələri arasında böyük rəğbət qazanmasından istifadə edən şirvanşah I İbrahim 1406-cı ildə[63] Qarabağı və Təbrizi tutdu. Lakin Cəlairi Əhmədin Cənubi Azərbaycana qayıtması ilə əlaqədar İbrahim tezliklə Təbrizi tərk edərək, qoşunlarını Araz çayının o tayına apardı. Qaraqoyunlu sultanı Qara Yusiflə sultan Əhməd arasında müharibə zamanı sonuncu şirvanşah İbrahimdən kömək istədi. Şirvanşah dərhal Şirvan qoşunlarını oğlu Kəyumərsin başçılığı ilə sultan Əhmədin köməyinə göndərdi. Sultan Əhməd 1410-cu ildə darmadağın edilərkən Kəyumərs Təbrizin həndəvərinə yaxınlaşdı. Gecə o, Qara Yusifin qoşunlarının qəfil hücumuna məruz qalaraq əsir alındı. Qara Yusifin əmri ilə Kəyumərs Ərciş qalasında saxlanırdı. Şirvanşah oğlunun geri qaytarılması üçün böyük miqdarda pul təklif etdi. Lakin Qara Yusif Kəyumərsi təmənnasız buraxaraq, hədsiz iltifat göstərdi və onunla atası Şeyx İbrahimə tabe olmaq tələbi ilə məktub göndərdi. Şirvanşah Kəyumərsin xəyanət etməsindən, atasını devirərək Qara Yusiflə onun vassalı olmaq barəsində sazişə girməsindən şübhələnərək oğlunu edam etdirdi.[64]

1412-ci ildə Azərbaycan Qara Yusifin hücumuna məruz qaldı. H.815-ci ilin şaban ayında (6.X-5.XII.1412-ci il) Kür çayının sahilində baş verən böyük vuruşmada Qara Yusif İbrahimi 7 oğlu ilə birlikdə əsir alaraq şirvanlıları və onların müttəfiqi gürcüləri məğlubiyyətə uğratdı. Qara Yusif Şirvan kəndlərinin əksəriyyətini dağıtdı və mahalların bir çoxunu amansızcasına qarət etdi.

Qara Yusif tezliklə İbrahim üçün Təbriz tacirlərindən böyük miqdarda can bahası alıb onu azad etdi. 1413-cü ildə şirvanşah Qara Yusifin vassalı olmasını qəbul edib Şirvana qayıtdı. Bu vaxt Bakı

və Şirvanın digər şəhərləri Qaraqoyunlu dövlətinin hakimiyyəti altına keçir. Lakin bu vassallıq formal xarakter daşıyırdı. Belə ki, şirvanşah İbrahim, əvvəlki kimi otuz beş il ərzində hökmranlıq etdiyi Şəkidən Dərbəndədək Şirvanın tam hakimi idi. Şirvana qayıtdıqdan sonra qoca yaşlı Şeyx İbrahim üç il hakimiyyət sürərək h.820 (1417)-ci ildə ölmüşdür. Şeyx İbrahim qonşu ölkələrlə, Gürcüstan və Dağıstanla müttəfiqlik və dostluq əlaqələri saxlayırdı. Şeyx İbrahim zamanında Dərbənd şəhəri və mahalı, Muğan düzünün bir hissəsi Şirvanşahların torpaqlarına daxil idi.[65] Görkəmli dövlət xadimi, cəsur sərkərdə və mahir diplomat olan Şeyx İbrahim Şirvanı güclü və müstəqil dövlətə çevirə bilmişdi.

XV əsrin əvvəlindən XVI əsrin əvvəlinə kimi ölkə yadelli əsarətdən azad edildi və bu vaxtdan Şirvan 100 ilə yaxın müstəqil dövlət olaraq yaşamışdır. Onun hakimləri Teymurilər dövründə özlərinə sultan titulu götürmüşdülər. İbrahimin oğlu və varisi I Xəlilüllah (h.820-869 (1417-1465)-cu illər) müstəqil hökmdar kimi hakimiyyət sürmüşdür. I Xəlilüllah da xarici siyasətdə, atası kimi, Qaraqoyunlu hökmdarları ilə şiddətli mübarizə aparan Teymurilərə meyl göstərmək mövqeyində dururdu. Gənc Xəlilüllah taxta çıxandan sonra Qaraqoyunlu padşahlarından asılılığını tanımaqdan imtina etdi. 65 yaşlı Qara Yusifin 1420-ci ilin noyabrında Teymurun oğlu Şahruxla (1405-1447-ci illər) müharibə zamanı qəfil ölümü Azərbaycanın siyasi əhvalını dəyişdi. 1420-ci ildə Orta Asiyaya və demək olar ki, bütün İrana sahib olan Şahrux Təbrizi tutduqdan sonra Araz çayını keçərək qışlamaq üçün Qarabağda dayananda bir çox iri feodallar, o cümlədən şirvanşah Xəlilüllah və onun qardaşı Mənuçöhr öz sədaqətlərini bildirmək və iltifata nail olmaq üçün bol hədiyyələrlə onun hüzuruna gəldilər. Şahruxu Şirvanşahlarla Şeyx İbrahim və onun oğlu Xəlilüllahla çoxdankı ittifaq bağlayırdı. Şirvanın müstəqilliyinin qorunub saxlanması Qara Yusifin oğlu İsgəndərlə mübarizədə sadiq müttəfiq tapmağa çalışan Şahruxun görüşü onları bir-birinə daha da yaxınlaşdırdı. Və Şirvanşah Qarabağa, sultanın iqamətgahına gələndə sonuncu onunla qohum olmaq istədi və Xəlilüllahı Qara Yusifin dul arvadı – Miranşahın oğlu, Teymurun nəvəsi olan Əbu Bəkrin qızına nişanladı. Qara Yusif onu babası Miranşahın həlak olduğu döyüş zamanı ələ keçirmiş və tezliklə evlənmişdi. Şirvanşahın anası Şirvandan qiymətli hədiyyələr gətirdi və h.824-cü il rəbiüləvvəl

ayının 29-da (3 aprel 1421-ci il),[66] çərşənbə günü Qaraköpəkdə* toy məclisi quruldu. Şahruxun simasında yüksək və qüdrətli qohumuna arxalanan Xəlilüllah öz mövqeyini möhkəmləndirdi. İsgəndərlə Şahruxun qoşunları arasında yüksək və qüdrətli qohumuna arxalanan Xəlilüllah öz mövqeyini möhkəmləndirdi. İsgəndərlə Şahruxun qoşunları arasında gedən vuruşmalarda şirvanşah da Şirvan hərbi dəstələri ilə iştirak etmişdir. İsgəndər Şahruxla müharibədə məğlub olmasına baxmayaraq, öz mövqeyini bərpa etməyə, qoşun toplamağa müvəffəq olmuş və bir neçə dəfə Şirvana basqın edərək, Şamaxını və bütün vilayəti viran etmişdir.

Şahrux h.839 (1435/36)-cu ildə İsgəndərə qalib gəldikdən sonra Təbrizə daxil oldu.

Əl-Mazandarani xəbər verir ki, h.841-ci il səfər ayının 1-də (4.VIII.1437) Xəlilüllah Şahruxun qələbə çalması münasibətilə Təbrizə, dövlət xəzinəsinə Şirvan cinsindən çox qiymətli atlar – şrqa göndərmişdir. Xəlilüllah, Şirvan şəhərlərində, xüsusilə, bu zaman Şirvanın paytaxtına çevirən Bakıda geniş tikinti işləri aparmışdır. Dəniz ticarətinin inkişafı ilə bağlı Bakının iqtisadi və siyasi əhəmiyyəti xeyli artır. Şamaxı 1191-ci ildə zəlzələ nəticəsində dağıldıqdan sonra şirvanşah Axsitan Şirvanın ikinci paytaxtına çevrilən Bakını özünün iqamətgahı etmişdi. Ehtimal ki, Şirvanşahlar XII əsrin axırlarından Bakıda yaşayaraq, şəhərin müdafiəsinin qayğısına qalmışdır. Bunu XII əsrin sonu-XV əsrdə istər şəhərdə, istərsə də Abşeronda yaradılmış bir sıra müdafiə tikililəri – bürclər, qəsrlər, qala divarları, yaşayış evləri də təsdiq edir. Belə hesab etmək olar ki, Şirvanın paytaxtı Şamaxıdan Bakıya 1191-ci ildə köçürülmüşdür. Ölkəsinin və paytaxtı Bakı şəhərinin abadlığı qayğısına qalan Xəlilüllahın zamanında Şirvanşahlar sarayı kompleksinin, karvansara və körpülərin tikintisinə başlanmışdır. Ölkə abadlaşırdı. Xəlilüllah Şirvanda əlli ilə yaxın hakimiyyət sürmüşdür. O, h.869-cu ilin zilhiccə ayında (25.VII-23.VIII. 1465-ci il) ölmüşdür.[67] Onun oğlu və varisi Fərrux Yəssarın kəsdirdiyi ilk sikkələr h.869 (1465)-cu ilə aiddir. Şirvanşahlar dövlətinin müstəqil yaşamasının əmin-amanlıq dövrü Xəlilüllahın varisi Fərrux Yəssarın zamanında Səfəvilər nəslindən olan Şeyx Cüneydin və

---

* Qaraköpək indiki Füzuli rayonundadır.

onun oğlu Şeyx Heydərin işğalçı kimi Şirvana hücumu nəticəsində fəlakətlə sona çatdı. Şeyx Cüneyd[68] 1460-cı ildə, I Xəlilüllah dövründə baş verən döyüşdə, Şeyx Heydər[69] isə 1488-ci ildə, Fərrux Yəssar zamanındakı vuruşmada öldürülmüşdülər. Səfəvilər dövlətinin banisi İsmayıl Səfəvi 1499-cu ildə şirvanşaha qarşı yürüşə çıxdı. O, 1500-cü ildə Şamaxını tutdu, möhkəmləndirilmiş Gülüstan qalasının yaxınlığındakı Cəbanidə baş verən vuruşmada Fərrux Yəssarın qoşunlarını darmadağın etdi. Fərrux Yəssar bu vuruşmada öldürüldü.[70] Mənbələrin verdiyi məlumata görə o, əsir alınmış və sonra qolları bağlı halda öldürülmüşdür. İsmayıl atasının və babasının intiqamını almaq üçün əsir aldığı bütün şirvanlıları qətlə yetirmişdir.[71] Şirvanın çiçəklənən şəhər və qalaları İsmayıl tərəfindən işğal olunmuşdur. Bakılıların şəhəri qəhrəmancasına müdafiəsindən sonra h.906(1501)-cı ilin baharında İsmayıl Bakını da aldı.

XVI əsr tarixçiləri Xandəmir və Həsən Rumlu İsmayıl Səfəvinin Bakını almasının təfsilatını xəbər verirlər.[72]

İsmayılın əmri ilə sərkərdələrdən Məhəmməd bəy Ustaclı və İlyas bəy Ayqut oğlu qoşunların başında Bakı qalasını almağa göndərildi.

O vaxt Bakı şəhəri alınmaz qala sayılırdı. O, üçqat möhtəşəm divarla, bir tərəfdən dənizlə, quruda isə geniş və dərin xəndəklə əhatə olunmuşdu. Şəhərə yaxınlaşan qızılbaş döyüşçüləri onun əfsanəvi Makedoniyalı İsgəndər səddini xatırladan qala divarlarının əzəmətinə heyran qaldılar.[73] İsmayıla bu qalanı tutmaq çox vacib idi. Çünki Bakı o vaxtlar Şirvanın iri şəhərlərindən biri və Xəzər dənizində ən yaxşı tranzit ticarət mərkəzi idi. Qədimdən Şirvanşahlar xanədanına sədaqətli olan mühasirəyə alınmış bakılılar istehkamlarının alınmazlığına, böyük silah və ərzaq ehtiyatına güvənərək igidliklə vuruşurdular.

Bu vaxt Fərrux Yəssarın Bakı, Mahmudabad və Salyan torpaqlarının sahibi olan oğlu Qazi bəy Şirvanın dağ qalalarında müqavimət göstərməkdə davam edirdi.[74] Qazi bəy olmadığı müddətdə şəhərin müdafiəsinə onun adı mənbələrdə çəkilməyən cəsur qadın olan arvadı başçılıq edirdi. O, İsmayılın təslim olmaq təklifi ilə dilə tutmaq üçün yanına gəlmiş elçisinin edam olunmasını əmr etdi. İsmayılın göndərdiyi və hədə-qorxu gələrək, şəhərin təhvil veril-

məsini tələb edən Bakı darğası Əbülfəttah bəyin də başına eyni aqibət gəldi.[75]

Bakılıların inadlı müqaviməti İsmayıl Səfəvinin sərkərdə Xülafə bəyin başçılığı altında yeni qüvvələr göndərməyə məcbur etdi. Mühasirənin sonuna yaxın o özü də buraya gəldi.

Mühasirədəkilərin təslim olmaq istəmədiklərini görən İsmayıl lağım atıb qala bürclərindən birinin böyük daşını partlatmağı əmr etdi. Şəhərin müdafiəçiləri divardakı yarığı çadır keçəsi ilə tutaraq, daha üç gün duruş gətirdilər. Lakin sonra Səfəvi qoşunları şiddətli həmlə ilə qalanı ələ keçirib əhalidən xeyli adam qırdılar. Bakının 70 nəfər mötəbər adamı artıq müqavimət göstərməyin mənasız olduğunu görərək, əllərində Quran, boyunlarında qılınc, çiyinlərində kəfən İsmayılın hüzuruna gələrək öz itaətlərini ona bildirdilər.[76]

Burada Həsən Rumlunun hekayəti Xandəmirin mətnindən bir qədər fərqlənir. Xandəmir nəql edir ki, İsmayıl özü Bakıya yaxınlaşaraq xəndəyi daşla doldurmağı əmr etdi. Xəndəklər daşla doldurulub, qala divarları ilə bərabərləşəndə şəhər əhalisi İsmayıldan aman dilədi. Onlar bağışlanmaq vədi alaraq qapıları açdılar və çiyinlərində kəfən, əllərində qılınc itaət göstərdiklərini və tabe olduqlarını bildirmək üçün onun hüzuruna gəldilər.[77]

Həsən Rumluya görə, İsmayıl bakılıları bağışlamış və onlar "qan bahası" olaraq ona o dövr üçün böyük məbləğ sayılan 1000 tümən vermişdilər.[78]

İsmayıl sərkərdəsi Xülafə bəyə şirvanşahların xəzinəsini ələ keçirib öz düşərgəsinə göndərmək üçün qalanı dərhal tutmağı əmr etdi. Xülafə bəy Bakının adlı-sanlı sakinlərini özü ilə götürdü və sarayda çoxlu qızıl ələ keçirib, şirvanşahların bütün sərvətini bakılıların qiymətli hədiyyələri ilə birlikdə İsmayıla göndərdi.[79]

Həsən Rumlu və Xandəmirin məlumatına görə İsmayıl şeyx Cüneydin öldürülməsində iştirak edənlərin qəbirlərini qazıb, sümüklərini yandırmağı əmr etmişdir.[80] Görünür, bu məlumatlar Xəlilüllahın özünə aiddir, belə ki, onun qəbri məlum deyildir. Ehtimal ki, üzərində kitabələr olan qəbir daşları sındırılıb dağıdılmışdır, belə ki, onlar qalmamışdır.

İsmayıl Bakını aldıqdan sonra Gülüstan qalasının üstünə getdi, lakin tezliklə qalanın mühasirəsindən əl çəkdi. 1501-ci ildə Səfəvi qoşunları Şirvanı tərk etdi.[81]

Şah İsmayılın Şirvana bu yürüşü Şirvanşahlar dövlətinə güclü zərbə endirsə də, o, 1538-ci ilə qədər mövcud olmaqda davam etmişdir. Şirvanşahlar dövləti müharibə, daxili çəkişmələr və bir sıra üsyanlar nəticəsində xeyli zəifləmiş və artıq əvvəlki rolunu oynaya bilməmişdir.[82]

Fərrux Yəssarın ölümündən sonra onun taxtına oğlu Bəhrəm bəy keçdi. O, bir il hakimiyyət sürdükdən sonra 1501-ci ildə öz əcəli ilə öldü. Bəhrəm bəyi h.907 (1501)-ci ildə cəmi altı ay hakimiyyət sürən qardaşı Sultan Məhəmməd qazi əvəz etdi.[83] Numizmatik məlumatlarda və yazılı mənbələrdə onun adı Qazi bəy kimi çəkilir. Qazi bəy ona qarşı qiyam qaldırmış oğlu Sultan Mahmud (h.907-908 (1501-1502)-ci il) tərəfindən qətlə yetirilmişdir. Müstəbid Sultan Mahmudun hakimiyyəti uzun sürməmiş, onu əmisi – Fərrux Yəssarın oğlu, İsmayıl Səfəvinin təqibindən Gilana qaçmış II İbrahim (Şeyxşah) (h.908-930 (1502-1524)-cu illər) qayıtdıqdan sonra qovmuşdur.[84]

Səfəvilərin hakimiyyətdə saxladıqları Dərbəndilər sülaləsindən son şirvanşahlar Şeyxşah, II Xəlilüllah və Şahruxun (h.942-945 (1535-1538)-ci illər) adları Şamaxıda kəsilmiş gümüş sikkələr də qalmışdır.[85]

Hakimiyyətdə saxlanılan şeyx II İbrahim (Şeyxşah) vəziyyətinin möhkəmləndiyini güman edərək qoyulmuş xəracı göndərmədiyi üçün Şah İsmayıl h.915 (1609)-ci ildə yenidən Şirvana yürüş etdi. Şeyx İbrahim Buğurt qalasına çəkildi və mühasirəyə hazırlaşırdı. Bakı müqavimətsiz İsmayıla təslim oldu. Qalanın komendantı (kütval) itaət göstərərək bahalı hədiyyələrlə şahın hüzuruna gəldi və şəhərin açarlarını ona təqdim etdi.[86] Şah Bakıdan Şəbəranа, Dərbəndə getdi və Şirvanın başqa şəhərlərini də tutaraq, Bakı qalasının idarə olunmasını Lələ bəy Şamluya həvalə etdi.[87]

Bu hadisələrdən sonra II Ibrahim Şeyxşah və şirvanşah II Xəlilüllah (h.930-942 (1524-1535)-ci illər) Səfəvilərin müti vassalları oldular.

Şah İsmayılın Şirvanı çoxdan zəbt etmək fikrinə düşmüş oğlu şah I Təhmasib Qorçubaşı Padarla birlikdə Təbrizə gəlmiş bir dəstə Şirvan hərbçisinin ona müraciətindən sonra üsyanları və antifeodal çıxışları yatırtmaq bəhanəsilə[88] h.945 (1538)-ci ildə qardaşı Əlqas Mirzəni iyirmi minlik qoşunla ölkəni işğal etməyə göndərdi. Sonuncu

şirvanşah Şahrux vəkil Hüseyn bəy Lələ və Şirvan əyanları ilə birlikdə uca dağda salınmış Buğurt qalasına sığındılar. Əlqas Mirzənin dörd ay (Cənnabi və Münəccimbaşıya görə yeddi, Xurşaha görə doqquz ay) mühasirədə saxladığı Şahurx və onun əmirləri məhrumiyyətlərə və ağır vəziyyətə baxmayaraq, qala bürcləri toplarla dağıdıldıqdan sonra qalanın müdafiəçiləri müqaviməti dayandırdılar.

Cənnabinin məlumatına görə, Buğurta gələn şah Təhmasib adamlarını Şahruxun yanına göndərərək ona aman, böyük iqta və hər cür bəxşişlər vəd etdi. Lakin bunların hamısı yalan çıxdı. Şahrux və onun əmirləri təslim olduqdan sonra Təhmasib Şahruxu həbsxanaya saldı, Buğurt qalasında mühasirəyə alınmış altı yüzə yaxın şirvanlını qırdırdı.[89] Şirvanı işğal etdikdən sonra Təhmasib Şirvanşahlar sülaləsinin süqutunu elan etdi və Şirvanı Səfəvilər dövlətinə birləşdirdi.[90] Şah Təhmasib Şirvanı iqta kimi qardaşı Əlqas Mirzəyə verdi, on beş yaşlı şirvanşah Şahrux ibn Fərrux Yəssarı da əsir qul kimi qandalladaraq özü ilə Təbrizə aparıb, h.946 (1539)-cı ildə gizlincə qətlə yetirdi və "onun həyatı şahın əmri ilə söndü".[91]

Şirvanşahlar sülaləsinin sonrakı nümayəndələri Bürhanəli Sultan (h.955-958 (1548-1551)-ci illər) Əbubəkr Mirzə (h.986 (1579)-cı il) və başqalarının Şirvanda itirilmiş hakimiyyətlərini bərpa etmək cəhdləri baş tutmadı.

2. BAKI ŞƏHƏRİNİN İQTİSADİ HƏYATI

a) Neft və duz hasilatı

VIII-X əsr mənbələrində Bakının tarixi olduqca az işıqlandırılmışdır. XI-XV əsrlər ərəb və farsdilli coğrafiyaşünas və tarixçilər öz əsərlərində şəhərin sosial-iqtisadi həyatına dair daha ətraflı məlumat vermişlər.

XI əsrin birinci çərəyində əl-Biruni Bakı haqqında olduqca müxtəsər danışır. "Bakı ağ neft mədənidir".[1]

H.520 (1126)-ci ildə yazılmış bir anonim əsərdə deyilir: "Bakı adasında ağ və qara neft çıxarılır və onun daim titrəyən torpağından od çıxır..."[2]

Xəzər dənizinin cənub-qərb sahillərini 1131-ci ildə gəzib-dolaşmış ərəb səyyahı Əbu Həmid əl-Əndəlusi əl-Qərnati Abşeronun

və Xəzər dənizində, Bakı yaxınlığındakı adanın neftverən torpaqlarını belə təsvir edir: "Bu dənizdə qır kimi qara ada vardır. Həmin adada yerdən acı, duzlu və pis qoxulu su çıxır. Bu su ilə birlikdə əla keyfiyyətli bürüncə oxşayan xırda, dördkünc daşlar da çıxır. Adamlar bunlardan tərəzidə çəkidaşı (misqal) yerinə işlətmək üçün götürürlər. Dəniz tərəfdə, bu ada ilə üzbəüz, qır kimi qara torpaq var, üstündə ot bitir. Burada vəhşi heyvanlar da yaşayır. Bu qara torpaqdan qır (mazut), qara və ağ neft çıxır. Həmin yer Şirvan ölkəsindən olan Bakuh (Bakı) yaxınlığındadır. Bu torpaqdan və adadan gecələr kükürd alovuna bənzəyən mavi od çıxır. O, yansa da, nə oradakı otu yandırır, nə də istisi olur. Onun üstünə yağış yağdıqda alov daha da artaraq göyə ucalır. Adamlar onu uzaqdan görürülər. Gündüz isə bunu görmək olmur".[3]

Burada söhbət yanar qaz çıxan Pirallahı adasından gedir. Üzbəüz torpaq isə ağ neft çıxarılan "əbədi odlu" Suraxanı və onun həndəvərindəki neft verən torpaqlardır".*

XIII əsrin birinci çərəyində, monqol istilasına qədər, neft hasilatı, yəqin ki, xeyli çox olmuşdur. Bunu farsdilli coğrafiyaşünas Məhəmməd ibn Nəcib Bəkranın məlumatları da göstərir. O, neftin müxtəlif çeşidlərindən danışır, o cümlədən Bakıda və Muğandakı neft quyularından ağ neft, Dərbənd yaxınlığında yaşıl, Bəlxan sərhəddində qara neft hasil olunduğunu qeyd edir. Sonra o, qara neftin alınmasından bəhs edir və bunu təqtir (distillə) adlandırır.[4]

---

* Qərnatinin Abşerondakı vəhşi heyvanlar haqqında məlumatı XII əsr şairi Xaqani Şirvaninin məlumatları ilə də təsdiq olunur. Şirvanşah Mənuçöhrə ithaf etdiyi qəsidələrinin birində şair Mənuçöhrün bu yerlərdə şir ovuna çıxmasından, artıq o vaxtlar sonradan burada hücrələr, məbəd və karvansara tikdirmiş atəşpərəst hindlilərin səcdəgahı ("Atəşgah") olmuş "əbədi odlar"dan danışır. Əbu Həmid sonra Abşeronda ceyran ovundan xəbər verir və yanar qazlarla əlaqədar ov ətinin bişirilməsi üsulunu təsvir edir. "Bu yerlərdə ceyran ovlayırlar. Ovçular onların ətini doğrayır, dərilərinin içinə yığır, ağzına qarğı taxıb bağlayırdılar. Sonra içində ət olan həmin dərini qara torpağa basdırırlar. Ət bişdikcə qarğıdan qazanda olduğu kimi köpük çıxır. Köpük tamam qurtardıqda ət hazır olur. Nəhayət, dərini salamat, əti bişmiş halda isti-isti dərinin içindən çıxarırlar. Həmin torpağın özünün isə istiliyi yoxdur. Bu, dünyanın möcüzələrindəndir. Həmin torpağın istiliyi mədənin istiliyi kimidir".

Ov ətinin bu üsulla bişirilməsi ibtidai insanın, əsasən ovçuluqla məşğul olduğu uzaq keçmişlərə aid xörək hazırlamaq ənənələrinin dövrümüzədək gəlib çatmasından xəbər verir. Azərbaycanın bir sıra bölgələrində, Kürdüstanda, Dağlıq Qarabağda və i.a. bu günədək ətin həmin üsulla bişirilməsindən istifadə olunur.

Bu maraqlı məlumat hələ o zamanlar çoxlu neft istehsal olunmasından və onun emalı və istifadə edilmə üsulundan xəbər verir.[5]

Həmin əsərdə neftə dair məlumatdan başqa, Bakı yaxınlığındakı odların əl-Qərnatinin yarım əsr əvvəlki təsvirini xatırladan təsviri də verilmişdir.*

XIII əsrin 20-ci illərində fars dilində yazılmış anonim coğrafiya əsərində Bakı haqqında deyilir: "...O, Şirvan vilayətində, dəniz kənarında şəhərdir. Onun torpağı bütün gecəni od kimi yanır, qazanı torpağın üstünə qoyurlar və içindəki su qaynayır. Onun malları qara, ağ, yaşıl neft və duzdur".[6]

Bakı nefti haqqında ərəb coğrafiyaşünasları Yaqut Həməvi (təqribən 1227-ci ildə yazmışdır) və Zəkəriyyə Qəzvininin (onun əsəri 1275-ci ilə aiddir) əsərlərində də məlumat vardır. Yaqut Həməvi yazır: "Bakuyə Şirvan vilayətinin Dərbənd nahiyəsində şəhərdir. Orada çox böyük neft mənbəyi var. Onun gündəlik qəbələsi min dirhəmdir.

Yanında isə gecə-gündüz aramsız olaraq civə yağına oxşayan ağ neft axan başqa bir mənbə də var. Onun da qəbələsi əvvəlki mənbədə olduğu kimidir".[7] Neft mənbələri haqqındakı bu məlumatları Zəkəriyyə Qəzvini də təkrar edir.[8] Bu müəlliflərin əsərlərinin tədqiqi göstərir ki, onların Bakı nefti haqqında verdikləri məlumatlar anoxronizm olub, X əsrin birinci yarasına aiddir. Həm Yaqut Həməvi,[9] həm də Zəkəriyyə Qəzvini öz məlumatlarını Əbu Düləfdən (X əsr) götürmüşlər.

Yaqut sonra Abşeron adalarını təsvir edir: "İnandığım tacirlərdən biri mənə danışdı ki, orada aramsız yanan bir yer görüb".[10]

Zəkəriyyə Qəzvini Əbu Həmid əl-Əndəlusinin sözlərinə isnadən yanar torpaq, ət bişirmə üsulu və Bakuyə yaxınlığında səthindəki yarıqdan axan su ilə birlikdə təngə (sikkə – *S.A.*) formasında mis parçaları üzə çıxan dağ (Qaradağ – *S.A.*) olduğunu, adamların

---

* Burada deyilir ki, Şirvan və Bakı hüdudlarında torpağın səthində daim od yanan iki belə yer vardır, onlardan biri böyük, biri ondan kiçikdir. Böyüyününün eni və uzunu min ərəb dirsəyi (ərəb dirsəyi yarım metrdən bir qədər artıqdır), yəni 500 metrdən çox, digərininki isə cəmi yüz dirsəkdir. Bu yerlər daimi yanır, gündüzlər tüstü, gecələr isə alov görünür. Onlar bir-birinin yaxınlığındadır. Aralarındakı məsafə 200 dirsəkdir (yüz metrdən bir qədər çox). Sonra deyilir ki, onların aralarında ot bitir və heyvan otlayır, həmin od yayda adam boyuna çatır, qışda isə yalnız cida boyda olur və od heç vaxt sönmür. Təsvirdən Suraxanı "əbədi odlar"ını tanımaq mümkündür.

həmin mis parçalarını möcüzə kimi yadelli ölkələrə apardıqlarını xəbər verir.[11] Ehtimal ki, Əbu Düləf kimi Zəkəriyyə Qəzvini də acı, pis iyli su axan qara dağın yerini dəqiq lokallaşdırmamışlar, belə ki, hələ orta əsrlərdə Bakının yaxınlığında, Bibiheybət rayonundakı Şıx kəndində müalicə xassəli kükürdlü çeşmə aşkar edilmişdi. Bu rayon Qaradağın yaxınlığındadır. Beləliklə, ərəb müəlliflərinin Bakı yaxınlığında şəfa bulaqlarının olmasına dair məlumatları təsdiq edilir.

Həmdullah Qəzvini h.740 (1339-1340)-cı ildə özünün "Nühzət əl-qülub" əsərində Bakı haqqında çox müxtəsər yazır: "Bakuyə beşinci iqlimdə yerləşir. Onun havası isti iqlimə yaxındır. Buğda daha çox məhsul verir".[12] Sonra Həmdullah Qəzvini Bakı neftinin kustar üsulla çıxarılmasını təsvir edir. "Böyük neft yataqları Bakuyədədir. Orada neftin üzə çıxması üçün quyular qazılan yer var. Neft suyun üzünə yığılır və onu həmin quyulardan hasil edirlər".[13]

Əsərlərində Bakıdan bəhs edən bu dövr Şərq müəlliflərindən İstəxrinin (X əsr) Bakı nefti haqqında məlumatlarını təkrarlayan XIV əsr ərəb coğrafiyaşünası Əbu-l-Fidanın adını çəkmək olar.[14]

XIII əsrdən etibarən buraya Qərbi Avropa səyyahları da ayaq açmağa başladıar. Onlar da Şərq müəllifləri kimi, bu yerlərdə çoxlu neft hasil olunduğunu qeyd edirdilər. Məşhur venesiyalı Marko Polo Bakının neft mənbələri haqqında aşağıdakıları xəbər verir: "Gürcüstanla sərhəddə yağ (neft) mənbəyi var. O çoxdur – bir dəfəyə yüz gəmiyə* qədər yükləmək olar. Onu yemək olmaz, amma yandırmaq, qaşınma və qotur tutmuş dəvələri yağlamaq olar. Bu yağ üçün çox uzaq yerlərdən gəlirlər və hər yerdə yalnız onu yandırırlar".[16]

Bu parçadan belə bir nəticə çıxarmaq mümkündür ki, neftdən təkcə təsərrüfat həyatının müxtəlif sahələrində deyil, həm də müalicə vasitəsi kimi istifadə olunurdu. Neftin şəfaverici xassələri qədim zamanlardan qeyd edilmişdir. Bakı nefti ilə bir sıra xəstəliklər müalicə olunurdu. Abşeron neftinin şəfaverici xassələri Azərbaycandan çox-çox uzaqlarda məşhur idi. Buraya müxtəlif və uzaq ölkələrdən müalicəyə gəlirdilər.

---

* Ramuzioda "gəmi" əvəzinə "dəvə" getmişdir. Ramuzionun mətnində petroleyin (neftin) müalicə xassələri bir qədər geniş müəyyənləşdirilir: insanlar ondan sürtkü dərmanı kimi bir çox xəstəliklərin müalicəsində istifadə edirdilər. Barbaro (Ramuzio II, 109) onun adını dəvələr üçün sürtkü müalicə vasitəsi kimi çəkir.[15]

Neftdən ta qədimdən işıqlandırma vasitəsi kimi də istifadə edilmişdir. Neftin çıraqlarda istifadə olunmasını istər Bakı və Abşeron, istərsə də bütün Azərbaycan ərazisində, o cümlədən arxeoloji qazıntılar zamanı Şirvanşahlar sarayının ərazisində,[17] Beyləqanda (Örənqalada),[18] Naxçıvanda, Bərdədə, qədim Gəncədə, Qəbələdə və digər şəhərlərdə tapılmış gil çıraqlar da təsdiq edir. Rəşidəddin, Mirxond və digər müəlliflərin[19] xəbər verdikləri kimi monqollar neftdən hərbi texnikada da istifadə etmişlər.

Təqribən 1320-ci ildə Azərbaycandan keçib İrana getmiş fransız missioneri rahib Jurden Katalani de Severak* yol qeydlərində Azərbaycanın şəhərləri, o cümlədən Bakı haqqında qısa məlumat verir: "Bakı deyilən bir yerdə quyular qazır və onlardan "neft" adlandırılan yağ çıxarırlar. Bu yağ çox isti və şəfavericidir, o, həqiqətən çox yaxşı yanır".[20]

Bakı neftinin müalicə xassələrini XV əsrin ikinci yarısı (təqribən 1471-ci il) Venesiya səyyahı İosafata Barbaro** da qeyd etmişdir: "Dənizin bu hissəsində Bakı deyilən şəhər – dənizin də adı onun adındandır, – yanında isə bir dağ var. Həmin dağdan çox pis iyli qara yağ çıxır. Ondan gecələr çıraqları yandırmaq üçün və ildə iki dəfə dəvələrə sürtmək üçün istifadə edilir, çünki bu yağla sürtüldükdə onlar qoturluq tuturlar".[21]

Digər Venesiya səyyahı və səfiri Ambroco Kontarini (1473-cü il) öz qeydlərində Abşeronda işlədilən başqa bir işıqlandırma və müalicə vasitəsindən danışır. O, suitilərdən bəhs edir, "onların piyindən çıraqlarda işlədilən yağ və dəvələrə sürtmək üçün məlhəm hazırlandığını və çoxlu miqdarda qonşu ölkələrə aparıldığını"[22] göstərir.

Bakı haqqında venesiyalıların məlumatlarından başqa, əslən bakılı olan XIV əsrin sonu-XV əsrin əvvəli Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvinin də müşahidələri vardır. Ə.Bakuvi öz əsərində[23] şəhərin maraqlı təsvirini verir, onun təsərrüfat həyatından, Abşeronda neft və duz istehsalından bəhs edir. "Buradakı qatran ("qar" – qır) yataqları və neft quyuları məşhurdur. Quyulardan hər gün iki yüz dəvə yükündən çox neft hasil edilir. Onların yanında

---

* Jurden Katalani de Severak Şərqə XIV əsrin birinci yarısında, katolik dinini monqollar arasında yaymaq imkanlarını öyrənmək məqsədilə səfərə çıxmışdı.

** İosafato Barbaro İrana diplomatik məqsədlərlə, Uzun Həsənlə danışıqlar aparmaq üçün getmişdi.

gecə-gündüz yasəmən yağı kimi ağ neft axan başqa bir quyu da vardır, onun icarə haqqı təqribən min dirhəmə çatır. Quyuların yaxınlığında şam kimi yanan sarı rəngli bərk torpaq var. Onun parçalarını qopararaq şəhərə gətirir, evlərin və hamamların qızdırılmasında istifadə edirlər".[24]

Göstərilən rəqəm – min dirhəm – bir neft quyusndan alınan icarə haqqı idi. Belə quyuların sayı isə çox idi.

Bakuvinin göstərdiyi kimi gündəlik neft hasilatı iki yüz dəvə yükündən çox idi. Əgər hər dəvə yükünü 100 mana, yəni, 300 kq-a bərabər saysaq, onda bu, hər gün 60.000 kq, yaxud 3750 pud edər ki, bu da dövlətin və neft quyuları olan feodalların külli miqdarda qazanc götürdüklərini göstərir. Şam kimi yanan[25] sarı rəngli daş kimi dərkimiş qatı ağ neft şəhərə daşınaraq, əhali tərəfindən yanacaq kimi istifadə olunurdu.

Şəhərdən bir fərsəng aralı sönməz od yanan kəndin (Suraxanıda) əhalisi həmin odda əhəng hazırlayıb, ehtimal ki, inşaat materialı kimi şəhərə gətirirdilər. Bakuvi Abşeronda başqa ölkələrə ixrac olunan əla duz hasil edildiyini söyləyir.[26] Bakı yaxınlığındakı adaların birində suiti ovlanırdı. Onun dərisindən nefti gəmilərlə başqa ölkələrə daşımaq üçün tuluq düzəldilirdi. Ərinmiş suiti piyi yağ kimi çıraqlara tökülürdü.[27] Bakuvinin dənizdən qalxan və uzaq məsafədən görünən nəhəng od haqqında məlumatı isə, ehtimal ki, Məsudidən götürülmüşdür.

b) Sənətkarlıq və ticarət

Feodalizm dövrü Azərbaycan şəhərləri sənətkarlıq və ticarət mərkəzləri idilər. Belə şəhərlərdən biri də Bakı idi. Mənbələr Bakıda sənətkarlığa dair çox cüzi məlumat versələr də, arxeoloji və digər məlumatlar XI-XVI və sonrakı əsrlərdə burada bütün orta əsr şəhərləri üçün səciyyəvi olan sənətkarlıq sahələrinin inkişaf etdiyini təsdiq etməyə imkan verir. İçərişəhərdəki dövrümüzədək qalmış XI-XV əsrlərə aid memarlıq abidələri mahir bənnalardan, daşyonanlardan, dülgərlərdən xəbər verir. Daş üzərində böyük sənətkarlıqla nəbati və həndəsi naxışlar, habelə, minarələrdə, mehrablarda, məscid divarlarında və başdaşılarında ərəb əlifbası ilə kitabələr həkk edən ustalar var idi.

Arxeoloji qazıntılar zamanı üst və alt daşdan ibarət dən daşları, su kəmərləri və digər məişət əşyaları tapılmışdır.[28]

Qala divarlarının yaxınlığında, indiki Hüsü Hacıyev küçəsində tikinti işləri zamanı böyük dərinlikdə kustar mis və mis məmulatı istehsal olunduğunu göstərən mis şlakı qalaqlarının, daş üzərində ehtimal ki, metal yumaq üçün çala izləri aşkar edilmişdir.[29] İçərişəhərdəki bir sıra qazıntı sahələrində dəmir şlakı topaları, dəmirçi çəkici, gürz və digər dəmir əşyalar, bıçaq tiyələri və dəstəklərinin qırıqları, ayaqqabı və heyvan nalları, mismarlar, halqalar, toqqalar və digər metal əşyalar tapılmışdır. Burada, daha sonrakı XVII əsr mənbələrində deyildiyi kimi, silah, nal, qab-qacaq və təsərrüfat alətləri istehsal edən dəmirçilər və misgərlər yaşayırdı. Qərb qala divarının yaxınlığında qiymətli metalın əridilməsi üçün daş alətin və qala ərazisində bir sıra zərgərlik məmulatlarının tapılması Bakıda zərgərlik işlərinin aparıldığını göstərir. Belə ki, arxeoloji qazıntılar zamanı buxtadakı qala tikilisində (XIII əsr) gümüş nəlbəki tapılmışdır.[30]

Qədim müsəlman qəbiristanlığında torpaq işləri aparılarkən incəliklə işlənmiş qızıl sancaq, gümüş bilərzik, üç gümüş üzük, gümüş asma, hər birində iki xırda mirvari olan iki halqavarı qızıl sırğa, dörd içi boş qızıl muncuq, qızıl asmalı qızıl sırğa, asılma muncuqlu iki cüt gümüş sırğa və digər əşyalar tapılmışdır. Həmin əşyalar, ordan tapılmış sikkələr (Teymuri və Şirvanşah) kimi, XV əsrin əvvəlinə aid edilir.[31]

Şirvanşahların zərb etdirdiyi gümüş sikkələr (birincisi h.833 (1429/30)-cü il, sonuncusu h.844 (1140/41)-cü il) dəfinəsi ilə birlikdə keçmiş Aleksandr Nevski kilsəsinin yaxınlığında tapılmış iri qızıl bilərzik də həmin dövrə aiddir.[32]

Şirvanşahlar sarayında şirvanşahlara məxsus türbədə açılmış sərdabələrdən birində altıbucaqlı şəklində qızıl sancaq tapılmışdır. Onun üz tərəfindəki 7 yuvadan 5-də qırmızı daş, ehtimal ki, yaqut, ortadakı yuvada firuzə var. Yuvaların biri isə boşdur. Həmin sancaq XV əsrin ortalarına aid edilir.[33] Bu cür bəzək əşyalarına Bakıda və Azərbaycanda indii də rast gəlinir ki, bu da maddi mədəniyyətin irsiliyindən və öz sənətini nəsildən nəslə ötürən xalq sənətkarlarının möhkəm ənənələrindən xəbər verir.

Sənətkarlıq, o cümlədən onun dəmirçilik, dulusçuluq, toxuculuq, sikkə kəsmə və s. sahələri daha da inkişaf etmişdi. Bu zəmində

mühüm proses – müxtəlif sənətkarlıq sahələrində istehsalın ixtisaslaşması baş vermişdir.

Qərb qala divarları yanıda tikinti işləri zamanı qırmızı gildən qayrılıb sarı və qəhvəyi şirlə örtülmüş çoxlu çıraq tapılmışdır. Qala divarlarından bayırda çıraq ustalarının emalatxanaları olmuşdur. Bakı ərazisində böyük miqdarda tapılmış şirsiz sarı və boz gil qablara gəldikdə isə, onlar keramika istehsalı üçün yararlı gili olan Bakı və Abşeronda hazırlanmışdır.

Bakı yüksəkliyinin zirvəsində şüşəvarı şlakın tapılması, Bakı ərazisində aşkar olunmuş keramikanın analizi və tədqiqi X-XIII əsrlərdə və sonralar Bakı və Abşeronda şəffaf yaşıl və əlvan şir çəkilmiş naxışlı qablar, sonralar – XIV-XV əsrlərdə isə açıq sarı anqobla, yaxud qırmızı saxsı üzərində açıq sarı naxışla işlənmiş keramika məmulatı istehsal olunduğunu təsdiq etməyə imkan verir.[34] Yuxarıda göstərdiyimiz kimi, Bakı ərazisində bu cür keramika istehsal etmək üçün dulus kürələrinin qalıqları, habelə Bakı yüksəkliyinin zirvəsində, köhnə qəbiristanlığın yerində, İçərişəhər qalasının yaxınlığında və dördkünc Mərdəkan qalasının quyularında çoxlu belə qablar tapılmışdır.

Bakıda toxuculuq da inkişaf etmişdi. Abşerondakı çoxlu miqdarda yetişdirilən qoyundan xalça toxunmasında istifadə olunan yüksək keyfiyyətli yun qırxılırdı. Bakı və Abşeronda, Əmircan (Xilə) kəndindəki karxanalarda, XVII əsrin əvvəlində səyyahların xatırladıqları gözəl xalçalar toxunurdu. Bakı qalasında, eləcə də Abşeronda boyaqçılar yunu boyamaq üçün əncir yarpağından, soğan qabığından, zəfərandan və digər bitkilərdən boyaq hazırlayırdılar. Bakıda pambıq parçalar da toxunurdu.[35] Bu haqda daha sonrakı mənbələrdə xəbər verilir. Bakıda kənkanlar, dəyirmançılar, qayıqçılar yaşayırdılar. Burada dabbaqlıq da inkişaf etmişdi. Qoyun və keçi dərisindən papaq, paltar tikilirdi.

Numizmatik məlumatlar artıq XIV əsrin birinci yarısının sonunda Bakıda h.744 (1343/44)-cü ilə aid, üzərində Hülakü sülaləsinə mənsub Süleymanın və "Bakuyə" şəhərinin adları həkk olunmuş sikkələr (gümüş dirhəm) kəsildiyini göstərir.[36] Poluxin küçəsində, qala yaxınlığındakı köhnə müsəlman qəbiristanlığından tapılmış gümüş sikkə dəfinəsində h.750 (1349/50)-ci ildə "Bakuyə"də Hülakü sülaləsindən Ənuşirəvanın adından kəsilmiş sikkələr aşkar olunmuşdur.[37]

Azərbaycanın müxtəlif bölgələrində tapılmış sikkə dəfinələrində Süleyman və Ənuşirəvanın adından Bakıda kəsilmiş sikkələrə təsadüf edilmişdir.[38] Bu, həmin vaxt Şirvanın iri şəhərlərindən biri olan Bakıda zərbxana olduğunu göstərir. Bakıda gümüş sikkələr XIV əsrin sonu-XV əsrin əvvəllərinədək kəsilmişdir.[39]

XI-XV əsrlərə aid arxeoloji və numizmatik tapıntılar Bakı ərazisində və digər bölgələrdə Bakıda kəsilmiş sikkə dəfinələrinin aşkar olunması, dövrümüzədək gəlib çatmış tam bir sıra memarlıq abidələri, keramika qalıqları – bütün bunlar həmin dövrdə Bakıda intensiv şəhər həyatının mövcud olduğunu, sənətkarlığın, ticarət münasibətlərinin inkişaf etdiyini, şəhərin iqtisadi və mədəni yüksəlişini göstərir.

Bakı dəfələrlə onun ərazisini viran qoyan, məhsuldar qüvvələrini məhv edən yadelli işğalçıların basqınlarına məruz qalmasına baxmayaraq, bu qüvvələr qısa bir müddətdə bərpa olunur və əməksevər xalq yaradıb-qurmaqda, şəhərin təsərrüfat həyatını inkişaf etdirməkdə, yeni binalar tikməkdə davam edirdi. Bazar üçün əmtəə istehsalı isə ticarətə təkan verir, şəhərin varını artırırdı.

XI-XV əsrlərdə Bakının əlverişli liman kimi əhəmiyyəti artır. Xəzərsahili ölkələrlə ticarət mübadiləsi aparılırdı. Ticarət malları içərisində neft, duz, boyaqotu, ipək var idi. Bu mallar uzaq ölkələrə istər Bakıdan (cənubda) və Bilgəhdən (şimalda) dəniz yolu ilə, istərsə də quru ilə daşınırdı.

XII əsrdə Bakının Şirvanın ən varlı şəhərlərindən biri, Xəzər dənizində mühüm liman və ticarət mərkəzi kimi əhəmiyyəti Xaqaninin (XII əsr) şirvanşah Axsitan ibn Mənuçöhrü[40] mədh edən qəsidəsində də qeyd olunur:

Bakı duasını unutmaz bir an,
Olub sayəsində Bəstam, Xavəran.

Qəsidənin 3 və 4-cü misralarında Bakının İranla, Xəzərlər ölkəsi və Dağıstanla dəniz ticarəti ilə bağlı liman kimi əhəmiyyəti qeyd edilir. Köhnə Bakı ərazisində aşkar edilmiş həmin dövrə aid Rey keramikası və bürünc Kubaçi məmulatları məşhurdur.

Şərq ölkələri ilə Qərb arasında Azərbaycandan uzanıb gedən qədim beynəlxalq tranzit ticarət yolları Abşeron yarımadasının yaxın-

lığından keçirdi. XI-XII əsrlərdə və sonralar Azərbaycanı Hindistan və Çinlə bağlayan dünya ticarəti cənub magistral quru yolu ilə – Orta Asiya, İran və Azərbaycanın cənub vilayətləri vasitəsilə və şimal yolu ilə – Xəzər sahili boyunca Dərbənd keçidinin yanından ötüb xəzərlər ölkəsinə və daha uzaqlara – həyata keçirilirdi.[41] Bu, Abşerona ən yaxın yol idi. Digər bir magistral yol Araz vadisi boyunca Ermənistandan keçib Suriya və Mesopotamiyaya gedirdi.[42]

Çindən və Hindistandan Orta Asiya vasitəsilə Xəzər dənizinə qədər karvan yolu da var idi. Mallar buradan dəniz, Kür və Rioni çayları vasitəsilə Qara dəniz sahillərinə çatdırılır, oradan isə Bizansa göndərilirdi.[43] Abşeron və Bakı baş ticarət yollarına Bakıdan dəniz sahili boyunca və sonra Kürün aşağı axarına doğru gedən yerli karvan yolu ilə qovuşurdu; başqa bir yol isə Bakıdan şimal-qərbə, yarımadanın orta hissələrinə qədər, sonra birbaşa qərbə doğru gedərək, Qobustandan keçib Şamaxıya çıxırdı (Şirvan yolu deyilən yol). Nəhayət, üçüncü yol ikincidən şimal-qərbə, yarımadanın şimal hissəsi səmtində ayrılır və sonra Dərbəndə gedən baş ticarət magistralı ilə birləşirdi.[44] Bu qədim yollar sonrakı əsrlərdə də öz əhəmiyyətini itirməmişlər. Azərbaycanın beynəlxalq ticarət əlaqələrinin mövcudluğunu həm Bakı ərazisindən, həm də tədavüldə iştirak edən digər şəhərlərdə müxtəlif sikkə dəfinələrinin tapılması da sübut edir.

1944-1945-ci illərdə Bakı yüksəkliyinin zirvəsində, Şirvanşahlar sarayı ərazisində aparılmış qazıntılar zamanı XI-XII əsrlərə aid bir sıra sikkələr tapılmışdır. Bir metr dərinlikdə Bizans imperatoru Aleksey I Komnenin (1089-1118) adından kəsilmiş qızıl sikkə tapılmışdır.[45]

Ramana kəndində XIII əsrin əvvəlinə aid mis Bizans sikkəsinin qəlpəsi aşkar edilmişdir.[46] Həmin sikkələrin burada tapılması Bakının Ermənistan və Gürcüstan vasitəsilə Bizansla ticarət əlaqələri saxladığını sübut edir. Bu ticarət əlaqələri barədə hələ İstəxri (X əsr) məlumat vermişdi.[47] Trapezund və Kiçik Asiyadan gələn ticarət yolu Araz düzənliyindən keçərək Azərbaycana və İrana gedirdi.[48]

İçərişəhər və Şirvanşahlar sarayı ərazisində arxeoloji qazıntılar zamanı XII əsrin sonu-XIII əsrin əvvəllərində yaşamış şirvanşahların, I Axsitan ibn Mənuçöhrün mis sikkələri, Gərşəsb ibn Fərruxzadın bürünc sikkəsi, Rum səlcuqilərindən II Qızıl Arslanın (h.551-584 (1156-1188)-cü illər) mis sikkəsi Dərbənd məliyi Müzəffər bin

Məhəmmədin (XII əsr) mis sikkəsi, Əhər məliyi Mahmud ibn Beşkenin h.613 (1216-1217)-cü ildə Əhərdə kəsilmiş xırda sikkəsi və digər pullar da tapılmışdır.[49] Bu tapıntılar Bakının həm Azərbaycanın digər şəhərləri, həm də uzaq ölkələrlə ticarət əlaqələrindən xəbər verir.

Şirvanşahlar sarayı ərazisində, eləcə də, Asəf Zeynallı küçəsindəki sahədə, Bakı yüksəkliyinin aşağı sahilyanı hissəsində aparılan qazıntılar nəticəsində XII-XIII əsrlər üçün səciyyəvi və tipik olan çoxlu miqdarda şirli keramika aşkar olunmuşdur. Əgər Bakı və Abşeron ərazisindəki tapıntılar əsasında keramikanın inkişafını izləmiş olsaq, onun istər sənətkarlıq və rəssamlıq, istərsə də keramika istehsalının texnikası baxımından X-XIII əsrlər dövründə özünün yüksək səviyyəsinə çatdığını və əvvəlki əsrlərin nailiyyətlərini əxz etdiyini görərik. Bakıda anqob və oyma ilə işlənmiş polixrom ornamentli və təsviri naxışlı, yüksək keyfiyyətli basmaqəlib və bədii şirli qab istehsalı da bu dövrə aiddir. XI-XIII əsrlərdə qəliblərdən geniş istifadə olunması Bakı şəhəri əhalisinin artan tələblərini ödəmək üçün basmaqəlib qabların kütləvi istehsalına və bu məmulatların ölkənin digər bölgələrinə aparılmasına imkan yaratmışdır.

XI-XIII əsrlərdə bədii dulusçuluğun əlahiddə qolu kimi Bakı basmaqəlib keramika məmulatının naxışları rəngarəngliyi ilə seçilir. Qab naxışlarında həndəsi və nəbati motivlər başlıca yer tutur. Bakı bədii keramikasının xüsusiyyəti ondan ibarətdir ki, onun sarı gil bardaqlarının, kürəşəkilli qablarının, iki qulplu dolçalarının boğazaltı hissəsində basmaqəlib naxışlar çox qabarıq relyeflidir. Bakı qablarının üzərində bəzən astral əlamətlərə də rast gəlmək olur. V.V.Bartoldun fikrincə, aypara şəkli islamın rəmzidir.[50] Öküz başının təsvirinə də təsadüf edilir. Şirli qablarda rəngli anqobla və oyma üsulu ilə işlənmiş quş və heyvan təsvirləri daha çoxdur. Bu keramika məmulatı XI-XIII əsrlərdə dulusçuluq sənətinin inkişaf səviyyəsi və yerli əhalinin estetik zövqü haqqında təsəvvür yaradır.[51] Bakıya Qəbələ, Gəncə və Beyləqan kimi keramika mərkəzlərindən qırmızı gildən hazırlanıb anqobla (ağ anqob) işlənmiş, oyma ilə bəzədilmiş və rəngli – açıq yaşıl, qonur bənövşəyi, çəhrayı – şirlə naxışlanmış az miqdarda gözəl qablar, habelə İrandan, ehtimal ki, Yəzd, Rey və Kaşan kimi keramika məmulatı mərkəzlərindən

bahalı zərnaxışlı qablar da gətirilirdi. Şirvanşahlar sarayı ərazisində zərnaxış qab qırığı və dibində dəbdəbəli zərxara xələt geymiş adam şəkli çəkilmiş zərnaxış kasa tapılmışdır.[52]

Bakı yüksəkliyinin zirvəsində – XII əsrdə və XIII əsrin əvvəllərində feodal şəhərinin məhəlləsi olan bu ərazidə aparılan qazıntı zamanı xeyli gətirilmə şirli qab qırıqlarının tapılması həmin dövrdə Bakı ilə Azərbaycanın digər şəhərləri, eləcə də, İran arasında şəhərlərdə sənətkarlığın və cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı ilə bağlı yerli məmulatların ticarət mübadiləsi getdiyini təsdiq etməyə imkan verir.

XIII əsrdə Rusiyadan Çinədək olan bütün torpaqlar monqolların hakimiyyəti altında birləşdirilərkən avropadan Rusiya və Qızıl Orda vasitəsilə Çinə yol açıldı. Əl-Öməri öz əsərində Bakıdan və "Dəmir qapı"dan (yəni, Dərbənddən), Qızıl Orda ərazisindən keçərək Çinə gedən ticarət karvan yolundan xəbər verir.[53] O göstərir ki, karvanın yolu beş aydır. Bakıdan və Azərbaycanın digər şəhərlərindən Cuci sikkələrinin tapılması əl-Ömərin məlumatlarını təsdiq edir.[54] Bununla belə, Çindən başlayaraq Orta Asiyadan keçib İrana və Azərbaycana gələn qədim cənub magistral öz əhəmiyyətini itirməmişdi və Çin malları həmin yolla Azərbaycana gəlməkdə davam edirdi.

Mənbələrdə XII-XV əsrlərdə Azərbaycan şəhərlərinin Çindən az qala qızıl qiymətinə gedən ipək və ipək parçalar – "qızılla işlənmiş Çin zərxarası"[55] və digər mallar aldığı göstərilir. Onların arasında bahalı çini qablar mühüm yer tuturdu.

Azərbaycanın müxtəlif orta əsr şəhərlərində – Qəbələdə, Beyləqanda, qədim Gəncədə, Bakıda və s. aparılan arxeoloji qazıntılar zamanı çoxlu gətirilmə çini qablar tapılmışdır. Çini qabların bir nöiü də farfor kütləsindən hazırlanıb yaşıla çalan şirlə örtülmüş seladon qablardır. Şərqdə "mərtəbani" adlandırılan belə qablar çox yüksək qiymətləndirilirdi. Belə ki, onun zəhəri aşkar etmək xassəsinə malik olduğu güman edilirdi.[56] XIV-VX əsrlrə aid seladon boşqabların qırıqları Bakıda Şirvanşahlar sarayı ərazisində tapılmışdır. Bundan başqa, arxeoloji qazıntılar zamanı orada çoxlu çini qab qırıqları aşkar olunmuşdur. Sarayın ərazisindəki quyuların birindən tapılmış bu boşqab maraqlıdır. Burada qıvrılmış iri quyruğu az qala boşqabın bütün içini tutan əjdaha təsvir edilmişdir. Rəsm kobaltla

bütün içini tutan əjdaha təsvir edilmişdir. Rəsm kobaltla işlənmişdir. Boşqab elə oradaca tapılmış sikkə kimi XV əsrə aid edilir.[57] Şirvanşahlar sarayı ərazisindən tapılmış çini məmulatlar arasında Çin qablarına bənzədilən yerli qablar da vardır.

Şirvanşahlar sarayı ərazisində, saray hamamı otaqlarının birində ehtimal ki, XIV-XV əsrlərə aid üzərində Çin nəbati ornamentləri olan üzlük saxsı lövhələrin qırıqları qalmışdır.

XIII əsrdən başlayaraq, bütün Şərqdə, o cümlədən Azərbaycanda nəbati naxışları Çin rəsmlərinin təsiri altında işlənmiş gözəl saxsı qablar geniş yayılmışdı. Bu qablar "çini", yəni Çin qabı adlanır. Həmin termin bir çox şərq dillərində, o cümlədən Azərbaycan dilində özünə möhkəm yer tutmuşdur. Bakıda belə məmulat tapıntıları arasında XIV-XV əsrlərə aid, ehtimal ki, gətirilmə qablara təsadüf edilir.[58] Bahalı Çin qablarına Azərbaycanda böyük tələbat var idi: onlardan Bakı əyanları istifadə edirdilər. Orta əsr Azərbaycan şəhərlərindən farfor və seladondan hazırlanmış çini qabların tapılması Çin mallarının Azərbaycanda, o cümlədən, Bakıya idxal olunduğunu və XIII-XV əsrlərdə Azərbaycanla uzaq Çin arasında ticarət və mədəni əlaqələrin mövcudluğunu bir daha göstərir.[59]

Azərbaycanla Hindistan arasında iqtisadi və mədəni əlaqələr nəinki orta əsrlərə, hətta daha qədim zamanlara gedib çıxır. Abşeronun Suraxanı kəndindəki[60] hind məbədi – Atəşgah və Bakının İçərişəhər hissəsindəki XV-XVI əsrlərə aid Multanı karvansarası dövrümüzədək qalmışdır.

Şamaxıya və Bakıya gələn hind tacirləri ədviyyatla yanaşı, qızıl qiymətinə satılan bahalı Kəşmir parçaları – "tirmə" də gətirirdilər. Bu parçanın qalıqları Bakıdakı Şirvanşahlar sarayının XV əsrə aid türbəsindəki sərdabədən tapılmışdır.[61] Orada, ehtimal ki, İrandan gətirilmə ipək və zərxara parçaların da qalıqları aşkar edilmişdir. Hind karvansarası ilə üzbəüz XIV əsrə aid başqa bir karvansara – Buxara karvansarası vardır. Bu, Bakının Orta Asiya şəhərləri ilə ticarət əlaqələri saxladığını təsdiq edir. Şirvanşahlar sarayı ərazisində XIV əsrə aid bürünc Kubaçi çıraqlarının tapılması Dağıstanla ticarət və iqtisadi əlaqələrin mövcudluğunu göstərir.[62] Həmin əlaqələr XII əsr şairi Xaqani Şirvaninin məşhur qəsidəsində qeyd edilmişdir.

XIII əsrin birinci yarısında Azərbaycan monqollar tərəfindən istila edildikdən sonra ölkənin iflası, monqol hökmdarlarının qoyduğu ağır vergilər və icarə sistemi nəticəsində sənətkarlığın tənəzzülə uğraması müşahidə olunur. Bakı üçün bu dövr neft hasilatının aşağı düşməsi, ticarətin zəifləməsi dövrü idi. Əgər XIII əsrin axırlarında Qazan xanın (1295-1304-cü illər) islahatları ilə bağlı ölkənin məhsuldar qüvvələrində müəyyən yüksəliş baş vermişdisə, onun ölümündən sonra varisi Ölcaytu xanın hakimiyyəti zamanında (1304-1316-cı illər) Qazan xanın fərmanları tədricən öz gücünü itirməyə başladı ki, bu da Azərbaycanın təsərrüfat həyatının yenidən tənəzzül etməsinə səbəb oldu.[63] Bunu köhnə Bakı qalasındakı (İçərişəhər) Cümə məscidinin minarəsinin divarında sultan Məhəmməd Ölcaytunun Bakı şəhəri və vilayəti rəiyyətinin bir sıra vergilərdən azad edilməsinə dair yarlığının mətnindən ibarət olan kitabə də təsdiqləyir.[64] Çox güman ki, yarlıqdan məqsəd mühüm ticarət və iqtisadi əhəmiyyətə malik olan Bakı şəhəri və vilayəti əhalisinin rifahını bərpa etmək və yüksəltmək olmuşdur. Mənbələr artıq XIV əsrin ikinci yarısında dəniz ticarətinin inkişafını, İrana və qonşu Şərq ölkələrinə xeyli neft və duz ixrac olunduğunu qeyd edirlər.[65]

Şirvanşahların, monqollara tabe olsalar da, hakimiyyətlərinin mövcudluğu monqol dövlətinin tənəzzülə uğramağa və dağılmağa başladığı XIV əsrin əvvəllərində Bakıda və Abşeronda həyatın və abadlığın canlanmasında ötəri və son dərəcə qısamüddətli nəticə verən Qazan xan islahatlarından və Sultan Məhəmməd Ölcaytu yarlığından qat-qat böyük rol oynadı. Şirvanşahlar dövləti türkmən sultanlarının hökmranlığı dövründə də belə müsbət əhəmiyyətə malik idi. Sonralar, XV əsrin əvvəlində Şirvanşahların hakimiyyətinin güclənməsi və onların müstəqil hakimiyyət sürməsi ilə əlaqədar, demək olar ki, bir əsr ərzində Şirvanın və onun ayrı-ayrı şəhərlərinin, xüsusilə, Bakı və Abşeronun məhsuldar qüvvələri xeyli inkişaf edərək, bir sıra ölkələrlə ticarət əlaqələrini stimullaşdırırdı.

Bakının mühüm liman kimi əhəmiyyəti 1375-ci ildə tərtib edilmiş qədim katalon atlasında qeyd edilmişdir. Həmin atlasda Xəzər dənizi Bakı dənizi və Sarra dənizi adlandırılır. Xəritədə Bakı (Bacu) şəhərinin yanında Preala (Preala) burnu qeyd edilmişdir ki, bunun da indiki Pirallahı adası olduğunu təsəvvür etmək çətin deyil. Ondan sonra Barmachu, yəni, Barmaq dağı, onun yanında Xamau,

ehtimal ki, Şamaxı qeyd edilmişdir.[66] Göründüyü kimi, yaxşı dəniz səyyahları kimi tanınan katonlar ticarət məqsədilə Xəzər dənizinə də üzüb gəlmiş, Xəzər dənizinin sahillərinə və Bakı şəhərinə yaxından bələd olmuşlar.

XIII əsrin sonu-XIV əsrin əvvəllərində İran və Azərbaycanın Uzaq Şərqlə və digər ölkələrlə beynəlxalq ticarəti xeyli genişlənir. Xəzər dənizi vasitəsi ilə dəniz ticarəti böyük vüsət alır. Gəmiləri Qara dənizdə üzən Genuya və Venesiya tacirlərinin faktoriyalar təşkil etdikləri Xəzər dənizi sahillərində donanmaları olmasına dair məlumatlar vardır. 1293-cü ildə İranda və Azərbaycanın cənub vilayətlərində olmuş Venesiya səyyahı Marko Pola məlumat verir ki, genuyalılar bir az əvvəl Xəzər dənizində üzməyə, öz mallarını buraya gətirməyə və buradan gelli (Gilan – *S.A.*) ipəyi adlanan ipək aparmağa başlamışlar.[67]

Kastilya səfiri Rui Qonzales de Klavixo "1404-cü ildə Teymurun Səmərqənd sarayına səyahət" adlı gündəliyində Şamaxıda ipək istehsalına dair məlumat verir: "Bu torpaqda çoxlu ipək toxunur, hətta, Genuya və Venesiya tacirləri də ipək almaq üçün oraya gəlirlər".[68]

Beləliklə, XIII əsrin sonlarından Azərbaycan və Xəzər dənizinin sahilləri ipək almaq üçün bazar axtara-axtara bu yerlərə gəlib çıxan avropalıların diqqətini cəlb etməyə başlamışdır. Gilan və Şamaxı ipəyi beynəlxalq ticarət malına çevrilir. Bununla əlaqədar olaraq, Bakının Xəzər dənizində Şamaxı ilə tranzit ticarəti sayəsində böyüyən rahat liman kimi əhəmiyyəti artır.[69] Ehtimal ki, genuyalılar XIII əsrin sonlarından Bakıya gəlmişlər.

XIV əsrin axırlarınadək Azərbaycandan, Cənubi Qafqaz ölkələrindən, Ön Asiyadan ipək, ipək parçalar, xalçalar, ədviyyat və digər mallar Bakı və Dərbənd vasitəsilə həştərxana, Qızıl Ordaya, Rusiyaya və Avropaya aparılmışdır. Artıq XIII əsrdə Gilan və Şamaxıdan İtaliya və Fransaya külli miqdarda ipək ixrac olunurdu.[70] Səyyah Şiltberger şahidlik edir ki, "ipəyin ən yaxşı növü" Şirvandan (Şamaxıdan) aparılır və həmin xam ipəkdən (xamnadan) Dəməşqdə, Kaşanda, Bursada yaxşı parçalar toxunurdu. İpək Venesiya və Lukkaya da ixrac olunur və bu yerlərdə ondan "əla məxmər" toxuyurdular.[71] Kantarininin sözlərinə görə, Şamaxıda İtaliyada Talaman (yəni, Deyləmən – *S.A.*) adı ilə tanınan ipək hazırlanır və ondan müxtəlif ipək parçalar toxunurdu.[72] Görünür, Abşeronda da xamna

istehsal olunurdu, belə ki, burada indi də tut ağacları çoxdur. Şirvan ipəyi Bakı limanı vasitəsilə Həştərxana daşınır, sonra Volqa və Dona keçirilir, oradan isə Venesiya tacirləri onu öz qaleralarında Azov dənizi ilə Avropaya aparırdılar. Lakin Teymur XIV əsrin sonlarında Həştərxanı alıb dağıtdıqdan sonra (1395) ticarət yolu dəyişdi. Azərbaycandan Avropaya gedən mallar İran və Suriyadan keçməyə başladı.[73]

Bakı başlıca liman şəhəri kimi əhəmiyyətini sonralar, XV əsrin ikinci yarısında da saxlamışdı. XV əsrin ikinci yarısı Venesiya səyyahları Barbaro və Ancolellonun qeyd etdikləri kimi, Dərbənd bu dövrdə liman kimi əhəmiyyətini itirmişdi. Sonuncunun yazdığına görə "...əvvəllər Dərbənd limanına 800-dək çəllək yüklənən böyük gəmilər gəlirdi, indi gələn gəmilər isə 200 çəlləkdən çox götürmür".[74]

XV əsrin ikinci yarısında keçmiş Bizans imperiyasının xarabalıqları üzərində İtaliya ilə Şərq arasında ticarətə əngəl törətməyə başlayan Osmanlı dövləti bərqərar oldu. Beynəlxalq ticarət bazarında Moskva dövlətinin rolu güclənməyə başladı. Avropa tacirləri şərqlə ticarətdə Osmanlı imperiyasından yan keçən yeni yollar axtarırdılar. Bununla əlaqədar olaraq, Avropa ilə Azərbaycan və İran arasında baş yol şimaldan – Rusiyadan keçməyə başladı. Həmin vaxtdan bir sıra Avropa səyyahları Azərbaycana Volqa-Xəzər yolu ilə gəlirdilər.

Şirvanın əsas tranzit ticarət məntəqələri çox rahat limanlar olan Dərbənd və Bakı idi.

XV əsrdən etibarən müxtəlif orta əsr müəlliflərinin əsərlərində Xəzər dənizi əvəzinə Bakı dənizi adının çəkilməsi də Bakının liman kimi mühüm əhəmiyyət daşıdığını göstərir. Məsələn, Kastilya səfiri Rui Qonzales de Klavixo 1404-cü ildə özünün gündəliyində Bakı dənizinin adını çəkir.[75] Venesiyalılar öz yol qeydlərində onu Bakı dənizi adlandırırdılar: Barbaro (1474-cü il) – "*mare di Bachu*",[76] Kontarini (1473) – "*maare di Bachau*",[77] Ancolello (1509) – "*mare di Baccu*"[78] və i.a.

Bakıdan Şimali İrana, Orta Asiyaya və Həştərxan vasitəsilə Rusiyaya və Avropaya başlıca olaraq neft, ipək, duz ixrac olunurdu.

XV əsrin sonu Venesiya səyyahı Ancolello Bakını (*Baccuc*, yaxud *Baccara*) Xəzər dənizində Təbrizə xidmət edən gözəl liman adlandırır. Ancolellonun sözlərinə görə, Bakı "əvvəllər bu dənizin birinci yeri olmuşdur", odur ki, onun adı ilə Bakuk adlanır.[79]

Ancolellonun müasiri olan digər XV əsrin sonu Venesiya səyyahı Donato da Leze də yol qeydlərində Bakının böyük ticarət əhəmiyyətini qeyd etmişdir. O xəbər verirdi ki, ədviyyat Hindistandan böyük şəhər Şamaxıya, oradan isə 4 günlük yol olan Xəzər dənizi sahilindəki Bakıya gətirilir. "O, böyük ticarət şəhəridir və dəniz də onun adı ilə Bakı dənizi adlanır. Burada ədviyyatı gəmilərə yükləyib Volqa çayı üzərindəki tatar şəhəri Həştərxana aparırlar".[80]

Xəzər dənizinin 1914-cü ildə İtaliyadakı kiçik Lezina şəhərində tapılmış XV əsrə aid qədim coğrafi xəritəsində "*Bech Barmak*"la (Bakı yaxınlığındakı Beşbarmaq dağı) eyniləşdirilən "*Barmachu*" qeyd olunmuşdur. Onun yaxınlığında "achu" oxunula bilən, ehtimal ki, "*Bachu*" adı vardır. Şəhərin xəritədə böyük planda verilməsi, onun, şübhəsiz, Xəzər dənizində, yaxud xəritədə göstərildiyi kimi, "*Maare di Bachu*"da mühüm limanlardan biri olmasına işarə edirdi.[81] Xəritədəki adların yazıldığı dilə əsasən belə hesab olunur ki, onu XV əsrdə dərin məlumatlı dəniz səyyahları sayılan dalmasiyalılar tərtib etmişlir. Buradan da belə bir nəticə çıxarmaq mümkündür ki, italyanlar XV əsrdə də öz gəmiləri ilə Xəzər dənizində (ehtimal ki, ticarət məqsədi ilə) üzürmüşlər. Onlar Avropa ilə ticarətdə başlıca vasitəçi olub, Azərbaycan şəhərlərinə, o cümlədən Bakıya yaxşı bələd idilər.

Bakının ticarətinə dair venesiyalılarla yanaşı, Bakuvi də bəzi məlumatlar verir. O göstərir ki, Bakıda taxıl azdır. Onu buraya Şirvandan və Muğandan gətirirlər.[82] Başlıca idxal malları Şirvanın məhsuldar yerlərindən Bakı bazarlarına Abşeronda az miqdarda istehsal olunan buğda və digər dənli bitkilər idi. Muğan* isə Bakını ehtimal ki, düyü ilə təchiz edirdi. Arxeoloji qazıntılar zamanı Bakı yüksəkliyinin dərin təbəqələrindən çoxlu miqdarda çəltik dənləri tapılmışdır. Təsvirdən "əbədi odlar" yanan Suraxanıdan söhbət getdiyi asanlıqla bəlli olan kənddə şəhərdə satılmaq üçün əhəng hazırlanırdı.[83]

Şəhər əhalisinin əksəriyyətinin yaylağa köçdükləri Abşeron bağları Bakı bazarlarını burada bol-bol becərilən əncir, nar və üzümlə təchiz edirdi. Qazıntı zamanı dərin təbəqələrdən üzüm dənələrinin tapılması həmin bitkilərin burada da qədimdən becərildiyini göstərir. Bakuvi Abşeronda ev heyvanlarının, xüsusilə ətindən şəhər

---

* Görünür, Bakuvi Lənkəran vilayətini Muğan adlandırırdı.

əhalisinin istifadə etdiyi qoyunların yetişdirildiyini də qeyd edir.[84] O, Abşeronda ətindən yerli əhalinin yeməkdə istifadə etdiyi çoxlu ceyran olduğunu da göstərir.[85]

Şəhər, Azərbaycanın digər iri feodal şəhərləri kimi, Abşeron kəndləri ilə bağlı olub, onlarla iqtisadi vəhdət təşkil edirdi. Beynəlxalq ticarətdə fəal iştirak edən Bakı, eyni zamanda, tacirlərin və sənətkarların toplaşdığı şəhər idi.

Şəhərin feodalları və ruhaniləri karvan ticarəti ilə sıx bağlı olub, bu ticarətdə yaxından iştirak edirdilər. Onlar karvansaralara, bazar dükanlarına, bazarlara, bütöv məhəllələrə sahib olub, orada alver edən tacirlərdən, sənətkarlardan müəyyən rüsum alırdılar.[86]

XV əsrdə italyan tacir-səyyahları ilə yanaşı buraya rus tacirləri də gəlməyə başlayır. XV əsrin ikinci yarısında Moskva dövlətinin iqtisadi və siyasi yüksəlişi və tacir silkinin yeni mal tədavülü bazarlarına marağı ilə bağlı olaraq, Moskva ilə Şərq ölkələri, xüsusilə xam ipək, ipək parça və xalça ilə zəngin olan Azərbaycan arasında ticarət əlaqələri və diplomatik əlaqələr yaradılır.[87] Bu vaxt Şirvandan beynəlxalq bazarlara, əvvəllərdə olduğu kimi, xam ipək, yun və pambıq parçalar, neft, duz, zəfəran, düyü, mis qablar və digər mallar ixrac olunurdu.

1446-cı ildə Şirvanşah I Xəlilüllah Moskva dövləti ilə Şirvan arasında dostluq və ticarət münasibətləri yaratmaq məqsədilə Həsən bəyin başçılığı ilə Moskvaya, III İvanın yanına qiymətli hədiyyələrlə birlikdə elçilər göndərmişdi. Buna cavab olaraq Vasili Papin III İvanın adından qiymətli hədiyyələrlə Şamaxıya gəlmişdi.[88]

Papinin ardınca 1466-cı ildə Tver taciri Afanasi Nikitin öz tverli tacir yoldaşları ilə iki gəmi qayıraraq, onlara mal yükləyib Volqa ilə Şamaxıya yola dlüşdü. Həştərxandan Dərbəndə gələrkən onlar yolda dəniz quldurlarının basqınına məruz qalaraq qarət edildilər və Dağıstan (qaytaq) hakimi tərəfindən əsir alındılar.[89] Lakin rus səfiri Papinin xahişi ilə Şirvanşah Fərrux Yəssarın işə qarışması sayəsində tezliklə azad olundular. Əsir ruslar digər Moskva tacirləri ilə birlikdə Dərbənddən Koytula (şirvanşahın qərargahına – *S.A.*) göndərildilər. Şirvanşah onları iltifatla qəbul etdi, lakin tacirlərin çox olmasını bəhanə gətirərək, onların evlərinə qayıtmalarına kömək göstərmək barədə xahişlərini rədd etdi. "...Biz isə Koytula, Şirvanşahın yanına getdik və onun ayağına düşərək Rusiyaya qayıt-

mağımıza yardım etməsini dilədik. O isə çox olduğumuzu deyib bizə heç nə vermədi. Biz ağlaya-ağlaya hərəmiz bir tərəfə dağıldıq, bəzilərimiz Şamaxıda qaldı, bəzilərimiz isə Bakıya işləməyə getdi. Mən isə Dərbəndə, oradan da əbədi odlar yanan Bakıya getdim. Bakıdan isə dəniz arxasındakı Çebokara yollandım".[90]

Nikitin və onun yoldaşlarının Azərbaycana gəlməsi təsadüfi deyildi. Azərbaycanla ticarət əlaqələri əvvəlki əsrlərdə də mövcud olmuşdur.[91]

XIII əsrdə və XIV əsrin əvvəllərində Moskva dövlətindən Şirvana qiymətli sincab, samur, dələ, tülkü xəzləri idxal olunurdu.[92]

Mənbələrdə 1475-ci ildə III İvanın səfiri Markın Təbrizə, Uzun Həsənin yanına getdiyi xəbər verilir. Mark burada Venesiya səfirləri Barbara və Kontarini ilə görüşmüşdür.[93] 1494-cü ildə şirvanşah Fərrux Yəssarın nəvəsi Mahmud öz səfiri Şahabəddini Böyük Moskva knyazının yanına göndərmişdi.[94] Beləliklə, Moskva dövlətindən Azərbaycana ticarət məqsədi ilə bir sıra elçi və tacirlərin gəldiyini görürük. Bu dövrdə Həştərxan vasitəsilə Şirvan şəhərləri ilə Şərqi Avropa şəhərləri arasında müntəzəm ticarət əlaqələri yaranır. Kontarinin sözlərinə görə, Şirvandan gətirilən mallar, başlıca olaraq ipək, Həştərxanda rus tacirləri ilə xəz, qılınc, bal və muma dəyişdirilirdi.[95] Tacirlər oradan dəniz yolu ilə Dərbəndə, Bakıya, sonra isə karvan yolu ilə Şamaxıya və İrana gedirdilər. Kontarini Xəzər dənizində üzən ticarət gəmiləri haqqında müxtəsər məlumatlar verir.[96]

Bakı bu dövrdə ən yaxşı liman şəhəri kimi beynəlxalq tranzit ipək ticarətində mühüm rol oynayırdı. Bu dövrdə Bakıda, eləcə də Şirvanın digər şəhərlərində əmtəə-pul münasibətlərinin inkişafını Bakının İçərişəhər hissəsində XV əsrdə və XVI əsrin əvvəllərində Bakıda və Şamaxıda kəsilmiş iri gümüş sikkə dəfinələrinin tapılması da təsdiq edir.[97]

Şirvanşahlar sarayı ərazisində və qaladan kənarda, onun həndəvərində, eləcə də Abşeronda (Pirşağa kəndi) XV əsrə aid üz tərəfində "Bakuyə" möhürü həkk olunmuş, Bakıda kəsilmiş mis və bürünc sikkələr də tapılmışdır.[98]

Bakıda kəsilmiş mis sikkələrin bəzilərinin üzərində balıq, şir, dəvə, quş və s. rəsmləri çəkilmişdir. Balıq şəkli Şirvanşahlar sarayı ərazisində tapılmış yaşıl şirli boşqabda, həmçinin, Qobustan

qayalarında da vardır. Maraqlıdır ki, balıq təsvirinə Abşeronda (Maştağa və b. kəndlərdə) indi də evlərin fasadında rast gəlinir. Bunun səbəbini bilməyən Abşeron camaatı onu qədim ənənələrlə izah edir. Yuxuda balıq görən abşeronlu onu var-dövlət əlaməti kimi yozur. Ehtimal ki, balıq Abşeronda ta qədimlərdən totem olmuş və onun təsviri orta əsrlərdə olduğu kimi, bizim dövrümüzdə də davam etməkdədir.

Sikkələrdəki balıq, heyvan və quş təsvirləri ehtimal ki, onların kəsildiyi ili bildirir, belə ki, monqollar dövründə illər uzaq keçmişlərdən totem olan heyvanların adları ilə adlandırılırdı.

Nəzərdən keçirdiyimiz dövr feodal şəhərlərinin təkcə ticarətin deyil, həm də məhsuldar qüvvələrin, xüsusilə neft hasilatı və sənətkarlıq sahəsində inkişafı ilə bağlı yüksəliş dövrü idi.

3. SOSİAL MÜNASİBƏTLƏR VƏ ŞƏHƏR QURULUŞU

XI ərsdə sənətkarlığın, ticarətin və əmtəə-pul münasibətlərinin inkişafı XII əsr-XIII əsrin birinci çərəyində Şirvanın feodal şəhərlərinin çiçəklənməsinə zəmin yaratdı. Şamaxı, Dərbənd, Bakı, Beyləqan kimi şəhərlər inzibati mərkəzlərə çevrildilər. Şirvanın paytaxtı Şamaxıda yüz minə yaxın, Beyləqanda qırx min əhali yaşayırdı.[1]

XI-XVI əsrlərdə Bakıda sosial münasibətləri və şəhər quruluşunu öyrənmək baxımından mənbələrin verdiyi məlumat dağınıq və cüzidir.

Ayrı-ayrı şəhər vəzifələrinin və inzibati terminologiyanın öyrənilməsi şəhərlərin idarəetmə formalarını təsəvvür etməyə imkan verir.

Həmin dövrün mənbələrində Bakı şəhərində, feodal cəmiyyətinin strukturu haqqında məlumat yoxdur. Bu boşluğu, əsasən, Bakı və Abşeronda XI-XV əsrlərə aid çoxlu memarlıq abidələrindəki daş kitabələr və şərəflərinə kəsilmiş şəxslərin titulları göstərilən müxtəlif sikkələrin legendaları doldurur. Bu kitabələrdə adları çəkilən şəxslərin titulları, rütbələri xatırlanır: şirvanşah, əmir, xaqan, xan, sultan, məlik, vəzir, hacib, sədr, sipahsalar, şeyx, əxi, rəis və i.a. titullarla müşayiət olunan şirvanşah dururdu.

Nizaminin 1184-cü ildə yazdığı "Leyli və Məcnun" poemasında Şirvanşah I Axsitanın bütün titul və ləqəbləri göstərilmişdir: böyük

xaqan (xaqan-i kəbir), məlik əl-müəzzəm, şirvanşah, Cəlal əd-Dövlə, Əbü-l-Müzəffər, Axsitan ibn Mənuçöhr.[2] Şirvanşahın adının dəbdəbəli ləqəblərlə müşayiət olunması onun Cənubi Qafqazda iri feodal dövlətinin məşhur hökmdarlarından biri kimi müstəqilliyini göstərir. Şirvanşah I Axsitanın dövründə kəsilmiş sikkələrdə xəlifələr və İraq sultanları ilə yanaşı, Axsitan ibn Mənuçöhrün də adı əl-məlik əl-müəzzəm ləqəbləri ilə birlikdə çəkilir.[3] İraq sultanlarının adının çəkilməsi şirvanşahın onlardan vassal asılılığında olduğunu göstərir. Şirvanşah öz dövlətində həm hərbi baxımdan, həm də təbəələri üzərində qeyri-məhdud hakimiyyətə malik idi. O, feodal idarə üsulunun dayağı və rəmzi, əmirlərin qəsdlərinə qarşı duran qüvvə idi.

Şirvanşahın bu və ya digər istilaçıdan asılılığı mənbədə gətirilən aşağıdakı epizoddan görünür: şirvanşah III Axsitanın Siyamərk adlı oğlu var idi. Bir dəfə Siyamərk xanın iqamətgahına getdi. Siyamərk saraya çatarkən şirvanşah Axsitan tərəfindən qabaqcadan xəbərdar edilmiş Arqun onu qara ölüm demək olan qara mahuda bükməyi əmr etdi; sonra onu təpiklə döyüb öldürdülər.[4] Monqollar xoşları gəlməyən vassallarına, onların hökmdar ailəsinin üzvləri olmasına baxmayaraq, beləcə divan tuturdular.

Feodal idarəçiliyinin başında iri feodallar dayanırdı. Onlara torpağa, suya, süni suvarma qurğularına, əsas əmək vasitələrinə sahib olan hərbi əyanlar və yüksək mənsəbli dövlət məmurları, ali rütbəli ruhanilər daxil idi. Feodal zadəganlarının Abşeronda neft quyuları və duz mədənləri, əkin yerləri, bostanları və üzümlükləri, mal-qarası, qəsrləri, evləri və karvansaraları, Bakı şəhərində bazar-dükanları var idi. Feodal iyerarxiyasında şirvanşahlardan sonra əmirlər dururdu. Onların adları həm Bakı qalasındakı, həm də Abşerondakı bir sıra daş kitabələrdə çəkilir.

Əmirlər hərbi əyanlara daxil idi. Bütün hərbi və inzibati hakimiyyət onların əlində cəmlənmişdi. XII əsrdə Bakı qalasındakı Cümə məscidinin minarəsinin bünövrəsinə qoyulmuş daş üzərində kufi xətlə həkk olunmuş dörd sətirlik kitabədə yazılmışdır:

"1. Əzəmətli əmir – sipahsalar, şücaətli (hərbi) rəis
2. ...Hüsaməddövlə (və-d-Din), dövlətin xoşbəxtliyi
3. İslamın dayağı və qoşunun başçısı, millətin tacı
4. Kübarların itirilmiş Əbu Yəqub Yusifi".[5]

Hüsaməddinə verilən ləqəblərdən və Şirvanın iki böyük şairinin – Xaqani Şirvani və Fələki Şirvaninin məlumatlarından görünür ki, o, III Mənuçöhrün vaxtında təqribən h.530-532 (1135/36-1137/38)-ci illərdə Şirvanşahlar dövləti qoşunlarının baş sərkərdəsi olmuşdur. Sipahsalar – hərbi rəis, qoşunların baş sərkərdəsi – XIII əsrin əvvəllərində ən yüksək hərbi rütbə idi. XI əsr-XII əsrin əvvəllərində hərbi rəis qoşunların baş sərkərdəsi, həm də sahib əl-cəyş (ərəbcə) adlanırdı. Məsud ibn Namdar XI əsrin sonunda Gəncənin və bütün Arranın hakimi şirvanşah I Fəribürzün oğlu əmir əl-Ədudun[6] adını çəkir. XI əsrdə Dərbənddə Haşimi əmirləri sülaləsi hakimlik edirdi.[7] Sonra Dərbənd və həndəvərindəki torpaqlar Şirvanın tərkibinə qatıldı. Dərbənd XII əsrin əvvəlindən XIII əsrin ikinci rübünə qədər başda əmir olmaqla müstəqil əmirlik kimi mövcud olmuşdur. Əmirlərin hakimiyyəti irsi idi. Onlar şəhərin və Abşeronun bir sıra kəndlərinin hakimi olub, müdafiə istehkamlarının tikilməsinə başçılıq edirdilər. Şirvanşahlar dövlətinin tərkibinə daxil olan Abşeron yarımadası özünün coğrafi xüsusiyyətlərinə, yeraltı sərvətlərinin zənginliyinə, rahat (əlverişli) limanlarının olmasına görə əlahiddə coğrafi, iqtisadi və siyasi vahid sayılırdı. XI-XV əsrlərdə Abşeron Şirvanşahların hakimiyyəti altında olan vassal torpaqları qrupundan ibarət idi.[8] Bunu Abşeronda bir-birinin yaxınlığında tikilmiş məscid və türbələri olan çoxlu möhkəmləndirilmiş qala və içqalaların mövcudluğu da sübut edir. Əmirlərin adlarına XIV əsr kitabələrində rast gəlinir. Bakı qalasında, qədim Cümə məscidinin cənub tərəfdəki divarında binanın təmir olunduğu xəbər verilən, "Məlik əl-ümərа və-l-əkabir (əmirlərin və əyanların məliki) Şərəfəddin Mahmud ibn Fəxrəddinin" adı çəkilən və h.709 (1309/10)-cu il tarixi göstərilən ərəbcə kitabə olmuşdur.[9] Əmirəcan kəndindəki məscidin qapısı üstündəki ərəbcə kitabədə məscidi tikdirən böyük malik Fəxrəddinin oğlu Əmir Nizaməddin əmir Həccin adı çəkilir və h.730 (1329/30)-cu il tarixi göstərilir.[10] Bu kitabələrdən aydın olur ki, Fəxrəddin adları çəkilən bu iki şəxsin atasıdır və "böyük malik" epitetindən göründüyü kimi yüksək mövqe tutmuş, yəni, iri mülkədar olmuşdur. Onun oğlanlarından biri – Bakı qalasındakı məscidi təmir etdirmiş Şərəfəddin Mahmud, ehtimal ki, şəhərdə yaşamış, ikinci oğlu isə titulundan göründüyü kimi, iri mülkədar, şərəfinə adlandırılan Əmirəcan (Əmir Həccan) kəndinin sahibi olmuşdur.

Əmir Həcc rütbəsi fəxri vəzifə olub Məkkə və Mədinəyə ziyarətə gedən karvanın başçısına verilirdi.[11] Əmirəcan kəndinin Əmir və Şərəf adlı iki qardaş tərəfindən salınmasına dair nəsillərdən nəsillərə ötürülən rəvayət yuxarıda göstərilən kitabələrlə təsdiq olunur. Həmin məscidin baştağının üstündəki başqa bir daş kitabədə Şərəfəddin ibn Şeyx Mahmud ibn Nəsrəddin Qutluq şahın adı çəkilir və h.786 (1384-1385)-cı il göstərilir.[12] Çox ehtimal ki, Şərəfəddin Qazan xan və sultan Ölcaytu Xudabəndə zamanında baş əmir (əmir əl-ümərа) olmuş Qutluq şahın nəvəsidir.[13] Adları çəkilən şəxslər feodal sinfinin nümayəndələri və şirvanşahın vassalları olmuşlar. Şirvanşah və əmirlərin yanında onların şəxsi mühafizi, yaxud keçikçisi vəzivəsini daşıyan qulamlar var idi. Onlar şirvanşahın tapşırığı ilə onun yaxın qohumlarını öldürür, qan inqtiqamını alır və digər qorxulu əmrləri yerinə yetirirdilər. "Tarix əl-Bab"da xidmətçilər arasında qulamlardan başqa, görünür, daha yüksək mövqe tutan "xadim"lərin də adı çəkilir. Şirvanşahlar dövlətində nizami qoşunlardan (əsgər, cünd), növbətçi dəstələrindən əlavə türk və türkmənlərdən təşkil olunan muzdlu dəstələr də var idi. Şəhərlərin əhalini şəhəri yadelli işğalçılardan müdafiə etməkdə birliyə çağıran sakinlərindən ibarət hərbi təşkilatı da var idi. Şəhər icması "əl-cəmaət" adlanırdı.[14]

Şirvanşahdan sonra dövləti idarə edən ikinci şəxs ən yüksək mənsəbli əyanlardan olan vəzir idi. Şirvanşahlar sarayında vəzir vəzifəsini üç nəsil ərzində mənşəcə məşhur Deyləmilər hökmdar sulaləsi qolundan olan və artıq o vaxtlar Səlcuqilərlə qohumlaşmış Kakulilər ailəsi tutmuşdur.[15] Şirvanın vəziri Bəhaəddin Məhəmməd ibn əl-Hüseyn əl-Kakuli vəzifəsi irsən keçən vəzirlərin oğlu və nəvəsi idi.[16] Bakı yaxınlığındakı Mərdəkan kəndindəki dairəvi qalanın h.600 (1204)-cü ilə aid daş kitabəsində qalanın sahibi Sipahsalar İshaq ibn Kakulinin adı çəkilir.[17] Görünür, bu ailənin üzvləri XI əsrdən bəri və sonrakı əsrlərdə Şirvan dövlətinin idarə edilməsində mühüm rol oynamışlar.

Şirvanın vəziri, şirvanşahın iltifatı ilə də olsa, dövlətin tam səlahiyyətli hakimi idi. Vəzirlərin hakimiyyəti, hər şeydən əvvəl, məmur təbəqəsinin nümayəndələri üçün bəxşiş mənbəyi idi. Şirvanın vəziri əl-Kakuli mükafat və bəxşiş verməkdə səxavəti ilə məşhurlaşmışdı. Əhalidən vergi yığmaq icazəsini (daman, müqatiə) vəzir verirdi. Bakı qalasındakı Cümə məscidi minarəsinin bünövrə daşın-

dakı farsca kitabəyə görə, Şirvanda, ehtimal ki, XI-XII əsrlərdə Şamaxıda, XIII-XIV əsrlərdə isə Bakıda vəzirlərin divanı (divan əl-vüzəra) mövcud olmuşdur. Sultan Məhəmməd Ölcaytunun (1304-1316-cı illər) yarlığının mətnindən ibarət olan bu kitabədə Bakuyə Divanı xatırlanır.[18] Divanın əsas gəlir mənbəyi pul rentası şəklində daxil olan vergi və töycülərdən, habelə hərbi qənimət və xəracdan ibarət idi. Şəhərlərdə vergi və töycülərin yığılması ilə amillər məşğul olurdu.[19] XI əsrin sonunda Divanın sahibi (mülki və maliyyə idarəsinin başçısı) və vəzirin naibi (müavini) şirvanşahın feodal inzibatı idarələrində xidmət edən Məsud ibn Namdar idi. Onun əsas gəlir yeri şəhər və ya mahalda yığılan vergi və töycülərdən daimi və irsən təyin olunan pul ödənci – idrar idi. İdrarı təyin etmək hüququ da vəzirin səlahiyyətinə məxsus idi. Lakin XV əsrdə vəzirlərin hakimiyyətini sıxışdıraraq nüfuz qazanmış müstövfilər – maliyyə-mühasibat idarəsinin yüksək mənsəbli məmurları idrarın verilməsini dayandıra bilərdilər. Vergi məbləği divana müntəzəm daxil olmadığından idrarın alınması tez-tez çətinləşirdi. İdrardan başqa təsviq (məvacib), müşahəra (aylıq haqq) kimi pul ödəncləri də mövcud idi.[20] Məsud ibn Namdar Şirvanın şəhər idarəsində müstövfi vəzifəsində işləyirdi. O, vergi məbləğlərinin mədaxil və məxaricinin hesabını aparmaq, şəhərin mədaxil və məxaric dəftərlərinin tərtibi ilə məşğul olurdu. Namdar həmçinin, özünün müşrif – əhalinin gəliri haqqında məlumat toplayan nəzarət məmuru vəzifəsinin də adını çəkir.[21] Orta və kiçik məmurlar qrupuna nazirlər, katiblər, amillər, şəhər kəndxudaları və s. daxil idi. Kiçik nəzarət məmuru olan nazirin vəzifəsi kənd mülklərindən və sənətkarlıq istehsalından, Bakı və Abşeronun duz mədənlərindən və neft quyularından götürülən gəliri hesablamaq idi.

Qoşunların uçotu və onların məvacibinin ödənilməsi ilə məşğul olan məmur arid adlanırdı.[22] Şəhnə (şihnə) XI-XII əsrlərdə sultanın hərbi canişini idi. Amilin və şəhər hakiminin yanında müxtəlif tapşırıqları icra edən məmur – katib vəzifəsi də var idi. Məsud ibn Namdar "əsl" katibin bilik sahələrini sadalayaraq, fiqhə və şəriətə, qrammatikanın müxtəlif incəliklərinə bələd olmağı, Quranı bilməyi və s. xatırladır. Beyləqanda amilin on beş katibi var idi.[23] Mirab şəhərin su təchizatı və onun şəhər sakinləri arasında bölüşdürülməsi ilə məşğul olur, suvarma kanallarının saz olmasına, bulaq və su quyularının təmizliyinə nəzarət edirdi.

Feodal sinfi daxilində ikinci qrup ali rütbəli ruhanilər – vilayətdə şeyxülislam, qazılar və qazi-əl-qüzzat (qazılar qazısı), yəni, vilayətin baş şəhərinin qazısı təşkil edirdi. Onlar şəhər idarəsində yüksək vəzifələr tuturdular.

XI-XV əsrlərdə digər müsəlman dövlətlərində olduğu kimi Şirvanda və Dərbənddə şəriətə əsaslanan müsəlman hüququ fəaliyyət göstərirdi. Dinlə hüquq arasında möhkəm bağlılıq, məhkəmə prosesinin və məhkəmənin ilahiyyatçı hüquqşünasların ixtiyarına verilməsi müsəlman ölkələrində mühakimə üsulunun səciyyəvi cəhətidir.

Şirvan şəhərlərində və Dərbənddə məhkəmə işlərini şirvanşahın və Dərbənd əmirinin təyin etdiyi qazılar aparırdı. Şəriət məhkəmələrinə başçılıq edən qazı və qazı əl-qüzzatın səlahiyyətinə bir sıra digər funksiyalar, o cümlədən notarius vəzifəsi də daxil idi. Qazılar dini ayinlərin icrasına nəzarət edirdilər, mülkiyyət hüququnu ləğv edə bilərdilər. Onlar, həmçinin mirası bölüşdürür, kəbin kəsir və digər mülki işlərlə məşğul olurdular.[24] Qazı əl-Qüzzat feodal hakimiyyət strukturunda sultandan və şirvanşahdan sonra ən mühüm simalardan biri idi. Ruhani feodallar dövlət idarəçiliyində tez-tez yüksək vəzifələr tuturdular. XII əsrin əvvəllərində Məsud ibn Namdar mənzum namələrində qazıların onu "mülk" sahibliyi və Beyləqanda olmadığı müddətdə məvacib almaq hüququndan məhrum etmələrindən şikayətlənir.[25] XII əsrin sonunda Şirvanın qazısı "hüquq elmlərinin və inzibatı hüququn kamil biliciləri olan qazılar nəslindən çıxmış"[26] Qiyasəddin Əbu Nəsr Məhəmməd ibn Abdullah ibn Abbas əş-Şirvani olmuşdur. Qazı vəzifəsi çox vaxt irsən keçirdi.

Şəhər idarəsində digər mühüm şəxslərdən biri də sədr – vəqf məsələlərinə baxan yüksək mənsəbli məmur, şirvanşah tərəfindən təyin olunan nazir idi. Bakı qalasındakı Gilək məscidindəki kitabədə h.708 (1308/9)-ci ildə məscidin təmir olunmasını əmr etmiş sədr Əmin əd-Din ibn Əbubəkrin adı çəkilir.[27] Buradaca kitabəsində onu tikdirmiş sədr Xoca Əmirşah ibn Xoca Hacı Yaqubun (h.818 (1415-1416)-ci il) adı xatırlanan başqa bir məscid də vardır.[28] Xoca rütbəsi, görünür, varlı tacirə, yaxud vəzirə, şirvanşah sarayındakı mənsəb sahibinə verilirdi. Bakıda yaşamış həmin feodalların və mənsəb sahiblərinin adlarına, habelə mənbələrin məlumatına görə, ehtimal ki, onlar şafiilik məzhəbinə mənsub sünni olmuşlar.[29]

Cümə (came) məscidlərinin imamları, müdərrislər (mədrəsə müəllimləri), seyidlər, dərviş xanəgahlarının, zaviyələrinin və i.a. şeyxləri, habelə vəqflərin mütəvəlliləri də ruhanilər zümrəsinə daxil idi. Ruhanilərin nə kimi rol oynadıqları aşağıdakı faktdan aydın görünür: şirvanşah III Axsitan (XIII əsrin ikinci yarısında hakimiyyət sürmüşdür) Səfəvilər sülaləsinin banisi şeyx Səfiəddinlə (d.h.650 (1252-1253)-ci il – ö.h.735 (1334-1335)-ci il) qohum olmaq istəyərək, qızını şeyxə ərə vermək niyyətinə düşmüş, cehiz olaraq 14 000 dinar və gəliri bir neçə min taqar düyü olan suvarma kanalı verməyi vəd etmişdir. Səfiəddin bunun müqabilində demişdir: "Mən buna nə deyə bilərəm? Şirvanşah hökmdardır, mən isə adicə dərvişəm".[30]

Lakin bəzən şirvanşahlar bu və ya digər şeyxin nüfuzunun artmasından qorxuya düşərək, bir çox hallarda isə iqtisadi xarakterli səbəblərdən belə şəxsləri təqib etmişlər. Məsələn, III Axsitan təbəələrinin əksəriy·yətinin şeyx Zahidin (d.h.615 (1218/19)-ci il – ö. təqribən 1300-cü il) ardıcılı olduqlarını, bütün vaxtlarını ibadətdə keçirərək, təsərrüfatı, tarlaların becərilməsini başlı-başına buraxdıqlarını, bunun isə dövlətin rifahına fəlakətli təsir göstərdiyini gördükdə şeyxlə düşmən oldu, onun müridlərini suya atıb boğdurmaq, ibadətgahını isə dağıtmaqla hədələmişdi.[31]

Ruhanilərin nümayəndələri arasında fəlsəfi əsərləri ilə Şərqdə tanınan sufi alim şeyxləri var idi. XI əsrin birinci yarısında Şirvanşahlar sarayında şeyx Məhəmməd Əli Bakuvi böyük şöhrət qazanmışdı. XI əsrin ikinci yarısında Şirvanda məşhur şeyx olan şeyx Əl-Hüseyn ibn Əli (ö.1074/5) onun kiçik qardaşı idi. Onun Pirsaat çayının sahilindəki Pirhüseyn xanəgahı adlanan ziyarətgahı təkcə Şirvanda deyil, bütün Yaxın Şərqdə də böyük hörmət qazanmışdı. Bu xanəgaha iri vəqf mülkləri, bahalı parçalar, digər qiymətli əşyalar mənsub idi. Xanəgahın müridləri, dərvişləri və xidmətçilər minlərlə baş qoyuna və yük heyvanına sahib idilər. Pirhüseynin sağlığında və sonralar xanəgah mühüm mədəni, fəlsəfi, elmi, ədəbi və dini mərkəz olmuşdur.[32]

Şəhər zadəganları sırasına iri tacirlər də daxil idi. Şəhərlərdə sənətkarlığın və əmtəə istehsalının inkişafı Şirvan dövlətinin iqtisadiyyatında ticarətin və əmtəə-pul münasibətlərinin vüsət almasına təkan verirdi. Şirvanın, Bakı, Şamaxı, Dərbənd və digər orta əsr

şəhərləri sənətkarlıq və ticarət mərkəzləri idilər. XII əsr mənbəyində şəhərin "tacirbaşı"ları adlandırılan[33] "Şeyx ət-Tüccar", "Məlik ət-Tüccar" kimi iri tacirlər də şəhərin hakim təbəqələri arasında mühüm yer tuturdu. Onlar rastabazarlara, sənətkarlıq emalatxanalarına, karxanalara, dükanlara. karvansaralara və digər daşınar və daşınmaz əmlaka sahib idilər. Xırda alverçilər və çərçilər əhalinin istismar edilən zümrələrinə daxil idilər.

Şəhərlərin və şəhər həyatının inkişafı nəticəsində onların idarə olunmasında burada yüksək vəzifələr tutan nüfuzlu tacirlər fəal rol oynamağa başladılar. 1363-cü ildə tərtib olunmuş mənbədə müqatiə (icarə) hüququ əsasında Arran, Muğan, Qəvbəri (Mahmudabad və Bakuyə şəhərləri, yaxud "neft mənbələr" ilə birlikdə) və Şirvan vilayətlərinə sahib olan Xoca Fasihi Şirvaninin adı çəkilir. "Müqatiəyə müvafiq olaraq, ona məxsus mülkiyyət hüququ sənədinə görə..." həmin yerlərdən çox böyük məbləğdə – 820 min dinar – 82 tümən gəlir gəlirdi. Sənəddə göstərilirdi ki, "Həmin məbləğ adı çəkilən yerlərdən daxil olur".[34]

Orta əsrlərdə Azərbaycanın iqtisadi həyatında icarə sistemi hələ ərəb hökmranlığı dövründən mövcud idi. XIII-XIV əsrlərdə, monqollar dövründə icarə sistemi daha da inkişaf etmiş, dövlət vergilərinin alınmasının və dövlət gəlirlərinin başlıca forması kimi şəhərlərin təsərrüfat həyatında geniş yayılaraq, bütövlükdə ölkənin məhsuldar qüvvələrinin inkişafında əngələ çevrilmişdi.

Feodal şəhər inzibati idarəsinin mühüm simalarından biri şəhərin bazarlarına, ticarət-sənətkarlıq məhəllələrinə, məhsulların keyfiyyətinə, təmizliyə və qayda-qanuna, ölçü və çəki vasitələrindən düzgün istifadə olunmasına nəzarət edən mühtəsib idi. O, polis funksiyasını da – şəhərdə ictimai asayişin qorunması, cinayət işlərinin və cinayətkarlığın tədqiqi, sərxoşların və iğtişaşçıların cəzalandırılması – icra edirdi. Mühtəsib, həmçinin şəhər sakinlərinin Quranın göstərişlərinə və islam dini ayinlərinə riayət etmələrini nəzarətdə saxlayırdı.[35]

Bakı şəhərinin feodal cəmiyyətində rəislər mühüm yer tuturdu. Bakının İçərişəhər hisəsəsindəki Sınıqqala məscidinin divarındakı kitabədə memarının adı çəkilir: Ustad ər-Rəis Məhəmməd ibn Əbubəkr (h.417 (1078/79)-ci il).[36] Bu tarix şirvanşah I Fəribürzün hakimiyyət dövrünə uyğun gəlir. Rəislər şəhərin sosial həyatında

mühüm rol oynayan tacir silkinin nümayəndələri, yaxud sənətkar sexlərinin başçıları idilər. Rəis şəhər hakimiyyəti ilə əhali arasında vasitəçilik edir, birinci tərəfin fərmanlarını yayır, sonuncuların adından çıxış edirdi. Onlar, bir növ, şəhər zadəganları idi. Rəislər şirvanşahlarla tez-tez müxalifətdə olur, özlərinin şəxsi silahlı nökərlərinə – qulamlara arxalanaraq şəhər hakimlərinə qarşı qiyamlara başçılıq edirdilər.[37] Rəislər Şirvanda şirvanşahın h.458-ci il cəmadiyüləvvəl ayında (aprel, 1066-cı il) ölkənin paytaxtı Yəzidiyyədə (Şamaxıda) keçirdiyi cəza tədbirlərinin qurbanları kimi xatırlanır.[38]

Rəis Məhəmməd ibn Əbubəkrin Bakı qalasında məscid tikdirməsi şəhərin bu zümrəsinin varlı olduğuna dəlalət edir. "Ustad ər-rəis" rütbəsi onun sənətkar sexləri rəislərinin başçısı olduğunu göstərir.

XI əsrin sonlarında və türklərin hücumu ərəfəsində əmirlərin nüfuzu güclü idi. Məscidin kitabəsində I Fəribürzün adının çəkilməməsi 1078/79-cu ildə Səlcuqilərə tabe olan şirvanşahın hakimiyyətinin zəiflədiyini, rəislərin gücləndiyini göstərir.

Şəhər şurası şəhər ağsaqqallarından və şəhər idarəsinə mənsub olub, rəis ər-rüəsa (rəislər rəisi) qarşısında hesabat verən rəislərdən ibarət idi. Rəislərin səlahiyyətinə müxtəlif vəzifələr daxil idi. Müxtəlif sex və birliklərin başçıları, məhəllə darğaları, bazarbaşılar rəislərə tabe idilər və onlara hesabat verirdilər. Rəislər şəhərin sosial və siyasi həyatında fəal iştirak edirdilər.[39] Böyük var-dövlət, torpaq sahibi olan rəislərlə yanaşı, sənətkarlar və digər aşağı ictimai təbəqələr arasından çıxıb, Bakının və Şirvanın digər şəhərlərinin sosial-siyasi həyatında fəal iştirak edən rəislər də var idi.

XI-XII əsrlərdə Beyləqanda, Şamaxıda, Bakıda, Dərbənddə şəhər əhalisinin sinfi çıxışları bu və ya digər şəkildə şəhərlərin feodal hakimləri və feodal üsuli-idarəsi əleyhinə yönəlmiş müxtəlif hərəkatlara çevrilir, şəhər əhalisinin feodal hakimiyyət nümayəndələrindən xilas olmaq, onların yerinə şəhərin tacir silkinin, rəislərin, habelə sənətkarların nümayəndələrini keçirmək cəhdlərinə gətirib çıxarırdı. Ehtimal etmək olar ki, Beyləqanda, Yəzidiyyədə, Bakıda, Dərbənddə və digər şəhərlərdə baş verən hadisələr XI əsrdə ictimai təsisat kimi şəhər özünüidarəsinin meydana gəlməsi ilə bağlı idi.

Bu proses rəislər şəhər həyatında mühüm rol oynamağa başlayandan təkcə Şirvan, Arran və Dərbənddə deyil, Gürcüstanda, Ermənistanda və Cənubi Qafqazın digər ölkələrində də nəzərə çarpır. Şəhər feodal hakiminin hökmranlığı altında qalsa da, şəhər özünüidarəsi mövcud idi.[40] Şirvan və Arran şəhərlərində özünüidarə əlamətlərinin meydana gəlməsi və şəhərlərin müstəqillik və muxtariyyət uğrunda mübarizəsi orta əsr şəhərinin sənətkarlıq və ticarət mərkəzi kimi inkişafı və şəhərlilərin feodal zülmü, səlcuq işğalçıları əleyhinə mübarizəsi ilə bağlı idi. Şirvan və Arranda şəhər özünüidarəsinin sonrakı inkişafı XIII əsrin 30-cu illərində monqol hücumları ilə əlaqədar dayandırıldı.

XI-XVI əsrlərdə Bakının şəhər əhalisinin mühüm təbəqəsini müxtəlif istehsal sahəsində çalışan sənətkarlar təşkil edirdi. Bu dövrün narrativ mənbələri, qəbirdaşlarındakı və binalardakı daş kitabələr, arxeoloji materiallar göstərir ki, Bakıda və Dərbənddə 40-dan çox adda sənətkarlıq sahəsi və peşəsi mövcud idi. XI əsr alimi Əbubəkr Məhəmməd əd-Dərbəndi "Reyhan əl-haqayiq və bustan əl-dəqaiq" ("Həqiqətlər reyhanı və inxəliklər bağı") adlı əsərində Dərbəndin sufi məclislərinin dinləyiciləri arasında kağız düzəldən (vərraq), ipəkçi (həzzaz), balıqçı (səmmaq), sabunbişirən (sabuni), dərzi (xəyyat), qul alverçisi (nəxxas), həkim (xətib) adlarını çəkir.[41]

XI-XVI əsrlərdə Bakı və Abşeronda sənətkarlıq inkişaf etmişdi. Burada daş üzərində oymaçılar, həkkaklar, xəttatlar, rəssamlar, toxucular xalçaçılar, zərgərlər, memarlar, bənnalar, dulusçular, misgərlər, gəmiqayıranlar və digər peşə sahibləri çalışırdı. İçərişəhər ərazisində aparılan qazıntılar zamanı tapılmış qiymətli metalı əritmək üçün daş alət və müxtəlif qızıl və gümüş bəzək əşyaları köhnə Bakıdakı zərgərlik işlərindən xəbər verir.

Memarlıqla bağlı sənət sahələrində bənnalar, memarlar, mühəndislər, sərkarlar çalışırdılar. Bu adlar həmin kateqoriyadan olan sənətkarlar arasında daha mühüm yer tutan memarlara, bənnalara verilirdi. Daş kitabələrdən göründüyü kimi, memar adı almış sənətkar tikintidə iştirak edən inşaatçı ustalar arasında məsul şəxs sayılır, buna görə də kitabələrdə təkcə onun adı göstərilirdi. Ehtimal ki, o, inşaatçılar sexinin rəisi sayılırdı. Məsələn, memar Əbdülməcid ibn Məsudun adı mərdəkan kəndindəki XIII əsrə aid dairəvi qalanın divar daşında həkk olunmuşdur.[42]

Kitabələrdə rast gəlinən "ustad" rütbəsi "yüksək ixtisaslı usta" mənasını bildirir və müxtəlif peşə sahibi olan sənətkarlara verilirdi. Rəsm və naxış ustalarına, adətən, "nəqqaş" deyirdilər. Daş üzərində oyma ustaları "həkkak" adlanırdı. Həkkak xəttat Məhəmməd əl-Arifin adı İçərişəhərdəki Molla Nəsrulla (XIV əsr) məscidinin kitabəsində qalmışdı.[43] "Nəccar" adlanan ağac, gəc və i.a. üzərində bədii oyma ustaları ayrıca qrup təşkil edirdi. İçərişəhərdə ustad nəccar Aşur ibn İbrahim Bakuyinin adı çəkilən kitabə qalmışdır.[44] Ustanın nisbəsi onun bakılı olduğunu bildirir. İnşaatçı sənətkarlara məxsus həmin peşə adları sənətkar sexlərinin daxilində əmək bölgüsü getdiyini göstərir.

Şirvanın şəhər və kənd sənətkarlarının da, ehtimal ki, öz təşkilatları olmuşdur. Belə ki, "əxilər" birliyinin sıralarında çoxlu Şirvan sənətkarı, müridlər (şeyx Səfiəddinin ardıcılları) var idi.[45]

Abşeronun Kürdəxanı kəndindəki XV əsrin birinci yarısına aid zaviyənin şeyx əxi Şirəmanın adı çəkilən kitabəsində də onun əxi təşkilatının üzvü olduğu göstərilir.

Ərəbcə yazılmış kitabədə deyilir: "Bu şərəfli zaviyəni böyük şeyxlərin başçısı Əxi Şirəman üçün tikməyi Nurullah ibn Hacı Əbayilə səkkiz yüz əlli ikinci (ildə) h.852 (1448/49)-ci ildə əmr etdi".[46]

Əxi ərəbcə "mənim qardaşım" deməkdir. Bu təşkilatın üzvlərinin əsas kütləsi sənətkarlardan və şəhər yoxsullarından ibarət idi. Təşkilatın ona yeni üzvlər qəbul edilərkən cəngavərliyə qəbul qaydalarını xatırladan xüsusi mərasimlərə riayət edən rəhbərləri, görünür, hakim təbəqələrlə bağlı olmuşlar.[47] Bu təşkilat XI əsrdə artıq Ön Şərqin bir çox ölkələrində yayılmışdı. XIV əsrdə əxilər Kiçik Asiyanın ictimai həyatında mühüm rol oynayırdılar.

1325-1332-ci illərdə Kiçik Asiyaya səfərdə olmuş ərəb səyyahı İbn Bəttutə əxilərin öz iqamətgahları olduğunu xəbər verir: "Onlar bütün türkmən, Rum* vilayətlərində, hər yaşayış yerində, hər şəhərdə və kənddə vardır".[48] Sənətkarlarla bağlı olan əxilər müstəbidlərin qətlinə icazə verirdilər. "Dünyada onlardan çox qəriblərin qayğısına qalan, acları doydurmağa, möhtacların ehtiyacını ödəməyə səy göstərən, voyevodanı, yaxud onlara bədxah niyyətlərlə

---

* İbn Bəttutə Kiçik Asiya vilayətlərini Rum vilayətləri adlandırır.

yaxınlaşanları qətlə yetirməyə hazır olan adamlar tapmaq çətindir. Onlar öz adamlarını və başqa peşədən olan gəncləri, subayları, kimsəsizləri toplayan adama əxi deyirlər. Adamlar özləri də gəlirlər ki, bu, fütuvva* adlanır".

İbn Bəttutənin təsvir etdiyi "iqamətgah" sənətkarlarla, zəhmət adamları ilə sıx bağlı təşkilat idi.[49] Bu xarakteristika Bakı və Abşerondakı əxi təşkilatlarına da şamil edilə bilər. Bunu Bakının cənub qala qapısındakı B.Dorn tərəfindən oxunmuş kitabə də göstərir. H.786-cı ilin rəcəb ayında (avqust, 1384-cü il) yazılmış həmin kitabədə binanı tikmiş Əxi ibn Ramazan əş-Şirvaninin adı çəkilir.[50] Əxi rütbəsi həmin şəxsin Bakıdakı əxilər təşkilatına mənsubiyyətini bildirir. Ehtimal ki, kitabədə bəhs edilən bina əxi təşkilatı üzvlərinin toplaşdığı iqamətgah olmuşdur. Bakı və Kürdəxanıdakı əxi təşkilatları, görünür, ibn Bəttutənin təsvir etdiyi təşkilatların eyni olmuşdur. Göründüyü kimi, əxi təşkilatının üzvləri şəhərin sosial həyatında mühüm rol oynayan şəhər sənətkarları idi. Mənbələrin verdiyi məlumata görə XI-XII əsrlərdə sənətkarlar və şəhərin yoxsul əhalisi gah şirvanşahın, gah da səlcuqların təyin etdikləri hakimlərin əleyhinə üsyanlar qaldırmışlar.[51]

İçərişəhər ərazisindəki bəzi məscid və karvansaraların adlarının qalması şəhərin həmin dövrdə sənətkarların, tacirlərin və əhalinin digər təbəqələrinin yaşadığı bir sıra məhəllələrə bölündüyünü ehtimal etməyə imkan verir. Məlumdur ki, məscidlər, adətən, sənətkar və ticarət məhəllələrində tikilir və həmin məhəllələrin adları ilə adlandırılardı. Məsələn, Ləzgi məscidi görünür soyuq silah və dəmir əşyalar istehsalı ilə şöhrət qazanmış ləzgi sənətkarları məhəlləsinin məscidi olmuşdur; Gilək məscidi ipək ticarəti ilə məşğul olan gilanlıların, Bəzzaz məscidi isə parça alverçilərinin məhəllə məscidi idi. Şəhər məhəllələrinin adları da bir çox hallarda orada yaşayan əhalinin tərkibindən asılı olurdu, məsələn, həkkarlar məhəlləsi və s. Qalada, ehtimal ki, başqa Şərq ölkələrindən gəlmiş tacirlərin – çinlilərin, hindlilərin, buxaralıların və s. – məhəllələri də olmuşdur.

Mənbələr olmadığından həmin dövrdə şəhərin daxili idarəetməsinə dair məlumat əldə edilə bilməmişdir. Yalnız yuxarıda göstərilən

---

* Fütuvva – cəngavərlik

məlumatlara əsasən ehtimal etmək olar ki, şəhər şirvanşahın təyin etdiyi hakimlər və vəzirlər tərəfindən idarə olunmuşdur. Baş maliyyə idarəsi, Azərbaycanın digər şəhərlərində olduğu kimi, Ölcaytunun kitabəsində adı çəkilən Divan olmuşdur. Hüququ normaları şəriətə əsaslanan qanunvericilik və məhkəmə orqanlarına ruhanilər başçılıq edirdilər. Şəhərdə feodallardan, ruhanilərdən, tacirlərdən və sənətkarlardan başqa yoxsul təbəqələr də yaşayırdı ki, onların arasında dərvişlər də var idi. Abşeron kəndlərinin əhalisinə gəldikdə isə, onların əksəriyyəti kənd təsərrüfatında çalışan və şəhərdə yaşayan feodallara məxsus neft quyularından, göllərdən neft və duz hasilatı ilə məşğul olan kəndlilərdən ibarət idi.

Neft quyularının sahibləri arasında dərvişlərə də rast gəlmək olurdu.

Məhəmməd ibn Mahmudun "Nəfais əl-Fünun" əsərində sultan Məhəmməd Ölcaytunun Bakıda bir dərvişlə görüşü təsvir olunur. Bu heykayətin məzmunu belədir: Dərvişlərdən bir nəfər Bakı hüdudunda özü üçün bir neft quyusu qazmışdı. O, öz həyatını və gəlib-gedənlərin (müsafirlərin) xərcini öz quyusunun mədaxili ilə təyin edirdi. Bir gün sultan buraya gəldi. Dərviş adəti üzrə ona xidmət etmək üçün ayağa qalxdı. Sultan ona-bəxşiş vermək istədi, dərviş almayıb dedi: "Bu miqdar ilə ruzgarım keçir, bundan artığa ehtiyacım yoxdur". Onun sözü sultana xoş gəlib, necə yaşadığını bilmək istədi. Onun hal və əhvalı sultana məlum olunca: "Sənin səltənətinə afərin olsun" dedi.[52]

Bakı qalasındakı, Abşeron kəndlərindəki məscid kitabələrində, qəbir daşlarında ərəbcə "mənim ağam" mənasına gələn "mövlana" sözünə tez-tez təsadüf edilir. Bu fəxri titul alim şəxslərə və şeyxlərə verilirdi. Saray vəzifəsi ilə bağlı "hacib" rütbəsinə rast gəlinir.[53]

Bakı qalasındakı daş kitabələrdə təsbit olunmuş bu titullar, rütbələr və vəzifələr feodal cəmiyyətinin mürəkkəb struktura malik olmasından xəbər verir.

Abşeronun şəhər və kəndlərinin sənətkarları və rəiyyəti həm yerli feodallar, həm də Abşeronda uzun müddət hökmranlıq etmiş ərəblərin, səlcuqların, monqolların və başqalarının simasında yadelli işğalçılar tərəfindən istismar olunurdular. Onlar öz feodallarına müxtəlif vergilər verir, feodal mükəlləfiyyətlərini yerinə yetirir, yerli və yadelli hakimlərin ikiqat zülmünə məruz qalırdılar. Bunu Bakının

sosial-iqtisadi tarixinə dair XIV əsrin əvvəlinə aid maraqlı sənədlərdən biri də təsdiq edir. Bu, İçərişəhərdəki Cümə məscidinin bünövrə daşındakı Bakı şəhəri və Abşeron kəndləri əhalisinin üzərinə qoyulan vergi növlərini əks etdirən kitabədir. Kitabə bugünədək hələ tam şəkildə oxunmamışdır.

Fars dilində olan bu kitabə Sultan Məhəmməd Ölcaytunun yarlığının mətni olub, aşağıdakı 4 sətirdən ibarətdir:

"1. Həqiqi sübhanə və təala (yəni, Allah) islamın padşahı dünyanın dörddə birinin fərman fərması, sultanın ömrünü uzatsın.

2. Əzəmətli, böyük xaqan ...Ərəb və Əcəmin hökmdarı Ölcaytu Xüdabəndə Məhəmməd, Allah onun hakimiyyətini əbədiləşdirsin!

3. Dünyanın fatehinin yarlığına görə şəhər və vilayətin rəiyyəti qopçur, səranə, neft və ürfi vergilərindən azad olunur.

4. ...Bundan belə bunları bakılılardan alana lənətlər olsun!"[54]

Yarlığın verildiyi tarix dəqiq məlum deyil. Lakin mənbələr sultan Məhəmməd Ölcaytunun Bakıya gəldiyini təsdiqləyir.[55] Ehtimal ki, bu, onun Arrandan qayıdaraq Gülüstanda dayandığı 1309-cu ildə olmuşdur.[56] Görünür, kitabədə Məhəmməd Xudabəndə Ölcaytunun yarlığının mətninin əsli deyil, yalnız onun məzmunu verilmişdir. Belə ki, monqol hökmdarlarının fərmanlarının əslində hökmdarlar haqqında Cümə məscidinin divarındakı kitabədə olduğu kimi üçüncü şəxsin deyil,[57] birinci şəxsin adından danışılır.

Cümə məscidinin divarındakı yarlığın mətnindən aydın olur ki, Elxanilər dövləti – torpaqlarının tərkibinə daxil olan Bakı, ehtimal ki, Sultan Məhəmməd Ölcaytu buraya gələrkən bir sıra vergilərdən, o cümlədən neft vergisindən azad edilmişdi.

Məlum olduğu kimi, monqollar istila etdikləri vilayətlərin əhalisi üzərinə ağır vergilər qoyurdular. Lakin əhali təkcə vergilərin hədsiz dərəcə çoxluğundan deyil, həm də onların yığılma üsulundan, əhalinin ödədiyi məbləğin onlardan təkrarən alınmayacağından təminat olmamasından əzab-əziyyət çəkirdi.[58] Bakı əhalisinin həmin vergilərdən azad edilməsi, ehtimal ki, ölkənin Elxanilərlə Qızıl Orda xanları arasındakı aramsız hərbi əməliyyatlardan hədsiz dərəcədə əziyyət çəkməsi ilə bağlı olmuşdur. Bu müharibələr nəticəsində şəhər və kəndlər dağıdılır və talan olunur, əhali öz yaşayış yerlərini buraxaraq dağlarda və meşələrdə gizlənir, əksəriyyəti isə məhv edilirdi. Bütün bu amillər nəticəsində Abaqa xanın hakimiyyət dövründən Qazan xanın islahatlarına qədər Şimali Azərbaycan

vilayətlərinin təsərrüfat və iqtisadi həyatı güclü tənəzzülə uğramışdı.[59] Rəşidəddin Azərbaycanın bir sıra şimal və cənub şəhərlərinin, vilayətlərinin dağıdılmasının və viran edilməsinin tam mənzərəsini vermişdir.[60] Hərbi əməliyyatlar bölgəsində yerləşən Bakı da dağıntıya məruz qalmış, nəticədə ticarət və neft hasilatı tənəzzülə uğramışdı.

Məhəmməd Ölcaytunun fərmanından məqsəd, ehtimal ki, göstərilən vergiləri ləğv etməklə mühüm ticarət və iqtisadi əhəmiyyətə malik Bakı şəhəri və vilayəti əhalisinin rifahını bərpa etmək və yüksəltmək olmuşdur. Yarlıqda rəiyyətdən* alınan vergilərin ləğv olunmasından söhbət gedir. Həsənoğlunun müasiri olan Bakı şairi Nasirin (XIV əsrin əvvəli) bakılıları bir sıra vergilərdən azad edən və şəhərin abadlaşdırılması haqqında fərmanlar verən Sultan Məhəmməd Ölcaytu Xudabəndəyə ithaf etdiyi azərbaycanca müxəmməsi də qalmışdır.[61] Yəqin ki, vilayət deyildikdə Abşeron nəzərdə tutulmuşdur. Kitabədə göstərilən vergilər arasında "qopçur"un adı birinci çəkilir. Qopçur monqol ağalığının ilk vaxtlarında olduğu kimi, sonralar, Elxanilər dövründə və monqolların çinsayağı tətbiq etdikləri adambaşına vergi olaraq qalmaqda idi. Sonralar monqol termini olan qopçur dedikdə istər köçəri, istərsə də oturaq maldarlardan 1% həcmində alınan vergi nəzərdə tutulurdu.[62]

Yarlıqda adı çəkilən ikinci vergi termini rəiyyətdən yığılan can vergisi demək olan "səranə"dir. Texniki mənada "qopçur"un eyni olan bu vergi monqol istilasından sonra tətbiq edilmişdi.[63] Daha sonra adı çəkilən "neft" vergisi, ehtimal ki, neft quyularının sahiblərindən yığılırdı.[64] Şübhəsiz, monqollar Bakını tutduqda əvvəllər yerli hakimlərə məxsus olub, monqol istilasına qədər çox böyük gəlir verən neft quyuları dövlətin sərəncamına keçmişdi. Ayrı-ayrı şəxslərə məxsus neft quyuları da var idi. Qazan xanın islahatları ilə əlaqədar Abşeronda neft hasilatı bir qədər artsa da, onun ölümündən sonra, ehtimal ki, yenidən xeyli aşağı düşmüş və yarlığın verilməsinə də səbəb bu olmuşdur.

İlkin məxəzlərdən göründüyü kimi, Elxanilər hakimiyyətə gəldikdən sonra torpaqların, mədən və karxanaların böyük bir hissəsini əvvəlki sahiblərinin əllərindən alaraq, onları "incu" və "divan"ın

---

* Rəiyyət – vergi verən oturaq əhali

mülkiyyətinə qatmışdılar.[65] Ehtimal ki, eyni aqibət neft quyuları sahiblərinin də başına gəlmişdi. Elxanilər əvvəllər yerli hakimlərə məxsus neft quyularının böyük bir hissəsini ələ keçirib, onları müqatiəyə (icarəyə) vermişdilər ki, bu da icarədarların həm mədənləri, həm də quyularda işləməyə təhkim olunmuş yerli kəndliləri vəhşicəsinə istismar etməsinə səbəb olurdu.

Bu, neft mədənlərində işləyən əhalinin tamamilə dilənçi kökünə düşməsinə və ümumiyyətlə, məhsuldar qüvvələrin tənəzzülə uğramasına, nəticədə isə neft hasilatının azalmasına gətirib çıxardı. Qeyd etmək vacibdir ki, Bakı şəhərinin iqtisadiyyatının inkişafı və yüksəlişi neft yataqlarının istismarı ilə bağlı olmuşdur və orta əsr Bakısının inkişafının başlıca iqtisadi amili neft hasilatı idi. Şəhərin inkişafının spesifik cəhəti bundan ibarətdir.

Kitabədə adı çəkilən son vegi termini "ürf" şəriətdə nəzərdə tutulmayan vergilər kimi başa düşülməlidir.[66]

XI-XV əsrlərdə Bakının şəhər əhalisindən yuxarıda gətirilən kitabədə göstərilənlərdən başqa vergi və töycülərin toplanmasına dair məlumatımız yoxdur. Ehtimal ki, şəhər əhalisi, əsasən tacirlər və sənətkarlar, Azərbaycanın başqa şəhərləri üçün səciyyəvi olan digər vergilər də verirdilər. Dövlət və mülkədarlar tərəfindən əhalinin üzərinə qoyulan ən soyğunçu vergilərdən biri kəndli və şəhərlilərdən alınan "əvariz" idi. Müharibə, sarayda ailəvi şənliklərin keçirilməsi ilə əlaqədar təcili xərcləri ödəmək üçün, adətən, nağd pul şəklində toplanan əvariz monqol istilasından xeyli əvvəl də mövcud olmuşdur.[67] Monqollar dövründə şəhərlərdə ən çox yayılmış vergi bazarda istər topdansatış, istərsə də pərakəndə satış ticarəti mallarından alınan tamğa idi.[68] Əhali üçün çox ağır olan bu vergi şəhərlərdə ticarətin inkişafını ləngidirdi.

Şəhərlərdə bac deyilən yol gömrük xərci də toplanılırdı.[69] Gömrük toplanması vergi yığanların hədə-qorxu ilə artıq pul qoparmaları ilə müşayiət olunurdu. Mənbələrdə həmin verginin Bakıda toplanmasına dair məlumat var.[70]

Bundan əlavə şəhərlərdə biyar adı ilə tanınan mükəlləfiyyət də mövcud idi. Bu mükəlləfiyyətə görə rəiyyət dövlətin, feodal xeyrinə arx və kəhriz qazılmasında, onların təmizlənməsində, qala divarlarının, sarayların və s. tikilməsində məcburi surətdə işləməli idi.

Monqol istilasından xeyli əvvəl mövcud olan biyar son dərəcə ağır mükəlləfiyyət idi.[71] Yəqin ki, biyar XI–XV əsrlərdə mürəkkəb kəhriz sisteminin yarandığı və bir sıra iri qala tikililərinin inşa edildiyi Bakıda da mövcud olmuşdur.

Şəhərin ən aşağı sosial pilləsində əmək vasitələrinə və xammala malik olmayan yoxsul sənətkarlar, günəmuzd fəhlələr, qulamlar, qullar, "runud və övbaş" adlandırılan sinfi simasını itirmiş ünsürlər və i.a. dayanırdı.

XI–XV əsrlərdə şəhərlərin sosial strukturunda müharibədə ələ keçirilən əsirlərdən ibarət qullar da müəyyən yer tuturdu. XIII əsrin 20-ci illərində yazmış anonim müəllif Şirvanın mallarını sadalayarkən ilk növbədə "cariyə qızların, türk qullarının" adını çəkir.[72] 1281-ci ildə Arrana və Şirvana səyahətə çıxmış və Bakıda ölmüş şair Nizari "Arran vadilərinin" türklərlə dolu olduğunu göstərir.[73] Qulları torpaqlara təhkim edirdilər. Qul əməyindən kənd təsərrüfatında və şəhər məişətində ən ucuz işçi qüvvəsi kimi istifadə olunurdu. Qul bol olduğundan Dərbəndin məşhur qul bazarında onlar çox ucuz satılırdı.[74] Məlumdur ki, XII əsrdə Dərbənd hakiminin xoşuna gəlmiş şerinə görə Nizami Gəncəviyə hədiyyə göndərdiyi gənc qıpçaq kənizi Afaq şairin arvadı olmuşdu. Qul türk qızları gözəllikləri ilə şöhrət qazanmışdılar:

O (Şirin), mənim qıpçaq gözəlim kimi iti yerişli idi,
O, sanki mənim Afaqımın özü idi...
Ucaboylu, gözəl, ağıllı idi,
Onu mənə Dərbənd hakimi göndərmişdi.[75]

Nizami Gəncəvi Afaqın gözəlliyini və ağlını belə vəsf edirdi.

Qullar şəhərlərin və kənd yerlərinin ən məzlum əhali zümrəsi idi. Feodaldan asılı kəndlilərlə yanaşı, qullar da şiddətli istismara məruz qalırdılar. Şirvanın şəhər əhalisinin sosial tərkibinin ən aşağı pilləsində duran bu təbəqə, şəhərlərdə baş verən sinfi hərəkatlarda və üsyanlarda, Beyləqanda olduğu kimi, fəal iştirak edirdilər.

Gətirilən materiallar Şirvanın və Bakının inkişaf etmiş feodal cəmiyyətinin mürəkkəb iyerarxiyaya malik olduğunu göstərir və onun şəhər əhalisinin, quruluş və idarəsinin sosial strukturunu açıqlayır.

4. XI-XVI ƏSRLƏRDƏ ŞƏHƏR MƏDƏNİYYƏTİ. MEMARLIQ, ELM, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

a) Bakı şəhərinin xarici görünüşü

Bakının xarici görünüşünü ilk dəfə əslən bakılı olan Əbdürrəşid Bakuvi təsvir etmişdir. O, 1403-cü ildə yazmışdır: "Bakuyə: uzunluq dairəsi – 84°30′, en dairəsi – 39°30′; Xəzər dənizi sahilində, Dərbənd vilayətlərindən birində, Şirvan yaxınlığında daşdan tikilmiş şəhərdir. Onun divarlarını bir çox bürcləri basıb, məscidə yaxınlaşan dəniz suları yuyur. Ora qayalıq yerdir və evlərin çoxu qayaların üstündə tikilmişdir. Oranın havası təmizdir, qayalarda qazılmış quyulardan çıxan suyu, şirin bulaqları olduqca xoşdur. Taxıl məhsulu azdır və onun böyük hissəsini buraya Şirvandan və Muğandan gətirirlər. Burada əncir, nar, üzüm çoxdur. Bağlar uzaqdır və şəhərlilərin çoxu hər il yay vaxtı oraya gedərək bir qədər yaşayıb geri qayıdırlar.

Şəhərin son dərəcə bərkidilmiş ikiqat möhkəm daş qalası var. Onlardan biri, böyüyü dənizə yaxındır, dalğalar onu döyəcləyir. Bu, tatarların (monqolların – *S.A.*) qalib gələ bilmədikləri qaladır. İkinci qala birincidən yuxarıdadır. Onun başı bir tərəfdən mancanaqla dağıdılmışdır.

Bu şəhərin xüsusiyyəti odur ki, burada gecə-gündüz külək əsir, belə ki, bəzən güclü küləkdə insan küləyə əks səmtdə hərəkət edə bilmir. Qış vaxtı isə atlar və qoyunlar torpağın üstündə dayana bilmir. Hətta, külək onları vurub dənizə atır... Şəhərin yaxınlığında hər birinin qalın divarları möhkəmləndirilmiş içqalası olan çoxlu kənd var".[1]

Bakı qalası körfəzin sahilində, ətəklərində qurunun iki tərəfindən möhkəm daş-divarlarla əhatələnmiş köhnə şəhər yerləşən alçaq təpədə idi.[2]

Cənub, yəni, dəniz tərəfdən bir divar var idi. Qurudan isə qala deyildiyi kimi, təhlükə vaxtı bulaqlardan qalaya doğru üç istiqamətdə gələn yeraltı su kəmərləri ilə doldurulan geniş və dərin xəndəklə müdafiə olunurdu. Bu yaxınlarda şimal şəhər divarındakı yarımbürclərdən birinin uçması nəticəsində aşkar olunmuş böyük daş üzərindəki dövrümüzədək tam halda gəlib çatmamış üçsətirlik

kitabədə Bakının şəhər divarının şirvanşah III Mənuçöhr tərəfindən (hakimiyyət illəri 1120-1160) tikildiyi xəbər verilir.[3]

امر بينا مور المدينة الملك المظم العالم العادل المظرالمنصور المجاهد فخر الدين والدوله عماد الاسلام والمسلمين خاقان الاكبر شيروانشاه الكبير ابولهجا منوچهر ابن...

"(Bu) şəhər divarını tikməyi əl-mələk əl-Müəzzəm, əl-alim, əl-adil, əl-müzəffər, əl-mənsur, əl-mücahid, fəxr əd-din və-d-dövlə, imad əl-islam və-l-müslimin, xaqan əl-əkbər, şirvanşah əl-kəbir Əbü-l-hüca Mənuçöhr ibn... əmr etdi".[4]

III Mənuçöhrün XII əsrin birinci yarısında şəhər divarını çəkdirməsi haqqında kitabənin məlumatı Şirvanşahlar dövlətinin güclənməsi ilə əlaqədar böyük fortifikasiya işlərinin aparıldığından xəbər verir.[5] Ehtimal ki, feodal şəhərinin təşəkkül tapdığı dövrlərdə bu divardan daha qabaqlar ucaldılan divarlar da olmuşdur*; həmin divar dəfələrlə bərpa edilmişdir.

Abşerondakı istehkamlar sistemini nəzərdən keçirdikdə görərik ki, müdafiə bürcləri təkcə Abşeron yarımadasının şimal (Şüvəlan, Mərdəkan, Şağan, Buzovna, Bilgəh, Nardaran, Kalagah kəndlərində), şimal-şərq (Qala kəndi və Pirallahı adasının qənşəri) və cənub (Hövsan kəndi) sahillərində deyil, içərilərində (Maştağa, Ramana, Keşlə, Biləcəri) və Bakının həndəvərində də[6] halqavarı şəkildə yerləşmişdilər. Akad. Qmelinin çəkdiyi şəkildə şəhərətrafı dağlardakı bürclər görünür.[7] Bu dövrdə Abşeron bir sıra xırda feodal mülklərindən ibarət idi. Yadelli düşmənlərin basqınlarından müdafiə əmir, sipahsalar – hərbi rəis, qoşunların ali baş komandanı başçılıq edirdi. O, Abşeron əhalisini, ehtimal ki, hətta öz iş heyvanları ilə birlikdə qala və digər istehkamların tikintisində işləməyə məcbur edirdi. Bu istehkamlar əmirə, sipahsalara yadelli işğalçılar və yerli feodallarla mübarizə aparmaqda və ondan asılı olan əhalini itaətdə saxlamaq üçün lazım idi.[8]

---

* 1927-ci ildə kanalizasiya işləri aparılarkən Qız qalası rayonunda 2,75 m. dərinlikdə qaladan dənizə tərəf uzanan divar qalığı aşkar edilmişdir. Buxtada su altında qalmış binanın yaxınlığında da divar qalıqları nəzərə çarpır. XVII əsrdə Bakıya gəlmiş E.Kempferin çəkdiyi şəkildə buxtadakı qərq olmuş bina istiqamətində dənizə doğru uzanan bürc və divarların qalıqları görünür. Ehtimal ki, onlar Bakı şəhərinin qədim istehkam sistemində müəyyən rol oynayan divarlar olmuşur.

Abşeron və Bakıdakı müdafiə istehkamları Şirvanın Dərbənddən başlayaraq sahil boyunca Bakıya qədər gəlib çatan qədim maneələr sisteminin davamı idi. Bu sistem şimaldan, cənubdan və dəniz tərəfdən gələn düşmənlərin hücumlarını dəf etmək üçün zəruri idi. Bu dövrdə (XI-XII əsrlər və sonralar – XIII-XIV əsrlərdə) ayrı-ayrı içqalalar (Qız qalası) buxtadakı istehkam, şimal qala divarının yaxınlığındakı və dövrümüzədək gəlib çatmamış başqa içqalalar* qrupundan ibarət olmuşdur. Bu içqalalara xidmət binaları ilə birlikdə qəsrdən kənar saray, məscid və onları əhatə edən rabad daxil idi.[9] İkiqat qala divarı və xəndəklə əhatə olunmuş rabadda sənətkarlar və tacirlər yaşayırdı. Bakı yüksəkliyinin zirvəsi içqaladan, kremldən ibarət olub, ehtimal ki, üçüncü qala divarı ilə əhatə edilmişdi.

XIV əsrin sonu-XV əsrin əvvəllərində Bakıda qalanın əhalisini su ilə təchiz edən su kəməri və kəhriz sistemi mövcud olmuşdur.

1953-cü ildə Bakıda Lermontov və B.Sərdarov küçələrinin tinində tikinti işləri aparılarkən şimal-qərbdən cənub-şərqə doğru İçərişəhər istiqamətində su kəməri aşkar edilmişdir. Su bu kəmərlə şəhərin dağlıq hissəsindəki ("Çəmbərəkənd") kəhrizlərdən gəlirdi.[10] Şəhərin yuxarı hissəsində (Niyazi küçəsi) son vaxtlaradək qədim ovdan var idi. Şah su kəməri adlanan bu xətlə su Bakı Sovetinin binası yaxınlığında qalaya daxil olaraq, şəhərin indi Şirvanşahlar sarayının yerləşdiyi ərazidə yaşayan hissəsini su ilə təmin edirdi.[11]

1958-ci ildə bu rayonda torpaq işləri aparılarkən qala divarının yaxınlığında on metr dərinlikdə yonulmuş dördkünc daşlardan çəkilmiş qədim su kəməri aşkara çıxarılmışdır. Daşın iç tərəfdən eni 14 sm, hündürlüyü 20 sm-dir. Üzərində kufi xətlə yazılmış kitabə olan daş həmin su kəmərinin XI-XII əsrlərə aid etməyə imkan verir. 1959-cu ildə bu yerin yaxınlığında, qala bürclərindən birinin altında açıldığı yerdə uzunluğu 45 metrdən çox, hündürlüyü isə 1 metrə yaxın olan yeraltı lağım aşkar edilmişdir. Lağımın qur-

---

* 1932-1934 və 1938-1939-cu illərdə Şirvanşahlar sarayının bərpası ilə əlaqədar aparılmış arxeoloji işlər nəticəsində sarayın tutduğu ərazidə, daha doğrusu, onun bünövrəsinin altında Şirvanşahlar sarayına qədərki daha erkən bir bina bünövrəsinin izlərinin qaldığı aşkar olunmuşdur. Sarayın divarları tərəfindən üstü örtülmüş hörgü izləri qalmışdır (1-ci mərtəbə, otaq №4, 12, 20).

taracağında çatma tağtavanlı kamera var idi. Qurğu bütünlüklə əhəngdaşından hörülmüşdü. Kameranın dərinliyi yer səthindən 8,9 m idi. Aşkar edilmiş yeraltı lağım qalanı su ilə təchiz edən kəhrizlərdən birinin tərkib hissəsi, kamera isə, bir növ sudurulducu hovuz olmuşdur*.

1953-cü ildə yeni evin tikintisi üçün bünövrə yeri qazılarkən yer səthində 8 m dərinlikdə qədim qala divarından 400-500 m şərqə doğru (Hüsü Hacıyev küçəsi) kəhriz aşkar olunmuşdur.[12]

Kəhriz sisteminin baş lağımı düz xətlə şəhərin yuxarı hissəsi səmtində davam edirdi. Bu su kəməri Şamaxı darvazası rayonunda qalaya daxil olaraq, şəhərin şərq hissəsinin suya ehtiyacını ödəyirdi.[13] 1955-ci ildə yer çökməsi nəticəsində üç yerdə kəhriz quyusu aşkar edilmişdir. Quyuların hər üçü xeyli dərin – təqribən 12-13 m idi. Onların hamısında su var idi və diblərində yeraltı kanalların deşiyi görünürdü. Şübhəsiz, ilk iki quyu Hüsü Hacıyev küçəsindəki kəhriz sisteminin baş lağımının davamı olmuşdur. Üçüncü quyu isə yerinə görə, ehtimal ki, kəhrizin ayrıca qolu imiş.

Mənbəyini indiki Mərkəzi mədəniyyət istirahət parkı rayonundakı iki bulaqdan götürən üçüncü su kəməri xətti də olmuşdur. O, qalaya indiki filarmoniya binasının yaxınlığında daxil olur və əsasən qədim şəhərin qərb və cənub hissələrinə xidmət edirdi.[14]

Şəhər ərazisində aşkar edilən kəhriz sistemi üç əsas su kəməri vasitəsilə şirin bulaq suyu ilə təmin edilən və XIV əsrin sonu-XV əsrin əvvəlində fundamental və mürəkkəb kəhriz sisteminə malik feodal Bakısının su təchizatı haqqında Bakuvinin məlumatını tamamlamağa imkan verir. Ehtimal ki, həmin kəhriz sistemi daha əvvəllər qurulmuşdur. Bunu yuxarıda qeyd edilən kufi kitabəli daşın tapılması da göstərir. İçərişəhərdə Bakı yüksəkliyinin şimal təbəqələrində arxeoloji qazıntılar aparılarkən yuxarı təbəqənin (XIV-XVII əsrlər) məişət obyektləri arasında iriölçülü düzbucaqlı daş lövhələrdən hörülmüş, xeyli maili şəkildə qərbdən-şərqə doğru gedən yaxşı qalmış kanalizasiya xətti aşkar edilmişdir. Kanalizasiyanın örtüyü və döşənəyi də bir-birinə kip tutuşdurulmuş iri daş lövhələrdən ibarətdir. Kanalizasiyanın eni 0,6 m, dərinliyi

---

* Lağım, prof. Y.A.Paxomov, Mədəniyyət Nazirliyinin bərpa emalatxanasının və Respublika EA Memarlıq və İncəsənət İnstitutunun əməkdaşları tərəfindən nəzərdən keçirilmiş və ölçülmüşdür.

45 sm-dir. Onun qərbə doğru davamı 1977-ci ildə 12 №-li sahə işlənərkən aşkar edilmişdir. Üzə çıxarılmış kanalizasiya xəttinin öyrənilməsi orta əsr feodal şəhəri Bakının yeraltı kommunikasiyaları haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir.[15]

Bakı özünün tarixi abidələri ilə Azərbaycan şəhərləri arasında mühüm yer tutur. Baş ticarət yollarından və işğalçıların gəldiyi böyük yoldan kənarda yerləşən və yarımsəhra çöllərlə əhatə olunan Bakı bir çox orta əsr tarixi və memarlıq abidələrini qoruyub saxlamışdır. Abşerona səpələnmiş və köhnə Bakı qalasındakı çoxlu miqdarda memarlıq abidələri – qalalar, karvansaralar, məscidlər, mədrəsələr, türbələr, hamamlar, ovdanlar, qəbirdaşları və s. XI-XIII əsrlərə aiddir. Ölkə monqollar tərəfindən istila olunduqdan sonra XIII əsrin 30-cu illərindən əsrin sonunadək böyük binaların tikilməsində fasilə yaranır ki, bu da ölkənin hərbi əməliyyatlarla əlaqədar dağıldığını göstərir.

XIII əsrin sonlarında Ermənistana, Gürcüstana və Arrana səfərə çıxmış şair Nizari Kuhistani "Səyahətnamə"sində 1281-ci ilin yanvar ayında olduğu Bakının adını çəkir. O, karvanla Göycə şəhərindən Arrana yola düşmüşdür. Saray şəhərindən Bakıya gələrkən yol on gün Arran hakimi Menqu-Timurun* üstünə gedən monqol qoşunları tərəfindən tutulmuşdu. Nizari Bakıya çətinliklə gəlib çatır. Şəhər ona kiçik, səliqəsiz xoşagəlməz görünür.[16] Bakı monqolların dövründə arzuedilməz və gözdən düşmüş əyan və zadəganların sürgün yeri idi.[17] Dərbənddən tutmuş Bakıya qədər ərazinin Elxanilərlə Qızıl Orda xanları arasında hərbi əməliyyatlar meydanı olduğu XIII əsrdə şəhər monqolların dağıdıcı müharibələrindən hələ özünə gəlməmişdi.

XIV əsrin əvvəllərindən ta XVI əsrədək yenidən iri qala bürclərinin və başqa tikililərin inşası müşahidə edilir. Bu dövrdə Bakıda və Abşeronda iri müdafiə istehkamlarının (Bakı qalasında şimal qala divarı yaxınlığındakı dördkünc bürc, Nardaran qalası, divarla əhatə olunmuş qülləli Ramana qalası və i.a.) tikintisinə başlanılır ki, bu da şəhər və vilayətin iqtisadi inkişafından xəbər verir. Lakin bu tikililərin üzərində şirvanşahların adlarına rast gəlmirik. Bunun əvəzində daş kitabələrdə əmir, sədr əl-əzəm, hacib və s. titul və

,

*Menqu-Timur – Abaqa xanın kiçik qardaşı olub, dəfələrlə şimaldan, Dərbənd qapısından keçərək Cənubi Qafqaza soxulan Qızıl Orda xanlarına qarşı çıxmışdır.

rütbəli adlar həkk olunmuşdur. Bu fakt Elxanilərin vassalı olan Şirvanşahların asılı vəziyyətdə olduğunu göstərir.

Bakı şəhərinin qala hissəsində XI əsrdən qabaqkı yerüstü memarlıq abidələri qalmamışdır. VIII əsrə və ondan əvvəlki dövrlərə aid müxtəlif tikililərin qalıqları şəhərin daha qədim hissəsinin – Bakı yüksəkliyinin zirvəsi altında qalmışdır.

Arxeoloji işlər nəticəsində müəyyən edilmiş[18] Bakı yüksəkliyinin zirvəsi hələ VIII–XIII əsrlərdə sıx tikilmiş və ehtimal ki, qala divarları ilə əhatə edilən kreml olmuşdur. Burada böyük tikililərin divar izləri, ev bünövrələri, həyətlər, təndirlər, quyular qalmışdır. Tapılmış tikinti tullantılarına və qır qalıqlarına əsasən o vaxtlar evlərin damlarının qırla örtüldüyünü fərz etmək olar.[19] Bu zaman şəhərin ərazisi dənizə qədər uzanırdı. Bakı yüksəkliyinin Qız qalasına və Məhəmməd əl-Bəkr məscidinə bilavasitə yaxın olan aşağı, dənizkənarı hissəsi – XIV əsrlərdə abadlaşdırılmış və şəhərin qədim hissələrindən biri olmuşdur.[20] Ayrı-ayrı dövrlərdə, təqribən XIII əsrin sonunda və XIV əsrdə şəhərin cənub hissəsinin hüdudları dənizin səviyyəsinin qalxıb-düşməsi ilə əlaqədar dəyişmişdir. Bəzən şəhərin dənizqırağı hissəsini su basır, su Qız qalasına qədər gəlib çıxır, çəkilmədən sonra isə yaxın zamanlara qədərki buxtanın dibi şəhərin ərazisinə çevrilirdi. Bu, Qız qalası yaxınlığındakı meydançada yeni bina üçün bünövrə yeri qazılarkən suda hamarlanmış keramika və dəniz qumu təbəqəsinin aşkar edilməsi nəticəsində aydın olmuşdur.[21] Qala divarlarından bayırda, onun qərb və şimal hissələrində aparılan tikinti işləri zamanı qala divarlarının xaricində sənətkarlıq emalatxanalarının yerləşdiyi aşkara çıxarılmışdır. Qala divarlarının şimal-qərb hissəsində islamaqədərki qəbirlər aşkar edilmiş qədim müsəlman qəbiristanlığı, XII–XIV[22] və daha sonrakı əsrlərə aid qəbiristanlıqlar yerləşirdi.

Bakı və Abşeronun memarlıq abidələrini tikinti materialına, əla yonulmuş ağ və sarıya çalan xırda dənəvər yerli Badamdar əhəngdaşına, ciddi və lakonik formalı bədii-memarlıq üslubuna görə "Şirvan-Abşeron abidələri" qrupunda birləşdirmək olar.

Bakının İçərişəhər hissəsindəki tarixi məlum olan XI əsrə aid ən erkən abidə xalq arasında Sınıqqala adı ilə tanınan* Məhəmməd

---

* Şəhər 1723-cü ildə general Matyuşkin tərəfindən topa tutularkən minarəsinin üst qatı zədələndiyi üçün belə adlanırdı.

ibn Əbubəkr məscididir. Məscid indiki dəniz sahilinin yaxınlığında, İçərişəhərin cənub-qərb hissəsində yerləşib, çatma tağlı, mehriban olan düzbucaqlı otaqdan ibarətdir. Məscidin şimal divarında, giriş qapısından solda qoyulmuş kiçik dördkünc daş lövhə üzərində yarımkufi xətlə ərəbcə aşağıdakı məzmunda dördsətirlik kitabə həkk olunmuşdur.

بسم‌لله الرحمن الرحيم. هذا عمارة المسجد ما امر الاستاد الرئيس
محمد بن ابوبكر بتاريخ سنة احد و سبعين و اربع هائة

"Bismillahir rəhmanir rəhim! Bu məscid binasını (tikməyi) ustad, rəis Məhəmməd ibn Əbubəkr əmr etdi. Dörd yüz yetmiş birinci il" (h.471 (1078/79)-ci il).[23] Bu tarix şirvanşah I Fəribürzün hakimiyyət illərinə təsadüf edir. Qərbə doğru məscidin lap yanında divarının qalınlığı və iriliyi ilə Bakı və Abşeronun digər minarələrindən fərqlənən 12 m hündürlüyündə minarə vardır. Bu minarə formaca qala bürcünü xatırladır. Minarənin yuxarı şərəfəsinin həndəsi naxışlarla bəzədilmiş tava daşlarından məhəccəri,[24] ondan aşağıda iri stalaktitlərdən qurşağı var. Qurşağın altında isə minarənin dövrəsi boyunca kufi xətlə Quran ayələri (17-ci surə, 81-82-ci ayələr) ibarət nəfis kitabə həkk olunmuşdur.

Ehtimal ki, bu məscidi tikən, yuxarıda göstərdiyimiz kimi, sənətkarlıq sexinin rəisi olmuşdur. Bu tikili xarakteri etibarilə yaşayış məskəni deyil, inkişaf etmiş feodal şəhəri abidələrinə məxsusdur.

İçərişəhərdə Qız qalasının yaxınlığında Bəzzaz məscidi adlanan kiçik bir məscid (görünür, bu məhəllədə bəzzaz dükanları olmuşdur), onun divarında isə zaman keçdikcə yağış, yağmurdan xeyli zədələnmiş və oxunulmaz hala düşmüş kufi xətli bir kitabə var.[25]

Qalanın cənub-qərb hissəsində, Qız qalasının yaxınlığındakı XII əsr abidəsi – Ləzgi məscidi dövrümüzədək yaxşı qalmışdır. O, Gilək məscidi istisna olmaqla, bütün başqa məscidlər kimi planda çatma tağtavanla örtülmüş uzunsov dördkünc otaqdan ibarət olub, minarəsizdir. Yaxşı yonulmuş daşlardan tikilmiş bu məscid Abşeron tipli yaşayış otağını xatırladır.[26] Məscidin içərisində, mehrabın üstündə h.567 (1171/72)-ci il və bədii oyma ustasının adı – ustad nəccar Aşur ibn İbrahim Bakuyi – yazılmış bir kitabə var.[27]

İçərişəhərin cənub-şərq hissəsində Qız qalası[28] adlanan 28 m hündürlüyündə nəhəng daş silindri andıran qeyri-adi formalı bir

abidə ucalır. Divarların qalınlığı qalanın gövdəsində 5 metrə, 8-ci mərtəbəsində isə 4 metrə çatır. Qalanın onu 8 mərtəbəyə bölən 8 günbəzli tağı olmuşdur. Qala dənizə doğru sallanan nəhəng sahil qayasının çıxıntısı üzərində tikilmişdir. Şərq tərəfində, demək olar ki, onun başınadək ucalan kontrforsa (dayaqdivar) bənzər nəhəng çıxıntı var.[29] Görünür o, qalanı möhkəmləndirməyə və müdafiə vaxtı hərbi əməliyyat meydanını genişləndirməyə xidmət edirmiş.

Cənub-şərqdən bayır tərəfdə kontrforsu əhatə edən yarımbürclər qalmışdır. Bu qalanı hörgü üsullarının fərqinə görə iki hissəyə bölmək olar: hamar hörgülü aşağı hissə və arası zaman keçdikcə ovulub tökülmüş əhəng suvaqla doldurulmuş daşların növbə ilə batıq və çıxıntı şəklində hörüldüyü yuxarı hissə. Hər mərtəbədə işıq düşməsi və ehtimal ki, dənizə tərəf atəş açmaq üçün mazğal tipli bir pəncərə var.

İkinci mərtəbədən başlayaraq hər mərtəbədə taxça var. Giriş qapısının üstündə qalanın bütün hündürlüyü boyu divarın arasında saxsı boru hörülmüşdür. Bəzi tədqiqatçılar həmin taxçaları və saxsı borunu qalanın kanalizasiyası ilə bağlayırlar.[30] Qalanın içərisində divarın cənub tərəfində su quyusu var. Qalanın cənub-qərb tərəfində, yerdən təqribən 14 m hündürlükdə kitabə həkk olunmuşdur. Kufi xətlə yazılmış dörd sözdən ibarət ikisətirlik bu müxtəsər kitabə belə oxunur:

"Məsud bin Davud qübbəsi".[31]

Kitabədə tarix göstərilməməsi və qalanı tikdirmiş feodalın adının çəkilməməsi Qız qalasındakı kitabənin sifarişçi şəxsə deyil, onu tikən memara, Mərdəkandakı dairəvi qalanı tikmiş memarın atası – XII əsrin ikinci yarısında yaşamış Məsud ibn Davuda məxsus olduğunu hesab etməyə əsas vermişdir.[32] Çox ehtimal ki, Qız qalası dördkünc Mərdəkan qalasından və başqa yerlərdə olduğu kimi, üzərində onun şirvanşah, yaxud başqa bir feodal tərəfindən tikildiyi göstərilən kitabə olan qala divarı ilə əhatə olunubmuş. Qız qalasının yaxınlığında qazıntı aparılarkən qala divarının qalıqları aşkar edilmişdir. Kitabənin tipik formalı kufi xətti onu XI-XII əsrlərə aid etməyə imkan verir.[33]

Qız qalası ilə bağlı bir sıra əfsanələr var.[34]

Bu əfsanələrdən ən çox yayılanı Y.A.Paxomovun söylədiyi əfsanədir: "Bir şah öz qızına evlənmək istəyir. Atasının arzusuna tabe

olmaq istəməyən qız onun üçün qala tikdirməsini şərt qoyur. Qala tikilib qurtardıqdan sonra, bir varianta görə (İ.Berezin, Səyahətnamə, c.I, s.225) qız oraya sığınır, başqa bir varianta (S.Q.Qmelin, Səyahətnamə, c.III, s.80) görə isə özünü qalanın başından dənizə atır. Konstruksiya sadəliyi, təfərrüatın və müsəlmanlıq ünsürlərinin olmaması Bakı qalası haqqındakı bu əfsanəni qədim keçmişlərə aid etməyə imkan verir".[35]

Əfsanədə əksini tapmış nikah növü Sasanilər dövründə müqəddəs adət kimi mövcud olmuşdur. Məlumdur ki, II Yəzdigərd (439-457-ci illər) mağların təkidi ilə Ermənistana, Gürcüstana, Albaniyaya və digər əyalətlərə məzdəizmi məcburi surətdə öyrənmək barədə fərman, "ataların qızlarına, qardaşların bacılarına evlənmələri" haqda əmr göndərmişdi.[36]

Qız qalası adlı qalalar təkcə Azərbaycanda və İranda deyil, Yaxın Şərqin bir sıra ölkələrində də vardır. İran tədqiqatçısı Bastaniyə Pərizi həmin Qız qalalarını su və məhsuldarlıq ilahəsi Anahidə (Nahidə) qədim sitayişlə əlaqələndirir. Məlum olduğu kimi, Avestada hər birinin allahı olan su, hava, od və torpaq müqəddəs ünsürlər sayılır. Nahid Avestada müqəddəs çayın adıdır. Anahidə sitayiş xüsusilə Sasanilər dövründə İranda və Cənubi Qafqazda geniş yayılmışdı. Anahidin şərəfinə böyük sərvət toplanan məbədlər tikilirdi. Onların bəzilərində bu ilahənin qızıl heykəlciyi qoyulurdu. Məbədlərdəki sərvətləri qorumaq üçün onlar tədriclə möhkəmləndirilərək qala görkəmi alır və Anahidin şərəfinə Qız qalası adlandırılırdı. İslamiyyət dövründə bu qala-məbədlər əvvəlki əhəmiyyətlərini itirdilər və orta əsrlərdə müdafiə istehkamlarına çevrildilər.[37]

Tədqiqatçıların bir qismi isə Qız qalası adını quz və ya oğuz tayfalarının adı ilə bağlayır, yaxud onun mənasını alınmaz, yenilməz qala kimi yozurlar.[38] Biz "Orta əsr Bakısının tarixi oçerkləri" kitabında və sonralar bir məqaləmizdə Qız qalasının ibadətgah xarakteri daşıması və Bakıda yayılmış əfsanələrlə, ehtimal ki, Sasanilər və Zərdüştilik dininin Abşeronda intişarı dövrünə aid bu qalanın meydana gəlməsi arasında şəksiz əlaqə olmasına dair fərziyyə irəli sürmüşdük. XI-XII əsrlərdə qala ya bərpa edilmiş, yaxud dəyişdirilərək, hərbi əməliyyatlar vaxtı ailələri ilə birlikdə yerli feodalların və qarnizonun sığındığı müdafiə təyinatlı feodal qalasına çevrilmişdir. Lakin arxeoloqlardan O.Ş.İsmizadə və H.Ə.Ciddinin

sonralar qalada apardıqları tədqiqatlar və yazılı mənbələrin öyrənilməsi onun dini sitayiş abidəsi olmasına dair baxışı yenidən gözdən keçirməyə vadar etdi.

XII əsrin sonu feodal Bakısının çiçəklənmə dövrü idi. Şirvanşahlar şəhərdə bir sıra yaraşıqlı binalar tikdirir və onu möhkəmləndirirdilər. Şirvanşahların onlarla gəmidən ibarət olan güclü donanması var idi. Şirvanşah I Axsitan təqribən 1175-ci ildə gürcü hökmdarı III Georginin köməyindən istifadə edərək, Bakı yaxınlığında rusların 73 gəmidən ibarət donanmasını məğlub etmiş və xəzərlərin işğal etdikləri Şəbəranı və Dərbəndi geri almışdı.[39] Ruslar Şirvandan qovulmuşdu. Bu dövrdə Bakının Şirvanın varlı şəhərlərindən biri və Xəzər dənizində mühüm liman kimi əhəmiyyəti daha da artır. Xaqaninin (XII əsr) Şirvanşah Axsitan ibn Mənuçöhrü mədh edən məşhur qəsidəsində Bakının alınmaz qala kimi əhəmiyyəti qeyd olunur:

Bakı duasını unutmaz bir an,
Olub sayəsində Bəstam, Xavəran.[40]

Xaqani qəsidənin ilk iki misrasında Bakıdan yenilməz qala və Şərqin ən mühüm şəhərlərindən biri kimi danışaraq, onu Xorasanın çox möhkəmləndirilmiş şəhəri Bastamla müqayisə edir. Görünür, burada Axsitanın tikdirdiyi, yaxud bərpa etdirdiyi Qız qalasından söhbət gedir. Düşmənin dəniz tərəfdən hücum təhlükəsi şirvanşahı dəniz sahilində müdafiə qalası tikməyə vadar etmişdi. Məlumdur ki, XII əsrdə şirvanşahlar Bakıda müdafiə xarakterli iri istehkamlar və köhnə Bakının qala divarlarını tikdirmişdilər. Ehtimal ki, Qız qalası bu vaxtlar şəhərin müdafiə sisteminə daxil olmuşdur. Qız qalasının təyinatına dair bir sıra fərziyyələr vardır. C.Aleksandroviç-Nasıfi[41] və Y.A.Paxomov[42] Qız qalasını XII əsrin müdafiə qalası hesab edirdilər. D.Axundov onu Böyük Mitranın, yaxud qədim Azuraməzdanın yeddi mehrablı səkkiz mərtəbəli qala-məbədi sayır və e.ə. VIII-VII əsrlərə aid edir.[43] M.Nəbiyevin fikrincə, Qız qalası Zərdüşti daxması,[44] yəni, damında çalağanların didib parçalaması üçün ölülərin qoyulduğu qüllədir. Q.Əhmədov isə qalanı rəsədxana hesab edir.[45] Qız qalası divarlarının aşağı hissədə 5 m, yuxarıda isə 4 metr qalınlığında olması, çox böyük hündürlüyü sonuncu üç tədqiqatçının fikrini təkzib edir. Çünki nə od məbədi, nə daxma, nə də rəsədxana

üçün bu qalınlığında və hündürlükdə divarlara ehtiyac yoxdur. Bundan əlavə, IX-X və sonrakı əsrlərə aid nə ərəb, nə də fars mənbələrində Bakıda od məbədi, daxma, yaxud rəsədxana təyinatlı abidənin adı çəkilmir. Qaladakı kitabə XII əsrə aiddir. Belə qənaətə gəlmək olar ki, Qız qalası istər dəniz, istərsə də quru tərəfdən müdafiə qalası olmuş, hərbi əməliyyatlar zamanı şirvanşah ailəsi və feodallarla birlikdə buraya sığınmış və müdafiə qalanın başında qurulmuşdur. Qız qalasını, yəqin ki, ilk dəfə 1403-cü ildə əslən bakılı olan Əbdürrəşid əl-Bakuvi xatırlatmışdır. O yazırdı ki, Bakıda son dərəcə möhkəmləndirilmiş iki sarsılmaz daş qala var. Onlardan böyüyü dənizin yaxınlığındadır və dalğalar onun divarlarına çırpılır. Ehtimal ki, bu, Bakı buxtasındakı monqolların ala bilmədikləri Sabayıl qalasıdır. Bakuvi ikinci, daha hündür qala haqqında məlumat verirdi ki, monqollar şəhəri mühasirəyə alarkən onun bir tərəfi mancanaqla dağıdılmışdır.[46] Bu məlumatı Qız qalasına aid etmək olar. Qala dənizin qırağındakı sıldırım qayanın üstündə salınmışdı və ehtimal ki, 1403-cü ildə dəniz bu alınmaz qalanın divarlarına çatırdı.

1924-cü ildə qalanın yaxınlığında aparılan kiçik qazıntı işləri zamanı onun həndəvərində çatma tağtavanla örtülmüş bir neçə yeraltı otaq aşkar edilmişdir. Bəzi otaqların divarlarında müxtəlif taxçalar var idi.[47] Ehtimal ki, onlar qədim Bakının Qız qalasının həndəvərindəki məhəllələrindən birinin qala tikilərkən, yaxud bu ərazidə hərbi əməliyyat zamanı uçulub dağılan və torpaqla örtülən evlərindən olmuşdur.

1962-1964-cü illərdə Qız qalasının ətrafında aparılan arxeoloji işlər nəticəsində içərisində çoxlu miqdarda şüşə, çıraq, rəngli çini, saxsı qab və s. əşya qırıqları olan bir sıra təsərrüfat çalaları və quyuları aşkara çıxarılmışdır. Arxaik səciyyə daşıyan orijinal formalı tunc balıq fiquru diqqətəlayiqdir.[48]

Qala yaxınlığında qazıntı aparılarkən onunla bağlı olub bir-biri ilə yeraltı lağımla birləşdirilmiş bir neçə dayaz susuz quyu da tapılmışdır. Onlardan yalnız maye tullantılarını qaladan kənara çıxarmaq üçün istifadə edilə bilərdi.[49]

Qız qalasının diqqətlə nəzərdən keçirilməsi onun baş hissəsinin bərpa edildiyini göstərir. Hal-hazırda qalanın başında maşikullar yoxdur, lakin XII əsrdə onlar, şübhəsiz, mövcud olmuşdur. Ehtimal ki, qalanın başı onun mövcud olduğu müddət ərzində dəfələrlə uçulub dağılmış və dəyişdirilmişdir.

Yaşca ən qədim olan bu əzəmətli qüllə həcm etibarı ilə də Abşeronun bütün qüllələrindən böyük olub, XII əsrdə qala içərisində ən möhtəşəm müdafiə istehkamı, Bakı və ətraf ərazilərin müdafiə istehkamları sistemində baş içqala idi.

XII əsrdə Şirvanşahların onlarla gəmidən ibarət güclü dəniz donanması var idi və Bakı Şirvanın mühüm feodal şəhərlərindən biri idi. Onun müdafiəsi dövlət əhəmiyyətli tədbirlərdən idi.

Qız qalasının şimal tərəfində qazıntı zamanı Şah Abbas darvazasına doğru uzanan və burada dövrümüzədək gəlib çatmış qala divarları ilə birləşən divar və yarımbürc qalıqları nəzərə çarpır. Qız qalasının şərq tərəfində kontrforsa bitişən divar dəniz səmtində cənuba doğru davam edərək Bakı buxtasındakı qala tipli imarətə qədər uzanırdı.[50]

İçərişəhərin şimal hissəsində, qala divarlarının və Şah Abbas darvazasının yaxınlığında yeraltı bina aşkar edilmişdir. Arxeoloq C.Xəlilovun apardığı tədqiqat nəticəsində günbəzlə örtülmüş bir neçə kiçik, habelə bir böyük otaq və digər binaların qalıqları üzə çıxarılmışdır. Lakin bu abidənin öyrənilməsinə dair işlər tamamlanmamış və həmin qədim binaların nə məqsədlə istifadə olunması aydınlaşdırılmamış qalmışdır. Prof. Y.A.Paxomovun fərziyyəsinə görə bu bina XI-XII əsr Şirvanşahlarının hakimiyyət dövrünə aid qədim hamam ola bilərdi.

Azərbaycanda feodalizmin inkişafının kulminasiya dövrü Bakı şəhərinin zahiri görünüşündə də özünü göstərir. Sınıqqala məscidi, Ləzgi məscidi, Qız qalası, şəhərin qala divarları və ehtimal ki, Şirvanşahlar sarayının yerindəki içqala və s. mühüm tikililər XI-XII əsrlər dövrünə aiddir. İçərişəhərdə aparılan qazıntılar zamanı Abşeron üçün səciyyəvi olan yastı damlı, taxçalı, müxtəlif təsərrüfat ehtiyacları üçün quyular olan həyətli şəhər evi tipi aşkar edilmişdir. Bütün bu tikililər şəhər həyatının və onun iqtisadiyyatının inkişaf etdiyini göstərir.

Bakının şəhərsalma strukturunun təşəkkül prosesinin davamı XIII-XIV əsrlərdə də izlənilir. Bu dövrdə şəhərin mərkəzi Qız qalasının ətrafı idi. Orta əsrin ən maraqlı memarlıq abidələrindən biri, uzun əsrlər boyu Bakı buxtasında su altında qalmış və keçən əsrin əvvəlində üzə çıxmış "Sualtı karvansara" deyilən bina da şəhərin ərazisinə daxil idi. Yerli əhali onu "bayıl daşları", yaxud "Səbayıl

şəhəri"də adlandırırdı. Göründüyü kimi, o, XII əsrin sonlarında, Xəzərin səviyyəsi aşağı və buxtanın ərazisi quru olarkən tikilmişdir.

Ehtimal ki, həmin imarət XIV əsrin əvvəllərində (1306-cı il) baş verən və sahilin bir hissəsinin çökməsinə, Xəzər dənizinin səviyyəsinin xeyli qalxmasına səbəb olan güclü zəlzələ nəticəsində su altında qalmışdır. Bakı yaxınlığındakı suya qərq olmuş Səbayıl şəhəri haqqında əfsanə və rəvayətlərdə bu fəlakətin mümkün ola bilən faktı əksini tapmışdır. Bakı buxtasındakı həmin sualtı imarətin adını bu diyarda olmuş bir sıra səyyahların, onun haqqında məlumatları dənizin bu və ya digər vaxtlarda səviyyəsinin dəyişilməsinin göstəricisi kimi toplayan tədqiqatçıların əsərlərində tapırıq. Lakin həmin tədqiqatçılardan heç biri onun nə vaxt və hansı məqsədlə tikildiyini müəyyənləşdirə bilməmişdir.

1946 və 1962-ci illərdə aparılan arxeoloji tədqiqatlar sayəsində müəyyən edilmişdir ki, şirvanşah III Fəribürzün hakimiyyəti illərində Bakı buxtasında qala tipli imarət tikilmiş, yaxud bərpa edilmişdi.[51] Onun divarında tapılmış kitabədəki h.632 (1234/5)-ci il tarixi tikintinin başa çatdığı vaxtı göstərir və ölkənin monqollar tərəfindən istila olunduğu dövrə uyğun gəlir. Şərq müəlliflərinin məlumatına görə, monqollar əhalisi işğalçılara inadlı müqavimət göstərən Bakını uzun müddət ala bilməmişlər.[52] Bakı mühasirəyə alınarkən buxtadakı istehkam mövcud olmuşdurmu, yoxsa, o, monqollar şəhəri alandan sonra tikilmişdir? Bu barədə hələlik dəqiq məlumat yoxdur. Ehtimal ki, istehkam monqollar gələnədək mövcud olmuş və mühasirə zamanı işğalçılar tərəfindən divardeşən qurğularla qismən dağıdılmışdır. Sonralar, XIV əsrdə dənizin səviyyəsinin qalxması[53] və adı çəkilən istehkamın su altında qalması nəticəsində tamamilə uçulub-dağılmış və dövrümüzə indiki halda gəlib çatmışdır

Əbdürrəşid Bakuvi 1403-cü ildə yazırdı: "Bakuyə... daşdan tikilmiş şəhərdir... Onun divarları bir çox qala bürclərini basmış və (Cümə) məscidinə yaxınlaşan dəniz suları yuyur..."[54]

Bakuvinin təsvirindən görünür ki, o vaxt dənizin səviyyəsi yüksək olmuş, Xəzərin suları, ehtimal ki, sahilləri basaraq Qız qalasının yaxınlığındakı qala divarlarına və Cümə məscidinə qədər gəlib çatmışdır. Deməli, 1403-cü ildə buxtadakı imarətin xeyli hissəsi su altında qalmışdı. Bakuvi sonra xəbər verir: "Bu şəhərdə son dərəcə möhkəmləndirilmiş iki daş qala var. Dəniz onlardan birinə, böyü-

yünə o qədər yaxınlaşmışdır ki, dalğalar onun divarlarına çırpılır. Bu, tatarların (monqolların – *S.A.*) ala bilmədikləri həmin qaladır...”[55] Dəniz dalğalarının döyəclədiyi qala haqqında məlumat, ehtimal ki, buxtadakı xarabalıqlara aiddir. Çox möhkəmləndirildiyindən monqollar onu ala bilməmişdilər. Göründüyü kimi, o, zəlzələdən xeyli dağılmış və sonra bir daha bərpa edilməmişdir.

Şərq və Qərb müəlliflərinin XVIII əsrin əvvəllərinədək bu sualtı imarət haqqında susması onun təqribən XIV əsrin əvvəllərindən XVIII əsrin əvvəllərinədək Xəzərin suları altında qalması ilə izah edilə bilər. 1925-ci ildən etibarən Xəzərin səviyyəsi kəskin surətdə aşağı düşməyə başlamış və imarət tədricən suyun altından çıxmışdır.

1683-cü ildə Bakıya gəlmiş alim və səyyah E.Kempfer şəhərin maraqlı təsvirini vermişdir. Kempferin çəkdiyi şəhərin görünüşünü əks etdirən şəkildə dənizədək uzanan qala divarlarının yaxınlığında su altından baş qaldıran, ehtimal ki, buxtadakı sualtı imarətə məxsus bir neçə bürc görmək mümkündür. Kempferin təsviri göstərir ki, o, dənizin səviyyəsinin enməyə başladığı, lakin hələlik azacıq aşağı düşdüyü həmin vaxtlar bu imarətin qalıqlarını görmüşdür.[56]

XVIII əsrin birinci çərəyindən başlayaraq tarix ədəbiyyatında qərq olmuş imarət haqqında məlumat verilir.[57]

XIX əsrdə akad. Y.Lents[58], K.Spasski-Avtonomov[59], N.Filippov[60], A.V.Voznesenski[61], A.İ.Mixalevski[62], N.V.Xanıkov[63], B.Dorn[64] və başqalarının bir sıra əsərləri meydana gəldi. Həmin əsərlərdə Bakı buxtasındakı sualtı imarətin ölçüsü, planı və xarabalıqlarının müfəssəl təsviri verilir.

Bəzi tədqiqatçılar imarəti karvansara adlandırsalar da, onu qədim zamanlarda su basmış qala, yaxud gözətçi istehkamı hesab etmişlər. Suya qərq olmuş Səbayıl şəhəri haqqında bir sıra əfsanələr qalmışdır.[65]

Xəzərin səviyyəsinin aşağı düşməsi SSRİ EA Azərbaycan Filialının Tarix İnstitutuna 1938-1940-cı illərdə bu imarəti arxeoloji cəhətdən tədqiq etməyə, abidənin tikilmə tarixini müəyyənləşdirməyə imkan verdi.[66] İnstitut arxeoloji işləri 1946-cı[67] və 1962-ci illərdə davam etdirmişdir.

Yüksək təpədə – buxtanın içərisindəki balaca adacıqda qala şəklində tikilmiş bu abidənin uzunluğu təqribən 180, eni isə 40 metrdir.[68]

Bürclər (15 sayda) divarla birləşdirilmiş və divarın yuxarı hissəsi ərəb hürufatı ilə yazılmış kitabə zolağı ilə əhatələnmişdir. Üzərində kitabə olan belə daşlardan hər birinin uzunluğu təqribən 70 sm-ə, eni 25-dən 50 sm-ə, qalınlığı 15-25 sm-ə çatırdı.

Kitabələrdən başqa, daşların bəzilərində insan başları (çox vaxt taclı) anfasdan qabartma təsvir olunmuşdur. Bəzi təsvirlər qaçan heyvanlara – camışa, öküzə, qoyuna oxşayır. Şir, it, dəvə və i.a. başlarının təsvirlərinə də rast gəlinir. Ən maraqlı tapıntı üzərində təbii ölçüdə iki at barelyefinin hissələri olan iki daş idi. Arxeoloji iş aparıldığı bütün müddət ərzində suyun altından üzərində kitabə olan 636 daş tapılıb çıxarılmışdır. İki daşın üzərində ərəb hürufatı ilə "Usta Zeynəddin ibn Əbu Rəşid Şirvaninin işidir" sözləri həkk olunmuşdur.[69]

Qalanın tikilmə tarixinin ilk göstəricisi şirvanşah III Fəribürzün divar hörgüsündə tapılmış XIII əsrin birinci çərəyinə aid sikkəsi olmuşdur.[70] Bir qədər sonra h.63 ...tarixli kitabənin bir parçası və nəhayət, 1946-cı ildə həmin tarixin tam halda – h.632 (1234-1235)-ci il – təkrar edildiyi kitabə tapılmışdır.[71]

Kitabədə şəxs adlarından "Məhəmməd ibn Yəzid", "Xalid", "Əli", "Mənuçöhr", "Güştəsb", "Gərşəsf", "Fəribürz",[72] ləqəblərdən – "Cəlaləddin", "Camaləddin", titullardan – "sultan", "şah" və i.a. rast gəlinmişdir.[73] Bundan başqa, daşlardan birinin üzərində "Bəndər-i Baku", yəni "Bakı limanı" sözlərini oxumaq mümkündür. Ehtimal ki, insan və heyvan təsvirlərini daş üzərində həkk etmiş rəssam "Rəşid ən-Nəqqaş"ın da adı çəkilir.

Kitabə "bismillah" sözü ilə başlayır, sonra imarətin hakimiyyəti dövründə tikildiyi "əl-məlik əl-müəzzəm şirvanşah"ın adı çəkilir. Həmin kitabənin yanında iki daş üzərində, ehtimal ki, imarətin tikintisinin hakimiyyəti illərində başa çatdırıldığı Fəribürzün adı həkk edilmişdir.[74] Kitabənin mətnində Məzyədi Şirvanşahlar sülaləsinin şəcərəsi verilmişdir.

Həmin daşların üzərindəki kitabələr bugünədək tam şəkildə oxunmamışdır. Müxtəlif heyvanların təsviri, ehtimal ki, bu və ya digər şirvanşahın hakimiyyət illərini göstərir. Məlumdur ki, orta əsrlərdə Yaxın Şərq ölkələrində bu və ya digər il heyvan adları ilə adlandırılırdı. Tac qoyulmuş insan başlarının təsviri isə, ehtimal ki, şirvanşahlar sülaləsinin ayrı-ayrı nümayəndələrinə məxsusdur.

1946-cı ildə aparılan arxeoloji qazıntılar zamanı burada ikisində ocaq olan doqquz yaşayış evinin bünövrəsi aşkar edilmişdir. Qazıntı prosesində qara və qırmızı rəngli bişmiş gil qab qırıqları, eləcə də bütöv qablar tapılmışdır. XII-XIII əsrlər üçün səciyyəvi olan şirli qab qırıqlarına da təsadüf edilmişdir. Mərkəzi meydan ərazisindən tapılmış keramika məmulatı arasında, ehtimal ki, su kəmərində istifadə edilən saxsı boruların qırıqları aşkar olunmuşdur.

Buxtadakı imarətin tədqiqi göstərir ki, o, dəniz müdafiə qalası olmuşdur. Abidənin 1962-ci ilin iyul ayında arxeoloq O.Ş.İsmizadə tərəfindən tədqiqi onun atəşpərəstlik məbədinin yerində tikilməsinə[75] dair fərziyyəni təsdiq etmədi. Giriş qapısının ensizliyi (1,25 m) onun karvansara olması versiyasını təkzib edir, Belə ki, yüklənmiş dəvələr və atlar buradan keçə bilməzdilər. Qoruyucu divarlarının 1,5 metrdən 2 metrədək qalınlığı onun Qız qalası kimi şəhəri dənizdən mühafizə edən möhkəm müdafiə qalası olduğunu göstərir.

İmarətin tikildiyi dövrdə Bakı buxtasının konfiqurasiyasının əlamətdar cəhəti bu idi ki, istehkamın tikildiyi yerlə Bakı təpəsi deyilən yeri birləşdirən bərzəx dənizdən yüksək olmasa da, hər halda, onun yuxarı səthi dənizlə eyni səviyyədə idi.

Həmin bərzəxlə imarətin baş giriş qapısına çaparla və piyada rahatca yaxınlaşmaq mümkün idi. Bərzəx, eyni zamanda kiçik bir sahəni – həmin bərzəxlə indiki Paris Kommunası adına gəmi təmiri zavodunun tikildiyi sahil arasındakı, bir növ, materikin içərisinə girmiş körfəzciyi Baku buxtasından ayırırdı. Belə kiçik körfəzcik – buxta o dövr gəmilərinin sığınması üçün kifayət idi. Həmin buxtanın hüdudları bəhs edilən imarətin yeri və indiki Paris Kommunası adına zavodun tutduğu ərazi idi. Həmin zavodun həyətində torpaq işləri aparılarkən bürc və divar bünövrələri aşkar edilmişdir. Rəssam Sergeyevin 1797-ci ildə çəkdiyi şəkildə həmin yerdə yarımbürclü qala divarları görünür. Beləliklə, sonralar su altında qalmış istehkam, habelə Paris Kommunası adına zavodun yerindəki istehkamlar bu buxtanın girişini qoruyurdular. Divarın yuxarı hissəsində binanın bütün perimetrii boyu (400 metrə yaxın) üzərində kitabə, qabarıq insan və heyvan şəkilləri həkk edilmiş zolağın olması bu imarətin dünyəvi səciyyə daşıdığını göstərir.

Naxışların zənginliyi və kitabəli zolağın dekorativ xarakteri imarətin dəbdəbəli mahiyyət daşıdığını göstərir. Bu abidə, XIII əsrin əvvəlində, Şirvanın təsərrüfat və iqtisadi həyatında yüksəliş

müşahidə edilən III Fəribürzün hökmranlığı dövründə tikilmiş, yaxud bərpa olunmuşdur.[76] Bakının girəcəyində dəniz qalası dənizdən hücum ehtimalına qarşı zəruri idi. XII əsrin sonlarında Şirvanşahların, ehtimal ki, bu qalanın ətrafında dayanan dəniz donanması var idi. Bayır tərəfdən divar boyunca gəmiləri bağlamaq üçün deşikləri olan daşlar görünür.

Bu abidə Azərbaycan ərazisində insan və heyvan barelyeflərinin təsviri şəklində memarlıq dekoruna malik yeganə qalmış nadir memarlıq abidəsidir. XIV əsrin ikinci yarısının müəllifi Arif Ərdəbili göstərir ki, Şirvanşah Axsitan (XII əsr) Şamaxı bölgəsində dağın başında daşdan yonulmuş gözəl insan surətləri olan daş hasarla əhatə olunmuş əlçatmaz Gülüstan qalasını tikdirmişdi.[77] 1637-ci ildə Şamaxıda olmuş Oleari şəhərin yaxınlığında, dağda divarlarında insan başlarının heykəl təsvirləri olan böyük qədim Gülüstan qalasının xarabalıqlarını görmüşdür.[78] Arif Ərdəbili daha sonra söyləyir ki, "Bakıda da dənizin qənşərində bir qala vardır. Bu, su altında qalmış Nouşəhr (yeni şəhər?) qalasıdır".[79] Görünür buxtadakı qərq olmuş şəhər Nouşəhr, yəni, yeni şəhər adlanırmış və həmin barelyeflər ənənəvi olaraq XII-XIII əsrin əvvəllərinin mühüm binalarında düzəldilirdi.

Mənbələrin şəhadətinə görə 1191-ci ildə Şamaxı zəlzələ nəticəsində bərk dağılmış və bu zaman şirvanşah I Axsitanın arvadı və uşaqları həlak olmuşlar.[80] Görünür, bu hadisələrlə əlaqədar Axsitan həmin vaxt öz iqamətgahını Şamaxıdan Bakıya köçürmüşdür. Ehtimal ki, bu dövrdə indiki buxtanın yerində Gülüstan sarayına bənzər qalanın tikintisinə başlanmış və görünür, Şirvan ustaları burada heykəl təsvirləri və kitabələr həkk etmişlər. Usta Zeynəddin Əbu Rəşid Şirvaninin nisbəsi də bunu göstərir. Şamaxı şəhəri sakinlərinin adları çəkilən kitabə qırıqlarında da buna işarə edilir.

Ola bilsin ki, Bakıda möhkəm qala tikilməsinə Şirvanın paytaxtı Şamaxıya yadellilərin hücum təhlükəsi ilə bağlı siyasi hadisələr səbəb olmuş və Şirvanın ucqarında yerləşən Bakı şirvanşah və onun ailəsi üçün etibarlı sığınacaq sayılmışdır. Bu, monqolların birinci hücumundan və Şamaxının 1221-ci ildə dağıdılmasından sonra xüsusilə zəruri idi.

XIV əsrdə Şirvanşahların iqamətgahı olan bu qalanın su altında qalması ilə əlaqədar XV əsrin əvvəllərində yeni təhlükəsiz yerdə

– Bakı yüksəkliyinin təpəsində Şirvanşahlar sarayı ansamblı tikilmişdir. Həmin saray quru tərəfdən indiki Milli Elmlər Akademiyasının binasına bitişən qala bürcü ilə müdafiə olunurdu.

Bakı buxtasında tikintisi h.632 (1234/35)-ci ildə, Şirvanşah III Fəribürzün hakimiyyəti dövründə başa çatan abidə möhkəm dəniz qalası və eyni zamanda, Şirvanşahların iqamətgahı idi. Məzyədi Şirvanşahlar sülaləsinin şəcərəsi verilən kitabədə bu sülalənin ayrı-ayrı nümayəndələrinin hakimiyyəti ilə bağlı müxtəlif tarixi hadisələr xatırlanır. Kitabələrin oxunması sahəsindəki gələcək işlər daha dəqiq nəticələr çıxarmağa imkan verəcəkdir.

Bakının qədim abidələrindən biri Bibiheybətdə, Şıxlar kəndində, şəhərin 5-6 kilometrliyindəki indi mövcud olmayan köhnə məscid olmuşdur. Həmin məscid dağ döşündə dəniz sahilindən yarım kilometr aralı, rəvayətə görə, yeddinci imam Musa Kazımın xəlifələrin təqibindən qaçıb Bakıya gəlmiş qızının türbəsinin yerində tikilmişdir. Həmin imam h.128 (745/6)-ci ildə doğulmuş və xəlifə Harun ər-Rəşid tərəfindən h.183 (799/800)-cü ildə Bağdadda öldürülmüşdür.[81]

Başqa bir versiyaya görə Məkkənin qüreyşi hakimlərinin Məhəmməd tərəfdarları ilə mübarizəsi zamanı onların bəziləri qaçmışdır. 8-ci imam Rza da ailəsi ilə birlikdə qaçanlar arasında olmuşdur. Qaçhaqaç vaxtı onlar ayrı düşmüş, imam özü Xorasana, qızı və bacısı isə Bakı ətrafına gəlib çıxmış, indiki Şıxlar kəndinin yerində məskən salmış və burada da vəfat etmişlər.[82] Onların dəfn olunduğu yerdə türbə və məscid tikilmişdir. Türbə son vaxtlara qədər müqəddəs sayılırdı, ora müxtəlif yerlərdən ziyarətə gəlirdilər. İmamın qızının adı Hökumə xanım idi. Onun Heybət adında nökəri var idi ki, o da həmin yerdə basdırılmışdır. Heybət Hökumə xanımı"bibi" çağırdığından məscid də Bibiheybət, yəni Heybətin bibisinin məscidi adlandırılmışdır*. Məscid tikildikdən sonra dini təriqətin üzvləri – şeyxlər onun ətrafına toplaşdı və kənd onların adı ilə Şeyxlər, yaxud Şıxlar adlanmağa başladı.[83] Məscidin yanında 20 m-lik yaraşıqlı minarə ucalırdı. Məscidə bitişik türbə, sərdabə və məzarlar var idi. 1900-cü ildə şimal tərəfdən türbəyə bitişik yeni məscid tikilmiş və bununla əlaqədar köhnə məsciddə və türbədə dəyişiklik aparılmışdı.[84]

---

* Bibiheybət məscidi 1936-ci il sentyabrın axırlarında Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun əmri ilə dinamitlə tamamilə dağıdılmışdır.

Köhnə məscidin cənub divarında ərəbcə kitabə var idi. Kitabədə deyilirdi: "Mahmud ibn Sədin əməlidir".[85] H.700 (1301)-cü ildə Nardaran kəndində tikilmiş qalada da eyni məzmunda kitabə vardır. Həmin memarın adı eyni tarixlə İçərişəhərdəki Molla Əhməd məscidinin kitabəsində də çəkilir.

Beləliklə, Bibiheybət məscidinin tikilmə tarixini təqribən müəyyənləşdirib, XIII əsrin sonlarına aid etmək mümkündür.

Köhnə Bibiheytəb məscidindəki A.Bakıxanov,[86] İ.Berezin,[87] B.Dorn[88] və N.Xanıkovun[89] xatırladıqları başqa bir kitabə də həmin vaxta aid edilir.

Y.A.Paxomov İ.Berezinin dərc etdirdiyi bu kitabəni düzəlişlə belə oxuyur. "Əzəmətli məlik, böyük sultan, dövlətin və dinin qoruyucusu, möminlər əmirinin yardımçısı, allah onun hakimiyyətini və səltənətini uzun eləsin, Əbülfəth Fərruxzad ibn Axsitanın zamanında...".[90]

N.Xanıkov bu məscidin Fəribürz oğlu II Axsitanın oğlu Fərruxzadın adı çəkilən kitabəsindən danışarkən onu h.680 (1281-1282)-ci ilə aid edir.[91] Kitabənin B.Dorn[92] və İ.Berezin tərəfindən dərc olunmuş 4 variantı əsasında onun mətnini aşağıdakı şəkildə təqdim edirik: "Əmr be bina hazəl məscid əl-məlik əl-müəzzəm, əs-sultan əl-azim, Nəsr əd-dövlə və-d-din Əbü-l-fəth Fərruxzad ibn Axsitan ibn Fəribürz, Nasir əmir əl-möminin xələz-allahi məlikə və-d-dövlətə fi-t-tarix sənətə... səmanin..."

"Bu məscidin tikilməsini əzəmətli məlik, böyük sultan, dövlətin və dinin qoruyucusu Əbü-l-Fəth ibn Axsitan ibn Fəribürz, möminlər əmirinin yardımçısı, allah onun hakimiyyətini və səltənətini uzun eləsin, səksəninci ildə əmr etmişdir" (1281-1282-ci illər).

Bakıxanovun məlumatına görə Fərruxzadın adı məsciddə onun şirvanşah tərəfindən bərpa edilməsi ilə bağlı çəkilmişdir.[93] Ola bilər ki, məscid kitabədən qədimdir və Fərruxzad möhkəm Bakı qalasında yaşamışdır.

Bakı qalasında monqollar zamanında Şirvanşahların hakimiyyəti dövründə tikilmiş XIV əsrə aid bir sıra abidələr – türbələr, qəbir daşları, xüsusilə məscidlər qalmışdır. Onların arasında Gilək məscidi seçilir. Məscidin divarında aşağıdakı məzmunda kitabə vardır: "Bu məscidi bərpa etməyi möhtərəm sədr (vəqf məsələlərinə baxan ruhani nümayəndəsi – *S.A.*) Əmin əd-Din... Əbubəkr oğlu,

allah xeyir işlərdə onun köməyi olsun, allahın camalına tamaşa etmək və ona xoş getmək məqsədilə əmr etmişdir. 708-ci il zilhiccə ayı" (12.V-21.VI.1308/9).[94]

Kitabədə, göründüyü kimi, daha əvvəllər tikilmiş məscidin bərpasından xəbər verilir. Bu məscid planlaşdırılması ilə seçilir. Onun cənub divarında daşdan yonulmuş səkkizguşəli ulduz şəklində xaçlı ornamentdən ibarət zərif şəbəkəli pəncərə vardır. Pəncərə çərçivəsinin yuxarı hissəsi çatma tağla tamamlanır, çərçivənin haşiyəsi isə nəbati xarakterli naxışlarla örtülmüşdür. Belə pəncərələrə Abşeronun və Bakının bir çox abidələrində – Dərviş türbəsində, Mərdəkan kəndindəki məsciddə və i.a. – rast gəlinir.

B.Dornun məlumatına görə İçərişəhərdə daş kitabələri olan bir neçə minarəsiz məscid var idi: ustad Mahmud ibn Məsudun sədr Nasir əd-Din Gərşəsb ibn Həsən Hacibin adı çəkilən Şərəfüllah məscidi, 7-ci il (XIV əsr).[95] Molla Fətullah, yaxud, Hacı Ağa Məali məscidinin cənub divarındakı məscidi tikdirən Mövlana Əhməd ibn Şəmsəddin Məhəmmədin adı çəkilən kitabəni Dorn h.3-cü Ramazan 748 (7 dekabr, 1347)-ci ilə aid edir.[96] Şirvanşahlar sarayının yaxınlığındakı Molla Nəsrullah məscidində h.777-ci il Məhərrəm ayı (iyun-iyul 1375-ci il) tarixli kitabə olmuşdur. Məscidi tikdirən qazı əl qüzzatın (baş qazı) adı pozulmuş, həkkakın adı – Məhəmməd əl-Arif – qalmışdır.[97] İçərişəhərdə Cümə məscidinin yaxınlığında h.777 (1375)-ci il tarixli daş kitabəsi olan balaca Çin məscidi dövrümüzədək gəlib çatmışdır.[98]

Qız qalasının yaxınlığında 1899-cu ilin əvvəlində qədim Cümə məscidinin yerində tikilmiş Cümə məscidi vardır. Cümə məscidinin akademik Pavlinov tərəfindən 1888-ci ilin ölçüləri ilə çəkilmiş köhnə planı mövcuddur.[99] Həmin məscid bir neçə dəfə yenidən tikilmiş və bərpa edilmişdir. Onun örtüyü əvvəlcə çardaqşəkilli olmuşdur. 1873-cü ildə məsciddə olmuş səyyahın təsvirinə görə onun ortasında üstü örtülməmiş dörd tağ ucalırdı. Bu tağlar məsciddən qədim olub, müsəlmanların məscidə çevirdikləri qədim atəşpərəstlik məbədindən qalmışdır.[100] Yeni məscidə gövdəsinə, ehtimal ki, qədim Cümə məscidinin divarında olmuş bir neçə kitabə quraşdırılmış XV əsrə aid minarə bitişir. Onların arasında kufi xətlə işlənmiş XI-XII əsrlərə aid iki kitabə var. Onlardan biri (kiçiyi), görünür daha qədimdir. Ondan aşağıda sultan Ölcaytunun (əvvəllər

qədim Cümə məscidinin şimal tərəfində olan) fərmanından ibarət kitabə yerləşdirilmişdir.

B.Dornun məlumatına görə[101] qədim Cümə məscidinin cənub tərəfində hazırda həmin məscidin minarəsinin gövdəsində quraşdırılmış kitabə olmuşdur. Kitabənin məzmunu belədir:

Əmara betəcdid həzəl imarə məlik əl-üməra və-l əkabir əl-əmir Şərəfəddin Mahmud ibn Fəxrəddin mülk dam izzəhu fi tarix rəcəb səna tisa və səbamayə.

"Bu imarətin bərpa olunmasını əmir və əyanların əmiri əmir Şərəfəddin Mahmud ibn Fəxrəddin ...onun mülkü əbədi olsun, yeddi yüz doqquzuncu ilin rəcəb (ayında) əmr etmişdir" (h.709 (5.XII-4.I.1309/10)-cu il).[102]

Bu kitabə, göründüyü kimi, daha əvvəlki dövrə məxsus binanın bərpasından xəbər verir.

XIV əsrdə Bakıda və Abşeronda yenidən müdafiə xarakterli binalar, feodal qəsrləri və digər memarlıq abidələri, məscidlər, hamamlar və i.a. tikilməyə başlamışdır. Lakin bu abidələrdə şirvanşahların adları çəkilmir.

Bakıda şimal-qərb qala divarının yaxınlığında hazırda bərpa olunmuş XV əsrə aid dördkünc qüllə-donjon vardır. Ramana kəndində-ki qala divarları ilə hasarlanmış dördbürclü qüllədən ibarət feodal qəsri XIII-XIV əsrlərə aiddir. Nardaran kəndindəki yarımdairəvi bürcləri olan dördkünc qala divarları ilə əhatə edilmiş dairəvi qüllə-donjondan ibarət qəsr h.700 (1301)-cü ildə tikilmişdir. Yəqin ki, XIII-XV əsrlərdə Nardaran bu bölgənin həyatında çox mühüm rol oynamışdır. Bunu qum təpələrinin altından tədriclə üzə çıxan çoxlu qədim abidələr sübut edir. Dərbəndi Şirvanşahların yay iqamətgahı burada yerləşirdi.

Mənbələrdə sadalanan abidələrdən başqa, sənət əsərləri olub, dövrümüzədək mühafizə edilməmiş imarətlər haqqında da məlumatlar qalmışdır. Məsələn, XIV əsrin ikinci yarısında şirvanşah Keykavus ibn Keyqubadın sarayında yaşamış şair Arif Ərdəbili Bakı qəbiristanlığında "uzaqdan parlaq günəş kimi görünən" sərdabəni təsvir edir. Sərdabənin günbəzi böyük sənətkarlıqla tikilmişdi.[103] O, daha sonra göstərir ki, binanı tikmək üçün "Divan qalasından" (Divəndaz) mərmər daşı gətirilmişdi. Ehtimal ki, burada söhbət yaxınlığında hələ qədim zamanlardan inşaat üçün

badamdar daşı çıxarılan indiki Duvannı stansiyasından gedir. Rəssam Sergeyevin şəklində (1797) dağın başındakı qəbiristanlıqda orijinal formalı iki sərdabə görünür: onlardan biri çadır örtüklü, digəri (ikimərtəbəli) yarımkürə şəkilli günbəzlidir. Bu binalar dövrümüzədək qalmamışdır.

Dərbəndi Şirvanşahlar dövründə ölkənin iqtisadi inkişafı ilə əlaqədar Abşeron bir sıra gözəl memarlıq abidələri ilə bəzəndi. İctimai binaların, hökmdar saraylarının və çoxlu xidmətçi binaları olan geniş malikanələrin tikintisi inkişaf etdi. Əvvəlki feodal qüllə və qalalarının tikintisi öz yerini Bakıdakı Şirvanşahlar sarayı və Nardaran kəndindəki qəsr kimi saray tipli imarətlərə verdi.[104]

Şirvanşah I Xəlilüllah zamanında Bakıda Şirvanşahlar sarayının bəzi binaları tikildi. Bu saray tikililəri ansamblı orta əsrlər Azərbaycan memarlığının ən yaxşı abidələrindən olub, XV-XVI əsrlər ərzində müxtəlif vaxtlarda tikilmiş bir sıra binalardan ibarətdir. Həmin vaxta qədər Şirvanşahların iqamətgahı Şamaxı şəhəri idi. Lakin XV əsrdə çox möhkəmləndirilmiş qalalardan biri və Xəzər dənizində əsas liman olan Bakının iqtisadi və siyasi yüksəlişi ilə əlaqədar şirvanşah I Xəlilüllah Bakını özünün yeni iqamətgahı seçdi.

Saray ansamblı bir neçə binadan ibarətdir: ən iri baş saray binası, Divanxana, Türbə, minarəli məscid, Seyid Yəhya Bakuvinin türbəsi ("Dərviş türbəsi") və köhnə məscidin qalıqları Şərq tərəfdən tək dayanan "Murad qapısı" deyilən baştağ, ovdan və uçmuş hamamın qalıqları da saray tikililərinə daxildir.

Hamar yonulmuş sarımtıl oxraya çalan yerli daşdan tikilmiş bütün bu saray binaları ansamblı o dövrün memar və rəssamlarının yüksək sənətkarlığından xəbər verən görkəmli memarlıq əsəridir.[105]

1932-ci ildən 1949-cu ilə qədər Şirvanşahlar sarayı ərəzisində aparılan arxeoloji işlər və ansamblın memarlıq təhlili göstərdi ki, Bakı yüksəkliyinin lap təpəsində tikilmiş saray binası, ehtimal ki, saray tikililəri arasında ən qədimidir. Saray 52 otaqlı ikimərtəbəli əsas binadan və əlavə tikilidən ibarətdir. Binanın 27 otaqdan ibarət alt mərtəbəsi, ehtimal ki, xidmətçilər və təsərrüfat ehtiyatlarının saxlanması üçün istifadə edilmişdir.[106]

XIX əsrdə çar hərbi idarəsinin anbarına çevrilən ikinci mərtəbədə xeyli dəyişiklik baş vermişdir.[107]

Sarayda dəyişiklik edilərkən günbəzlər uçurulmuş və ikinci mərtəbədəki ara divarları götürülmüşdür. "Beləliklə, tağtavanların və günbəzlərin mozaik suvağı hər yerdə məhv edilmişdir".[108] 1733-cü ildə burada olmuş səyyah Lerx xəbər verir ki, "sarayın damı lacivərdi rəngli daşlarda örtülmüşdür".[109] Onun təsvirinə görə "darvazalar, qapılar, pəncərələr, oyma naxışlı eyvanlar yüksək sənətkarlıqla işlənmişdir".[110]

Saray ərazisində arxeoloji qazıntı zamanı, ehtimal ki, onun günbəzini örtən göy rəngli şirli kaşılar tapılmışdır.[111] Quyulardan tapılmış əhəngdaşı lövhələrində oyulmuş həndəsi ornamentli şəbəkə qırıqları[112] səyyahın saray binasının pəncərə yerlərinin daşdan yonulmuş şəbəkələrlə tutulduğuna dair məlumatını təsdiqləyir.[113]

Birinci mərtəbə otaqlarında aparılan qazıntılar göstərdi ki, saray qaya üzərində tikilmiş və onun altında, saray salınanadək, qədimlərdə divarlarının bünövrəsi sarayın bünövrəsi ilə üst-üstə düşən hansısa bir bina olmuşdur. Ehtimal ki, bu qədim binadan iki səkkizguşəli salon qalmışdır. Onlardan bilavasitə sarayın baştağına bitişik və bütün sarayın binalarından hündür olan biri, görünür, dəbdəbəli qəbul salonu olmuşdur. Üç tərəfdən tağlı eyvanlarla əhatə olunan, dördüncü tərəfdən isə sarayın baş binasına yapışıq həyətcikdə yerləşən kiçik, yaraşıqlı köşkdən ibarət Divanxana sarayın baş binasına bitişir. Bu abidə gözəlliyi və zərifliyi ilə təkcə orta əsrlər Azərbaycan memarlığının deyil, eləcə də, İran, Kiçik Asiya və bütün Yaxın Şərqin analoji abidələrinin şah əsərlərindən sayılır.[114]

Divanxana köşkü həm daxildən, həm də bayırdan daş günbəzlə örtülmüş səkkizguşəli salondan ibarətdir. Salon bayır tərəfdən beş guşə hüdudunda sütunlu tağlarla əhatələnmişdir. Dördbucaqlı dəhliz ona bitişir. Dəhlizə giriş yaraşıqlı, zəngin bəzəkli (dekorlu), stalaktit, daş yarımgünbəzlə tamamlanan baştağdandır.[115] Baştağın yuxarı hissəsində daşdan mürəkkəb nəbati xalça naxışları oyulmuşdur. Divanxananın daxilində dəhliz tağlı eyvan salon və onun döşəməsi altındakı planda səkkizguşəli kamera ilə girişlə birləşdirilmişdir. Həmin kameranın altında dördkünc formalı ikinci bir kamera da vardır. Oraya giriş şimal tərəfdəki yer səthi ilə bərabər olan deşikdəndir. Kameraların divarları hamar yonulmuş daşlarla üzlənmişdir. İkinci kameranın əsasını təşkil edən qayada beş metr dərinliyində quyu vardır.[116] Hər iki kameranın funksional təyinatı, həmin abidə

haqqında bir sıra tədqiqatlar aparılmasına baxmayaraq, hələ də bütövlükdə aydınlaşdırılmamış qalır.

Divanxana binasının içərisində dəhlizdən salona girişin üstündə Quranın onuncu surəsinin aşağıdakı ayələri həkk olunmuş kitabə vardır: "Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola salır! Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafatlar gözləyir. Onların üzünə nə bir toz ləkə, nə də bir zillət qonar".[117] Giriş baştağının yuxarı hissəsində kitabə üçün haşiyə vardır. Lakin kitabədən əsər-əlamət qalmamışdır. Kitabənin olmaması bu maraqlı abidənin təyinatını dəqiq müəyyənləşdirməyə imkan vermir. Bu bina, ehtimal ki, XV əsrin axırlarında sarayın əsas binasından, məscid və türbədən sonra tikilmişdir.

Kapitellərin və sütun özüllərinin naxışlarının və binanın digər detallarının tamamlanmaması Divanxananın tikintisinin başa çatmadığını göstərir. Ehtimal ki, binanın tikintisi 1500-1501-ci illərdə baş verən hərbi hadisələrlə əlaqədar dayandırılmışdır.

Divanxana köşkünün qapı açırımlarından birində yaxşı mühafizə olunmamış və indiyədək oxunula bilməmiş birsətirlik ərəbcə kitabə vardır. Lakin V.M.Sısoyev həmin kitabədə I Xəlilüllahın adını və h.832 (1428/9)-ci il tarixini oxuduğunu iddia edirdi ki, bunu indi yoxlamaq mümkün deyil.[118]

Divanxananın təyinatı barədə müxtəlif fikirlər mövcuddur. Onun məhkəmə,[119] qəbul salonu və ya dövlət şurası[120] binası, yaxud da türbə[121] olduğuna dair fərziyyələr var. Divanxananın memarlıq quruluşu və planı orijinal olub, nəinki Azərbaycanın, eləcə də digər Şərq ölkələrinin heç bir abidəsinə bənzəri yoxdur. Onun yarımgünbəzli stalaktit baştağı Qahirədəki Sultan Həsən və Sultan Müəyyid məscidlərinin baştağını xatırladır. Orta əsrlər Azərbaycan memarlığının bu görkəmli abidəsinin funksional təyinatının açıqlanmasında mənbələrin mühüm əhəmiyyəti vardır. Bu maraqlı abidə haqqında heç bir əsərdə məlumata rast gəlmirik. Lakin mənbələrin dolayısı ilə verdiyi məlumatlar bəzi ehtimallar yürütməyə imkan verir. Həsən Rumlunun məlumatına görə, Şah İsmayıl Bakını alarkən "qazılar Mirzə Xəlilüllahın cənazəsinin qalıqlarını çıxarıb yandırmış və onun türbəsinin günbəzi altından çoxlu qızıl tapmışlar".[122] Başqa bir versiyada deyilir ki, bu zaman Şirvan hakimlərinin türbəsi yerləyeksan edilmişdir.[123] Digər bir mənbəyə görə, "Xadim bəy Xüləfa

İsmayılın əmri ilə Şirvanşahların xəzinəsini zəngin qızıl ehtiyatı, daş-qaş, nağd pul, müxəlləfat və digər qiymətli şeylərlə birlikdə çıxarıb aparmışdır..."[124]

Gətirilən məlumatlardan belə nəticə çıxarıla bilər ki, sarayın ərazisində I Xəlilüllahın dəfn edildiyi türbə mövcud olmuş, qızılbaşlar türbənin günbəzində çoxlu qızıl və qiymətli şeylər tapmış, Şirvanşahların zəngin xəzinəsi saray binasında saxlanılmışdır. Başqa bir xəbərə görə, həmin hadisələr zamanı Şirvanşahların türbəsi dağıdılaraq yerlə-yeksan edilmişdir. Türbədə arxeoloji işlər aparılarkən şirvanşahın ailə üzvlərinin sərdabələrinə toxunulmadığı müəyyənləşdirildiyindən və heç bir yerdə şirvanşahın basdırıla biləcəyi boş qəbir olmadığından ancaq belə bir fərziyyə qalır ki, I Xəlilüllahın dəfn edildiyi başqa bir türbə də mövcud olmuşdur. Həmin türbə bu məsələni aydınlaşdıra biləcək kitabəsi olmayan, Divanxana ola bilərdi. Digər tərəfdən, xəzinənin sarayda olmasına dair məlumat divanxana binasından Divan, yəni, maliyyə idarəsi, şahın xəzinəsi kimi istifadə oluna biləcəyini istisna etmir. Xalqın yaddaşında qalmış, eləcə də, abidənin adında möhkəm təsbit olunmuş Divanxana sözü də buna işarə edir.

Məlum olduğu kimi Divanxana sözü "mühakimə yeri" mənasında daha sonralar işlədilməyə başlamışdır. XIV-XV əsrlərdə isə "mühakimə yeri"[125] terminində ərəb sözü "Dar əl-qəza"[126] müvafiq gəlirdi. Hakimə "qazı",[127] mühakiməyə isə "qəza" deyilirdi. XIII-XIV əsrlərdə maliyyə idarəsinin naziri (müdiri) "sahib divan" idi. Divanxana köşkü Şirvanşahların yanında sahib-divanın, onun məmurlarının xidmət yeri və xəzinənin özünün saxladığı yer ola bilərdi. Dəhlizin şərq hissəsində bir-birinin içinə açılan iki balaca otaq, görünür, xidmət yeri olmuşdur. Belə otaqlar məsciddə və şirvanşahların türbəsində də var. Səkkizguşəli salona daxil olan kameranı örtən günbəzdəki müəmmalı deşik görünür, sonralar, ehtimal ki, 1501-ci il hadisələri, qızılbaşların şəhəri alıb xəzinəni axtararkən sarayı uçurub dağıtdıqları zaman açılmışdır. Şirvanşahların xəzinəsinin sarayın baş binasında, səkkizguşəli salonun altındakı planda dəyirmi zirzəmidə yerləşməsinə dair də versiya mövcuddur.[128]

Lakin türbə versiyası daha çox ehtimal edilir.

Maraqlıdır ki, dövrümüzədək gəlib çatmış xalq rəvayətlərində bütün "Divanxana" ərazisi, xüsusilə "süd quyusu" adlandırılan

quyulu kamera pir sayılmış, südü qurumuş südəmər uşaqlı azərbaycanlı qadınlar buraya müalicəyə gəlmişlər.

Ehtimal ki, Divanxananın və sarayın tutduğu ərazi hələ islamdan qabaqkı dövrdə müqəddəs yer sayılmışdır. Sarayın birinci mərtəbəsindəki otaqların qaya döşəmələrində, Divanxana həyətində, cənub həyətində oyulmuş kasavarı çuxurlar, bir sıra dayaz, dördkünc və dairəvi çalalar və onları birləşdirən arxlar qədim dövrə aid edilən buna bənzər Qobustan çökəklərini xatırladır.

Ehtimala görə onlardan qurbanlıq heyvanların qanını yığmaq üçün ibtidai qab kimi istifadə olunmuşdur. Yəqin ki, sarayın ərazisindəki oyuqlar da eyni məqsəd daşıya bilərdi, onların aşkar edildiyi yer isə qədim zamanlardan pir, ziyarətgah olub ənənəvi surətdə bugünədək əhəmiyyətini saxlaya bilərdi. Lakin bu məsələ yeni tədqiqatlar aparılmasını tələb edir. Aşağı həyətdə, məscidin yanında Şirvanşahların planda xaçşəkilli salondan ibarət olan dördkünc türbəsi yerləşir. Salonun mərkəzi hissəsi günbəzlə örtülmüşdür. Onun künclərində isə dörd kiçik otaq var.[129] Fasadın hamar divarında binanın fövqündə ucalan və türbəyə girişi nəzərə çarpdıran yaraşıqlı, zəngin ornamentlərlə bəzədilmiş baştağ seçilir. Baştağın dörd sıra stalaktitli düzbucaqlı taxçası çatma növlü yarımgünbəzə keçir.[130] Baştağın yuxarı hissəsi daşda oyulmuş xalça naxışları və "nəsx" xətti ilə həkk olunmuş iki kitabə ilə bəzədilmişdir.

Birinci kitabənin mətni Quranın XII surəsinin 92-ci ayəsi, ikincisininki isə hədisdir.

Baştağın çatma açırımının sağ və sol tərəflərindəki badamvarı medalyonlarda türbəni tikən bənna-memarın adı çəkilən kitabə yerləşdirilmişdir. Medalyonların hər birində eyni kitabə iki dəfə – birbaşa və güzgüdəki əksi – təkrarlanır:

"Allah, Məhəmməd Əli, memar".[131] Adından göründüyü kimi memar şiə olmuşdur. O, öz adını medalyonda ornament şəklində sənətkarlıqla həkk etmişdir.

Baştağ haşiyəsinin dərinliyindəki giriş açırımı tağlarının timpanları da nəbati ornamentlərlə bəzədilmişdir. Onun yuxarı hissəsində aşağıdakı məzmunda ikisətirlik kitabə var:

امر السلطان الاعظم الشر وانشاه المعظم سمی نبی‌الله نصرةالدین خلیل‌الله خلدالله ملکه و سلطانه بعمارة هذا المرقد المنور بوالدته وابنه رحمهماالله فی سنه تسع و ثلثین و ثمانمائه.

"Bu nurlu türbənin anası və oğlu üçün, allah onlara rəhmət elə-sin, tikilməsini allahın peyğəmbərinin adaşı, dinin qoruyucusu, böyük sultan və müəzzəm şirvanşah Xəlilüllah, allah onun mülkünü və səl-tənətini əbədiləşdirsin, səkkiz yüz otuz doqquzuncu ildə əsr etdi" (h.839 (1435/6)-cu il).[132]

Qədim qapı açırımının tağı üstündəki səkkizguşəli medalyonda Əli sözünün altı dəfə təkrar olunduğu kitabə yerləşdirilmişdir.[133]

Həm türbənin, həm də Divanxananın baştağındakı medalyon-larda Əli adının həkk olunması Dərbəndi Şirvanşahlar sülaləsinin şiə olduqlarını göstərir. Bu, şiə müqəddəslərindən Hökumə xanı-mın zəvvarların İrandan və digər Şərq ölkələrindən ziyarətinə gəldikləri türbəsinin – məzarının Bakı bölgəsindəki Bibiheybətdə olması faktı ilə ziddiyyətə girmir.

1946-cı ildə aparılmış arxeoloji işlər zamanı türbənin taxta döşə-məsinin altında daş lövhələrlə örtülmüş beş qəbirdən ibarət sər-dabə aşkar edilmişdir.[134]

Səliqəli bəzəyi ilə seçilən 1-ci məqbərədə 6-7 yaşlı uşaq cəna-zəsinin qalıqları var idi. Məqbərədə parça qalıqları tapılmışdır. Üzə-rində ərəb hürufatı ilə kitabələr tikilmiş həndəsi naxışlı medalyon əlamətləri nəzərə çarpan qalın parça qalıqlar xüsusilə maraq doğururdu.[135] Tədqiqat nəticəsində onların fars dilində şeir olduğu aydınlaşdırıldı.[136] Ehtimal ki, bu Xəlilüllahın oğlunun məqbərəsi olmuşdur. Ondan şimal tərəfdə yaşlı qadının, ehtimal ki, Xəlilüllah-ın anasının dəfn olunduğu 2-ci məqbərə yerləşir. 4-cü məqbərədə açıq taxta tabutda 18-19 yaşlı kişi skeleti aşkar olunmuşdur. Skeletin altında qatlanmış halda zol-zol ipək parçadan təqribən bir metr boyunda uzunqol kişi köynəyi tapılmışdır. Köynəyin büküm-lərində bir neçə mavi muncuq aşkar edilmişdir. Bu paltarın altında başqa, ehtimal ki, yun parça qalığı var idi. Boyun fəqərələrinin yanında ortasında firuzə və 6 yaqut olan altıguşəli ulduzdan ibarət milli qızıl sancaq tapılmışdır.[137] Həmin sərdabədə paltar olması bugünədək gəlib çıxmış adətdən xəbər verir. Meyit yuyularkən bədənin hələ kifayət qədər keyidiyi məlum olduqda ölünün bir başqasını da özü ilə çəkib aparacağı güman edilirdi və buna görə də mövcud adət üzrə yeni qurbanın əvəzinə onun yanına qatlanmış köynək qoyulurdu. Ola bilsin ki, türbədən tapılmış köynək də bu

məqsədlə qoyulmuşdur. Türbədəki qalan məqbərələr yəqin ki, şirvanşahın ailə üzvlərinin qəbirləri olmuşdur.

Türbədə arxeoloji işlər aparılarkən ola bilər ki, salondakı başdaşlarına məxsus uçulub dağılmış memarlıq elementlərinin fraqmentləri aşkar edilmişdir.[138] Arxeoloji işlər davam etdirilərkən daha bir neçə toxunulmamış məqbərə aşkar edilmiş və onların ümumi sayı 14-ə çatmışdır. Türbədə Xəlilüllahın ailə üzvlərindən bir neçəsinin qəbri tapılmışdır. Bədr Şirvaninin divanındakı bir neçə mədhiyyə, mərsiyə və xronoqramlardan Xəlilüllahın bəzi ailə üzvlərinin adlarını aydınlaşdırmaq mümkündür: Xəlilüllahın anası – Bikə xanım (ö. h.839 (1435/6)-cu il), oğulları – Fərrux Yəmin (d. h.839 (1435/6)-cu il – ö. h.846 (1442/2)-cı il, yeddi yaşında), Şeyx Saleh (d. h.847 (1443)-ci il – ö. h.849 (1445/6)-cu il, 2 yaşında), şairin Mir Bəhram, Əmir Bəhram adlandırdığı h.850-ci il məhərrəm ayının 20-də (17 aprel 1446-cı il) Qaytaq düzündə həlak (şəhid) olmuş Bəhram Bədr Şirvani qəsidələrinin birində Xəlilüllahın h.836-cı il məhərrəm ayının 20-də (16 sentyabr 1432-ci il) anadan olmuş oğlu şahzadə Məhəmməd İbrahimin adını çəkir. Onun ölüm ili məlum deyil. Şair qəsidələrindən birində Xəlilüllahın oğru Fərrux Yəssarın da anadan olduğu günü h.845-ci il Məhərrəm ayının 12-si (2 iyun 1441-ci il) – göstərir.[139]

Beləliklə, Xəlilüllahın saray şairi Bədr Şirvaninin verdiyi məlumata görə, şirvanşahın 5 oğlu olmuşdur. Onlardan 4-ü atalarının sağlığında ölmüş və yalnız Fərrux Yəssar Xəlilüllah 1465-ci ildə öldükdən sonra onun varisi olmuşdur.

Xəlilüllah Qaraqoyunlu İsgəndərlə müharibə apararkən Bakıda onu şirvanşahın qardaşlarından biri – Qəzənfər (h.800-847 (1398-1443)-ci illər) əvəz edirdi. Bədrəddin Şirvaninin məlumatına görə Xəlilüllah Bakıda bir sıra binalar, o cümlədən h.832 (1428/9)-ci ildə bürc və çeşmə (ehtimal ki, İçərişəhərdəki kəhrizlərdən biri), h.835 (1431/2)-ci ildə başqa bir bürc və h.842 (1438/9)-ci ildə hamam (ehtimal ki, saray hamamı) tikdirmişdi. Həmin bürclərdən biri, ehtimal ki, indiki Milli Elmlər Akademiyasının binasına bitişən bürcdür. Digər bürc isə dövrümüzədək qalmamışdır.[140]

Həmin həyətdə Türbənin yanında planda xaçşəkilli salondan, girişdən sağ tərəfdə qadınlar üçün ibadət otağından və binanın qurtaracağında iki balaca otaqdan ibarət məscid var.[141]

İkinci mərtəbədə də aşağı mərtəbədəkilərlə divarın içində hörülmüş pilləkənlə birləşən eyni ilə üç otaq vardır. Girişin qənşərində cənuba tərəf mehrab düzəldilmişdir. Məscidin şimal-şərq küncündə əvvəllər daş məhəccəri olmuş şərəfəni saxlayan stalaktit pərvazla (qurşaqla) tamamlanan minarə ucalır.[142] Stalaktit pərvazın (qurşağın) altında minarəni "nəsx" xətti ilə yazılmış aşağıdakı məzmunda kitabə dövrələyir:

الهمدالله رفيع الرجات والاقدار والصلوة على محمد المختار و بعد فقد امر بكشف هذا المنار السلطان الاعظيم خليل‌الله عظم‌الله تعالى ايام دولته و ملكه سنة خمس و الاربعين و ثمانمائه.

"Uca və qadir Allaha həmd və Məhəmmədin seçdiyinə uğurlar olsun. Sonra isə bu minarəni kəşf etməyi sultani-əzim Xəlilüllah əmr etdi. Allah onun hakimiyyətini və mülkünü göylərə qaldırsın. Səkkiz yüz qırx beşinci il" (h.845 (1441/2)-ci il).[143]

Oxuduğumuz kitabədə, görünür, türbədən və minarədən daha əvvəl inşa olunmuş məscidin yox, minarənin tikilməsindən danışılır. Onun zəngin bəzəkli baştağının və üzərində bədii kitabələrin olmaması bunu təsdiq edir.[144]

Sarayın cənub fasadının qənşərində, orta həyətin meydançasında çadır örtüklü səkkizüzlü kiçik türbə ucalır. Türbəyə şüa saçan ulduzlarla naxışlanmış daş şəbəkəli üç ikitərəfli pəncərə qoyulmuşdur. Türbə içəridən naxışlarla bəzədilmiş və rəngli suvaqla malalanmışdır.[145] Türbənin zirzəmisində sərdabə vardır.[146]

Formaca Koniyanın çadır örtüklü Kiçik Asiya səlcuq abidələrinə gedib çıxan bu tipli türbələr Azərbaycanda daha erkən dövrlərdən geniş yayılmışdı.

Yazılı mənbələrə və rəvayətə görə burada XIV əsrin sonu – XV əsrin əvvəllərində yaşamış alim Seyid Yəhya ibn Bəhaəddin Bakuvi dəfn olunmuşdur. Onun ölüm tarixi bir versiyaya görə h.862 (1457)-ci il, başqa versiyaya görə isə h.868 (1463)-ci il hesab edilir.[147]

A.Bakıxanovun məlumatına görə onun "Bakı şəhərində ona mənsub olan məscidin yanında sovməəsi, mədrəsəsi və qəbri indi də durur".[148]

Gətirilən məlumatlar türbəni XV əsrin 60-cı illərinə aid etməyə imkan verir. Üslub xüsusiyyətləri və tikinti texnikası da bu tarixi təsdiq edir. Türbə "Keyqubad məscidi" adı ilə tanınan 1918-ci ildə

yanmış qədim məscidə bitişik tikilmişdir. Hal-hazırda məscidin təkcə bünövrəsi qalmışdır. A.M.Pavlinov 1888-ci ildə Bakıda olarkən həmin məscidi görmüş və onun təsvirini vermişdir: "Məscidin özü nisbətən genişdir, onun günbəzi, planda göründüyü kimi, 4 sütun üzərində durur; günbəzin söykəndiyi əsas tağlar, yaxud tağtavanlar çatmadır. Günbəzin gövdəsində, xan məscidində olduğu kimi, bir neçə çıxıntı var və ona dörd pəncərədən işıq düşür. Məsciddə kitabə yoxdur, onun fasadı hamar olub, yonulmuş daşla üzlənmişdir, damı yastıdır. Məscidin arxa tərəfində əlavə tikililər var".[149]

1945-ci ildə "cənub", yaxud orta həyətin ərazisində arxeoloji işlər aparılarkən A.M.Pavlinovun təsvir etdiyi "təzə məscid" deyilən məscidin bünövrəsi altında "təzə məscid"dən xeyli böyük olan daha əvvəllər tikilmiş bir binanın divar və bünövrə qalıqları aşkara çıxarılmışdır.[150] V.N.Leviatov da bu binanı, A.Bakıxanovun sözlərinə istinadən, Seyid Yəhya Bakuvinin ibadət etdiyi və dərs dediyi qədim məscid sayaraq, onun uçmasını XIV əsrin sonlarına aid edir.[151] Məlumdur ki, Seyid Yəhya XV əsrin birinci yarısında Xəlilüllahın sarayında yaşamış və həmin əsrin 60-cı illərində ölmüşdür. Deməli, köhnə bina artıq XV əsrin əvvəllərinədək uçmuşdur.

V.N.Leviatova görə, "təzə məscid" XVI əsrdən əvvəl tikilməmişdir[152] ki, bu da səhv fikirdir. Belə ki, bu zaman Seyid Yəhya artıq həyatda yox idi.

Beləliklə, görünür "təzə məscid" XVI əsrdə deyil, XIV əsrin sonlarında, yaxud XV əsrin əvvəllərində köhnə bina uçduqdan sonra onun yerində tikilmişdir ki, bu da A.Bakıxanovun məlumatına zidd deyil.

Qazıntı zamanı Şirvanşah sikkələrinin "təzə məscid"in keçmiş döşəməsindən aşağı səviyyədə (III Fəribürzün sikkəsi – XIII əsrin ikinci yarısı)[153] və bilavasitə həmin məscidin döşəməsi altından (Bakuyədə kəsilmiş XV əsr sikkəsi)[154] tapılması da bizim müəyyənləşdirdiyimiz tarixi təsdiqləyir. "Təzə məscid"in tikintisində köhnə binanın daşlarından istifadə olunmuşdur. XV əsrin 60-cı illərində, Seyid Yəhyanın ölümündən sonra onun "təzə məscidə" bitişik türbəsi tikilmişdir. Qeyd etmək lazımdır ki, həmin türbə üslub xüsusiyyətlərinə görə saray tikililəri ansamblına daxil olan binalardan seçilmədiyi halda, "təzə məscid", A.Pavlinovun qeyd etdiyi kimi, "birincilərdən fərqli olaraq, başqa vaxta, dövrə və hətta başqa memara məxsus olmalıdır".[155]

Saray tikililəri ansamblına əlahiddə dayanan "Murad qapısı" deyilən bəzəkli Şərq darvazası baştağı (h.994 (1585/86)-cü il), ovdan və uçulub dağılmış şah hamamının qalıqları da daxildir.

Şirvanşahlar sarayının şərq darvazası kompleksin bütün tikililərindən xeyli sonra, XVI əsrdə, Bakı türklərin işğalı altında olarkən tikilmişdir. Darvaza Bakı əyanlarından Rəcəb babanın əmri ilə tikilmişdir. Baştağın memarı Təbrizin Vəlyənkuh məhəlləsindən olan ustad Əmirşah Vəlyənkuhidir. Bunu baştağın haşiyəsindəki kitabə də təsdiq edir. Baştağ XV əsr saray kompleksi binaları tipində tikilsə də, bəzək, zəriflik və digər cəhətlərdən onlardan geri qalır. Baştağın yuxarı hissəsi ərəbcə daş kitabə ilə bəzədilmişdir. "Bu nəcib imarəti tikməyi ən adil və müəzzim sultan Sultan Murad xanın zamanında ulu Rəcəb baba Bakuyi doqquz yüz doxsan dördüncü ildə əmr etmişdir" (h.994 (1585/86)-cü il).[156] Kitabənin hər iki tərəfində nəbati naxışlı xonça var. Baştağın aşağı hissəsindəki stalaktit yarımgünbəz dərin taxça əmələ gətirir.

Sarayın digər baştağlarından fərqli olaraq onun qapıya oxşayan geniş çatma giriş açırımı var. Çox ehtimal ki, bu baştağ indiyədək qalmamış, yaxud tikilməmiş binanın girişi olmuşdur. Bunu darvazanın deyil, "imarətin" tikilməsindən xəbər verən kitabənin mətni də təsdiq edir.

Aşağı həyətdən şərqdə, türbənin və məscidin ərazisindən aşağıdakı sahədə saray ansamblına daxil olan hamam yerləşir.

1947-ci və 1958-1962-ci illərdə aparılan arxeoloji qazıntılar zamanı üstündə bağ salınmış torpaq örtüyünün altında böyük hamam (26 otaqlı) aşkar edilmişdir. Hal-hazırda hamam həm üstdən, həm də içəridən torpaqdan təmizlənmişdir. Hamam adətən, qışda istini, yayda isə soyuğu qoruyub saxlamaq məqsədilə tikilən başqa Abşeron hamamları kimi, yer səviyyəsindən dərinlikdə idi. Onun otaqlarından biri səkkizbucaqlıdır. Otaqların günbəzində işıq düşməsi üçün açırımlar – bacalar qoyulmuşdur. Hamamın daş tağtavanı, staliktit bəzəkləri var idi. Divarlar və hovuz qismən bugünədək qalmış kaşı ilə örtülmüşdü. XVIII əsr səyyahı İ.Lerx xəbər verir ki, hamam həm bayırdan, həm də içəridən yaxşı bəzədilmişdir.[157] Su döşəmənin pərvazında quraşdırılmış kəmərlə döşəmədə tikilmiş hovuza dolurdu.

Hamam dəhlizdən, soyunub-geyinmə salonundan, mərkəzi salondan, ayrı-ayrı çimmə və buğxana otaqlarından, habelə isti və

soyuq su hovuzlarından (xəznələrdən) ibarət idi. Hamam döşəmələrin altında quraşdırılan və qızdırıcı kameraya – "külxan"a birləşdirilən isti hava kanalları vasitəsilə isidilirdi.[158]

Hamam "şam kimi yanan sarı rəngli"[159] daş kimi bərkimiş ağ neftlə qızdırılırdı. Həmin neft şəhərə gətirilərək, əhali tərəfindən yanacaq kimi istifadə olunurdu. Hamama şirvanşahın ailəsinə və saray adamlarına xidmət edirdi. Hamam su bilavasitə onun yaxınlığındakı qədim ovdandan gətirilirdi. İ.Lerx həmin ovdan haqqında aşağıdakıları xəbər verir: "Şəhərin yaxınlığında çay yoxdur. Əhali quyu suyundan istifadə edir; ən yaxşı su isə daşda oyulmuş 70 pilləli şah quyusundan çıxarılır".[160]

Ovdan yerüstü hissəsi (girişi) səliqə ilə düzülən daş hörgü ilə işlənmiş sal qayada qazılmışdı. Girişin böyük dərinlikdəki hovuzun başında qurtaran pilləkənə tərəf aparan düzbucaqlı çatma açırımı var idi. Su buraya yeraltı lağımlardan – kəhrizlərdən yığılırdı.[161]

Qərb qala divarı yaxınlığında inşaat işləri aparılarkən təqribən 10 metr dərinlikdə dağlardan ovdan və Şirvanşahlar sarayı istiqamətində gələn qədim su kəməri aşkara çıxmışdır. Ehtimal ki, saraya və hamama su bu kəmərlə gətirilmişdir. Yaşlı sakinlərin dediyinə görə, saray binasının şimal-şərqində əvvəllər şah tövlələri olmuşdur. Hal-hazırda isə burada yaşayış evləri tikilmişdir. Divanxanadan şimaldakı yaşayış evlərindən birində hörgüsü sarayın fasadının hörgüsünə oxşayan qədim divarın gövdəsi görünür. Bu, ehtimal ki, saray ansamblına daxil olan binaların qalıqlarıdır.

Qeyd etmək lazımdır ki, ansambla daxil olan binalar müxtəlif vaxtlarda tikilsə də, vahid memarlıq üslubu ilə birləşdirilmişdir. Seyid Yəhyanın məqbərəsinə bitişik məscid, eləcə də, türbə və aşağı həyətdəki məscid xaçabənzər günbəzşəkilli binaların prinsipi ilə planlaşdırılmışdır. Üslub vəhdəti memarlıq formalarının yığcamlığında, tağ və stalaktitlərin formasında, baştağların, tağların timpanlarının və binaların digər hissələrinin haşiyələrinin zəngin naxışlanmasında və bəzədilməsində, ərəb hürufatından bəzək kimi istifadə olunmasında, binaların hörgüsündə müxtəlif rəngli daşlardan ensiz və enli zolaqlar salınmasında və digər detallarda təzahür edir.

Şirvanşahlar sarayı ansamblı Azərbaycan memarlığının və dekorativ tətbiqi sənətinin, inşaat texnikasının böyük inkişafından, o dövrün memarlarının, həkkaklarının, nəqqaşlarının yüksək sənətkarlığından xəbər verir. Bu memarlığın spesifik cəhətləri, ehtimal ki,

Abşeronun əlahiddəliyi, onun iqtisadi və təbii xüsusiyyətləri, gözəl inşaat materialı – badamdar daşının olması və i.a. bağlıdır. Ansamblın binalarının memarlığı, ehtimal ki, Abşeronun dövrümüzədək gəlib çatmamış ona qədərki abidələrinin memarlığı ilə bağlıdır. Onun köklərini Abşeronun və Şirvanşahların qədim paytaxtı Şamaxının uzaq keçmişində axtarmaq lazımdır.

Yüksəkliyin təpəsində ucaldılan saray ansamblı günbəzlərinin və minarələrinin siluetləri, yaraşıqlı monumental memarlıq formaları ilə Şirvan hökmdarlarının – Dərbəndilər sülaləsi şirvanşahlarının vəsfi ideyasını təcəssüm etdirən əzəmət və möhtəşəmlik təsiri bağışlayırdı. Ansambla daxil olan binalar müxtəlif vaxtlarda tikilmişdir. İlk binalar, ehtimal ki, sarayın XIV əsrin sonlarında tikilmiş mərkəzi hissəsi, yəni, ikinci mərtəbənin girişi hündür hamar baştağı ilə haşiyələnmiş səkkizguşəli salonu, habelə sonralar Seyid Yəhya Bakuvinin türbəsinin bitişdirildiyi "təzə məscid"dir. I Xəlilüllah zamanında – XV əsrin birinci yarısında sarayın özünün qalan binaları, türbə (h.839 (1435/6)-cu il), şah məscidi, minarəli saray məscidi (h.845 (1441/2)-ci il), sonralar isə saray hamamı və ovdan tikilmişdir.

XV əsrin ikinci yarısında Seyid Yəhya Bakuvinin türbəsi, XV-XVI əsrlərin ayrıcında, Fərrux Yəssar zamanında, ehtimal ki, Divanxana və qərb fasadına bitişik əlavə bina tikilmişdir. Ansamblın ən son tikilisi h.994 (1585/6)-cü ilə aid Şərq darvazasıdır. XV əsrdə saray ansamblı Bakı qalasının içqalası olaraq, bürclü divarla əhatə edilmişdi;[162] ehtimal ki, 1501-ci ildə dağıdılmışdır. Onun XX əsrin əvvəllərinədək nəzərəçarpan izləri dövrümüzədək qalmamışdır.

Qədim şəhərin görkəmi təkrarolunmaz gözəlliyə malikdir. Bu gözəlliyi ona təkcə orta əsrlər memarlığının görkəmli abidələrindən olan Qız qalası, saray ansamblı və qədim məscidlər deyil, həm də geniş buxtanın sahilindəki yerin relyefindən məharətlə istifadə edilərək salınmış dar küçə və döngələri, bazar və meydançaları olan qədim məhəllələr verir. XVI əsrədək şəhərin mərkəzi təpənin başında, şirvanşahın və feodal əyanlarının yaşadığı saray zonasında yerləşirdi.

Şəhər orada yaşayan bu və ya digər əhali təbəqəsinin adını daşıyan bir sıra məhəllələrə bölünürdü. Hər məhəllənin öz məscidi var idi. Məsələn, tayfalarla – **yeddilər, gilək,** yaxud **doqquzlar,** habelə

peşə sahibləri ilə – **hamamçılar, həkkaklar** – bağlı qədim məhəllə adları indiyədək qalmaqdadır. "Şahgəldi" məhəlləsinin adı maraqlıdır.

Şahgəldi Hüseyn bəy Lələ Şamlunun cilovdarı olmuşdur. Fərrux Yəssarla Şah İsmayılın döyüşündə Şahgəldi Gülüstan qalasının yaxınlığında onu təqib edən qızılbaşlardan at belində qaçan Fərrux Yəssarı haqlayaraq başını kəsmiş və şahın hüzuruna gətirmişdir.[163]

Qızılbaşlar 1501-ci ildə Şirvanı zəbt etdikdən sonra şah Hüseyn bəy Lələ Şamlunu oraya canişin təyin etdi. O isə Şahgəldi ağanı öz yerinə Şirvana hakim qoydu.[164] Ehtimal ki, Şahgəldi ağa Bakıda yaşamış, saray zonasındakı adlı-sanlı feodalların yaşadığı məhəllə də onun adı ilə adlanmışdır. Ən qədim məhəllələrdən olan Şeşəlinin adı, görünür, türbənin girişi üstündəki altıguşə şəkilli xonça ilə bağlıdır. Orada kufi xətlə 6 dəfə "Əli" sözü yazılmışdır. Divanxana rotondasının beş girişinin üstündəki altıguşəli xonçalarda kufi xətlə 6 dəfə Əli sözü həkk edilmişdir.[165] Həmin kitabələr göstərir ki, şəhər əhalisi sünni olduğu halda, Dərbəndi sülaləsindən olan şirvanşahlar şiə idilər.

Şəhərin həndəvərində, qala divarlarının yaxınlığında burada emalatxanaları olan sənətkarlar yaşayırdılar. Şəhərin ən yoxsul təbəqələrinin də evləri burada idi.

Dərbəndilər sülaləsindən olan ilk şirvanşahlar sürətlə qalalar, saraylar, məscidlər və digər binalar tikdirirdilər. Şirvanşahların Abşeronun Nardaran kəndindəki yay iqamətgahı XV əsrin əvvəlinə aid saray imarətlərindəndir. Bakuvi 1403-cü ildə qeyd edirdi ki, şəhər əhalisi hər il yayı üzüm, əncir və nar yetişdirilən bağlarda keçirir.[166] Şirvanşahların xan bağı adlandırılan iqamətgahı üslubca saray ansamblının ilk tikililərinə yaxındır.

Xəlilullahın hakimiyyəti dövründən Cümə məscidinin üzərində Quran ayəsindən ibarət kitabə və şirvanşahın adı həkk olunmuş h.841 (1437/8)-ci ilə aid minarəsi qalmışdır.[167] Kitabə şərəfəni (müəzzinin dayandığı kiçik dairəvi eyvan) saxlayan stalaktit pərvazın (qurşağın) altındadır.

Bakı qalasındakı Xacə Əmirşah məscidinin girişində aşağıdakı məzmunda daş kitabə qalmışdır:

"Bu nurlu məscidi Allah naminə tikməyi sultan oğlu Şeyx İbrahimin zamanında möhtərəm sədr, mərhum Xacə Hacı Yaqubun oğlu Xacə Əmirşah 818-ci ildə əmr etdi" (1415/6)-cı il.[168]

XV əsrdə bir sıra ölkələrlə ticarətin inkişafı ilə əlaqədar Şirvanşahlar karvansara, ovdan və körpülərin tikintisinə diqqəti artırdılar. Tacirlərin və xırda alverçilərin dükanları, habelə bir sıra karvansaralar, o cümlədən Buxara karvansarası (XV əsr), Multani karvansarası (Hindistandakı Multan əyaləti əhlindən olan hin tacirlərinin karvansarası) limanın yaxınlığında yerləşirdi. Həmin karvansaralar, ehtimal ki, XV əsrə aiddir. Hindistan Azərbaycanla hələ VII əsrdən,[169] bəlkə də daha əvvəllərdən iqtisadi və mədəni əlaqələr saxlayırdı. Abşeronda maddi sərvətlərin artması, feodal əyanlarının və ruhanilərin əlində külli miqdarda pul vəsaitinin toplanması tikintinin inkişafına əlverişli şərait yaradırdı.

Qazıntı zamanı Qız qalasının yaxınlığında üç tərəfdən Divanxananın tağlarına və sütunlarına oxşayan tağlı və sütunlu dəhlizlə əhatə olunmuş kiçik meydan aşkar edilmişdir. Bu meydanda quyu olmuş və XII-XIV əsrlərə aid bir neçə məqbərə üzə çıxarılmışdır. Ehtimal ki, bu həyət və dəhliz ibadət yeri türbə, pir olmuşdur. Həmin ərazidə aparılacaq gələcək tədqiqatlar və qazıntı işləri bu binanın təyinatını aydınlaşdırmağa imkan verəcəkdir.[170]

Bakı və Abşeronda XIV-XV əsrlərə aid çoxlu ictimai təyinatlı abidələr – hamamlar və ovdanlar tikilmişdir. Həmin hamamların çoxunda ənənəvi planlaşdırma prinsipləri təkrar olunur.[171] Hamamlar, adətən günbəzdəki fənərlər vasitəsilə işıqlandırılırdı. Onlar saxsı borular, yaxud döşəmənin altındakı kanallar vasitəsilə qızdırılırdı: qızdırılmış su bu kanallar vasitəsilə dövr edirdi. Hamam binası, adətən, istini saxlamaq üçün yer səthindən aşağıda tikilirdi.[172]

Qız qalasının qənşərindəki Hacı Qaib hamamı təqribən XV əsrə aid olub, daha mükəmməldir. Onun kiçik otaqlarla əhatə olunan səkkizguşəli mərkəzi soyunma və yuyunma salonları vardır.[173] Bu hamamın tağları və günbəzləri Abşeron hamamlarınkından formaca daha müxtəlif və mükəmməldir. Bakıda bu tipli bir sıra başqa hamamlar da qalmışdır.

Bakıda, İçərişəhərdə və onun xaricində, Abşeronda bir sıra ovdanlar – süxur və kəhriz sularını toplamaq və saxlamaq üçün yeraltı qurğular qalmışdır. Ovdanların və içməli su quyularının tikilməsi, bütün Şərqdə olduğu kimi, Azərbaycanda da nəcib və xeyirxah iş sayılmışdır. Ovdanları tikənlərin və tikilmə tarixləri, adətən, onların girişindəki kitabələrdə əks etdirilirdi. Onların girişləri memarlıq baxımından çatma tağlı baştağ şəklində düzəldilirdi. Ovdanlar tor-

paqda qazılmış, yaxud bərk süxurlarda oyulmuş pillələrlə düşülən maili lağımlardır.[174] Lağımın qurtaracağında kəhriz sularının toplandığı çarhovuz olur. Onların üstü müxtəlif cür, bəzən çatma tağla örtülürdü. Bakıda indiki Niyazi küçəsində, Şirvanşahlar sarayının, keçmiş gömrükxananın yaxınlığında ovdanlar var idi.[175] Onlardan biri haqqında S.Bronevski məlumat verir: "Şəhərin şimal divarından təqribən 300 addım aralıdakı əhalini su ilə təmin edən qədim quyu diqqətəlayiqdir. O, çox böyük çətinliklə daş təbəqəsində 45 sajın dərinliyində qazılmışdır və bir sajın böyüklükdə kvadratşəkilli ağzı var. Ora girdikdən sonra suya qədər dik pillələrlə düşmək lazımdır. Pilləkənin qurtaracağında olduqca iri zağa oyulmuşdur. Onun ortasında hovuz vardır ki, oradan təmiz bulaq suyu götürürlər".[176] Təsvir olunan ovdan dövrümüzədək qalmamışdır. Bundan başqa İçərişəhərdə XVI əsrə aid bir neçə ev, yaşayış evinin baştağı, portikli (eyvanlı) qədim tikili və s. aşkar edilmişdir.

İçərişəhərdə ictimai binalar, o cümlədən musiqinin müşayiəti ilə idman yarışları keçirilən "zorxana"da olmuşdur. Zorxana XVIII əsrin sonlarında burada olmuş səyyah tərəfindən təsvir edilmişdir.[177]

Zorxana Buxara və Multani karvansaralarının yaxınlığındakı tağ örtüklü zirzəmidə yerləşirdi. Onun qapısı bazar tərəfdən idi. Zirzəminin ortasında idman oyunları üçün nəzərdə tutulan eni-uzunu 10 metr və dərinliyi 1,5 metr olan "süfrə" deyilən kvadrat meydança var idi.[178] "Öz istəyi ilə buraya gələn hər kəs hər iki əlinə müxtəlif ağırlıqda daş götürüb musiqinin müşayiəti ilə tamamilə yorulana qədər oynadırdı".[179] İdman oyunları və məşqlər ağac, dəmir və daşdan düzəldilmiş müxtəlif alətlər – mil, yekbəgirlər, ağır daşlar və s. – vasitəsilə aparılırdı. İdman məşğələləri hər gün keçirilir və onlarda tanınmış pəhləvanlar iştirak edirdi.[180]

b) Elm, ədəbiyyat və incənəsət

XI əsrin sonu və XIII əsrin əvvəli Şirvanın tərəqqisi dövrü olmuşdur. Şirvanşahlar elm, incəsənət və poeziyaya hamilik edirdilər.

Dövlətşah Səmərqəndinin məlumatına görə şirvanşah Şeyx İbrahim (1382-1417-ci illər) Şirvana gəlmiş məşhur fars şairi Katibi Turşizinin bir şerinə görə ona 10 000 qızıl dinar bağışlamışdı.[181]

O dövrün ən görkəmli alim və şairləri Şirvanşahlar sarayında toplanmışdı. Məsələn, Mənuçöhr və I Axsitanın hakimiyyəti dövründə Əbülüla Gəncəvi, Fələki Şirvani, Əfzələddin Xaqani, Məhsəti və b. kimi bir çox görkəmli şair və mütəfəkkirlər Şirvanda yaşayırdılar.[182] Həmin şairlərdən Əbülüla Gəncəvi, Fələki Şirvani və Xaqani Şirvanın və onun vilayətlərinin "məliküşşəra"sı ("şairlər şahı") sayılırdı. Bu dövrdə dahi Azərbaycan şairi Nizami yazıb yaradırdı. İncəsənət və ədəbiyyatın tərəqqisi orta əsr Azərbaycan mədəniyyətinin ümumi yüksəlişinin tərkib hissəsi idi. Bu dövrdə dini və sufi-mistik görüşlərin təsiri altında olan fəlsəfə, elm və ədəbiyyat xüsusilə inkişaf etmişdi.

A.Bakıxanov elmi əsərləri olan Şirvandan çıxmış görkəmli orta əsr alimlərini sadalayaraq, onların arasında Məhəmməd Əli Bakuvi kimi tanınan Şeyx Əbu Abdullah Əli ibn Məhəmməd Bakuvinin adını çəkir.[183] Bakuvi (948-1050-ci illər) Bakıda ilahiyyatçı ailəsində doğulmuşdur. Onun ilk müəllimi atası olmuşdur. Bakuvi zahiriliyin ardıcılı olmuş, sonralar isə batinilərə yaxınlaşmışdır. O, ixtiyar yaşlarında Bakını tərk edərək dağda mağaraya çəkilmiş və guşənişin həyat sürmüşdür. Bakuvi şair və panteist filosof olmuşdur. O, çoxlu səyahət etmiş, İranda, Orta Asiyada, Ərəbistanda və ehtimal ki, Hindistanda olmuşdur. Səyahətdən qayıtdıqdan sonra Nişapurda və Şirazda yaşamışdır. Bakuvi şeirlərini Baba Kuhi (dağlarda yaşayan qoca) təxəllüsü ilə yazmışdır. Onun əsərləri hədislər toplusundan, sufilərin həyatından bəhs edən "Əxbər əl-arifin", "Əxbər əl-qafilin" toplularından, şeir və hikmətli sözlər məcmuəsindən ibarətdir. Bakuvi şiə olsa da, onu mömin müsəlman hesab etmək doğru olmaz. Onun dünyagörüşündə atəşpərəstliyin və Günəşə sitayişin təsiri özünü göstərir. Bakuvi bütün Şərq ölkələrində məşhur olmuşdur.[184]

Bakuvinin şirvanşahın qızına məhəbbəti haqqında rəvayət dövrümüzədək gəlib çatmışdır: XVII əsrin əvvəllərinin səyyahı Şirazda dağın başında Bakuvi ilə yanaşı onun ölümündən sonra qəbrinə və ziyarətə gələn zəvvarlara xidmət göstərmək üçün oraya gəlmiş şirvanşahın qızının (*Roi de Baku*) dəfn olunduğu məqbərəni təsvir etmişdir.[185]

XIV-XV əsrlərin hüdudlarında bütün Yaxın və Orta Şərqdə ifrat şiə təriqəti olan hürufilik geniş intişar tapdı. Panteist istiqamətli bu

fəlsəfi cərəyanda şəxssiz başlanğıc olan Allah təbiətin özü ilə eyniləşdirilir.[186] Təriqətin banisi Fəzlüllah Nəimi Astrabadi idi (d.təqribən 1340-cı il – ö.h.796 (1394)-cü il). Teymurun sürgün etdiyi Fəzlüllah Nəimi 1386-cı ildən Bakıda və Şirvanda yaşamışdır. Teymurun oğlu Miranşah Fəzlüllahı 1394-cü ildə Naxçıvan yaxınlığındakı Əlincədə öz əli ilə qətlə yetirmişdir. Bu yaxınlarda Nəiminin qəbri tapılmışdır. Sufizmin güclü təsiri altında olan hürufilik təlimi Fəzlüllahın və onun müridlərinin yazdığı bir sıra traktatlarda – "Cavidan-i Kəbir", "Məhrəmnamə" və s. əksini tapmışdır.[187] Hürufiliyin tərəfdarları quranın əsas ehkamlarının yenidən nəzərdən keçirilməsini və təkzib olunmasını mümkün hesab edirdilər. Bu təlimə görə Kainat əbədidir. "İlahi başlanğıc insanda, hətta onun surətində təcəssüm edir, zira insan Allahın surəti kimi yaradılıb. Kainat kimi, insan cəmiyyətinin hərəkəti də siklik surətdə dövr edir. Hər sikl Adəmin təzahürü ilə başlayıb "Qiyamət günü" ilə qurtarır. İlahi başlanğıc peyğəmbərliyə, müqəddəsliyə, ilahiliyə, yaxud allahlığa qədər kamilləşən insanda təcilli edir. Sonuncu peyğəmbər Məhəmməd, ilk müqəddəs Əli, sonuncu müqəddəslər isə on birinci şiə imamı Əl-Həsən əl-Əsgəri olmuşdur. Fəzlüllah Astrabadi allahın təccəlla etdiyi ilk insandır".[188] Fəzlüllahın məşhur "ənəlhəqq" – "mənəm allah" ifadəsi bütün Yaxın Şərqdə geniş yayılmışdı. Hürufilər nitqin, ağlın rəmzi, təcəssümü saydıqları ərəb əlifbası hərflərinə (cəm halda – hüruf) mistik məna verirdilər. Onlar insanla, təbiətlə, Allahla eyniləşdirilirdilər. Hərflərdə insan surətinin xətt və ünsürlərinin mistik nişanələri gizlənmişdir.[189] Şiəlik kimi, hürufilik də feodalizmə, Teymurilər istibdadına qarşı xalq hərəkatlarının ideoloji pərdəsi idi. Hürufilik təlimi öz dövrünə görə mütərəqqi olmuşdur. Feodalizmə qarşı inqilabi müxalifət bütün orta əsrlər boyu davam etmişdir. Zamanın şəraitinə müvafiq olaraq o, gah mistika şəklində, gah açıq bidət şəklində, gah da silahlı üsyan şəklində meydana çıxır.[190] Hürufilik hərəkatı dini pərdəsinə baxmayaraq, açıq-aşkar antifeodal xalq hərəkatı istiqaməti daşımışdır. Fəzlüllah edam olunduqdan sonra hürufilər Teymurilərə qarşı çıxış etmişlər. Hürufilər "istibdad və zülmü aşıb daşdığı yer üzünə həqiqət və ədalət gətirəcək"[191] Qaimin, yəni Mehdinin zühuruna inanırdılar.

XIV əsrin sonlarında Bakı hürufilik təliminin bütün Yaxın və Orta Şərqə yayılmağa başladığı mərkəz idi. Qeyd etmək vacibdir ki, Bakı əhalisi sünniliyin şafiilik məzhəbinə mənsub müsəlmanlar idi.[192] Laikn şiəlik burada artıq XIII əsrin axırlarında və XIV əsrdə yayılmağa başlamışdı. Bunu XIII əsrin sonunda Bibiheybətdə şiə müqəddəslərindən sayılan Hökumə xanımın məscidinin və məzarı üzərində türbəsinin tikilməsi, eləcə də XV əsrdə Şirvanşahlar sarayının Divanxanasında və türbəsində Əlinin adı çəkilən kitabə də göstərir. Görünür, Dərbəndi Şirvanşahlar sülaləsindən olan I Xəlilüllah, ehtimal ki, şiəliyə meyl göstərmiş, yaxud həmin kitabələr, sonralar, XVI əsrin əvvəllərində, Dərbəndi şirvanşahlar – Şeyxşah və başqaları – vassalı olduqları Şah İsmayıla xoş gəlmək üçün şiəliyi qəbul etdiyi vaxtlarda yerləşdirilmişdir. XIV əsrin sonlarında Azərbaycanda görkəmli şair, filosof və mütəfəkkir İmadəddin Nəsimi (1369-1417) yaşayıb-yaradırdı. Bir ehtimala görə, təbrizli, başqa bir ehtimala görə isə şamaxılı olan Nəsimi Bakıda yaşayırdı. O, türk, fars və ərəb dillərində zəngin poetik irs qoyub getmişdir. Aşağı təbəqələrdən çıxmış Nəsimi xalqa ən yaxın lirik şair, onun hakim feodal sinfinə və zadəganlara nifrətinə tərəfdar çıxmışdır. Nəsimi dünyagörüşü etibarilə hürufi olmuşdur. Fəzlüllah Nəiminin ölümündən sonra Nəsimi hürufilik təriqətinin ən görkəmli rəhbəri olmuşdur. Nəsiminin bütün həyatı və yaradıcılığı hürufilik ideyalarının yayılmasına, Teymurilər əleyhinə mübarizəyə həsr olunmuşdur. O, müsəlmanları Allaha və dinə xidmətdən imtina etməyə çağırmışdır. Onun bütün əsərləri, türkcə Divanı hürufilik fəlsəfəsi və ideyaları ilə aşılanmışdır. Nəsimi ən gözəl şeirlərindən birində özünün fəlsəfi ideyalarını belə ifadə edir:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam!
Gövhəri-ləməkan mənəm, kövnü məkana sığmazam!

Ərşi ilə fərşü kafi nun, məndə bulundu cümlə çun,
Kəs sözünü və əbsəm ol, şərhü bəyana sığmazam.

Kövnü məkandır, ayətim, zatınadır bidayətim,
Sən bu nişan ilə, məni, bil ki, nişana sığmazam.

Kimsə gümanu zənnilə olmadı həqqilə biliş,
Həqqi bilən bilir ki, mən zənnü gümanə sığmazam.

Surətə baxü mənіyi surət içində tanı kim,
Cismilə can mənəm, vəli, cismilə cana sığmazam.

Həm sədəfəm, həm inciyəm, həşrü sirat əsənciyəm,
Bunca qumaşü rəxtilə mən bu dükanə sığmazam.

Gənci-nihan mənəm, mən uş, eyni-əyan mənəm, mən uş
Gövhəri-kan mənəm, mən uş, bəhrəvi kanə sığmazam.

Gərçi mühiti-əzəməm, adım Adəmdir, adəməm,
Tur ilə kün-fəkan mənəm, mən bu məkanə sığmazam.

Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm,
Gör bu lətifəyi ki, mən, dəhrü zamana sığmazam.

Əncüm ilə fələk mənəm, vəhyilə həm mələk mənəm,
Çək dilinivü əbsəm ol, mən bu lisanə sığmazam.

Zərrə mənəm, günəş mənəm, çarilə pəncü şeş mənəm,
Surəti gör bəyanilə, çünki bəyanə sığmazam.

Zatiləyəm sifatilə, gülşəkərəm nəbat ilə,
Qədriləyəm bəyatilə, püstə dəhanə sığmazam.

Şəhdilə həm şəkər mənəm, şəms mənəm, qəmər mənəm,
Ruhi-rəvan bağışlaram, ruhi-rəvanə sığmazam.

Tir mənəm, kaman mənəm, pir mənəm, cavan mənəm,
Dövləti-cavidan mənəm, ayinədanə sığmazam.

Gərçi bu gün Nəsimiyəm, Haşimiyəm, Qüreyşiyəm,
Məndən uludur ayətim, ayətə, şanə sığmazam.[193]

Nəsimi XV əsrin əvvəllərində hürufilik təlimini yaymaq məqsədilə Yaxın Şərqə səyahətə çıxdı. O, çoxlu tərəfdarları və istedadının pərəstişkarları olan Suriyada, Hələb şəhərində yazdığı şeirlərində insanın gözəlliyini, həyat sevinclərini, Allahın böyüklüyünü tərənnüm edirdi. Nəsimi hürufiliyi təbliğ etdiyinə görə orada 1417-ci ildə qəddarcasına edam olunmuşdur.

Təqiblərə baxmayaraq hürufilik təriqəti Yaxın və Orta Şərqin bir sıra ölkələrində XVI əsrdə də mövcud olmuşdur. Hürufiliyin tərəfdarları sənətkarlar, şəhər yoxsulları və ziyalılar – şəhər əhalisinin yerli feodalların və Teymuri hökmdarlarının zülmünə daha çox məruz qalan təbəqələri idi.[194]

Yuxarıda qeyd etdiyimiz kimi, sufizmin bir qolu olan hürufilik yunan fəlsəfəsi ilə çulğalaşmış, hind fəlsəfəsinin müəyyən cəhətlərini mənimsəmişdi. XIV-XVI əsrlərin bidətlərindən biri də hürufiliyin ideologiyasını davam və inkişaf etdirən nöqtəvilik təriqəti idi. Nöqtəvilik XIV əsrin sonunda meydana gəlmişdi. Təriqətin banisi Mahmud Pasixani Gilani idi. Gilani Araz sahilində yaşayırdı və sonralar onu öz təriqətindən qovmuş Fəzlüllah Nəiminin ən yaxın müridlərindən və tərəfdarlarından olmuşdur. Onun mükəmməl savadlı, təmkinli adam olduğu və 1427/8-ci ildə öldüyü məlumdur. O, bir sıra kitab və risalələr yazmışdır. Tədqiqatçılar nöqtəviliyi, əslində, Allahı inkar edən, ağlı yeganə diqqətəlayiq dəlil sayan materialist təlim sayırlar. Mahmudun çoxlu müridləri var idi və onun təlimi həmin dövrdə Azərbaycanda, İranda, Türkiyədə və Hindistanda geniş yayılmışdı. Nöqtəvilik hərəkatı xalq kütlələri ilə yanaşı, ziyalılara və hakim siniflərə, o cümlədən, Hindistan şahı Cəlaləddin Əkbərə (1556-1605-ci illər) sirayət etmişdi. Səfəvilər dövlətində dərviş Xosrov Qəzvini, dərviş Kamal Əqlidi, dərviş Beyran bu təlimin görkəmli nümayəndələri idi. Azərbaycanda nöqtəviliyin təmsilçiləri Budaqbəy Ustaclu, təbib Süleyman Savəci, şah Abbasın edam etdirdiyi Mir Seyid Əhməd Kaşi və b. olmuşlar. Səfəvilər nöqtəviləri amansızcasına təqib edirdilər, belə ki, nöqtəvilik şah Təhmasib və şah Abbas dövründə geniş yayılmışdı. Şah Abbas 1594-cü ildə bütün nöqtəviləri və nöqtəvilikdə şübhələnənləri yaxalamaq haqqında fərman vermişdi. Amansız təqiblər və cəzalar nöqtəviləri başqa Şərq ölkələrinə qaçmağa məcbur etdi. Onların bir hissəsi Hindistana qaçdı. Burada maarifçi və ağıllı hökmdar olan Cəlaləddin Əkbər şah xüsusi fərmanla müxtəlif dini etiqadların nümayəndələrinin öz ölkəsində sərbəst yaşamasına icazə vermişdi. Nöqtəvilər hind alim və filosofları ilə əlaqə yaratmış, Əkbər şaha onun vəziri, ümumi sülh dininin (din-i ilahi) banisi Əbu Fəzl Əllamə-i Dekani vasitəsilə yol tapmışdılar.[195] Bu vəziyyətdən istifadə edən nöqtəvilər öz təlimlərini Hindistanda açıq şəkildə yayırdılar.

Əkbər şahın saray adamlarından bir çoxu onların təlimini qəbul etmişdi. Əkbərin sarayına qəbul edilmiş məşhur nöqtəvi Şərif Amili müxtəlif din və şəriət nümayəndələrinin şahın hüzurunda keçirilən mübahisəsində qalib çıxmış və şah onu ölkədə ən yüksək vəzifəyə təyin etmişdi. Şah Abbas dövründə böyük cəza tədbirləri ilə əlaqədar İsgəndər Münşinin Səfəvilər dövlətində nöqtəviliyə son qoyulduğunu iddia etməsinə baxmayaraq, XIX əsrin birinci yarısının alim və səyyahı Hacı Zeynalabdin Şirvani bunun əksinə olan bir vəziyyəti təsvir edir. O, nöqtəvilik təlimini şərh edərkən İrana səyahəti zamanı bu təriqətin ona gizli şəkildə etiqad bəsləyən çoxlu nümayəndələri ilə söhbətlər apardığını xəbər verir.

Tədqiqatçılar nöqtəviliyin mahiyyətinə dair suala müxtəlif şəkildə cavab vermişlər. Əhməd Hilmi "İslam tarixi" adlı əsərində yazır: "Nöqtəviliyin nümayəndələri belə hesab edirdilər ki, özü-özlüyündə mənasız olan hərf (hüruf) deyil, onların əsasını, mahiyyətini təşkil edən nöqtə müqəddəsdir". Bu təyin (tərif) şəriətin zahiri əlamətlərini əhatə edir. Digər tədqiqatçılar isə nöqtəviliyi batiniliyin yayılmış formalarından biri sayır. Bu təlimin ideologiyasının mahiyyəti məsələsinə dair tədqiqatçıların fikri olduqca müxtəlifdir.[196] Z.Quluzadə mənbələrin kasadlığına baxmayaraq, bu cərəyan və onun fəlsəfəsi haqqında müəyyən təsəvvür verir: "...nöqtəvilik bütün mövcudatı vəhdətdə görür, vəhdəti nöqtəyə, nöqtəni isə yerə müncər edir. Yer daim hərəkətdə və dəyişmədədir. Bütün mövcudat, o cümlədən yerin zəruri və əzəli nöqtəsi olan göylər də yerlə bağlıdır. Şəkli və cismi olan hər şey zərrənin təzahürü olub, əbədidir və ancaq bu dünyada mövcuddur. Onun müxtəlif formaları – minerallar, bitkilər və i.a. var. Digər tərəfdən, nöqtəvilər varlığın əsasını 4 ünsürdə görürlər. Dörd maddi ünsürdən, onların birləşməsindən minerallar, onlardan bitkilər, bitkilərdən heyvanlar, heyvanlardan insan törəyir və o da, öz növbəsində kamil insan səviyyəsinədək inkişaf edir". Nöqtəvilərin təlimində insanın ilahiləşdirilməsi əsas yer tutur. Onlar "Rəhmli və mərhəmətli Allahdan başqa Allah yoxdur" düsturu əvəzinə "Özünə nəzər sal ki, səndən başqa heç nə yoxdur", "Onun (yəni, Allahın) bənzəri yoxdur" əvəzinə "mənəm həqqin təcəssümü" deyə yazırdılar. Nöqtəvilər insanın kamilliyinə və zəkasına böyük əhəmiyyət verir, insan zəkasını dindən üstün tutaraq, dini dəlilləri tamamilə etibarsız sayırdılar.

İslamı rədd etsələr də, onlar öz fəlsəfələrində Şərqin digər təriqət və təlimlərində olduğu kimi Quranın təfsirinə müraciət edirdilər.

Nöqtəvilik fəlsəfəsi bir sıra digər müddəaları ilə yanaşı, nöqtə haqqında mistik təlimi hürufilikdən iqtibas etsə də, materializmə və rasionalizmə doğru böyük təmayülü ilə ondan fərqlənirdi.[197]

Şirvanda fəlsəfə və elmin inkişafı XIV-XV əsrlərdə də müşahidə edilir. A.Bakıxanov o dövrün Bakıdan çıxmış görkəmli alimlərinin – XIV əsrdə yaşamış Məhəmməd ibn Mahmudun "Nəfais əl-fünun" kitabında haqqında bəhs etdiyi dərviş Əbusəid Abdal Bakuyinin adını çəkir.[198]

Bəzi fərmanlara[199] və A.Bakıxanovun məlumatına görə onun Bakı şəhərinin xaricində olan qəbri və sovməəsi (ibadət etdiyi yer) torpaq altında qalmış, məscid və mehmanxanası isə Bakıda baş verən iğtişaş nəticəsində xarab olmuşdur. Bu yerdə olan bir neçə ev "Xəlifə damı" adı ilə məşhur olmuşdur.[200] Bakı şəhərinin 1806-cı ildə tərtib edilmiş planında qalanın yaxınlığında, forştadtda, Şamaxı darvazasından şimal-qərbdə "Xəlifədam kəndi" adlanan yaşayış məntəqəsi göstərilir.[201] Mövqeyinə və miqyasına görə bu yer indiki Təzəpir məscidinin ərazisində olmuşdur.

Qocaman sakinlərin köhnə Bakı haqqında dediklərinə görə "şəhərin içində əhali çox olduğundan onlar tədricən şəhərin bayırında evlər və daha sonralar məhəllələr salmağa başladılar. İçərişəhərdən bir qədər yuxarı, indiki Təzə pir küçəsində bir nəfər özünə su quyusu qazdıqda yer altından bir qəbir çıxmışdı. Əhalinin avam və mövhumatçı hissəsi buna dini bir rəng verib ziyarətgah adlandırmış və adını Təzə pir qoymuşdular. Şeyx Əbusəid adlı birisi onun yerində tezliklə bir məscid tikərək dövrəsini hasarlamış və buranı pir adlandırmışlar. Bu məscidin ətrafında tikilən evlərə son zamanlara qədər Təzə pir məhəlləsi deyilirdi".[202]

Yuxarıda gətirilən məlumatlar Bakı dərvişi Əbusəidin dəfn olunduğu yeri müəyyənləşdirməyə imkan verir.

H.1232 (1817)-ci ildə Bakı bəyi Mənsurxan bəyin oğlu və sonuncu Bakı xanı Hüseynqulu xanın kürəkəni Qasım bəy onun qəbrini və məscidini təmir etdirmişdir.[203] XX əsrin əvvəllərində (1905-1914-cü illərdə) həmin ərazidə kübar və varlı Bakı qadınlarından Nabat xanım Aşurbəyli-Rzayeva köhnə məscidin yerində bugünədək fəaliyyət göstərən böyük Təzəpir məscidini tikdirmişdir. Nabat xanım məscidin girəcəyində dəfn olunmuşdur.

XIV əsrin sonu-XV əsrin əvvəllərində Azərbaycanın ən görkəmli orta əsr alimlərindən biri əslən bakılı olub, Bakuvi nisbəsi ilə tanınan Əbdürrəşid ibn Salih ibn Nuri olmuşdur. Bu müəllifin ərəbcə "Təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar ("Abidələr"in xülasəsi və qüdrətli hökmdarın möcüzələri") adlı dövrümüzədək gəlib çatmış yeganə coğrafi əsəri h.806 (1403)-cı ildə yazılmışdır.[204] Müxtəlif ölkələrdə bu əsərin bir sıra çap nüsxələri, eləcə də farscaya tərcüməsi ilə birlikdə əlyazmaları mövcuddur. 1614-cü ildə üzü köçürülmüş və hazırda 5299 nömrəsi ilə Paris Milli Kitabxanasında saxlanılan ərəbcə əlyazmalarından biri 1789-cu ildə de Gin tərəfindən fransız dilinə tərcümə olunmuşdur.[205] Bakuvinin əsərini 1971-ci ildə akad. Z.M.Bünyadov (ərəbcə mətni, rus dilinə tərcüməsi, müqəddimə və i.a.) nəşr etdirmişdir.[206]

Bu ümumdünya tarixinin Paris əlyazması ölkələrin və şəhərlərin müxtəsər təsviri verilən 464 fəsildən ibarətdir. Bakuvinin əsəri yeddi iqlimdən bəhs edən yeddi hissəyə bölünür. O, həmin hissələrin hər birində ölkə, şəhər və kəndlərin və i.a. adlarını əlifba qaydası ilə düzmüş, beləliklə, onları lüğət formasında təqdim etmişdir. Bakuvi bir sıra Şərq ölkələrinin, o cümlədən Azərbaycanın iqtisadiyyatı, faydalı qazıntıları, mineralları, qiymətli daşları, müxtəlif malları haqqında bir sıra dəyərli məlumatlar verir. Onun əsərlərində həmin ölkələrin tarixinə, etnoqrafiyasına, incəsənətinə dair və maraqlı məlumatlar vardır. Bakuvinin əsərinin təhlili onun öz dövrünün ən savadlı adamlarından biri olduğunu göstərir. Onun əsəri üçün əsas mənbə Zəkəriyyə Qəzvinin "Asar əl-biləd" ("Ölkələrin abidələri") əsəri olmuşdur. Lakin o, İstəxri, Məsudi, Biruni, İbn Sina, Yaqut Həməvi, Həmdullah Qəzvini və başqalarının da əsərlərinə bələd idi. O, külli miqdarda kitaba isnad verir, çoxlu alim, şair, həkim və filosofun adlarını çəkir. Bakuvinin tarixi coğrafiya sahəsində biliyi haqqında onun məlumat verdiyi ölkələrin diapazonunun böyüklüyündən də şərqdə Çindən tutmuş, qərbdə Əndəlusiyayadək, şimalda İrlandiya və Rus dövlətindən tutmuş cənubda Afrika ölkələrinədək – fikir yürütmək mümkündür. Ən maraqlısı isə onun bir sıra yeni məlumatlar verdiyi Bakı şəhərini təsvir etməsidir.[207] Bakuvi xəbər verir ki, Bakı onun atasının – h.806 (1403/4)-cı ildə, yetmiş yeddi yaşında vəfat etmiş İmam Salih ibn Nurinin vətənidir. Buradan həmin əsərin 1403-cü ildə, yaxud ondan azacıq

sonra yazıldığını və müəllifin hakim təbəqə nümayəndələrinə mənsub olduğunu müəyyənləşdirmək mümkündür. Əbdürrəşid Bakuvi ruhani-alim imam ailəsində doğulmuşdur. Mətnə görə, müəllif imam Şafinin tərəfdarlarına mənsub sünni olmuşdur. Atasının yaşına görə Bakuvinin XIV əsrin ikinci yarısının əvvəlində doğulduğunu ehtimal etmək olar. Mətndən Bakuvinin ərəblər arasında yaşadığı aydınlaşır. Hacı Xəlifənin əlyazmalarının birindi onun Qahirədə öldüyü göstərilir.[208] Bakuvinin əsəri Şərqdə məşhur olmuşdur. Bu əsər əslən bakılı olan XIV əsrin sonu-XV əsrin əvvəli orta əsr Azərbaycan aliminin həm Şərq, həm də Qərb ölkələrinin, o cümlədən Azərbaycan, Ermənistan, Gürcüstan və Dağıstanın tarixi coğrafiyasına dair çoxlu qiymətli məlumat verən dövrümüzədək gəlib çatmış yeganə kosmoqrafik əsəri kimi mühüm əhəmiyyət kəsb edir. Əsərdəki ondan əvvəlki müəlliflərin əsərlərində rast gəlinməyən məlumatlar xüsusilə qiymətlidir. Bu əsər o dövrün orta oxucu təbəqəsinin malik olduğu coğrafi məlumatların məcmusunun göstəricisi kimi əhəmiyyətlidir.[209]

XV əsrdə Bakıda, Xəlilüllahın sarayında yaşamış Yaxın və Orta Şərqdə məşhur olan alim və filosoflardan biri hənifi, xəlvəti suffisi Seyid Yəhya ibn əs-Seyid Bəhaəddin əş-Şirvani əş-Şəmaxi əl-Bakuvidir. Seyid Yəhya Şamaxıda varlı ailədə doğulmuşdur. Gəncliyində sufiliyə həvəs göstərmiş, xəlvətilik təriqətinin Şirvan qolunun başçısı məşhur şeyx Sədrəddin əl-Xəlvətinin təliminin ardıcılı olmuşdur. Şeyx Sədrəddinin ölümündən sonra onun müridlərindən Pirizadə ilə xəlvətilik məzhəbinə kimin başçılıq etməsi üstündə arası dəyən Seyid Yəhya Şamaxını tərk edərək Bakıya gəlmiş və burada Xəlilüllahın sarayında yaşamışdır. O, Xəlilüllahın sarayında filosof və alim kimi böyük şöhrət qazanmışdı. Onun yanına çoxlu adam axışıb gəlməyə başladı və tərəfdarlarının sayı on min nəfəri keçdi. Yaxın Şərq ölkələrində də onun çoxlu ardıcılları var idi. Seyid Yəhya sufi-mistik səciyyəli bir sıra əsərlər yazmışdır. A.Bakıxanov onun haqqında aşağıdakıları bildirir: "Seyid Yəhya Bakuvinin adı hicri səkizzinci əsrin ortalarında təriqət böyükləri sırasında çəkilir. Onun fəzilətləri və gözəl xasiyyətləri məşhurdur. Bakı şəhərində ona mənsub olan məscidin yanında sovməəsi, mədrəsəsi və qəbri indi də durur". Seyid Yəhya dini-mistik ideyalarla aşılanmış "Şərhi-"Gülşəni-raz" ("Gülşəni-raz"ın şərhi") və "Əsrar ət-talibin"

("Həqiqət axtaranların sirri") risalələrinin, habelə astronomiya və tarixə dair əsərlərin müəllifidir. "Nəql edirlər ki, o, ömrünün sonlarında altı ay ərzində yemək yeməmiş və Bakı şəhərində vəfat etmişdir". Onun ölüm ili bir versiyaya görə h.862 (1457)-ci il, digər versiyaya görə isə h.868 (15.IX.1463-2.IX.1464)-ci il sayılır.[210] Seyid Yəhyanın türbəsi Şirvanşahlar sarayının ərazisindədir. Ehtimal ki, Şirvanşahların bir çox qohumlarının da qəbirləri həmin ərazidə olmuşdur.

İçərişəhərdəki dövrümüzədək qalmış XIII-XIV və sonrakı əsrlərə aid abidələr göstərir ki, həmin vaxtlarda Bakıda mollaxanalar, eləcə də əsasən ilahiyyat və fəlsəfə fənləri, habelə müsəlman hüququ tədris edilən mədrəsələr olmuşdur. 1301-ci ilə aid kitabəsi olan belə mədrəsələrdən biri Cümə məscidinin yaxınlığındadır.

Bakı və Abşeronun memarlıq abidələri göstərir ki, burada XI-XV əsrlərə aid bir sıra gözəl imarətlər yaradan təcrübəli memar-bənnalar olmuşdur. Daş kitabələr XIII əsrdə Mərdəkandakı dairəvi qalanın memarı Əbdülməcid ibn Məsud, XIII əsrdə Bakı buxtasındakı istehkamı tikmiş ustad Zeynəddin ibn Əburəşid Şirvani, XIV əsrə aid məscidi tikmiş ustad Mahmud ibn Məsud, XIII əsrin sonu-XIV əsrin əvvəllərində yaşamış, Nardaran qalasını, Şıx kəndində məscid və minarə, İçərişəhərdə Molla Əhməd məscidini inşa etmiş Mahmud ibn Səd, Molla Nəsrullah məscidindəki kitabəni işləmiş XIV əsr həkkak-xəttatı Məhəmməd əl-Arif, XIV əsrdə yaşamış, Balaxanıdakı imarətin bənnası ustad Arif ibn Musa Cəbəl, XIV əsrdə Nardaran kəndində hamam tikmiş memar Güştəsf ibn Musa, XV əsrdə Bakıda Şirvanşahların türbəsini tikmiş memar Məhəmməd Əli və b. istedadlı ustaların adlarını qoruyub saxlamışdır. Kitabələrdə memarların adlarının haralı olduqlarını bildirən nisbilərlə çəkilməsi baş memarın – ustadın başçılıq etdiyi bədii memarlıq və sənətkarlıq məktəblərinin mövcud olduğunu göstərir.

Seyid Yəhya Bakuvi türbəsinin daxili bəzəyi Bakıda boyakar rəssamların yaşadığını göstərir. Abidələrdə adları qalmış sənətkarlar burada bir çox istedadlı daş üzərində oyma ustalarının, heykəltəraşların olmasından xəbər verir. Bakı yaxınlığında o dövrdə heykəltəraşlığın inkişafını göstərən XIII əsrə aid abidə vardır. Bakı buxtasında, "Bayıl daşları" deyilən qala tipli qədim imarət yerində üzərində ərəb hürufatı ilə kitabələr həkk olunmuş 600-dən çox daş

aşkar edilmişdir. Qabarıq şəkildə işlənmiş bu kitabələr həmin abidənin divarlarının yuxarı hissəsini əhatə edən haşiyədə yerləşdirilmişdi. Daşların kitabə olmayan bütün boş yerləri dəvə, at, öküz, inək, canavar, it, bəbir və s. quş və heyvanların qabarıq təsvirləri ilə doldurulmuşdur. Onların bəziləri böyük ustalıqla, realist səpkidə işlənmiş, bu və ya digər heyvana məxsus səciyyəvi hərəkətləri əks etdirir.[211] Bu qabartmalar içərisində gül, insan başlı, heyvan bədənli varlıq, tac qoyulmuş insan başı və s. təsvirlərinə də təsadüf edilir. Şimal-qərb darvazasının yaxınlığında tapılmış və ehtimal ki, onun üstündə yerləşdirilmiş təbii ölçülü iki at barelyefinin hissələri diqqəti cəlb edir.[212] Barelyefdəki rəsm o dövrün incəsənətini səciyyələndirən yüksək sənətkarlıq nümunəsidir. Daşların birində, ehtimal ki, bütün gbstərilən təsvirlərin yaradıcısı olan Nəqqaş Rəşidin adı qalmışdır.

Şirvanşahlar sarayı ərazisindəki quyuların birindən, XII əsrə aid təbəqədə, üç metr yarım dərinlikdə üzərində tökmə atlı, ata hücum edən vəhşi heyvan, iki öküz başı, iri pişikkimilər fəsiləsindən olan on dörd vəhşi heyvan başı, iki qabartma insan sifəti, heykəl təsvirləri və s. detallar olan bürünc çıraq tapılmışdır. Çırağın uzunluğu 18 sm, hündürlüyü təqribən 8,5 sm-dir. O, əridilmiş mumun köməyi ilə düzəldilmişdir. Onun tökülməsi üçün iki hissədən ibarət qəlib hazırlanmışdır.[213]

Abşeronda mühafizə olunmuş maddi mədəniyyət və incəsənət abidələri içərisində böyük maraq doğuran daş qoyun və at heykəlləri, habelə məişət, ov səhnələri və s. barelyef təsvirli daş lövhələr də vardır.

Abşeronun Zığ kəndindəki müsəlman qəbiristanlığında qoyun və atların heykəl təsvirləri şəklində və adətən, üzərində ərəb hürufatı ilə kitabələr həkk olunmuş qəbirdaşları qalmışdır.[214] Abşeronda rəsmlərlə və heykəltəraşlıq elementləri ilə bəzədilmiş başdaşlarında da təsadüf edilir. Şüvəlan kəndindəki köhnə qəbiristanda qabartma əjdaha təsviri olan daş lövhə aşkar olunmuşdur.[215] Bütün bu heykəltəraşlıq əsərləri həmin dövrdə bədii sənətlərin, o cümlədən heykəltəraşlığın inkişafından xəbər verir.

Şirvanşahlar sarayında Divanxana köşkünün və türbənin baştağlarındakı daş üzərində bədii oyma işləri nəqqaş rəssamların, həkkakların yüksək sənətkarlığını göstərir. Şirvanşahlar sarayındakı

gözəl xalça ornamentləri ilə bəzədilmiş başdaşındakı kitabə Xəlilüllahın hökmranlıq dövrünə aiddir. Kitabədə deyilir: "Bu nurlu qəbir və təmizləyici məşhər və səcdə edilən məqbərə rəhmətlik şeyx Bəhlulun oğlu mərhum, günahları bağışlanmış, böyük Allahın mərhəmətini qazanmış xoşbəxt şəhid, əzəmətli, ağıllı, kəramətli, ən böyük əmir, səxavət və şücaət sahibi, dünya əmirlərinin başçısı Əmir Təhmurəsindir. Hicri 863-cü il, cəmadiyül-axir ayı (5.IV-4.V.1459-cu il)"[216] Kitabədən göründüyü kimi, əmir Xəlilüllahın əmisi oğlu və atası şeyx Bəhlul kimi şirvanşah qoşunlarının baş sərkərdəsi olmuşdur. O, ehtimal ki, Şirvanda, Xəlilüllahla şeyx Cüneyd arasındakı vuruşmada həlak olmuşdur. Bunu onun ölüm tarixi də göstərir.

Abşeronun Zığ kəndində nəbati xalça naxışları, ərəb və fars dillərində kitabələrlə bəzədilmiş başdaşı XV əsrdə Abşeronda dekorativ sənətin inkişaf etdiyini göstərir.[217] Kitabədə müharibədə həlak olmuş əmir Zülqərneyn ibn əmir İsgəndər Dərbəndinin ölümündən xəbər verilir. Bu, onun dərbəndli, adlı-sanlı nəsildən olduğunu və əmir titulu daşıdığını göstərir. Onun ölüm ili – h.852 (1448)-ci il – I Xəlilüllahın hakimiyyəti dövrünə düşür. Kitabənin məzmunu belədir: "Bu qəbir mərhum, xoşbəxt şəhid əmir Zülqərneyn bin əmir İsgəndər Dərbəndinindir. Səkkiz yüz əlli ikinci il (h.852 (1448)-ci il – *S. A.*) Biz Bab əl-Əbvab – Dərbəndin pak torpağında ürəyimizin qanı ilə oğul böyütdük. Biz, ata-anası və qohum-əqrəbası onun nazənin üzündən şadlanırdıq... kökündən qopardı. Sənin cavan cismin qızıl gül kimi torpağa səpələndi, ömür köynəyin qönçə ləçəkləri kimi parça-parça oldu. Sənin gözəl vücudunu torpaqda axtarsaq da... Allah torpağını pak eləsin. Kaş əcəl tikanı sənin ayağına batan gün taleyin əli ölüm qılıncını mənim başıma endirəydi, ta bu gün gözlərim dünyanı sənsiz görməyəydi. Başıma kül ələnmiş halda sənin qəbrin önündə dayanmışam".[218]

Fars dilində yazılmış bu şeir XV əsrdə Abşeronda yayılmış mərsiyə nümunəsidir.

Abşeronun XI-XV ərslərə aid epiqrafik abidələrinin öyrənilməsi məscidlərdəki, türbələrdəki, başdaşlarındakı kitabələrin çoxunun ərəb dilində, bəzilərinin isə, məsələn, Bayıl buxtasındakı sualtı imarətin divarlarındakı XIII-XIV əsrlərə aid kitabələrin Ölcaytunun yarlığının farsca olduğunu müəyyənləşdirməyə imkan

vermişdir. Beləliklə, X-XIV əsrlərdə Abşeronda rəsmi dövlət dili olan ərəb dili ilə yanaşı, fars dili də işlənmişdir. Lakin folklor nümunələri yerli dillərdə yaradılırdı.

Bakı şəhəri əhalisinin danışıq dili XIV əsrin sonunda və XV əsrin əvvəllində Bakıda yaşayan böyük Azərbaycan şairi Nəsimi, Bədr Şirvani və başqa şairlərin yazıb-yaratdığı türk dili idi.

Həsənoğlunun müasiri olan Bakı şairi Nasirin (XIV əsrin əvvəli) bakılıların bir sıra vergilərdən azad olunması və şəhərin abadlaşdırılması haqqında yarlıqlar vermiş sultan Məhəmməd Xudabəndə Ölcaytuya (1304-1316-cı illər) ithaf etdiyi türkcə-azərbaycanca müxəmməsi də qalmışdır.[219] Türk dilinin Albaniyada yayılmasını III əsrdə və ondan əvvəllər Albaniyanın yerli adı olan türk toponimi Arran, VII-VIII əsrlərdə isə Musa Kalankatlının "Albaniya tarixi"ndə və ərəb mənbələrində qədim türk titulları ilə yanaşı, indi də Azərbaycan dilində işlədilən avçı, çöpçü, tanrı, hannan hana kimi sözlərə təsadüf olunması da sübut edir. Bəlazuri (IX əsr) Azərbaycanın 646-cı ildə ərəblər tərəfindən işğal olunmasından bəhs edərkən "çətinliklə, tədricən, nəhayət" mənalarını bildirən azərbaycanca "hannan-hana" ifadəsini mətndə ərəbcəyə tərcümə etmədən vermişdir. Məsudi (X əsr) Bakı haqqında, onun palçıq vulkanları, neft və qaz fontanlarının püskürməsi haqqında məlumat verərkən "atmaq" felindən feli isim olan "atma" sözünü işlədir. Xaqanidə (XII əsr) türkizmlər çoxdur; o, III Mənuçöhrün Kür çayı üzərində tikdirdiyi bənddən bəhs edərkən onu türkcə "bağlamaq" felində olan "Baqilani" adlandırır.

Abşeronun bir sıra kəndlərinin əhalisi irandilli tatlardan, bəzi kəndlərinki türkdilli tayfalardan, Bakı əhalisi isə, əsasən türklərdən və bəzi digər xalqlardan – ləzgilər, iranlılar və b. – ibarət idi.[220]

Mənbələrdə və bədii ədəbiyyatda orta əsr Azərbaycan şəhərlərində musiqi mədəniyyətinin inkişafına, məşhur müğənni və musiqiçilərin olmasına dair məlumatlar var. Klassik Azərbaycan musiqisi ciddi və mükəmməl məqam sisteminə əsaslanırdı. Müğənni və çalğıçıların ifaçılıq sənətkarlığı yüksək səviyyədə idi. İstedadlı müğənnilər və çalğıçılar öz iştirakları ilə feodal hakimlərinin və zadəganların saraylarını rövnəqləndirirdilər. Musiqi-ifaçılıq mədəniyyəti feodal cəmiyyətinin müxtəlif təbəqələrinin həyatının bütün sahələrini əhatə edirdi.[221]

Azərbaycanın İran və Hindistanla musiqi sahəsində də əlaqəsi var idi. Türk, fars və hind xalqlarının muğam musiqisi ilə bir sıra ümumi cəhətlərə malik olan Azərbaycan muğamları bütün Şərqdə sevilən musiqi əsərləri idi.

Azərbaycan muğamları "Hümayun", eləcə də "Mahur-hindi" Hindistanla, onun musiqisi ilə bağlıdır. "Mahur-hindi", "Rast" məqamı üstündə gedir. "Hümayun" isə başqa quruluşa malik olub, müstəqil "Hümayun" məqamına əsaslanır və onlar fərqlənirlər.

Muğam, Şərqin bütün xalqlarının musiqisi üçün tipik janrdır. Lakin onların hər birində muğamın özünün səciyyəvi cəhətləri var. Muğam başlıca olaraq, estetik funksiyaya malikdir. Azərbaycan muğamında dövrün emisional, xüsusilə fəlsəfi məzmunu ümumiləşmiş şəkildə açılır. Muğam şifahi ənənələrə bağlı professional musiqidir. "Muğam poetik yaradıcılıqla sıx bağlıdır. Muğam melodiyaları Nizami, Hafiz, Nəvai, Füzuli və başqa şairlərin şeirləri üstündə oxunurdu. Keçmişin böyük şairləri isə, eyni zamanda, böyük mütəfəkkir və filosof idilər. Poeziya kimi, muğamın da əsas qayəsi dövrün dünyagörüşünün açılmasına yönəldilmişdi... Poemaya da, muğama da bütünlüklə eyni emosional ovqata köklənmək, emosiyaların çevik və tez-tez dəyişməsi, kulminasiya gərginliyi səciyyəvidir".[222] Muğamda, adətən, əbədi məhəbbət mövzusu səslənir. Azərbaycan muğamında təzadlı bölmələr – şöbələr bir-birini əvəz edir. Əvvəlcə mahnı-rəqs səciyyəli "Dəraməd" gəlir, sonra onu instrumental müqəddimə – "Bərdaşt" əvəz edir. Onun ardınca improvizasiya şöbəsi – "Mayə", onun dalınca növbələşən instrumental improvizasiya şöbələri, "Təsnif" – mahnı, sonra "Rəng" – instrumental melodiya gəlir.[223] Azərbaycan musiqisi üçün rəqs başlanğıcı mühümdür. Muğamın əsasında səs sırası, kök – məqam durur.

On iki əsas muğam və on iki əsas məqam məlumdur. XIV–XV əsrlər görkəmli Azərbaycan musiqişünas alimi Əbdülqadir Marağinin risaləsindən aydın olur ki, "muğam" termini altında nəzəriyyədə səs sırası kimi təsbit olunmuş və ehtimal ki, praktikada musiqi əsərinin başlıca musiqi düsturunun üzərində qurulduğu on iki əsas məqamdan biri nəzərdə tutulur.[224]

Beləliklə, muğamın əsasını müəyyən məqam təşkil edir. Muğam – şifahi ənənəli improvizasiya sənəti və iri vokal-instrumental musiqi formasıdır.

"Muğam üçün intonasiya təfərrüatı səciyyəvidir. Bu, muğam əsərlərinin irihəcmliliyinə səbəb olmuşdur. Keçmişdə bir muğam dəstgahının ifası bir neçə saat çəkirdi. Muğam çoxhissəli əsərdir. Azərbaycan muğamlarında seyirçi başlanğıcın geniş yayıldığı müşahidə edilir. Muğamın başlıca obrazlı məzmunu fikir düşüncədir. Seyirçilik improvizasiya üslubuna təkan vermişdir. Muğamın başlıca intonasiya funksiyası məqamın ifadə imkanlarının tam açılmasıdır. Burada öz şəxsində yaradıcı və ifaçını birləşdirən peşəkar musiqiçinin fərdi təxəyyül, istedad və sənətkarlığı tam mənası ilə təzahür edir. Eyni muğamın şöbələrinin sayı müxtəlif ifalarda müxtəlif ola bilər. Lakin muğamın əsas struktur prinsipi məqamın tədricən melodik şaxələnməsidir. Muğamlar sayca çox deyil. Əsrlər boyu eyni muğamlar mövcud olmuş, əsas muğamlardan törəmə muğamlar yaranmışdır. Orta əsrlərdə olduğu kimi, indi də muğamları xüsusi təhsil almış peşəkar müğənnilər ifa edirlər".[225] Muğam müəyyən dövrlərin – orta əsrlərin, bəlkə də qədim keçmişlərin qiymətli abidəsidir. Azərbaycan muğamlarından Bayatı-Kürd, Bayatı-Şiraz, Heydəri, Şahnaz, Çahargah, Novruz ərəbi, Nəva, Çoban-bayatı, Şüştər, Azərbaycan, Şur, Rast və b. daha məşhurdur.

Əbdülqadir Marağinin risaləsində deyilir ki, "türklər başqa muğamlar yaratsalar da, Üşşaq, Nəva və Busəliyi daha üstün tuturlar".[226]

Şərəfxan Bidlisi (XVI əsr) "Şərəfnamə" əsərində h.913 (1507/8)-cü ildə Kürdüstanın istilası zamanı Şah İsmayıl Səfəvinin qoşunları Əhlət yaxınlığında düşərgə salarkən, Bidlis hakimi Əmir Şərəfin şaha verdiyi ziyafət təsvir edilir. "Gümüşayaqlı, büllurçiyinli, ayüzlü saqilər, zərbafta paltarlı, süzgünyerişli cariyələr, əbədi çeşmə suyu kimi saf şərab piyalələrini əllərində vüqarla gəzdirib şadlığa, nəşəyə" çağırırdılar. Xoşavazlı xanəndələr və xoşsədalı musiqiçilər zildən və bəmdən Üşşaq melodiyasını oxumağa başladılar, çəngin və rübabın iniltisi böyük və kiçiyin ağlını, idrakını başından apararırdı. Şeir:

Hər tərəfdən əllərində al-əlvan badələr,
Qönçəyə bənzər sərməst saqilər zühur etdi.
Zərxara geyinmiş bu gözəllər günəşə bənzəyirdilər,
Onlar ürəyi tələtümə gətirir, ağlı çaşdırırdılar.

Şəkər dilli qəzəlxanlar
Ərəbcə qəzəllər oxuyurdular.
Qızılgül çöhrəli gözəllər
Xumar türkülərlə ürəkləri ovlayırdılar.
Çəngin pəriüzlülərin zülfünə bənzər telləri
Aramsız olaraq "Üşşaq" havası çalırdı.

Üşşaq Rast muğamının şöbələrindən biri olub, Azərbaycan xalqının peşəkar xanəndə və musiqiçilər tərəfindən ifa edilən ən çox sevdiyi muğam əsərlərindəndir.

Azərbaycan, İran və Hindistanın musiqi mədəniyyəti həmin ölkələr arasında istər qədimdə, istərsə də orta əsrlərdə mövcud olmuş və hal-hazırda davam edən çoxəsrlik əlaqələrlə şərtlənən çoxlu ümumi cəhətlərə malikdir.

Azərbaycan rəqsinin çoxəsrlik ənənələri vardır və o, demək olar ki, qədim zamanlardan XX əsrin əvvəlinədək ilkin şəklində gəlib çatmışdır.

Mezolit dövrünə aid Qobustan qaya təsvirlərindəki "Yallı" kollektiv rəqs rəsmi ölkədə, Qobustan yaxınlığındakı Abşeron və Bakı bölgəsində yayılmış Azərbaycan rəqs sənətinin çoxəsrlik qədim ənənələrinə sübutdur.

XII əsrdən başlayaraq Bakının şəhər mədəniyyətinin yüksəlişi feodal cəmiyyətinin bütün əvvəlki tarixi inkişafı ilə hazırlanmışdı. XII əsr və XIII əsrin 20-ci illərinə qədərki dövr Bakının ilk çiçəklənmə dövrü olmuşdur. Bakının Azərbaycan ərazisində mühüm feodal qurumlarından olan Şirvanşahlar dövlətinin paytaxtına çevrildiyi XV əsr şəhər mədəniyyətinin inkişaf dövrü idi.

IV Fəsil

BAKI XVI-XVIII ƏSRİN BİRİNCİ YARISINDA

1. SƏFƏVİLƏRİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ BAKININ SİYASİ TARİXİ (XVI ƏSR)

Bizim məqsədimiz Bakıda baş verən hadisələri işıqlandırmaq olduğundan, bütünlüklə Azərbaycanın siyasi tarixinin müfəssəl şərhi üzərində dayanmayaraq, yalnız şəhərlə bağlı hadisələrdən bəhs edirik.

Səfəvilər 1538-ci ildə Şirvanşahlar dövlətini özlərinə tabe etdikdən sonra azərbaycanlıların 1578-ci ilə qədər davam edən bir sıra üsyanlarını yatırmalı oldular.[1]

H.146 (1539/40)-cı ildə şahın əmri ilə sonuncu şirvanşah Şahrux Təbrizdə gizlincə edam olundu.[2] Şirvanın müstəqilliyinin ləğv edilməsindən narazı olan Şirvan zadəganları öz istiqlaliyyətinin bərpasına çalışaraq, əhalinin şah və onun canişinlərinin hakimiyyətinə qarşı bir sıra antifeodal üsyanlarına başçılıq edirdilər.

Şah Bakını tiyul kimi Qazi xan Təkəliyə bağışladı,[3] lakin şəhər əhalisi ona müqavimət göstərdi. İnadlı və şiddətli mübarizədən sonra Razi xan Təkəli h.947 (1540/41)-ci ildə Bakı qalasını tutdu və əhalidən xeyli adam qırdı.[4] Şirvandakı sonrakı hadisələr türk müdaxiləçiləri və şirvanlıların Səfəvilər əleyhinə türk sultanlarının əlaltıları – Bürhanəli, Mehrab xan, Qurbanəli, Qasım Mirzə və Şirvanşahlar nəslindən olan digər şəxslərin başçılıq etdikləri üsyanları ilə bağlıdır.

Sultan Süleyman h.935 (1548/9)-ci ildə Azərbaycana yürüş edərkən Bürhanəli onunla birləşdi. Sultan onu qoşunla irəli göndərdi və o, qoşunun köməyi ilə Şirvanı tutdu. Bürhanəli iki il vali kimi orada qaldı və təqribən h.958 (1551)-ci ildə öldü. Onun ölümündən sonra qızılbaşlar Şirvanı yenidən zəbt etdilər. Bürhanəlinin azyaşlı oğlu Əbubəkr Mirzə isə Dağıstana qaçdı.[5]

Həsən bəy Rumlu xəbər verir ki, Bürhanəli öldükdən sonra Şirvan zadəganları onun meyitini gizlətmişlər. Lakin Şirvan bəylərbəyi Abdulla xan Ustaclı onu tapmış, qəbirdən çıxararaq başını kəsdirmişdir. Şirvan zadəganları Bürhanəlinin qohumlarının başçılığı

ilə qiyam qaldıraraq Xəzər dənizi sahilinə yaxın adalardan birindəki Derov kəndinə qaçmışlar. Abdulla xan onlara hücum edərək çoxunu qırmış, mallarını ələ keçirib Şamaxıya qayıtmışdır.[6]

Sultan Süleymanın Azərbaycana növbəti yürüşü 1554-cü ildə olmuşdur. Türk sultanının Şirvanşahlar nəslindən olan əlaltısı Qasım Mirzə tərkibində yeniçərlər də olan böyük ordu ilə Dərbənddən keçərək Şirvana gəldi. Zadəganlar və Şirvan əhalisi Səfəvilər əleyhinə qiyama başçılığı öz üzərinə götürən Qasım Mirzəyə qoşuldular. Döyüş Gülüstan qalasının yaxınlığında baş verdi. Abdulla xan qiyamçıları məğlub etdi, onlar Təbərsərana qaçdılar, lakin Qasım Mirzə başda olmaqla, qiyamçıların böyük hissəsi qırıldı və onların başlarından minarə ucaldıldı.[7]

Qeyd etmək lazımdır ki, Şah İsmayıl Şirvanı işğal etsə də, Şirvanşahların hakimiyyətini tanımış, onları hakimiyyətdə saxlamışdı. Şah Təhmasib, hətta, Şirvanın müstəqilliyini ləğv etdikdən sonra da Şirvanşahlar nəslindən olan ayrı-ayrı şəxslərin bayrağı altına keçən Şirvan əhalisinin müqavimətini tam qıra bilməmişdi. Sonuncular Cənubi Dağıstana[8] sığınaraq Azərbaycandakı işğalçılıq siyasətində onlardan istifadə edən Osmanlı Türkiyəsinin tələfində çıxış etmək üçün fürsət gözləyirdilər. Müstəqillik meylləri sünni Şirvan zadəganlarının əksəriyyəti arasında güclü idi. Şirvan zadəganlarının sünni mənsubiyyəti və sünnipərəst meylləri şiəlik tərəfdarı olan və işğalçılıq cəhdləri Şirvanşahların torpaqlarına doğru tuşlanan qızılbaşlara və Səfəvi hökmdarlarına qarşı, bir növ, müxalifət təşkil edirdi.

Səfəvilərlə Osmanlılar arasında hərbi əməliyyatlar yalnız 1555-ci ildə, Səfəvilər dövləti ilə Türkiyə sülh müqaviləsi bağladıqdan sonra dayandı. İyirmi ildən çox davam edən dinclik dövrü və Azərbaycanın şimal və cənub vilayətlərinin Səfəvilər dövləti tərkibində birləşməsi ölkənin şəhərlərinin, o cümlədən Bakının sosial-iqtisadi həyatına əlverişli təsir göstərdi. Bakıda şəhər həyatının, Rus dövləti və digər ölkələrlə ticarətin inkişafı, ticarət karvansaralarının və digər binaların tikilməsi müşahidə edilir. Abdulla xan Ustaclı h.956 (1549)-cı ildə Şirvana bəylərbəyi təyin olunduqdan sonra Səfəvilər burada öz hakimiyyətlərini daha da möhkəmləndirdilər.[9]

Məhəmməd Xudabəndə (1577-1587) zamanında feodalların mərkəzdən ayrılmaq cəhdləri və araçəkişmələri nəticəsində

Səfəvilər dövlətinin zəifləməsi müşahidə olunur. Bununla yanaşı, Osmanlı Türkiyəsi – xüsusilə Səfəvilərə qarşı bir sıra yürüşlər etmiş I Sultan Süleyman (1520-1556), II Səlim (1566-1574) və III Muradın (1574-1595) hakimiyyətləri dövründə gücləndi.

1578-1580-ci illərdə odlu silahla, top və texnika ilə yaxşı silahlanmış 100 minlik türk ordusu Lala Mustafa paşanın başçılığı altında yenidən Azərbaycana girərək Ərəşi, Qəbələni, Şamaxını, Bakını, Şabranı, Mahmudabadı, Salyanı və digər şəhərləri tutdu.[10] Şirvana yürüşdə Lala Mustafa paşanı Şirvanşahlar nəslindən Bürhanəlinin oğlu, bu vaxta qədər Dağıstanda gizlənən Əbubəkr Mirzə müşayiət edirdi. Lala Mustafa paşa Şirvanı tutduqdan sonra Əbubəkr Bakının da daxil olduğu vilayətin valisi təyin etdi.[11]

Türk mənbələrinin verdiyi məlumata görə, Şirvan əhalisi orada qalmış qızılbaşları qırmışdır.[12]

Ehtimal ki, köçəri qızılbaş feodallarının ağır vergilərindən və zülmündən cana gəlmiş Şirvan əhalisi Osmanlıların gəlməsi ilə oturaq əhali üçün daha əlverişli şərait mövcud olan Şirvanşahlar dövlətinin keçmiş müstəqilliyinin bərpa ediləcəyinə ümid bəsləyirdi. Belə ki, Dərbənd sakinləri Osmanlı ordusunun şəhərə hücumu ərəfəsində qiyam qaldıraraq 300 qızılbaşı öldürmüş, şəhərin hakimi Çıraq xəlifəni həbs etmişdilər.[13]

Türkiyə-İran müharibələrinin ideoloji əsasını dini motivlər təşkil etsə də, Osmanlı Türkiyəsi əslində, Cənubi Qafqazın zəngin ölkələrini və Azərbaycandan keçən tranzit ticarət-karvan yollarını ələ keçirməkdə maraqlı idi. Bundan başqa Türkiyə Bakı limanını tutmaqla Xəzər dənizinə çıxmağa cəhd göstərirdi. Türk sultanlarını Azərbaycanı işğal etməyə sövq edən amillərdən biri də Şirvanın sərvətləri – nefti, duzu, ipəyi, pambığı və s. idi.[14]

Şirvanın işğalına zahirən Şirvanşahlar xanədanının bəzi nümayəndələrinin öz keçmiş hakimiyyətlərini bərpa etmək məqsədilə Şirvan sünnilərinin Səfəvilər əleyhinə üsyanına başçılıq etmək barədə türk sultanına müraciətləri bəhanə olmuşdu.[15] Hətta, Şirvanın və Bakının Osmanlıların hakimiyyəti altına düşdüyü bu hala belə həmin işğallar və Şirvanşahların nəsillərinin ölkəni formal surətdə idarə etməsinin bərpa olunması qısamüddətli və səbatsız olurdu. Türklər tutduqları Azərbaycan şəhərlərində öz qarnizonlarını yerləşdirdilər və ölkəni paşalıqlara və sancaqlara böldülər. Sikkə sultanın adından

kəsilməyə başladı. Şirvan iki bəylərbəyliyə – Şamaxı və Dərbənd bəylərbəyliklərinə bölündü.[16]

Osman paşa Şirvan bəylərbəyi təyin olundu.[17] Şamaxı vilayəti, Bakının da daxil olduğu 16 sancaqdan idi; Lahıc (Hövz və Lahıc), Ağdaş, Qəbələ, Salyan, Zərdab, Şəki, Bakı (Badku) (Abşeronla birlikdə – *S.A.*), Səde-ru, Qara Ulus, Axtı və İxır, Diku, Siryan (Sirxan), Osmani, Xudaverd (Xudaderd), Mahmudabad, Ərəş, Bakının hakimi, o vaxtadək Oltuda olan Osmanlı alay bəyi Əbubəkr bəy təyin edildi.[18]

Osmanlı məmurları şəhər və yerlərdə əhalini siyahıya alaraq, Osmanlı vergi sistemi tətbiq edirdilər. Sikkə sultanın adından kəsilməyə, məscidlərdə xütbə III Muradın adından oxunmağa başladı. Mustafa paşa Osmanlı qarnizonlarını Azərbaycan və Şirvan şəhərlərində yerləşdirdikdən, Şamaxıda, Bakıda, Ərəşdə və digər şəhərlərdə qalaları möhkəmləndirdikdən sonra ordunu buraxdı və onu geriyə, Gürcüstan yolu ilə qışlamaq üçün Ərzuruma göndərdi. O, Özdəmir oğlu Osman paşanı Şirvandakı işğal qoşunlarının komandanı təyin etdi. 1580-ci ildə Səfəvilər türk qoşunlarının getməsindən istifadə edərək Osmanlılara qarşı yenidən hərbi əməliyyata başladılar. Türk qoşunları şah Məhəmməd Xudabəndinin oğlu Həmzə Mirzə tərəfindən məğlub edildi. Bu zaman Şamaxıda olan və h.974 (1566)-cı ildə ölmüş Abdulla xan Ustaclını əvəz edən Şirvan bəylərbəyi Aras xan Rumlu tərəfindən mühasirəyə alınan Osman paşa Şirvanı tərk edərək Dərbəndə qaçmağa məcbur oldu. Səfəvilər Osmanlılar üzərində bir neçə dəfə qələbə qazandılar. Lakin tezliklə Səfəvilər dövlətində gedən daxili mübarizə və iğtişaşlar nəticəsində onların uğurları dayandırıldı. 1582-ci ilin sonunda III Murad Məhəmməd şahla sülh müqaviləsi bağlamış Sinan paşanı kənarlaşdıraraq, müharibəni Azərbaycan ərazisində davam etdirməyi qərara aldı. 1584-cü ilin yayında 100 minlik (başqa mənbələrə görə, 80 minlik) Krım qoşunu Osmanlıların vassalı Məhəmməd Gireyin başçılığı ilə Şimali Qafqazdan keçərək Azərbaycana soxuldu və Osman paşanın qoşunları ilə birləşərək Qarabağ vilayətini və Şirvanı tutdu. Həmin il Osmanlı qoşunları Şamaxı və Bakını yenidən işğal etdilər. Məhəmməd Girey xan və Osman paşa Şamaxıya daxil olaraq üç gün orada qaldılar, qızılbaşları məhv etmək üçün Şirvanın hər tərəfinə dəstələr göndərdilər. Bakını tutmağa göndərilmiş qoşunlar şəhəri ələ

keçirib, onun qızılbaş müdafiəçilərindən 600 nəfər qırdılar. Xanəli və Maqsud sultanı iyirmi qızılbaşla əsir aldılar. Osmanlı tarixçisi Asəfi qeyd edir ki, Azərbaycana səpələnmiş çoxsaylı Krım qoşunu Şirvanın və ölkənin digər vilayətlərinin rəiyyətini amansızcasına qarət edir, onlara zülm edirdilər. Onlar çoxlu əsir götürüb, Gəncəni, Qarabağı və Muğanı qarət edərək qışın yaxınlaşması ilə Krıma qayıtdılar.[19]

Krım qoşunlarının Azərbaycandan getməsindən istifadə edən şah Məhəmməd Xudabəndə türklərlə mübarizə aparmaq üçün qızılbaş əmirlərinin başçılığı ilə Şirvana qoşun yeritdi. Səfəvi qoşunları Bakını mühasirəyə aldı. Lakin qalanın Osmanlıların qoyduğu Əhməd bəyin rəhbərliyi ilə inadla müdafiə olunması, Dərbənddən dəniz yolu ilə kömək – barıt və silah alınması mühasirədəkilərin Bakını qoruyub saxlamasına kömək etdi. Osmanlı mənbələrinin verdiyi məlumata görə qalanın mühasirəsi 40 gün çəkdi (İsgəndər Münşiyə görə mühasirə 18 gün davam etmişdir). Qızılbaş əmirləri Bakıya yaxınlaşaraq qalanı mühasirəyə almağa başlayanda Müseyib xan Təkəli, Şahrux xan Zülqədər və Pirməhəmməd Ustaclı arasında ixtilaf meydana çıxdı; onların hər biri müstəqil hərəkət etmək istəyir, başqasına tabe olmaqdan boyun qaçırırdı. Səfəvi qoşunlarının düşərgəsində aclıq başladı və onlar məqsədlərinə çatmadan mühasirəni götürməyə və geri çəkilməyə məcbur oldular. Tezliklə qızılbaşlar Osman paşa tərəfindən məğlubiyyətə uğradılar və üstünlük yenidən türklərin əlinə keçdi.

1585-1588-ci illər arasındakı dövrdə türklər Azərbaycanın müharibə, qıtlıq və əmirlərlə şah arasındakı daxili çəkişmə nəticəsində dağılmış şimal və cənub vilayətlərini işğal etdilər.[20]

Şirvan yenidən türklərin hakimiyyəti altına düşdü. Bakının qala divarlarını uçurmuş qızılbaş qoşunlarının getməsindən istifadə edən Osman paşa Bakı qalasını bərpa etdirdi və möhkəmləndirdi. Şəhəri tərk etmiş əhali onun sərəncamı ilə yenidən Bakıya qayıtdı. Asəfinin məlumatına görə "Badkuyə" qalası əhalinin və şəhərə qayıdarkən öz evlərini də təmir və bərpa edən rəiyyətdən yığılan verginin hesabına 4-5 ay ərzində dirçəldidi.[21]

1587-ci ildə ölkənin böyük hissəsi Osmanlılar tərəfindən tutulduğu bir vaxtda şamlı və ustaclılar tayfalarının əmirləri Qəzvində Məhəmməd Xudabəndənin kiçik oğlu, on altı yaşlı I Abbası (1587-

1629) şah elan etdilər. Bu vaxt ölkəni şərqdən özbəklər, İranın daxilində isə qiyamçı qızılbaş tayfaları təhdid etməyə başladı. Bu, şah Abbası Osmanlılarla mübarizədən əl çəkməyə məcbur etdi.[22]

1590-cı il, mayın 21-də şah Abbas türklərlə ağır sülh müqaviləsi bağlamalı oldu. Həmin müqaviləyə əsasən, Talış diyarı və Ərdəbil mahalı istisna olmaqla, Azərbaycanın şimal və cənub vilayətləri, Kürdüstanın bir hissəsi, Şərqi Gürcüstan və şimali Ermənistan türklərə verildi. Abşeronla birlikdə Bakı əvvəlki kimi, türklərin hakimiyyəti altında qalırdı. Türklər ibadətdə rəsmi olaraq sünniliyi tətbiq və şiələri təqib etməyə başladılar. Onlar Azərbaycan əhalisinin üzərinə ağır vergilər qoydular.

Ölkədə, o cümlədən Şirvanda bir sıra antifeodal üsyanların baş verməsi ilə əlaqədar olaraq öz ümidlərində aldanılan və Osmanlıların mərkəzləşdirmə siyasətindən narazı olan Azərbaycan feodal zadəganları kömək üçün şah Abbasa müraciət etdilər.[23]

Bununla bir vaxtda Moskva dövlətinin şərqdə müstəmləkəçilik cəhdləri başladı. XVI əsrin ortalarında Volqaboyunu ələ keçirən Rusiya Cənubi Qafqazın hərbi feodal işğalına, eləcə də Volqa-Xəzər yolunun möhkəmləndirilməsinə çalışırdı. Moskva dövlətinin şərq, o cümlədən Azərbaycana qarşı müstəmləkəçilik niyyətləri ilə əlaqədar həmin ölkələrin öyrənilməsinə maraq yaranır. XVI əsrdə Moskva dəftərxanasının rəsmi coğrafi sənədi Moskva dövlətinin dövrümüzədək gəlib çatmamış rəsmi xəritəsinin (çertyojunun) şərhi olan "Böyük çertyoja dair kitab" idi. Həmin kitabda müxtəlif ölkələr, o cümlədən Azərbaycan haqqında məlumat verilirdi. Kitabın 59-cu səhifəsində Bakının da adı çəkilir. "...Salyandan 30 verst aralı, sahildə Xvalın dənizinin körfəzində Baka şəhəri yerləşir. Bakaşəhərindən 50 verst, Şamaxı şəhərindən isə 40 verst aralı Müşgür şəhəridir..."[24]

Osmanlıların Xəzər dənizinin, Bakı və Dərbənd də daxil olmaqla, Dağıstan və Azərbaycan sahillərini tutması Volqa-Xəzər yolunu onların nəzarətində saxlayır və Rusiyanın ticarət mənafelərini pozurdu.

Bu dövrdə Bakı Volqa-Xəzər ticarət yolundakı bu mühüm limanı ələ keçirməyə çalışan möhkəmlənmiş Moskva dövlətinin diqqətini cəlb edir.

Azərbaycanın şərq vilayətlərində, o cümlədən Bakıda möhkəmlənməkdə iqtisadi cəhətdən maraqlı olan Moskva hökuməti Türkiyə ilə mahıribədə Səfəvilərə kömək göstərməyi vəd edərək. Bakı, Dərbənd və Şamaxı şəhərlərinin Rusiyaya verilməsinə dair şahla diplomatik danışıqlar aparmağa başladı.[25]

Hələ Şah Məhəmməd Xudabəndə zamanında başlayan danışıqlar I Şah Abbas dövründə davam etdirildi. Həmin məsələ ilə əlaqədar Səfəvilər hökuməti ilə ruslar arasında diplomatik yazışmalar, birbirinə səfirliklər və etimadnamələr göndərilməsi təqribən 1588-ci ildən 1618-ci ilədək davam etdi.

I Şah Abbas 1588-ci ildə türklərlə sülh müqaviləsi bağlamamışdan əvvəl öz səfiri Hadi bəyi əvəzində Bakını və Dərbəndi, onların arasındakı sahil zolağı ilə birlikdə, əbədilik Rusiyaya verməyi vəd edərək, Osmanlı dövlətinə qarşı birgə hərbi əməliyyata başlamaq təklifi ilə Moskvaya çar Fyodor İvanoviçin yanına göndərdi. Bu təklifə cavab olaraq Moskva hökuməti danışıqlar aparmaq üçün Qriqori Borisoviç Vasilçikovun başçılığı ilə İrana səfirlik göndərdi.[26]

Vasilçikovun hesabatında I Şah Abbasın onu Qəzvində necə qəbul etməsi (9 aprel 1590), onun Bakı və Dərbənd barəsində sorğusuna şahın bu şəhərlərin Moskva dövlətinə güzəştə gedilməsinə razılığını bildirməsi təsvir olunur.[27]

Şah hökumətinin bu təklifi şifahi edildiyindən Moskva səfirliyi onun yazılı şəkildə təsdiq olunmasına cəhd göstərməyə başladı və Vasilçikov həmin məsələni 1590-cı il mayın 14-də şahın qəbulunda yenidən qaldırdı.[28]

Vasilçikovun səfirliyinə cavab olaraq şah Abbas öz elçiləri Budaq bəyi və Hadi bəyi Bakı və Dərbənd şəhərlərinin Moskva dövlətinə güzəşt edilməsini təsdiqləyən fərmanla Moskvaya göndərdi.[29]

Lakin I Şah Abbasın uğurları sayəsində Səfəvilər dövləti Bakı və Dərbənd şəhərlərini, onların hələ də türklərin əlində olmasına baxmayaraq, Rusiyaya verilməsi məsələsini bir daha qaldırmadı.

Moskva dövləti ilə Şah Abbas arasında bu məsələyə dair danışıqlar, o cümlədən, səfirlik mübadiləsi bir çox illər ərzində, ta 1618-ci ilə qədər davam etdi.

Rusiya şahla uzun danışıqlardan sonra Bakı və Dərbənd şəhərlərinin güzəştə gedilməsinin yazılı təsdiqinə nail olsa da, bu saziş əməli nəticə vermədi, belə ki, bu zaman Rusiya dövlətinin başı olan

Moskvadan çox uzaq olan torpaqlarda müharibə aparmağa imkan verməyən daxili hadisələrə qarışmışdı.

I Şah Abbas 1590-cı ildə Osmanlılarla bağlanmış ağır sülhdən sonra yaranmış dinclikdən öz dövlətini möhkəmləndirmək üçün istifadə etdi. Şah onun mərkəzləşdirmə siyasətinə[30] düşmən olan Azərbaycan (qızılbaş) tayfalarının nüfuzunu xeyli zəiflətdi, dövlətdə İranpərəstlik meyllərini hər cür himayə edərək, hərbi rütbələrə aşağı təbəqələrdən olan yeni kadrlar irəli çəkdi. Şah Abbas paytaxtı Qəzvindən İranın içərilərinə, İsfahana köçürdü. Sülh müqaviləsi ona ordunu yenidən təşkil etməyə,[31] öz qüvvələrini 1602-ci ilin sonunda başlayan yeni müharibə üçün toplamağa imkan verdi.

2. XVII ƏSR – XVIII ƏSRİN BİRİNCİ YARISININ SİYASİ TARİXİ

H.1012-ci il rəbi əs-sani ayının 7-də (14 sentyabr 1603-cü il) I Şah Abbas Osmanlı hökumətinin üsyan etmiş kəndlilərlə bacarmadığını bəhanə gətirərək Azərbaycanı işğal etmək üçün qoşun göndərdi. Azərbaycanın feodal əyanlarının böyük hissəsi, tacirlər və şiə ruhaniləri bu müharibədə Şah Abbası müdafiə edirdilər.[1]

Şah Abbas və onun görkəmli sərkərdələri Allahverdi xan və Qarçıqay Məhəmməd xan itirdikləri Azərbaycan şəhərlərini bir neçə il ərzində geri qaytardılar. Şah qoşunları 1606-1607-ci illərdə İrəvan, Gəncə, Bakı, Dərbənd, Şamaxı şəhərlərinin Osmanlılardan aldılar.[2]

İsgəndər Münşi öz əsərində Şah Abbas qoşunlarının 1607-ci ildə Bakını almalarını təsvir edir. Bu vaxt Bakı qalasındakı Osmanlı qarnizonunda cəmi 300 nəfər var idi. Türklərin hakimiyyətindən xilas olmaq istəyən şəhər əhalisi sui-qəsd düzəldərək bundan xəbər tutan və onun qarşısını almaq imkanı olan şəhər komendantına (kütval) hücum etdilər. Bakılılar Osmanlı qarnizonunu qırıb, türklərin kəsilmiş başlarını qalanın açarları ilə birlikdə Şah Abbasa göndərdilər və şəhər qapılarını şah qoşunlarının üzünə açdılar. Sui-qəsdin əsas iştirakçıları şahdan qiymətli hədiyyələr və soyurqal torpaqları aldılar.[3]

Lakin 1603-1607-ci illər İran-Türkiyə müharibələrinin şahidi olan katolik missioneri keşiş Antuan de Quvea öz əsərində[4] bu

hadisəni başqa cür təsvir edir: Şah Abbas Şamaxını mühasirəyə alarkən Bakı hakimi Murad (*le Roi Murath*) "şahın ayaqlarından öpmək" üçün Şamaxıya gəldi və ona Bakı şəhərinin açarları ilə birlikdə çox miqdarda kəsilmiş türk başı gətirdi. Murad bu qərara gəldi ki, Şah Abbas Şamaxını aldıqdan sonra, daha az möhkəmləndirilmiş bütün digər şəhər və qalaları da asanlıqla tutacaqdır. Buna görə də, o, şah qoşunlarının Bakıya hücumunu gözləmədən və onun iltifatını qazanmaq üçün şəhərin təslim olmasını, özünün bayrağı altında vuruşmuş türk qarnizonu əsgərlərinin kəsilmiş başlarını təklif etməyə gəlmişdi. Lakin o yanılmışdı. Şah Abbasın qərargahına çatan kimi şah onun başının vurulmasını əmr edərək demişdir: "O, hamıya xəyanət etməyi özünə peşə seçmişdir, türklər bu əyaləti işğal edəndə o, vaxtkı Bakı hakiminin başını kəsib, mükafat olaraq onun özünü həmin şəhərin hakimi təyin edən Osman paşaya təqdim etmişdi. Şəhəri qaytarmaq əzmində olduğum indi isə o, türklərin başını mənə gətirərək belə güman edir ki, bununla öz başını saxlaya biləcəkdir. Bundan sonra da öz məkrli əməllərini davam etdirməməsi üçün mən istəyirəm ki, o, kəsdiyi başlara görə öz başı ilə cavab versin".[5] Bu hadisə şahın Bakını tutmağa qoşun göndərdiyi vaxt, yəni de Quveanın məlumatına görə 1607-ci ilin yanvarında baş vermişdir.[6]

1607-ci ilin sentyabrında Bakıda olmuş karmeli missio-nerlərinin şahidliyinə görə şəhər, demək olar ki, tamamilə dağıdılmışdı.[7] Lakin İsgəndər Münşi və keşiş de Quveanın məlumatlarına görə Şah Abbas Bakını döyüşsüz almış və buna görə də şəhər çətin ki, dağıdılmış olsun. Ehtimal ki, burada söhbət Şirvanşahlar sarayının xarabalıqlarından gedir, belə ki, karmeli keşişləri şəhərin xarabalıqlarından danışarkən dərhal sarayı təsvir edirlər.

Şah Abbas 1612-ci ildə İstanbulda Osmanlılarla sülh müqaviləsi bağladı. Bu müqaviləyə görə Səfəvilər dövləti Şimali Ermənistanı, Şərqi Gürcüstanı, bütünlüklə Azərbaycanı, Luristanı və Kürdüstanın bir hissəsini türklərdən aldı.

Lakin iki dövlət arasında hərbi əməliyyatlar yenidən başladı və 1618-ci ilədək davam etdi. Həmin il Mərənddə bağlanan sülh müqaviləsinə[8] görə Bakı və Azərbaycanın digər şəhərləri Səfəvilər dövlətinin hakimiyyəti altına keçdi.

I Şah Abbasın, onun nəvəsi və varisi şah Səfinin (1629-1642) Osmanlı dövləti ilə müharibələri XVII əsrin 40-cı illərinə qədər

davam etmişdir. 1639-cu ildə Səfəvilər və Osmanlılar dövləti arasında 1612-ci il sülh müqaviləsini təsbit edən sülh imzalandı. Həmin müqavilə 1724-cü ilə qədər pozulmadı.

I Şah Abbasın apardığı mərkəzləşdirmə siyasəti Səfəvilər dövlətini xeyli möhkəmləndirdi. Şah Abbas şəhərlərdə abadlıq işlərinə rəvac verirdi. Onun hakimiyyəti dövründə fars-türk müharibəsi zamanı dağılmış bir sıra Azərbaycan şəhəri bərpa edildi.[9] Zülfiqar xanın əmri ilə Bakıda bayır qala divarları tikildi. Bunu darvazanın üstündəki tikilmə tarixini – h.1017 (1608/9)-ci il – göstərən kitabə də təsdiq edir.[10] Bu dövrdə Bakıda və onun xaricində bir neçə karvansara və digər binalar tikilmişdir.

Sonrakı Səfəvi hökmdarları II Şah Abbas və Süleymanın (ikinci adı II Səfi) (1667-1694) hakimiyyəti dövrü Səfəvi və Osmanlı dövlətləri arasında sülh bağlandıqdan sonra özünə gələn ölkədə nisbətən əmin-amanlıq mərhələsi olmuşdur. Bu sülh Səfəvilər dövlətinin fars-türk müharibələri nəticəsində pozulmuş rifahını qaldırmağa imkan verdi.

Azərbaycan şəhərlərinin təqribən XVII əsrin sonlarınadək davam edən iqtisadi inkişaf dövrü cəmiyyətin məhsuldar qüvvələrinin müəyyən qədər yüksəlişi və ticarətin tərəqqisinin nəticəsi idi. Bakı şəhərinin firavanlığı və Abşeronun varı, onun əhalisinin rifahı qurudan və dənizdən basqınlar edən qarətçilərin, dəniz quldurlarının diqqətini cəlb edirdi.

XVII əsr mənbələrində Don və Volqa kazaklarının Abşerona basqınları qeyd olunur. Hələ 1647-ci ildə bir neçə gəmi ilə Həştərxandan üzüb gələn Don kazaklarının dəstələri Xəzər dənizinin qərb sahillərində qarətlə məşğul olmuş, Bakı yaxınlığında isə fərabadlı (İran) tacir Hacı Bakeyin gəmilərinə həmlə etmişlər. "Hacı Bakey Bakıya neft üçün gəlmişdi və həmin kazaklar onun pulunu, altı yüz, yaxud yeddi yüz tümənlik malını əlindən aldılar, özünü isə yüz otuz tümənə dəyişdilər".[11]

Məlumdur ki, XVI-XVII əsrlər ərzində feodal zülmü və özbaşınalığı nəticəsində Rusiyanın cənub ucqarlarında təhkimçilikdən qaçmış kazakların icması yaranmışdı. Kazaklar rus dövləti ilə qonşu vilayətlərə basqınlar edirdilər.

Kazak dəstələrinin Stepan Razinin başçılığı altında cənuba doğru hərəkəti də həmin basqınlardan biri idi. Razinin Xəzər səfəri kəndli

üsyanının başlanğıcı, onun birinci mərhələsi idi. Stepan Razin öz hərəkatının ikinci mərhələsində Həştərxana və oradan da şimala doğru irəliləyərək, təhkimçilik və mütləqiyyət əleyhinə xalq kəndli üsyanına başçılıq etdi.

Şarden çar Aleksey Mixayloviçin Razinlə əlaqəsinə dair maraqlı məlumat verir. Şardenin sözlərinə görə, Razin Xəzər dənizinin cənub-qərb sahillərinə, İran və Azərbaycana İrandan rüsvayçılıqla qovulmuş rus elçilərinin təhqir olunmasına görə şahdan qisas alan çar Aleksey Mixayloviçin təhriki ilə yürüş etmişdi*. 1664-cü ildə Moskva dövlətindən İsfahana zəngin hədiyyələrlə iki səfirdən və 800 məiyyətdən ibarət böyük bir elçilik gəlmişdi. Şah onları təmtəraqla qəbul edib, dəbdəbəli sarayda mehmanladı. Lakin tezliklə onların, əslində, gömrük haqqından qurtarmaq üçün çarın razılığı ilə İrana səfir adı altında ticarət məqsədilə gəlmiş tacirlər olduğu aşkara çıxdı. Onların İsfahanda, başqa mallardan savayı, təkcə səksən min tümənlik samur xəzi satdıqları güman edilirdi ki, bu da dörd milyon livrə bərabər idi. Abbas bu ikiüzlülükdən qəzəbləndi və ondan sonra elçilərə kobudluq və həqarətlə yanaşmağa başladılar, onları rəsmi cavabsız ölkədən qovdular. Onlardan biri öldü, ikincisi isə öz məiyyəti ilə heç bir ehtiram göstərilmədən, təhqir olunmuş şəkildə geri qayıtdı. Bu təhqirin qisasını almaq üçün çar Aleksey Mixayloviç kazakları Stepan Razinin başçılığı altında İrana və qonşu vilayətlərə basqın etməyə qızışdırdı. Çarın özünün bu haqda Şah Abbasa yazmağa cəsarəti çatmadı və yalnız onun ölümündən sonra, 1667-ci ildə müharibə elan etməkdən çəkinərək və İrana güclü zərbə endirmək istəyərək qisasını kazakların əli ilə almaq qərarına gəldi. Çar bununla kazakların diqqətini öz torpaqlarından yayındırmağa çalışırdı.[12] Şarden bu fərziyyəsini şah sarayının rəsmi şəxslərindən aldığı məlumat əsasında irəli sürmüşdür.

Şardenin məlumatına görə kazakların Xəzər dənizinin qərb sahillərinə basqını 1667-ci ildə baş vermişdir. 1200 nəfərlik kazak dəstəsi onlara müqavimət göstərməyən bir neçə şəhəri qarət etmişdir.[13] Razin çoxlu əsir aldı. Yerli xanın qızı və oğlu da onların arasında

---

* Fransız səyyahı və zərgəri Şarden İrana 1666-cı ildəki ilk səyahəti zamanı uzun müddət İsfahanda yaşamışdır. O, həmin ölkəyə ikinci səyahətində 1671-ci ildən 1674-cü ilədək orada qalmışdır. Şarden Razinin basqınını həmin hadisələrin şahidi kimi təsvir edir.

idi. Əslən holland olub, Rusiyada hərbi xidmət edən Lüdviq Fabritsiusun* (1648-1729) qeydlərində Stepan Razinin 1668-ci ildə İrana ilk yürüşü ərəfəsində Yaik çayına atdığı gözəl və əsilzadə azərbaycanlı qızı haqqında maraqlı məlumat var.

"Lakin Stenka əvvəlcə gözəl və əsilzadə tatar qızını qeyri-adi şəkildə qurban verdi. Onu bir il əvvəl əsir almış və həmin vaxtdan bugünədək onunla bir yastığa baş qoyurdu. Birdən, geri çəkilmək ərəfəsində o sübh tezdən yataqdan qalxdı, yazıq qızcığaza ən yaxşı paltarlarını geyindirdi və dedi ki, ötən gecə Yaik çayının tabe olduğu su allahı İvan Qorinoviç zühur edərək ona tənə vurmuşdur ki, o, Stenka artıq üç ildir ki, uğurlar qazanır, su allahı İvan Qorinoviçin köməyi sayəsində xeyli var-dövlət toplayıb, amma öz vədlərini yerinə yetirmir. Axı, o, Yaik çayına ilk dəfə səcdəyə gələndə allah Qorinoviçə vəd etmişdi ki, "əgər sənin köməyinlə uğur qazansam, əldə etdiyim ən yaxşı şeylərdən sənə də verəcəyəm". Bundan sonra bədbəxt qadını paltarlı götürüb, aşağıdakı sözlərlə çaya atdı: "Ey himayədarım bunu qəbul et, mənim sənə bağışlamağa, yaxud qurban verməyə bu gözəl qadından başqa yaxşı heç bir şeyim yoxdur".[14]

Həmin müəllif yenə yazır: "Dənizin sahilində yaşayan farslar onun soyğunçuluğundan əziyyət çəkirdilər. Çünki onlar basqınlara məruz qalır, qarət olunur, öldürülür, əsir aparılıb qərib ölkələrdə satılırdılar".

Ehtimal ki, burada söhbət Salyan xanının qızından gedir, belə ki, əlli ildən sonra Salyan sultanı Həsən bəyin arvadı Qəbulə xanım I Pyotrun qonaqlığa çağırdığı zabitlərini məkrlə məhv etmişdi. Rus hərbçilərinə bu cür divan tutulması yalnız yaxın qohumların intiqamının alınması ilə izah edilə bilər.[15]

Razin İrana ilk dəfə 1668-ci ilin mart ayında yürüş etmişdir. Altı min kazak hərəsində 2 top olan yastıdibli 40 iri gəmidə Gilan vilayətinin sahildəki kiçik Rəşt şəhərinə yaxınlaşdılar, şəhəri qarət etdilər və müqavimət göstərməyən əhalini qırdılar. Kazaklar çoxlu qənimət əldə edib tələsik geri döndülər.[16] Bundan sonra onlar dörd nümayəndəsini etimadnamələrlə birlikdə Şamaxı vasitəsilə İsfahana, şahın yanına göndərdilər. Baş vəzirin qəbuluna düşən kazaklar 6 min kazakın nümayəndələri olduqlarını elan edərək, şahın təbəəsi

---

* Lüdviq Fabritsius – Stepan Razinin İrana və Azərbaycana yürüşünün müasiri və şahidi olmuşdur.

olmaq və bunun üçün sığınacaq və yaşamağa torpaq istədiklərini bildirdilər. Lakin onların basqını saraya artıq məlum idi. Kazakların nümayəndələri ilə danışıqlar gedərkən çar Aleksey Mixayloviçdən məktubla birlikdə qasid gəldi. Çar şahdan xahiş edirdi ki, kazakları qəbul etməsin və onlara inanmasın, çünki onlar qiyamçı və qaçqındırlar, özlərinin əsl hökmdarlarına sədaqətsiz çıxdıqları üçün heç kəsə sədaqətli ola bilməzlər. Onun kazakları ağıla gətirməyə və ram etməyə gücü çatacaq qədər qoşunu var.[17]

Lakin İran sarayı çarın məktubuna inanmadı, çünki rus çarının kazaklarla əlbir olmasına əmin idi. Onların şübhələri bu fakta əsaslanırdı ki, beş-altı min nəfərdən ibarət kazak dəstəsi səksən topla, hərbi sursat və ərzaqla olduqca yaxşı təchiz olunmuş 40 gəmi ilə İrana soxulmuş və hər şeydən əvvəl, hərbi qüvvə ilə İran torpaqlarına basqın etmişdilər. Şah və onun saray adamlarının fikrincə, çar Aleksey Mixayloviç kazakları onların elçilərinin təhqir olunmasına görə qisas almaq üçün göndərmişdi.[18]

Kazakların nümayəndələri özlərinkilərin yanına qayıtdıqdan sonra, elə həmin 1668-ci ildə İrana yeni yürüş edilmiş, Fərabad şəhəri dağıdılmış, əhalidən çoxlu adam qırılmışdı.[19]

Razin İran vilayətləri ilə yanaşı, 1667-ci ildə Azərbaycanın sahil-boyu rayonlarına da basqınlar edirdi. Kazakların Xəzər dənizinin qərb sahillərinə sonralar da basqınları olmuşdur. Razinin kazakları, doğrudan da, Dərbəndlə Şamaxı arasında və daha sonralar Bakıya qədər bir çox yaşayış məntəqələrini və şəhərləri qarət edir, qiymətli şeyləri götürür və yerli əhalini "əsir" aparırdılar.[20] Kazaklar "həmin əsirləri ruslara dəyişir, hər qızılbaşa 2, 3 və 4 rus alırdılar".[21]

1669-cu ilin aprelində Stepan Razinin kazakları Bakı sahillərinə basqın etdilər. Maştağa kəndini dağıtdılar, 150-yə yaxın kişi, qadın və uşaq əsir alaraq, 7000 baş qoyun qovub apardılar. Onlar bütün bu qənimətləri Çilov adasına daşıyaraq öz aralarında bölüşdürdülər.[22] Həmin vaxtlar Həştərxanda olan holland dənizçisi Stryuys kazakların dilindən Razinin 1669-cu ildə Bakıya basqın etdiyini[23], burada onların çoxlu xəzinə, qızıl və gümüş ələ keçirdiklərini xəbər verir.[24] "Onlar şəhərə qəfildən basqın edərək, çalıb-çapdılar, əllərinə keçən hər şeyi kəsib-doğradılar, evləri və əmlakı yandırdılar. Bakıda onlar çoxlu miqdarda yaxşı çaxır tapdılar, aralarında bölüşdürüb nəşə ilə içməyə başladılar və bir çoxu çaxır içməyə adət

etmədiyindən sərxoş oldu. Bu vaxt onların silah gəzdirə bilən 5000-dən 6000-dək adamı* var idi.[25] Bu arada farslar** tələsik qoşun topladılar, sərxoşlara və ehtiyatsızlara böyük igidlik və qüvvə ilə hücum edərək qaçıb canını qurtaran 400-500 nəfərdən savayı, demək olar ki, hamısını qırdılar. Stenkanın özü ağır təhlükədə idi və əgər mühafizəçiləri onu müdafiə etməsəydilər və aradan çıxmaq üçün yol və vəsait tapmasaydılar, şübhəsiz, diri tutulacaqdı".[26]

1669-cu ilin iyun ayında şah kazakların yuva saldıqları Bakı yaxınlığındakı Səngi Muğan adasına Mənədi xanın komandanlığı altında əcnəbilərin köməyi ilə yenicə qayırılmış 50 yastıdibli gəmidən ibarət böyük bir donanma göndərdi. Kempferin məlumatına görə, kiçik gəmili çevik kazak dəstələri abordaj vuruşmasında şahın donanmasını darmadağın etdilər. Xəstəliklər və döyüşlər nəticəsində böyük itki verən və şahın təzə qoşun göndərməsindən ehtiyat edən kazaklar qənimətlərini götürüb Həştərxana yollandılar.[27]

Stepan Razin öz kazakları ilə birlikdə Duvanı adasında da olmuşdur. Rəvayətə görə, Stepan Razin Sabunçu kəndi yaxınlığındakı mağarada yaşayırdı. Abşeron və Bakı əhalisi Razinin bu basqınını uzun müddət yaddan çıxarmamışlar.[28]

1701 (yaxud 1702)-ci ildə Bakıda qala istehkamları möhkəmləndirilmişdir.[29] Bakı İrana və Hindistana ticarət yolu üstündəki mühüm liman kimi çar Rusiyasının diqqətini cəlb edirdi. 1715-ci ildə I Pyotr Xəzəryanı vilayətlərin qarşıda duran işğalına hazırlıqla əlaqədar Azərbaycanın siyasi və iqtisadi durumunu aydınlaşdırmaq məqsədilə A.P.Volınskinin başçılığı ilə İrana və Azərbaycana səfirlik göndərmişdi. Volınski öz hesabatında Azərbaycanın şəhərləri haqqında məlumat verərək, Bakıdan da müxtəsər bəhs etmişdir.[30] O, əfqanların İrana basqınlarının başlandığı dövrdə şəhərlərin tənəzzül və iflasının tam mənzərəsini vermişdir.

I Pyotr İranın Qərbi Avropa ilə ipək ticarətini bütünlüklə Türkiyə-Aralıq dənizi yolundan Volqa-Xəzər yoluna keçirmək beləliklə, Osmanlı imperiyasının ipək tranziti və ipək ticarətindən götürdüyü külli miqdarda gəliri onun əlindən almaq fikrinə düşmüşdü. Asiyadan Avropaya xam ipək (xamna) İran və Cənubi

---

* Başqa mənbələrə görə kazakların sayı 2000-dək idi.

** Stryuys Bakının əhalisini farslar adlandırır.

Qafqazdan keçən yollarla aparılırdı. I Pyotr özünün irimiqyaslı Şərq planlarını – Şərqlə, İran, Xivə, Buxara, əfsanəvi sərvətlər ölkəsi Hindistanla geniş ticarət aparmaq üçün şimal və cənub dənizlərinə çıxmaq siyasətini həyata keçirməyə tələsirdi.[31]

İrandakı ağır siyasi vəziyyətdən və Şirvanda iki dəfə Şamaxıya hücum edərək Abşeron kəndlərini viran qoymuş feodallar – müşkürlü Hacı Davudun və qazıqumuqlu Surxay xanın başçılıq etdikləri İran əleyhinə çıxışlardan istifadə edən I Pyotr Xəzər dənizinin qərb və cənub sahillərini ələ keçirmək üçün hərbi ekspedisiya təşkil etdi. Öz təcavüzünə haqq qazandırmaq və həmin ölkələrin əhalisinin gözündə onun qanuni olduğunu göstərmək üçün knyaz Dmitri Kantemir I Pyotrun göstərişi ilə İran və Azərbaycanın Xəzəryanı vilayətlərində intişar edilmək məqsədilə bir sənəd quraşdırmışdı.[32]

1722-ci il iyunun 15-də Həştərxana gələn I Pyotr elə həmin gün fars, türk və Azərbaycan dillərində aşağıdakı məzmunda manifest dərc etdirdi: Ləzgi əmiri Davud bəy və qazıqumuq əmiri Surxay öz padşahlarına qarşı qiyam qaldırmış, 1712-ci ildə yürüş edərək Şamaxını tutmuş, əhalini qarət etmiş və ordakı rus tacirlərini qətlə yetirib, onların 400 000 tümənlik əmlakını talan etmişlər; Həştərxan qubernatorunun əvəz verilməsini tələb etməsinə və Pyotrun öz tərəfindən şahın yanına elçi göndərməsinə baxmayaraq, əvəz alınmamışdır. Şahın qiyamçıları cəzalandırmağa gücü çatmadığından ruslar özləri ora gələcəklər, hər kəs öz yerində dinc otursa, rus qoşunundan ona heç bir zərər, ziyan toxunmayacaqdır, həmin fəsadın iştirakçıları və evlərini qoyub qaçanlar isə hökmdarın qəzəbinə düçar olacaqlar.[33]

Manifestdə yürüşün əsl məqsədini ört-basdır etmək üçün rus qoşunlarının qanuni padşahlarına asi çıxmış qiyamçıları əzməkdə şah Hüseynə kömək etməyə gəldikləri göstərilirdi. Manifestdə qiyamçılara gizli və açıq şəkildə pul və ya ərzaqla kömək göstərənlər, yaxud onlara qoşulanlar hədələnirdi.[34]

Manifest qvardiya poruçiki A.Lopuxinlə birlikdə 30 çaparla Dərbəndə, Bakıya və Şamaxıya çatdırılmaq üçün Tərki şamxalına göndərildi.[35]

I Pyotr 1722-ci il iyulun 18-də quru ilə yola salınan 79 minlik süvari və 270 gəmi və qayıqda 22 min piyada və 5000 matrosdan ibarət böyük bir ordu ilə Dərbəndə doğru hərəkət etdi və iyulun 28-də Sulak yaxınlığında sahilə çıxdı. Pyotr ona müqavimət göstə-

rənlərə amansızcasına divan tutdu, kəndləri qarət edib yandıraraq, əhalisini qırdı.[36]

1722-ci il avqustun 23-də çar qoşunları Dərbəndi döyüşsüz tutdular. Çar qoşunları şəhəri tutmazdan qabaq Dərbənd sultanı kömək üçün şah sarayına getdi. Elə həmin vaxt Bakının əsilzadələri, hərbi rəisləri, ərbabları, tacirləri və b. da şəhərin əhalisi adından şaha müraciət edərək, onun Pyotrun qoşunlarından müdafiə olunması üçün qoşun, silah və azuqə ilə kömək göstərməsini xahiş etmişdilər. Müqavimətin mənasız olduğunu görən sultan vəzifəsinin icraçısı, Dərbəndin naibi İmamqulu bəy ruhanilər və mötəbər şəxslərlə imperatoru şəhərdən kənarda qarşılayıb ixlas göstərdi və qalanın açarını gümüş məcməidə ona təqdim etdi.[37]

1722-ci il avqustun 22-də Pyotr Dərbəndə daxil olmaq ərəfəsində Bakıdan Azərbaycan və fars dillərində eyni məzmunda 13 möhür-imzalı məktublar aldı. Məktublar çarın 1722-ci il iyunun 15-də Bakıya göndərdiyi manifestə cavab idi. Məktub aşağıdakı məzmunda idi: Adil hökmdarın və qardaşlıq naminə və onunla islamın padşahı və müsəlmanlar arasındakı köhnə vədləşməyə görə əzəmətinin cilovunu şah əlahəzrətlərinə asi çıxmış qiyamçıları cəzalandırmaq üçün Şirvan vilayətinə yolladığını, onlara göndərilmiş manifestlərdən öyrənmişlər və onlar Əlahəzrətə xidmət etmək və itaət göstərmək istəyirlər. Habelə, artıq iki ildən bəri Əlahəzrət şahın düşmənlərindən müdafiə olunduqlarını, həmin cinayətkarların dərhal layiqincə cəzalandırılmasını, onların – şəhər sakinlərinin isə Əlahəzrət tərəfindən mühafizə edilməsini arzuladıqlarını bildirirlər.

Məktubun sonunda Məhəmmədqulu xanın və 12 başqa şəxsin[38] möhür-imzası dururdu. Bizim oxuduğumuz imzalar aşağıdakılardır. Məhəmmədqulu, Molla Qulu, Novruzəli, Məhəmmədsəlim, Aslan, Fəzləli, Məhəmmmədbəkir, Heybətəli, Mustafa, Əsxər, Gülməhəmməd, Dərgahqulu, Heybət. Həmin adlar onların sahiblərinin şiə və göründüyü kimi, yerli əsilzadələrdən olduqlarını göstərir. Ehtimal ki, Dərgahqulu yüzbaşı, Məhəmmədsəlim naib olmuşdur. Məhəmmədqulu imzası isə, görünür, Bakı sultanına məxsusdur, belə ki, I Pyotr sonrakı manifestində "Mühəmmətquluya və Bakının bütün əhalisinə" xitab edir.

Məktub çar qoşunlarının od və qılıncla Dərbəndə doğru irəlilədikləri və bir neçə gün ərzində bütün ətraf kəndləri və yerləri tutduqları bir vaxtda yazılmışdı.

Bakı əyanları kifayət qədər qoşun, silah və azuqə ehtiyatının olmadığını görərək, itaət göstərməyi və şəhəri dağıntıdan qorumağı qərara aldılar. Məktubun diplomatik tonu göstərir ki, Bakı əhalisi imperatoru şahın müttəfiqi kimi köməyə və öz hökmdarlarına asi çıxan qiyamçıları cəzalandırmağa gələn dostu hesab edirlər.

Dərbəndə daxil olduqdan sonra Bakı hakimlərinin rus işğalına münasibətini aydınlaşdıran I Pyotr donanma leytenantı Lunini fars dilindəki ikinci manifestini elan etmək üçün Bakıya göndərdi. Manifestdə deyilirdi:

Biz Allahın mərhəməti ilə Rusiya imperatoru və hökmdarı və s. və s. və s. I Pyotrdan Mühəmmətquluya və Bakı şəhərinin bütün əhalisinə

"Biz İmperator Əlahəzrətlərinə göndərdiyiniz məktubdan əyan oldu ki, göndərdiyimiz məktubları almısınız və bizə sədaqətlə xidmət göstərmək istəyirsiniz. Biz bunları iltifatla qəbul edirik və Sizi Biz İmperator Əlahəzrətlərinin lütfünə əmin edirik. Ona görə də, yalnız və yalnız qiyamçılar tərəfindən sıxışdırılan və talan olunan əhalinizi müdafiə etmək, həyatınızın əmin-amanlığını və rifahını təmin etmək və bundan sonra nadinc xalqlar tərəfindən təhlükəni aradan qaldırmaq məqsədilə ordumuzla bu ölkələrə gəlməyi qərara almışıq. Və ordumuzla Dərbənd şəhərinə yürüş edərək, yuxarıda qeyd olunan nadinc xalqlardan müqavimət göstərənləri məğlub edib, evlərini büsbütün dağıtmışıq. Biz Dərbəndə daxil olaraq, onun bütün düşmənlərdən təhlükəsizliyini təyin etmişik və şəhərin bundan sonra daha yaxşı qorunması üçün orada qarnizonumuzu, yəni, bir piyada alayı və bir neçə kazak qoymuşuq. İndi biz ordumuzla Sizin Bakı şəhərinə doğru hərəkət edəcəyik və Sizi düşməndən daha yaxşı qorumaq üçün yaxın vaxtlarda bir piyada alayı göndərəcəyik. Bizim bu Əlahəzrət İmperator fərmanının bir nüsxəsi quru yolla, digər nüsxəsi isə dəniz yolu ilə göndərilmişdir. Eyni zamanda, birini Gilan, ikincisi isə Astara vilayətlərinə verilmək üçün sizə məktubla iki zərf göndərilir. 25 avqust 1722-ci ildə Dərbənddə verilmişdir".[39]

Bakı hakimləri sultan Məhəmmədhüseyn bəyin şəxsin də 1722-ci il sentyabrın 6-da manifesti Lupindən aldılar, amma onu şəhərə buraxmadılar və bir neçə saatdan sonra xəbər verdilər ki, onlar artıq bir neçə ildir ki, qiyamçılara qarşı başqalarının köməyi olmadan duruş

gətirirlər və rusların köməyinə ehtiyacları yoxdur, ona görə də qarnizona bir nəfər də olsun götürməyəcəklər.[40]

Bakı əhalisinin imperator Pyotra 6 sentyabr 1722-ci il tarixli məktubunda deyilir:

"Nəzərinizə çatdırırıq ki, Siz (Əlahəzrət şahın dostu) İmperator Əlahəzrətlərinin iltifatlı fərmanları ilə göndərilmiş elçi zilqədə (avqust) ayında Bakıya gəlmişdir. Həmin fərmanlardan aydın oldu ki, Siz bizə dostluq göstərərək yuxarıda zikr olunan şəhərimizin qorunması üçün kazaklardan savayı 1000 nəfər əsgər göndərmək niyyətindəsiniz. Biz Sizin lütf göstərdiyinizi bilir və görürük, lakin qoşunlarınızın bu cür çətinlik çəkməsini istəmirik. Belə ki, xainlər artıq iki ildən bəridir bir neçə dəfə 10-15 minlik qoşun yığıb yuxarıda bəhs gedən şəhərə hücum edərək, onu tutmağa cəhd göstərmişlər. Xüsusən bu ilin rəcəb (aprel) ayında xainlər Davud və Usmi 30000 nəfərlik qoşunla (hücuma keçmişlər. Lakin Siz Əlahəzrətin lütfü sayəsində biz nəinki müqavimət göstərmiş, hətta, demək olar ki, onları darmadağın etmişik.

Beləliklə, Allahın köməyi və Siz Əlahəzrətin mərhəmətinizdən onlar bizdən əl çəkməyə məcbur olduqlarına görə biz onlardan qorxmuruq. Qızılbaş isə iki yüz minlik qoşunla onun paytaxtı Qişpaqana hücuma keçən səməndur (?), əfqan və gestemiqran (?) şahları ilə vuruşduğuna görə xain Davudun və Usminin üstünə gələ bilməmişdir. Lakin Allahın köməyi ilə ötən ay onun düşmənləri darmadağın və məhv edildiyindən o, bu müharibədən azad olmuş, dünyadakı mal-qaranın və dənizdəki balıqların sayından çox qoşununu böyük oğlu Təhmasib Mirzə ilə Ərdəbilə göndərmişdir. O, qisas almaq məqsədilə qoşunu Kür çayından keçirir. Siz Əlahəzrətin bizim müdafiəmiz üçün lütfən ayırdığı qoşuna isə ehtiyacımız yoxdur, çünki onsuz da özümüzü müdafiə etmişik və bundan sonra da müdafiə edəcəyik. Buna görə də, Sizin qoşunumuz bizim Bakıda boş dayanacaq. Siz isə şah Əlahəzrətləri ilə dostluq və mehribançılığınızın daha da möhkəmlənməsi naminə qoşunlarınızı şahın düşmənlərini dəf etməyə göndərməlisiniz".*[41]

Məktubun sonunda birinci məktubda olduğu kimi eyni şəxslərin möhür-imzası var idi.

---

* İsfahana

I Pyotrun manifestinə belə cavabın səbəbi şübhəsiz, İrandan kömək alınması (Bu vaxt İran qarnizonu Bakıda dayanmışdı), habelə, Surxay xan və Hacı Davudun qoşunları ilə mübarizədə qazanılan uğurlar, eləcə də, İranın daxili siyasi durumunun yaxşılaşması idi. Bunu şah II Təhmasibin Bakı əyanlarının şaha müraciətinə cavab olaraq h.1135-ci ilin zilqədə əl-həram ayında (1723-cü ilin avqust ayı) verdiyi fərman da təsdiq edir. Fərmanın məzmunu belədir:

"Dünya itaət etməli hökm verildi o haqda ki, mübarək Badkuyə qalasının yüzbaşıları, qaraulları, kətxudaları, ərbab və əhalisi bütün sahələrdə şahlıq lütfkarlığı və himayəsinə layiq görülərək bilsinlər ki, həmin vaxtlarda onların yardım və azuqə göndərilməsi xahişinə, habelə sair vəziyyətə dair dünya pənahlı dərgaha göndərdikləri ərzə (şahın) günəş təsirli nəzərinə çatdı. Onların ərz etdikləri vəziyyət dünyaya zinət verən fikir sahibinə məlum oldu. Ərzə çatmazdan əvvəl qeyd olunan qala üçün lazımi tədarük buyurub göstəriş vermişik ki, yüksək vəzifəli Astara hakimi və naib Ərdəbil hakimi tezliklə oraya azuqə, qurğuşun və barıt göndərsinlər. İndi isə yenə də itaət olunmalı fərmanlar mövcibincə göstəriş buyurduq ki, Salyan hakimi qaytaqlı qulamların yüzbaşısı olan uca və yüksək rütbəli Həsən bəy tezliklə öz qoşunu ilə birlikdə onların köməyinə gəlsin. Yüksək Allahın istədiyi təqdirdə onlar tezliklə (Bakıya) varid olacaqlar. Cah və cəlal bayraqları da müvəffəqiyyət və irəliləyişlə Ərdəbilə doğru yönəlmişdir. Yüksək Allahın istədiyi təqdirdə Ərdəbilə varid olduğumuzdan sonra yenə də lazımi tədarük buyurarıq. Onlar tam ümid bağlamalı və qeyd olunan mübarək qalanın saxlanılması və qorunması üçün, düşmənin dəf olunması üçün lazımi səy göstərməli, öz xoş xidmətlərini daha artıq zahirə çıxarmalı və padşahlıq mərhəmətlərinə layiq olmalıdırlar.

Yazıldı: 1135-ci ilin zilqədətül-həram ayında avqust 1723-cü il".[42]

Gətirilmiş sənəd bakılıların I Pyotra birinci və ikinci məktubları arasındakı ziddiyyət məsələsini tamamilə həll edir və bu barədə ədəbiyyatda meydana çıxan müxtəlif yozmalara son qoyur.[43] Həmin sənəd, həmçinin I Pyotra yazan və kömək üçün şaha müraciət edən şəxslərin tərkibi məsələsini açıqlayır. İmperatora yazılan birinci məktubun altındakı möhür-imzalar ona yazılan ikinci məktubdakı imza-

larla tam eyniyyət təşkil edir. Məktubların müəllifləri Bakı əyanları: sultan, qalanı mühafizə edən qarnizon başçıları – yüzbaşılar, qaraullar, kəndxudalar, iri mülkədarlar – ərbablar idi.

I Pyotrun yaxşı silahlanmış 100 minlik ordusuna müqavimət göstərməyin mənasızlığını görən və Bakı qalasını dağıntıdan qorumaq istəyən, kifayət qədər qoşunu və silahı olmayan Bakı əyanları, başda sultan olmaqla, imperatora birinci məktubda itaət və tabelik izhar etmişdilər. Bakı əyanları, eyni zamanda, şaha məktub göndərərək, vəziyyəti təsvir etmiş və çar ordusu ilə müharibə üçün qoşun və silahla kömək göstərilməsini xahiş etmişdilər. Göstərilən fərmandan həm də aydın olur ki, bakılılara qoşun və silahla kömək göstərilmiş, buna görə də onlar çarın Luninlə göndərdiyi ikinci manifestinə rədd cavabı vermiş və çar qoşunlarını Bakı qalasına buraxmaq istəməmişlər.

Bakılıların cavabından narazı qalan imperator şəhəri zorla almağa hazırlaşırdı. Lakin I Pyotrun Bakını tutması bir sıra mülahizələrə görə dayandırıldı və rus ordusunun böyük bir hissəsi Rusiyaya qayıtdı.[44] Pyotr 5 noyabr 1722-ci ildə Həştərxanda olarkən general-mayor M.A.Matyuşkinə sərəncam verdi: "Yazda Kazandan 15 hekbot gələndə dörd polkla onlarda Bakıya gedib onu almaq".[45]

Pyotr Xəzər dənizinin qərb və cənub sahillərini tutmağa (çünki həmin vilayətlərin, xüsusilə, Bakının türklər tərəfindən tutulmasından qorxurdu) və türkləri oradan sıxışdırıb Xəzər dənizinə sahib olmağa tələsirdi. Bununla Pyotr Rusiyanın Volqa-Xəzər yolu ilə ticarətini təmin etməyə, onu zəngin Hindistanla bağlamağa və Avropanın Şərqlə ticarətini Türkiyənin Kiçik Asiya torpaqlarından yan ötərək Rusiyadan keçməsinə yönəltməyə çalışırdı.[46]

Matyuşkin ordunun bir hissəsi ilə Həştərxanda qalaraq Bakıya yürüşə hazırlaşırdı. Matyuşkin ancaq 1723-cü il iyunun 20-də gəmilər gələndən sonra 15 paketbatla, 5 qaliotla və bir neçə busla Həştərxandan Bakıya yollandı və iyulun 6-da Bakı körfəzinin ortasında lövbər saldı.[47] Gəmilər üç hissəyə bölündü. Onların bir hissəsi general-mayor Matyuşkinin, bir hissəsi general-mayor knyaz Trubetskoyun komandanlığı altında idi. Üçüncü hissəyə isə briqadir knyaz Urusov, Puşkin və Soymonov eskadranın üç hissəsinin yüksək rütbəli zabitləri idi. Artilleriyaya mayor Gerber komandanlıq edirdi.[48] Matyuşkin Həştərxandan İranın Peterburqdakı səfiri İsmayıl bəyin

Bakı şəhərinin sultanı Məhəmmədhüseyn bəyə məktubunu özü ilə götürmüşdü. Məktubda səfir sultanı şəhəri ruslara təhvil verməyə sövq etməyə çalışırdı.[49] Həmin məktub mayor Neçayevlə şəhərə göndərilmişdi. Neçayevə bildirmək əmr olunmuşdu ki, "O, şəhəri qiyamçılardan qorumaq məqsədilə qəbul etmək üçün Ümumrusiya imperatoru böyük hökmdarın fərmanı ilə gəlmişdir. Ona görə də ümid edir ki, sultan bu işə mane olmaycaq, əksinə, İsmayıl bəyin məsləhətinə əməl edəcəkdir".[50] Lakin Bakı sultanı mayoru şəhərə buraxmadı və onu iki saat gəmi körpüsündə saxladıqdan sonra aşağıdakı şifahi cavabla buraxmışdır:

"Bakı şəhərinin əhalisi əlahəzrət şahın sadiq təbəələridir. Onlar artıq dörd ildir ki, qiyamçı Davuda qarşı duruş gətirmişlər və bundan sonra həmin qiyamçı nə qədər yaşasa da, güc toplasa da, ondan qorxmurlar və kömək üçün nə bir nəfər qoşun, nə də bir batman azuqə istəmirlər. Səfirin məktubuna gəldikdə isə, o, Rusiyada yazılmışdır və üstəlik onlar İsmayıl bəyin məsləhətinə, yaxud əmrinə əməl etməyə borclu deyillər".[51]

Matyuşkin həmin cavabı alan kimi hücuma hazırlaşmağa başlamaq əmri verdi. Polkovniklər Ostafyevə və Bezobrazova dörd batalyonla sahilə çıxmaq, artilleriya komandiri mayor Gerberə isə qala divarlarını dəniz tərəfindən dağıtmaq üçün iki bombardir hekbotu və 18 funtluq topları olan daha beş gəmi hazırlamaq əmr olundu".[52]

İyulun 21-də, səhər saat 7-də əsgərləri bir neçə gəminin himayəsi altında şlyupka və botlarda sahilə daşımağa başladılar. Dəstənin böyük bir hissəsi artıq sahilə çıxmış, Çəpərlərə sığınaraq mövqe tutmuşdu. Lakin bu zaman İran qarnizonunun güclü süvari dəstəsi toplar sahilə çıxarılana qədər rusların öhdəsindən gəlmək üçün qaladan bayıra çıxaraq, onlara həmlə etdi. Ancaq mayor Gerberin artıq döyüşə hazır olan iki səhra topu atəş açmağa başlayıb, onları geri dönməyə məcbur etdi.[53]

Soymonovun məlumatına görə yeddi rus gəmisi yarımdairə şəkildə şəhərə yaxınlaşaraq lövbər saldı. Mühasirədəkilər onlara toplardan atəş açmağa başladılar. Lakin gəmidən toplar atəş açmağa başlayanda mühasirədəkilər bir saat belə davam gətirə bilməyib, toplarını ataraq qaçmağa üz qoydular. Mortiralar da öz işini gördü, üçüncü mərmidən sonra şəhərdə böyük yanğın düşdü. Həmin gün axşama qədər şəhərə 94 mərmi atıldı. İki batalyon sahildə batareya düzəldib onun üzərinə dörd qaubitsa qoyaraq mühasirədəkilərin

qala divarında açılmış deşiyi tutmasına macal verməmək üçün həmin yeri gecə-gündüz atəşə tutdular. Dörd gün ərzində iri deşik açılsa da, mühasirədəkilər təslim olmaq istəmirdilər. Süvari dəstələri hərdən bir batareyaya həmlə edirdilər.[54]

Rus komandanlığı iyulun 25-də şəhəri həmlə ilə almaq qərarına gəldi. Həm də, general-mayor belə bir sərəncam verdi: gecə, sahildə, düşərgədə həmlənin haradan ediləcəyini göstərən aldadıcı həyəcan siqnalı verilsin. Mühasirədəkilər bütün qüvvələrini həmin yerə yönəldəndə gəmilərdəki qoşun desant çıxarıb deşik açılmış yerə getsin. Lakin gecə sahildən qalxan güclü külək gəmiləri dənizə apardığından bu planı həyata keçirmək mümkün olmadı. Atəşi davam etdirmək mümkün deyildi. Mühasirədəkilər bundan istifadə edərək elə həmin gecə divarda açılmış deşiyi hördülər.[55]

Ertəsi gün ruslar şəhərə qarpız aparan bir yerli sakini tutaraq general-mayor Matyuşkinin yanına gətirdilər. Lakin onun heç nədən xəbəri yox idi və general mayor onu sultana və şəhər əhalisinə məktubla şəhərə buraxmaq qərarına gəldi. Matyuşkin məktubda onları şahın səlahiyyətli səfirinin məktubuna inanmadıqlarına və onun məsləhətinə əks getdiklərinə, habelə, elçisini şəhərə buraxmamaqla, onu general-mayoru təhqir etdiklərinə görə məzəmmətləyir və göstərirdi ki, onların şəhər divarları nə qədər möhkəm olsa da, rus mərmilərindən uçub dağılmışdır. Deşikləri tutub malalasalar da, bunun köməyi olmayacaqdır, suvaq hələ qurumamışdır. Ona görə də divar ilk atəşdən uça bilər. Odur ki, general imperatorun mərhəmətini vəd edərək, onlara təslim olmağı məsləhət görür. "Lakin onlar bundan sonra da müqavimət göstərsələr və təyin olunmuş gün təslim olmasalar, şəhər hökmən alınandan sonra heç kəsə aman verilməyəcəkdir..."[56]

Mühasirədə olan bakılılar bu məktubu alandan bir saat sonra dənizsahili qala divarlarının bürclərinə ağ bayraqlar çıxardılar, sonra sahildən işarə ilə bildirdilər ki, danışıq aparmaq üçün onların yanına adam göndərilsin. General-mayor Matyuşkin zabitlərdən ibarət iki silahlı şlyupka göndərdi. Onlar şəhərin dörd nümayəndəsi ilə geri qayıtdılar. Nümayəndələr bildirdilər ki, əhali şəhəri təhvil vermək istəyir və xahiş edir. Matyuşkin nümayəndələrin yanında müqavilənin maddələrini yazdı və onlarla şəhərə göndərdi. Nümayəndələr şəhərin təhvil verilməsi üçün mühasirənin əvvəlində torpaqla doldurulmuş darvazaları açmağa bir neçə saat möhlət istədilər.[57]

F.İ.Soymonov şəhərin təhvil verilməsini və rus qoşunlarının Bakıya daxil olmasını belə təsvir edir: "Sahildə olan batalyonlar sıraya düzüldü, Bakı sakinlərinin isə, demək olar ki, hamısı silahsız şəhərdən qıraға çıxaraq, rusların şəhərə girməsi üçün hər şeyin hazır olduğunu general-mayora bildirdilər, şəhərə varid olmaq çox yaxşı keçdi. Darvazalar və başqa yerlər qaravullarla tutulmuşdu...".[58] Cümə məscidinin qabağındakı böyük meydanda qauptvaxta təşkil edilmişdi. Əsgərlər iki boş daş karvansarada – Buxara və hind karvansaralarında yerləşdirildi.

Şəhərdə 80 mis və çuqun top və dəzgahsız iki böyük qaubitsa tapıldı. Barıt və digər sursat, xüsusilə, qaubitsalar üçün mərmi az idi.

Şəhərdəki qarnizona gəldikdə isə, o, yüzbaşı Dərgahqulu bəyin başçılıq etdiyi 700 İran əsgərindən* ibarət idi. Ruslar onları hərbi xidmətə götürmüşdülər.[59]

Bu ekspedisiyanın iştirakçısı Soymonovun verdiyi məlumatdan bəlli olur ki, çar qoşunları Bakını 1723-cü il, iyulun 26-da tutmuşlar.[60] Artilleriya, hərbi sursat və ərzaq flotiliyadan boşaldılaraq sahilə çıxarılmış və şəhərə daşınmışdı. General Matyuşkin və general-mayor knyaz Trubetskoy qışı yenidən Həştərxana qayıtmış, şəhərin komendantı isə I Pyotrun fərmanı ilə knyaz Baratınski təyin olunmuşdu. Polkovniklər Ostafyev, Bezobrazov və Frazer də onun yanında qalmışlar. Bakı qarnizonunda 1725-ci ildə 2382 nəfərdən ibarət olan iki polk saxlanılmışdı. Qarnizon ərzağı və lazım olan hər şeyi Həştərxandan alırdı. Matyuşkinə Bakını almasına görə general-leytenant rütbəsi verilmişdi.[61] Bakının işğal olunması xəbərini 1723-cü il sentyabrın 3-də alan Pyotr bu hadisəni Peterburqda təntənə ilə bayram etdi.

Bakı alındıqdan sonra əhalinin imtiyazları təsdiq olundu. Xəzinənin varidatı, yaxud gəliri Rusiya idarəçiliyinə verildi. O, satışa buraxılan iki başlıca maddədən – düz və neftdən ibarət olub, məlum olduğu kimi, hər il Rusiya xəzinəsinə 50 min rubl gəlir gətirirdi. Bundan əlavə, gömrük və dükanbaşı rüsumları da qoyulmuşdu.[62]

Rus hakimiyyət dairələri Bakı şəhərini möhkəmləndirmək məqsədilə Volqaboyu tatarlarının, çuvaşların və digərlərinin köməyi ilə çöl tərəfdən 1796-cı ildə hələ salamat olan sonuncu bayır qala divarına bitişik 5 istehkam tikdirdilər.[63]

---

* Görünür, İran əsgərləri adlandırılanlar azərbaycanlılar (bakılılar) olmuşlar.

1724-cü ildən etibarən Bakı və onun rayonlarında gəmiqayırmada və digər işlərdə istifadə olunmaq üçün Bakıya göndərilmiş 5 min Kazan tatarı, çeremis və çuvaş məskunlaşdırılmağa başlandı.[64] 1728-ci ildə onların bir hissəsi evlərinə qayıtdı, bir qismi isə işləmək üçün burada qaldı.[65] I Pyotrun siyasətinə müvafiq olaraq, Bakı və onun rayonları xristianlar, başlıca olaraq, ermənilərlə məskunlaşdırılırdı. Butkovun məlumatına görə I Pyotr 1724-cü il noyabrın 10-da, ölümündən bir az əvvəl erməni xalqının "ermənilərə himayədarlıq göstərilməsini və onların Xəzəryanı əyalətlərdə məskunlaşmasına icazə verilməsini iltimas edən" dörd nümayəndəsini qəbul etmişdi.[66] Elə həmin gün, yəni, 1724-cü il noyabrın 10-da I Pyotr erməni patriarxı İsaya və bütün erməni xalqına ermənilərin Gilanda, Mazandaranda və Bakıda məskunlaşmasına icazə verilməsi barədə fərman verdi.[67] 10 noyabr 1724-cü il tarixli fərmanda[68] general-leytenant Matyuşkinə və briqadir Levaşova "ermənilərin Gilanda, Mazandaranda, Bakıda, Dərbənddə və s. yerlərdə məskunlaşmasına hər cür yardım göstərmək, hətta, lazım gəlsə farsları* sıxışdırmaq" tapşırılırdı.[69]

A.Q.Butkovun məlumatına görə "general-leytenant Matyuşkinə və briqadir Levaşova həmçinin əmr edilmişdi – və bu, bütün erməni xalqına elan olunmuşdu ki, erməniləri və digər xristianları hər vəchlə rus qoşunlarının tutduqları İran əyalətlərinə – Gilana, Mazandarana, Bakıya, Dərbəndə və başqa əlverişli yerlərə köçməyə çağırsınlar, nəvazişlə qəbul edib, hər cür mərhəmət göstərsinlər, onlara layiqli yerlərdə yaşamaq üçün torpaq ayırsınlar, şəhər və kəndlərdəki boş həyətləri və müxəlləfatı onlara versinlər, eləcə də müqavimət göstərmiş, yaxud bunda şübhələnilən müsəlmanlar qovulsun, onların yerlərini isə həmin xristianlar tutsunlar".[70] Həmin müəllif həmçinin xəbər verir ki, hökmdar I Pyotrun ümdə arzularından biri elə keçirilmiş əyalətlərdə xristianların sayının artırılması idi.[71]

1725-ci il fevralın 11-də artıq I Pyotrun ölümündən sonra Xarici işlər nazirliyinin kollegiyası ermənilər haqqında Matyuşkinə verilmiş 10 noyabr 1724-cü il tarixli ali sərəncamı təsdiq edən fərman verdi...[72] Sonralar belə bir fərman 1726-cı il fevralın 22-də I Yekaterina tərəfindən verilmişdir.[73] Beləliklə, ermənilərin Bakıda məskunlaşması, başlıca olaraq, bu vaxta aiddir.

---

* Butkov yerli azərbaycanlı əhalini (bakılıları və s.) fars adlandırır.

Erməni əhalisinin məliklərin və ruhanilərin şəxsində I Pyotrla əlaqələri onun Xəzəryanı vilayətləri işğal etməsindən xeyli əvvəl başlamışdı. I Pyotr erməni əhalisinin simasında İran və Türkiyənin hökmranlığından azad olmaq istəyən, onun qoşunlarına hər an kömək etməyə hazır olan müttəfiqlərini görürdü. Erməni məlikləri və ruhaniləri Azərbaycanın müxtəlif vilayətlərindən dəfələrlə ona məktubla müraciət etmiş və hərbi yardım istəmişdilər.[74] Onların "busurmanlar" tərəfindən incidilməsindən şikayət etdikləri belə məktublardan birini Bakı erməniləri imperatora 1723-cü ildə Matyuşkin vasitəsilə göndərmişdilər.[75] Çar qoşunları gələrkən Bakıda Həştərxan vasitəsilə ticarət edən erməni tacirləri var idi.

Bakı I Pyotrun qoşunları tərəfindən işğal olunduqdan sonra, 1923-cü ildə çar qoşunlarının Bakını tutmasından narazı olan feodallar sultanın başçılığı ilə qəsd hazırladılar. Bakı sultanının Hacı Davudla gizli danışıqları və onun şəhəri Türkiyəyə vermək niyyəti tezliklə rus hakimiyyət orqanlarına məlum oldu. Bakının alınmasının iştirakçılarından biri, artilleriya komandiri polkovnik Gerber məlumat verirdi ki, "şəhər alındıqdan sonra baş yüzbaşı Dərgahqulu bəy buranın sultanının qiyamçıların tərəfində durduğunu və Davud bəylə yazışdığını xəbər vermişdir".[76] Sultan Məhəmmədhüseyn həbsə alınaraq, üç qardaşı və onların bütün əmlakı ilə birlikdə Soymonovun getdiyi gəmidə Həştərxana göndərildi. Yerli qarnizonun komandirliyi rus komandanlığının polkovnik rütbəsi verdiyi yüzbaşı Dərgahqulu bəyə həvalə olundu.[77] Çarın əmri ilə şəhər əhalisinin əlindən bütün silahlar alındı.[78] Lakin rus hökumət orqanları tezliklə, 1724-cü ildə qəsd hazırlayaraq Hacı Davudun böyük qoşunla Şamaxıdan gəlməsini gözləyən və onunla birlikdə azsaylı rus qarnizonunu məhv etmək fikrinə düşən Dərgahqulu bəyin xəyanətindən xəbər tutmuşlar ki, həmin yüzbaşı öz qızılbaşları ilə birlikdə xəyanət etmək niyyətinə düşmüş və rus qarnizonuna hücum edərək hamısını qırmaq istəyir; bu məqsədlə Davud bəylə yazışmış və tezliklə ondan kömək gözləyir. Yüzbaşı və onun adlı-sanlı əlaltıları çıxıb getmiş, digərləri həbsə alınmış, bəziləri ölümə məhkum edilmiş, qalanları isə, həmin cinayətdə iştirak etməmiş bəzi yoxsul adamlar da daxil olmaqla, Rusiyaya sürgün olunmuş, ona görə də şəhər xeyli boşalmışdır, təkcə hindilər (hindlilər – *S.A.*) və burada ticarətlə məşğul olan ermənilər qalmışlar..."[79]

Təsvir olunan hadisələrlə əlaqədar sultanlıq ləğv edildi və Bakı şəhərinin, Abşeron kəndlərini idarə edən naib Səlim xanın* da tabe olduğu komendantı həmin vaxt, həm də şəhərin qubernatoru vəzifəsini icra edən knyaz Baryatinski[80] təyin olundu; bu zaman qalanın qarnizonu dörd min nəfərdən ibarət idi.[81]

Həmin vaxtdan Bakını və Abşeronu rus komendantları idarə etməyə başladı. Bu hadisələrdən sonra, 1727-ci ildə rus hakimiyyət dairələri Dərgahqulu bəyi bağışladılar və onu yenidən Bakı şəhərinin sultanı təyin etdilər. Lakin təqribən 1730-cu ildə o, şahın xidmətinə keçdi, ancaq 1732-ci ildə yenidən geri qayıtdı və bağışlanaraq, Abşeronun Maştağa kəndindəki imarətində yaşadı.[82]

Görünür, Dərgahqulu xan qeyri-adi şəxsiyyət olub, xalq arasında böyük nüfuz sahibi idi.a.Bakıxanovun sözlərinə görə "onun qüvvəti və şücaəti xalq arasında məşhurdur".[83] Çar hakimiyyət dairələri, göründüyü kimi, onun ölkədəki nüfuzundan yerli əhalinin qabağını almaq və itaətdə saxlamaq üçün istifadə etmək istəyirdilər. Buna görə də onun qəsd və xəyanətini iki dəfə bağışlamışdılar. A.Bakıxanovun məlumatına görə "Dərgahqulu bəy ibni-Heybət Təbəsəran ispahbadları nəslindən olan Nurkucur malikləri ailəsindəndir. Onun keçmiş babaları gilanlı Xan Əhməd hadisəsi zamanında, h.1000 (1592)-ci ildə Şirvana gəlib, Bakıda mülk sahibi və yüzbaşı rəisi olmuşlar. Onların imarət və qalalarının xarabalıqları Ramana kəndində indi də mövcuddur..."[84]

Hələ çar qoşunlarının gəlməsindən əvvəl Dərgahqulu bəy Bakı sultanını öldürüb xan titulunu mənimsəmişdi. Şah Hüseyn Dərgahqulu bəyin və əhalinin xahişi ilə onu bütün Abşeronun hakimi təyin etmişdi. Beləliklə, təzə sultan Məhəmmədhüseyn bəy təkcə qalanı idarə edirdi. Hacı Davud və Surxay xan Bakını almaq istəyəndə Dərgahqulu xan onların qoşununu şəhərin yarım ağaclığındakı bir təpənin yaxınlığında qarşılayıb məğlub etdi və həmin təpə o zamandan Qanlıtəpə adlanmağa başladı.[85] Bu davada Dərgahqulu xanın qardaşı Hüseyncan bəy öldürüldü. Dağıstan feodallarının basqınlarından təhlükəsizliyini təmin edən Dərgahqulu xan hakimiyyətini başqa torpaqlar üzərində də genişləndirmək məqsədilə qonşu mahallalara, Şəbəranа və Qobustana hücumlar etməyə başladı. Ruslar şəhəri

*Naib Səlim xan – çağdaş bakılı Səlimxanovların əcdadıdır.

tutduqdan sonra da o, əvvəlki kimi, Abşeronu idarə edir, imarəti və bağı olan Maştağa kəndindəki imarətində yaşayırdı.[86] "Dərgah xanın fərmanlarından, xüsusilə, Abdulla bəy Hacı Səlim bəy oğlunu Bakı mahalına hakim təyin etməsi haqqındakı fərmanının tarixindən və sair maddələrindən anlaşıldığına görə, onun hökmranlığı h.1143 (1731)-cü ildə də davam edirmiş. Lakin onun hansı ildə rus dövlətindən üz çevirib, bir dəstə tərəfdarları ilə bir müddət Bakı və Şirvan ətrafını çalıb-çapdığı və sonra gedib İran qoşunlarının əmirləri sırasına keçməsi məlum deyildir. H.151 (1738)-ci ildə Nadir şahın qardaşı İbrahim xan Carda[87] öldürüldüyü zaman o da yaralanıb Zəncanda vəfat etmişdir".[88]

Çar qoşunları Bakını tutmaqda ikən I Pyotr hökuməti Xəzərboyu vilayətlərin Rusiyaya birləşdirilməsi barədə İranla diplomatik danışıqlar aparırdı. 1723-1724-cü illərdə İranın vəziyyəti ağır idi, ölkə əfqanların hücumlarına məruz qalmışdı. Əfqanlar artıq İranın böyük bir hissəsini işğal etmişdilər. 1723-cü il sentyabrın 23-də İran səfiri İsmayıl bəy Peterburqda müqavilə bağladı. Həmin müqaviləyə görə şah Xəzər dənizinin Dərbənddən Astrabada qədər bütün qərb və cənub sahillərini Rusiyaya güzəştə gedirdi. Pyotr şah Təhmasibin hüquqlarını müdafiə etməyi, İranın əfqanlarla və türklərlə mübarizəsində ona kömək göstərməyi öhdəsinə götürürdü. Rusların Xəzərboyu vilayətlərini işğal etməsindən narazı qalan Türkiyə Ermənistanı, Gürcüstanı və Şirvanın böyük hissəsini tutdu.[89] Lakin şah hökuməti həmin müqaviləni təsdiq etmədi.

Yalnız 1724-cü il iyulun 12-də İstanbulda Rusiya ilə Türkiyə arasında müqavilə bağlandı. Həmin müqaviləyə əsasən Xəzər dənizinin Dərbənd, Bakı, Salyan, Gilan, Mazandaran, Astrabad şəhər və əyalətləri daxil olmaqla, bütün qərb və cənub sahilləri Rusiyaya keçir, Şamaxı, Nuxa, Gəncə, Təbriz habelə Ermənistan və Gürcüstan isə Türkiyəyə çatırdı.[90]

Pyotr 1725-ci ildə öldükdən sonra Rusiya hökumətinə Xəzərboyu torpaqları saxlamaq çətinləşdi. Çünki bunun üçün külli miqdarda vəsait tələb edən böyük ordu lazım idi. Bundan əlavə qalalar tikmək və onları möhkəmləndirmək üçün xeyli işçi qüvvəsi saxlanılırdı. İsti iqlim, bol meyvə və çiy su ağır xəstəliklərə və əsgərlər arasında ölüm hallarının çoxalmasına səbəb olur və orduya xeyli

əlavə qoşun gətirilməsini tələb edirdi. Digər tərəfdən alınmış əyalətlərin mədaxili məxaricini ödəmirdi.[91] 1730-cu ildə vəziyyət daha da ağırlaşdı. Belə ki, həmin vaxt İranda türklər üzərində bir sıra qələbələr çalmış bacarıqlı sərkərdə Nadir meydana çıxmışdı. 1734-cü ilin yayında Nadir qoşunla Şirvana yürüş edib Şamaxını tutdu.

A.Bakıxanovun sözlərinə görə "bu zaman İran hüdudundakı əhali həyəcana gəlib ümumi surətdə hücum edərək, Rusiya ilə müharibəyə başladılar. Ancaq general-mayor Levaşovun bacarığı nəticəsində Rusiya bu qorxulu hadisədən nicat tapdı..." General Levaşova rus çarizminin işğalçı qoşunlarının zorakılığına qarşı üsyana qalxmış yerli əhalini itaətdə saxlamaq çətin idi. 1733-cü ildən 1735-ci ilədək işğal edilmiş Xəzərboyu vilayətlərə təyinat almış alman həkimi İ.Y.Lerx Dərbənd, Şəbəran, Abşeron, Bakı və Salyandan keçib getmiş, özünün yol qeydlərində general Levaşovun "basqınlar edən iğtişaşçılara" qarşı qəddarlığını və cəza tədbir-lərini, "onların bəzilərini qabırğasından asdırdığını" təsvir edir, 1734-cü ildə Lerx daha sonra yazır ki, "tatarlar (yəni, Azərbaycan türkləri – *S.A.*) noyabrın 3-də kazaklardan 200 baş qaramal almış və beş kazak öldürmüşlər, tatarlardan isə on nəfər öldürmüşdür." Mayor Eyken onların dalınca çapmış, lakin haqlaya bilməmişdir. Noyabrın 22-də bir nəfər tavlı tatarı* tutdular və onun burun-qulağını, sonra sağ əlini və sol ayağını kəsdilər, həmyerlilərindən biri onu öz arabasında apardı. General qiyamçıların bu cür cəzalandırılmasını tez-tez əmr edirdi. Belə hallarda cəzalandırılanın yoldaşları onun əlini və ayağını əvvəlcədən hazırladıqları isti yağ, yaxud süd küpəsinə salır və bu yolla qanaxmanı dayandırırdılar, sonra onların başqalarına gözdağı olmaq üçün evlərinə aparılmasına icazə verilirdi..."[92]

Levaşov işğal olunmuş vilayətləri əldə saxlamaq üçün imperatriçə Anna İvanovnadan əlavə iri qoşun göndərilməsini xahiş edirdi. Bunun əvəzində imperatriçə baron Şafirovu sülh təklifi ilə İrana göndərdi.[93]

1732-ci il yanvarın 21-də Rəştdə müqavilə bağlandı. Müqavilənin əsas bəndlərindən birində İranın Kür çayının mənsəbinədək Xəzər dənizi sahilindəki bütün torpaqlarının İranın hakimiyyəti altında olmaq və Türkiyənin əlinə keçməmək şərtilə, geri qaytarıldığı göstərilir.[94] 1732-ci ilin avqust ayında Nadir şah Təhmasibi taxtdan

---

* Dağlı – yəni, tat

salaraq onun az yaşlı oğlu III Abbası şah elan etdi. Beləliklə, Nadir, əslində, İranın tam hakimi oldu. O, rus səfirlərindən Dərbənd və Bakının boşaldılmasını və Xəzərboyu vilayətlərin İrana qaytarılmasını tələb etdi. Bu zaman Rusiyanın daxili və beynəlxalq vəziyyəti xeyli pisləşmişdi. Ordunun və donanmanın zəifliyi, Türkiyənin hücum təhlükəsi və mürəkkəb siyasi şərait Rusiyanın bundan belə Xəzərboyu vilayətlərinə sahiblik etməsinə imkan vermirdi.

Nadirin Şirvandakı uğurları Rusiya hökumətini 1735-ci il martın 10-da Gəncə yaxınlığındakı düşərgədə müqavilə bağlamağa məcbur etdi. Həmin müqaviləyə əsasən rus qoşunları Dərbənd və Bakıdan çıxarıldı, İran isə Rusiyanın İrana qaytardığı əyalətləri hər hansı bir başqa dövlətin (Türkiyə nəzərdə tutulurdu) tutmasına yol verməməyi öhdəsinə götürürdü. Beləliklə, Bakı 1735-ci ildə yenidən İranın hakimiyyəti altına keçdi. Dərbənd, Bakı və Salyan vilayətlərinə hakimlər göndərildi. Ruslar bütün əsirləri geri qaytardılar.[95]

Rus qoşunlarının Bakıdan və Abşerondan çıxarılmasından, Gəncə müqaviləsindən iki həftə sonra Nadir ona çox munis olan Qalem adlı bir gilanlını Bakı xanı təyin etdi.[96] Bundan əlavə o, inandığı və arxalandığı əfşar tayfasından olan türkləri Abşerona köçürdü və onlar Zabrat, Keşlə və Sabunçu kəndlərində məskunlaşdılar. Həmin tayfanın nümayəndələrindən olan Azərbaycan sərdarı Aşur Xan (Əfşar)* Fətəli xan Əfşarla birlikdə 1743-cü il dekabrın 24-də Ağsu şəhəri yaxınlığındakı döyüşdə özünü şah Hüseynin oğlu kimi qələmə verən yalançı Sam Mirzənin başçılıq etdiyi Şirvan üsyanını yatırtmışdı.[97]

Azərbaycanda İran şahlığı, eləcə də yerli feodallar əleyhinə yönəldilmiş kəndli üsyanları Nadir şah taxtına çıxandan sonra da kəsilmədi. Şirvanda ən iri antifeodal üsyanlar 1738-ci və 1743-cü illərdə baş verdi.[98]

Şahın böyük amansızlıqla yatırtmasına baxmayaraq, bu üsyanlar Nadirin hökmranlığının son illərində xüsusilə güclənmişdi.

Ölkənin ağır iqtisadi vəziyyəti, az qala qırx illik müharibə, feodal araçəkişmələri və kəndli üsyanları Nadir şahın müvəqqəti dövlətini məhvə gətirib çıxartdı. Nadir şah 1747-ci il, may ayının 9-na keçən gecə əyanlarından və yaxın adamlarından bir neçəsi tərəfindən saray çevrilişi zamanı şahın qovduğu qardaşı oğlu – Əliqulu xan

---

* Aşur xan Əfşar – bu kitabın müəllifinin əcdadı

İbrahim xan oğlunun təhriki ilə Xorasanın Fəthabad adlı mənzilində öldürüldü.[99]

Nadir şahın ölümündən sonra onun böyük imperiyası parçalandı. Azərbaycanda bir sıra müstəqil xanlıqlar yarandı. Onların ən mühümlərindən biri paytaxtı Bakı şəhəri olan Bakı xanlığı idi.

3. ŞƏHƏRİN İQTİSADİ HƏYATI

a) Abşeronda neft hasilatı

Orta əsr müəlliflərinin əsərlərində və XVI əsr-XVII əsrin birinci yarısında Bakıda və onun ətrafında olmuş bir çox Şərq və Qərbi Avropa səyyahlarının yol qeydlərində şəhərin həmin dövr təsərrüfat və iqtisadi həyatına dair məlumatlar vardır.

Bakı şəhərinin iqtisadi həyatı bütün orta əsrlər ərzində bir sıra mənbələrin məlumatına görə, XVI-XVII əsrlərdə xeyli miqdarda istehsal edilən neftlə bağlı olmuşdur.[1]

1572-ci ildə Bakıya gələn ingilis ticarət şirkətinin agentləri Bakı neftinə maraq göstərdilər. Həmin şirkətin agentlərindən biri – Ceffri Deket yol qeydlərində Bakıda olarkən onun yaxınlığında çoxlu neft çıxarıldığını xəbər verir: "Bakı adlanan şəhərin yaxınlığında qəribə hadisə nəzərə çarpır. Orada yerin üstünə çoxlu miqdarda yağ çıxır. Onun üçün İranın ən uzaq yerlərindən buraya gəlirlər. Ondan bütün ölkədə evləri işıqlandırmaq üçün istifadə olunur. Qara rəngli bu yağ neft adlanır. Neft qatır və eşşəklərlə ölkənin hər yerinə daşınır, 400-500 başdan ibarət belə karvanlara tez-tez rast gəlmək mümkündür. Həmin Bakı şəhərinin yaxınlığında başqa növ, ağ rəngli, çox qiymətli yağ da vardır. Güman edilir ki, bu, bizdə petroleum (dağ yağı) adlandırılan yağın eynidir".[2] Karvanlarda göstərilən sayda heyvanın olması külli miqdarda neft daşındığına dəlalət edir.

Ceffri Deketin məlumatına əsasən neft hasilatı o dövrə görə əhəmiyyətli dərəcədə çox idi. Bunu 1583-cü ilə aid türk mənbəyi də təsdiq edir.[3] Dal Mehmet Asəfi paşanın əsərində ildə on yük axça gəlir gətirən bir neçə min yükdən ibarət xeyli miqdarda neft hasilatından danışılır.[4] Məlum olduğu kimi, türk yükü 100 000 axça, yəni türk piastrı, yaxud 6000 manat təşkil edirdi. On yük 60000 gümüş manat, yaxud 6000 tümən gəlir təşkil edirdi.İran müəllifi Əmin Əhməd ər-Razinin (1601-ci il) məlumatına görə o dövrdə Bakının

ətrafında (yəni Abşeronda – *S.A.*) qara və ağ neft çıxarılan 500-dək neft quyusu var idi.[5] Neft quyularının sayına dair mənbələrdə verilən bu ilk məlumat, ehtimal ki, bir qədər şişirdilmiş olmasına baxmayaraq, neft hasilatının həcmi barədə fikir yürütməyə imkan verir. Həmin rəqəmi XVII əsrin birinci yarısı türk tarixçisi Katib Çələbi də təkrar edir.[6]

İtalyan səyyahı Pyetro della Valle (1618-ci il) Bakı yaxınlığında çox ucuz olan və şaha hər il böyük gəlir gətirən xeyli qara neft hasil olunmasından danışır.[7]

1647-ci ildə Bakıda olmuş məşhur türk səyyahı Övliya Çələbi özünün "Səyahətnamə" əsərində Abşeronda neft hasilatına dair qiymətli məlumatlar verir. O, xəbər verir ki, Bakı şəhərinin ətrafında yeddi yerdə hər birinin öz rəngi – qırmızı, sarı, qara və i.a. olan neft mədəni var, ancaq onlardan ən qiymətlisi sarı neftdir.[8]

Övliya Çələbi Abşerondakı neft mədənlərinə baxmış və onları təsvir etmişdir. Onun dediyinə görə, neft mənbələrindən xırda göllər əmələ gəlir. "Neftin mühafizəçisinə tabe olan adamlar gecələr həmin xırda göllərə girib nefti keçi tuluqlarına doldururlar. Sonra tacirlər onları alıb müxtəlif ölkələrə aparırlar".[9]

Mətndən göründüyü kimi, neft çıxarmaqla məşğul olan fəhlələr mədənlərin istismarını idarə edən xüsusi adama tabe idilər. Sonra deyilir ki, "neftin onu gecə-gündüz qoruyan xüsusi mühafizəçiləri var idi. Belə ki, əgər ona od düşsə, daim yanacaq və sönməyəcəkdir. Buna görə də, neft mədənlərinin yaxınlığında qum təpələri vardır".[10]

1683-cü il yanvarın 6-8 də Bakıda olmuş, şəhərin və onun ətrafının maraqlı təsvirini vermiş alman səyyahı, İsveç səfirliyinin katibi Engelbert Kempfer neft hasilatının üsullarına dair daha ətraflı məlumatlar gətirmişdir.[11] Kempfer Abşeronda Balaxana, Ramana, Binəqədi və Suraxanı kəndlərindəki neft mədənlərini gözdən keçirmişdir. Onun məlumatına görə, həmin vaxt Suraxanıda uzunluğu təqribən 100, eni 50 addım olan dayaz dərədə yerləşən iki işləyən və səkkiz baxımsız neft quyusu var idi. Çox dar olan quyuların dərinliyi təqribən 40 orgi* idi. Quyuların qırağına daş döşənir və kol-kos əkilirdi.[12] Quyular ibtidai üsulla – Bellə qazılırdı. Möhkəm gil torpaq divarları bərkitmədən və quyuqazanları təhlükəyə məruz qoymadan istənilən dərinliyə qədər qazmağa imkan verirdi.[13]

---

* Orgiya – Qədim Misirdə və Yunanıstanda 2 metrə bərabər uzunluq vahidi

XVIII əsrin 30-cu və 40-cı illərində I Pyotrun qoşunları Bakını işğal etdiyi vaxtlarda (1723-1735-ci illər) burada olmuş İrandakı rus səfirliyinin üzvü İ.Lerxin məlumatına görə, Abşeronda ağ neft quyularının sayı 5-ə çatırdı və göründüyü kimi, neft hasilatı çox aşağı idi. Quyular daşla doldurulmuş və ağzı örtülmüşdü. Neft ayda bir dəfə çıxarılırdı. Quyuları 12 əsgərlə birlikdə unter-zabit qoruyurdu.[14] İngilis səyyahı Qanvey 1747-ci ildə 6 ağ neft quyusundan xəbər verir.[15]

Kempfer, həmçinin, Balaxanada qərbdən şərqə uzanan 100 addımlıq sahədəki qara neft mədəninə tamaşa etmişdir. Burada neft çıxarmaq üçün müxtəlif yerlərdə nizamsız halda çoxlu dar quyular qazılmışdı; lakin quyuların hamısı işləyirdi. Onların dərinliyi otuz və daha çox dirsəkdir. (yuvarlaq olaraq qırx deyirlər). Bu, neft süxurlardan həmin dərinlikdə süzüldüyünə görə deyil, gecə sızan mayenin gündüz fəhlələrin çıxarmasından ötrü quyuda yığılması üçün onlara daha böyük dərinlik lazım olduğundan edilir.[16]

Kempfer daha sonra neftin çıxarılma üsulunu təsvir edir. Neft quyudan dəri tuluqlarda əllə, yaxud kiçik dolamaçarx vasitəsilə çıxarılırdı. Çox neft verən quyulardan birinin ağzı daşla hörülmüş və üstündə xeyli iri tikili ucaldılmışdı. Quyu həm çox enli, həm də dərin idi. Neft şırnağı ona şırıltı ilə axırdı. Onu quyunun dövrəsinə hərəkət etdirilən iki atın hərləndirdiyi dolamaçarx vasitəsi ilə çıxarırdılar. Mədəndə iş yalnız bir neçə saatlığa gecə dayandırılırdı.[17]

Neft xüsusi anbarlarda saxlanırdı. Kempferin təsvir etdiyi həmin anbarlardan biri azacıq dərinlikdə uzunu on yeddi, eni yeddi addım olan böyük tağlı tikili idi. Neft ona yaxınlıqdakı quyudan axıdılırdı. Neft anbarlarının daxilində hər iki tərəfdən istənilən səviyyəyə qədər enmək mümkün olan pilləkənlər düşürdü.[18]

İ.Qanveyin verdiyi məlumata görə (1747-ci il) nefti sudan ayırmaq və təmizləmək üçün onu qanovlarla ardıcıl olaraq bir neçə çalaya, yaxud rezervuarlara axıdırdılar. Beləliklə, birinci çalada neft tərkibindəki sudan ayrılırdı.[19]

Abşeronda neftayırma artıq XIII əsrin əvvəlindən məlum idi.[20] Bunu İ.Lerx təsdiq edir. Tutqun-qonur neftdən açıq sarı, çıxarılarkən bulanlıq olan ağ neftdən spirt kimi tezalışan şəffaf məhsul alınırdı.[21]

Neft həmin çalalardan Bakıya, qala yaxınlığındakı üç xüsusi neft anbarına daşınırdı. Bibiheybət və Bayıl ətrafında, neft quyularının

yaxınlığında 15 belə anbar var idi. Oradaca, yaxınlıqda neft almağa gələn tacirlər üçün karvansara tikilmişdi.[22]

Ağ neft daha yüksək qiymətləndirilir, daha çox satılır və ölkədən xaricə aparılırdı. Neft Abşerondan yük heyvanları ilə, at qoşulmuş arabalarla, yaxud dəvələrlə daşınırdı. O, tuluqlarda Bakıya, Şamaxıya, Azərbaycanın digər şəhər və kəndlərinə gətirilirdi.[23] Neft Bakıdan dəniz yolu ilə İrana, Özbəkistana, Dağıstana və Şimali Qafqaza ixrac olunurdu.[24] Bakı və Şamaxıdan neft karvan yolları ilə Hindistana, İrana, Kürdüstana, Türkiyəyə aparılırdı.[25] Mənbələrdə 1637-ci ildə Moskva dövlətinə çoxlu miqdarda neft ixrac olunduğu göstərilir; burada o, "dövlət xəzinəsi"ndəki mis qazanlarda (ehtimal ki, Moskva Kremlinin anbarlarında) saxlanılırdı.[26] Neft Qərbi Avropa ölkələrinə də ixrac edilirdi.[27]

XVII əsrin birinci yarısında neft hasilatının həcmi haqqında istifadə edilən neft quyularının sayına görə təsəvvür əldə etmək mümkündür. Lerxin verdiyi məlumata görə, Uxaniyanın (indiki Novxana kəndi) 5 verstliyindəki bir kəndin (ehtimal ki, Binəqədinin) yaxınlığında 30-dan 40-dək neft quyusu var idi.[28] XVIII əsrin 20-ci illərinədək neft hasilatı xeyli aşağı düşmüşdü.

"...İran şahının vaxtında orada (Balaxanada – *S.A.*) 52 quyu var idi. Onların hesabına böyük ticarət gedirdi, indi isə zərər çəkməmiş cəmi 26 quyu durur..."[29] Beləliklə, aydın olur ki, XVII əsrdə, neft hasilatının yüksəlişi dövründə hər mədəndə 50-yə yaxın quyu mövcud idi. Övliya Çələbinin məlumatına görə isə Abşeronda 7 yerdə neft çıxarılırdı.[30] Bu hesabla belə çıxır ki, XVII əsrdə, ümumiyyətlə, təqribən 350-400 quyu olmuşdur. Bundan əlavə, Bakı qalasının yaxınlığında Bibiheybət və Bayıl ətrafında, habelə indiki Lökbatanda bir neçə daha dərin quyu (onlardan birinin dərinliyi 90 sajına çatırdı) var idi.[31] Abşeronun şimal sahili yaxınlığındakı Pirallahı adasında xeyli miqdarda qara və tutqun qonur neft çıxarılırdı.[32]

Lerxin sözlərinə görə Balaxanada "hər gün 500 batman neft verən çox gur"[33] bir quyu var idi. Bu isə hər gün 187,5 pud, yaxud ildə 67500 puda bərabər idi*. Ola bilsin ki, həmin quyu fontan vururdu. Lakin quyuların heç də hamısı belə çox neft verə bilməzdi. Bununla belə, göstərilən rəqəm Abşeronda çox böyük miqdarda neft hasilatından xəbər verir.

---

* Lerxin məlumatına görə, o vaxtlar bir batman 15 fenta bərabər idi.

Kempferin gətirdiyi rəqəmlər daha inandırıcıdır. Təkcə Suraxanı kəndindəki quyularda ətraf kəndlərdən olan 32 fəhlə qan-tər içində işləyir və hər biri ayda 7-8 abbası* alırdı**.[34] Buradan gündə hər bir 10-20 Təbriz batmanı gələn 7, yaxud 8 tuluq yüklənmiş 80-dək araba neft aparılırdı.[35] Kempferə görə bir Təbriz batmanı doqquz Belçika funtuna bərabər idi. Gündəlik neft hasilatı 8-10 min batman, yəni 1500-1875 pud (Təbriz batmanının təqribən 3 kq[36] olması hesabı ilə) orta illik hasilat isə 600 000 pud təşkil edirdi. Kempferin sözlərincə. Hesab hər gün səkkiz-on min batman neft çıxarılıb aparılması üzərində qurulurdu, lakin bunun əvəzinə fəhlələr asanlıqla 100 000 batman neft hasil edirdilər. Görünür, Kempfer gətirdiyi 100 000 rəqəmini Belçika livri ilə hesablamışdır. Belə ki, on min Təbriz batmanı 90 000 livrə bərabər idi, lakin fəhlələr bunun əvəzinə 10 000 livr artıq, yəni cəmi 100000 livr neft hasil edirdilər. Fəhlələr Kempferə bildirmişlər ki, şah xəzinəsinin neftdən illik gəliri, xərcləri çıxılmaqla, yeddi min tümənə çatırdı.[37]

Kempferin məlumatlarının başqa mənbələrlə tutuşdurulması onların şişirdilmədiyini və həqiqətə uyğun olduğunu göstərir.

Portuqaliya kralının İrana göndərdiyi elçisi missioner Antuan de Quveanın (1609-cu il) məlumatına görə, Bakı türk işğalı altında olarkən (1578-1607-ci illər) Abşeronun xəzinəyə məxsus neft quyularının bir qismi illik gəliri qırx min ekyü, yəni təqribən 2666 tümən təşkil edən icarəyə verilmişdi.[38] Lakin digər türk mənbələrdə gəlirin miqdarı 6000 tümən, yəni Antuan de Quveanın gətirdiyi məbləğdən 2 dəfə artıq göstərilir. Övliya Çələbi 1647-ci ildə yazırdı: "Neft xüsusi dövlət mülkiyyətidir və şaha ildə 7000 tümən qazanc gətirir".[39]

Katolik missioneri Sansonun 1683-cü ildə, yəni Kempferlə eyni vaxtda verdiyi məlumata görə şah xəzinəsi neftdən bir milyon livr gəlir götürürdü ki, bu da o dövrün məzənnəsi ilə (60 livr 1 tümən hesabı ilə) təqribən 16000 tümən təşkil edirdi.[40]

---

* O dövrün məzənnəsinə görə 1 tümən 500 abbasıya, 1 abbası 4 şahıya bərabər idi. Abbası pul vahidi adı, ənənəvi olaraq, son illərədək işlədilirdi. Bir abbası 20 qəpiyə və ya 4 şahıya bərabər idi (1 şahı 5 qəpikdir).

** Bunun nə qədər az olduğunu göstərmək üçün bəzi ərzaq mallarının qiymətinə diqqət yetirək. Fransa missionerlərinin məlumatına görə o vaxtlar 4 qarabağır quşunun qiyməti 5 su – təqribən $^1/_5$ abbası, bir bəzək quşununku 6 su – $^1/_4$ abbası, bir qırqovulunku 10 su $^1/_2$ abbasıdan bir qədər az idi.

Yezuit missioneri 1687-ci ildə şah xəzinəsinin Bakı neftindən illik gəlirinə dair başqa rəqəm – 12.000 tümən gətirir.[41]

1689-cu ildə Azərbaycan şəhərlərində olmuş missioner pater Villotun məlumatına görə, Bakı sultanı hər il şah xəzinəsinə 420 000 livr təşkil edən yeddi min tümən göndərməyə borclu idi.[42] Villotun sözlərinə görə, "o, həmin məbləği çox asanlıqla ödəyə bilir, çünki Bakının gəliri olduqca böyükdür".[43]

Beləliklə, həmin müəlliflərin məlumatına görə XVII əsr ərzində xəzinənin neftdən əldə etdiyi gəlirin rəqəm göstəriciləri aşağıdakı kimidir:

Asəfi (1583-cü il) – 6000 tümən
Quvea (1601-ci il) – 2266 tümən
Övliya Çələbi (1647-ci il) – 7000 tümən
Kempfer (1683-cü il) – 7000 tümən
Sanson (1683-cü il) – 16600 tümən
Anonim (1687-ci il) – 12000 tümən
Villot (1689-cu il) – 7000 tümən

Gətirilən məlumatlardan aydın olur ki, türk işğalı dövründə (1578-1607-ci illər) mədənlərdə əmək məhsuldarlığı aşağı düşmüş və göründüyü kimi, neft hasilatı azalmışdır. Bu, Türkiyə və Səfəvilər dövləti arasında hərbi əməliyyatlarla əlaqədar ixracatın azalması ilə izah edilir.

Üç müxtəlif müəllifdə gəlirin rəqəmi 7000 tümən göstərilir və gətirilən məlumatları tutuşdurduqda Övliya Çələbi, Kempfer və Villotun məlumatlarının daha inandırıcı olması qənaətinə gəlmək mümkündür.

Ağ neft yerində batmanı bir şahıya, qara neft isə daha ucuz qiymətə satılırdı.[44] Mənbələrin məlumatına görə 1674-cü ildə Moskvada çar xəzinəsində Bakı neftinin bir funtu 30 qəpikdən 40 qəpiyə qədər idi[45]. Əgər ağ neftin batmanı 1 şahıya idisə, onda 7000 tümən illik gəlir 560 000 pud neftdən alınırdı*.

Həm də, 7000 tümənə neftin çıxarılmasına, fəhlələrin əmək haqqının ödənilməsinə, neftin daşınmasına və i.a. çəkilən xərclər daxil deyildi.

---

* Bir tümən 200 şahıdır. 7000 tümən 1.400 000 batman, yaxud 560 000 pud neftin (batmanın 16 funt, pudun isə 40 funt olması hesabı ilə) qiymətidir.

Qeyd etmək lazımdır ki, neft quyularının mühüm hissəsi şah xəzinəsinə məxsus idi. Bibiheybət[46] məzarı vəqfinə məxsus quyular da var idi. Lakin onların gəliri xəzinəyə daxil olmurdu. Bundan əlavə, ayrı-ayrı şəxslərin də quyuları var idi. Onlar xəzinəyə vergi verirdilər. Bütün bunları nəzərə alaraq Kempferin gətirdiyi ildə 600 000 pud rəqəmini real hesab etmək mümkündür.

Neftin istər daxili, istərsə də xarici bazarda külli miqdarda satılması ondan həm məişətdə, həm də hərbi texnikada geniş miqyasda istifadə olunması ilə izah edilir. Neft işıqlandırmaq, qızdırmaq və çıraqbanlıq üçün istifadə olunurdu.[47]

Övliya Çələbinin sözlərinə görə, Azərbaycan bölgələrinin əhalisi "Piy və mum şamlar əvəzinə çıraqlarda qara neft yandırırlar".[48] Qara neft odun əvəzinə yanacaq kimi istifadə olunurdu. Hər evdə neftlə dolu bir, yaxud iki daş qab olurdu. Nefti oradan dəmir parçlarla götürüb qazanın altındakı ocağa, qurudulmuş qumun üstünə töküb yandırırdılar.[49] Neftdən feodal saraylarında çıraqbanlıq və qalaları işıqlandırmaq üçün istifadə edilirdi.[50]

Əhali gün altında qatılaşmış və qurumuş qır halında nefti yerin üstündən yığıb arabalarda şəhərə və ucqar kəndlərə aparırdılar. Buradа ondan hamamları qızdırmaq üçün istifadə edirdilər.[51] Bakuvinin məlumatına görə, hamamların bu üsulla qızdırılmasından hələ XIV-XV əsrlərdə istifadə olunurdu.[52] Ağ neftdən ağac və karton məmulatlarının üzünə çəkilən palitura və lak hazırlanmasında da işlədilirdi.[53] "O, yapon lakı kimi hazırlanır və bu vaxta qədər işlədilənlərin hamısından daha gözəl və möhkəm olurdu".[54] Ağ neftdən ipək və yun parçaların üzərindəki yağlı ləkələrin təmizlənməsində də istifadə edilirdi.[55]

Neft müxtəlif xəstəliklərdə müalicə vasitəsi kimi də işlədilirdi. Lerxin şahidliyinə görə ağ nefti "daş xəstəliklərində və sümük ağrılarında"[56] içirdilər. "Deyirlər ki, onu içmək döş, baş, dəri-zöhrəvi, bədəndəki daş xəstəliklərinə kömək edir".[57] O, sinqa xəstəliyində, qıc tutmasında, podaqra, revmatizm və i.a. xəstəliklərdə də işlədilirdi.[58] Bakı neftinin müalicə xassələri və şəfa mənbələri buraya İrandan və başqa yerlərdən çoxlu xəstələr cəlb edirdi.[59]

Lakin bu dövrdə neft, başlıca olaraq, hərbi texnikada tətbiq olunurdu. Bu, görünür, XVII əsrin sonunadək davam etmişdir.

Moskva dövlətinin 1637-ci ilə aid sənədlərində, "Top ehtiyatı hesabatı"nda və sonralar, 1640-cı ildə, o cümlədən müxtəlif hərbi sənədlərdə yanar halda qorxunc silah kimi istifadə olunan Bakı nefti[60] də xatırlanır.

Övliya Çələbinin dediyinə görə qalaya hücum olunanda düşmənin üstünə neftə batırılmış yanan cır-cındır atırdılar.[61] Lakin neftdən XVII əsrin sonlarında hərbi texnikada istifadə olunmasına dair məlumata rast gəlinmir.

1723-cü il yürüşünün iştirakçısı, artilleriya mayoru İ.Q.Gerber xəbər verirdi ki, İran hökmranlığı dövründə, yəni, 1723-cü ilədək neftdən ildə 50000 rubl, yaxud 5000 tümən[62] gəlir götürülürdü ki, bu da XVIII əsrin əvvəllərində neft hasilatının aşağı düşdüyünü göstərir.

Bakı və Abşeronun çar qoşunları tərəfindən işğalı dövründə (1723-1735-ci illər) əvvəllər şah xəzinəsinə məxsus neft mədənləri rus hərbi idarəsinin sərəncamına keçdi. Çar hökuməti Bakı neft mədənlərinin istismarında maraqlı idi.

Abşeronda neft işinin qoyuluşunun öyrənilməsi nəticəsində bir sıra əsərlər meydana çıxdı. Onların arasında hidroqraf F.İ.Soymonovun 1728-ci ildə tərtib etdiyi qeydlər mühüm yer tutur.[63] Soymonovun məlumatına görə, ruslar şəhəri tutduqdan sonra neft dövlət gəliri üçün xəzinədən satılırdı ki, bu da ildə 20 000 rubl (yaxud 2000 tümən) gəlir gətirirdi.[64]

Rusların hakimiyyəti dövründə neftdən götürülən gəlirin aşağı düşməsi çar inzibati orqanlarının icarə sistemi tətbiq etməsi ilə izah edilirdi.[65] Lakin neft hasilatının kəskin surətdə aşağı düşməsinin səbəbi təkcə bu deyildi. Gerber, Lerx və digər şahidlər bu dövrdə işləyən quyuların çox az olduğunu söyləyirlər. Bakının hərbi idarəsi tərəfindən tərtib edilmiş "Bakı əhalisinin göstərdiyi çöldə və şəhər darvazalarının həndəvərində olan yararlı və yararsız quyuların və anbarların sayı və onların aralarındakı məsafəyə dair reyestr"də göstərilir ki, bu zaman Bakının ətrafında 70 "yararlı quyu", 18 yararsız quyu, 30 "yararlı anbar", 23 yararsız – "adi" və "zədəli" anbar var idi. Onlar şəhərdən 10-20 verst aralı idi.[66] Quyulardan bir neçəsi Bayıl ətrafında,[67] Bakı qalasının yaxınlığında idi. Lerxin şahidliyinə görə, XVIII əsrin 30-cu ildlərində Balaxanadakı quyuların sayı iki dəfə azalmışdı.[68]

XVIII əsrin əvvəlində bütün ölkənin iqtisadi vəziyyətinin pisləşməsi, Türkiyə və Rusiya arasında hərbi əməliyyatlarla əlaqədar satış bazarlarının məhdudlaşması ilə bağlı olaraq Bakının İran, Türkiyə və digər Şərq ölkələri ilə ticarəti müvəqqəti olaraq aşağı düşdü. Digər tərəfdən, neftin Şərq və Qərb ölkələrinə ixracının kəskin surətdə azalmasının əsas səbəblərindən biri də XVII əsrdə və XVIII əsrin əvvəlində Səfəvilər dövlətində və başqa ölkələrdə neftdən hərbi texnikada istifadə olunmasını sıxışdırıb aradan çıxaran odlu silahın geniş yayılması idi. XVIII əsrin birinci yarısında Abşeronda neft hasilatının və ondan dolayı Bakıda şəhər həyatının tənəzzülə uğramasını bununla və qismən siyasi hadisələrlə izah etmək olar.

b) Duz çıxarılması, əhəng (gilabi) istehsalı və i.a.

Bakının təsərrüfat həyatı Abşeronla sıx bağlı idi. Şəhər Bakı ətrafında, yarımadada hasil edilən zəruri təsərrüfat xammalı və kənd təsərrüfatı məhsulları ilə təmin olunurdu. Abşeronun, neftdən başqa, ən qiymətli hasilat məhsullarından biri də, yuxarıda deyildiyi kimi, yarımadanın qərb hissəsindəki Masazır gölündən çıxarılan əla keyfiyyətli duz idi.

1583-cü ilə aid türk mənbəyinə görə, Abşeronda ağ neft mədəninin yaxınlığında "hər il üç min anbar tutan" duz yataqları var idi.[69]

Duzu gölün dibindən taxta xəkəndazlarla bir yerə yığır, kürəklə çıxarır, sonra arabalara yükləyib gölün qərb sahilinə gətirir və burada müəyyən ölçülü qalaqlara bölür, həmin qalaqları toxmaqla döyəcləyib bərkidir və gün altında qurudurdular. Qırx qalaq olurdu. Fəhlələrin dediyinə görə, yayda 1 kub, qışda isə rütubət çox olduğundan onun yarısı qədər duz hasil edilirdi. Buradan onu arabalarla, dəvələrlə Bakıya və digər şəhərlərə aparırdılar. Duz Bakıdan dəniz yolu ilə Həştərxan vasitəsilə Rusiyaya, İrana və başqa ölkələrə göndərilirdi.[70]

Abşeronun neft çıxarılan yerlərində, Suraxanı kəndinin yaxınlığında təbii qaz yerin səthinə çıxırdı. Yerli əhali daim yanan qazdan əhəng yandırmaq və təsərrüfat ehtiyacları üçün işıqlandırıcı və qızdırıcı vasitə kimi istifadə edirdilər. Kempfer əhəngin hazırlanması üsulunu təsvir edir. Başqa yerlərdən yığılmış çoxlu miqdarda

əhəngdaşını qaz alovu çıxan qayanın yarıqları ağzında qalayıb üç gün yandırırdılar. Sonra sönmüş əhəngi Bakıya yollayır, oradan isə gəmilərlə başqa şəhərlərə daşıyırdılar.[71] XVIII əsrin birinci çərəyinin axırlarında, Bakı ruslar tərəfindən tutulduqdan sonra, şəhərin hərbi idarəsi əhəng yandırmaq üçün unter-zabitin başçılığı altında daim bu işlə məşğul olan 12 soldat ayırdı.[72] Əhəngdən tikinti işlərində istifadə olunurdu. Abşeron yarımadasının şimal-qərb hissəsində "gilab" adlanan ağardıcı gil[73] çıxarılırdı. Şəhər və kənd əhalisi ondan sabun kimi xalça, paltar və baş yumaq və digər məişət ehtiyacları üçün istifadə edirdilər. Abşeronun şimal-şərqində yerləşən Çilov adasında suiti ovlanırdı.[74] Onun dərisindən neft daşımaq üçün tuluq hazırlanır,[75] yağından isə sabun bişirilməsində və çıraqlarda istifadə olunurdu.[76]

c) Abşeronun kənd təsərrüfatı məhsulları

Şəhərə ərzaq məhsulları ətraf kəndlərdən gətirilirdi. Dənizin yaxınlığı Bakı sakinlərini müxtəlif çeşidli balıqlarla təmin edirdi. Şəhər, başlıca olaraq, Abşeronda çox yetişdirilən qoyun əti ilə təchiz olunurdu.[77] Qoyun və keçi dərisindən neft[78] və digər məhsulların daşınmasında istifadə olunan tuluq hazırlanırdı. Qoyun dərisindən, bundan əlavə, müxtəlif gön-dəri məmulatları – kürk, papaq, ayaqqabı və s. tikirdilər. Keçi dərisi ayaqqabı gönü almaq üçün aşılanırdı. Qoyun yunundan yun sap alır və qalın mahud toxuyurdular. Qoyun yunundan yorğan və döşək salırdılar.

Abşeronda əti yeyilən ceyran sürüləri də var idi.[79] Bakı əhalisinin bir qismi şəhər ətrafında və Abşeronda kənd təsərrüfatı bitkiləri becərməklə məşğul olurdu.

Övliya Çələbi şəhərin ətrafında pambıq becərildiyini xəbər verir.[80] XVII əsrin birinci yarısında Abşeronda (Şüvəlan kəndində) və başqa yerlərdə çoxlu miqdarda pambıq becərilirdi.[81] Bakı ətrafında barama yetişdirilir, barama qurdlarının yarpaqları ilə qidalandığı tut ağacı əkilirdi.[82] Övliya Çələbi, həmçinin, Bakıdan ipək ixrac olunduğunu xəbər verir.[83] XIX əsrin əvvəlinə aid daha sonrakı mənbələrdə Bakı bölgəsində ipək istehsal olunduğu açıq şəkildə göstərilir.[84]

Kempferin məlumatına görə, Bakı əhalisi əkinçiliklə çox məhdud miqyasda məşğul olurdu.[85] Ancaq XVIII əsrin 20-ci və 30-cu lərində Abşeronda əkinçilik xeyli inkişaf etmişdi.[86] Lerxin sözlərinə görə "orada çoxlu buğda, arpa və pambıq əkilir".[87]

Şəhərin ətrafında bostançılıq və bağçılıq inkişaf etmişdir.[88] Kempferin məlumatına görə "sayca çox olmayan bağlarda, yaxşı becərildikdə, qovun, əncir, alma, nar və üzüm yetişir".[89] Bağlarda tut, ərik, sərv qozu becərilirdi.[90] 1689-cu ildə Bakıda olmuş yezuit missionerinin dediyinə görə, Abşeronda "bağlarda bitən və dibçəklərdə yetişdirilənlərdən müqayisəsiz daha dadlı"[91] olan yabanı portağal və limon yetişdirilir.

Ətraf kəndlərin camaatı şəhərə çoxlu üzüm, qarpız, qovun və tərəvəz gətirirdi.[92] Bakı ətrafında, xüsusilə Novxana kəndinin yaxınlığında, yazda, mart, aprel aylarında kəndlilər xeyli miqdarda dombalan göbələyi yığır və şəhərə gətirib satırdılar.[93]

Lakin şəhər ətrafında və Abşeron kəndlərində becərilən ən qiymətli bitki mühüm ixrac mallarından olan əla keyfiyyətli zəfəran idi.[94] Zəfəranın iki növü bitirdi: mədəni və yabanı. Altıillik soğanaqlı bitki olan birinci növ daha yüksək qiymətləndirilirdi, onun alqırmızı rəngli çiçəklərindən istifadə olunur. Onu səhərlər böyük sahələrdən çimdik-çimdik yığırdılar. İkinci növ zəfəran çox böyük sahələri tutur və ucuz qiymətləndirilirdi.[95] Yezuit missionerinin məlumatına görə zəfəranı sobada azacıq miqdarda mumla qarışdırır,[96] xırda-xırda doğrayır və bu cür satırdılar.

XVIII əsrin əvvəllərində Bakının həndəvərində yüzlərlə zəfəran sahəsi var idi.[97] Lerxin şahidliyinə görə, XVIII əsrin 30-cu illərində "Bakının torpağı demək olar ki, bütünlüklə daşlıq olduğundan şəhərin özündə zəfəran bağları az idi... Torpağı daha münbit olan Abşeron yarımadasında isə belə bağlar qat-qat çox idi..."[98] O, daha sonra Şüvəlan kəndində zəfəran əkinlərinin olduğunu qeyd edir.[99] Zəfəran çox qiymətli məhsul olub, təsərrüfatda geniş istifadə edilirdi. Zəfəran ədviyyə kimi yeməkdə işlədilirdi. O, ipək və yun parçaları və xalçaları boyamaq üçün çox əla boyaq (narıncı rəng) maddəsi idi. Krusinski Bakı haqqında danışarkən qeyd edirdi: "Bu şəhər bütün İranı zəfəranla təmin edir. İranlılar onu düyüyə vurmaqdan əlavə, başlıca olaraq, ipək boyamaqda istifadə edirlər..."[100] Zəfəran İbn Sinanın "Qanun" kitabında qeyd etdiyi bir sıra xəstəliklərin müalicəsində işlədilən dərman vasitəsi kimi Şərqdə hələ X əsrdən yaxşı məlum idi.[101]

Göstərilən kənd təsərrüfatı məhsulları təkcə şəhər əhalisi tərəfindən istifadə olunmur, həm də ixrac edilirdi.

4. SƏNƏTKARLIQ VƏ TİCARƏT

XVI-XVIII əsrlərdə Bakıda sənətkarlıq istehsalına dair məlumatlar çox cüzi olub bu haqda tam təsəvvür əldə etməyə imkan vermir. Bu bölməni yazmaq üçün səyyahların xəbərlərindən, arxiv sənədlərindən və arxeoloji məlumatlardan istifadə etmişik. Muzey eksponatları – bir sıra muzeylərin fondlarında saxlanılan müxtəlif sənətkarlıq məmulatları da tədqiqata cəlb olunmuşdur.

Azərbaycanda sənətkarlığın kənd təsərrüfatından ayrılması və şəhərlərdə müxtəlif sahələr arasında əmək bölgüsü XVI əsrdən xeyli əvvəllər, hələ erkən feodalizm dövründə, eramızın ilk əsrlərində baş vermişdir. Bu proses əvvəllər ləng getsə də, artıq XVI, xüsusilə XVII əsrdə şəhər həyatının inkişafı ilə əlaqədar sənətkarlıq istehsalında əmək bölgüsü xeyli sürətlənmişdi.

XVI-XVIII əsrlərdə Şirvan şəhərlərində sənətkarlıq istehsalı Səfəvilər dövlətinin əksər şəhərləri üçün səciyyəvi olan yüksək inkişaf səviyyəsinə çatmışdı.

Bakı Abşeronun ətraf kəndləri ilə birlikdə müxtəlif peşələrdə çalışan xeyli sənətkarın cəmləşdiyi iqtisadi mərkəz idi. Kəndlər şəhəri sənətkarlıq xammalı ilə təchiz edirdi.[1]

XVII əsrdə Azərbaycan şəhərlərində sənətkarlıq məmulatlarına, onların daxili və xarici bazarlarda satışına yaranan böyük tələbatla əlaqədar sənətkarlıq istehsalının inkişafı müxtəlif peşələrin meydana gəlməsinə, istehsalat texnikasının təkmilləşməsinə və onların bir sıra müstəqil sahələrə ayrılmasına səbəb oldu. Lakin feodal istehsal üsulu ayrı-ayrı sənətlərdə daxili ixtisaslaşmanı hələ də ləngidirdi.

XVI-XVIII əsrlərdə Şirvan şəhərlərində ən mühüm sənətkarlıq sahələrindən biri bədii ənənələri əsrlərin dərinliyinə gedib çıxan xalçaçılıq idi. Xalçaçılıq ölkənin köçəri, yarımköçəri və oturaq əhalisinin maldarlıq təsərrüfatı ilə bağlı qədim sənətkarlıq növlərindəndir. Bu sənətkarlıq növünün geniş yayılması xalçaçılığın inkişafına əlverişli şəraitin – qoyun bəsləmək və xalça istehsalına lazım olan yun əldə etmək üçün otaqların mövcudluğu ilə izah edilir. Bundan başqa, ölkənin bütün Xəzər dənizi boyu və daxili bölgələrində xalçaçılığın inkişafı üçün əlverişli olan müxtəlif təbii boyaqlar bol idi. Azərbaycanda hələ eramızdan xeyli əvvəllər xalça toxunmuşdur.[2] VII əsr alban salnaməçisi Albaniyada ipək parçalar və al-əlvan xal-

çalar toxunduğunu xəbər verir.[3] X əsr anonim əlyazmasında Şirvan və Xursan[4] vilayətlərində (Bakı şəhəri ilə birlikdə Abşeron da bu bölgəyə daxil idi – *S.A.*) müxtəlif çeşidli "məxfuri" – xovlu xalçalar, palazlar toxunmasına dair məlumatlar gətirilir.

XV-XVIII əsrlərdə geniş şöhrət qazanmış Şirvan xalçaları Şərq və Qərb bazarlarına ixrac edilirdi.[5]

XVI-XVIII əsrlərdə Abşeronda bədii sənətlərin inkişafı ilə bağlı xalçaçılıq da geniş vüsət aldı. Şəhərin və Abşeron kəndləri əhalisinin böyük bir qismi xalçaçılıqla məşğul olurdu. Bakı qrupuna məxsus xalçalar Quba-Şirvan xalçaları tipinə daxildir. Bu qrupa Bakı və Abşeron kəndlərinin – Xilə (Əmircan, Xiləbuta, Xiləəfşan tipli xalçalar), Suraxanı, Novxana, Goradil, Qala, Fatmayı və Xızı rayonunun xalçaları daxildir.[6]

Qədim və erkən orta əsrlər dövrünə aid Bakı qrupu xalçaları dövrümüzədək qalmamışdır. Bakı xalçaları haqqında məlumatlara feodal saraylarında, şəhər və kənd camaatının evlərində gördükləri xalçaları təsvir edən XVII-XVIII əsr Qərbi Avropa səyyah və tacirlərinin yol qeydlərində rast gəlinir.

1607-ci ildə Bakıda olmuş və burada Şirvan bəylərbəyi Zülfüqar xan Qaramanlı tərəfindən qəbul edilmiş Garmeli keşişinin dediyinə görə xan evinin otaqları bahalı xalçalarla döşənmişdi.[7]

Alman səyyahı Kempfer 1683-cü ildə Bakı yaxınlığındakı Binə kəndində evlərin döşəndiyi gözəl xalçaları xatırlayır.[8]

1733-cü ildə Bakıda və onun ətrafındakı kəndlərdə olmuş səyyah Lerx də Zirə kəndi sakinlərinin evlərindəki gözəl xalçalardan danışır.[9]

XVIII əsrdə və XIX əsrin əvvəllərində Abşeronun müxtəlif kəndlərində toxunmuş bir neçə xalça dövrümüzədək qalmışdır. Onlardan Azərbaycan tarixi muzeyində saxlanılan XVIII əsrə aid bir xalça Suraxanı kəndində toxunmuşdur.[10]

Xalçanın uzunluğu 3 m, eni 1,5 m-dir. Onun orta zolağı açıq mavi rəngli olub, konturları oxra rəngli çəhrayı "buta"* ornamenti ilə örtülmüşdür. Xalça nəbati naxışlı çəhrayı, oxra və ağ rəngli haşiyə ilə dövrələnmişdir. Maraqlıdır ki, Bakı xalçalarının ən çox sevilən göy, mavi və oxra rəngli koloriti yarımadanın təbiətini – dənizi və qumu əks etdirir.

---

* Buta – hind incəsənətində yayılmış, oradan, ehtimal ki, İrana və Azərbaycana keçmiş formaca sərvə oxşayan ornament

Moskvadakı Dövlət Tarix Muzeyində saxlanılan "Xiləbuta" adlı digər bir xalça isə Xilə kəndində toxunmuşdur. Xalçanın ölçüsü 1,101,180 m-dir. Xalçanın mərkəzi göy rəngdə olub, ortasında medalyon var. Xalçanın səthi bütünlüklə qırmızı və oxra rəngli "buta" ornamenti ilə örtülmüşdür. Onun yuxarı hissəsində ərəb hürufatı ilə "Karxaneyi-Xilə" sözləri və h.1218-ci il tarixi göstərilən kitabə vardır.[11] Elə onun yanındaca həmin tarix ərəb rəqəmləri ilə təkrar edilir ki, bu da 1803-cü ildə burada karxana olduğunu göstərir. Şübhəsiz, Xilə kəndindəki həmin karxana olduğunu göstərir. Şübhəsiz, Xilə kəndindəki həmin karxana əvvəlki əsrlərdə də mövcud olmuşdur. Tarixin Rusiyada və Avropa ölkələrində işlədilən rəqəmlərlə verilməsi bu xalçanın həmin ölkələrə aparılmasının nəzərdə tutulduğunu göstərir.

Xalçanı qiymətləndirmək üçün onun keyfiyyəti aşağıdakı şəkildə müəyyən edilirdi: böyük barmağı xalçanın qırağına qoyub, onun bir barmaq enindəki saplarının miqdarı sayılırdı. Sapların sayı nə qədər çox olsa, xalça da bir o qədər baha qiymətləndirilirdi. Sapların sayı 14, yaxud 15 olurdu.[12]

Xalça və palazlardan başqa, xalça məmulatları – pərdələr, çullar, heybələr, çuvallar, xurcunlar və məişətdə işlənən digər əşyalar geniş yayılmışdı.

Bakıda və Abşeron kəndlərində xalçaçılıqla əlaqədar əhali boyaqlar, başlıca olaraq, bitki boyaqları hazırlamaqla məşğul olurdu.[13] Məlumdur ki, əncir ağacının yarpaqlarını qaynadaraq yun saplar üçün tutqun oxradan tutmuş açıq krem rənginədək boyaq hazırlayırdılar. Abşeronda və yaxınlıqdakı adalarda yığılan boyaqotundan qırmızı boyaq düzəldilirdi. İpək və yunu zəfəranla narıncı rəngə boyayırdılar.[14] Nar qabığından əla qəhvəyi-kürən rəngli boyaq alınırdı. Limon və qoz qabığından, meynə yarpağından, soğan qabığından, bir sıra ot, gül və bitkilərdən, habelə ağac qabıqlarından da boyaq hazırlanırdı.[15]

XVIII əsr fransız səyyahı Şarden İran və Azərbaycandan bəhs edərkən bu ölkələrdə boyaqçılıq sənətinin Avropa ölkələrindəkindən xeyli üstün olduğunu göstərir. Müxtəlif bitki və meyvələrdən hazırlanan boyaqlar daha parlaq və möhkəm olur, zaman keçdikcə solmurdu.[16] Otlardan yun, ipək və pambıq sapları, habelə müxtəlif parçaları boyamaq üçün istifadə olunurdu.

Bundan əlavə, boyaqlar dəriləri, çoxlu mal-qarası olan kəndlərlə əhatə olunan şəhərdə geniş istifadə edilən müxtəlif dəri məmulatlarını boyamaq üçün də lazım idi. Ayaqqabı, qayış, yəhər və yüyən üçün dəri, əsasən şaqrendən və tumacdan hazırlanırdı.[17] Bakıda dəri aşılamaqla məşğul olan dabbaqlar və dəri məmulatı hazırlayan sənətkarlar var idi.[18]

Şəhərin və ətraf kəndlərin əhalisi, xüsusilə qadınlar xalça, parça, kəndir toxunmasında, habelə müxtəlif naxışlarda istifadə edilən rəngbərəng yun və ipək saplar əyirirdilər.

XVI-XVIII əsrlərdə Bakıda xalçaçılıqla bağlı toxuculuq sənəti inkişaf etmişdi. Toxuculuqda xammal kimi şəhərin həndəvərində və ətraf kəndlərdə becərilən pambıqdan istifadə olunurdu.[19] XVII əsr sənədlərində daxili və xarici bazar üçün külli miqdarda istehsal edilən Bakı qumaşı xatırlanır.[20]

Kempferin 1683-cü ildə Bakıdan danışarkən "burada sənətkarlığın, əyirmənin, toxuculuğun az inkişaf etdiyini"[21] qeyd etməsinə baxmayaraq, mənbələrdə bu təsdiq olunmur. Hətta Kempferin özü də bir neçə dəfə Bakıdakı sənətkarlıq emalatxanalarından bəhs edir.[22]

Şəhərdəki və onun ətrafındakı mühüm sənətkarlıq istehsalından biri də metal emalı idi. Bakıda silah, mis qab, nal və digər məişət əşyaları hazırlanırdı. Bu məmulatları hazırlamaq üçün sənətkarlar Şamaxı, yaxud Bakı bazarlarında rus tacirlərinin Həştərxandan buraya gətirdikləri mis, qalay və polad alırdılar.[23] Misi Tiflisdən də alırdılar. Lakin onun keyfiyyəti Həştərxandan gətirilən misdən aşağı idi.[24]

Bakıda dəmirçilik inkişaf etmişdi. Holland dənizçisi Stryuys öz yol qeydlərində silah düzəldən Bakı sənətkarlarından danışır. "...Həmin gün (29 oktyabr 1671-ci il) mən Şamaxıdan çıxanda bu vaxtadək Bakıda qul olan bizim Meynert Meynerst oraya gəldi. O, Bakıda, poladının möhkəmliyi ilə məşhur olan bir yerdə bıçaq və qılınc düzəldən bir ustanın dəmirçixanasında işləmişdi..."[25]

Şarden, de Teveno, Rafael dü Mann və başqa müəlliflər öz alətləri ilə qapı-qapı gəzib xidmət göstərən təkbaşına işləyən sənətkarlardan bəhs etmişlər. Azərbaycanın şəhər və kəndlərində geniş istifadə olunan mis qab qalayçıları belələrindən idi. De Tevenonun sözlərinə görə, bu ustalar elə sürətlə işləyirdilər ki, yarım saat ərzində beş, yaxud altı qazan qalaylayırdılar və bu çox ucuz başa gəlirdi.[26]

Sənətkar emalatxanaları həm Bakı qalasının daxilində, həm də qala divarlarından bayırda yerləşirdi. İçərişəhərin şimal divarları

rayonunda şlak və kül, yandırılmış gil qalaqları şəklində izləri qalmış XIV–XVII əsrlər mədəni təbəqəsinə aid sənətkarlar məhəlləsi olmuşdur.[27]

Məişətdə saxsı qablar geniş yayılmışdı. Azərbaycan tətbiqi sənətində XVI–XVIII əsrlər keramikası az öyrənilmişdir. İçərişəhərin üst təbəqəsinin şirsiz saxsı qabları arasında dar və geniş boğazlı tək və qoşa qulplu qırmızı və sarı rəngli küpələr aşkar edilmişdir. Bəzi qabların boğazaltı hissəsində oyma naxışlar vardır. Saxsı çömləklərə, kasalara, çıraqlara tez-tez rast gəlinir. Saxsı qabların çoxu dulus çarxında hazırlanmışdır. Şirli saxsı qablar arasında anqob və manqanla, həm monoxrom, həm də polixrom naxışlarla bəzədilmiş camlar, kasalar, nəlbəkilər və digər əşyalar vardır. Bəzi qablarda anqobla işlənmiş naxışlar qrafik təsvirlərlə uzlaşır. Üst təbəqədə müəyyən miqdarda saxsı və şüşə qablar da tapılmışdır.[28] Kobaltla naxışlanmış bəzi saxsı kasalar və qablar İranın Bakı vasitəsilə Azərbaycana Yaxın Şərq ölkələrində şöhrət qazanmış bahalı qab-qacaq və zərxara parçalar idxal olunan Rey, Kaşan, Yəzd kimi mərkəzlərindən gətirilirdi. Şirvanşahlar sarayı ərazisində XVI–XVIII əsrlərə aid təbəqələrdə şəffaf şir çəkilmiş nazik qırığı tünd kərpici-qırmızı rəngli çənbərsiz kasa və boşqablara rast gəlinmişdir. Həmin məmulatların bəzilərində şirin altında sarı gillə olduqca səliqəsiz şəkildə işlənmiş nəbati naxışlar vardır.[29] Bakı və Abşeronda şəffaf şirin altında açıq-sarı rənglə vurulmuş ləkələri olan qırığı kərpici-qırmızı rəngli nazik divarlı məmulatlara təsadüf edilir. Belə məmulatlar naxışsızdır.[30] Bütövlükdə qırmızı rənglə yaxud həndəsi və nəbati naxışla örtülmüş nazik divarlı şüyrələnmiş nazik divarlı qablara da rast gəlinir.[31] 1978-ci ildə Bakı yüksəkliyinkinin şərq yamacının ətəkləri yaxınlığında, Bəylər məscidindən 15 m qərbdə yerləşən XIII sahədə aparılan arxeoloji işlər zamanı həm şirli, həm də şirsiz gil qabların qırıqları aşkar edilmişdir. Adi keramika küpə, çömlək, cam, kasa, çıraq və s. əşyalardan ibarət idi. Onlardan bəzilərinin səthi müxtəlif dalğavari və paralel düz xətlər, çərtmələr, batıqlar və yapma düyməciklərlə bəzədilmişdir. Şirli qabların əksəriyyətinin qırığına yaşıl rəngli şəffaf şirin altından anqobla monoxrom naxışlar vurulmuşdur. Onların bəziləri oyma naxışlarla bəzədilmişdir. XIV–XVII əsrlərin üst təbəqəsi üçün altdan sarı və krem rəngli anqobla naxışlanmış mis rəngli şir çəkilmiş camlar, kasalar, boşqablar da səciyyəvidir. Tapıntılar arasında nazik divarlı şüşə məmulatlar var idi.[32]

İçərişəhərdə tapılmış keramika məmulatı Bakı və Abşeronda istehsal olunurdu. Belə ki, elə həmin sahədə ətrafına saxsı qab qırıqları və dulusçuluq istehsalatı şlakı səpələnmiş, uçulub-dağılmış dulus kürəsinin qalıqları aşkar edilmişdir. Sonrakı illərdə İçərişəhər ərazisinin müxtəlif yerlərində külli miqdarda deformasiyaya uğramış və zay keramika məmulatları, üçbucaqlı altlıqlar, silindr şəkilli gil qəliblər, dulusçuluq istehsalının qalığı olan şlak topaları və sızmış şir izləri aşkar edilmişdir ki, bütün bunlar tapılmış keramika məmulatlarının, şəksiz, yerli istehsal məhsulu olduğuna sübutdur.[33] 1957-ci ildə şəhərin şimal-qərb hissəsində, qala divarlarının yaxınlığında tikinti işləri aparılarkən qırmızı gildən düzəldilib şir çəkilmiş xeyli miqdarda çıraq tapılmışdır. Görünür, bu ərazidə sənətkar dükanları olmuşdur. 1985-ci ilin payızında indiki İstiqlalyiyyət küçəsindən rabitə xətti çəkilərkən İçərişəhərin şimal-qərbində, qala divarlarından xaricdə dulusçular məhəlləsi aşkar edilmişdir. Həmin sahədə dulus kürəsinin qalıqları da tapılmışdır.[34]

Yuxarıda dediyimiz kimi, Azərbaycanda keramika istehsalının inkişafı XII-XIII əsrin əvvəllərinə aiddir. Azərbaycanın monqollar tərəfindən istilası, şəhərlərin dağıdılması, sənətkarların əsir aparılması bir sıra istehsal sahələrinə, o cümlədən keramika istehsalına böyük zərbə vurdu. Keramika sənəti XV-XVI əsrlərdəki müəyyən dirçəlişə baxmayaraq, tənəzzülə uğradı və bu qədim sənət sahəsi bir daha XII əsr səviyyəsinə çata bilmədi.

XVI-XVIII əsrlərdə Bakıda mühüm bədii sənət sahələrindən biri zərgərlik idi. Mənbələr rəngli minadan və qızıldan hazırlanmış gözəl bəzək şeylərindən xəbər verirlər. Şirvanlı Abdulla xanın geyimini təsvir edən ingilis səfiri Antoni Cenkinson belə nəql edir: "Çalmasının sol tərəfində mina və qiymətli daşlarla işlənmiş qızıl lüləyə taxılmış lələklərdən eqret ucalırdı. Onun sırğalarından iki yaqut düzülmüş əl boyda artırma sallanırdı". Rəngli minadan və qızıldan hazırlanan bəzək əşyaları Azərbaycanda əsrimizin 20-ci illərinədək geniş yayılmışdı. Onların ornament və formaları əsasən qədim motivlərini qoruyub saxlayaraq nəsildən nəslə ötürülmüşdür ki, bu da incəsənətdə varislik ənənələrinin möhkəmliyini göstərir.[35] Qızıl və gümüş qadın bəzək şeyləri – paltarda tikmələr, bilərziklər, qızıl və gümüş toqqalı və düyməli kəmərlər Bakıda və Azərbaycanın digər şəhər və kəndlərində geniş yayılmışdı.[36]

Sənətkarlar feodal və xanların atlarını bəzəyən üzəngiləri, yüyənləri, yəhər qayışlarını qızılla işləyirdilər. Qızıl saplarla (güləbətin) tikilmiş çullar, mirvari və digər qiymətli daşlarla bəzədilirdi. Qızıl və gümüş zərgərlik məmulatları basmaqəlib və oyma naxışlarla işlənirdi. XVI-XVIII əsrlərdə qızıl və gümüş bəzək əşyalarında qədim məmulatlarda rast gəlinməyən qara mina qarışdırılmış qızıl və gümüşdən[37] istifadə olunurdu. XVI-XVIII əsr zərgərlik məmulatları arasında üstü filiqran və zər dənəcikləri ilə bəzədilmiş yumruvarı boyunbağı, muncuq və sırğalara təsadüf edilir.[38] Buna bənzər bəzəklər düyməli və toqqalı qızıl və gümüş qadın kəmərlərində də tətbiq edilirdi. Bu məmulatlar son dərəcə zərif və mürəkkəb zərgərlik işi idi. XVI-XVIII əsrlərdə feodallar və əyanlar üçün hazırlanan qızıl zərgərlik məmulatları tacirlərin İrandan, Hindistandan, Ərəbistandan və digər ölkələrdən Şirvan şəhərlərinə gətirdikləri qiymətli daşlarla – mirvari, almaz, zümrüd, ləl və firuzə ilə bəzədilirdi.

Bakıda bənnalıq sənəti geniş vüsət almışdı. İçərişəhərdə arxeoloji qazıntılar zamanı əhəng məhlulu ilə yonulmuş və az yonulmuş daşlardan hörülmüş planda düzbucaqlı evlərin bünövrələri və divar qalıqları aşkar edilmişdir. Divarların çoxunun səmti başqa ölkələrdəkinə uyğun gəlir. Otaqlarda qapı və pəncərə açırımlarından əlavə, məişət müxəlləfatı üçün kiçik dördkünc taxçalar vardır. Otaq divarlarının içəri tərəfdən bəzi yerlərində suvağı qalmışdır. Evlərin balaca həyətlərində müxtəlif ölçülü təndirlər, kül və yanmış gil qalıqları yığılmış ocaq yerləri, ağzının qıraqları daşla hörülmüş təsərrüfat və zibil quyuları, su və kanalizasiya xətləri, digər məişət obyektləri aşkar edilmişdir.[39] XVI-XVIII əsrlərə aid mövcud memarlıq abidələri memar, bənna, daşyonan və rəssamların yüksək sənətkarlıq səviyyəsini göstərir.

Abşeron abidələrinin epiqrafik məlumatları binaların tikilməsində məlum əmək bölgüsünün mövcud olduğunu göstərir. Tikintinin rəisi sərkar idi. İş, görünür, adı və nisbəsi adətən, kitabədə göstərilən ustadın, mühəndisin, memarın çertyojları və planı üzrə görülürdü.

Binaların tikilməsində bənnalar, şəbəkə ustaları, həkkaklar, xəttatlar, gəctaraşlar, nəccarlar, nəqqaşlar və i.a. iştirak edirdi. Tikinti işləri ilə bağlı Bakıda dülgərlik və ağac emalı sənətləri inkişaf etmişdi. Sənətkarlar müxtəlif məişət məmulatları hazırlayırdılar. Ağacdan məscidlər üçün zərif minbərlər – nəbati və həndəsi naxışlı şəbə-

kələr düzəldirdilər. Şəhərdə gəmiqayıranlar, qayıqçılar, dərzilər, çəkməçilər və b. da yaşayırdı. Bütün bunlar XVI-XVII əsrlərdə ölkənin məhsuldar qüvvələrinin və şəhərin təsərrüfat həyatının inkişaf etdiyini, əmtəə-pul münasibətlərinin genişləndiyini göstərir.

XVIII əsrin birinci çərəyində siyasi hadisələr, müharibələr əhalinin ağır feodal istismarı və ölkənin xammal bazasının dağılması ilə bağlı Şirvanda iqtisadi tənəzzül müşahidə olunur və bununla əlaqədar sənətkarlıq istehsalı tədricən aşağı düşür və XVIII əsrin 40-cı illərində iflasa yarayır.

XVI əsrin əvvəlində Osmanlı dövlətinin güclənməsi, onun Qərbdə və Şərqdə ekspansiya siyasəti ilə bağlı olaraq Qərb dövlətlərinin XVI əsrin əvvəllərində meydana gəlmiş və Türkiyənin Azərbaycana və İrana müdaxiləsindən ehtiyat edən Səfəvilər dövləti ilə əlaqələri intensiv şəkil alır. Siyasi şəraitlə bağlı Qərb ölkələrində Şərqə, o sıradan Azərbaycana maraq artır. XVI əsrdə isə biz artıq bir sıra səyyah-tacirlərin Azərbaycana gəldiyini görürük.

Avropa dövlətlərinin Osmanlı dövlətindən yan ötərək İran və Hindistanla birbaşa ticarət əlaqələri yaratmaq cəhdləri 1498-ci ildə Afrikanı dolanaraq Hindistana gedən dəniz yolunun açılmasına gətirib çıxardı. Lakin bu, Avropadan Şərqə gedən dünya ticarəti yolunu çox sonralar dəyişdirdi və karvan ticarəti XVII əsrin sonunadək öz əhəmiyyətini itirmədi. Vasko de Qamanın açdığı yol Hindistanla birbaşa dəniz əlaqələrinə əlverişli imkan yaratdı. Lakin bu yol tezliklə digər Avropa ölkələrinin Şərqə nüfuz etməsinə mane olan ispanlar və portuqallar tərəfindən tutuldu.[40] Buna görə də, XVI əsrin əvvəllərində bir sıra ölkələrin səyyahlarında yeni – İran və Hindistana Moskva Dövləti və Xəzər dənizindən keçən şimal dəniz yolu ideyası meydana gəldi. Bu dövrdə bir sıra ingilis tacirləri və səfir Çenslor Moskva çarı İvan Qroznının yanına kəşfiyyat səfərləri etdilər. Çar İvan Qroznı Çenslora Moskva Dövlətində sərbəst ticarət etmək hüququ haqqında fərman vermişdi.[41] 1555-ci ildə İngiltərədə İngiltərə ilə Moskva dövləti arasında ticarət əlaqələri bərqərar edən Moskva Şirkəti təsis olundu. Bu şirkətin məqsədi Volqa-Xəzər ticarət yolunu açmaq və ingilis ekspedisiyalarının Azərbaycana, İrana və oradan Şərqə kəşfiyyat səfərləri idi.[42]

Hindistandan Avropaya mallar ta qədimdən quru karvan ticarət yolları ilə daşınırdı ki, bu da çox baha başa gəlir və xeyli vaxt

aparırdı. Lakin XVI əsrdə Şərqi Avropadan Ağ dəniz, Şimali Dvina, Volqa və Xəzər dənizi vasitəsilə Azərbaycandan keçərək İrana və Hindistana gedən Volqa-Xəzər yolu deyilən yol işə düşdü. Bu yolda Xəzəryanı vilayətlər, xüsusilə, çoxlu ipək istehsal olunan Şirvan və Gilan Avropa ticarəti üçün mühüm əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar olaraq ipək ticarətində mühüm liman kimi Bakının özünün əhəmiyyəti artdı.[43]

XVI əsrdə bir neçə ingilis səyyah-taciri həmin yolla təkcə ticarət məqsədi ilə deyil, həm də öz hökumətlərinin siyasi tapşırıqlarını yerinə yetirmək üçün Azərbaycana gəlmişdi.[44] 1562-ci ildə Moskva Şirkətinin agenti, bir sıra ekspedisiyaların təşəbbüsçüsü və fəal iştirakçısı olan ingilis səyyahı Cenkinson Azərbaycana gəldi. Cenkinson 1562-ci ildə Azərbaycanda olarkən Dərbənd, Şamaxı, Cavad və digər şəhərlərə getdi. O, öz məktublarında bu səyahətini təsvir edərək, Azərbaycanın şəhərləri, xüsusilə, Şamaxı və Dərbənd haqqında məlumat verir, çox qədim bir şəhər kimi Bakının da adını çəkir.[45] İqtisadi-coğrafi xarakterli məlumatlar verən Cenkinson Azərbaycanla ticarət məsələləri üzərində də dayanır. O, Şirvana gəldiyi vaxt onun şəhər və qalalarının tənəzzülə uğradığını qeyd edir, İran və Azərbaycan mallarının Rusiyada az satılmasının səbəblərini Xəzər dənizində gəmilərin azlığı, bazar və limanların çatışmaması, xalqların yoxsulluğu və s. ilə izah edir. Qeyd etmək lazımdır ki, 1549-1554-cü illər dövründə ölkə kəndlilərin və sənətkarların şah hakimiyyəti əleyhinə üsyanlarından özünə gəlməmişdi.

Cenkinson Türkiyə ilə Səfəvilər arasındakı mübarizəni ticarət yolları, xüsusilə, Şamaxı və Gilan ipəyinin Avropaya aparıldığı yollar üstündə mübarizə kimi təsvir edir. İranda olarkən Cenkinson Qəzvinə getmişdi. O, buraya İran mallarının Volqa-Xəzər yolu ilə İngiltərəyə göndərilməsi barədə şah Təhmasiblə danışıqlara başlamaq məqsədi ilə gəlmişdi. Lakin onun bu missiyası baş tutmadı. Belə ki, bu vaxt İran Türkiyə ilə sülh müqaviləsi bağladı və İranın Avropa ilə ticarəti Kiçik Asiya vasitəsilə həyata keçirilirdi.[46]

Osmanlı Türkiyəsinin Azərbaycan barəsində işğalçılıq niyyətləri rus və ingilis tacirlərinin Volqa-Xəzər yolundan istifadə etməyə başladıqları XVI əsrin 60-cı illərindən xüsusilə gücləndi. XVI əsrdə Azərbaycandan Rusiyaya, Avropaya və Türkiyəyə əsas ixracat malı ipək idi.[47] Bakı bu ipək ticarətində əvvəlki kimi mühüm yer tuturdu.

Tranzit ipək ticarəti aparan liman şəhəri kimi oynadığı bu roldan əlavə, Bakı İrana, Rusiyaya və digər ölkələrə daşınan neft şəhəri kimi də mühüm əhəmiyyətə malik idi.

İngilis tacirlərinin Azərbaycana və İrana nüfuz etmək cəhdləri XVI əsrin 70-ci illərində də davam edirdi. Lakin siyasi hadisələr ticarətin aparılmasına olduqca mənfi təsir göstərirdi. 1578-ci ildə türklər Şirvanı işğal etdilər. Onlar Şirvanı işğal edərkən ingilis ticarət şirkətinin qulluqçusu Xristofer Berrou orada olmuşdur. O, buraya yuxarıda adı çəkilən Moskva Şirkətinin tapşırığı ilə həmin ekspedisiyanın iştirakçısı Artur Eduardsla birlikdə gəlmişdi. 1579-cu ildə Həştərxana gələn ekspedisiya burada qışlayıb, yoluna dənizlə davam etdi. 1580-ci il mayın 27-də ekspedisiya Şirvan sahillərinə yan aldı, Bakıda, Dərbənddə oldu və 1580-ci ilin noyabrında Həştərxana qayıtdı. Ekspedisiya İrana keçə bilmədi.

Berrou İngiltərəyə yazdığı məktublarda öz səyahətini təsvir edərək, Azərbaycanın şəhərləri haqqında məlumat verir və 1580-ci ildə olduğu Bakı yaxınlığındakı Bildi* gəmi dayanacağının adını çəkir. Ticarət şirkətinin agentləri Bilgəhdə lövbər salandan az sonra gəmiyə içində 7-8 adam olan qayıq yan aldı. Onların ikisi türk, qalanları yerli əhalidən idi. Gələnlər ingilislərə xəbər verdilər ki, türklər Şirvanı tutmuşlar, türk paşası (Osman paşa) türk qarnizonu ilə Dərbənddə qalmışdır. Şamaxı tamamilə yandırılmış və orada əhali qalmamışdır. Agentlər paşa ilə danışmaq arzusu ilə Həştərxandan özləri ilə birlikdə gələn bir taciri onun, şirkətin agentlərindən Robert Qoldinqi isə Bakının rəisinin (ehtimal ki, qalanın yerli əhalidən olan komendantının – *S.A.*) yanına göndərdilər. Onlar şəhərin rəisinə gəldiklərini, gətirdikləri mallar barəsində məlumat vermək, dostcasına qarşılanmalarını, dinc və təhlükəsiz ticarət etmək imkanı arzuladıqlarını bildirmək istəyirdilər. Agentlər qeyd edirdilər ki, Bilgəhdən Bakıya bir günlük yoldur, quru yolla piyada getmək asandır və "bu şəhər divarlarla əhatə olunmuş və çox möhkəmləndirilmişdir".[48] Bakının rəisi elçiləri yaxşı qarşıladı və sabahısı agentlərlə danışıq aparmaq üçün Bilgəhə gələcəyini vəd etdi. O, otuz nəfərlik mühafizə dəstəsi ilə göstərilən vaxtda gəlib çıxdı. Tərcüməçilər vasitəsilə qarşılıqlı təşrifatdan sonra agentlər ona məxmərdən və qırmızı

---

* Abşerondakı Bilgəh kəndi

mahuddan paltar bağışladılar. Bundan sonra onlar rəisdən Dərbənddə paşa ilə görüşmələrinə kömək göstərməsini xahiş etdilər. Rəis Dərbənd yolunun qorxulu olduğunu bildirdi və mühafizəçilər verməyi vəd etdi. Tacirlərdən mister Harrard, Xristofor Berrou, tərcüməçi və rəis birlikdə sahildən 10 mil aralıdakı yaxın kəndlərin birinə getdilər, burada şam edib gecələdilər.* Səhər gəmi heyətinin bütün üzvləri gəlib çıxdı və onlar birlikdə Bakıya yollandılar. Onlar Bakıdan əsgərlərin və Dərbənd paşasına Bakı rəisindən məktub aparan bir əyanın müşayiəti ilə Dərbəndə yola düşdülər. Məktubda ingilislərin gəlişinin məqsədləri çox xeyirxah tərzdə xəbər verilirdi.[49]

Berrou daha sonra Dərbənddəki türk paşasının yanına səfərini və sonuncu tərəfindən təntənəli surətdə qəbul olunmasını təsvir edir. İngilislər paşadan onun hakimiyyətində olan bütün yerlərdə təhlükəsiz ticarət üçün onlara imtiyazlar verilməsini xahiş edərək, əvəzində gətirdikləri mallardan istədiklərini seçib götürməyi təklif etdilər. Paşa onlardan bütün mallarını Dərbəndə gətirmələrini tələb etdi. Onlar belə də etdilər. Paşa xoşuna gələn şeyləri seçib götürdükdən və qarazehinin və digər malların hər 25 topundan bir top, yəni 100-dən 4% gömrük haqqı aldıqdan sonra agentlər mədaxilindən əldə ediləcək pula paşadan xamna almaq üçün malların bir hissəsini qayıqla Bakıya göndərdilər. Həmin mallar (təqribən 1000 funt sterlinq dəyərində) aşağıdakılar idi: 100 top qarazehi, 7 top zərif mahud, 2 çəllək qırmızı boyaq, 2 çəllək qalay, 4 çəllək iplik yumaq.[50] Malların Bakıya daşınması çox baha başa gəldi. Onlar Bakıda çətin sayılırdı. İngilislər qalan mallarını busaya** yükləyib Bilgəhə yollandılar, lakin gəmiləri şiddətli külək nəticəsində tezliklə sındı və onlar mallarının bir hissəsini və içərisində Bakıda satdıqları mallardan əldə etdikləri taler və qızıllar olan qutunu itirdilər. Dərbəndə gəlib çatdıqda onlar paşadan 1000 batman xamna alıb Həştərxana yola düşdülər.

---

* Berrou şam süfrəsinə qoyulmuş xörəklərin maraqlı təsvirini verir: "Düyü şorbası yeyildikdən sonra bütöv qızardılmış quzunu məcməyidə gətirib rəisin qabağına qoydular. Rəis nökərlərdən birini çağırdı. O, quzunu tikə-parça eləyib ayrı-ayrı boşqablara yığdı və onları rəisin qabağına qoydu. Rəis boşqablardan birini mister Harrard və onun yol yoldaşlarının, digərlərini isə öz adamlarının qabağına qoydu. Əli çatmayanlara isə qabağındakı boşqablardan ət atırdı".

** Busa – gəmi

Berrounun sözlərinə görə, Şirvanın onların olduqları yerlərində xam ipəkdən başqa qiymətli heç nə almaq mümkün deyil. Onu da ingilis tacirləri buraya gələndən bütün ölkədə ipəyə vergi qoyan paşanın əli ilə almaq olar. Paşa ingilis mallarının böyük bir hissəsini onların həqiqi dəyərindən çox ucuz qiymətə özü götürmüşdü. Lakin əvəzində ingilislərə ölkədəki qarmaqarışıqlıq və quru yollarının çox təhlükəli olması üzündən onun köməyi olmadan ala bilməyəcəkləri qədər mal tədarük etdiyinə görə paşa onlarla istədiyi kimi rəftar etdi.[51] Göründüyü kimi, türk hakimi ipək ticarətində bilavasitə iştirak edir və əcnəbilərlə aparılan bu ticarət onun əlindən gəlib keçirdi.

İngilis tacirləri uzun əzab-əziyyətdən sonra öz malları ilə sağ-salamat Həştərxana gəlib çatdılar və ingilislərin Xəzər dənizində ticarəti bununla başa çatdı. İngilislərin Moskva Şirkətinin ekspedisiyası uğursuzluqla qurtardı. Belə ki, türklərin 1578-ci ildə Xəzər dənizinin qərb sahillərini zəbt etməsi ingilislərin burada ticarəti genişləndirmələrinə mane oldu.

İngilis ticarət şirkətinin göstərilən agentlərindən başqa, XVI əsrin sonlarında digər ingilis səyyahları – Şerli Antoni və Perri Uilyam da Azərbaycana gəlmişlər. Şerli Antoni İrana 1598-ci ildə İranla İngiltərə arasında ticarət əlaqələrini möhkəmləndirmək və I Şah Abbası Türkiyəyə qarşı Avropa ölkələri ilə birlikdə çıxış etməyə sövq etmək məqsədilə gəlmişdi. Şah Şerlini yaxşı qəbul edərək ona mirzə rütbəsi vermiş, xristian tacirlərinə güzəştlər olunmasını vəd etmiş və Şerlinin məsləhəti ilə 1599-cu ildə onunla birlikdə müxtəlif Avropa saraylarına səfirlik göndərmişdi.[52]

Səfirliyin başçısı İranlı Persidski Don Juan adı ilə məşhur olan Hüseynəli bəy idi.[53] Elçilər Moskvada, Praqada və Romada oldular, lakin orada uğur qazana bilmədilər. Praqada XVI əsrə aid köhnə bir binanın (Staromesto meydanında, Minutanın yanındakı ev) fasadında 1610-cu ildə İran elçilərinin atların və dəvələrin üstündə, İran qiyafəsində şəhərə daxil olmaları təsvir edilmişdir.

XVI əsrin birinci yarısında Şirvanda yaranmış əlverişsiz siyasi vəziyyətlə əlaqədar karvan yolları ilə ticarətin tənəzzülə uğraması müşahidə olunur. Bununla bağlı Bakının beynəlxalq tranzit ipək ticarətində başlıca dəniz limanı kimi əhəmiyyəti artır. Bu ticarətdə rus tacirləri də iştirak edirdi. XVI əsrin 50-70-ci illərində feodal araçəkişmələrinin səngiməsi, Səfəvilər dövləti ilə Osmanlı Türkiyəsi arasında müharibənin müvəqqəti olaraq dayanması ilə əlaqədar bu

ticarət genişləndi. Şəhərin dəniz ticarəti ilə bağlı sahil boyunca salınmış karvansaralar da (bu günədək qalmamışlar) Bakının beynəlxalq ticarətdə mühüm rol oynadığını göstərir.[54]

Şamaxıda rus ticarət faktoriyası təsis olundu, dəniz yolu ilə Bakıdan keçərək Azərbaycana gələn rus, xüsusilə, Moskva tacirlərinin sayı artdı. Rus tacirləri Bakıdan, əsasən, duz, neft, zəfəran və ipək aparırdılar. XVI əsrdə rus tacirləri Bakı neftini Həştərxan yolu ilə təkcə, başlıca olaraq, hərbi işdə və boyakarlıq texnikasında həlledici kimi istifadə olunan Rusiyaya deyil, həmçinin Qərbi Avropa ölkələrinə də göndərirdilər.[55] Bakı nefti Şamaxıya da gətirilirdi; burada rus tacirləri onu Avropaya ixrac etmək üçün alırdılar.[56] Neft Bakıdan Gilan tacirləri tərəfindən onların busalarında Manqışlağın gəmi körpülərinə daşınır, oradan isə karvan yolu ilə Xivəyə, Buxaraya və digər Orta Asiya ölkələrinə göndərilirdi.[57] Gilan tacirlərinin Bakı ilə ticarəti türklər 1578-ci ildə Xəzər dənizinin Bakıdan Dərbəndədək qərb sahillərini tutandan[58] – rus tacirlərinin Həştərxandan İrana dəniz ticarəti yolu Xəzər dənizinin şərq sahillərinə keçəndən sonra da kəsilmədi.

1583-cü ilə aid türk mənbəyində xəbər verilir ki, Bakı limanına daim malla dolu ticarət gəmiləri gəlir. Həmin mallar arasında qumaşın da adı çəkilir. Gilandan gələn gəmilərdə ala-bəzək Misir parçalarına bənzəyən əla keyfiyyətli, rəngarəng parçalar gətirilirdi. Hər topdan $^{1}/_{25}$% hesabı ilə tamğa alınırdı. Tacirlər gətirdikləri malların əvəzinə Bakıdan neft aparırdılar.[59]

Rusiyadan Azərbaycana və İrana, əsasən, Bakı vasitəsilə qiymətli xəzlər – samur, skuns, qara-qonur tülkü, sincab xəzləri, gön-dəri, qılınc, zireh, metal məmulatlar və digər mallar gətirilirdi.[60]

Beynəlxalq ipək ticarətində Bakı qalasında karvansaraları olan hind tacirləri də yaxından iştirak edirdi. XVI əsrin sonlarında Şirvandan Bakı vasitəsilə Rusiyaya, İrana, Türkiyəyə, İtaliyaya, Fransaya, Hindistana və digər ölkələrə 100 min puda yaxın xamnа ixrac olunurdu.[61] Şirvan şəhərlərində xamnanın pudunu 15-16 manata[62] alan rus və Avropa tacirləri onu öz ölkələrində 50-60, hətta 70 manata satırdılar. Şirvan sənətkarlarının ipək məmulatları, o cümlədən daran (zolaqlı ipək parça), kamna (üzərində eynirəngli naxış toxunmuş ipək parça) atlaz, tafta və digər parçalar Bakı vasitəsilə Moskva Dövlətinə aparılırdı.[63]

XVI əsrdə Qərbi Avropa ölkələrindən, Fransa və İngiltərədən Bakıya Abşeronun feodal əyanlarının istifadə etdikləri məxmər alparça, atlaz, Lion fabriklərində istehsal olunan zərxara, müxtəlif rəngli bahalı ingilis mahudları, qarazehi idxal edilirdi.[64] Bakıya İrandan və Cənubi Azərbaycandan da mallar gətirilirdi.

Yəzd, Kaşan, Təbriz, Ərdəbil, Şamaxı kimi toxuculuq mərkəzlərindən Bakıya qızıl və gümüş saplarla işlənmiş bahalı zərxara ipək parçalar gətirilirdi. Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında XVI əsrdə Bakıda istifadə olunmuş ipək parçaların nümunələri nümayiş etdirilir. Onlardan birinin naxışı mütənasib tərzdə yerləşdirilmiş qərənfilə bənzəyən gül kollarından ibarətdir. Zaman keçdikcə solmuş oxraya çalan yaşılı fonda qəhvəyi dairəyə alınmış qızılı rəngli güllər tikilmişdir.[65]

Həmin dövrə aid edilən başqa bir parçanın da solğun yaşılı-oxravarı fonunda itburnuna oxşayan gül kolunun üstündə oturmuş tutuquşuların qızılı sapla mütənasib tərzdə yerləşdirilmiş kontur rəsmləri tikilmişdir. Həmin parçaların naxışları xalça ornamentlərinə oxşayır.[66]

Külli miqdarda "Bakuyə" möhürlü mis pullar və sonuncu şirvanşahların XVI əsrin birinci yarısında Şamaxıda kəsilmiş xırda gümüş sikkələri Bakının Azərbaycanın digər şəhərləri ilə daxili ticarət apardığını göstərir.[67] Çoxlu miqdarda belə sikkələr istər Bakının İçərişəhər hissəsində və Abşeronda, istərsə də Azərbaycanın digər şəhərlərində tapılmışdır.[68] Bu tapıntılar ölkədə qızğın daxili ticarətdən və şəhər həyatının inkişafından xəbər verir. Eyni zamanda, Səfəvi şahlarının Bakıda, Şamaxıda və Azərbaycanın digər şəhərlərindəki zərbxanalarda kəsilmiş gümüş sikkələri də tədriclə tədavülə daxil olurdu.[69] XVI əsrin ikinci yarısından etibarən Qərbi Avropa tacir-səyyahlarının Bakıya gəlmələri ilə əlaqədar müxtəlif Avropa dövlətlərinə məxsus talerlər də tədavüldə istifadə edilməyə başladı.[70] Türklər 1578-ci ildə Bakını tutduqdan sonra Səfəvi şahlarının adından sikkə kəsilməsi dayandırıldı, tədavülə Osmanlı sultanlarının adı olan sikkələr daxil oldu.

XVI əsrin 70-ci illərindən Səfəvilərlə Türkiyə arasında hərbi əməliyyatların və feodal araçəkişmələrinin yenidən başlanması ilə əlaqədar Bakı yolu ilə beynəlxalq ipək ticarətinin tənəzzülə uğra-

ması və bunun nəticəsində, səyyahların qeyd etdiyi kimi, şəhər həyatının düşgünləşməsi müşahidə olunur.[71]

XVII-XVIII əsrlərdə Bakı Xəzər dənizində, bir çox səyyahların qeyd etdiyi kimi, Şərqin Qərblə beynəlxalq tranzit ticarətində başlıca liman idi.[72] Bununla əlaqədar Bakının xarici və daxili ticarət sahəsində, Qərbi Avropa ölkələri və Rusiya ilə ticarət əlaqələrinin möhkəmləndirilməsində əhəmiyyəti artır.

XVII əsrdə həmin ölkələrin Volqa-Xəzər yolu və Kiçik Asiya vasitəsilə ticarət əlaqələri güclənir. Bu vaxt Avropa ölkələrinin Şərqdə müstəmləkəçilik siyasətinin inkişafı ilə əlaqədar Şərqə can atan Avropa tacir-səyyahlarının fəal əlaltısı olan katolik missiyaları Azərbaycana axışmağa başladı. Onların arasında kommersiya və siyasi məqsədlərlə gələn tacirlər, Azərbaycanda, İranda və digər Şərq ölkələrində katolikliyi yaymağa cəhd göstərən missionerlər var idi. I Şah Abbasın hakimiyyəti dövründə (1618-ci ildə) italiyalı Pyetro della Valle Azərbaycanda və İranda olmuşdur. Onun yol qeydlərində Xəzər dənizində ticarət və gəmiçilikdən danışılır, Bakının adı müxtəlif ölkələrə çoxlu mallar aparılan liman kimi çəkilir.[73]

I Şah Abbas iri karvan ticarətinin inkişafına himayədarlıq edirdi, şah hökuməti isə xarici ticarətin təşkilatçısı kimi çıxış edərək, tacirləri xam ipəklə təchiz edirdi. Şah Abbasın hakimiyyəti dövründə Bakıda və İrana gedən ticarət yolunun üstündə bir sıra karvansaralar tikilmişdi ki, bu da həmin vaxtlar ticarətin inkişaf etdiyini göstərir.

1647-ci ilin fevralında Bakıda olmuş Övliya Çələbi şəhərdəki ticarət haqqında bəzi məlumatlar verir. İçqalanı – ehtimal ki, o, Şirvanşahlar sarayının yerləşdiyi təpənin başını belə adlandırırdı – təsvir edərkən Övliya Çələbi göstərirdi ki, "...orada karvansara və hamamlardan əsər-əlamət belə yoxdur. Ancaq dəniz sahilində minə yaxın ev, bağları, məscidləri, karvansaraları, hamam və bazarları olan rabad salınmışdır[74] və bütün bunlar 3 tərəfdən 3 darvazası olan qala divarları ilə əhatə edilmişdir... Bazar çox da cah-cəlallı deyildi..."[75]

Övliya Çələbi daha sonra xəbər verir. "...Bakı Şamaxının liman dayanacağıdır. Çin və Xotəndən* Fəqfur-İli və Zənan şəhərlərindən, kalmık ölkəsindən və Moskvadan buraya daim elçilər gəlir və karvanlarla mal gətirilir. Moskvalılar aramsız olaraq duz, neft,

* Xotən – Orta Asiyanın şərqində vilayət (Sintszyan)

zəfəran və ipək almaq üçün Bakıya gəlirlər. Moskva elçiləri burada girov qalırlar. Moskva ölkəsindən başlıca olaraq Bakı, qismən isə Gilan və Əcəm (İran) vasitəsilə samur xəzi, balıq dişi (Morj köpək dişi – *S.A.*), boz sincab xəzi, Bulqar ölkəsindən isə gön-dəri gətirilirdi..."[76]

Övliya Çələbinin məlumatına görə Bakı qalası çox möhkəmləndirilmiş və sıx məskunlaşmışdı. Göründüyü kimi, şəhər həyatı dəniz sahilində, limanın yaxınlığında mərkəzləşmişdi.

Dəniz sahilindəki dövrümüzədək gəlib çatmamış 4 böyük karvansaradan, limandan qalaya açılan üç darvazadan olan qala divarları[77] boyunca dükan və məscid binalarından ibarət ticarət kompleksi tikililəri də XVII əsrdə şəhərdə iri ticarət getdiyini sübut edir. Bu kompleksin yaxınlığında, elə həmin məhəllədə, şəhərin quru və dəniz ticarətinə xidmət edən daha 5 karvansara da var idi.

Övliya Çələbinin Bakı və Azərbaycanın digər şəhərlərinin Çin şəhərləri ilə ticarət apardığına dair məlumatını köhnə Bakı qalasında, köhnə Gəncədə və Azərbaycanın başqa şəhərlərində çoxlu miqdarda çini qabların tapılması da təsdiq edir.[78] Övliya Çələbinin məlumatına görə, o vaxtlar Bakı və Dərbənd vasitəsilə Volqanın mənsəbinə, şimala dəniz ticarəti xeyli inkişaf etmişdi. Dəniz yolundan başqa, Təbrizdən cənuba – İran və Türkiyəyə, habelə Orta Asiyadan keçərək Hindistana gedən quru karvan yolu da var idi. Bu ticarətin miqyası haqqında Övliya Çələbinin gətirdiyi aşağıdakı rəqəmə əsasən fikir yürütmək mümkündür. Onun söylədiyinə görə, İrəvan xanı (Bakı xanının qaynı idi) gömrükxanaya 1000 baş (dəvədən) ibarət karvan göndərməyi vəd etmişdi.[79] İri feodal və şah canişini olan hakim xan xarici ticarət əməliyyatlarında bilavasitə iştirak edirdi.

1683-cü ildə Bakıda olmuş Kempfer də şəhərin ticarətinə dair bəzi məlumatlar vermişdir. "Malları daha rahat daşımaq üçün limandan şəhərə üç darvazadan giriş vardır. Dənizin yaxınlığında açıq dənizin qənşərində dənizin içərilərinə qədər uzanan və bir növ, sahilə paralel iki qat şəhər divarları ucaldılmışdır. Reydi dalğalardan yarım fərsəngə qədər dənizin içərisinə girən qarşıdakı burun qoruyur. Bura Rusiyadan, Dağıstandan, Çərkəzstandan, Özbəkistandan və İrandan gələn gəmilər üçün rahat dayanacaqdır. Şəhərin dağın yamacındakı hissəsi şəhər sakinlərinin yoxsulluğu və səliqəsizliyi ucbatından bərbad vəziyyətdə idi; şəhərin ancaq aşağı hissəsində əhali sıxdır.

İctimai binalardan yonulmuş daşdan səkkizguşə şəklində tikilmiş karvansara daha çox seçilir; onun daxili həyəti gözəl sütunlu tağlı eyvanla əhatə olunmuşdur... Şəhər meydanı dəbdəbəsiz olub, adicə iri, dördkünc sahədir..."[80]

Kempferin təsvir etdiyi karvansara da, başqaları kimi, limandan şimal – "Şamaxı" darvazalarına gedən şəhər magistralı üstündə idi. Meydan–sənətkar, tacir emalatxana və dükanlarının yerləşdiyi bazar meydanı da bu rayonda idi.[81] Kempferin sözlərinə görə, şəhər əhalisi yoxsul həyat sürürdü,[82] ticarət isə zəif inkişaf etmişdi. Özbəkistandakı Manqışlaqdan və qonşu şəhərlərdən gələn kiçik gəmilər buradan duz və neft aparır, tərəvəz gətirirdilər. Düyü və taxıl məhsulları da gəmi ilə gətirilirdi.[83]

Bakıda şəhər həyatının Kempferin qeyd etdiyi tənəzzülü, ehtimal ki, bütün ölkə təsərrüfatının ümumi tənəzzülü, xarici və daxili ticarətin aşağı düşməsinin nəticəsi idi. 1667-ci ildə Şamaxıda və ətraf kəndlərdə böyük dağıntıya səbəb olmuş dəhşətli zəlzələ baş vermişdi. Zəlzələ nəticəsində "qadınlar, uşaqlar və qullar hesaba alınmamaqla..."[84] 80 mindən çox kişi həlak olmuşdu. 1671-ci ildə və sonrakı illərdə də təkrar zəlzələlər olmuşdu. 1671-ci ildə və sonrakı illərdə də təkrar zəlzələlər oldu.[85] Bu bədbəxtlik, şübhəsiz, ipəkçiliyə də təsir göstərdi, bununla bağlı 70–80-ci illərdə Şamaxının Bakı vasitəsilə ipək ticarəti tənəzzülə uğradı. Həmin dövrdə Xəzər dənizində gəmiçilik təhlükəli idi. Belə ki, Bakıdan Həştərxana və geriyə üzən mal dolu ticarət gəmiləri tez-tez kazakların və dəniz quldurlarının basqınlarına məruz qalırdı.[86] Mümkündür ki, dəniz ticarətinin bir müddət azalmasının səbəblərindən biri də bu olmuşdur. 1687 və 1689-cu illərdə Bakıda olmuş səyyahlar və Yezuit missionerləri artıq şəhərin iqtisadiyyatının inkişafını və rifahını qeyd edirlər.[87]

XVII–XVIII əsrlərdə Bakı Xəzər dənizində Şamaxı və digər şəhərlərlə beynəlxalq tranzit ipək ticarətində ən yaxşı liman idi.

"...Bu liman bütün Xəzər dənizində ticarət, xüsusilə, həmin diyarın ən böyük və əhalisi sıx şəhəri olan və buradan üç günlük yolda yerləşən Şamaxı ilə ticarət üçün şübhəsiz, ən əlverişli limanlardan biridir. Şamaxıda bütün Şərq xalqlarının faktoriyaları var və bu səbəbdən oraya bütün ölkələrdən gəlirlər".[88] 1723-cü ildə Bakıda olmuş ingilis P.A.Bryus yol qeydlərində Bakı limanı haqqında belə yazmışdır.

Bakı və digər Azərbaycan tacirləri əcnəbi tacirlərlə ölkənin hüdudlarından çox-çox uzaqlarda ticarət əməliyyatları aparırdılar. Bu ticarətin əhatə dairəsinə Hindistan, Çin, Sibir, Moskoviya və bir sıra Qərbi Avropa dövlətləri kimi uzaq ölkələr daxil idi.

Azərbaycanın Rusiya ilə hələ XVI əsrdə yaranmış ticarət əlaqələri XVII əsrdə və XVIII əsrin birinci yarısında xeyli genişləndi. 1667-ci ildə çar Aleksey Mixayloviç və 1710 və 1720-ci illərdə I Pyotr zamanında yerli ticarət şirkəti ilə müqavilələr bağlanmışdı. Bu müqavilələrə görə yerli şirkət İran və Azərbaycandan (Şamaxı, Bakı və Dərbənddən) Tərki və Həştərxan vasitəsilə dənizlə və quru yolla Həştərxandan Moskvayadək rus mühafizə dəstəsinin müşayiəti ilə Rusiyaya, oradan isə Qərbi Avropaya xam ipək və digər Şərq malları ixrac etməli idi.[89] Gəmilərdə Bakıdan Həştərxana 8–10 günə gedirdilər.[90]

Azərbaycan tacirlərinin də iştirak etdiyi bu ticarət XVIII əsrdə də davam etmişdir. Ticarət mallarına Bakı nefti və duzu, zəfəran, Şamaxı və Ərəş xamnası, ipək və pambıq parçalar, xalçalar, dəvə yunu, gön-dəri, mal-qara, balıq, kürü, meyvələr, meyvə qurusu, taxıl, mis qab, silah və s. daxil idi.[91]

Erməni tacirlərinə Bakıdan dəniz yolu ilə Həştərxana və Moskvaya mal gətirmələrinə dair verilmiş 7 fevral 1694-cü il tarixli fərmanda sadalanan mallar arasında Bakı qumaşının da adı çəkilir. "...Avacan Kasparovda: beş yüz yetmiş altı tay tumac, üç min beş yüz on altı top qırmızı Bakı qumaşı, doxsan pud iyirmi bir girvənkə büxur, qırx pud bir çərək ərdəş xamna, sapa düzülmüş, krujevalarda və düymələrdə iri, orta və kiçik həcmli beş çərəkə on misqal mirvari..."[92]

1696-cı il 27 fevral tarixli başqa bir sənəddə tacir Saveli Sergeyevin Bakıdan Həştərxan yolu ilə Moskvaya gətirdiyi xarici mallar sadalanır və onların arasında "hər bağlamada beş tumac olmaqla 990 bağlama tumac, 1650 ton qırmızı Bakı qumaşı xatırlanır".[93]

Rus və yerli tacirlərin Bakı vasitəsilə geniş ticarət aparmasını köhnə Bakı qalasındakı buxtada və Abşeron kəndlərində XVIII əsrə aid çoxlu miqdarda rus sikkələrinin tapılması da təsdiq edir.[94]

Şəhərdə böyük kapitala sahib olan hind tacirləri koloniyası da mövcud idi. Onların özlərinin sahilin yaxınlığında yaşadıqları karvansaraları var idi. Kempfer multanı tayfasına mənsub hind tacirləri ilə

görüşdüyü bu karvansaranın adını çəkir.[95] Hind tacirləri qədim zamanlardan Hindistandan, başlıca olaraq, ticarət koloniyaları olan Bakıya və Şamaxıya gəlirdilər.[96] İri ticarətlə məşğul olan bu tacirlər Abşerondakı Suraxanı kəndində yaşayan hindli atəşpərəstlərə pul və ərzaqla kömək edir, "əbədi odlar"ın yerində hücrələr və məbəd tikmək üçün vəsait verirdilər.[97]

Hind tacirləri yerli tacirlərlə birlikdə Bakıdan Həştərxana ildə 400 tay (hər birində 25 batman) xamna ixrac edirdilər.[98] Tacirlər Hindistandan müxtəlif ədviyyat, başlıca olaraq, Kəşmirdə toxunan və Şərqdə geniş yayılmış "tirmə" adlanan və qızıla bərabər tutulan yun parça, pambıq, habelə qızıl sapla naxış vurulmuş ipək parçalar gətirirdilər.[99] Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında XVII əsrə aid bir parça "tirmə" saxlanılır. Parçanın fil sümüyü rəngli fonunda "buta" şəklində açıq qırmızı rəngli naxışı var.[100] Bakı və Azərbaycanın digər şəhərlərinin feodal kübarları Hindistandan və digər Şərq ölkələrindən gətirilmə bahalı yun və ipək parçalardan istifadə edirdilər. Tacirlər Hindistana xam ipək, ağ neft (nadir şey kimi) və digər mallar aparırdılar.[101]

İran şəhərlərindən Bakıya qızıl və gümüş saplarla naxış vurulmuş bahalı ipək və zərxara parçalar gətirilirdi. Bakıda istifadə olunan zərxara parçaların nümunələri Azərbaycan Tarixi Muzeyinin fondlarında saxlanılır. Orxa fonlu zərxara parçalardan birində tutuquşuna oxşayan ağ-gümüşü rəngli quş şəkli, ondan üstdə qızılgül və kəpənək, ətrafında açıq orxaya çalan bir neçə xırda gül təsvir olunmuşdur. Parçanın tünd qəhvəyi sapla tikilmiş nəbati naxışlı haşiyəsi var. Qızıl sapla tikilmiş kəpənəkşəkilli nəbati naxışlı digər zərxara kimi, bu parça da XVII əsrə aid edilir.[102] Bakıda yerli sakinlərdən alınmış həmin parçalar, ehtimal ki, İran şəhərlərindən idxal olunmuşdur.

Bakı ərazisində Şamaxı, Gəncə, Naxçıvan, Təbriz və digər şəhərlərdə kəsilmiş çoxlu miqdarda Səfəvi sikkələrinin tapılması onun Azərbaycan şəhərləri ilə daxili ticarətinin inkişaf etdiyini göstərir.[103] Qriqorian tatlar Şamaxıdan özlərinin hazırladıqları əla keyfiyyətli qırmızı şərabı satmaq üçün Bakıya gətirirdilər.[104] Taxıl və digər kənd təsərrüfatı məhsulları Şirvanın məhsuldar rayonlarından daxil olurdu. Abşeron camaatı yük daşımaq üçün çoxlu dəvə saxlayırdı.[105]

Bakı bazarından başqa Abşeronun ən iri yaşayış məntəqəsi olan Maştağa kəndində də böyük bazar var idi. Burada hər cümə günü böyük yarmarka təşkil edilirdi. Bu yarmarkalara, demək olar ki, həmişə Bakıdan tacirlər gəlirdi.[106]

Tiflis, İrəvan və Cənubi Qafqazın digər mərkəzləri ilə də ticarət əlaqələri saxlanırdı.[107]

XVII əsrdə və XVIII əsrin əvvəllərində İran və Azərbaycanla ticarət əlaqələrini genişləndirən Rusiyanın beynəlxalq tranzit ipək ticarətində Xəzər dənizindəki Bakı kimi əlverişli limana ehtiyacı var idi. I Pyotrun 1723-cü ildə Bakını tutmasının səbəblərindən biri də bu idi. I Pyotrun ticarəti bərpa etmək, müharibə və ölkədəki antifeodal üsyanlar nəticəsində dağılmış şəhər təsərrüfatını dirçəltmək cəhdləri uğursuzluqla qurtardı.[108] Bu dövrdə Şamaxıda[109] və onun rayonlarında ipəkçilik ehtimal ki, 1717-ci ildə səkkiz ay ərzində 70000 adamı məhv edən taun epidemiyasının viranedici nəticəsi ilə bağlı tənəzzülə uğradı.[110]

Bu dövrdə hərbi və siyasi hadisələrlə əlaqədar Bakı vasitəsilə İran, Türkiyə və digər Avropa ölkələri ilə ticarət xeyli azaldı.[111] Rusiyanın Azərbaycanla ticarətini canlandırmaq məqsədilə rus tacirlərinə bir sıra imtiyazlar vermiş Rusiya hökumətinin sonrakı tədbirləri də əhəmiyyətli nəticələr vermədi.

I Pyotr 1723-cü ildə xüsusi fərmanla İranda rus tacirlərinin ticarət şirkətini təsis etdi. 1732-ci il Rəşt müqaviləsinə əsasən onlar İran hüdudlarında gömrük rüsumu vermədən ticarət və digər müxtəlif imtiyazlardan istifadə edə bilərdilər.[112] 1735-ci il Gəncə müqaviləsi rus tacirlərinin bütün İranda və Azərbaycanda sərbəst və rüsumsuz ticarət etmək imtiyazlarını təsbit etdirdi. 1724-cü ildə ixracı qadağan edilən mallardan olmasına baxmayaraq, Senatın fərmanı ilə Demidova Sibir dəmirini Rusiyadan Həştərxan vasitəsi ilə Dərbənd və Bakı əhalisinin məişət ehtiyacları üçün həmin şəhərlərə aparmasına icazə verilmişdi.[113] Mallardan və Bakıdakı tacirlərin dükanlarından alınan gömrük rüsumları bu dövrdə xəzinənin gəlirinin mühüm hissəsini təşkil edirdi. Arxiv sənədlərinə əsasən göstərilən rüsumlar 10 avqust 1723-cü ildən 1730-cu il daxil olmaqla dövr ərzində 12312 rubl 75 $^{1}/_{4}$ qəpik təşkil etmişdir[114] (cədvələ bax). O cümlədən rus sikkəsi ilə 142138 r. 81 qəp., İran sikkəsi ilə 5207 r. $^{3}/_{4}$ qəp.; bu məbləğdən əlavə müxtəlif qiymətsiz əşrəfi – 49 ədəd.

Y.S.Zevakinin qeydinə görə, arxiv sənədlərinə əsasən göstərilən dövrdə əldə edilən gəlir "rus işğalı ərəfəsindəki illərlə müqayisədə" 2,5 dəfə azalmışdır və göstərilən rəqəmlər rusların bu vilayətlərdən geri çəkilməsinin səbəbini aydınlaşdırır.[115] Bu vilayətdən götürülən bütün gəlirin qalan $^{3}/_{4}$-ü neftdən əldə edilirdi ki, bu da həmin dövr ərzində 98956 r. 55 $^{3}/_{4}$ qəp. olmuşdu.[116] Xəzinənin həmin dövr ərzində, yəni 7 il 5 ay müddətində gəlirinin ümumi məbləği 126531 r. 45 $^{1}/_{2}$ qəp. təşkil etmişdi.[117]

Cədvəl

Bakıda pul xəzinəsinin gəliri*

İllər	Hansı sikkə ilə R – Rusiya İ – İran	Vergi rüsumları maddələri			
		Ağ və qara neft və neft məhsullarının satışından	Gömrük və tacirlərdən dükan rüsumu	Bakı qəzası kəndlərində göllərdən duz satılmasına görə	Vergi rüsumlarının cəmi
10. VIII. 1723-cü ildən 12. I. 1725-ci ilədək	R və İ	25 449 r. 25 $^{1}/_{2}$ qəp.	1 797 r. 17 $^{3}/_{4}$ qəp.	1091 r. 24 $^{1}/_{2}$ qəp.	28 337 r. 67 $^{1}/_{2}$ qəp.
12. I. 1725-ci ildən 1. II. 1726-cı ilədək	R və İ	32 28 r. 81 qəp.	1 087 r. 87 $^{1}/_{4}$ qəp.	–	4 316 r. 69 $^{1}/_{4}$ qəp.
1. II. 1726-cı ildən 1. I. 1727-ci ilədək	R və İ	11 793 r. 29 $^{3}/_{4}$ qəp.	1 811 r. 50 $^{3}/_{4}$ qəp.	1 536 r. 84 qəp.	15 141 r. 64 $^{1}/_{2}$ qəp.
1727-ci il	R və İ	15 983 r. 84 $^{3}/_{4}$ qəp.	2 085 r. 56 $^{1}/_{2}$ qəp.	960 r. 00 qəp.	19029 r. 41 $^{1}/_{4}$ qəp.
1728-ci il	R və İ	15 597 r. 49 qəp.	1 965 r. 30 qəp.	3979 r. 00 qəp.	21 541 r. 79 qəp.
1729-cu il	R və İ	10 922 r. 65 $^{1}/_{4}$ qəp.	1 542 r. 84 $^{3}/_{4}$ qəp.	3795 r. 06 qəp.	16 260 r. 56 qəp.
1730-cu il	R və İ	15 981 r. 20 $^{3}/_{4}$ qəp.	2 022 r. 48 $^{1}/_{4}$ qəp.	3 900 r. 00 qəp.	21 903 r. 69 qəp.
Cəmi		98 956 r. 55 $^{3}/_{4}$ qəp.	12 312 r. 75 $^{1}/_{4}$ qəp.	15262 r. 14 $^{1}/_{2}$ qəp.	126531 r. 45 $^{1}/_{2}$ qəp.

* Zevakin Y.S. Göstərilən əsəri, cədvəl 2, səh.128

Rəqəmləri yuvarlaqlaşdırsaq ildə 18 000 tümən alınar ki, bu da şəhər təsərrüfatının 1723-cü illə müqayisədə tənəzzülə uğradığını göstərir. Belə ki, İran səfiri İsmayıl bəyin məlumatına görə, o vaxtadək Bakı neftinin və duzunun illik gəliri 6000 tümən idi.[118]

1739-cu ildə İranda və Azərbaycanda olmuş ingilis səyyah taciri Ceyms Spilmanın məlumatına görə, Rusiya Xəzərboyu vilayətləri işğal edərkən rus tacirləri Həştərxan və Xəzər dənizi vasitəsilə öz ticarət gəmilərində İran və Azərbaycanla ticarət aparır və rus ordusu üçün müxtəlif ləvazimatlar gətirirdilər. Lakin artıq 1739-cu ildə Dərbəndə, Bakıya və Rəştə mal aparan ticarət gəmiləri, başlıca olaraq, Bakıdan Rəştə sərnişin daşınması ilə məşğul olan ermənilərin vasitəçiliyi ilə kirayə götürülürdü. Gəmilərdə oraya neft da aparır, habelə Tərkidəki rus qarnizonlarına ərzaq gətirirdilər.[119]

Spilman o vaxtlar Həştərxana gələn gəmilərdən danışır. Onların birində ermənilərin və hindlilərin Rusiya üçün gətirdikləri 200 tay mal var idi. Bundan əlavə, orada ingilis tacirlərinə (Spilmana və onun yoldaşlarına) məxsus ipək də olmuşdu. Digər bir gəmiyə Bakıda Şamaxıdan göndərilən az miqdarda mis və ipək, Dərbənddə şərab yüklənmişdi.[120] Spilmanın məlumatından görünür ki, o vaxtlar həmin vilayətlərdən ipək ixracı az idi. "Əcnəbi mallar" gömrük kitabının məlumatlarına görə, hind tacirləri 1734-cü ildə Bakıdan Həştərxana 40 partiya, 1744-cü ildə isə cəmi 13 partiya mal gətirmişdilər.[121]

XVIII əsrin 30-40-cı illərində xarici siyasi və sosial amillərlə bağlı olaraq, Azərbaycanın başqa şəhərləri kimi, Bakıda da şəhər həyatının və xarici ticarətin tənəzzülü müşahidə edilir. Nadir şahın qarətkar siyasəti Azərbaycan şəhərlərinin iqtisadiyyatını tam iflasa uğratdı.

5. BAKININ ŞƏHƏR ƏHALİSİNİN SOSİAL STRUKTURU VƏ ŞƏHƏRİN İDARƏ OLUNMASI

XVI əsrdə və XVIII əsrin birinci yarısında Bakı şəhərinin sosial siması mənbələrdəki məlumatların kasadlığı üzündən öyrənilməsi çətin olan, tədqiq edilməmiş məsələlərdəndir. Həmin dövrdə Bakı şəhərinin, eləcə də, Azərbaycan əhalisinin tərkibi haqqında heç bir

statistik məlumat yoxdur. Bu məsələyə dair səyyahların yol qeydlərində çox ötəri məlumatlar gətirilmişdir. Bəzi məlumatlar fərmanlardan, lapidar mənbələrdən götürülmüşdür.

O vaxtlar şəhərin əhalisi qalada yaşayan 4-5 min nəfərdən çox deyildi.[1] Bakı şəhərinin əhalisini sosial-iqtisadi vəziyyətinə görə beş kateqoriyaya bölmək olar: 1) şəhərin dünyəvi feodal zadəganları, 2) ruhanilər, 3) tacirlər, 4) sənətkarlar, 5) şəhər əhalisinin digər təbəqələri – müflisləşmiş kəndlilər, günəmuzd fəhlələr, qullar və i.a.

Şirvan h.945 (1538)-ci ildə Səfəvilər dövlətinə birləşdirildikdən sonra Şirvan vilayətinin hakimliyinə Səfəvilər sülaləsinə mənsub bəylərbəyilər (şahın canişini) təyin edilməyə başladı. Bəylərbəyilər əvvəllər şahzadələrdən, sonralar isə şaha qohum olan xanlardan, adlı-sanlı feodallardan təyin olunurdu. Şirvan bəylərbəyiliyinin mərkəzi Şamaxı şəhəri idi, Bakı isə ticarət şəhəri və liman idi. Bəylərbəyilər daxili idarəetmədə böyük müstəqilliyə malik idilər; qoşun, inzibati hakimiyyət, maliyyə məsələləri onların əlində idi. Şirvanın bəylərbəyi şahın qardaşı Əlqas Mirzə təyin olunmuşdu. Şirvan əyanları məhv edilmiş, onların mülkləri isə qızılbaş əmirlərinə paylanmışdı.[2]

Səfəvilər dövründə Bakı şahın tiyul, yaxud soyurqal* şəklində bu və ya digər feodala bağışladığı "ölkə", yəni, mülk, ərazi idi. H.947 (1540/41)-ci ildə Şirvan vilayətinin bir hissəsi – Salyan, Mahmudabad və Bakı şəhəri tiyul kimi Əmir Qazi xan Təkəliyə verilmişdi.[3] Lakin şahın sui-qəsdlərdə iştirakından şübhələndiyi Qazi xan Təkəli onun əmri ilə h.950 (1543/44)-ci ildə qardaşları ilə birlikdə Əlqas Mirzə tərəfindən Şirvanda edam olundu.[4]

H.983 (1575)-cü ildə şah Təhmasib Şirvandakı şahın mülkiyyəti olan bir çox yeri, o cümlədən Bakı və Abşeronu, Qəbələni, Ağdaş və Ərəşi,[5] dəniz sahilini ruzəki kürd tayfasının əmiri Şərəfəddin Bitlisiyə bağışladı. Şah ruzəki tayfasını dolandırmaq üçün həmin şəhər və yerlərin əhalisindən yığılan gəliri (vücuhat – pula ödənilən vergi) ona təyin etmişdi.[6] Ehtimal ki, həmin köçəri kürd tayfaları o vaxtlar Abşerondakı Kürdəxanı kəndində məskunlaşmışlar.

---

* Tiyul – müvəqqəti, yaxud ömürlük torpaq sahibliyi; soyurqal – vergi toplamaq hüquqlu (müafi), yaxud vergi toplamaq hüququ olmadan idarə edilən irsi torpaq sahəsi, mülk. Bax: Петрушевский И.П. Очерки... с.102-103

Həm Əmir Qazi xan Təkəli, həm də əmir Şərəfəddin Bitlisi hərbizadə ganların nümayəndələri və köçəri tayfa başçıları idi. Şahın bəxş etdiyi şəhər və kəndlər onlara tayfa əyanları və köçəri tayfa qoşunu ilə birlikdə "idarə edilmək və ruzi kimi" verilmişdi. Hər iki əmir mahalın hərbi-inzibati hakimi olub, ehtimal ki, hakimiyyəti mülkü hakimlə bölüşürdülər.

Beləliklə, Səfəvilər dövründə Bakı və Abşeron onlara tabe olan şəhər və Abşeron kəndlərinin əhalisindən vergi və müxtəlif rüsumlar çəkib çıxaran iri feodalların mülkiyyəti idi. Feodal zadəganlığının Bakıda və şəhər iqtisadiyyatının çox asılı olduğu Abşeronun neftverən rayonlarında ağalığı, feodal münasibətlərinin şəhər həyatına güclü təsiri orta əsr şəhər-kommunaları tipli müstəqil şəhər idarəçiliyinin yaranmasına mane olurdu. Feodal zadəganlığının şəhərin hakim təbəqələri ilə sıx əlaqəsi onların mənafelərini, sənətkarlara şəhərin və mahalın feodal sahibləri tərəfindən istismar edilən əhalisinin geniş təbəqələrinə qarşı səylərini birləşdirirdi.[7]

Səfəvilər dövlətinə birləşdirildikdən sonra Bakı şahın təyin etdiyi, Şirvan bəylərbəyinə tabe olan yerli hakimlər tərəfindən idarə olunurdu. Hakimlərin xan, yaxud sultan titulları olurdu. Bu titullar, Səfəvilər dövründə feodal iyerarxiyasının bir halqası kimi fərdi, ömürlük və qeyri-irsi idi. Səfəvilər sülaləsinin hakimiyyətinin əvvəllərində xan və sultan titulları arasında fərq yox idi. Lakin sonralar, XVI əsrin ikinci yarısında xan titulu üstünlük qazanaraq, sultan titulundan yüksək sayılırdı.[8]

İçərişəhər ərazisində bugünədək qalmış daş kitabələrdə və səyyahların yol qeydlərində şəhərin XVI əsrdəki və sonrakı hakimlərinin titulları və adları əksini tapmışdır.

Bakıda Osmanlı hökmranlığı dövründə Şirvanşahlar sarayı ərazisində tikilmiş darvazanın baştağında h.994 (1585/6)-cü ilə aid kitabədə binanın sultan III Murad xanın hakimiyyəti illərində ulu Rəcəb baba Bakuyinin əmri ilə tikildiyi göstərilir[9]. Bu abidə Bakı şəhərinin türk işğalı dövrünə (1578-1607-ci illər) aiddir. Göründüyü kimi, kitabədə adı çəkilən Rəcəb baba Bakının türk işğalı dövründə yerli zadəganlarının nümayəndələrindən olmuşdur. Türk qoşunları Osman paşanın komandanlığı altında Bakı qalasını tutduqdan sonra şəhərin hakimi Qubad paşa təyin olundu. Sonralar, h.1015 (1606-1607)-ci ildə şəhərin hakimi Mustafa bəy Mahmudi idi. Mənbələrdə türk işğalı

dövründə Bakının hakimi (ehtimal ki, komendantı) kimi yerli sakin Muradın adı çəkilir.[10]

Şəhərlərdə, bir çox hallarda bilavasitə şahın özünün təyin etdiyi şəhərin hakim təbəqələrinin nümayəndələri – kələntərlər (şəhər hakiminin davranışı barədə şaha məlumat verirdilər), darğalar və digər vəzifəli şəxslər böyük rol oynayırdılar. Şah I Təhmasibin Bakıya dair h.954 (1547)-cü ilə aid bir fərmanında[11] şəhər məmurları sırasında kələntərlər, vergi yığanlar, Divan məmurları, Bakı (məhəllə) kəndxudaları, darğalar (inzibati-polis vəzifəsi daşıyırdılar) sadalanır. Sənəddə, həmçinin, hükkamların (mahal hakimləri), tiyuldarların (tiyul sahibləri) adları çəkilir. Bu məmurlar və vəzifə sahibləri şəhər əhalisinə, sənətkarlara, şəhərin və mahal əhalisinin ən yoxsul təbəqələrinə zülm etməkdə iri feodallardan geri qalmışdılar. Şəhərdə tacirlərin gətirdikləri mallardan vergi yığan gömrük məmuru da var idi. İngilis taciri Eduards (1566-cı il) həmin məmuru "bu ölkədə ən qatı fırıldaqçı" adlandırmışdı.[12]

Bakıdakı böyük vəqfi şeyxlərinin və adları daş kitabələrdə, qəbir daşlarında çəkilən seyidlərin mənsub edildiyi iri şiə ruhaniləri də feodal sinfinə daxil idilər. Şah Təhmasibin hakimiyyəti illərində (h.977 (1569/70)-ci il) Bakı yaxınlığındakı Şıx kəndində məscid qapısının üstündə seyid Lətif Nişapurinin oğlu seyid Fəzlullahın adı çəkilən daş kitabə var.[13] XVI əsrin sonunda, türk işğalı dövründə Bakı və Abşeronda şiə seyidlərinin rolunu və onların təqib olunmasını əks etdirən sənədlərdən biri də köhnə neft quyularından birində tapılmış daş kitabədir. Kitabədə quyunun h.1003-cü ilin rəbiülaxir ayında (1594/5-ci ildə) Məhəmməd Nur tərəfindən açıldığı və seyidlərə bağışlandığı göstərilir.[14]

Mənbələrdə şəhərin xırda alverçiləri və əhalisinin ən yoxsul təbəqələri haqqında, demək olar ki, heç bir məlumat verilmir. Abşeronun inzibati siyasi mərkəzi olan Bakı Şirvan bəylərbəyliyinin tərkibinə daxil idi. 1607-ci ildə onu Şah Abbasın təyin etdiyi adlı-sanlı feodal Zülfüqar xan Qaramanlı idarə edirdi.[15] Bakı bəylərbəyinə tabe olan hakim tərəfindən idarə olunurdu. Şəhərin feodal zadəganlığına köçəri və yarımköçəri tayfaların (qızılbaş və s.) hərbi əyanları, habelə təhkimli kəndliləri ilə birlikdə bütöv kəndlərə, neft və əkin yerlərinə, Abşeron bağlarına sahib olan köhnə yerli oturaq feodallar[16] daxil idi. Şəhər kübarları evlərə, karvansaralara, hamamlara,

dükanlara, sənətkar emalatxanalarına, gəmilərə və həm şəhərdə, həm də Abşeron kəndlərindəki digər mülkiyyətə malik idilər. Mərkəzi və yerli hakimiyyət aparatının mülki bürokratiyası da bu hakim təbəqəyə daxil idi.

İçərişəhərin Şah Abbas darvazasının bayır tərəfinin üstündəki yarısı qalmış kitabədə h.1017 (1608/9)-ci ildə I Şah Abbas Bakını türklərdən geri alandan az sonra şəhərin qala divarlarını tikdirmiş Şirvan bəylərbəyi Zülfüqar xanın adı çəkilir.[17] Karmeli rahibləri 1607-ci ildə şəhər şah qoşunları tərəfindən tutulduqdan bir neçə ay sonra şəhər ətrafına ova çıxmış Zülfüqar xanı Bakıda görmüşlər.[18] İtaliyalı Pyetro della Vallenin 1618-ci ildə verdiyi məlumata görə, Bakı hakimi sultan tituluna malik idi.[19] Kempfer də 1683-cü ildə Bakı hakiminin sultan adlandığını xəbər verir.[20] İrandakı anonim yezuit missioneri 1687-ci ildə Bakının sultan adlanan və İran şahının vassalı olan mələk tərəfindən idarə edilən kiçik bir vilayət olduğunu yazırdı.[21]

1689-cu ildə Azərbaycanda olmuş digər fransız yezuit missioneri rahib Villet aşağıdakı məlumatı verir: "Farsların dövləti, yaxud imperiyası 16 böyük vilayətə bölünür. Onların hər birinin tabeliyində sultanlıqların, yəni əyalətlərin adı ilə sultan adlandırılan əyalət hakimləri olan xanları, yaxud şah canişinləri vardır. Şirvan dövlətindəki Bakı əyaləti onlardan biridir. Onun 34 kəndi var..."[22] Göründüyü kimi, Bakı Səfəvilər dövründə çoğrafi, iqtisadi və siyasi baxımlardan əlahiddə inzibati vahid idi.

Türk səyyahı Övliya Çələbi xəbər verir ki, Şirvan vilayətindəki Bakı (yəni, Abşeron – *S.A.*) 7 nahiyədən (ehtimal ki, neft rayonlarından – *S.A.*) ibarət ayrıca xanlıqdır. Çələbinin dediyinə görə, Bakı xanlığının "şahsevənlər"dən və "dizçökənlər"dən təşkil olunmuş qoşunu var idi. Bakı xanının qeyri-nizami feodal qoşunu 3000 döyüşçüdən ibarət idi.[23] Həm də, Bakı, İrəvan və Gəncə xanlarının qoşunları türkmənlərdən, monqollardan, qumuqlardan, kalmıklardan (kalmaklar), kudəklərdən, muğanlılardan, quzlardan təşkil edilmişdi. Qalada silah cəbbəxanası, o cümlədən toplar var idi.[24] Övliya Çələbi şahın rəsmən təyin etdiyi dövlətli mülkədar olan Bakı xanını Əşrəf xan adlandırır.[25] Ehtimal ki, Bakı xanının özünün "təbili, nağarası və bayrağı" olmuşdur. Onun tabeliyində 12 yerli hakim var idi.[26] Bakı xanları, ehtimal ki, artıq Şirvanşahlar sarayında yaşamırdılar.

Əks halda, Bakı qalasını təfərrüatı ilə təsvir edən Övliya Çələbi saray haqqında hər hansı bir məlumat verərdi. 1600-cü ildə sarayda olmuş İrandakı fransız missioneri Rafael dü Man onun uçulub-dağıldığını və tamamilə xaraba qaldığını qeyd edir.[27]

Səfəvi şahlarından soyurqal, tiyul, müafi şəklində müxtəlif bəxşişlər alan, Çələbinin əyan[28] adlandırdığı yerli feodal kübarlarının xeyli hissəsi şəhərdə yaşayırdı. Bakı zadəganlarının 1607-ci ildə Bakının alınmasında Səfəvilərə fəal kömək göstərmiş bir qismi Şah Abbasdan, ehtimal ki, türk ağalığı dövründə həmin əyalətin türkpərəst yerli əyanlarına timar* kimi verilmiş torpaqları soyurqal[29] olaraq almışdılar. Bakıya aid bir sıra fərmanlarda soyurqaldan danışılır. Bu sözlə sahibinin şah qoşununa silahlı adamlar verməli olduğu bağışlanmış ərazi nəzərdə tutulurdu. Soyurqal irsi idi. Soyurqal sahibi vergi yığmaq hüququna və inzibati toxunulmazlığa (müavi) malik idi. O, rentanın – verginin dövlətin, yəni Divanın payına düşən hissəsini də özünə götürürdü. Bəxşiş verilmiş kəndlər onun hakimiyyətinə tabe idi. Hakimlərə və maliyyə məmurlarına soyurqal ərazisinə daxil olmaq qadağan edilirdi.[30]

Bakıya aid sənədlərdə hədiyyə torpaqlarının başqa bir növü – tiyul haqqında da məlumatlar var. Şahlar tiyulu, adətən, xidmətlərinə görə şəhərin hərbi əyanlarına verirdilər. Tiyul irsən keçə bilməzdi. Tiyuldarın tiyul torpaqlarının gəlirinin hamısını, yaxud da onların bəzilərini yığmağa ixtiyarı var idi. Çox vaxt maliyyə məmurları bağışlanmış tiyul məbləğini yığıb tiyul sahibinə verirdilər. Beləliklə, tiyul torpaq üzərində sahiblik yox, rentanın – müəyyən yerdən yığılan verginin (ərzaqla, pul və işlə) bir hissəsini əldə etmək hüququ verirdi.[31]

Bundan əlavə, Bakıda yaşayan feodalların, ehtimal ki, mülk hüququ ilə Abşeronda bağları və üzümlükləri, şəhərdə karvansaraları, sənətkarlıq emalatxanaları, evləri var idi. "Mülk" istilahı altında torpaq, yaxud satıla, alına və vərəsəlik kimi keçə bilən və dövlət qulluğu göstərmək öhdəçiliyi ilə bağlı olmayan digər daşınmaz əmlak üzərində şərtsiz feodal sahibliyi nəzərdə tutulurdu.[32] Şəhər feodalları iri karvan və dəniz ticarəti ilə sıx bağlı idilər.[33]

Xan, yaxud sultan tituluna malik Bakı hakimləri təkcə ticarətdən deyil, əhalidən yığılan vergi hesabına da böyük gəlir əldə edirdilər:

---

* Timar – təhkimli kəndlilərlə birlikdə bağışlanmış len torpaq sahibliyi

"Təzkirət əl-müluk"un verdiyi məlumata görə, XVIII əsrin birinci çərəyində Bakı hakiminin gəliri 5 000 000 dinar,[34] yaxud 500 tümən olmuşdu. Bakı xanının sarayında yüzlərlə nökər var idi.[35] Bakı xanının saray nökərləri arasında gözəlliyi ilə məşhur olan gürcü[36] qulları da var idi. Səfəvi şahlarının bəzi fərmanları, Streys, Kempfer və digər Avropa səyyahlarının şahidliyi ev quldarlığının mövcud olduğunu göstərir.[37] XIII-XIV əsrlərdə Azərbaycanda feodal cəmiyyəti daxilində mövcud olan quldarlıq ukladı sonrakı əsrlərdə aradan çıxsa da, qul ticarəti davam edirdi.[38]

Şəhər əyanları ən mühüm inzibati vəzifələri tuturdular. Şəhərdə ən mühüm vəzifəli şəxslərdən biri bilavasitə şahın yerli zadəganların, yaxud şəhər tacirlərinin nümayəndələri arasından təyin etdiyi şəhər rəisi – kələntər idi. Kələntər bazarlara, ticarətdən və sənətkarlıqdan vergilərin toplanmasına nəzarət edirdi. O, həmçinin, yerli hakimin davranışını nəzarətdə saxlayır və bu barədə şaha xəbərçilik edirdi.[39] Şəhərdə digər mühüm şəxslər yerli xanın təyin etdiyi inzibati-polis funksiyalarına malik məmur olan daruğa[40] (darğa) və əhalidən vergi yığan bir sıra başqa Divan məmurları idi. Şəhər məhəllələrinin başında "məhəllə kəndxudaları"[41] dururdu. Şəhərdə qonaqların qəbulu ilə məşğul olan məmurlar – mehmandarlar da var idi.[42]

Övliya Çələbinin məlumatına görə Bakı şəhəri əhalisinin əksəriyyəti sünni idi.[43] Lakin bu məlumat bir qədər tendensiyalıdır. Həmin dövrdə Səfəvi şahlarının apardığı şiəliyi zorla qəbil etdirmək siyasəti sayəsində şiəlik Şirvan və Bakıda, eləcə də, Azərbaycanın cənub-şərqində geniş yayılmışdı. Bundan əlavə, indiki Bibiheybət neft rayonunda şiə müsəlmanların sitayiş etdiyi ibadətgah – yeddinci şiə imamı Musa Kazımın qızı Hökumə xanımın məzarı (məqbərəsi) var idi. Şiələr bura ziyarətə gəlirdilər. Beləliklə, Bakı XVII əsrdə şiəliyin bərqərar olduğu Azərbaycan şəhərlərindən biri idi.

Bakıda sədr tərəfindən idarə olunan böyük vəqf mülklərinə sahib olan ali rütbəli ruhanilər və seyidlər əhəmiyyətli rol oynayırdılar.[44] Soyurqal hüququna malik vəqflərdən biri yuxarıda bəhs edilən Bibiheybət məzarının (məqbərəsinin) vəqfi idi. Məzarı şiə seyidləri nəslindən olan vərəsə şeyxlər idarə edirdi. Vəqf formal şəkildə məzara məxsus olsa da, əslində, onun sahibi məzarın şeyxi – mütəvəllisi idi.[45] Sultan II Muradın fərmanından aydın olur ki, bu vəqf hələ şirvanşah I Xəlilüllah zamanından, yəni, 1417-ci ildən 1465-ci ilədək

mövcud olmuş, məscid və Bibiheybət abidələri kompleksi isə XIII əsrdə tikilmiş, yaxud bərpa edilmişdir. Deməli, ehtimal edilə bilər ki, Bibiheybət məzarı 600 ildən az olmayaraq, bəlkə də, daha çox mövcud olmuşdur. Bəzi fərmanlara görə, məqbərədə dərvişlərin yaşadığı xanəgah olmuşdur. Məzarı idarə edən və dərviş icmasının başında duran şeyxlər şah tərəfindən eyni nəsildən təyin edilirdilər.

Səfəvi şahlarının həmin vəqfə aid bəzi fərmanlarından yüz ildən çox bir müddət ərzində (1547-1668-ci illər) məzarı idarə edən Bibiheybət şeyxlərinin vərəsəlik qaydasına ciddi riayət edildiyi aydın olur.[46]

Şeyx Bünyad	ö.h.963 (1555/6)-cü il
Şeyx Qulaməli	h.1015 (1606/7)-ci ildə hələ sağ olmuşdur.
Şeyx Abid Hacı şeyx Şərif ibn şeyx Abid	h.1028 (1618/1619)-ci ildə sağ olmuş, h.1046 (1636/37)-cı ilədək ölmüşdür.[47]
Şeyx hacı Əsgərəli	Şeyx Qulaməlinin qardaşı oğlu və kürəkəni, h.1064 (1653/4)-cü ildən qabaq ölmüşdür və şeyx Qulaməlinin qızı (adı çəkilmir.)
Şeyx Məhəmməd Muqim[48]	h.1078 (1667/8)-ci ildə hələ sağ olmuşdur.

Dövrümüzədək qalmış bəzi daş kitabələrdə XVII əsrdə Bakıda yaşamış adlı-sanlı seyidlərin adları təsbit olunmuşdur. Şıx kəndindəki məscidin yaxınlığında h.1020 (1611)-ci ilə aid qəbirdaşında seyid Fəzlüllahın oğlu "seyidlərin pənahı" Seyid İmamqulunun adı çəkilir.[49]

Bibiheybətin baş məscidinin artırmasında və onun qapısının yuxarısındakı onu tikdirən şeyx Şərif ibn şeyx Abidin adı çəkilən h.1028 (1618/19)-ci və h.1046 (1636/37)-cı illərə aid daş kitabələr olmuşdur[50]. Şeyx Şərif, Şərifəli, Əsgərəli və Əbdüləlinin adları I Şah Abbasın h.1015 (1607)-ci ilə aid yuxarıda bəhs edilən fərmanlarından birində çəkilir.[51] Həmin seyidlər Bakı şəhərinin böyük vəqf əmlakına malik məşhur müsəlman ruhanilərindən idilər. Bu vəqfə aid

sənədlər içərisində Səfəvi şahlarının Bibiheybət məzarı yanındakı sufi-dərviş xanəgahına ənam verdikləri 10 fərman[52] qeyd edilmişdir.

I Şah Abbasın h.1015-cı ilin zilqədə ayında (28 fevral-29 mart 1607-ci il) verdiyi fərmanda deyilir: "...imam övladı Bibiheybətin (ona və onun babalarına salam və səna olsun) mübarək asitanəsinin mütəvəllisi, şeyxlərin ən yaxşısı hesab edilən Şeyx Bünyad oğlu Şeyx Qulaməli, həmin asitanəyə xidmət edən dərvişlər camaatı... xeyirxah ərzə çatdırdılar ki, Şirvan Badkuyəsi[53] yaxınlığındakı Zığ kəndi behişt məkanlı və yüksək yurdlu əlahəzrət şahbabamın (Allah onun sübutunu nurani etsin)[54] hökmünə əsasən mübarək asitanəyə aid idarənin vəqf əmlakıdır və onun malucəhatı qeyd olunan asitanəyə bağışlanılmış və soyurqal verilmişdir. (Onlar) həmin kəndin, habelə qeyd olunan asitanənin yaxınlığındakı üç neft quyusunun üşrünün, həmin asitanənin dərvişləri və Zığ kəndinin rəiyyətlərinə məxsus olan 1500 baş qoyunun çobanbəyiliyinin, malibağ və dərvişlərin Duldərədə əkdikləri pambıq və taxılın üşrü ilə birlikdə bağışlanmasını və soyurqal verilməsini xahiş etdilər".[55]

Həmin şah fərmanlarına əsasən Bakı yaxınlığındakı Zığ kəndinin mübarək məqbərənin mütəvəlliləri şeyx Bünyad və onun oğlu şeyx Qulaməlinin mülkiyyətinə verildiyi təsbiq edilirdi. Şeyxə malucəhat və Duldərədəki bağlardan, buğda və pambıq əkinlərindən, habelə üç neft quyusundan alınan bütün vergiləri öz xeyrinə toplamaq ixtiyarı verilirdi; dərvişlər, onların əməlləri və rəiyyəti Divanın və qoşunun xeyrinə bütün ərzaq (ələfə) və iş (biyar və şikar) mükəlləfiyyətlərindən azad olunurdu. 1000 qoyunu olan şeyx və 500 qoyunu olan rəiyyət çobanbəyi vergisindən azad edilirdilər.[56]

Başqa bir fərman II Şah Abbas tərəfindən h.1066-cı ilin zilhiccə ayında (20 sentyabr-19 oktyabr 1656-cı il) maliyyə məmurlarının və icarədarların Bibiheybət məzarına məxsus Zığ kəndlilərindən bir sıra qanunsuz vergilər (cüftbaşı, dəzgahbaşı və yurtanə) yığması ilə əlaqədar verilmişdir.[57] Fərmanda bu məsələnin baxılmaq üçün bəylərbəyiyə verildiyi göstərilir və deyilirdi ki, "Badkuyənin rəiyyətləri, amilləri, tiyildarları və darğaların həmin yerə və qeyd olunan soyurqal mahalının vücuhatına hər hansı unvanla qarışmaları, şərik çıxmaları, pay almaları məmul olmamışsa, məmul olduğu təqdirdə isə əgər Badkuyə rəiyyətlərinə aid olmamışsa, qərar versin ki, qeyd olunan kəndin rəiyyətlərinin vəziyyətlərinə təcavüz etməsinlər,

əziyyət verməsinlər..."[58] Fərmanın məzmunundan aydın olur ki, söhbət Bakı əhlindən, ehtimal ki, dövlət vergilərinin toplanmasını icarəyə götürən icarədarlardan, habelə kələntərdən və öz vergilərinin bir qismini ətraf kəndlərin kəndlilərinin çiyninə qoymağa çalışan məhəllə darğalarından gedir. Sonuncu ibarədə göstərilir ki, soyurqal mahalından vergi yığılması məlum olduğu halda belə bunu Bakı icarədarları deyil, soyurqal sahiblərinin özləri etməlidir. II Şah Abbasın bu fərmanı şeyxin vergi yığmaq imtiyazlarını (müafi) təsdiqləyərək, onu şahın xeyrinə xəzinəyə daxil olmalı bütün vergilərdən azad edirdi.[59]

Şeyx Əbu Səid Əbülxeyrin məzarına aid sənədlər vəqf təsisatının öyrənilməsində çox mühüm mənbədir. Sədarət divanının vəqf əmlakı və mütəvəlli vəzifəsi haqqında 1699-cu il tarixli fərmanı xüsusilə maraqlıdır. Həmin fərmanda I Xəlilüllahın oğlu şirvanşah Fərrux Yəssarın 1490/91-ci ilə aid vəqfnaməsinin əsl mətni qalmışdır. Bu, şirvanşahların XV əsrdə müəyyən şərtlərlə məqbərəyə bağışladıqları vəqf əmlakının sadalandığı dövrümüzədək gəlib çatmış yeganə vəqfnamə nümunəsidir. Vəqfnamənin mətnini bütünlüklə veririk: "Bu xoşsaatlı vaxtlarda xeyir-dua əldə etmək məqsədi ilə öz xalis malım hesabına Şibani əkinəcəyini, oradakı qatı neft quyusu ilə birlikdə Şivələndakı beş üzüm bağı sahəsini və meşə yerini, habelə Bilgəhdəki üzüm bağı sahəsini satın alıb abad edərək Badkuyə yaxınlığında dəfn olunan* seçilmiş pəhrizkar rəhmətlik Şeyx Əbu Səidin müqəddəs məzarına şəriətə müvafiq qayda üzrə vəqf edib, açıqcasına dini mühafizəyə verdim. Onun mütəvəlliliyini isə həmin pirin kişi övladlarına tapşırdım. Bu şərtlə ki, qeyd olunan yerin kişi övladları həmin mahalın məhsulu hesabına əldə edilən vəsaiti məzara və öz iaşələri üçün, habelə məqbərənin işıqlandırılması üçün sərf edərək, artığını isə kasıblara və oranı məskən edərək qonaq qalan dərvişlərə ziyafət versinlər. Hərbiçilərə və varlılara, habelə vəsait sahiblərinə ondan bəhrə** və pay verməsinlər. Hakimlər, amillər, habelə divan və vəqf mübaşirləri qeyd olunan vəqflərin mütəvəllilərindən bir dinar pul və ya bir

---

* Əbu Səidin uçulub dağılmış türbəsinin yeri hal-hazırda fəaliyyət göstərən Təzəpir məscidinin ərazisində olmuşdur.

** Sudan istifadəyə görə suvarma kanallarının sahibinə məhsulun $^{1}/_{15}$-i həcmində verilən vergi

batman məhsul tələb etməsinlər. Vəqf qaydalarının dəyişdirilməsinə yol verməsinlər. Qeyd olunan şərtləri dəyişdirməyə çalışan və cəhd göstərən adamlara Allahın, mələkələrin və bütün adamların lənəti nəsib olsun. Düzgün yola sövq edən həqiqətlə dolu ayənin məzmunundan özlərini qorusunlar və çəkinsinlər (hansı ki, orada deyilir): "Bunu eşitdikdən sonra hər hansı adam onu dəyişdirsə, günahı onu dəyişdirən adamların üzərinə düşəcəkdir". Hərtərəfli olaraq bu qayda ilə rəftar edib həmin vəziyyətin təsbit olunması və davam etməsi yolunda çalışaraq buyuruqdan kənara çıxmasınlar".[60]

Sənəddə vəqfin sinfi xarakteri aydın surətdə nəzərə çarpır. Vəqfnamədə məqbərəyə verilən Şibani əkin yeri, Bilgəh və Şivələndəki üzüm bağları, meşə sahəsi feodal torpaq sahiblərinin xüsusi kateqoriyasını təşkil edir. O, şirvanşahın nəzdində zaviyə olan məzara vəsiyyət etdiyi daşınmaz əmlakdan, becərilən torpaqlardan, habelə qara neft quyularından ibarət idi. Gəlirin bir hissəsi xeyriyyə işlərinə, kasıbların və dərvişlərin yedizdirilməsinə sərf olunurdu. Vəqfin gəlirinin böyük bir hissəsi onun mütəvəllilərinə çatırdı. Dini vəzifələrin (indiki halda mütəvəlli şeyxlərin) vərəsəlik qaydasına görə, həmin vəqf irsi mülkiyyətə çevrildi. Vəqfin faktik sahibi olan mütəvəlli vəzifəsi isə (vəqfnamədə qeyd olunan şərtlə), adətən, irsi olaraq Əbu Səid Əbulxeyr nəslinin şeyx övladlarına keçirdi.

Səfəvi şahlarının Bibiheybət məzarı şeyxlərinin adına verdiyi on fərmanda istər Bakı rəiyyətinə, istərsə də Abşeron kəndlərinə aid müxtəlif vergi və mükəlləfiyyətləri bildirən bir sıra istilahlara rast gəlinir. Fərmanlarda sadalanan vergi və mükəlləfiyyətlər ağır yük kimi yerli feodallar və şah üsuli-idarəsi tərəfindən istismar olunan vergi verən əhalinin çiyinlərinə düşürdü. Bu vergilər XVII əsrdən xeyli əvvəl, bəziləri isə ərəb ağalığı, hətta Sasanilər dövründən mövcud idi.

XVII-XVIII əsrlərdə Abşeronda rəiyyətdən yığılan aşağıdakı vergi növləri var idi:

Malucəhat – məhsulla alınan əsas əkinçilik vergisi, vergi rentasının əsas hissəsi; adətən məhsulla – buğda, arpa, pambıq, ipək və i.a. ödənilirdi. Malucəhatın miqdarı məhsulun ümumi həcminin $^1/_5$-dən $^1/_3$-nə qədər idi.[61]

Üşr (onda bir) – müxtəlif kənd təsərrüfatı obyektlərindən toplanan vergi.[62] Yuxarıda adı çəkilən fərmanlarda (3, 4 saylı sənədlər)

göstərilir: "üç neft quyusunun üşrü", "əkdikləri pambıq və taxılın üşrü".[63]

Ələfə – rəiyyətin hakimiyyət nümayəndələrinin tələbi ilə ödədikləri qoşun, yaxud qeyri-nizami feodal döyüşçü dəstəsinin minik və yük heyvanları üçün "ot, yem", habelə əsgərlər üçün "ərzaq", "pay" demək idi.[64]

Üləfa – elə ələfə demək olub, qoşun heyvanları üçün yem, yaxud döyüşçülər üçün ərzaq payı bildirirdi.[65]

Biyar və şikar – hakimlərin, vilayət və mahal sahiblərinin dövlətin ehtiyacları üçün kəndlilərin üzərinə qoyduqları cürbəcür mükəlləfiyyətlər: qala və sarayların tikilməsi, tikinti materiallarının daşınması, yol salınması, suvarma kanallarının çəkilməsi, hakimlərin və maliklərin əkin yerlərində günəmuzd iş və i.a. "Biyar" terminin özü çox arxaikdir. Onun kökü Sasanilər dövlətinin mövcud olduğu sonuncu əsrə (eramızın VI əsri-VII əsrin əvvəli) gedib çıxır.[66]

Çobanbəyi – mal-qaranın, başlıca olaraq, qoyunların otarılması üçün verilən vergi. Bu vergi maldarlıqla məşğul olan yarımköçəri kəndlilərdən xəzinəyə məxsus yaylaq və qışlaq otlaqlarından istifadə olunmasına görə alınırdı.[67]

Müstəqil xanlıqlar dövründə çobanbəyi vergisi "*çöpbaşı*" kimi məlum idi.[68]

İxracat – XVI-XVIII əsrlərdə divan dəftərində dəqiq təsbit olunan ordunun ehtiyaclarını, əyanların və həmin mahaldakı, yaxud vilayətdəki dövlət məmurlarının xərclərini ödəmək üçün natura ilə toplanan vergi və mükəlləfiyyətlər. Bu xərclər xəzinə tərəfindən ödənilmirdi.[69]

Xariciyyat – ixracatla eyni məqsədli, lakin qeyri-rəsmi, hakimiyyət nümayəndələrinin əmri ilə rəiyyətdən vaxtaşırı yığılan fövqəladə vergi idi.[70]

Şiltaqat – xariciyyat demək olub, yerli məmurların və qoşunun xərclərini (ixracat) ödəmək üçün toplanılan vergi və mükəlləfiyyət idi. O da qeyri-rəsmi, fövqəladə və ixtirayi həcmli vergi idi.[71]

Qonalqa[72] – əcnəbi səfirlərin, şah çaparlarının, əyanların və hərbi rəislərin rəiyyətin evlərində "mənzil salmaq hüququ". Sonuncular "qonaq"larını, onların məiyyətini, nökərlərini yedizdirməyə, atlarını yemləməyə borclu idi.[73]

Ulaq – rəiyyətin poçt xidməti məmurlarının tələbi ilə bir poçt məntəqəsindən o biri poçt məntəqəsinədək verdiyi poçt və çapar

atları. Rəiyyətin ərbablarını yaylaq və qışlaqlara köç vaxtı daşıma vasitələri ilə təmin etmək borcu da bu mükəlləfiyyətlə bağlı idi.[74]

Ülam – rəiyyətin dövlət poçtundan istifadə edən çox mühüm çaparların, qasidlərin və digər vəzifəli şəxslərin xərclərini ödəmək mükəlləfiyyətini bildirməli idi.[75]

Dəzgahbaşı – XVII əsrdə Abşeronda alınan vergi. Bu verginin adı II Şah Abbasın h.1066 (1656)-cı il və şah Süleymanın h.1078 (1667)-ci il tarixli Bibiheybət şeyxlərinə aid fərmanlarında çəkilir.[76]

Dəzgah dedikdə toxuculuq, yaxud xalçaçılıq dəzgahı nəzərdə tutulur. Məlumdur ki, XVII əsrdə Abşeronun Xilə və Suraxanı kəndlərində XVIII əsrə aid nümunələri dövrümüzədək gəlib çatmış gözəl xalçalar toxunurdu.

O vaxtlar Xilə kəndində xalça karxanası var idi. Görünür, həmin vergi Abşerondakı xalçaçılıq emalatxanalarından toplanırdı.

Cüftbaşı – yuxarıda göstərilən fərmanlarda adı çəkilən cüft, yəni, iki öküzlə şumlanıb əkilmiş sahənin məhsulundan alınan vergi.[77]

Mali-bağ – bağdan yığılan vergi idi. Abşeronda yığılan bu verginin adı I Şah Abbasın h.1015 (1607)-ci il tarixli və II Şah Abbasın 1060 (1650)-cı il tarixli Bibiheybət şeyxlərinə dair fərmanlarında xatırlanır. Sənədlərə görə, bu vergi meyvə məhsulunun $^{1}/_{10}$ hissəsinə bərabər idi.[78] Bu vergi, ehtimal ki, şəhərdə, yaxud onun ətrafında bağı olan şəhər sakinlərindən də alınırdı.

Əvariz – yerli hakimiyyətin rəiyyət üzərində qoyduğu işlə ödənilən vergi və mükəlləfiyyət idi. Xanlıq dövründə, XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində "əvriz" (evrez) termini xüsusi məna daşıyırdı. Bütün kənd biyardan əlavə birlikdə torpaq sahibi üçün işləməli idi. O vaxt kəndlilər 3-dən 9-dək biyar günü, üstəlik 2 gün isə əvariz kimi torpaq sahibinə işləməli idilər. Bundan əlavə, kənd icması evariz kimi sahibkar üçün ev, yaxud dəyirman tikmək və i.a. kimi fövqəladə işlər də görürdülər.[79] Bu vergi, ehtimal ki, şəhər rəiyyətinə də şamil idi.

Şəhər əhalisindən, adları çəkilənlərdən başqa, aşağıdakı vergilər alınırdı.

Savəri – könüllü bəxşişlər. Səfəvilər dövründə "savəri" dedikdə rəiyyətin və ümumiyyətlə, vergi mükəlləfiyyəti əhalinin feodal hakimlərinə, məmurlara, hərbi şəxslərə, əslində, məcburi "hədiyyələri" başa düşülürdü.[80]

Peşkəş – rəiyyətdən feodal hakimləri, əyanlar və şahın özü üçün yığılan "könüllü" (əslində məcburi) hədiyyə. Şaha peşkəş bu məqsədlə əvvəlcədən əhalidən lazımi qədər vəsait toplamış əmirlər və mənsəb sahibləri təqdim edirdilər.[81]

Yurtanəyə – Bibiheybət şeyxlərinin adına verilən Səfəvi sənədlərində Abşeronda və Şirvan vilayətində yığılan vergilərin siyahısında rast gəlinir. Ehtimal ki, tüstü (yəni hər evdən, yurddan, yaxud ailədən çıxan tüstü), yaxud ailə vergisidir. Bu verginin "otaq xərci" kimi adına XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərinə aid sənədlərdə tez-tez rast gəlinir.[82]

Çərik (qoşun, qeyri-nizami feodal döyüşçü dəstəsi) – Səfəvilər dövründə hərbi xidmətlə ödənilən bu mükəlləfiyyət köçəri tayfalara və mü'afilərə şamil idi. Çərik, ehtiyac olduqda, şahın, yaxud yerli bəylərbəyinin əmri ilə yığılırdı. Tayfa başçıları öz tayfalarından çəriyə müvafiq miqdarda döyüşçü verirdilər. Onlar müharibə vaxtı da tayfa birləşmələri üzrə qruplaşdırılırdılar.[83] Bakı ölkəsində hakimlə yanaşı, yerli feodal çəriyinin irsi rəisi Dərgahqulu bəy Heybət bəy oğlu da əhəmiyyətli rol oynayırdı.[84]

"Təzkirət əl-müluk"un məlumatına görə, XVIII əsrin birinci çərəyində Bakı hakimi çəriyə 100 nəfər döyüşçü verirdi.[85]

Rəsmi sənədlərdə təsvir edilən, yuxarıda haqqında bəhs olunan vergi və mükəlləffiyyətlərdən əlavə, bir sıra digər mükəlləfiyyətlər, o cümlədən şikar da var idi. Bir sıra səyyahlar iri feodalların Abşeronda ova çıxmasını təsvir etmişlər. Kəndlilərin, mükəlləfiyyət kimi bu ovda iştirak etməyə cəlb olunması həmin ovun qaydası ilə bağlı idi. Səyyah Lerx 1733-cü ildə, Abşeronda Səlim xanın oğlu Hacının və Maştağa sultanı Dərgahın iştirakı ilə təşkil etdiyi ceyran ovunu təsvir edir: "Aramsız od çıxan yerlərdən, çoxlu şoran bitən Kali* adlı bir kənddən keçərək Sinsen** adlı böyük bir kəndə, yarımadanın dar qurtaracağına, təşkil olunmuş vəhşi keçi*** ovuna getdik. Həmin ova bütün kəndlərdən tüfəngli, oxlu, dəyənəkli və itli bir neçə yüz kəndli yığılmışdı. Onlar dənizin bir sahilindən o biri sahilinə qədər cərgə ilə düzülməli idilər. Biz belə də etdik, cərgəni pozmadan vəhşi keçiləri qabağımıza qatıb yarımadanın dar qurtara-

---

* Abşerondakı Qala kəndi

** Ehtimal ki, Abşerondakı Hövsan kəndi

*** Lerx ceyranları vəhşi keçi adlandırır

cağına qovmağa başladıq ki, orada müxtəlif bol şirəli otları həvəslə otlasınlar. Burada Dərgah sultan bir neçə yüz adamla bizə qoşuldu. Pusqunu duyan və sürü ilə cərgəmizə atılan zavallı keçilər, çox təəccüblü olsa da, hay-küyə, atəş səslərinə və bizim zərbələrimizə baxmayaraq, adamların arasından və üstündən tullanıb qaçırdılar, lakin tezliklə onların bir çoxu qırıldı. Biz onları daha da sıxışdırdıqda onlar qorxudan dörddə bir verst enində olan körfəzdən üzüb 7 verst uzunluğunda olan, müqəddəs adlanan adaya getdilər..."[86] Lerx Abşeronda ov və "şikar" mükəlləfiyyəti haqqında belə məlumat verir.

Şəhərlərdə Bakıya aid fərmanlarda göstərilməyən bir sıra digər vergi və mükəlləfiyyətlər də mövcud idi. Şəhərdə alverçilərdən və tacirlərdən yığılan böyük vergilərdən biri tamğa idi.

Tamğa – sənətkarlıq istehsalına şamil deyildi. Sənətkarlar bu vergini öz məmulatlarını hazırlayarkən yox, yalnız onları satarkən verirdilər.[87] Tamğa həm iri, topdansatış ticarətinə həm də xırda, pərakəndə ticarətə şamil idi. Tamğa dövlət vergisi olub, xəzinənin ən mühüm gəlir mənbələrindən idi. Şəhər əhalisi təkcə bu verginin ağırlığından deyil, vergi yığanların və icarədarların özbaşınalığından da çox əzib-əziyyət çəkirdi. Bu verginin artırılması şəhərdə ticarətin inkişafına son dərəcə ağır təsir göstərirdi.[88]

Ticarət vergilərindən biri də bac idi. Bacgəlmə tacirlərdən ticarət yolları ilə gətirdikləri mallara görə[89] şəhər darvazalarının qabağında, gəmilərin yan aldıqları liman körpülərində alınırdı. Bu rüsum şəhər əhalisi üçün ağır olub, ticarətin inkişafını ləngidirdi.

Yol rüsumları və mallardan alınan *rahdari* deyilən gömrük vergisi də var idi. Həmin rüsumlar şəhərə gətirilən və şəhərdən çıxarılan mallardan tutulurdu və xəzinənin əhəmiyyətli mənbələrindən idi.[90] Şardenin və Tavernyenin məlumatına görə rüsum malların dəyərinə görə deyil, hər dəvə, at, yaxud eşşək yükündən (xərvar)[91] tutulurdu. Ayrı-ayrı şəhərlərdə mallardan tutulan rüsumun miqdarı müxtəlif idi.

Şəhərlərdə sənətkarlardan və tacirlərdən yığılan vergilərdən biri də *boniçe*[92] idi. Şardenin sözlərinə görə hər sənətkar dükanından boniçe adı ilə on su (həmin vaxt bir abbası 18 suya bərabər idi – *S.A.*), sənətkarlıq məmulatı satan alverçi dükanından isə 20 su (abbasıdan bir az çox – *S.A.*) vergi alınırdı.[93] Şardenin verdiyi xəbərə görə, bu vergi şaha xidmət edən, yəni karxanada işləyən sənətkarlara aid edil-

mirdi.[94] "Təzkirət əl-müluk"un məlumatları və V.Minorskinin tədqiqatları göstərir ki, boniçe dedikdə Divanın mədaxil cədvəlində əsnafdan toplanan ümumi məbləğin ayrı-ayrı sexlər və onların üzvləri arasında bölüşdürülən maddəsi nəzərdə tutulurdu.[95]

Sənətkarlıq sexlərinin hamısı şaha hər birinin qazancına görə bütün sənətkarlardan yığılan müvafiq miqdarda pul ödəyirdilər.[96] Ehtimal ki, boniçe Divana daxil olan vergilər cədvəlinin ayrıca maddəsi üzrə sexlərdən və əsnafdan, habelə hər bir sənətkar və alverçidən gəlirinə müvafiq olaraq siyahı ilə alınan pul kimi başa düşülməlidir.

"Təzkirət əl-müluk"da boniçenin yığılması mərasimi belə təsvir edilir: ilk üç ay müddətində kələntər və naib* bütün əsnafı bir yerə yığmaq üçün öz nümayəndəsini təyin edir və onları naibin evinə toplayırlar.[97] Naibin vəzifəsi əsnafa boniçe vergisinin məbləğini təyin etməkdir. "Naib qarşılıqlı razılaşma əsasında hər bir əsnafa qanuna, haqqa, zəkaya, ölkənin adət və qaydalarına müvafiq boniçe təyin edir. Bu məqsədlə o, siyahı (timar) tutur, onu öz möhürü ilə təsdiqləyib kələntərin idarəsinə göndərir..."[98] Bundan sonra vəzirin, kələntərin və müstövfinin möhürü ilə təsdiqlənmiş qəbz vasitəsilə dəftərə görə hər əsnafdan Divana çatacaq məbləğ (mütəvəccəhati divani) götürülüb hissələrə bölünür (həvalə və tühəssas); kələntər hər əsnaf daxilində boniçeyə görə onlardan təcih götürür və divanın vergi yığanları (mühəssil) müvafiq surətdə məbləği toplayırlar".[99]

Boniçe Azərbaycan şəhərlərində yayılmışdı.[100] Şəhər və kəndlərdə "tein" vergisi mövcud idi. Həmin vergiyə görə, xarici dövlətin səfirinə və onun məiyyətinə şəhərdə qaldığı müddət ərzində gündəlik xərc üçün müəyyən miqdarda pul yığılırdı.[101] Ehtimal ki, qonalqa kimi idi, lakin ondan pula yığılması ilə fərqlənirdi. Xan yol boyu səfirə mənzil tutmaq və gəldiyi hər yeni yerdə tein toplamaq üçün mehmandarı ona qoşurdu. Yezuit missioneri (XVII) Talışda səfirin yaxınlaşması şayiəsi yayılan kimi evləri tərk olunmuş kəndi təsvir edir. Əhali tein verməkdən yaxa qurtarmaq üçün əmlakı ilə birlikdə qaçıb gizlənir. Lakin bir neçə nəfər yaxalanır və mehmandar onların zopalanmasını əmr edir.[102]

XVII əsrin sonlarından və XVIII əsrin əvvəllərində feodal istismarının güclənməsi və yerli hakimlərin özbaşınalığı ilə əlaqədar

---

* Naib – kələntərin müavini və köməkçisi

vergilərin ümumi artması müşahidə olunur.[103] Vergi və mükəlləfiyyətlərin ağırlığı feodalların və maliyyə məmurlarının zorakılığı və özbaşınalığı nəticəsində artırdı. Saysız vergi və mükəlləfiyyətlər şəhərin və ətraf kəndlərin əhalisinin çiyninə ağır yük kimi düşərək cəmiyyətin məhsuldar qüvvələrini sarsıdır, ölkənin iqtisadiyyatını dağıdırdı.

Bakı qalasındakı Cümə məscidinin minarəsinin özülünə qoyulmuş daşda həkk edilmiş kitabədə Bakıda və Abşeronda yığılan vergilər haqqında müəyyən məlumat əksini tapmışdır. I Şah Abbasın fərmanının surəti olan bu kitabə XX əsrin əvvəlində yerində yeni məscid tikilmiş, qabaqlar mövcud olan daha qədim Cümə məscidinin giriş qapısının üstündə qoyulmuşdur.

H.1024 (1615)-cü ilə aid bu fərmanda "Şirvanın Badkubə ölkəsində" yaşayan şiələrin Ramazan ayında yığılan bəzi vergilərdən azad edildiyi bildirilirdi. Fərmanda deyilirdi ki, şah "...Dovşan ilinin əvvəlindən icarəyə verilən tövcihatdan başqa, onların (şiələrin – *S.A.*) mübarək Ramazan ayında çatacaq bir aylıq malucəhatlarını sədəqə olaraq..." ləğv etmişdir.[104] Fərmanda daha sonra deyilirdi ki, "...Bu qərarla alınmış illik tiyul və məvacibi ləğv etsinlər. Onlar (tiyuldarlar) üçün təyin olunan məvacib həvalə divanına (ديوان حواله) daxil edilir. Qeyd olunan şəhərin malucəhatını ilbəil azaldıb, qalığını assiqnovka sahiblərinin (ارباب حوالات) kapitalına çevirsinlər. Zikr olunmuş ölkənin tiyul sahibləri fərmanda qeyd edildiyi kimi həyata keçirsinlər. Qeyd olunan ayın aylıq gəlirini öz tiyullarından çıxarılmış bilsinlər və rəiyyətdən heç bir tələb etməsinlər və məzkur ölkənin kələntəri, kəndxudaları və ağsaqqalları həqiqətdə (bilməlidir ki,) əgər şiələr içərisində bir sünni olsa və ya başqa yerlərdən birinin adamı orada olsa, bu yüngülləşdirmə onlara aid edilmir (yəni onlar bu vergidən azad edilmirlər – *S.A.*)".[105]

Bu fərmanda XVII əsrin əvvəllərində Bakıda mövcud olan bütün vergi növləri sadalanır. Ehtimal ki, icarəyə verilən tövcihat malucəhatın bir hissəsi olub, pula yığılırdı.[106] Fərmandan göründüyü kimi, XVII əsrdə bəzi vergilər icarəyə verilirdi.

Sonra bir illiyə verilən bəxşiş növü tiyuldan danışılır. İllik tiyul, yəni bağışlanmış ərazidən vergi yığmaq hüququ ləğv edildikdən sonra tiyuldarlar onlara təyin olunmuş məvacibi əskinas Divanından (Divan-i həvalə) alırdılar. Fərmanla əlaqədar malucəhatın yığıl-

ması ildən ilə azaldılırdı, bu vergidən qalan məbləğ isə əskinas sahiblərinin (ərbab-i həvalat) kapital fondu kimi əskinas Divanına daxil olmalı idi. Mətndən göründüyü kimi malucəhat, əsasən, yerli dövlət məmurlarından və hərbçilərdən ibarət olan tiyuldarların xərclərini ödəmək üçün yığılırdı.

Həmin kitabə İsgəndər Münşinin şahın h.1024 (1615)-cü ildə "İranın bütün məmləkətlərinin şiələrini Ramazan ayında divana çatan torpaq vergisindən, hərəkət etməyən əmlakın icarə haqqından azad etməsinə" dair məlumatını təsdiq edir.[107]

Bu tədbir, ehtimal ki, müharibələr nəticəsində müflisləşmiş Abşeron və Bakının vergi verən əhalisinin bir hissəsinin ağır vəziyyətini yüngülləşdirmək istəyindən irəli gəlmişdir. Verginin müvəqqəti olaraq ləğv edilməsi yalnız şahın yeritdiyi siyasətlə bağlı imtiyazlara malik olan şiələrə şamil idi.

Kitabədə adı çəkilən bəzi vəzifəli şəxslər – kələntərlər, kəndxudalar, ağsaqqallar – şəhər idarəçiliyində mühüm rol oynayırdılar. "Təzkirət əl-müluk"un verdiyi məlumata görə, kələntərin vəzifələrinə şəhər məhəllələrinin kəndxudalarını, əsnafların ağsaqqallarını təyin etmək daxil idi.[108] Hər məhəllənin sakinləri və hər bir əsnafın üzvləri öz aralarından etibarlı bir adam seçib onun üçün şəhadətnamə tərtib edir və məvacib təyin edirdilər. Kələntərin müavini və köməkçisi naibin möhürü ilə təsdiqlənmiş sənədi kələntərə gətirərək ondan şəhadətnamə (təliqə) və öz namizədləri üçün fəxri paltar alırdılar. Bundan sonra həmin şəxs onların işlərini idarə edirdi.[109]

Divanın* ayrı-ayrı qulluqçuları kələntərə tabe idi. Kələntərin vəzifələrinə "əmələn haqqa, zəkaya və ölkənin adətlərinə müvafiq olması üçün əsnaf yığıncaqlarında boniçenin məbləğinə və sənətkarlıq peşəsinə aid digər işlərlə bağlı qəbul edilən qərarlara baxmaq da daxil idi.[110] Rəiyyətə – kəndlilərə, sənətkarlara və xırda alverçilərə qarşı zorakılıq edənlər, onları incidənlər barəsində kələntərə şikayətə gələndə o, vəkil kimi çıxış etməli idi. Kələntərlər özü əvəzini ala bilməyəndə iş haqqında Divanın nümayəndələrinə məlumat verirdi.[111]

Kələntərin və naibin fəaliyyətinə yekun vuraraq demək olar ki, kələntər kəndxudaları təyin edir. Şəhərlərdə vergiləri əsnaflar ara-

---

* Divan – maliyyə idarəsi

sında bölüşdürür, onların arzu və istəklərini ifadə edir, rəiyyəti müdafiə edirdi.[112] Şardenin qeyd etdiyinə görə "kələntər" rütbəsi mer vəzifəsinə – "*prevot de ville*" – uyğun gəlirdi.[113] Kempferin izahları da bunu təsdiq edir.[114]

Naib kələntərin müavini və köməkçisi idi. Mənbələrdə bu barədə məlumat olmasa da, ehtimal ki, onların hər ikisi yerli əyanlar arasından seçilirdi.[115]

Bakı şəhərinin mühüm vəzifəli şəxslərindən biri də II Şah Abbasın Bibiheybət məzarı haqqında h.1066 (1656)-cı il tarixli fərmanında adı çəkilən darğa idi.[116] Darğa yerli hakimin təyin etdiyi şəhər məmuruna deyilirdi. Onun vəzifəsi şəhərdə və bazarda ictimai asayişi qorumaq idi.[117] XVII-XVIII əsrlərdə Bakıda darğalar Divan üçün vergi yığmaqla məşğul olurdular.[118] Bazarlarda ölçü və çəkiyə nəzarət etmək, rüsum və cərimələri yığmaq da onun vəzifələrinə daxil idi. "Təzkirət əl-müluk"a görə darğa polis rəisi vəzifəsini icra edən və müəyyən məhkəmə səlahiyyətlərinə malik məmur idi. Ancaq sonuncu məsələdə o, İsfahandakı divanbəyiyə tabe idi.[119] Darğa şəhər məhkəməsinə başçılıq edirdi və günahkara müxtəlif cəzalar – çubuqlatmaq, ayağa kündə vurmaq, cərimə kəsə bilərdi. Oğurluq edənlərin burnu, qulaqları, barmaqları və s. kəsilirdi. Ölüm cəzasına yalnız şah, divanbəyi və xanlardan başqa, bəzi sultanlar məhkum edə bilərdi.[120]

Şardenə və Təzkirət əl-müluk"a görə darğanın məvacibi 300-dən 500 tümənə qədər idi.[121] Ancaq o, rüşvətdən, müxtəlif cərimə və töycülərdən böyük gəlir əldə edirdi. Darğanın köməkçisi gecə vaxtı dəstəsilə bazarı və şəhərin məhəllələrini gəzərək asayişə nəzarət edən əxdas, yaxud mirşəb (gecə rəisi) idi. O, əhalinin əmlakının qorunmasına da cavabdeh idi. Əxdas oğurluq malı tapdıqda onun 2/6-si ona çatırdı. Oğurluq baş verdikdə və oğru tapılmadıqda isə oğurlanmış şeylərin dəyərini onların sahibinə ödəməli idi.[122] Bakı şəhərində vergiləri əmmal, yaxud amil adlanan Divan məmurları yığırdı.[123]

Şəhər əhalisinin mühüm bir qrupunu tacirlər təşkil edirdi. Şəhərlərdə tacir silkinin başçısı malik ət-tüccar (*prevot des marchands*) adlanırdı.[124] Onu tacirlərin özləri seçirdilər. Malik ət-tüccar ticarət, mübahisə və çəkişmələrinə dair qərarlar çıxarmalı, habelə toxucuların, boyaqçıların və i.a. işinə nəzarət etməli idi.[125]

Şəhərlərdə mühtəsib əl-məmalikin köməkçiləri – naiblər var idi. Onların vəzifəsi malların əsnaf ağsaqqalları tərəfindən təqdim olunan qiymət cədvəllərini təsdiq etmək, habelə bazarlara nəzarət idi.[126] Tacirlərdən biri mühtəsibin qoyduğu qiymətləri pozduqda onların boynuna "taxta külah" keçirirdilər.[127] Şarden bu cəza üsulunu belə təsvir edir: "onların boynuna bizim səyyar rüsvayçılıq dirəyinə oxşar qalın taxta keçirirlər. Onlar qabaqda zınqırovları olan bu taxtaları çiyinlərində gəzdirirlər. Onların başına hündür saman papaq qoyub öz məhəllələrində dolandırırlar və qara camaat onları fitə basır".[128]

Şəhərin tacirləri bir neçə dərəcəyə bölünürdü: topdansatış ticarəti ilə məşğul olan iri tacirlər – sövdəkarlar, xoca adlandırılan dəniz və karvan yolları vasitəsi ilə xarici ticarətlə məşğul olan tacirlər və i.a. Bakıdakı tacirlər, başlıca olaraq, Şamaxının xam ipəyinin alqı-satqısında vasitəçiliklə məşğul olurdular. Böyük kapital sahibi olub, sələmçi bankir Hindistan, İran, Orta Asiya və başqa Şərq ölkələri ilə, əsasən karvan ticarətində vasitəçilik rolu oynayan hind tacirləri xüsusi yer tuturdu. Kabildə, Qəndəharda, Bəndər-Abbasda, Şirazda, İsfahanda, Şamaxıda və Bakıda, habelə Buxarada və Bəlxdə ticarət koloniyaları olan hind tacirləri Hindistanla sıx iqtisadi əlaqə saxlayır, yerli və Hindistanda istehsal olunmuş mallarla ticarət edirdilər.[129] Hind tacirlərinin başlıca ticarət malları ədviyyat və Hindistanda istehsal olunan müxtəlif zərxara və pambıq parçalar, habelə Kəşmir şalı – tirmə, silah, qiymətli daşlar və mirvari idi. XVII-XVIII əsrlərdə Bakıda İrandan gəlib Rusiyaya və oradan da Qərbi Avropa ölkələrinə mal aparan yerli tacirlər də iri ipək ticarəti ilə məşğul olurdular.

İri tacirlər ticarətdən əlavə, dövlətdən götürdükləri icarədən də xeyli gəlir əldə edirdilər. Məsələn, yuxarıda göstərilən kitabədə Bakıda icarəyə verilən tövcihat vergisinin adı çəkilir.[130] Neft quyuları, duz mədənləri, zərbxanalar, bazarlar və i.a. da icarəyə verilirdi. İri tacirlər iqtisadi və siyasi cəhətdən feodallarla və şəhərin mənsəb sahibləri ilə bağlı idilər. Onların nümayəndələri çox vaxt yüksək inzibati vəzifələr tuturdu. Şəhər tacirlərinin bir zümrəsi də sənətkarların istehsal etdikləri məmulatı öz dükanlarında satan xırda ticarətçilər idi. "Təzkirət əl-müluk"un məlumatına görə, tacirlər şəhərin inzibati orqanlarına, başlıca olaraq, hakimə və kələntərə tabe idilər.

Şəhər əhalisinin mühüm bir qismini sənətkarlar təşkil edirdi. Mənbələrdə Bakıda sənətkarların vəziyyətinə dair heç bir məlumat verilmir. İçərişəhər məhəllələrinin dövrümüzədək gəlib çatmış qədim adlarından görünür ki, onlar müxtəlif məhəllələrdə (məsələn, "həkkakçılar" məhəlləsi) yaşamışlar.

Daha sonrakı mənbələrin materialları Bakının ayrı-ayrı məhəllələrində eyni peşədən olan sənətkarların – misgərlərin, dəmirçilərin, dabbaqların, boyaqçıların, zərgərlərin, çəkməçilərin (pinəçilərin) və i.a. məskunlaşdığını təsdiq edir.[131] İçərişəhərdəki nisbətən kiçik bir ərazidə çoxlu məscidin (20-dən çox) olması şəhərdə 20-dək məhəllənin mövcud olduğunu göstərir. Belə ki, orta əsr Azərbaycan şəhərlərində, adətən, hər məhəllənin öz məscidi olurdu. Tacirlər və sənətkarlar, ehtimal ki, bazarın və karvansaraların yerləşdiyi limanın yaxınlığında yaşayırdılar. Sənətkarlar öz məmulatlarını emalatxana-dükanlarında, bazarda, yaxud yaxınlıqdakı məhəllələrdə satırdılar.

Şəhər sənətkarlarını iki qismə bölmək olar: təkbaşına işləyən sənətkarlar və iri feodal emalatxana-karxanalarında çalışan sənətkarlar. Abşerondakı Xilə kəndində xalça karxanası var idi.

Xalçaçılıqla həm karxanada kişilər, həm də evlərdə qadınlar məşğul olurdu. Karxanada çalışan xalçaçılar ağır şəraitdə işləyirdilər. Xalçaçı sənətkar bir çox hallarda ailəsi ilə birlikdə gündəlik normanı yerinə yetirməyə çalışaraq, bütün gün ərzində dəzgahın arxasından qalxmırdı. Karxana sahibləri, hətta uşaq əməyindən də istifadə edərək toxucu sənətkarları amansızcasına istismar edirdilər.[132]

Böyük sənətkarlıq karxanaları Şirvanın iri şəhərlərinin demək olar ki, hamısında var idi. Onlarda bəylərbəyinin və Şirvanın iri feodallarının sarayları üçün alınan, habelə şaha və elçilərə bəxşiş edilən böyük miqdarda bahalı parça və paltar, xalça, silah, qab-qacaq istehsal olunurdu.[133] Bazarlar feodalların göstərilən şeylərə olan tələbatını ödəmədiyindən onlar həmin şeyləri bu məqsədlə yaradılmış karxanalara sifariş edirdilər. Karxana təsisatı XVII əsrdən xeyli əvvəl mövcud olmuşdur. Yaxın Şərq şəhərlərində hələ Xilafət dövründən mövcud olan iri dövlət emalatxanaları qul sənətkarlardan istifadə edən monqollar dövründə geniş vüsət almışdı.[134] Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar XVII əsrdə və XVIII əsrin

birinci yarısında karxanalar keçən əsrlərdəki karxanalardan bazar üçün əmtəə istehsal edən və feodallara işləyən nisbətən müstəqil ixtisaslı sənətkarların çalışdığı manufaktura istehsalı əlamətləri ilə fərqlənirdi.[135] Lakin feodal istehsal üsulu karxanaların əsl Avropa tipli manufaktura kimi inkişaf etməsini ləngidirdi. Bizim əlimizdə karxanaların daxili quruluşuna dair mənbələrin məlumatı yoxdur. Lakin Şardenin, de Tevonun, dü Manın və başqa səyyahların Səfəvilər dövləti şəhərlərində sənətkarlıq istehsalı haqqında məlumatları burada əməyin texniki bölgüsünün mövcud olduğunu ehtimal etməyə imkan verir. Karxanalar, ehtimal ki, ayrı-ayrı sənətkarlıq istehsalı sahələri üzrə yaradılırdı. Azərbaycan şəhərlərində xalça, parça, paltar, silah, keramika və digər məmulatlar istehsal olunan karxanalar var idi. Şəhərlərdə karxanalardan başqa, bazar üçün sənətkarlıq məmulatları hazırlanan sənətkar dükanları da mövcud idi.[136]

Şardenin qeyd etdiyinə görə, sənətkarlar ağıllı, dözümlü idilər və əgər əməkləri səxavətlə ödənilsəydi onlar çox əla işləyərdilər.[137] Sənətkarların əməyi onların sexlərdə birləşərək, bazar üçün sərbəst şəkildə mal istehsal edib satdıqları Avropada, müstəqil şəhər-kommunalarda olduğu kimi stimullaşdırılmırdı. Şəhərdə, yaxud onun ətrafında, ehtimal ki, "Bakı qumaşı" adı ilə tanınan pambıq parça toxunan toxuculuq karxanaları var idi. Karxanaların, bazarların, ticarət dükanlarının, karvansaraların, istehsal vasitələrinin və xammalın sahibi olan feodallardan asılı vəziyyətdə olan sənətkarlar cüzi haqq alırdılar. Bizim əlimizdə karxanalarda işləyən sənətkarların sayı haqqında məlumat yoxdur. Ehtimal ki, xalçaçılıq və toxuculuq emalatxanalarında onların sayı 5-6 nəfərdən çox olmurdu.

Təkbaşına işləyən sənətkarlar müxtəlif vergilər verir və feodal mükəlləfiyyətlərini yerinə yetirirdilər. Sənətkar emalatxanalarının bəziləri vəqfə məxsus idi. Həmin emalatxanalarda çalışan sənətkarlar mütəvəlliyə məhsul, yaxud pul rentası verirdilər. Bakı sənətkarları, ehtimal ki, Azərbaycanın başqa şəhərlərində olduğu kimi, sex təşkilatlarında (əsnaflıq, yaxud həmkarlıq) birləşmişdilər. Lakin bu təşkilatlar Qərbi Avropa şəhərlərində olduğu qədər əhəmiyyətə malik deyildi. Onlar başlıca olaraq, vergilərin tənzimlənməsi, sexlərin başçılarının və ustaların təsdiqi ilə məşğul olurdular.[138] Şarden sex üzvlərinin heç vaxt görüşmədiklərini və onların təşkilatlarının tamamilə sərbəst olduğunu iddia etsə də,[139] "Təzkirət əl-müluk"un məlu-

matları sexlərdə həmkarlar yığıncaqlarının keçirildiyini göstərir.[140] Sex kimisə ustad seçdikdə həmin adamın ixtisasını təsdiq edirdi. Ustadın seçilməsi haqqında sənəd tərtib olunduqdan sonra kələntərə göndərilir, kələntər isə bunu təsdiq edən şəhadətnamə verirdi.[141] Sex ustası bir və ya bir neçə şagirdlə birlikdə, eyni zamanda, məmulatın satıldığı dükan olan emalatxanada işləyirdi.[142] Şardenin şahidliyinə görə, usta şagirdləri razılıq əsasında ilk gündən əmək haqqı alırdılar. Usta ilə şagird arasında heç bir yazılı təəhhüd olmurdu. Usta şagirdi istədiyi vaxt qova bildiyi kimi şagird də hər vaxt maneəsiz olaraq ustanın yanından gedə bilərdi.[143] Sexlərə daxil olmayan müstəqil sənətkarlar da var idi.

Öz dükanlarında işləyib, özünün istehsal etdiyi məmulatları satan sənətkarlar xırda alverçilər zümrəsinə aid edilə bilər. İçərişəhərin təsviri olan XVIII əsrin sonuna aid qravürada iki nəfərin işlədiyi sənətkar emalatxanası görünür. Dükanın girəcəyində mis qablara bənzəyən sənətkarlıq məmulatı asılmışdır.[144]

Bizim sex nizamnamələri və istehsalın özünün tənzimlənməsi haqqında məlumatımız yoxdur. Yalnız sənətlər haqqında rəvayətlər və peşə sahiblərinə təlimatlar verilən bəzi risalələr qalmışdır. Həmin risalələrdən biri Bakı şəhərinə aiddir[145] ki, bu da bu şəhərdə sex təşkilatlarının mövcud olduğunu göstərir. Sexlər şəhərin inzibati orqanları ilə sənətkarlar arasında vasitəçi olub, əsasən, inzibati-vergi funksiyalarını yerinə yetirirdi. Özünüidarə sexlərin daxilində mövcud idi, əslində isə istər sexlər, istərsə də əsnaf üzvləri kələntərdən, şəhərlərin feodal hakimlərindən, tacirlərdən, rastabazar sahiblərindən asılı idilər. Epiqrafik məlumatlara görə, sənətkarlar arasında adları və nisbələri abidədə əksini tapan memarlar və bahalı silahları və qabları naxışlarla bəzəyən zərgərlər imtiyazlı mövqeyə malik idilər. Sənətkarlardan, müxtəlif peşə sahibləri və alverçilərdən başqa, Bakıda ətraf kəndləri tərk edərək cüzi haqla günəmuzd işlərlə məşğul olan kəndlilər, qayıqçılar, qayıqqayıranlar, yükləri limana daşıyan hamballar və i.a. da yaşayırdı. Şəhərlərdə həmçinin dərvişlər, şəhər əhalisinin ən yoxsul təbəqələri – "əcamir və övbaş" (qara camaat, güruh) da yaşayırdı. Bunlardan əlavə, mənbələrdə cavan, avam camaat, kütlə, araqarışdıran, veyil mənalarını verən rind (cəm halda rünud), fitayan və cavanmərd istilahlarına da rast gəlinir.[146] Bu istilahlar Yaxın Şərq şəhərlərindəki

sosial hərəkatlarla, Azərbaycanda, Beyləqanda, Şamaxıda və Cənubi Qafqazın digər ölkələrində şəhər əhalisinin haqqında çox az məlumatımız olan üsyanları ilə sıx bağlıdır. Mənbələrdə şəhər əhalisinin bu zümrəsinin vəziyyəti haqqında demək olar ki, heç bir məlumat verilmir.

V Fəsil

BAKI – BAKI XANLIĞININ PAYTAXTI KİMİ (XVIII ƏSRİN İKİNCİ YARISI-XIX ƏSRİN ƏVVƏLİ)

1. SİYASİ TARİX

Nadir şah 1747-ci ildə öldürüldükdən sonra onun qohumları arasında şahlıq hakimyyəti uğrunda gedən çəkişmələr, xalq iğtişaşlarına səbəb olan fırıldaqçıların meydana çıxması, əfqanların və özbəklərin şahın qatili olan əfşarların üzərinə hücumu, qətl-qarətlər, hakimiyyətsizlik və hərc-mərclik, ölkənin iqtisadi tənəzzülü Nadir şahın böyük imperiyasının bir sıra feodal dövlətlərinə parçalanmasını şərtləndirdi. Bu vaxt Azərbaycanda bir sıra müstəqil xanlıqlar yarandı. Onların ən mühümlərindən biri paytaxtı Bakı olan Bakı xanlığı idi.

Dərgahqulu xanın oğlu Mirzə Məhəmməd xan (1747-1768-ci illər) qoşuna arxalanaraq və Nadir şahın yaxın əmirlərindən sayılmasından istifadə edərək hakimiyyəti əlinə alıb şahın təyin etdiyi Bakı hakimini qovdu.[1] Bakı şəhərinin sultanı Səlim xan təyin olundu; Abşeron kəndlərini bəy silkinə mənsub bir neçə yüzbaşı[2] ilə birlikdə naib idarə edirdi. Bu vaxt Bakı qarnizonu 200 nəfərdən ibarət idi. Bakı limanında Rusiyanın 6 gəmisi var idi. Onlardan iki leytenantın – Qrablinov və Paquzenin başçılıq etdiyi üçü hərbi gəmi, üçü isə ticarət gəmisi idi.[3] Bakının yaxınlığındakı (1 sentyabr 1747-ci il) buxtada ingilis kapitanı Con Eltonun nəzarəti altında qayırılmış 18 toplu şah freqatı dayanmışdı.[4] Bu illərdə Bakı qalasında şəhəri hücumdan müdafiə etmək üçün top və digər iri çaplı silah yox idi. Buna görə də, Bakı xanı knyaz Qalitsının İrana elçiliyini müşayiət edən və həmin vaxt Bakıya gəlmiş rus zabitlərindən ehtiyat edərək şəhər darvazalarını bağlamağı və onları şəhərə buraxmamağı əmr etdi. O, burada yaşayan rus tacirlərinə pis münasibət bəsləyirdi.[5]

İranda feodal çəkişmələri və xalq iğtişaşları ilə əlaqədar vəziyyət ağır olaraq qalırdı. Ehtimal ki, xalq hərəkatları xanlıqlarda da baş verirdi. Belə ki, Lerxin sözlərinə görə 1748-ci ilin sonlarında Bakı xanı Dərbənd və Şamaxı xanları ilə birlikdə qiyamçılarla mübarizə apararaq, onları öz vilayətlərindən sıxışdırıb çıxarmışdılar.[6]

Mirzə Məhəmməd xan 20 illik hakimiyyəti ərzində ölkənin dərin böhran içərisində olan iqtisadiyyatını dirçəltməklə məşğul olmuş, ticarətin inkişafına səy göstərmişdir. O, admiral olmaqla, həm nəqliyyat, həm də hərbi gəmiqayırma işlərinə başçılıq edirdi.[7]

Mirzə Məhəmməd xan 1768-ci ildə öldükdən sonra onun oğlu hələ atasının sağlığında xanlığı idarə edən Məlik Məhəmməd xan[8] Bakı xanı oldu. Məlik Məhəmməd xan qubalı Fətəli xanın bacısı Xədicə Bikə ilə evlənmişdi. Qardaşının təkidi ilə Məlik Məhəmməd xana ərə gedən Xədicə Bikə onun üzərində böyük nüfuza malik idi. O, ağıllı, ötkəm və amiranə xarakterli qadın idi. Xanlığı, əslində, Xədicə Bikə idarə edir, qardaşı Qubalı Fətəli xanın buyuruğu ilə siyasət yeridirdi. Bu vaxtlar bir neçə xanlığı tabe edib xeyli güclənən Fətəli xan həmin izdivacla Bakı xanlığını da öz hakimiyyəti altına saldı. Bakı xanı neftdən və duzdan böyük gəlir (ildə 30-40 min manat) götürürdü. O, Fətəli xana əvvəllər pulla, məhsulla bac ödəyir və sərhədləri ləzgilərin basqınlarından və qonşu xanların müdaxiləsindən qorumaq üçün döyüşçülər verirdi. Məlik Məhəməməd xan Xədicə Bikə ilə evləndikdən sonra bütün bu vergilərdən azad edildi. O, yalnız ərzaqla təmin olunmuş qoşun göndərməli və lazım gəldikdə Fətəli xana kömək göstərməli idi.[9] Fətəli xanla Məlik Məhəmməd xan arasında bağlanmış sazişə əsasən sonuncu özünün Fətəli xanın vassalı olmasını qəbul edirdi.[10] Bu sazişin bağlanmasına səbəb qonşu feodal hakimlərinin Bakı xanlığına tez-tez basqınlar etməsi idi. 1765-ci ildə Fətəli xan Dərbəndi ələ keçirdi, Dərbənd xanı Məhəmmədhüseyn xanı tutaraq gözlərini çıxartdı və beş yaşlı oğlu Əli bəylə birlikdə əvvəlcə Qubaya, sonra isə Bakıya göndərdi. Məhəmmədhüseyn xan ölənəcən (1768-ci il), Əli bəy isə 1796-cı ilə qədər Bakı xanının yanında qaldı.[11]

1770-ci ildə Rusiya EA-nın üzvü Samuil Qotlib Qmelin İrana gedərkən yolüstü Bakıya gəldi. O, imperatriçə II Yekaterinanın tapşırığı ilə Xəzəryanı vilayətləri və İranın təbii sərvətlərini tədqiq etməyə gəlmişdi. Bundan əlavə, Qmelin Azərbaycan və İranın Xəzəryanı bölgələrini işğal etmək planını həyata keçirmək məqsədilə

həmin vilayətin iqtisadi və siyasi vəziyyətini öyrənmək kimi gizli tapşırıq da almışdı. Lakin Fətəli xan kimi Bakı xanı Məlik Məhəmməd xan da Qmelinin səyahətinin əsl məqsədlərini başa düşmüşdü və buna görə də onu qəbul etməklə bərabər, həddindən çox şey öyrənə bilməməsi üçün güdürdü. Avqustun 1-də Məlik Məhəmməd xan Qmelini qəbul etdi. Onda xan artıq Qmelinin Abşeronun neft quyularına baxmasından xəbərdar edilmişdi. Xan bundan çox narazı qalaraq ondan soruşmuşdu: "Rusiyada əcnəbilərin belə şeylərə baxmasına icazə verərlərmi?..[12] "Xan Qmelini pis qəbul etdi və onu casus sayaraq üzərində nəzarət qoydu. Məlik Məhəmməd xan Qmelinin təqdim etdiyi hədiyyələrdən də narazı qalmışdı. O demişdi: "Elə şeylər hədiyyə edilmişdi ki, onları geri qaytarmağa yalnız nəzakət qanunları mane oldu".[13]

Qmelin Məlik Məhəmməd xanın yaşadığı evi təsvir edir: "Xanın indi yaşadığı ürəkaçan bağı olan ev dənizin lap yaxınlığında, başqa binalardan aralıda durur. Ancaq indiki xan bu yaxınlarda şəhərdən kənarda, onun şimal-qərb tərəfindəki təpənin ətəyində, dənizin yaxınlığında, Şərq-Qərb üslubunda daha yaraşıqlı başqa bir ev tikdirmişdir. Mən orada olarkən iki arvadı ilə həmin evdə yaşayırdı".[14]

Qmelinin təsvirindən görünür ki, Bakı şəhəri o vaxtlar yaxşı möhkəmləndirilmişdi. Xəndək şəhərin şimal-qərb tərəfində, quru təpəcikdə olub dənizlə birləşmirdi. Burada qırxdan çox mortira və top yerləşdirilmişdi.[15]

Qmelinin məlumatına görə, "Məlik Məhəmməd öz rəiyyəti arasında böyük rəğbət sahibi deyil. Onlar şikayətlənirlər ki, xan onların üzərinə həmişə elə böyük məbləğdə vergi qoyur ki, onu, demək olar ki, heç vaxt ödəmək mümkün deyil. Onun haqqında yaxşı fikirdə olanlar, yaxud həqiqəti deməkdən qorxanlar belə xanı son dərəcə dövlətli təsvir edir, bununla da, onun hərisliyi ilə bağlı şikayətləri təsdiqləyirlər".[16] Rusiya hökumətinin Gürcüstandakı müvəkkili, Azərbaycan şəhərlərinin 80-ci illərdəki vəziyyətini təsvir edən S.D.Burnaşovun məlumatına görə Dərbənd xanından asılı olan Bakı xanı Məlik Məhəmmədin qoşunu 500 nəfərdən çox deyildi.[17] Fətəli xanın sədaqətli vassalı olan Bakı xanı Quba xanının apardığı müharibələrdə öz qoşunu ilə birlikdə iştirak edirdi. Ayrı-ayrı xanlar arasında araçəkişmələri qurtarmaq bilmirdi. Bakı xanı da bu mübarizəyə qoşularaq, tabe və qohum olduğu Fətəli xanın tərəfində vuruşurdu. Məlik Məhəmməd xan h.1188 (1774)-ci ildə Fətəli xanın

Şamaxı xanı Ağası xanla və avar xanı Novsal xanla Şirvanda, Şamaxı yaxınlığında baş verən döyüşlərində iştirak etmişdi.[18] Bu zaman Fətəli xana qarşı yürüşdən qayıdan Usmi Əmir Həmzə Bakının üstünə gedərək onu tutmağa cəhd göstərdi, lakin yaxşı möhkəmləndirilmiş qalanı almaq mümkün olmadığından onun ətrafını qarət edərək geri qayıtdı.[19]

H.1199 (1785)-cu ildə vaxtı ilə Şəki xanı Hüseyn xan tərəfindən gözləri çıxarılan Ağası xan Fətəli xana məğlub olaraq oğlanları Əhməd bəy və Məhəmməd bəylə birlikdə Bakıya sürgün olundu və h.1207 (1788)-ci ildə onların üçü də Fətəli xanın əmri ilə öldürüldü.[20]

Bakı xanı Məlik Məhəmməd xan h.1799-cu ildə qaynı Fətəli xanın razılığı ilə bir ildən bəri düşmənçilik edən Fətəli xanla Qarabağ xanı İbrahimxəlil xanı barışdırmaq məqsədilə Qarabağa getdi. Lakin onun gəlişinə şübhə ilə yanaşan İbrahimxəlil xan onu həbs edərək 2 il həbsdə saxladı və yalnız Fətəli xan və onun müttəfiqləri Qubada 8 minə yaxın qoşun toplayıb İbrahim xanın üstünə gedəndən sonra azad etdi. Məlik Məhəmməd xan 1781-ci ilin yanvarında Bakıya qayıtdı.[21]

İran hakimi vəkil Kərim xan Zənd 1799-cu ilin fevralında öldükdən sonra İranda araçəkişmələri başlandı. Bu vaxt Bakı xanının sıxışdırdığı rus tacirləri və konsulu Həştərxana getdilər.[22] Siyasi şəraitdən istifadə edən Rusiya hökuməti Həştərxanda İrana qarşı ekspedisiya hazırlamağa başladı. 1781-ci ilin iyununda Həştərxandan Astrabad körfəzinə qraf Voynoviçin komandanlığı ilə tərkibində 443 nəfər olan kiçik bir eskadra göndərildi. Onun məqsədi körfəzdəki adaların birində Hindistanla ticarət əlaqələri üçün faktoriya yaratmaq idi.[23] Bütün bunlar, habelə rusların hərbi hazırlıq aparması haqqında xəbərlər İranın və Türkiyənin hakim dairələrini çox narahat edirdi. Yaranmış siyasi vəziyyət öz sərvətlərini dağlarda gizlətmiş Bakı və Dərbənd xanlarını da təşvişə salırdı.[24] Bu vaxt Bakı xanlığının dövlət işləri ilə Fətəli xan məşğul olurdu. Əslində, xanlığı o idarə edirdi. Aşağıdakı fakt da bunu təsdiq edir. Qraf Voynoviçin eskadrasının gəmiləri geri qayıdarkən "rus ticarətlərini sıxışdırdığına görə" Bakı xanını qorxutmaq məqsədilə 1782-ci il iyun ayının axırlarında Bakı limanına daxil oldu.[25] Eskadra limana daxil olarkən Bakı şəhərinin qala divarlarında qoyulmuş 11 topdan salam atəşi ilə qarşılandı.[26]

Qraf Voynoviçin başçılıq etdiyi eskadranın Bakıya daxil olmasını bu zaman Qubada olan Fətəli xana xəbər verdilər. Fətəli xan avqustun 9-da Bakıya gəldi və qraf Voynoviçi təbrik etmək və qulluq göstərmək təklifi ilə onun yanına elçilər göndərdi. Qraf Voynoviç onun təbrikinə cavab verərək, Bakıda və Dərbənddə ticarət edən rus tacirləri ilə bağlı bəzi məsələləri onunla nizama salmaq istədiyini bildirdi.[27] Onlar avqustun 13-də danışıqlar aparmaq üçün görüşdülər.[28]

Qablitsin məlumatına görə, xanla Voynoviç arasında danışıqlar avqustun axırınadək davam etdi və Voynoviçin bütün tələblərinin qəbul olunması və xandan rus tacirləri üçün olduqca əlverişli iltizam alması ilə başa çatdı.[29]

1782-1783-cü illərdə hələ sağ olan Hacı Məlik Məhəmməd xan Bakı xanı idi, lakin, əslində Bakı xanlığını idarə edən Fətəli xanın ali hakimiyyətinə tabe idi.

A.Bakıxanov Məlik Məhəmməd xana belə bir müsbət xarakteristika verir: "Hicri 1196-cı (1781) ildə dindar, ədalətli bir əmir olan bakılı Hacı Məlik Məhəmməd xan Hacı Mirzə Məhəmməd xan oğlu 11 yaşlı oğlu II Mirzə Məhəmməd xanı dayısı Fətəli xanın himayəsi altında Bakı hakimi təyin etdi. Özü Ətabətə (Kərbəlaya və Nəcəfə) ziyarətə gedib, Nəcəfi-əşrəfdə vəfat etdi".[30]

Lakin Məlik Məhəmməd xanın Bakıxanov tərəfindən göstərilən ölüm tarixi (1781-ci il) dəqiq deyil; Məlik Məhəmməd xanın onun oğlunun göstərdiyi ölüm tarixi – 1784-cü il daha düzdür.[31] Azərbaycanın bir neçə xanlığının tabe olduğu qubalı Fətəli xan bütün Şirvana sahib idi. Fətəli xanın həddi-büluğa çatmamış bacısı oğlu Bakı xanı II Mirzə Məhəmməd xan onun qəyyumluğu altında idi.[32] Xanlığı, əslində, azyaşlı xanın anası Xədicə Bikə idarə edirdi.

1789-cu ildə Fətəli xan qəflətən xəstələndi. Artıq sağalmayacağını hiss edən Fətəli xan tələsik bacısı Xədicə Bikənin yanına, Bakıya getdi və h.1203-cü ildə (22 mart 1789-cu ildə) orada 53 yaşında öldü.[33] Bunu onun Şıx kəndində məscidin həyətində – məzarlıqdakı qəbrində qoyulmuş mərmər başdaşındakı kitabə təsdiq edir.[34] II Mirzə Məhəmməd xan dayısı qızı, Şeyxəli xanın bacısı Xanbikə xanımla evlənmişdi.

H.1205 (1791)-ci ildə Bakı xanlığını ələ keçirməkdə ona kömək göstərərsə, Əhməd xana xərac verməyi vəd edən II Mirzə Məhəmməd xanın əmisi, I Mirzə Məhəmməd xanın oğlu Məhəmmədqulu ağanın

fitnəkarlığı nəticəsində Fətəli xanın böyük oğlu, onun varisi Əhməd xanla Bakı xanı II Mirzə Məhəmməd xan arasında ədavət düşdü.[35]

Bakı xanlığında xanlar arasında çəkişmə, əsasən, böyük gəlir gətirən neft mədənləri üstündə baş verirdi.

Bakıxanovun məlumatına görə Əhməd xan Salyana yürüş bəhanəsi ilə qoşunun bir hissəsini Bakıya, heç nədən xəbəri olmayan II Mirzə Məhəmməd xanın üstünə göndərdi. Gizlincə Bakıya gələn Məhəmmədqulu ağa öz tərəfdarlarını toplayıb qalanın təslim olması üçün hazırlıq apardı. Nəticədə Məhəmmədqulu ağa bütün istehkamları ələ keçirdi, II Mirzə Məhəmməd xan isə həbs olunub Qubaya göndərildi. Lakin Bakıda möhkəmlənən Məhəmmədqulu xan qubalı Əhməd xana vəd verdiyi xəracı verməkdən boyun qaçırdı. Tutduğu düşünülməmiş işdən peşman olan Əhməd xan II Mirzə Məhəmməd xanı qoşunla birlikdə Bakı qalasını tutmağa göndərdi. Əhalinin xəyanət etməsindən qorxan Məhəmmədqulu xan onların I Mirzə Məhəmməd xanın Nadir şah vaxtında topladığı xəzinəni qarət etməsinə imkan verdi. Şəhər əhalisi tərəfindən dəf edilən bir neçə uğursuz həmlədən sonra II Mirzə Məhəmməd xan Qubaya qayıtmağa məcbur oldu.[36]

Zubkov bu hadisələri bir qədər başqa cür təsvir edir. Onun verdiyi məlumata görə Fətəli xanın bacısı oğlu olan Mirzə Məhəmməd xan Əhməd xandan Fətəli xan vaxtındakı asılılığından qurtarmaq istəyirdi. Buna görə də Əhməd xan onu devirib yerinə onun əmisi Məhəmmədqulu ağanı xan etmək istəmirdi. Əhməd xanın dost kimi Bakıya buraxılmış adamları hiylə ilə Bakı qalasının darvazalarını ələ keçirərək, yaxınlıqda gizlənmiş 800 adamı şəhərə keçirdilər və beləliklə, qalanı tutub, Məhəmmədqulu ağanı xan elan etdilər, Mirzə Məhəmməd xanı isə anası – Fətəli xanın bacısı ilə birlikdə Qubaya göndərdilər. Lakin tezliklə, 1791-ci ilin martında Əhməd xan özündən sonra azyaşlı oğlunu qoyub öldü. Quba xanlığını onun 13 yaşlı, "lakin fərasətli, cəsur və diribaş olan" kiçik qardaşı Şeyxəli xan idarə etməyə başladı.[37] Şeyxəli xan II Mirzə Məhəmməd xanın hüquqlarının bərpa olunmasına başladı. Bu məqsədlə o, qoşunun başında Bakı xanı ilə birlikdə Bakıya yollandı. Öz gücünə əmin olmayan Şeyxəli xan elə həmin ilin iyun ayında Georgiyevskdə olan general Qudoviçə məktub göndərdi. Məktubda o Məhəmmədqulu xanı öz təbəəsi adlandıraraq, Bakını geri almaqda kömək göstərməyi

xahiş edirdi. İşin təfsilatından xəbərsiz olan general Qudoviç Şeyxəli xana kömək göstərmək istəyərək "rus gəmilərindən bir neçə dəfə atəş açmaq" haqqında sərəncam verdi.[38] 14 gündən sonra general Qudoviç mühasirəyə alınmış Məhəmmədqulu xandan məktub aldı. O, məktubunda Bakının qanuni hakimi olduğunu yazır, onun rus təbəəliyinə qəbul edilməsini və Şeyxəli xanla mübarizədə ona kömək göstərilməsini xahiş edirdi.

General Qudoviç Xəzər donanmasının komandiri, general-mayor Şişkinə xanlardan hansının haqlı olduğunu yerindəcə aydınlaşdırmaq və "dövlət mənafeyinin tələb etdiyi kimi" hərəkət etmək barədə sərəncam verdi. Lakin sərəncam çox gec gəlib çatdı: freqat və botla Bakı limanında dayanan Şişkinin göstərişi ilə donanma kapitan-leytenantı Moller "Rusiyanın ticarətini himayə etmək və mülkləri dəniz sahilində yerləşən xanlara hədlərini bildirmək üçün" Bakı qalasını gəmilərdən top atəşinə tutdu.[39]

Bu tədbir Məhəmmədqulu xana elə güclü təsir göstərdi ki, o, 1791-ci ilin sentyabrında (yaxud oktyabrında) Şeyxəli xanla barışdı, Bakının gəlirinin yarısını Mirzə Məhəmməd xana və xan sikkəsi ilə 24 min manat Şeyxəli xana verməyi öhdəsinə götürdü.[40]

1792-ci ilin əvvəlində Məhəmmədqulu xan öldü. Onun ölümündən sonra xanlar arasında hakimiyyət uğrunda çəkişmə düşdü. Şeyxəli xanın təkidi ilə Mirzə Məhəmməd xan Bakı xanı elan olundu. Lakin bu uzun çəkmədi. Mirzə Məhəmməd xandan narazı olan Bakı əyanları onu Bakıdan qovaraq Məhəmmədqulu xanın qardaşı oğlu Hüseynqulu ağanı xan elan etdilər. Yeni xan Mirzə Məhəmməd xanı keçmiş xanın təyin etdiyi neft quyularından və duz mədənlərindən toplanan gəlirin yarısından məhrum etdi və Mirzə Məhəmməd xan ailəsi ilə Qubaya, Şeyxəli xanın yanına qayıtdı.[41]

A.Bakıxanov yazırdı ki, h.1206 (1792)-cı ildə "səxavətli, lakin bərk ürəkli bir əmir olan bakılı Məhəmmədqulu xan da vəfat etdi. Qardaşı oğlu Hüseynqulu ağa Hacı Əliqulu ağa oğlu, bir neçə bəyin – dayısı oğlu və damadı Qasım bəy Mənsurxan bəy oğlunun və sair tərəfdarlarının səyilə hökumət başına keçdi".[42]

Lakin feodal araçəkişmələri və xanlar arasında hakimiyyət davası qurtarmadı. II Mirzə Məhəmməd xan Quba qoşunu ilə Bakını yenidən mühasirəyə aldı və Hüseynqulu xanla müqavilə bağladı. Bu müqaviləyə görə bütün xanlıq və neft mədənləri onların arasında iki yerə bölünürdü.[43]

H.1209 (1795)-cu ildə Bakı xanı Hüseynqulu xan II Mirzə Məhəmməd xanın sadəlövhlüyündən istifadə edərək bir gecə qoşunla onun o zamankı iqamətgahı olan Balaxana qalasına hücum edib onu aldı, II Mirzə Məhəmməd xanı Qubaya çıxıb getməyə məcbur etdi.[44]

Bu zaman İranda vəkil Kərim xan Zəndin ölümündən sonra xanların şah tac-taxtına sahib olmaq uğrunda araçəkişmələri şəraitində bir neçə il ərzində İranın, demək olar ki, bütün əsas əyalətlərini və Azərbaycanın şimal xanlıqlarını tutmaq üçün müharibəyə başladı. Əvvəlcə o, xanların yanına elçilər göndərdi, tabe olmalarını tələb edərək, əks təqdirdə, müharibə ilə hədələdi.[45]

Ağa Məhəmməd xanın güclənməsini görən çar hökuməti 1792-ci ildə ikinci Rusiya-Türkiyə müharibəsi qurtarandan sonra Azərbaycan xanlıqlarının Rusiyaya tabe etdirilməsi üçün fəal siyasət yeritməyə başladı.[46] II Yekaterinanın general Qudoviçə verilmiş 8 may 1792-ci il və aprel 1793-cü il tarixli reskriptlərində Rusiyanın təbəəliyinə keçmək istəməyən xanlar barədə təhdid ifadə olunmuşdur.[47] II Yekaterina rus çarizminin duz, neft, xam Şirvan ipəyi, yun, mis, gümüş, faydalı qazıntılarla zəngin olan Azərbaycan barəsindəki ənənəvi siyasətini həyata keçirirdi. O, II Pyotr kimi Cənubi Qafqaz ölkələrindən keçən karvan ticarəti yollarına yiyələnmək və Astrabad vasitəsilə İran və Hindistanla birbaşa ticarət əlaqələri yaratmaq məqsədilə Azərbaycan xanlıqları, xüsusilə Bakını zəbt etməyə can atırdı.

Butkov bu illərdə, yəni, Hüseynqulu xanın hakimiyyəti dövründə baş vermiş bəzi hadisələri belə işıqlandırır. 1792-ci ilin sonlarında Hüseynqulu xan Rusiya hökuməti ilə onun Rusiya təbəəliyinə keçməsi məsələsinə dair danışıqlara başladı. Lakin Hüseynqulu xanın bu addımları Şeyxəli xanın narazılığına səbəb oldu. O, Hüseynqulu xanın xahişilə çariçanın yanına gedən məmurunu Dərbənddə tutub saxladı. Lakin elçi məlumatı general Qudoviçə başqa yolla göndərməyə macal tapmışdı.

1793-cü il aprelin 19-da Hüseynqulu xanın bütün vilayəti ilə birlikdə Rusiyanın təbəəliyinə qəbul olunması haqqında "ali fərman" verildi. Təkcə xanın sədaqət andı içməsi qalırdı. Lakin bu zaman bəzi çətinliklər ortaya çıxdı.[48]

1793-cü ilin iyul ayında dərbəndli Şeyxəli xan məmuru Mirzə Həsəni özünün Rusiya təbəəliyinə qəbul olunması barədə ərizə ilə

Georgiyevskə – general Qudoviçin yanına göndərdi. Ərizədə ona tabe olan torpaqlar arasında Bakının da adı çəkilirdi. Elçi xanın adından sədaqət andı içdi, 1793-cü il oktyabrın 9-da isə Qudoviç andı təsdiq etmək və imzalatmaq tələbi ilə Şeyxəli xanın yanına kapitan göndərdi. Lakin Şeyxəli xan bundan imtina etdi. Bu zaman Şeyxəli xan artıq Rusiya təbəəsi sayılırdı və onun elçisi saraya aparılaraq, burada ali fərmanın verilməsini gözləyirdi.[49] Beləliklə, Bakını öz mülkü sayan Şeyxəli xan 1794-cü ilin ortalarında şəhəri almaq üçün qoşunla hərəkət etdi. Qazıqumuqlu Xanbutay xanın Şəki xanı Məhəmmədhüseyn xana hücum etdiyini eşidən Şeyxəli xan bacısı ilə evlənməyə hazırlaşdığı bakılı Mirzə Məhəmməd xanı min nəfərlik dəstə ilə Bakının 14 verstliyində, Balaxana kəndinin neft quyularının yanında qoyub Şəki xanının köməyinə getdi.[50]

Bakının yaxınlığında olan Mirzə Məhəmməd xan şəhərə heç bir mal buraxmırdı və duzlu gölləri, neft quyularını tutaraq Hüseynqulu xanı gəlir mənbələrindən məhrum etdi. Bu, 1795-ci ilin əvvəlinədək, Hüseynqulu xanın öz yaxın qohumu Manaf bəyi Həştərxan yolu ilə general Qudoviçin yanına yollayana qədər davam etdi. Xan məktubunda Şeyxəli xanın hərəkətlərindən şikayətlənir, kömək istəyir və öz adından, xüsusilə bütün Bakı şəhəri əhalisi adından əbədi olaraq Rusiyanın təbəəliyinə keçmək istədiyini ifadə edirdi.[51] General Qudoviç Bakını talamamaq barədə Şeyxəli xana məktub yazdı. Bu şəhər Şeyxəli xanın adına düşdüyündən o, Rusiya dövlətinin tərkibinə daxildir, buna görə də Qudoviç ona məsləhət gördü ki, Bakı xanı ilə dinc yolla hesablaşsın.[52] Şeyxəli xan öz torpaqlarından kənarda ikən Hüseynqulu xan elə həmin 1795-ci ildə Bakıdan qoşunla hərəkət edib, Mirzə Məhəmməd xanı məğlubiyyətə uğratdı, onun özünü isə ailəsi və Şeyxəli xanın nişanlısı ilə Bakıya gətirdi. Mirzə Məhəmməd xanın yanında olan Dərbənd qoşunu pərən-pərən düşdü, onun ailəsindən isə təkcə Şeyxəli xanın yanına qaçan kiçik qardaşı Kəblə Hüseyn ağa xilas oldu.[53] Şirvanlı Mustafa xan Şeyxəli xanı Hüseynqulu xanla barışdırmağa çalışdı. 1795-ci ilin payızında sonradan evləndiyi nişanlısı Bəyim, habelə qayınanası, ailəsi ilə birlikdə qayını Bakıdan Şeyxəli xanın yanına qayıtdı. Şeyxəli xan Hüseynqulu xanla Bakıdan götürülən gəlirin bir hissəsini Bakı xanına, bir hissəsini Şeyxəli xana, bir hissəsini isə Mirzə Məhəmməd xana çatmaqla üç hissəyə bölünməsi şərtilə sülh müqaviləsi bağladı.[54]

1795-ci ilin dekabrında Hüseynqulu xanın rus təbəəliyinə qəbul olunması haqqında ali fərman verildi və onun yuxarıda adı çəkilən elçisi saraya yola salındı. Onun rus təbəəliyinə qəbul olunması haqqında bəndlərdə deyilirdi:

"1-ci – Xanın və onun varislərinin xanlıq rütbəsi imperator Əlahəzrətləri tərəfindən təsdiq olunmalıdır. 2-ci – O, Rusiyanın təbəəsi olmayan qonşu məliklərlə Qafqaz xəttinin baş komandanı ilə əvvəlcədən razılaşdırılmadan heç bir mühüm məsələdə əlaqəyə girməməlidir. 3-cü – Rusiya tacirlərinə yüksək imtiyazlar verilməlidir. 4-cü – Onun sahillərinə çıxarılmış gəmilər yükləri ilə birlikdə toxunulmadan və vaxtında sahiblərinə qaytarılsın. 5-ci – Rusiya gəmilərindən biri daim Bakı limanında dayansın. 6-cı – Rus tacirlərinin farslarla və başqaları ilə olan işlərinə təkcə Bakı hakimləri tərəfindən deyil, konsulun iştirakı ilə başlansın. 7-ci – Şeyxəli xanın Bakıya iddiası ilə əlaqədar xanın ona ödəməyə razılıq verdiyi qədər xərac məqbul sayılsın, çünki bu, Rusiya təbəəliyinə zidd deyil".[55]

Lakin 1795-ci ilin axırlarında baş verən hadisələrlə əlaqədar təbəəliyə qəbulun həyata keçirilməsi dayandırıldı. Bakı xanının rus təbəəliyini qəbul etmək istəyi onunla izah edilir ki, o, yaranmış mürəkkəb siyasi şəraiti – İran, Türkiyə, Rusiya və Dərbənd xanı tərəfindən daim təhlükə olduğunu nəzərə alaraq, öz torpaqlarının etibarlı şəkildə müdafiə olunmasına, onu dağıntı və qarətdən xilas etməyə çalışırdı. Lakin Şeyxəli xan kimi Hüseynqulu xan da daxili müstəqillikdən və hakimiyyətdən məhrum olacaqlarından qorxaraq Rusiya təbəəliyinə keçməkdə tərəddüd edirdilər.[56] Onların Rusiya və İranla siyasətlərindəki səbatsızlıq və ikilik də bundan irəli gəlirdi. Bu və ya digər dövlətin gücləndiyini gördükdə onlar da gah bu, gah da başqa tərəfə meyl edirdilər.

1795-ci ilin sonlarında Ağa Məhəmməd xan Qacar Cənubi Qafqaza yürüşə başladı. Ağa Məhəmməd xanın güclənməsi və onun Azərbaycan xanlıqlarını öz hakimiyyətinə tabe etdirmək niyyəti Rusiya hökumətini narahat edirdi və o, xana açıqcasına başa saldı ki, Rusiyanın himayəsi altında olan bu vilayətlərə qəsd edilməsi Rusiya əleyhinə yönəldilmiş hərəkət sayılacaqdır.[57]

Dərbəndli Şeyxəli xan və bakılı Hüseynqulu xan Rusiya təbəəliyini qəbul etməyə çalışsalar da, onların bu məsələ ilə əlaqədar elçiləri Peterburqda ikən Ağa Məhəmməd xanın elçilərini hörmətlə qəbul edib, onları hədiyyələrlə yola saldılar. Ağa Məhəmməd xanın

bütün Şirvana naib təyin etdiyi Şeyxəli xan ona tərəf meyl etməyə və ruslardan uzaqlaşmağa başladı.[58]

Dərbənd, Bakı və Şəki xanları Tiflisin 1795-ci il sentyabrın 12-də Ağa Məhəmməd xanın qoşunları tərəfindən alınıb dağıdılmasını bayram etdilər və elçiləri vasitəsilə Ağa Məhəmməd xana təbrik göndərərək ona itaətlərini yazılı izhar etdilər.[59]

Bununla belə, Şamaxını tutan Ağa Məhəmməd xan Bakıdan böyük məbləğdə pul və mal şəklində təzminat aldı.[60]

General Qudoviç şah qoşunları Şirvanı zəbt edəcəkləri təqdirdə Dərbəndi tutmaq əmri almışdı. Üç piyada batalyonu general-mayor Savelyevin komandası altında Dərbəndə yaxınlaşdı. Lakin Şeyxəli xan rus dəstəsini qəbul etmədi. Bakı xanı Şeyxəli xana kömək olaraq topçularla birlikdə iki top göndərmişdi.[61] Rusların azsaylı dəstəsi Dərbəndi tərk edib geri çəkildi.

Ağa Məhəmməd xanın ordusu tezliklə Şirvanı tərk edərək Muğana, oradan da Azərbaycanın cənubuna yollandı.

1796-cı ilin yazında II Yekaterinanın əmri ilə qraf Valerian Zubovun komandanlığı ilə çar ordusu Cənubi Qafqaza və Azərbaycana böyük yürüşə başladı. Bu yürüşün rəsmi motivi Ağa Məhəmməd xanı Tiflisi və Gürcüstanı dağıtdığına görə cəzalandırmaq istəyi idi. Əslində isə, çar hökuməti Azərbaycanın Ağa Məhəmməd xanın əl uzatdığı şimalında öz hakimiyyətini möhkəmləndirməyə cəhd göstərirdi. II Yekaterina vaxtı ilə I Pyotrun başa çatdıra bilmədiyi Cənubi Qafqazı işğal etmək planını həyata keçirməyə can atırdı.

Aprelin 15-də qraf Zubov böyük qoşunla (təqribən 12000 adam) Dərbəndə yaxınlaşdı. Mayın 10-da Dərbənd hücumla alındı. Şeyxəli xanı itaətkarlıq əlaməti olaraq boynunda qılınc məiyyəti ilə birlikdə qrafın hüzuruna gətirdilər.[62]

Mayın 24-də çar qoşunları Bakıya doğru hərəkət etdilər və 20 verst irəliləyib Rubas çayının qırağında düşərgə saldılar. Bakı xanının elçiləri burada baş komandanın yanına gəlib xanın və onun bütün təbəələrinin hökmdarın iradəsinə tabe olduqlarını bildirdilər.[63]

İyunun 8-də baş komandanın məktublarını çatdırmaq, başlıcası isə oraya gedən yolları öyrənmək və təsvir etmək məqsədilə baş qərargahın iki zabiti Bakı və Şamaxı xanlarının yanına göndərildi. Qoşunlar Gilgilçayın sağ sahilində, dənizdən 10 verst aralı düşərgə saldı. Hüseynqulu xan iyunun 13-də buraya, baş komandanın yanına

gələrək Bakının açarını təqdim etdi. Elə həmin gün general-mayor Raxmanov 3 piyada batalyonu, 2 süvari eskadronu və 3 səhra artilleriyası topu ilə Bakını tutmağa göndərildi. Raxmanov Bakını işğal etdi. Artıq dənizdə üzən Xəzər donanması Bakı buxtasına daxil oldu. Şəhərdə dənizlə buraya gətirilən bütün hərbi təchizat üçün baş depolar yaradıldı.[64]

Rus qoşunlarının qarnizonu Bakıda yerləşdirildi. 1797-ci ilin əvvəlində knyaz Sisianov şəhərin komendantı təyin olundu.[65]

Mənbələrdə Bakı şəhərinin 1796-cı ildə təslim edilməsinin təfsilatı xəbər verilmir. XVIII əsrin sonu fransız səyyahı Olivyenin məlumatına görə Bakı, şəhəri tutmaq üçün altı min nəfərlik korpus göndərmiş Zubovun ilk tələbi ilə təslim olmuşdur.

Ruslar şəhəri nə onun hakimini, nə də əhalini incitmədən zəbt etdilər.[66]

Şəhər rus qarnizonu tərəfindən işğal olunduqdan sonra özünü heç bir təhlükə gözləmədiyini görən Bakı xanı çar hakimiyyət orqanlarına xoş münasibət göstərməyə başladı.[67] Bakı xanının Rusiyaya münasibəti öz hakimiyyətini qoruyub saxlamağa çalışan hakimin siyasi mənafeyi ilə müəyyən olunurdu. Bakını Xəzər dənizində ən yaxşı liman və ticarət mərkəzi hesab edən çar hökuməti Bakı limanının sahmana salınması və möhkəmləndirilməsi üçün iş aparılmasına dair bir sıra tədbirlər gördü; bunun üçün vəsait buraxıldı və Peterburqdan ustalar göndərildi. 1797-ci ilin yazında işlər başlanılmalı idi.[68] Lakin imperatriçə II Yekaterina 1796-cı il noyabrın 6-da öldüyündən onlar həyata keçirilmədi. Onun oğlu I Pavel taxta çıxan kimi rus qoşunlarının İrana və Cənubi Qafqaza yürüşünü dayandırdı. Cənubi Qafqazda olan Zubova qoşunları ilə birlikdə Rusiyaya qayıtmağı əmr etdi. Qoşunların Azərbaycandan çıxarılması dekabrda başlandı, sonuncu hissələr isə Bakını 1797-ci ilin martında tərk etdi.[69]

Qraf Zubov 1797-ci ildə Ağa Məhəmməd xanın bu yürüşdə iştirak etmiş qardaşı Murtuzaqulu xanla birlikdə dəniz yolu ilə Həştərxana gəldi. Qardaşının təqib etdiyi Murtuzaqulu xan ruslara pənah apardı.[70]

Bu arada Ağa Məhəmməd xan 1796-cı ildə Tehrana gəlib şah titulunu qəbul etdi.[71] Rus qoşunlarının Azərbaycandan çıxmasından xəbər tutan Ağa Məhəmməd şah 1797-ci ilin yazında Qarabağa və Gürcüstana ikinci səfərə hazırlaşmağa başladı. Bu vaxt Azərbaycanın

digər şəhər və kəndləri kimi, Abşeron və Bakı da qıtlıq, aclıq və taun xəstəliyindən viran qalmışdı.[72]

Şahın böyük ordusunun yaxınlaşmasından xəbər tutan Qarabağ xanı İbrahim xan öz qüvvəsinə ümid bəsləməyərək Car nahiyəsinə qaçdı və Şuşa qalası maneəsiz və zəhmətsiz şahın əlinə keçdi.[73] Əliqulu xan Sərdar Şirvanı tutdu. Şah qoşunları Şamaxını talan edib dağıtdı.[74] Ağa Məhəmməd şah Bakı xanı Hüseynqulu xanı iki dəfə Şuşaya çağırdı, lakin sonuncu bundan boyun qaçırdı. Onda şah Şuşadan onun ardınca çapar göndərdi. O, xanı zorla hökmdarın hüzuruna gətirdi. Ağa Məhəmməd şah Bakı şəhərinin müqavimətsiz rus qoşunlarına təslim olunmasına görə töhmət və danlaqdan sonra Hüseynqulu xanı edamla hədələyərək, həbs olunmasını əmr etdi, Bakının Şeyxəli xanın tabeliyinə verilməsi barədə fərman hazırlanmasını tapşırdı. Hüseynqulu xanın ailəsini və qohumlarını tutub[75] Tehrana göndərmək, digər Bakı əhalisindən isə təzminat almaq əmr olundu.

Ertəsi gün mayın 12-də səhər açılanda həyatları təhlükədə olan iki nəfər saray xidmətçisi şah yuxuda ikən onu xəncərlə qətlə yetirdilər.[76] Şahın ölüm xəbəri yayılan kimi onun əyanları cavahiratı ələ keçirib qaçdılar. Şuşa camaatı və Qarabağın qeyri-nizami döyüşçü dəstələri Şuşanı pərakəndə halda tərk edərək Tehrana geri çəkilən şah qoşunlarını addım-addım təqib edirdi.[77]

Bu hadisələr sayəsində Bakı və Gəncə xanları həbsdən azad edilərək öz mülklərinə qayıtdılar.[78]

O zaman Qubada olan II Mirzə Məhəmməd xan şahın ölüm xəbərini alınca, xanlığı ələ keçirmək məqsədilə Bakıya doğru hərəkət etdi, lakin Hüseynqulu xan onu qabaqladı və Bakı qalasına çəkilərək öz haqqını güclə qoruyub saxlamağa hazırlaşdı. Nəhayət, iki rəqib arasında uzun danışıqlardan sonra xanlıq bütün gəlirləri ilə birlikdə yenidən iki yerə bölündü: "Hüseynqulu xan şəhərdə, II Mirzə Məhəmməd xan isə Məşqətə[79] kəndində bir qala tikdirib hakimiyyətə başladılar".[80]

1800-cü ildə Şeyxəli xan Sultan bəy Bayatın güclənməsindən qorxaraq bacısı, bakılı II Mirzə Məhəmməd xanın arvadı Xanbikə xanımı Dərbənd hakimi, Sultan bəy Bayatı isə onun kargüzarı (müavini) təyin etdi. Belə ki, dərbəndlilər sonuncunun təhriki ilə üsyan qaldırıb naibləri Məhəmmədhüseyn bəyi qovmuşdular.[81]

Bakı xanı Şeyxəli xana qonşu feodallarla mübarizədə dəfələrlə qoşunla və şəxsən iştirak etməklə yardım göstərmişdi. Şeyxəli xanın

arvadı, bakılı II Mirzə Məhəmməd xanın bacısı Zeybünnisə Bəyim özünün müdaxiləsi və diplomatik bacarığı ilə ərinə kömək göstərərək onun qoşunlarını II Surxay xan Qazıqumuqlu ilə ara müharibəsində məğlubiyyətdən qurtarmışdı.

1803-cü ildə Dərbənddə olan Zeybünnisə Bəyim ərinin Dərbənd üzərində hakimiyyətinin bərpasına nail oldu.[82]

Maraqlıdır ki, orta əsrlər Azərbaycan tarixində feodal və xan nəslindən olan azərbaycanlı – türk qadınları dəfələrlə ölkənin idarə olunmasında iştirak etmiş, öz ərlərinin siyasətinə qarışmış, hətta hərbi əməliyyatlar zamanı ölkənin müdafiəsinə başçılıq etmişlər.

Ağa Məhəmməd şah öldürüldükdən sonra onun yerini şahlıq uğrunda inadla, mübarizə nəticəsində Fətəli şah adı ilə taxtda möhkəmlənən qardaşı oğlu Baba xan tutdu. Təzə şahın hücumundan qorxuya düşən Bakı xanı başqa xanlarla birlikdə təbrik üçün onun yanına hədiyyələrlə elçilər göndərərək, himayəsini əsirgəməməyi xahiş etdi. İranın daxili vilayətlərində öz hakimiyyətinin bərqərar olması ilə məşğul olan Fətəli şah hələlik Azərbaycan xanlıqlarının müstəqilliyinə toxunmurdu.[83]

1798-ci il aprelin 3-də Fətəli şahın səfiri Georgiyevskdən Peterburqa, I Pavelin yanına yola düşdü. Lakin o, şahın deyil, sərdar Baba xanın elçisi kimi qəbul olundu. Onun İranla ticarət barədə bütün təklifləri qəbul edildi. Həmin ilin avqust ayında elçi buraxıldı, lakin ona müvafiq şəkildə təlqin olundu ki, Baba xan Gürcüstan barəsində hər cür iddiasını yaddan çıxarsın. Torpaqları Xəzər dənizi ilə gürcü vilayətləri arasında yerləşən Dərbənd, Bakı xanları və digər məliklər də eyni xəbərdarlıq aldılar.[84] Ehtimal ki, çar hökuməti qoşunların çıxarılmasına baxmayaraq, həmin vilayətlərə iddialarından əl çəkməmişdi və şahın hərəkətlərini diqqətlə izləyirdi.

General-leytenant Knorrinq imperatora 11 aprel 1800-cü il tarixli raportunda Baba xanın Bakını tutmaq niyyətində olduğunu bildirirdi. Belə ki, onun fikrincə, həmin şəhər Baba xana gömrük rüsumları, eləcə də, neft və duzdan böyük gəlir gətirirdi. Baba xan Bakı xanına hücumu üçün fars tacirlərinin Hüseynqulu xanın onların Maştağa sahillərində batmış rus gəmisindəki mallarını zəbt etməsi barədə ona gəlib çatmış şikayətlərini bəhanə gətirir. O, Hüseynqulu xanın öz təbəələri olan qubalıların mallarını zəbt etməsi barədə Şeyxəli xanın şikayətini də buna əlavə edir.[85]

1800-cü il yanvarın 22-də Rusiyanın İrandakı konsulu Skibinevski Bakıya gələrək, Rusiya imperatorunun böyük məbləğdə pulları əllərindən tutulub alınmış rus tacirlərinin razı salınmasını Hüseynqulu xandan tələb etmək haqqında əmrinin icrasına başladı.

Lakin xan, Skibinevskinin dilə tutmasına baxmayaraq, incidilmiş tacirləri razı salmaqdan imtina etdikdə donanma kapitanı Moçakov konsulun tələbi ilə həmin il fevralın 6-da "Kizlyar" gəmisindən Bakı şəhərini top atəşinə tutdu. Hüseynqulu xan günahını boynuna alıb tacirləri razı saldı, habelə şəxsən özünün və bir neçə təbəəsinin veksel üzrə başqa tacirlərə olan borclarını da ödədi. Bundan əlavə, Hüseynqulu xan Skibinevskinin tələbi ilə rus tacirlərinin gələcəkdə də sıxışdırılmasının qarşısını almaq məqsədilə konsulun diktə etdiyi qaydaları da qəbul etdi və yazılı iltizam verdi.[86]

1800-cü il aprelin əvvəlində Hüseynqulu xanın məmuru Mirzə Hadi bəy xanın məktubu ilə Qızlara, Qafqaz cəbhəsinin baş komandanı general-leytenant Knorrinqin yanına gəldi. Məktubda xanın rus tacirlərinin bütün tələblərinə əməl etdiyi və məmur Mirzə Hadi bəyin onun adından rus tacirləri ilə rəftarına görə hökmdardan üzrxahlıq və onu həmişəlik olaraq ali himayəsinə götürməyi xahiş etmək üçün göndərdiyi xəbər verilirdi.[87] Xanın xahişinə cavab almaq üçün Mirzə Hadi bəyə Həştərxanda qaldıqdan sonra Peterburqa yola düşmüş və burada, sarayda qəbul olunmuşdur. O, 1801-ci il avqustun 28-də vitse-kansler knyaz Kurakindən Hüseynqulu xanın adına – Bakı xanına həmin tarixli "ali fərman"a əlavə edilmiş cavab məktubu aldı.[88] Bu reskriptdə Pavelin ölümündən sonra 1801-ci il martın 1-də taxta çıxmış I Aleksandr xana qonşu xanlarla yola getməyi, sülh içrə yaşamağı və onlarla ittifaq bağlamağı əmr edirdi.[89]

İmperator Aleksandrı taxta çıxması münasibətilə təbrik etmək və digər məsələlər üçün bir sıra xanlıqların, o cümlədən dərbəndli Şeyxəli xanın və bakılı Hüseynqulu xanın elçiləri Peterburqa gəldi.[90]

I Aleksandrın Azərbaycan xanlıqları, o cümlədən Bakı xanlığı barəsində siyasi xətti onun 1801-ci il sentyabrın 12-də general-leytenant Knorrinqə verdiyi reskriptdə əksini tapmışdır. Orada deyilirdi: "Ətraf məliklər və xalqlarla əlaqə saxlayarkən Rusiya tərəfdarlarının sayının artmasına, xüsusilə üzərində Baba xanın hakimiyyətinin hələlik möhkəmlənmədiyi və ona görə də indiki şəraitdə öz təhlükəsizliyi üçün, əlbəttə, Rusiyaya daha çox meyl göstərəcək

İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və digər xanları öz tərəfinizə cəlb etməyə çalışın. Onlardan torpaqları Arazın sol sahilində yerləşən və Kür çayınadək uzananlarla, xüsusilə çayın mənsəbinə və Xəzər dənizində ən yaxşı limana sahib olan Bakı xanı ilə əlaqə vasitəsilə Həştərxandan Gürcüstandakı qoşunlarımıza Qafqaz dağları ilə deyil, dənizlə sursat daşınması yolları əldə edilməsinə çalışmaq lazımdır".[91]

Konsul Skibinevski xanların hərəkətlərini izləyir və xanlıqların əhalisinin Rusiyaya meyl göstərdiyini çar hökumətinə xəbər verirdi. Konsulun general-leytenant Knorrinqə 1802-ci il fevralın 26-da Bakıdan göndərdiyi raportda deyilirdi ki, xanların ara müharibələri nəticəsində müflisləşən və nə xanın, nə də kəndxudaların şəxsində fərli-başlı rəisləri olmayan qubalılar və dərbəndlilər Rusiyanın himayəsində olan Gürcüstanın taleyinə həsəd aparırlarsa, ticarət və əkinçilik sayəsində varlı olan bakılılar və şamaxılılar xan hakimiyyətindən razıdırlar və Rusiyanın tabeçiliyində olmaq istəmirlər. Ruhanilər onlara xristianlarda himayə axtarmağın günah olduğunu təlqin edir, kəndxudalar isə şayiə yayırdılar ki, rus qoşunları şəhəri tutarsa, onların arvadlarının "ismətinə toxunacaqdır", bundan əlavə, onlar Rusiya hakimiyyətinə nifrət aşılayırdılar. Bakılılar Şamaxı xanının güclənməsindən qorxsalar da, Bakı xanı Hüseynqulu xan və kəndxudalar onunla ittifaqı hər vəchlə qoruyub saxlamağa cəhd göstərirdilər.[92]

I Aleksandr knyaz Sisianovu Qafqaza baş komandan təyin etdi. O, 1803-cü ilin fevralında Gürcüstana gəldi.[93] Sisianovun Qafqaza təyin edilməsi ilə İrana qarşı müharibəyə hazırlıq başladı. Bu zaman Azərbaycan xanları arasında hakimiyyət uğrunda mübarizə davam edirdi. Bakı xanı Hüseynqulu xan Abşerondakı Maştağa kəndinə sığınmış II Mirzə Məhəmməd xanla vuruşmaya ara vermirdi.

1803-cü ildə Hüseynqulu xan şirvanlı Mustafa xanın köməyi ilə Maştağa qalasını ələ keçirdi. Qubaya çəkilən II Mirzə Məhəmməd xan öz keçmiş mülkünü geri qaytarmaq üçün vasitə axtarmağa başladı.[94] Çar hökuməti I Aleksandrın taxta çıxması ilə Azərbaycanın bir sıra şəhərlərini, ilk növbədə, Bakını tutmaq üçün fəal surətdə hazırlaşmağa başladı. Buna Hüseynqulu xanın təbəələrinin rus və Dağıstan tacirlərinin fırtınanın Bakı xanının torpaqlarında sahilə atdığı gəmilərdəki mallarını qarət etmələri bəhanə oldu. Bu məsələ barəsində həmin tacirlərə vurulan zərərin ödənilməsini tələb edən

general-leytenant Knorrinq və konsul Skibinevskinin Hüseynqulu xanla yazışması bir neçə il çəkdi.[95]

Çar hökuməti Bakı şəhərini və başqa Azərbaycan şəhərlərini dinc yolla, hərbi əməliyyatlara əl atmadan tutmağa çalışırdı.

Sisianovun Skibinevskiyə göndərdiyi 15 yanvar 1803-cü il tarixli sərəncamında deyilirdi: "Siz Bakı limanının Rusiya ticarət gəmiçiliyi üçün nə qədər lazım olduğunu bilirsiniz, indi o, bizə şəhərin özündən daha əhəmiyyətlidir. Lakin şəhərin və limanın təbii mövqeyinə görə bizim qoşunlarımız əlverişli fürsət düşən kimi gec-tez Bakını hökmən tutmalıdır. Siz Bakı xanının necə miskin vəziyyətdə olduğunu, onun iki güclü tərəfdən – Mustafa və Şeyxəli xan tərəfindən sıxışdırıldığını daha yaxşı bilirsiniz. Buna görə də müxtəlif vasitələrlə onu Rusiyadan başqa heç yerdən ona kömək və himayədarlıq göstərilməyəcəyinə, Şeyxəli xanın Mustafanı, bəlkə də onun özünü – Hüseynqulu xanı tabe etmək üçün Rusiyadan qoşun istədiyinə və tamamilə iflasa uğramaqdan qurtulmaq və özünü müdafiə etmək üçün özünün imperatordan Bakıya qarnizon göndərməsini xahiş etməsinə və bəlkə də iltifat göstərilib xahişinin rədd edilməyəcəyinə inandırmaq arzu olunardı".[96]

Sisianovun Bakı xanının elçisi Allahverdi bəylə danışıqları nəticəsində 1803-cü ilin əvvəlində Bakı şəhərinin Rusiyaya güzəşt olunması barədə razılaşma əldə edildi.

Sisianov Bakı şəhərinin güzəştə gedilməsi haqqında bakılı Hüseynqulu xanın elçisi Allahverdi bəylə saziş imzalayıb (27. IV. 1803-cü il), Vorontsovdan Bakıda qarnizon yerləşdirmək və onun yaxınlığındakı yerləri tutmaq üçün öz sərəncamına iki polk – birini Tamandan, ikincisini isə Krımdan göndərilməsini xahiş etdi.[97]

Lakin 1804-cü ildə Hüseynqulu xan Bakı və Şamaxı əyanlarının təkidi ilə öz elçisinin bağladığı sazişi pozdu.[98]

I Aleksandrın Sisianova göndərdiyi 26 oktyabr 1803-cü il tarixli sərəncamında axırıncıya "Bakı xanının elçisi Əliverdi bəy arasında bağlanmış qərarların həyata keçirilməsinə başlamaq" təklif olunurdu. Sərəncamda daha sonra deyilirdi: "...Mən bu əməliyyatın uğurla başa çatacağına xüsusilə ona görə ümidvaram ki, siz Xəzər dənizindəki sərəncamınızda olan donanmamızın köməyi ilə qarşıya çıxa bilən çətinlikləri dəf edə biləcəksiniz. Bakı və Salyanın alınması ilə Xəzər dənizindəki Rusiyaya yaxın sahilboyu yerlərin

taleyi artıq bizim əlimizdə olacaqdır...".[99] Xan hakimiyyəti I Aleksandrın siyasətini İranda və Azərbaycanda həyata keçirən Bakıdakı baş konsul Skibinevskinin, xüsusilə Bakı barəsindəki fəaliyyətindən bərk narazı idi. Bakı xanı Hüseynqulu xanla Skibinevskinin münasibətləri elə gərgin və düşməncəsinə idi ki, 1804-cü ilin əvvəllərində o, xanın tərəfdarları tərəfindən Bakıdan qovuldu, həm də bu zaman onun 7 əsgəri öldürüldü, özü isə yaxınlıqdakı adaların birinə sığındı.[100]

1803-cü ilin aprelində Qafqazdakı baş komandan Sisianov imperator I Aleksandra Azərbaycanın bir sıra qala və şəhərlərinin, o cümlədən Bakının zəbt edilməsinin layihəsini təqdim etdi.[101] Bu layihə bəyənildi və Rusiya 1803-1805-ci illər ərzində bir neçə xanlığı – Gəncə, Qarabağ, Şəki və Şamaxı xanlıqlarını işğal etdi. Bundan sonra Rusiya hökuməti İranın Xəzər dənizi sahillərinə hərbi ekspedisiyaya hazırlaşmağa başladı. Sisianovun I Aleksandra göndərdiyi 30 dekabr 1804-cü il tarixli raportda Xəzər donanmasını 1805-ci ilin aprelində Ənzəliyə və Rəştə göndərmək və orada iki rota çıxarıb cari ilin kampaniyasının çəkdiyi zərərə görə bir milyon manat əvəz ödənilməsini tələb etməyin zəruri olduğundan danışılırdı.

1805-ci ildə rus donanması general-mayor Zavalişinin başçılığı ilə Həştərxandan Ənzəliyə yola düşdü. 800 nəfərlik rus dəstəsi Pir Bazarı və Rəşti tutdu, lakin sonradan köməyə gələn İran qoşun hissələri tərəfindən məğlubiyyətə uğradılaraq gəmilərlə Bakıya yollandı.[102] Şəhər əyanları öz sərvətlərini və ailələrini şəhərdən çıxararaq qalanın müdafiəsinə hazırlaşdılar. Buxtaya daxil olan rus gəmiləri şəhəri mühasirəyə almağa başladılar. Hüseynqulu xan rus qoşunlarının gəlməsinin məqsədini aydınlaşdırmaq üçün Zavalişinin yanına elçi göndərdi. Zavalişin cavabında imperator tərəfindən Bakını tutmağa göndərildiyini bildirdi və şəhərin dərhal təhvil verilməsini tələb etdi. Hüseynqulu xan vaxt qazanmaq məqsədilə cavab üçün möhlət istədi. Avqustun 15-də, möhlət qurtaranda və şəhər təslim olmadıqda Zavalişin sahilə desant çıxardı. Lakin elə bu vaxt qubalı Şeyxəli xan və qazıqumuqlu II Surxay xanın oğlu dərbəndli Nuh bəy bir dəstə İran qoşunu ilə Bakı xanının köməyinə gəldilər. Bir neçə döyüşdən sonra məğlub olan ruslar gəmilərə oturub Lənkəran yaxınlığındakı Sarı adasına getdilər.[103]

1805-ci il dekabrın 27-də Sisianov Şamaxı xanlığının Rusiyanın tərkibinə daxil olması və şirvanlı Mustafa xanla ittifaq bağlanması barədə I Aleksandra raport göndərdi. Sonra o, özünün qoşunla Bakıya, Bakı xanı Hüseynqulu xanla danışıqlarda bəzi çətinliklərlə rastlaşan Zavalişinin köməyinə getdiyini xəbər verirdi.[104]

1806-cı il fevralın əvvəlində böyük ordu ilə gələn Sisianov Bakının 2 verstliyində general-mayor Zavalişinin desant qoşunları ilə birləşərək qalanın ruslara təslim olunması barədə Bakı xanı ilə danışıqlara başladı.[105] Rus qoşunları qalanın yaxınlığındakı Naxırbulaqda düşərgə saldı.

Həmin il fevralın 8-də Hüseynqulu xan öz məiyyətinin müşayiəti ilə şəhərin açarlarını knyaz Sisianova təqdim etmək üçün qaladan çıxdı. Sisianov açarları qəbul etdiyi vaxt o və onun yanında dayanan knyaz Eristov qəflətən xanın məiyyətindən olan iki şəxs tərəfindən qətlə yetirildi.[106] Qocaman yerli sakinlər onlardan birini Bakı əsilzadələrindən olan Əhməd bəy adlandırırlar.

Qaladan axışıb gələn bakılılar Sisianovun bədənini doğrayaraq, başını qalaya apardılar, sonra isə İrana Fətəli şaha göndərdilər. Fətəli şah Sisianovun başını gətirənlərə bol ənamlar bəxş etdi.[107]

Sisianov şah Abbas darvazasının yaxınlığında – şimalında qətlə yetirilmişdir.

Sisianovun ölümündən xəbər tutan rus ordusu geri çəkildi, Zavalişin isə öz qoşunlarını gəmiyə oturdub Sarı adasına getdi. Onun qoşunu burada kömək göndərilənə qədər böyük məhrumiyyətlərə düçar oldu. Kömək gələndən sonra o, şimala yollandı.

Bakıxanov Sisianovun ölüm gününü başqa cür göstərməklə bu hadisələri müfəssəl təsvir edir: "Knyaz Sisianov Şirvana gəlib zahirdə itaət göstərən Mustafa xan ilə görüşdükdən sonra Bakıya getdi. Sarıda olan ruslar da dəniz yolu ilə gəlib onunla birləşdilər. Bəzi xidmətlər göstərmiş olan II Mirzə Məhəmməd xanın qardaşı Əbdürrəhim ağa Qubadan Şirvana, sərdarın hüzuruna gəldi. O hərçənd Hüseynqulu xanın İran tərəfdarı olduğunu söyləyirdi, lakin sərdar onun sözünü qərəzsiz sanmayıb qəbul etmirdi. Sərdar hicri 1220 (1806)-ci ildə şübatın (fevralın) 2-də qalanın yanında Hüseynqulu xan ilə təslim olmaq haqqında danışıq aparırdı. Bu zaman sülh və müsalimət qanunu xilafına olaraq iranlıların təhriki və ya Hüseynqulu xanın tapşırığı ilə onun bibisi oğlu İbrahim bəy

ibni-Əli bəy ağa ibni-Məhəmmədhüseyn xan ibni-İmamqulu xan Dərbəndinin əlində öldürüldü. Başı qatilin atası ilə şahın hüzuruna göndərildi. Ruslar gəmilərə minib Sarı tərəfə getdilər".[108]

Sisianov öldürüldükdən sonra şimaldan başqa, bütün xanlar yaranmış vəziyyətdən istifadə edərək ruslara qarşı üsyan qaldırdılar[109] və Rusiyanın təbəəliyindən boyun qaçıraraq özlərini müstəqil elan etdilər.

Bu zaman İran taxtının naibüssəltənə titulu daşıyan vəliəhdi, Azərbaycanı idarə edən Abbas Mirzə öz qoşunu ilə Aslandüz tərəfdən hərəkət edərək Qarabağdan keçib Şirvana gəldi.[110]

1806-cı ilin mayında Dərbəndi, Qubanı və Bakını[111] tutmaq üçün Qızlar (Kizlyar) yolu ilə general Qlazenanın başçılığı altında 2500 nəfərlik dəstə göndərildi. 1806-cı il iyunun 21-də rus qoşunları Dərbəndə girdi.[112]

Dərbəndin alınmasından bir ay sonra general Bulqakov buraya gəldi. O, əvvəlcə Qubaya getdi, oradan isə bakılı Hüseynqulu xanla ittifaq bağladığına görə o vaxt Şeyxəli xandan incimiş II Mirzə Məhəmməd xanla birlikdə Bakıya yola düşdü.[113]

Bulqakov Bakıya yaxınlaşdıqda şəhər əhalisinə müraciət göndərərək könüllü surətdə təslim olmağı və əmin-amanlığı qorumağı təklif etdi. Hüseynqulu xan yaxın adamı olan Kazım bəyi qalanın bayraqları, açarları və duz-çörəklə Bulqakovun pişvazına göndərdi. Xanın elçilərini Beşbarmaq dağının yaxınlığında qarşılayan Bulqakov xanın və Bakı əhalisinin zərər çəkməyəcəyini vəd etdi. Vədlərinin təsdiqi üçün Bulqakov öz oğlunu Bakı şəhərinə göndərdi. Lakin şəhər əhalisi rusların intiqam alacağından qorxaraq şəhəri tərk edib dağlara qaçdı. Gənc Bulqakov bir hissəsi qayıdıb gələn əhalini çətinliklə sakitləşdirdi. Lakin cəzalandırılacağından qorxuya düşən Hüseynqulu xan ailəsi ilə Qubaya, oradan da İrana qaçdı. Bakı xanlığı ləğv edildi.

Bu hadisələri təsvir edən Bakıxanov Bakı xanı haqqında yazır: "Cəsarətli, lakin təbiətən iradəsiz və ürəyi saf bir əmir olan Hüseynqulu xan öz təbəəsi ilə İrana qaçdı... Bulqakov Bakını Rusiya dövlətinin ixtiyarına keçirdi..."[114]

Çar qoşunları Bakıya girərkən II Mirzə Məhəmməd xan Bulqakovun yanında idi. Sonralar, 1809-cu ildə Quba xanlığının idarə olunması ona tapşırılmışdı.[115]

Butkov həmin hadisələri təsvir edərək yazır: "1806-cı il sentyabrın 18-də qraf Qudoviçin tabeçiliyində xidmətə göndərilmiş infanteriya generalı Sergey Alekseyeviç Bulqakov Dərbənddə qoşunu Qlazenandan qəbul edərək Bakını tutmaq üçün hərəkət etdi. Rus qoşunları Qubanı və Bakını heç bir müqavimət görmədən tutmuş və onların əhalisinə sədaqət andı içdirilmişdir".[116]

Deyildiyi kimi, Hüseynqulu xanla birlikdə onun ailəsi və yaxın adamları, o sıradan Əhməd bəy də İrana qaçmışdı. Onlar Ərdəbil yaxınlığındakı Barı kəndində məskunlaşmışdılar. Bu kəndin bəzi sakinlərini indiyədək bakılı adlandırırlar. Çarizmin Bakını tutması xanlığın taleyini həll etdi. Ayrı-ayrı feodallar arasında qanlı ara müharibələrinə, ölkəni viran qoyan və XVIII əsrdə neft təsərrüfatını tənəzzülə uğradan yadelli hücumlara son qoyuldu.

1806-cı ildən Bakı tarixinin yeni dövrü, kapitalist münasibətlərinin inkişaf dövrü başlanır.

2. ŞƏHƏRİN İQTİSADİ HƏYATI

XVIII əsrin birinci yarısının sonlarında Şimali Azərbaycan şəhərləri dərin iqtisadi böhran içərisində idi. Ölkənin məhsuldar qüvvələri demək olar ki, qırxillik müharibə, feodal araçəkişmələri, şah hakimiyyəti və yerli feodallar tərəfindən amansızlıqla yatırdılan kəndli üsyanları[1] nəticəsində dağılmışdı. Bakı xanlığının paytaxtı, Abşeronun iqtisadi və siyasi mərkəzi olan Bakı, Azərbaycanın başqa şəhərləri kimi təsərrüfat düşkünlüyü keçirirdi. Lerx 1747-ci ildə ikinci dəfə Bakıda olarkən şəhər həyatının tənəzzülə uğradığını qeyd etmişdi.[2]

Mənbələrdə bu dövrdə böyük miqdarda neft hasilatının və İrandan başqa, digər ölkələrə neft ixracatının üstündən sükutla keçilir.[3] Artıq 1733-cü ildə neft hasilatının[4] kəskin şəkildə aşağı düşməsi qeyd olunurdu. Ehtimal ki, bu, XVIII əsrin birinci yarısının axırlarınadək davam etmişdir. Daha sonrakı mənbələrdə şəhərin iqtisadi həyatının müəyyən qədər dirçəldiyi xəbər verilir. Xanlıq hakimiyyəti natural təsərrüfatın feodal məhdudiyyətinə, texnikanın ibtidailiyinə və geriliyinə baxmayaraq, Nadir şahın hakimiyyət dövrünə nisbətən mütərəqqi idi.

İqtisadi tənəzzül, ehtimal ki, XVIII əsrin 70-ci illərinədək davam etmişdir. Bakı xanlığı 70-ci illərdə öz ərazisini qonşu xanlıqların ərazisi hesabına genişləndirən Quba xanlığından vassal asılılığına düşdü.[5] Bu, Bakı xanlığının iqtisadiyyatına əlverişli təsir göstərdi. Belə ki, bununla ona tez-tez basqın edən feodalların hücumlarına son qoyuldu.

Bundan başqa şəhər həyatının canlanmasına Rusiya ilə XVIII əsrin birinci yarısının sonunadək xeyli aşağı düşmüş ticarət əlaqələrinin yenidən inkişafı da kömək edirdi.

Bir sıra xanlıqların qubalı Fətəli xan kimi dövlət xadiminin başçılığı altında birləşməsi Bakı şəhərinin də inkişafına əlverişli təsir göstərdi.

1770-ci ildə Rusiya Akademiyasının üzvü Samuil Qotlib Qmelin yolüstü Bakıda olmuş, şəhəri və onun neft mədənlərini müfəssəl təsvir etmişdir. Bu vaxtlar Abşeronun qərb hissəsindən başqa şəhərin iki verstliyində, Qmelinin sözlərinə görə yerli sakinlərin Bel (ehtimal ki, Bayıl – *S.A.*), rusların isə "şah bazarı" adlandırdıqları indiki Bayıl rayonunda da neft çıxarılırdı.[6] Burada "iki sajın dərinliyində perpendikulyar və dəyirmi şəkildə qazılmış pərakəndə halda..."[7] yetmişdən çox neft quyusu var idi. Başqa quyulardan çıxarılan neftin doldurulduğu neft anbarı da burada idi. O möhürlənmişdi. Bayıl nefti keyfiyyətcə Abşeron neftindən aşağı idi. Onu ancaq Salyana aparırdılar. İrana isə yüksək keyfiyyətli neft göndərilirdi. Abşeron neftinə tələbat böyük idi və on beş funtluq batmanı beş qəpiyə satılırdı.[8] Ağ neft xüsusi qurğu vasitəsilə – "kubdan keçirməklə" emal olunurdu. İkiqat emal zamanı neft qatılaşır və rəngi dəyişilmirdi. Həmin neftdən Azərbaycanda və İranda revmatizm, podaqra, dəri-zöhrəvi və s. xəstəliklərdə dərman kimi istifadə olunurdu. Onu "yarım, yaxud bir yarım unsiya"[9] miqdarında qəbul edirdilər. Abşeronun neft quyularının çoxu xanın mülkiyyəti idi. Ağzı daşla örtülmüş ağ neft quyularının üstünə palçıq tökərək üzərində xanın adı yazılırdı.[10] Bakı xanının neftdən və duzdan illik gəliri qırx min manata çatırdı.[11]

XVIII əsrin 80-ci illərinədək ağ və qara neft hasilatı xeyli artdı. (Qara neftlə, yəni qırla – *S.A.*) Bakı evlərinin yastı damlarını örtürdülər. Yerli əhali qumla qarışdırılmış xırda yapmalar, yaxud kürə

şəklində neftdən yanacaq kimi istifadə edirdi.[12] 1796-cı ildə Bakıda olmuş Marşall fon Biberşteyn xəbər verirdi ki, "Abşeron yarımadası tükənməz neft ehtiyatına malikdir..."[13] "...Neft, başlıca olaraq, Gilanda satılır. Ona görə də bu əyalətdəki baramaqurdu bəsləyənlər ya təcrübədən, ya da kütləvi avamlıqdan nefti həmin qurdların becərildiyi evləri, işıqlandırmaq üçün yandırıla bilən yeganə maddə sayırlar".[14]

Bu zaman böyük miqdarda ağ neft quru yolla və dənizlə kirjimlərdə və xırda gəmilərdə bir sıra ölkələrə daşınırdı.[15] 1796-cı ilə aid bir sənəddə "saz taxta çarbəndi olan eni $2^{1}/_{4}$ arşın, dərinliyi 13 sajın, daşla hörülmüş qapaqlı" ağ neft quyusu təsvir edilir. Nefti ixrac etmək üçün "xanın müəyyən etdiyi yerə" bir batman, yaxud 20 funt neft üçün xan pulu ilə bir abbası, yaxud 20 qəpik ödənilirdi.[16] Qmelinin məlumatları ilə müqayisədə neft ucuzlaşmışdı ki, bu da görünür onun hasilatının artması ilə bağlı idi.

XIX əsrin əvvəlində Abşeronda 100-ə yaxın ağ neft, 15 qara neft quyusu var idi.[17] Yığılmış neftin hamısı arabalarda Bakıya daşınırdı. Orada nefti çənlərdə saxlayırdılar. Şəhərin cənub divarının yaxınlığındakı təpədə yeraltı baş rezervuar, yaxud baş qara neft anbarı var idi.[18] İllik qara neft hasilatı təqribən 240 000 pud idi. Neftin çox hissəsi (təqribən 215 000 pud) İrana ixrac edilir, qalan hissəsi isə ölkədə istifadə olunur və Həştərxana aparılırdı. 800 puda yaxın ağ neft istehsal edilirdi.[19]

XIX əsrin əvvəllərində qara neft quyularının sayı XVII əsrlə müqayisədə 3 dəfədən az olmayaraq aşağı düşdüyü halda, ağ neft quyularının sayı demək olar ki, 3 dəfə artmışdı. İllik neft hasilatı da XVII əsrlə müqayisədə 5 dəfədən çox azalmışdı. Sosial-iqtisadi və siyasi amillərlə əlaqədar neft ixracı da XVII əsrə nisbətən xeyli aşağı düşmüşdü.

Abşeronda neftdən əlavə, çoxlu miqdarda duz istehsal olunurdu. Ən yaxşı duz Bakının şimal qərbindəki böyük Masazır gölündən çıxarılırdı. 1770-ci ildə duzun bir pudu yeddi qəpik yarıma satılırdı. Onun gəliri xanın xəzinəsinə daxil olurdu.[20] 1796-cı ildə bu duzun hər arabasının (furasının) ixracı üçün xan pulu ilə 5 manat, bir eşşək, at, yaxud öküz yükündən (xarvar-xalvar – *S.A.*)[21] isə 1 man. 60 qəp. alınırdı. Pullar "xanın müəyyən etdiyi yerə" ödənilirdi".[22]

Qambın şahidliyinə görə, təkcə Masazır gölündən ildə 150 min pud əla duz çıxarılırdı. Xalvarı 1 man. 25 qəpiyə satılan[23] bu duz dəniz və quru yolla böyük karvanlarla İrana və Azərbaycana aparılırdı.

1747-ci ildə şəhərin ətrafında böyük zəfəran tarlaları var idi.[24] Lerx göstərirdi ki, "...zəfəran bağları əvvəlkindən qat-qat çox idi. Onlar şəhərin yaxınlığında salınmışdı".[25] 1770-ci illərədək Bakıda zəfəran becərilməsi xeyli artsa da, bu bitki Dərbənddə daha geniş miqyasda əkilməyə başladı.[26] XVIII əsrin sonlarında Abşeronda zəfəran becərildiyini bir sıra səyyahlar da qeyd etmişlər.[27]

XIX əsrin əvvəllərində Bakıda və Abşeronda ildə 500 puda yaxın zəfəran yığılırdı. Onun bir pudunun qiyməti 8 manatdan 15 manatadək idi. Bu zəfəran Avropada[28] (Fransa, İtaliyada) becərilən zəfərandan daha yüksək keyfiyyətli sayılırdı. Zəfəran bitkisi üçün ayrılmış sahələrin sayı 1800-ə yaxın idi.[29]

XVIII əsrin ikinci yarısında Abşeronda az miqdarda pambıq becərilirdi.[30] Yarımadanın şərq hissəsinin bəzi kəndlərində kökü əla boyaq maddəsi olan boyaqotu (qızılboya) əkilirdi.[31] Yarımada əhalisi buğda və arpa da əkirdi. Quraqlıq keçən qıtlıq illərində əhali duzu və nefti qonşu xanlıqlara apararaq taxıla dəyişirdi.[32]

XIX əsrin əvvəlində Bakı xanlığında əhali maldarlıqla məşğul olurdu. Burada iribuynuzlu mal-qaranın (öküz və inəklər) sayı təqribən 5 minə, davarın (qoyun) sayı isə 43 minə çatırdı.[33]

Bakının yaxınlığındakı adalardan birində (Çilov) suiti ovlanırdı (təqribən ildə 6 min). Ov Həştərxana, oradan isə suiti piyindən sabun bişirilməsində istifadə olunan Kazana göndərilirdi.[34]

XIX əsrin əvvəlində Abşeronda 1800-ə yaxın meyvə bağı və üzümlük var idi.[35] Bakı sakinlərinə məxsus bağlar da onların arasında idi.

1832-ci ilə aid daha sonrakı mənbədə şəhərin və forştadtın 67 xalvar (təqribən 200 hektar) yararlı torpağı, 209 zəfəran sahəsi, 25 qovun-qarpız bostanı, habelə Maştağa, Nardaran, Bilgəh, Mərdəkan, Buzovna, Kürdəxana, Pirşağa, Novxana və Bülbülə kəndlərində şəhər sakinlərinə məxsus 350 üzüm bağı olduğu göstərilir.[36]

3. TİCARƏT

Bakı xanlığı yarandığı vaxt (1747-ci il) bütün ölkədə təsərrüfatın dağılması ilə bağlı Bakı şəhərində sənətkarlıq və ticarət tənəzzül keçirirdi. Hakim feodal münasibətləri şəraitində və basqınlar nəticəsində əmtəə istehsalı inkişaf etmirdi. 1747-ci ildə Bakıda olmuş Lerx yazırdı: "Bu şəhər çox yoxsul idi və onun bazarında demək olar ki, heç nə satılmırdı".[1]

Nadir şahın ölümündən sonra taxt-tac uğrunda mübarizə, Azərbaycanda xalq iğtişaşları və siyasi qarışıqlıqla bağlı olaraq 1748-ci ilin noyabrındakı "dəhşətli şuluqluqlar İranda ticarəti tamamilə məhv etdi...".[2] Karvanları qarət edən və tacirləri öldürən quldur dəstələrinin meydana gəlməsi ilə bağlı uzaq ölkələrlə karvan ticarəti xeyli azaldı. Lakin Həştərxandan Bakıya dəniz ticarəti yolu beynəlxalq ticarətdə hələ öz əhəmiyyətini itirməmişdi. Lerxin sözlərinə görə, "artıq o birisi il Həştərxan tacirləri Xəzər dənizi ilə Gilana, Bakıya və Dərbəndə üzür və gəmilərdən düşməyərək, xırda gəmilərdə üzüb gələn yerli camaatla ticarət aparırdılar; amma onlar daha uzağa getməyə cəsarət etmirdilər. Tacirlər əldə edə bildikləri qədər ipək aldılar".[3] Bu zaman gəmilər Bakı limanından əlavə, Abşeron yarımadası ilə Pirallahı adası arasındakı boğazda dayanırdı.[4]

Azərbaycanın feodal pərakəndəliyi, bir sıra xanlıqların yaranması, onlarda natural təsərrüfatın əlahiddəliyi məhsuldar qüvvələrin inkişafını, sənətkarlığın və ticarətin yüksəlişini ləngidən ciddi maneə idi.

Bir sıra xanlıqlarda sikkələrin, ölçü və çəki vahidlərinin müxtəlifliyi, çoxlu gömrük rüsumları, nəqliyyatın bahalığı, yolların təhlükəli olması da sənətkarlığın və ticarətin inkişafına əngəl törədirdi. Bakı limanı vasitəsilə ticarət əlaqələrinə baxmayaraq, Rusiya ilə başlıca olaraq, Bakı xanlığında əmtəə-pul münasibətlərinin inkişafı vüsət tapmamışdı.

Qubalı Fətəli xanın Quba xanlığına məxsus Dərbənd, Nizabad və Salyan limanlarının geri qaytarılması barədə yeritdiyi siyasətlə bağlı vəziyyət daha da pisləşdi. Rusiya hökuməti Fətəli xanın siyasətini müdafiə etdi və Bakı vasitəsilə ticarətin zərərinə olaraq rus tacirlərinin Həştərxanla yuxarıda adları çəkilən Quba xanlığı liman-

ları arasında ticarətinin inkişafına yardım göstərirdi ki, bu da Bakı xanlığının gəlirinin azalmasına səbəb olurdu.[5]

Fətəli xan təkidli səylər və Bakıdakı rus konsulu Sulyakovla yazışma nəticəsində öz iqamətgahını Bakıdan Salyana köçürdü. Salyanın dirçəlməsi və Rusiya ilə ticarətin oraya yönəlməsi nəticəsində Bakının ticarət dövriyyəsi aşağı düşməyə başladı və Rusiya ilə ticarət zəiflədi.[6] Vəziyyət XVIII əsrin 70-ci illərindən, Bakı xanlığı Quba xanlığından asılılığa düşdüyü vaxtdan dəyişməyə başladı, sənətkarlıq və ticarət yenidən dirçəldi, Rusiya dövləti və digər ölkələrlə ticarət əlaqələri genişləndi.

XVII əsrin son onilliklərində Rusiyada ipək sənayesi sürətlə inkişaf edirdi.[7] Rus tacirlərinin həm xammal – xam ipək, yun, pambıq almaq, həm də ölkə sənayesinin məhsullarını satmaq üçün bazarlara ehtiyacı var idi. XVIII əsrin ikinci yarısında ingilis-rus rəqabəti və Ost-hind şirkətinin Yaxın Şərqdə rəqabət aparması nəticəsində Rusiya-İran ticarəti tənəzzülə uğradı.[8] Nadir şahın ölümündən sonra İranda 20 ildən çox davam edən xalq iğtişaşları və feodal araçəkişmələri də Rusiyanın İranla ticarət əlaqələrinin inkişafına əngəl törədirdi. Rus tacirlərinin Ənzəli limanı və Rəşt şəhəri vasitəsilə ticarəti pisləşmişdi. Bunun əksinə, XVIII əsrin son onilliklərində Rusiyanın Azərbaycanla iqtisadi əlaqələrinin inkişafı Bakı və Qızlar (quru yolla) vasitəsilə geniş vüsət almışdı. Bu dövrdə Rusiya-İran dəniz ticarətinin mərkəzləri Həştərxan və Bakı idi.[9] Həmin dövrdə Bakı vasitəsilə Rusiya-Azərbaycan ticarətinin inkişafına rus tacirlərinə himayədarlıq edən Fətəli xanın Rusiyaya meyilli olması[10] da əlverişli imkan yaradırdı.

Bu ticarətdə Bakının rolunu açıqlayan bəzi arxiv sənədlərinə görə 1778–1781-ci illərdə Həştərxana xamna gətirilməsi belə olmuşdur: Bakıdan 6547 pud, Ənzəlidən 3705 pud 36 funt, Dərbənddən 103 pud 7 funt, Salyandan 145 pud 20 funt və i.a.[11]. İpəyin bir pudunun qiyməti təqribən 60 manata bərabər idi. Lakin Pallasın məlumatına görə 90-cı illərdə əla növ Şamaxı ipəyi 170 manata satılırdı, bir pud ipəyin orta qiyməti isə 135 manat idi. Ola bilər ki, bu rəqəmlər bir qədər şişirdilmişdir. Lakin xam ipəyə tələbat böyük idi, yəqin ki, o, bununla əlaqədar bahalaşmışdı.[12] İpək Həştərxana Bakıdan, Şəkidən, Dərbənddən bir çox hallarda qaçaq yolla da gətirilirdi.

Bakıdan Həştərxana xamnadan başqa ixrac olunan mühüm mallardan biri də Rusiyanın toxuculuq sənayesində istifadə olunan boyaqotu kökü (boyaqkökü) idi. 1778-1781-ci illərdə Həştərxana dənizlə Bakıdan 665 pud 30 funt, Ənzəlidən 446 pud 30 funt, Dərbənddən 4890 pud 34 funt boyaqkökü ixrac edilmişdi. Onun bir pudunun qiyməti 2 m.-2 m. 50 qəp., 1781-ci ildən-3 m., 1782-ci ildən isə 4 m. idi.[13] Sonrakı illərdə Bakıdan və Dərbənddən boyaqkökü ixracı xeyli artmışdı.[14]

Arxiv sənədlərinə görə 1778-1781-ci illərdə Həştərxana Bakıdan 3310 pud 9 funt, Ənzəlidən 1084 pud, Dərbənddən 270 pud 20 funt pambıq parça ipliyi və pambıq aparılmışdı. İpliyin bir pudunun qiyməti 10 m., pambığın qiyməti isə 7 man. 50 qəp. idi.[15] Gətirilən rəqəmlər Bakının Rusiya idxalında birinci yerə çıxdığını inandırıcı şəkildə göstərir...

Sadalanan mallardan başqa Bakıdan Həştərxana müxtəlif pambıq parçalar aparılırdı:

	1779-cu il	1780-ci il	1781-ci il	1786-cı il
1. Pambıq bez				
Bakıdan	3094		5444	
Ənzəlidən	254		448	
2. Pambıq basma				
Bakıdan	1444	1728		
Ənzəlidən	4285	179		
3. Pambıq duvaq (dənə)				
Bakıdan	8037	3653		
Ənzəlidən	6485	gətirilməmişdi		
				5590
4. Qoyun papaq dərisi				379[16]
Bakıdan	26493			
Ənzəlidən	17400			

Həştərxandan Bakıya və Ənzəliyə müxtəlif çeşidli kətan parça, polad məmulatları, Pavlovo qıfılları, bıçaq, qayçı, qatlama Tula bıçaqları, yüz minlərlə tikiş iynəsi və i.a. mallar ixrac edilirdi. Həştərxan malları içərisində ən tez satılanı "Yaroslavl alabəzəyi" adlanan rəngbərəng iplikdən toxunmuş qaba kətan parça idi. Onun arşını 12 qəpi-

yə satılırdı. 1778-1781-ci illərdə Bakıya 59580, Ənzəliyə isə 13124 arşın belə parça gətirilmişdi.[17]

Bandan başqa həmin illərdə Həştərxandan Bakıya 564, 371 arşın, Ənzəliyə isə 590 226 arşın müxtəlif çeşidli rus parçası ixrac olunmuşdu.[18]

Həştərxandan Bakıya böyük tələbat olan, Rusiyada istehsal edilən uzunsov dəmir təbəqələr, habelə dəmir və polad məmulatı da aparılırdı. Tam olmayan məlumata görə 1778-ci ildə Bakıya pudu 45 qəpikdən 4000 pud, 1779-cu ildə 5000 pud uzunsov dəmir təbəqə, 1780-ci ildə 2473 pud qazan, sacayağı, məftil, 1781-ci ildə 6000 pud 28 funt uzunsov dəmir təbəqə və 563 pud tirşəkilli rus poladı, bundan əlavə 280 manatlıq müxtəlif dəmir məmulat yola salınmışdı.[19]

1779-1781-ci illərdə Həştərxandan Bakıya 1 355 000 tikiş iynəsi, 10 665 Pavlovo qıfılı, 3578 Pavlovo qayçısı, 1743 qatlama Tula bıçağı (1779-cu ilin məlumatı yoxdur) aparılmışdı.[20]

Xəzlərdən Bakıya külli miqdarda, minlərlə göndərilən sincab, pişikkimilər və dovşankimilərin dəriləri ixrac edilirdi.[21]

Buxtada və şəhər ərazisində XVIII əsrin ikinci yarısına, xüsusilə 70-ci illərdən sonrakı dövrə aid[22] çoxlu miqdarda rus sikkələrinin tapılması da rus tacirlərinin Bakıda əhəmiyyətli ticarət apardığına dəlalət edir.

Sadalanan məlumatlar Rusiyanın Azərbaycanla ticarətinin həcminin artmasından xəbər verir. Mənbələrdə, eyni zamanda, İranla Bakı vasitəsilə iqtisadi əlaqələrin zəiflədiyi göstərilir. XVIII əsrin son onilliklərində Bakı vasitəsilə Rusiyaya Ənzəliyə aparıldığından üç dəfə çox mal daşınırdı. Eləcə də Ənzəlidən Bakıya mal gətirilməsinin tənəzzülü müşahidə edilir.[23] Xəzərdə üzən ticarət gəmilərinin sayı az olduğundan malların daşınma xərci çox baha idi.

İran tacirlərinin Xəzəryanı əyalətlərdə rəqabətini aradan qaldırmağa cəhd göstərən çar hökuməti yerli gəmiçiliyin inkişafını qadağan etmək üçün hər cür tədbirlərə əl atırdı. Lakin yerli xanlar gəmiqayırma ilə ciddi-cəhdlə məşğul olurdular. Lerxin məlumatına görə keçmiş admiral olan Bakı xanı Mirzə Məhəmməd 1747-ci ilin oktyabrında Ləngərudda gəmiqayırma işlərinə rəhbərlik edir və tez-tez oraya gedirdi.[24] Rus gəmilərində mal daşınması çox baha başa gəldiyindən, Bakı xanı ehtimal ki, bu məqsədlə öz gəmilərinin olmasında maraqlı idi.

1777-ci ildə yazmış anonim müəllif[25] Rusiyanın Azərbaycan şəhərləri ilə ticarətindən xəbər verir: "...Dərbənddə, Bakıda və Salyanda xeyli mənfəətlə mum, bal, balıq yapışqanı almaq olar. Bakının yaxınlığından nəinki Rusiya dövlətində böyük miqdarda istifadə etmək, habelə Avropa dövlətlərinə ixrac etmək mümkün olan xeyli neft gətirmək olar. Dərbənddə və Bakıda gəmilərə araq çəkmək üçün olduqca əlverişli olan şərab yükləmək olar: yerli dildə ona çaxır deyirlər".[26] Müəllif daha sonra ticarətin Bakıda Dərbənddən daha çox inkişaf etdiyini və onun, başlıca olaraq, Şirvan vilayəti, xüsusilə Şamaxı şəhəri ilə aparıldığını qeyd edir.[27] Lakin o, bu ticarətin çox da böyük olmadığını göstərir.

Bakı xanının rus tacirlərinə münasibəti pis idi. 1779-cu ildə ləzgilər iki bakılı oğlan uşağını oğurlayıb Həştərxanda satdıqlarına görə Bakı hakimi Məlik Məhəmməd xan Bakıdakı bütün rus tacirlərinin malları ilə birlikdə həbs olunmasını əmr etmişdi. Tacirlər yalnız uşaqlardan biri Bakıya qaytarıldıqdan sonra azad olunmuşdular.[28]

Elə həmin il İranda vəkil Kərim xan Zəndin ölümündən sonra baş verən xalq iğtişaşları və feodal araçəkişmələri ilə bağlı olaraq rus konsulu və tacirləri Bakıdan Həştərxana qayıtmağa məcbur oldu.[29]

Rusiya-Azərbaycan və İran ticarət məsələlərini nizama salmaq üçün Bakıya və Ənzəliyə təyin olunmuş rus konsullarının məlumatlarında Bakı xanının Bakıdakı rus tacirlərini incitməsi xəbər verilir. Öz iqtisadi təsirini ta Hindistana qədər yaymağa ümid bəsləyən çar hökuməti hələ I Pyotr vaxtından Bakı limanı vasitəsilə ticarətin genişləndirilməsində maraqlı idi. Bu məqsədlə 1781-ci ilin iyun ayında qraf Voynoviçin komandası altında Həştərxandan Astrabad körfəzinə eskadra yola düşdü. Eskadra körfəzin sahilində, yaxud adalardan birində "ticarəti Şərqi Hindistana qədər genişləndirmək məqsədilə Rusiya kommersiya məskəni" yaratmalı idi. Lakin ekspedisiya uğursuzluğa düçar oldu. Eskadra geri qayıdarkən 1782-ci ilin iyununda Bakı buxtasına girdi. Voynoviçlə məxsusi olaraq Bakıya gəlmiş Fətəli xanla danışıqların gedişində rus tacirlərinin Bakıda və Şirvanın digər şəhərlərində ticarətinə dair bir sıra məsələlər nizama salındı və onlara müxtəlif imtiyazlar verildi.[30]

1784-cü ildə Bakıda olmuş ingilis səyyahı Forster yazırdı: "Mazandaranda yəhudi şirkəti tərəfindən fabrika üsulu ilə az miqdarda ipək istehsal olunur. Onun ticarəti, başlıca olaraq oradan ağ və

rəngli pambıq parçalar, pambıq, düyü alan və əvəzində Rusiyadan gətirilən uzunsov dəmir təbəqələr, zəfəran, buğda və Həştərxandan[31] alınan enli mahud partiyaları göndərən Bakı limanı ilə sıx əlaqə sayəsində həyata keçirilir".[32]

Burnaşovun məlumatına görə 1786-cı ildə Bakıda cəmi bir neçə xristian tacir ailəsi yaşayırdı.[33]

Şəhərin təsvirini verən Forster dairəsi bir milə yaxın olan Bakıda xeyli adam yaşadığını və onların çoxunun ticarətlə məşğul olduğunu söyləyir.[34] "Buxta genişdir və gücü iki xırda ada tərəfindən zəiflədilən cənub küləyindən savayı bütün küləklərdən quru ilə müdafiə olunur".[35]

İpək ticarətində başlıca liman kimi Bakının böyük rolunu qeyd edən Forster deyir: "Uzun müddət güman edirdilər ki, Türkiyədən Avropaya gətirilən ipək Osmanlı imperiyasında istehsal olunur. Lakin İranın ticarətinin dərindən öyrənilməsi göstərir ki, türk tacirləri Gilana və Şirvana gedərək orada böyük miqdarda ipək alır və sonra Avropaya göndərirlər.[36] Forster Xəzər dənizində ipək ticarəti məsələsində Rusiya hökuməti ilə ingilis kommersiya müəssisələri və faktoriyaları arasında rəqabət getdiyini qeyd edirdi.

Forsterin məlumatına görə "Şirvan əyalətində xeyli miqdarda ipək istehsal olunur, onun 400 tonu hər il Həştərxana aparılır: burada həmçinin mühüm ticarət malı olan əla keyfiyyətli zəfəran istehsal edilir. Artıq çoxdan Bakıda yaşayan Multanı hindli icması bu şəhərdə ticarətin genişlənməsinə güclü kömək göstərir".[37] Forster qeyd edirdi ki, hindlilər Şirvanın əsas tacirləri sayılmalıdır. O, hind tacirlərinin İrana və Azərbaycana hansı yolla gəldiklərini təsvir edir. Hindlilər, adətən, ölkənin cənubundakı iri Tata şəhərində gəmiyə minib Bəsrəyə gedirdilər. Buradan onlar İrandan keçən karvanları müşayiət edirdilər. Onların bəziləri quruyla Qəndəhar və Herat yolu ilə Xəzər dənizinə doğru gedirdilər; lakin hindlilər kiçik qruplar halında hərəkət edir, müsəlmanlar tərəfindən incidilmələrindən acı-acı şikayətlənirdilər.[38]

1796-cı ildə Bakıda olmuş Marşall fon Biberşteyn Bakıdan Xəzər dənizində yeganə böyük və rahat liman kimi danışır: "Bakı limanı (Şirvanın) duz və bitum hopmuş ən quru hissəsidir. Lakin torpağın bu xüsusiyyəti duz, petrol və neft ticarətindən xeyli gəlir götürən şəhər üçün sərvət mənbəyidir".[39] Bundan başqa o, xüsusilə köhnə Şamaxı şəhərinin süqutundan (1734-cü il – *S.A.*) sonra

Şirvanı və qonşu əyalətləri daim narahat edən iğtişaşlar vaxtından Bakıda ticarətin xeyli azaldığını qeyd edir. Duz buradan böyük miqdarda yeni Şamaxıya və daha uzağa aparılırdı. Neftin əsas satış bazarı isə Gilan idi.[40]

Bakıda ticarətin 1796-cı ildə Biberşteynin qeyd etdiyi tənəzzülü, yəqin ki, 1795-1797-ci il müharibələri, Ağaməhəmməd xanın qoşunlarının törətdiyi dağıntılarla bağlı idi. 1796-cı ildə general Zubovun qoşunları ilə birlikdə Bakıda olmuş Artemi Araratskinin məlumatına görə şəhərdə bahalıq elə bir həddə çatmışdı ki, yumurtanın biri 20 qəpiyə satılırdı.[41]

1797-ci ildə Şirvanda, Bakıda, Şamaxıda və digər yerlərdə aclıq tüğyan edirdi. "Torpaqda çox az miqdarda arpa axtarıb tapmaq olurdu və onun çörəyi ən azı 15 gümüş manat idi..."[42]

1798-ci ildən etibarən Bakı xanlığında və digər xanlıqlarda şəhərlərin vəziyyəti yaxşılaşmağa başladı. Rusiya ilə ticarət əlaqələri bərpa olundu.

Fransız səyyahı Q.A.Olivye 1798-ci ildə Bakıda, Ənzəlidə və Salyanda faktoriyaları olan rusların ticarəti haqqında məlumat verir. Rus tacirləri bu limanlardan Həştərxana Gilan və Şirvan ipəyi, pambıq, düyü, quru meyvə, pambıq parça, bəzi xalis ipək, yaxud ipək və pambıq qarışıq parçalar, zərlə işlənmiş ipək kəmərlər, boyaqkökü, həsir, zirə, küncüt yağı və bəzi dərman maddələri, xaşxaş, ulduzvarı cirə, mirra, ənbər və i.a. aparırdılar. Rus tacirləri bu malların əvəzində at və digər heyvan dərisi, bəzi qaba mahud növləri, məxmər, atlas, muar və digər Lion parçaları verirdilər. Tacirlər, habelə Hollandiyadan və İngiltərədən gətirilən az miqdarda koşenil (qırmızı boyaq), indiqo (tünd sürməyi boyaq) da satırdılar. Onlar qiymətli xəzlər də təklif edirdilər. Lakin yerli əhali daha çox quzu dərisindən istifadə etdiklərindən xəz çox az satılırdı. Halbuki Türkiyədə onlara tələbat böyük idi.[43] Rusiyaya İrandan Bakı vasitəsilə ipəyin emalında istifadə edilən gəvən kitrəsi də aparılırdı.[44]

Olivyenin məlumatından göründüyü kimi rus tacirləri vasitəçiliklə də məşğul olur, Bakıda öz ölkələrinin malları ilə yanaşı, Fransadan, İngiltərədən və digər ölkələrdən gətirilən əcnəbi malları da satırdılar.

XVIII əsrin sonunda Bakını təsvir edən ingilis missioneri M.Tuk Bakıda ticarətin Dərbənddəkindən daha əhəmiyyətli olduğunu qeyd edir. Bakı, başlıca olaraq, xamna və ipək məmulatları aldığı Şamaxı

ilə ticarət aparır. Orada, adətən, rus konsulu var.[45] Bakı ərazisində XVIII əsrə aid Şamaxıda kəsilmiş xeyli miqdarda sikkə tapılması da Şamaxı ilə geniş ticarət aparıldığına dəlalət edir.[46]

XVIII əsrin sonlarında Bakıda olmuş məşhur Azərbaycan səyyahı və alimi Zeynalabdin Şirvani öz əsərlərində buradan Azərbaycan, İran, Rusiya və Qərbi Avropa şəhərlərinə ağ və qara neft, eləcə də zəfəran aparılaraq həmin yerlərdə baha qiymətə satıldığını qeyd etmişdir.[47]

II Yekaterina vaxtında çar hökuməti Şərqdə iri ticarət mərkəzi və rus qoşunlarının başlıca təchizat bazası olan Bakıya böyük diqqət yetirirdi. Bakı limanının möhkəmləndirilməsi və yenidən qurulması nəzərdə tutulurdu. Bu məqsədlə vəsait buraxılmış, hətta Peterburqdan ustalar təyin edilmiş və göndərilmişdi. P.Q.Butkov öz yol qeydlərində yazırdı: "Bakı limanını ona görə sahmana salmaq lazım görülmüşdür ki, o, Xəzər dənizində ən yaxşı limandır. Orada gəmilər 7 sajın dərinliyində dayana bilərlər. Buraya Mazandarandan, Gilandan, Lənkəran sahilindən, Şirvandan və Azərbaycandan külli miqdarda tacir gəlir. Bütün Şirvan məhsullarının hamısını Bakıya gətirir.

...Beləliklə aydın olur ki, Rusiyanın İranla ticarətində Bakı yeganə rahat və ən əlverişli yerdir. Buradan Mazandaran və Gilan əyalətləri ilə ən gəlirli ticarət aparıla bilər; quru ticarət yoluna gəldikdə isə, Bakıdan İran körfəzinədək ölkənin bütün zəngin daxili əyalətlərinə hələ böyük Şah Abbas tərəfindən salınmış təhlükəsiz yol gedir. Lazımi yerlərində daş hasarlı karvansaralar tikilmiş bu yol məhz Təbriz, Ərdəbil, Sultaniyyə, Tehran, Qəzvin və Kaşana, hətta İsfahana və daha sonra İran körfəzinədək gedib çıxır".[48]

Gözlərini zəngin və əsrarəngiz Hindistana tikən və onunla ticarət etmək istəyən çar hökuməti bu məqsədlə Bakıdan istifadə etməyi qərara aldı. "Məlumdur ki, gəbrlərin məzhəbi Hindistanın başlıca məzhəbidir. Hindlilərin bir çoxu indiyədək Bakı ətrafındakı odlara sitayişə gedirlər. Bakını sahmana salmaqla və onunla ticarəti genişləndirməklə onu hind gəbrlərinin Məkkəsinə çevirmək olmazmı və qismən bu səbəbdən Astrabad və Həştərxan vasitəsilə zəngin quru ticarət yolu açıla bilməzmi?.."[49]

Lakin 1797-ci ilin yazında həyata keçirilməsi nəzərdə tutulan bu planlar II Yekaterinanın ölümü ilə əlaqədar baş tutmadı. Taxta

çıxmış I Pavel rus qoşunlarının Cənubi Qafqazdan dərhal çıxarılmasını əmr etdi.

Rus tacirlərinin Bakı vasitəsilə ticarəti XIX əsrin əvvəllərində də davam edirdi. Lakin Bakıdakı xan hakimiyyəti rus tacirlərinə düşməncəsinə münasibət bəsləyirdi. Bir sıra sənədlər də buna dəlalət edir. 1800-cü ilin yanvarında Bakıya gələn Rusiyanın İrandakı konsulu Skibinevski Bakı xanı Hüseynqulu xandan əllərindən zorla xeyli məbləğdə pulları alınmış rus tacirlərinin razı salınmasını tələb etdi. Danışıqların gedişində Hüseynqulu xan incitdiyi rus tacirlərini razı salmaqdan imtina etdikdə, konsulun təklifi ilə donanma kapitan-leytenantı Moçakov həmin il fevralın 6-da "Kizlyar" gəmisindən şəhəri atəşə tutdu. Nəticədə Hüseynqulu xan öz günahını boynuna alıb, nəinki həmin tacirlərin, hətta digər rus tacirlərinin itkilərini ödədi və gələcəkdə onlarla ədalətlə davranmaq barədə yazılı iltizam verdi.[50]

Həmin ilin yazında Hüseynqulu xan məmuru Mirzə Hadi bəyi rus tacirləri barəsində hərəkətlərinə görə üzrxahlıqla Rusiya sarayına göndərdi.[51] Lakin xan hakimiyyəti ilə çar hökuməti arasında ticarət məsələsində daim münaqişə gedirdi. Çar hökuməti təkcə rus tacirlərinə deyil, həmçinin rusların təsir dairəsində olan Dağıstan tacirlərinə də himayədarlıq edirdi.

Knyaz Sisianovun qraf A.Vorontsova yazdığı 13 dekabr 1802-ci il tarixli məktubda deyilir: "Mənim canişinim general-leytenant Knorrinq tapşırıqla bakılı Hüseynqulu xandan onun məmurlarının Dərbənd və Dağıstan tacirlərinin bu xanın torpaqlarında sahilə atılmış gəmilərdən qarət etdikləri mallarının onlara qaytarılmasını tələb etmişdi..." Rusiya hökuməti Hüseynqulu xandan onun qardaşının və təbəələrinin Həştərxandakı hind taciri Muqundas Terendasovun Bakı xanının torpaqlarında sahilə atılmış gəmisindən qarət etdikləri rus tacirlərinə məxsus mallara görə vurduqları ziyanı ödəmək üçün 10000 manat tələb etmişdi.[52]

Bu məktublaşmadan, həmçinin aydın olur ki, hindlilər əvvəlki kimi koloniyaları olan Həştərxanla Bakı arasındakı ticarətdə əhəmiyyətli rol oynayırdılar.

Rus hökumətinin Bakıya və Xəzər dənizində ticarətə nə qədər böyük əhəmiyyət verdiyi knyaz Sisianovun Skibinevskiyə göndərdiyi 15 yanvar 1803-cü il tarixli sərəncamından da görünür: "...Siz

Bakı limanının Rusiyanın ticarət gəmiçiliyi üçün nə qədər lazım olduğunu bilirsiniz, indi o, bizim üçün şəhərin özündən daha əhəmiyyətlidir. Lakin şəhərin və limanın təbii mövqelərinə görə bizim qoşunlarımız, əlverişli fürsət düşən kimi gec-tez Bakını hökmən tutmalıdır..."[53]

Başqa bir sənəddə – Sisianovun Rumyantsevə göndərdiyi 31 avqust 1803-cü il tarixli məlumatda oxuyuruq: "Hindistan ticarəti kimi Bassoradan keçən əsas və zəngin İran ticarətinin də ingilislərin əlində olduğu indiki vaxtdan bunu deməyi özümə rəva görürəm ki, hansısa gözlənilməz hadisələr istisna olmaqla bu ticarəti hazırkı yolundan döndərmək mümkün deyil. Ona görə də belə nəticəyə gəlirəm ki, bizim Xəzər dənizi vasitəsilə ticarətimizin müvəffəqiyyəti Mazandaran əyaləti, Astrabad və Bakı arası və Qəndəhardan Astrabada və Xivəyə gətirilən hind mallarının cüzi bir hissəsi ilə məhdudlaşacaqdır..."[54]

Gətirilən materiallar liman şəhəri kimi başlıca olaraq İranla Rusiya arasında tranzit ticarətlə bağlı olan Bakının əhəmiyyətini kifayət qədər göstərir.

Daha sonrakı dövrə (1832-ci il) aid bəzi arxiv sənədlərində Bakıdakı ticarətin həcmi haqqında təsəvvür yaradan məlumatlar vardır. Şəhərdə 500 ayrıca dükan, 207 dükanı olan 9 karvansara olduğu xəbər verilir.[55] Dükanların sayı (707) çox böyük görünə bilər, belə ki, qalanın içindəki şəhərin özü iri deyildi. Lakin məlumdur ki, sənətkarlar, adətən öz məmulatlarını satdıqları dükanlarda işləyirdilər. Digər tərəfdən karvansaralardakı dükanlar gəlmə tacirlərə icarəyə verilirdi. XIX əsrin əvvəlində Bakı xanlığında quru karvan ticarəti üçün 470 dəvə və təqribən 3000 at var idi ki, bu da karvan yolu ilə xeyli mal daşındığına dəlalət edir.

4. SOSİAL MÜNASİBƏTLƏR VƏ ŞƏHƏR QURULUŞU

Bakı xanlığına aşağıdakı 39 kəndi olan Abşeron yarımadası daxil idi[1]:

Maştağa	Zabrat
Nardaran	Məhəmmədi
Bilgəh	Digah
Buzovna	Fatmayı
Şağan	Goradil
Mərdəkan	Pirşağa
Türkan	Kürdəxana
Kürkənt	Keşlə
Zirə	Əhmədli
Qala	Zığ
Hövsan	Əmircan
Hökmalı	Bülbülə
Güzdək	Sabunçu
Qobu	Binəqədi
Xoca Həsən	Masazır
Biləcəri	Novxana
Pirəkəşkül köçü	Saray
Suraxanı	Corat
Balaxana[2]	Xırdalan
Ramana	

Bakı xanlığının paytaxtı, onun iqtisadi və inzibati-siyasi mərkəzi Bakı şəhəri idi. Bakı xanlığının ərazisi başqa xanlıqlara nisbətən kiçik (təqribən uzunu 80, eni 60 verst)[3], əhalisi isə az idi; 1820-ci ildə əhalinin sayı 20 mindən çox deyildi.[4] Bakıxanovun məlumatına görə Abşeronda türklər yaşayan bir neçə kənd istisna olmaqla, qalan kəndlərin əhalisi tatlar olmuşdur.[5] Bizim əlimizdə XVII əsr Bakısına aid statistik məlumatlar yoxdur. Lakin bəzi səyyahların və arxiv sənədlərinin məlumatları o vaxt Bakı qalası əhalisinin 7 mindən çox olmadığını ehtimal etməyə imkan verir.

Zeynalabdin Şirvaninin məlumatına görə XVIII əsrin sonlarında Bakının əhalisi 3 min ailədən ibarət olmuşdur.[6] Lakin bu rəqəm açıq-aşkar şişirdilmişdir; belə ki, hər ailə orta hesabla 5 nəfərdən

götürülsə, şəhərin əhalisi 15 min alınar ki, bu da digər mənbələr tərəfindən təsdiq edilmir.

1807-ci ilin məlumatına görə "şəhərdə 500 ev var, əhalinin sayı 3 minə yaxındır".[7] Lakin general-leytenant Repinin 1810-cu ildə tərtib etdiyi cədvəldə Bakı şəhəri əhalisinin tərkibi haqqında ehtimal ki, daha dəqiq məlumat verilmişdir.[8] Rus çarizminin Bakı xanlığını istila etməsindən keçən dörd il XVIII əsrin sonu-XIX əsrin əvvəllərindəki şəhərin sosail tərkibində və simasında çox böyük dəyişiklik əmələ gətirə bilməmişdi. 1810-cu ilin məlumatına görə Bakı və onun ətrafında 2235 nəfər kişi yaşayan 931 ev var idi.[9] Ehtimal etmək olar ki, əhalinin ümumi sayı qadınlar və gəlmələrlə birlikdə 6 minə çatırdı.

Göstərilən miqdarda evlərdən 897-sində "ələvi məzhəbindən olan müsəlmanlar", 34-də ermənilər, 10-da isə yəhudilər* məskunlaşmışdı.

1820-ci ilin məlumatına görə Bakıda və şəhər ətrafında 1137 ailə, yaxud 5152 nəfər əhali yaşayırdı.[10] Beləliklə, şəhərin əhalisi gəlmələrlə birlikdə təqribən 6-7 min nəfər idi.

K.Spasski-Avtonomovun məlumatına görə 1851-ci ildə, çarizmin Bakını işğal etməsindən 45 il sonra İçərişəhərdə yerli sakinlərə məxsus evlərin sayı 1688, şiə müsəlmanların sayı isə 7875 nəfər idi[11]; rus məmurları və erməni tacirləri buraya daxil deyildi. Ehtimal ki, belə qısa bir müddət ərzində 1810-cu ilə nisbətən qalada evlərin (931 ev) və yerli əhalinin bakılıların sayı xeyli artmışdır. Görünür, K.Spasski-Avtonomovun gətirdiyi məlumatlar gerçəkliyə uyğundur.

Əhalinin sayına görə Bakıdan sonra ikinci yeri 3 min əhali yaşayan Maştağa kəndi tuturdu. Balaxana, Buzovna, Novxana, Qala, Nardaran kəndlərinin hər birinin mindən çox əhalisi var idi.[12] Bakı təsərrüfat baxımından kəndlərlə birlikdə vahid bir nahiyə təşkil edirdi. Şəhər ərzaq məhsulları və şəhər təsərrüfatına lazım olan sənətkarlıq məmulatları ilə təchiz olunurdu. Neft və duz mədənlərinə, zəfəran tarlalarına, meyvə bağlarına və üzümlüklərə sahib olan əyanlar şəhərdə yaşayaraq tabeliklərində olan rəiyyəti və şəxsən mülkədara təhkim olunmuş rəncbərləri istismar edirdilər. Feodal ierarxiyasının başında xanlığın ali hakimi və külli-ixtiyar sahibi olan xan dururdu. Xan hakim feodal sinfinin torpaq sahibləri və mülkə-

* Ehtimal ki, dağ yəhudiləri – tatlar nəzərdə tutulur.

darların mənafeyini təmsil edirdi. Nadir şahın ölümündən sonra bakılı Dərgahqulu xanın oğlu, ordunun şaha ən yaxın əmirlərindən olan Mirzə Məhəmməd xan öz mövqeyindən və bakılılar arasında nüfuzundan istifadə edərək Bakıda hakimiyyəti ələ keçirib özünü müstəqil xan elan etdi və şahın naibi Qalemi qovdu.[13] 1747-ci ildən 1806-cı ilə qədər davam edən Bakı xanları sülaləsinin aşağıdakı nümayəndələri olmuşdur:

I Mirzə Məhəmməd xan Dərgahqulu xan oğlu 1747-ci ildən 1768-ci ilədək hakimiyyət sürmüşdür*.

Məlik Məhəmməd xan I Mirzə Məhəmməd xan oğlu 1768-ci ildən 1784-cü ilədək hakimiyyətdə olmuşdur.[14]

II Mirzə Məhəmməd xan Məlik Məhəmməd xan oğlu 1784-cü ildən 1791-ci ilədək hakimiyyət sürmüşdür.[15]

Məhəmmədqulu xan I Mirzə Məhəmməd xan oğlu 1791-1792-ci illərdə hakimiyyətdə olmuşdur.[16]

Hüseynqulu xan Hacı Əliqulu ağa oğlu 1792-ci ildən 1806-cı ilədək hakimiyyət sürmüşdür.[17]

Şəhərin feodal zadəganları sırasına böyük sərvət sahibləri olan hakim təbəqə nümayəndələri – xanlar, bəylər, məliklər, ağalar, sultanlar, naiblər daxil idi.

Qamba yazırdı ki, Bakı xanı, demək olar ki, öz xanlığındakı bütün torpaqların və evlərin sahibi idi.[18] Xan idarəçiliyində bütün torpaqlar xanın mülkiyyəti sayılırdı, divan (xəzinə) torpaqları ilə hökmdarın xüsusi mülkiyyəti (xasse) arasında fərq aradan çıxmışdı.[19]

Xanlıq dövründə bəy və ağa təbəqəsinə xanın yaxın qohumları, qədim yerli əyanların, Səfəvilər və Nadir şah vaxtında feodal xidməti göstərmiş keçmiş maliklərin nəsilləri mənsub idi. Səfəvi şahlarının Azərbaycana, o cümlədən Abşerona köçürdüyü türk tayfalarının irsi başçılarının nəsilləri də bəylərin sırasına daxil idi. Bəy titulu xan tərəfindən xidmətə görə verilirdi. Onların göstərdikləri xidmət pul məvacibi ilə deyil, xanın, yaxud əhalisi bəy üçün müxtəlif mükəlləfiyyətlər yerinə yetirən kəndlərin gəlirinin müəyyən hissəsindən ödənilirdi.[20] Bəylər və digər yerli feodallar keçmiş şah məmurlarının funksiyalarını yerinə yetirərək bütöv kəndləri idarə edirdilər. Dövlət aparatı xeyli bəsitləşdirilmişdi. Torpaq fondu xanın sərən-

---

* Mirzə Məhəmməd xanın Bibiheybət qəbiristanındakı mərmər qəbir daşındakı ölüm tarixini Ə.Ə.Ələsgərzadə oxumuşdur.

camında idi. O, kəndlərin və digər torpaqların idarə hüququna dair "məliklik" fərmanları verirdi. Məlik titulu hələ XVIII əsrin birinci yarısında mövcud idi. Dərgahqulu xanın fərmanı ilə Abdulla bəy Hacı Səlim bəy oğlu 1731-ci ildə Bakı mahalına məlik təyin edilmişdi.[21] Xanlıq inzibati cəhətdən mahallara bölünürdü. Bakı xanlığında naiblərin idarə etdiyi Abşeron kəndləri mahal sayılırdılar. Naiblərin tabeliyində darğalar, yüzbaşılar, kəndxudalar və digər vəzifəli şəxslər var idi. Naiblər xanların canişini və hakim idilər. Məsələn, Şamaxı naibi olan qardaşı Abdulla bəyin özbaşınalığından narazı olan qubalı Fətəli xan 1770-ci ildə onun yerinə Bakı xanı Məlik Məhəmməd xanı naib qoymuş, lakin camaat ondan narazı olduğundan tezliklə onu bu vəzifədən məhrum etmişdi.[22]

Xanlıqda xırda torpaq sahibləri – ictimai vəziyyətinə görə bəylərdən aşağıda dayanan müafilər də var idi. Müafilər qeyri-nizami feodal döyüşçü dəstələrində (çərik) hərbi xidmətdən başqa Divanın və torpaq sahiblərinin nəfinə bütün vergi və mükəlləfiyyətlərdən azad olunmuşdular. Müafilər xanlığın başlıca hərbi qüvvəsini təşkil edirdilər.[23] Asılı və vergi mükəlləfiyyətli rəiyyətə qarşı qoyulan müafilər xanın feodal döyüşçü dəstələrində bel bağlamaq mümkün olan etibarlı hərbi qulluqçular idi.[24] Tiyuldar bəylərin çıxardıqları silahlı dəstələr və muzdlu qoşunlar da var idi. Bakı xanı Məlik Məhəmmədin hakimiyyəti dövründə xanın qoşunu 500 nəfərdən ibarət idi.[25]

Qmelin 1770-ci ildə Abşeronda olarkən xan qoşun dəstəsinin döyüşçülərini – nökərləri Saray kəndində görmüşdür. Burada 100 nəfər döyüşçü yaşayır və ildə 50 manat məvacib alırdı. Onların böyüyü yüzbaşı isə ildə 200 manat alırdı.[26] Nökərlər də müafilər kimi vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər.

Bakı xanlığının ləğv edilməsindən azacıq sonrakı 1810-cu ilə aid sənəddə vergilərdən azad edilən və vergi verən Bakı əhalisinin sosial tərkibinə dair XVIII əsrin sonlarına da şamil edilə bilən məlumatlar gətirilir.

Əhali sosial əlamətlərinə görə kişilərin sayı üzrə bölüşdürülürdü:

I. Vergilərdən azad olunanlar:

1) bəylər – 98;

2) mollalar, seyidlər və digər din nümayəndələri – 202;

3) nökərlər – 43;

Cəmi – 343 (yaxud təqribən 15,5%)

II. Vergi verənlər:

1) Müxtəlif peşə ustaları – dərzilər, başmaqçılar, dəmirçilər, dülgərlər və bu qəbildən olanlar – 409;

2) "kirjim və qayıq sahibləri" – 45;

3) "Şəhərdə qara işlərlə məşğul olanlar" – 322 (yaxud, təqribən 14%);

Bütövlükdə sənətkarlar və fəhlələr – 776 (yaxud, təqribən 34,5%);

4) tacirlər – 395 (təqribən 18%);

5) xırda alverçilər, o cümlədən "kənd təsərrüfatı xırdavatı alverçiləri" – 366;

Cəmi 761 (yaxud, təqribən 34%).

6) "əkinçilər" – 277;

7) "arabaçılar" – 78;

Cəmi – 365 (yaxud, təqribən 16%).[27]

Qeyd etmək lazımdır ki, 1806-cı ilədək ailəsi ilə birlikdə xanın və saray əyanlarının, eləcə də 1806-cı ildə şəhərdən qaçan bir qrup yerli əsilzadənin Bakıda yaşamasına baxmayaraq, vergi verməyən əhalinin sayı çox idi. Əhalinin xeyli hissəsini limanda işləyən hamballar və qara fəhlələr təşkil edirdi. Şəhər əhalisinin yarısı sənətkarlardan və tacirlərdən ibarət idi.[28]

Sənətkarların və tacirlərin sayına (1170 adam) müvafiq olaraq şəhərdə 707 dükan (onlardan 500-ü əlahiddə idi) və 207 dükanı olan 9 karvansara var idi.[29]

Beləliklə, faiz baxımından (54,5%) mühüm olan bu əhali qrupu Bakının sənətkarlıq və ticarət şəhəri kimi sosial simasını müəyyənləşdirirdi. Kişi əhalisinin təqribən 20,5%-ni təşkil edən sənətkarlar toxuculardan, başmaqçılardan, papaqçılardan, dərzilərdən, çörəkçilərdən, həllaclardan, boyaqçılardan, zərgərlərdən, dəlləklərdən və i.a. ibarət idi.[30]

Böyük miqdarda ruhanilərə – şeyx, molla və seyidlərə müvafiq olaraq, 28 məhəllə məscidi, şeyx-mütəvəllisi və dərviş icması olan Bibiheybət məzarı, əsasən ruhanilərin dərs dediyi 12 məktəb və mədrəsə var idi.

Şəriətə, xanın qoyduğu qanunlara və yerli adətlərə əsasən məhkəmə işlərini icra edən axundlar və qazılar ali ruhaniliyə mənsub

idilər. Ən mühüm caniləri xan özü mühakimə edirdi. Edam cəzasına ancaq xan məhkum edə bilərdi. Mülki və cinayət işləri ilə qazılar məşğul olurdular. İstintaq zamanı işgəncədən istifadə edilirdi. Dabanları çubuqla döymək, bədəni qamçılamaq, göz çıxarmaq, qolları vurmaq, qulaq və burun kəsmək və i.a. cəzalar verilirdi.[31] Cəzaları xan cəlladları icra edirdi.

Böyük kapital və mülk sahibi olan iri tacirlər imtiyazlı sinfə mənsub idilər. Tacirlərin başında xanın müvəkkili olub, onun ticarət əməliyyatlarını aparan, habelə tacirlər arasındakı münaqişələri araşdıran məliki-tüccar dururdu.[32]

Şəhərdə ətraf kəndlərdəki bostanlarında, bağ və əkin yerlərində kənd təsərrüfatı ilə məşğul olan az sayda kəndlilər də yaşayırdı. Burada müxtəlif işlər görən, yaxud bazarda dilənçilik edən qaçqın kəndlilər də var idi.[33] Sənəddə xatırlanan arabaçılar adı altında, göründüyü kimi sudaşıyanlar neft və duzun nəql edilməsi ilə məşğul olan adamlar nəzərdə tutulurdu. Şəhərin ən yoxsul əhalisinə muzdurlar – yelkənli[34] ticarət qayıqlarının matrosları, qayıqların və karvanların boşaldılması və yüklənməsi ilə məşğul olan günəmuzd hamballar daxil idi. Bakıda, bütün orta əsr Şərq şəhərlərində olduğu kimi çoxlu dərvişlər və dilənçilər də var idi. XVIII əsrin sonlarında şəhərin vergi verən əhalisi – rəiyyətin üzərinə müxtəlif vergi və mükəlləfiyyətlər qoyulurdu. Bununla belə, vergilərin ağırlığı bir qədər azalmışdı. İran ağalığından yaxa qurtarılması ilə bağlı rəiyyət şah xəzinəsinə daxil olan bir sıra vergilərdən azad edilmişdi. Vergilər xan və mülkədar bəylər üçün yığılırdı. Eyni vergi gah xan üçün, gah da torpaq sahibi bəy üçün, gah da hər ikisi üçün birlikdə alınırdı.[35] Bizim Bakı xanlığındakı vergilər haqqında məlumatımız çox cüzidir. Onlar ehtimal ki, başqa xanlıqlarda olduğu kimi idi. Bu vergilər, adətən, məhsulun (buğda, arpa və s.) $^{1}/_{10}$ hissəsini təşkil edən mali-cəhatdan ibarət olub, mülkədarın nəfinə yığılırdı; xanın xeyrinə töycü (mali-cəhatın qalan hissəsi–məhsulun $^{1}/_{5}$-i) taxıl və pulla toplanırdı. Bundan əlavə, məhsulla və pulla alınan bayramlıq, darğalıq, küllük, dırnaqlıq, vəzirlik, peşkəş və i.a. adlı vergilər də mövcud idi.[36] Xanın torpaqlarını becərmək üçün biyar haqqı mövcud idi. Xana məxsus neft quyularında işləyən kəndlilər becərmə mükəlləfiyyətini yerinə yetirirdilər. Sonra xan sarayını, dövlət aparatını və qoşunu saxlamaq üçün müxtəlif vergilər gəlirdi.

Qmelinin məlumatına görə, Abşeronda yaşayan, maldarlıq və taxılçılıqla məşğul olan köçəri kəndlilər Bakı xanına 15 manat məbləğində vergi verirdi. Hər ailə isə xanın tələbi ilə hərbi xidmətə tam silahlanmış döyüşçü verməli idi.[37]

1796-cı ilə aid digər bir sənədə görə, evli sakinlər xana 1 manat, subaylar isə 60 qəpik vergi verməli idilər.[38] XIX əsrin əvvəllərində bu vergi "varlı evlərdən 3 manat, ortabablardan 2 manat, kasıblardan isə 1 manat" alınırdı.[39] Xanın bəylərə verdiyi 1675 pud arpadan əlavə, vergilərin illik məbləği 3621 manat idi.[40]

Bundan başqa, xan Suraxanı kəndindəki "Atəşgah"da yaşayan hindli guşənişinlərdən pula alınan vergilərdən, habelə qeyri-müəyyən məbləğ ödəyən hindli tacirlərdən də xeyli gəlir götürürdü. Onlardan şəraitə müvafiq qaydada vergi alınırdı.[41] Qmelinin sözlərinə görə Bakı xanı öz təbəələrindən o qədər çox məbləğdə pul alırdı ki, onlar həmin pulu yığa bilmirdilər.[42]

Vergilərin ağırlığı darğaların, naiblərin və vergi məmurlarının özbaşınalığı üzündən daha da artırdı. Şəhər və kənd rəiyyətindən vergiləri hərbi və digər xidmətlərə görə məvacib əvəzinə tiyuldarlar yığırdı.

Tiyul təsisatı əvvəlki əsrlərdə olduğu kimi davam edirdi. İntəhası fərq onda idi ki, xanlıq dövründə tiyuldar təkcə vergi rentasının və kəndlərdən yığılan digər rüsumların deyil, həm də sakinləri ilə birlikdə kəndlərin özünün də sahibi idi.[43] I Şah Abbasın fərmanının (1615-ci il) surətindən ibarət kitabədə göstərilir ki, Bakıda tiyuldar rəiyyətdən vergi rentasını Divan vasitəsi ilə alırdı.[44] Lakin XVIII əsrin ikinci yarısında bu vergiləri bilavasitə tiyuldar özü yığa bilərdi. Bu dövrdə tiyulun özü kimi, tiyuldar vəzifəsi də irsi olmuşdu.[45]

Başqa xanlıqlarda olduğu kimi Bakı xanlığında da feodal təsisatları, asılı kənd icması, soyurqal, müafi, tiyul, mülk[46] və i.a. mövcud idi. Həmin dövrdə mülk barəsində Bakıxanov yazırdı: "İranda, əvvəllər olduğu kimi, indi də mülkədar satınalınma, yaxud irsi tərpənməz əmlak sahiblərinə deyilir".[47] Tiyulla mülk arasında əsas fərq onda idi ki, tiyul dövlət qulluğu ilə məşrut idisə, mülkə qeyd-şərtsiz sahib olurdular.[48]

XVIII əsrdə bəylər şəhər tacirləri və sələmçiləri kəndlilərdən onların bağlarını, evlərini, əmlakını – mülklərini satın alırdılar.[49] Feodal zadəganlığı, başda xan olmaqla şəhər və kənd əhalisindən topla-

dıqları töycü və vergilərdən böyük miqdarda sərvət qazanırdı. Bəzi sənədlər xanın gəlirini aşkarlamağa imkan verir. 1806-cı ilin məlumatına görə onun illik gəliri xan pulu ilə 116 800 manat idi ki, bu da rus pulu ilə 81760 rubla bərabər idi.[50] Gəlirin məbləği aşağıdakılardan əmələ gəlirdi:

1) ildə 3621 manat və 1675 pud arpa can – vergisi;

2) xalvarı 6 manatdan 12 000 xalvar neft satılmasından əldə edilən 72 000 manat;

3) boyaqlardan gələn gəlir – ildə 1000 manat;

4) zərbxananın gəliri – 10 000 manat;

5) ərzaq mallarından və mal-qaranın kəsilməsindən alınan rüsumlar – təqribən 6000 manat;

6) suiti ovunun 13 illiyə icarəsindən gələn gəlir – 10 000 manat;

7) gətirilən "tay"lardan 1 manat, aparılan taylardan isə 20 qəpik gömrük rüsumu.[51]

Xanın göstərilənlərdən başqa duzdan, xan karvansarasından və onun özünə məxsus olan 4 dükandan, başlıca olaraq, gəmilərlə Həştərxandan gətirilən mallardan toplanan ticarət və gömrük gəlirləri də var idi. Şəhərdə asayişə, sakinlərin evlərinin, bazar-dükanlarının mühafizəsinə nəzarət edən polis vəzifəsini yerinə yetirən məmurları (11 nəfər) nəfinə yığılan darğalıq deyilən vergi də var idi.[52]

Xanın zərbxanasında əridilmiş gümüş rus manatından və aşqar qatışıq İran gümüşündən "abbası" sikkəsi kəsilirdi; hər rus manatından 10-12 abbası çıxırdı.[53] Bakı abbasısı ən aşağı əyarlı abbası idi. Qmelinin sözlərinə görə hər abbasıda 8 qəpiklikdən də az gümüş var idi.[54] Bundan əlavə, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Bakıda "Badkubə" adlı mis sikkələr də kəsilirdi.[55] Göstərilən 10000 manatın çoxunu; 5, yaxud 6 minini xan alırdı, qalan pullar isə quyuların işlədilməsinə, neftin daşınmasına, duz istehsalına, qalanın təmirinə və bəylərin məvacibinə sərf olunurdu.[56]

Xanın gəlirinin bir sıra maddələri icarəyə verilirdi. Bakı xanlığında əsas icarə malları aşağıdakılar idi: 1) qara neft, 2) ağ neft, 3) duz, 4) boyaqlar, 5) sallaqxanalar, 6) dükanlar, 7) zərbxana, 8) darğalıq-darğaların nəfinə yığılan vergi və i.a.[57]

Neft quyularının və duz mədənlərinin çoxunun sahibi olan xan neft və duzun icarəsindən əvvəllər şah xəzinəsinə gedən xeyli gəlir götürürdü. Qmelin Bakı əhalisinin dilindən xanı misilsiz dərəcədə

varlı adlandırır.[58] Əksəriyyəti icarəyə verilmiş çoxsaylı vergi və rüsumlar şəhər ticarətinin inkişafına ağır təsir göstərirdi. Öz xeyirləri üçün icarə haqqından xeyli artıq məbləğdə pul alan icarədarlar şəhər və kənd əhalisini qarət edirdilər. İcarədarlar, adətən, icarə pulunu xanın xəzinəsinə ödəyir, sonra isə həmin məbləği şəhər əhalisindən artıqlaması ilə yığırdılar.

Gömrük rüsumları – xanın torpaqlarından keçirilib aparılan bütün mallardan alınan ticarət vergisi – rahdari şəhər ticarətinin inkişafı üçün böyük əngəl idi. Məsələn, XVIII əsrin 70-ci illərində içində aparılan maldan asılı olmayaraq, hər kisə üçün bir abbası, Bakı neftinin hər tuluğu üçün isə yarım abbası gömrük rüsumu alınırdı.[59] Qmelinin qeyd etdiyinə görə gömrük məmurları "tamamilə vicdansız olub, öz mənfəətləri üçün daha çox tələb edirdilər".[60] Bütün bu töycülər, vergilər, rüsumlar Abşeronun şəhər və kənd rəiyyətinin üzərinə ağır yük kimi düşərək onları müflisləşdirirdi.

Rəiyyətin ağır vəziyyəti, şəhərlərdə feodalların özbaşınalığı müxtəlif formalarda – kəndlilərin bir xanlıqdan başqasına qaçması, mülkədarların öldürülməsi, mülklərinin yandırılması və i.a. – təzahür edən sinfi mübarizəni kəskinləşdirirdi. Kəndlilər bir çox hallarda şəhərlərdə gizlənərək, dilənçilik içərisində iş axtarırdılar.

5. SURAXANI KƏNDİNDƏKİ HİND ATƏŞGAHI

Bakı yaxınlığındakı ən maraqlı və özünəməxsus tarixi memarlıq abidələrindən biri də atəşpərəst hindlilərin "Atəşgah" adlanan köhnə məbədidir. O, dənizdən azacıq aralı, Abşeron yarımadasındakı Suraxanı kəndinin cənub-şərq qurtaracağında, neft mədənlərinin yaxınlığında olub, hal-hazırda hər tərəfdən onların əhatəsindədir. Abidənin tikildiyi yerin relyefi düzənlikdir. Hücrələr və ibadətgah XVII-XIX əsrlər ərzində müxtəlif vaxtlarda tikilmişdir. Hücrələr XVIII əsrin sonlarında ümumi hasara alınmışdır. "Atəşgah" Bakıda yaşayan, üzvlərinin əksəriyyəti Şimali Hindistandan çıxmış və sikhlər kastasına mənsub olan hind icması tərəfindən inşa edilmişdir.[1]

Karvansaranı xatırladan bütün tikili planda qapalı beşguşə formasında olub, vaxtilə zəvvarlara xidmət üçün istifadə edilən 24 hücrədən və bir otaqdan ibarətdir. Qapalı beşguşəli divarların əmələ gətirdiyi həyətin ortasında rotonda şəklində ibadətgah var. Onun

ortasındakı quyudan məbədin günbəzinin dörd küncü üzərində də yanan qaz (metan) çıxardı. Məbəd özü hər tərəfdən açıq olan dörd-bucaqlı tikilidən ibarətdir. Məbədin Balaxanaya baxan şimal divarındakı tağın üstündə hind dilində kitabə quraşdırılmışdır. Binanın dörd küncündə yanar qazın daxil olduğu dörd kvadrat kərpic boru var. Hücrələr pəncərəsizdir. Hücrələrin girişi üzərində hind dilində kitabələr həkk olunmuşdur. İyirmi belə kitabədən biri farscadır. Məbədin şimal-şərq tərəfdən yaxınlığında, hal-hazırda tamamilə daşla doldurulmuş dördkünc çala var. Vaxtilə burada ölmüş hindlilərin cəsədləri "müqəddəs od"da yandırılırdı. Cənub-şərq tərəfdə isə yenə də daşla doldurulmuş su quyusu var. Suraxanı "Atəşgah"ı məbədin özündən, hind guşənişinlərinin hücrələrindən və zəvvarlar üçün otaqlardan ibarət idi.[2] Atəşgahı göründüyü kimi, bu abidəni sifariş vermiş hindlilərin planı üzrə yerli ustalar tikmişlər. Məlum olduğu kimi Bakı bölgəsi hələ erkən orta əsr mənbələrində əbədi odların yandığı yer kimi qeyd edilmişdir. Bu haqda ilk məlumata V əsr Bizans müəllifi Panili Priskdə rast gəlinir. Abşeron yarımadasında – Pirallahı adasında, Suraxanı kəndində, Bakı buxtasında, Şubanı dağında yanar qaz çıxmasını orta əsr erməni, VII-X əsrlər ərəb müəllifləri – əl-İstəxri, Məsudi və b., daha sonrakı dövr Şərq və Qərbi Avropa mənbələri də göstərmişlər. Təsadüfi deyil ki, İçəri-şəhərdəki Cümə məscidinin atəşpərəst zərdüştilərin məbədgahının yerində tikilməsi haqqında rəvayət Bakı əhalisi arasında indiyədək yaşayır.

IX əsrdən başlayaraq və sonralar ərəb, fars və türk mənbələrində Bakı və onun ətrafından atəşpərəstlərin yaşadığı əbədi odlar şəhəri gələn kimi danışılır. Ehtimal ki, Suraxanıda müqəddəs oda sitayişə gələn atəşpərəst zərdüştilərin ibadətgahı olmuşdur. Ərəblərin Azərbaycanı və Bakını istilasından, əhalinin islamı qəbul etməsindən sonra zərdüştilərin "Atəşgah"ı süquta uğramış və mənbələr bir daha ondan danışmamışlar. Suraxanıda oda sitayiş XV əsrdən sonra Hindistanla iqtisadi və mədəni əlaqələrin inkişafı ilə əlaqədar yenidən başlamışdır. Hindistanla hələ qədimlərdən əlaqələr mövcud olmuşdur. Bunu Azərbaycanın bir sıra rayonlarında və Abşeronda "kauri" balıqqulağının tapılması da göstərir. Bu balıqqulağı Xəzər dənizi faunasına mənsub deyil. Hind okeanında və digər ölkələrdə

təsadüf edilən həmin balıqqulağından qədim dövrlərdə mübadilə vasitəsi, pul-sikkə kimi istifadə olunurdu. Mingəçevirdə və Azərbaycanın digər yerlərində Tunc dövrünə və erkən orta əsrlərə aid çoxlu kauri tapılması Azərbaycanın Hindistanla, ehtimal ki, İran vasitəsilə ticarət əlaqələrinin mövcudluğuna dəlalət edir. Hindistanla iqtisadi və mədəni əlaqələr orta əsrlərdə xüsusilə güclənmişdi. Rusiyadan Çinə qədər bütün torpaqların monqol hakimiyyəti altında birləşdiyi XIII əsrdən etibarən beynəlxalq ticarət üçün şərait yaranması ilə bağlı olaraq Azərbaycanın uzaq ölkələr – Hindistan və Çinlə əlaqələri xeyli genişləndi.

XV əsrdə Bakıda, Şamaxıda, Təbrizdə və Azərbaycanın digər şəhərlərində hind tacirlərinin koloniyaları mövcud olmuşdur. Bu şəhərlərdə onların öz karvansaraları var idi. Köhnə Bakı qalasında (İçərişəhərdə) XV əsrə aid Multanı hind karvansarası bugünədək qalmışdır. Başlıca olaraq Şirvanda – Şamaxıda, Ərəşdə və digər yerlərdə istehsal olunan xam ipək alan hind tacirləri Azərbaycanda XV əsrdə və sonralar ticarət etmişlər. Mənbələrdə XVII əsrdə Hindistandan Bakı yaxınlığındakı Suraxanıya əbədi oda sitayiş üçün hind zəvvarlarının gəldiyi qeyd edilir.

XVIII əsrdə varlı hind tacirləri Suraxanıda nadir abidə – od məbədi və hindli zəvvarlar üçün hücrələr tikdirdilər. Atəşgahda yaşayan guşənişin oda səcdə edir, tərki-dünya (asket) həyat tərzi sürərək, ruhlarını xilas və bədənlərini tələf etməyə çalışırdılar. Atəşgahdakı kitabələrin oxunması Suraxanı atəşpərəstlərinin hind mənşəli olmasını, eləcə də hücrələrdən, karvansaradan və ibadətgahdan ibarət olan Atəşgahın ən yüksək tərəqqiyə çatdığı XVIII əsr ərzində müxtəlif vaxtlarda tikildiyini dəqiq müəyyənləşdirir. Hücrələr XVIII əsrin sonlarında ümumi hasara alınmışdır.[3] Məbəd bu günədək həmin şəkildə qalmışdır. Şardenin məlumatlarına görə XVII əsrin 60-cı illərində Suraxanı od məbədinə həm gəbr-pars, həm də hindli atəşpərəstlər ziyarətə gəlirdilər.[4] Atəşgahın 8 saylı hücrəsindəki farsca tərtib olunmuş kitabə 1745-ci ildə buraya iranlı zərdüştilərin gəldiyinə dəlalət edir. Bu, ibadətgahın hələ hindlilərə qədər zərdüştilərin od məbədi olduğunu göstərir.

1950-ci ildə hind alimi C.M.Unvala Atəşgahdakı 16 kitabənin, o cümlədən farsca kitabənin özünün təklif etdiyi müxtəsər oxunuşu

ilə fotoşəklini dərc etdirmişdir. 1963-cü ildə M.S.Nemətova həmin kitabənin oxunuşunu və tərcüməsini dərc etdirərək, mənzum mətnin mənasını başa düşmədən bəzi sözlərin (onların bəziləri – badek, sad, zu, sənamәd – düzgün oxunmamışdı) tərcüməsini vermişdir.[5] Farsca kitabənin təqdim etdiyimiz oxunuşunda və tərcüməsində biz kitabənin ümumi məzmununa istinad etmiş və mənzum formanı nəzərə almışıq.

1. Atəşpərəstlər çılpaq dağlar kimi cərgəyə düzülmüşlər.
2. İsfahanlı Badek (Badkübə, yəni Bakı – *S.A.*) şəhərinə çatdı.
3. O dedi: qoy mehmannavaz məbədə yeni il uğurlu gəlsin.
4. (Onun) mənzili (yatağı) səki oldu. Qız bürcü (şəmsi İran ilinin altıncı ayına uyğun gələn zodiak işarəsi), 1158-ci il (eramızın 1745-ci ilinə müvafiqdir – *S.A.*).

Kitabə üçüncü şəxsin adındandır. Birinci misrada – "Atəşpərəstlər çılpaq dağlar kimi cərgəyə düzülmüşlər" – kitabə müəllifi məbəddə gördüyü cərgəyə düzülmüş lüt hindlilərin onda oyatdığı ilk təəssüratı vermişdir. İkinci misrada müəllif özü haqqında danışır. İranın İsfahan şəhərindən gəldiyini və Badek şəhərinə çatdığını bildirir. Məlumdur ki, XVII və XVIII əsr Şərq mənbələrində Bakının adı Badkubə kimi yazılırdı. Şerin qafiyəsini saxlamaq üçün Badekubə sözü ixtisar şəklində – Badek kimi yazılmışdır. İranlı zərdüşti Bakıya, yəni Suraxanıya yeni ildən sonra gəlmişdir. Bu, kitabənin qonaqcıl məbədə xeyir-dua verilən üçüncü misrasından aydın olur. Dördüncü misradakı "rəf" sözündə yer çatmadığından nöqtə "f" hərfindən bir qədər sağda qoyulmuşdur və buna görə də əvvəlki müəlliflər tərəfindən heç bir mənası olmayan "zu" kimi yanlış oxunmuşdur. 4-cü ibarə – "(onun) mənzili (yatağı) səki oldu" – hücrələrində çarpayı əvəzinə daş səkilər olan zəvvarların məişət şəraitini dəqiq göstərir. Sonrakı "snabəl" sözü Qız bürcünü, yəni şəmsi İran ilinin altıncı ayına müvafiq gələn zodiak işarəsini bildirir və aşkara eramızın 1745-ci ilinə uyğun gələn 1158-ci ildə həkk olunmuşdur. Bu kitabə göstərir ki, zərdüşti gəbrlər öz ibadətgahlarını unutmamış və həmin ibadətgah artıq bir neçə əsrdən bəri hindlilərin od məbədinə çevrilsə də, əsrlər boyu onu ziyarət etmişlər.

Suraxanı Atəşgahının beş kitabəsi V.M.Sısoyev tərəfindən Hindistana göndərilmiş və orada oxunmuşdur. Həmin kitabələr bu əsə-

rin müəllifi tərəfindən ingilis dilindən rus dilinə tərcümə olunaraq 1946-cı ildə dərc edilmişdir.

İngilis səyyahı Cekson Atəşgahda 18 kitabəni qeyd etmişdir. Onlardan on beşi ithafdır. İlk kitabə 1713-cü ilə, sonuncu 1827-ci ilə aiddir. Kitabələrdə hücrələrə yardım göstərmiş şəxslərin adları xatırlanır. Onlar sanskrit sözləri qarışmış hind dilindədir. Kitabələrin bəziləri qurmukhi, bəziləri isə naqari şrifti ilə yazılmışdır.

Atəşgahda yaşayan hindlilərin çoxu Hindistanın şimalından – Lahordan, Tenesserimadan, Kaçbudidən, Multandan və i.a. gəlmişdilər və hindistani dilində danışırdılar. Həmvətənlərinin – hind tacirlərinin, xüsusilə Salyan balıq vətəgələrini icarəyə götürmüş Sobr Moqundasın pul yardımından istifadə edən hindlilər günlərini rahatcasına müqəddəs odu sakit-sakit seyr etməklə keçirirdilər. İbadət üçün isə brəhmən var idi. 1860-cı ildə akademik B.Dorn Atəşgahda olmuşdur. Bu zaman məbəddə beş hindli var idi. Yerli Bakı sakinlərindən biri B.Dorna məlumat vermişdir ki, hindlilər dörd təriqətə bölünürdülər: birinci təriqətin ardıcılları ölülərini odda yandırırdılar (atəşilər), ikincilər onların külünü küləyə sovururdular (badilər), üçüncülər külü suya axıdırdılar (abilər), dördüncülər meyitləri torpağa basdırırdılar (xakilər). Atəşgah 1880-ci ilədək – tək qalmış sonuncu hindli Hindistana gedənədək mövcud olmuşdur.

NƏTİCƏ

Azərbaycanın qədim şəhərlərindən olan Bakı Yaxın və Orta Şərqdə erkən orta əsrlərdən məlum olmuşdur. Onun iqtisadiyyatının əsasını neft və duz istehsalı, Bakı və Abşeron bölgəsində becərilən boyaqotu və zəfəran təşkil edirdi. Onların həm quru karvan yolları, həm də dənizlə uzaq Şərq ölkələrinə ixracı feodal şəhərinin inkişafının mühüm amili idi. Şirvanın tərkibinə daxil olan Abşeron təbii və təsərrüfat xüsusiyyətləri sayəsində ondan fərqlənən əlahiddə coğrafi, iqtisadi və siyasi vahid idi. Abşeronun iqtisadi və siyasi mərkəzi olan Bakı şəhəri təsərrüfat baxımından onun kəndləri ilə bağlı olub, şirvanşahdan vassal asılılığında olan pərakəndə feodal torpaqlarının vahid dairəsini təşkil edirdi.

İstər köhnə Bakı qalasında, istərsə də Abşeronda səpələnmiş, bugünədək mövcud olan XI-XV əsrlərə aid çoxsaylı memarlıq abidələri – əla yonulmuş əhəngdaşından inşa edilmiş qala istehkamları, saray tikililəri, məscidlər Abşeronun feodal pərakəndəliyinə, diyarın vergi mükəlləfiyyətli əhalisini istismar edən feodalların zənginliyinə dəlalət edir.

Şəhərin iqtisadi və mədəni inkişafı rəvan getməmişdir. Bakıda çoxlu miqdarda neft və duz hasilatına dair erkən məlumatlar ərəb hökmranlığı dövrünə təsadüf edir.

Bakı XIII əsrin 30-cu illərinin sonunadək Şirvan vilayətinin varlı, iqtisadi və ticarət mərkəzlərindən biri olmuşdur. XIII əsrdə monqol istilası və ölkənin viran edilməsi şəhərin iqtisadiyyatını dağıtdı, Abşeronun və Bakının neft təsərrüfatını müvəqqəti olaraq pozdu. Lakin sonralar, XIII əsrin sonunda, XIV-XV əsrlərdə Bakı Xəzər dənizində başlıca liman və Dərbəndilər sülaləsi Şirvanşahlar dövlətinin paytaxtı olduqda o, nəinki Azərbaycanın, eləcə də bütün Yaxın Şərqin mühüm şəhərlərindən birinə çevrildi. Bakı beynəlxalq tranzit ipək ticarətində və Şərqlə Qərb arasında digər malların ticarətində fəal iştirak edirdi. Bu, feodal şəhərinin tərəqqi dövrü idi.

XVI əsrdəki dağıdıcı müharibələrə, Səfəvilər dövlətinə birləşdirilmiş Şirvandakı bir sıra antifeodal üsyanlara baxmayaraq, Volqa-Xəzər yolunun açılması ilə əlaqədar Bakının iri ticarət mərkəzi və Xəzər dənizində mühüm liman kimi əhəmiyyəti azalmadı.

XVI əsrin sonlarında-XVII əsrin əvvəllərindəki türk işğalından sonra Bakı yenidən Səfəvilər dövlətinin tərkibinə daxil oldu. Mərkəzi hakimiyyətin güclənməsi XVII əsrin 40-cı illərindən etibarən ölkənin məhsuldar qüvvələrinin inkişafını sarsıdan feodal araçəkişmələrinin və dağıdıcı müharibələrin kəsilməsi Bakının şəhər həyatının inkişafına əlverişli təsir göstərdi. Şəhərə çoxlu əcnəbi tacirlər və səyyahlar gəlirlər. Onlar şəhərin təsərrüfat həyatının canlanmasını, sənətkarlıq istehsalının artmasını, ölkədən kənara aparılan neft və duz hasilatını qeyd edirlər. Şəhərin sosial həyatında tacirlərin rolu artır. Şəhərin və ölkənin bütün daxili və xarici ticarəti onların əlində cəmlənmişdi. Bakı Xəzər dənizində mühüm liman idi. Buradan tranzit dəniz yolu ilə Avropaya, Rusiyaya və digər ölkələrə başlıca olaraq Şamaxı ipəyi və başqa sənətkarlıq məmulatları daşınırdı. Bakının feodal inkişafı XVII əsrin sonlarınadək davam etmişdir. Bundan sonra nəinki təkcə Azərbaycanda, eləcə də bütün Ön Asiya ölkələrində mövcud olan şəhər həyatının tənəzzülü müşahidə edilir.

Bakıda şəhər həyatının XVIII əsrin birinci yarısı ərzində davam edən düşkünlüyü təkcə ticarət yollarının dəyişməsi, feodal ara müharibələri və ölkənin dağılması ilə deyil, həm də Şərqdə odlu silahın yayılması və neftin hərbi texnikada istifadə olunmasına ehtiyacın aradan qalxması ilə bağlı neft ixracının azalması ilə izah edilir. XVIII əsrin ikinci yarısında Bakıda şəhər həyatının və ticarətinin bir qədər dirçəlməsi müşahidə olunur. Bakı xanlığı 1806-cı ildə çarizm tərəfindən işğal olunduqdan, xarici və daxili müharibələrə son qoyulduqdan sonra və bir sıra digər amillərlə əlaqədar məhsuldar qüvvələrin artmasına, kapitalist münasibətlərinin inkişafına və ölkədə neft sənayesinin yüksəlişinə əlverişli zəmin yarandı.

Əlavə 1

CONCLUSION

The city of Baku being one of the ancient cities of Azerbaijan was well-known in the Near and Middle East in early Middle Ages as Bagavan – the God's city the connection of flaming gas. The basis of its economy was oil and salt output? Madder and saffron cultivation in Baku and Absheron areas which exportation to the remote countries of the East either by land caravan ways or sea had served as an important factor in its feudal development/ Absheron being a member of Shirvan thanks to the natural and economic features presented itself isolated from it geographical, economical and political unit. The city of Baku, economical and political centre of Absheron, in economical and political is economically connected with its villages putting together the unit region of feudal scattered ownerships, former in vassal age from Shirvanshah.

Numerous preserved architectural monuments which date from the XII-XV centuries scattered both in an old fortress of Baku and Absheron – fortress constructions, palace buildings, mosques which were built by lime stones of excellent boards – testify about feudal scattering of Absheron, feudal wealth who exploited taxable population of the region.

Economical and cultural development of the city was happened uneven. The earliest information about Baku which told about the great oil and salt outlets, concerned the period of Arabian Empire.

For the end of 20-s of XIII century Baku was one of the richest economical and commercial centers of Shirvan region. Mongolian invasion and destruction of the country in the XVIII c. undermined the economy of the city and disturbed oil industry of Absheron and Baku. However, later at the close of XIII c., in XIV-XV centuries Baku became the main port on the Caspian Sea and the capital of Shirvanshah State of Derbend dynasty. Baku was one of the important cities not only of Azerbaijan, but also of all the Near East. Baku took an active part in the international transit trade with silk and other goods between the East and the West. This was the period of feudal flourishing of the city.

Despite of devastating war of XVI c. and a number of anti-feudal revolts in Shirvan which had been joined to Sefevid State, the importance

of Baku as an important commercial centre and port on the Caspian Sea did not relax in connection with the making of Volga–Caspian way.

After capturing Baku by Turks at the end of XVI c. and the beginning of XVII c. Baku again became a member of Sefevid State. Reinforcement of the central power, abolishment of feudal intestine and ruinous wars since 40-s of XVII pernicious influencing on the developing of the country's productive forces were reflected favorable on the developing of Baku city life. The city was visited by a number of foreign merchants and travelers who marked the reviving its economical life, growth of handicraft production, the great oil and salt output exported to the outside of the country. Was increasing merchants' role in the social life of the city? In their hands were concentrated all external and internal trades of the city and country. Baku was the important port of the Caspian Sea through which were exported transit sea ways mainly Shemakha silk and other handicraft goods to Europe, Russia and other countries. Feudal flourishing of Baku lasted till the end of XVII c., after what was marking the decadence of city life and trade which took place not only in Azerbaijan but also in all countries of the Middle East.

The decadence of the city life in Baku lasting during the first half of XVIII c. was explained not only with displacing the trade ways, feudal intestine wars and ruinous of the country but also with the reduction of exporting oil in the connection with the spreading of firearms in the East and there was no need for using oil in military techniques. In the second half of XVIII c. is observed several reviving of city life and the trade in Baku. After the conquest of Baku Khanate by czarism in 1806, ceasing the external and internal wars and a number of other factors appeared preconditions promoting the growth of productive forces, development of capitalist relations and the great raising of oil industry in the country.

Əlavə 2

A.Bakıxanov əfşar-türk tayfasından olan iri feodal Aşur xan haqqında məlumat verərək yazır ki, Azərbaycan sərdarı Aşur xan özünü Hüseyn şahın oğlu kimi qələmə verən fırıldaqçı Sam Mirzə ilə mübarizə aparmaq üçün Fətəli xan Əfşarla birgə öz qoşunu ilə İrəvandan getdi. H.1155 (1743)-ci il dekabrın 24-də qazıqumuqlu Surxay xanın oğlu Məhəmməd ləzgi və Şirvan qeyri-nizami qoşun dəstələri ilə Aşur xanı və Fətəli xanı Ağsu şəhərinin yaxınlığındakı şah bağının yanında qarşıladı. Burada döyüş başladı. Fətəli xan və Aşur xan düşmənə qalib gəldilər. Məhəmməd 1000 nəfərə yaxın itki və əsir verərək yaralı halda Dağıstana qaçdı. Sam Mirzə isə Gürcüstana çəkildi. Bu qələbədən sonra Aşur xan və Fətəli xan az sayda ləzginin sığındığı Ağsu şəhərini mühasirəyə aldılar və bir neçə gündən sonra ələ keçirib talan etdilər. Aşur xan nəslinin 1743-cü ilə aid ailə xronikasında daha sonra xəbər verilir ki, Nadir şah Abşeronda üç kəndi – Sabunçu, Zabrat və Keşlə kəndlərini Aşur xana bağışlamış, vilayətdə asayişə nəzarət etməyi və onu düşmənlərdən qorumağı ona tapşırmışdı. Beləliklə, həmin neftverən torpaqlar, Aşur xanın rus çarizmi Azərbaycanı işğal etdikdən sonra rus inzibati orqanları tərəfindən Aşurbəyovlar soyadı ilə zadəgan nəsli kimi qeydə alınan törəmələrinin mülkiyyəti kimi təsbit olunmuşdur. Aşur xan nəslinin 1743-cü ildən bəri şəcərəsini (Nabat xanım istisna olmaqla, ancaq kişi nəslinin) veririk.

QEYDLƏR

1. **Əliyar bəy** – Bəy titulundan imtina etmiş, özü və övladları rəiyyət olmuşlar (şəcərədəki qeyd).

2. **Nabat xanım Qoca bəy qızı** (1795-1912) – Adlı-sanlı, dövlətli, Bakı xanımlarından, şairə. Xeyriyyəçilik fəaliyyəti ilə tanınmışdır (Şollar su kəmərinin çəkilməsində, Sabunçudakı xəstəxananın, Bakı yoxsulları üçün hamamın və s. tikilməsində iştirak etmişdir), İnşası 1914-cü ildə başa çatdırılan böyük, yaraşıqlı Təzəpir məscidini tikdirmişdir. Nabat xanım 117 yaşında vəfat etmiş, Təzəpir məscidinin astanasında dəfn olunmuşdur.

Teymur bəy Qara bəy oğlu – Neft sahibkarı (XIX əsrin 30-cu illərinin sonlarında anadan olmuş – 1908-ci ilin sentyabr ayında vəfat etmişdir). Cənazəsi sərdabədə saxlanılmış və vəsiyyətinə görə bir ildən sonra Arvadı Tutu xanımın və bir neçə qohumunun müşayiəti ilə gəmilə İrana, oradan isə İraqa aparılaraq Kərbəlada dəfn olunmuşdur. Qəbri üstündə məscid tikilmişdi.

Əli bəy (1878-yanvar, 1940) və **Balabəy** (1882-1937) – Teymur bəyin oğulları, neft sahibkarları. Əlibəy Bakıda orta təhsil almışdır. Bababəy rus gimnaziyasını və Tiflisdə iqtisadiyyat kurslarını bitirmişdir. Mesenat olmuş-dur. Ruhulla Axundovu (realni məktəb), Azərbaycan EA prezidenti Mirəsəddulla Mirqasımovu (Odessada Tibb İnstitutu), Hənifə Pirverdiyevi (realni məktəb) və s. oxutmuşlar. Bakı su kəmərinin çəkilməsində, Sabunçudakı xəstəxananın, Peterburqda böyük məscidin və s. tikilməsində iştirak etmişlər. Balabəy 1935-ci ildə həbs olunub Qazaxıstana sürgün edil-mişdir. Ölümündən sonra bəraət almışdır.

Rəşad bəy Balabəy oğlu (1909-1944) – Hərbi həkim. Tibb institutunu bitirən kimi cəbhəyə getmiş, 1944-cü ilin sentyabr ayında Macarıstanda, sovet qoşunları Budapeşti alarkən ölümcül yaralanmış və orada – kənddə dəfn edilmişdir.

Hacı Mehdiqulu bəy Əhməd bəy oğlu (1837-ö.1920-ci illər) – 1894-cü ildə Bakı şəhərinin kübar və zadəganlarının nümayəndəsi kimi qiymətli hədiyyələrlə (daş-qaşla bəzədilmiş qızıl xəncər və s.) II Nikolayın tacqoyma mərasimində iştirak etməyə göndərilmiş və bu münasibətlə Stanislav ordeni ilə təltif olunmuşdu.

İsa bəy (1881-1937) – Tanınmış siyasi və ictimai xadim. 1937-ci il dekabrın 31-də həbs edilib. Güllələnmişdir.

Hacı İbrahim Əjdər bəy Musaxan bəy oğlu (1858-1923) – Təzə bazarın qənşərindəki Göy məscidi tikdirmiş və orada da dəfn olunmuşdur.

ƏDƏBİYYAT

Mənbələrin və ədəbiyyatın qısa xülasəsi

[1] Крачковский И.Ю. Избранные сочинения, т.IV, М.-Л., 1957

[2] Əlyazmasını istifadə etdiyimiz mikrofilmi Azərbaycan EA Şərqşünaslıq İnstitutunun kitabxanasında saxlanılır.

[3] Notices extraits des manuscrits de la Bibliotheque bu Roi, t.II, Paris, 1789; Буниятов З.М. Изд. текста, перевод прим. и прил. "Китаб талхис ал-асар ва аджаиб ал-малик ал-каххар". М., 1971.

[4] Məhəmməd ibn Əhməd İyas əl-Hənəfi. Naşq əl-əzhər fi əcaib əl əktar (Asiya xalqları İnstitutunun əlyazması, B-1033).

[5] Biz "Hüdud əl-aləm" in prof. V.Minorski tərəfindən geniş və çox qiymətli şərhlərlə çapdan buraxılmış ingiliscə tərcüməsindən də istifadə etmişik. Bax: Hudud al-alam, translated and explained by V. Minorsky, E. J. W. Gibb. Memorial Series, New Series, XI, London, 1937.

[6] Миклухо-Маклай Н. Д. Географическое сочинение XIII в. на персидском языке. Ученые записки Института Востоковедения, т.IX, М-.Л., 1954.

[7] Hamdallah Mustawfi of Qazwin, ed. G. Le Strange, ser E.J.W. Gibb, XXIII, Leiden, 1915.

[8] Əmin Əhməd ər-Razi. Həft İqlim. Asiya xalqları İnstitutunun əlyazması Peterburq şöbəsi, RF №60(6).

[9] Рашид ад-Дин. Сборник летописей, т.III. Перевод А.К.Арендса, М-.Л., 1946; Fəzlullah Rəşid əd-Din. Cəmi ət-təvarix, t.III. Сост. научно-критического текста на персидском языке. А.А.Ализаде, Баку, 1957.

[10] Həsən bəy Rumlu. Əhsən ət-təvarix, t.XI, рук. ЛГПБ, каталог Дорна, №287.

[11] A Chronicle of early Safawis being the Ahsanu't-tawarikh of Hasan-i Rumlu, edited by C.N.Seddon, Gaekward's Oriental series, v.I. XLVII (Persian text, v.II, LXIX (English trans). Baroda, 1931, 1934.

[12] Storey S.A. Persian Literature, a bio-bibliographical Survey, И.П.Петрушевский. Иранские источники по истории Азербайджана, вып.I. Баку, 1949.

[13] L.L.Bellan. Shah Abbas I, sa vie, son histoire, 1932. См. Storey, op. cit. sect. II, fasc. 2, pp.310-312; И.П.Петрушевский. Очерки по

истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Л., 1949; Rəhmani A.A. "Tarix-i aləm aray-i Abbasi" Bakı, 1960.

[14] RF EA Asiya xalqları İnstitutunun Sankt-Peterburq şöbəsində, Britaniya muzeyində və i.a. Bax: Миклухо-Маклай Н.Д. Описание таджикских и персидских рукописей Института Востоковедения АН РФ, М.-Л., 1955; И.Ю.Крачковский. Избранные сочинения, т.IV, М.-Л., изд. АНРФ, 1957, с.536-538.

[15] Tadhkirat al-Muluk. A Manual of Safavid Administartion translated and explained by V.Minorsky. "E. J. W. Gibb Memorial" Series, New Series, XVI, London, 1943.

[16] Islam ansiklopedisi. 4 cilt. 33 cuz, Istanbul, 1947, s.400-412

[17] Övliya Çələbi. Səyahətnamə. Dar-sa'ədət, c.II, h.1314

[18] Ашурбейли С.Б. Сияхат-намэ Эвлия Челеби как источник по изучению городов Азербайджана в первой половине XVII века, XXV Международный конгресс востоковедов. Доклады делегации СССР. М., 1960.

[19] Jourdain Catalani de Severas. Les Merveilles de l'Asie (Mirabilia Descripta) ed. H.Cordier, Paris, 1925.

[20] Mémorie de la province du Sirvan, en forme de lettre addressée au pére Fleuriau (Lettres curieuses et édifiantes etc), t.II, Lyon MDCCCXIX.

[21] Voyages d'un Missionaire de la Compagnie de Jesus en Turquie, en Perse, en Arménie, en Arabie et en Barbarie, Paris, MDCCXXX.

[22] A Chronicle of the Carmelites in Percia, and the Papal Mission of the XVII and XXVIII centuries, vol. I, 1939, London.

[23] Fr. Antoine de Gouvea. Relation des grandes guerres et victoires obtenues par le roy de Perse Chah Abbas contre les empereurs de Turque Mahomet et Achmet son fils, Rouen, 1646.

[24] R.Hakluyt. The principal navigations, etc. v.I, London, 1600, p.347

[25] R.Hakluyt. The principal navigations, etc. v.I, London, 1600, p.400

[26] Yenə orada, s.422-426.

[27] Yəqin ki, söhbət, mətndən göründüyü kimi, qalanın yerli əhalidən olan komendantından gedir.

[28] E.Kaempfer. Amoenitatum exoticarum politico-physiko-medicarum, Faciculi V, 1712. Lemgo.

[29] Полиевктов М.А. Европейские путешественники XIII-XVIII вв. по Кавказу. Тифлис, 1935.

[30] Соймонов Ф.И. Описание Каспийского моря... Ежемесячные сочинения. СПб., 1763, 1-ое полугодие.

[31] Гербер И.Г. Продолжение известия о находящихся на западной стороне Каспийского моря между Астраханью и рекою Курой народами и землями и о их состоянии в 1728 г. (Сочинения и переводы к пользе и увеселению служащие. СПб., Октябрь, 1760).

[32] Гмелин С.Г. Путешествие по России для исследования всех трёх царств в природе, ч.3, СПб., 1785.

[33] Рукописный отдел Ленинградского отделения ИНА АН СССР. Архив Б. Дорна, ф.15, №44 (548) 8; Петрушевский И.П. Персидские официальные документы как источники по истории феодальных отношений в Азербайджане и Армении в XVI-XVIII вв. Проблемы источниковедения, изд. Ин-та истории АН СССР, т.III, М.-Л., 1940.

[34] Köhnə Bakı qalası və Abşeron ərazisində qorunub saxlanmış kitabələr Ə.Ə.Ələsğərzadənin və M.X.Nemətovanın əsərlərində dərc olunmuşdur.

[1] Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, 1985, с.64.

[2] Yenə orada, s.43-44.

[3] Yenə orada, s.64.

[4] Джафаров А.К. Мустьерская культура Азербайджана. Баку, 1983, с.59-63.

[5] Джафарзаде И.М. Гобустан. Наскальные изображения. Баку, 1973, с.6.

[6] Джафарзаде И.М. Гобустан, с.8.

[7] Джафарзаде И.М. Гобустан. с.18; Формозов А.А. Памятники первобытного искусства. М., 1966, с.64-65.

[8] Джафарзаде И.М. Гобустан, с.12.

[9] Гаджиев Д.В., Рустамов Д.Н. Рисунки рыб в наскальных изображениях Гобустана. Баку, 1987, с.35-44.

[10] Страбон. География. Пер. Г.А. Стратановского. М., 1964, кн.XI, VIII, с.485.

[11] Аразова Р.Б. Каменные орудия труда ранних земледельческо-скотоводческих племен западного Азербайджана. Баку, 1986, с.4.

[12] Рустамов Дж.Н. О результатах археологических раскопок Кобыстана за 1965 г. Тезисы докладов второй научной конференции аспирантов Ин-та истории АН Азерб. ССР, Баку, 1966, с.3-5; Muradova F.M. Qobustan tunc dövründə. Bakı, 1979, s.79-82, 104-107.

[13] Рустамов Д.К., Мурадова Ф.М. Раскопки в Кобыстане. Археологические открытия 1970 года. М., 1971, с.390-391.

[14] Muradova F.M. Qobustan tunc dövründə. s.79-82, 104-107.

[15] Yenə orada s.88-89, 106-107.

[16] Джафарзаде И.М. Гобустан, с.28, 46-47; холм Язылы, камень 9, рис.13; камень 38, рис.1; камень 40, рис.1, 2; камень 32, рис.1.

[17] Muradova F.M. Qobustan tunc dövründə, c.79-82.

[18] Армянская география VII века по Р.Х. изд. К.П.Патканова. СПб., 1877, с.40.

[19] Джафарзаде И.М. Гобустан. с.257-258,262.

[20] Джафарзаде И.М. Гобустан. с.53.

I Fəsil

ARXEOLOJİ MƏLUMATLAR ƏSASINDA ABŞERONUN VƏ BAKININ ERKƏN TARİXİ

[1] Богачев В.В. Бинагады. Кладбище четвертичной фауны на Апшеронском полуострове. Баку, 1939, с.7-46 (bundan sonra – В.В.Богачев. Бинагады...). Yenə onun. Картины первобытной природы Апшерона. Баку, 1940, с.30-82; Джафаров Р.Д. Новый представитель четвертичных носорогов Бинагадинской фауны. Труды ЕИМ АН Азерб. ССР в.X, Баку, 1955; А.А.Ализаде. Нефть и её происхождение. Баку, 1957.

[2] Богачев В.В. Бинагады... с.7-8, 20-24; yenə onun. Картины первобытной природы Апшерона, с.16, 30-82.

[3] Богачев В.В. Картины первобытной природы Апшерона, с.16.

[4] Кир-окисленная нефть, смешанная с землей и затвердевшая.

[5] Богачев В.В. Бинагады... с.33.

[6] Богачев В.В. Картины первобытной природы Апшерона, с.79-82; Ализаде А.А. Нефть и её просхождение, с.10.

[7] Богачев В.В. Картины первобытной природы Апшерона, с.30-82

[8] Богачев В.В. Картины первобытной природы Апшерона, с.71-82; yenə onun. Бинагады... с.39-44.

[9] Гаджиев Д.В., Алиев С.Д. Остатки гигантского оленя в Азербайджане. Ученые записи Азгосмединститута, т.XVII, 1965, с.51-52.

[10] Замятин С.Н. Разведки по каменному веку в Азербайджане осенью 1953 г. Тр. Ин-та истории, т.XIII, Баку, 1958, с.5.

[11] Богачев В.В. Картины первобытной природы Апшерона, с.80-81

[12] Пахомов Е.А. Об осмотре места находки кремневого ядра у Зыхского озера. Изв. АзФАН СССР, 1938, №2, с.39-40.

[13] Пахомов Е.А. Об осмотре места находки... с.40.

[14] N.O. Burçak-Abramoviçin şifahi məlumatı.

[15] Azərbaycan EA Tarix muzeyinin arxeologiya fondu, inv.№1109, 1275-2289; S.A.Kovalevskinin 1922-ci il 12 mart tarixli kəşfiyyatları.

[16] Bu dəyərli məlumat üçün tarix elmləri namizədi Qardaşxan Aslanova və Şıx kəndindəki qayaüstü rəsmlər haqqında məlumata görə C.N. Rüstəmova minnətdarlığımı bildirirəm.

[17] Алиев.И.Н. Результаты ахеологических работ на Апшероне. Тезисы докл. конф. "Великий Октябрь и развитие археологической и этнографической науки в Азербайджане". Баку, 1988, с.31.

[18] Асланов Г.М. Об археологических памятниках Апшерона. Материальная культура Азербайджана, т.IX, Баку, 1980, с.69-80.

[19] Джафарзаде И.М. Археологические разведки на Апшероне. Изв. АН Азерб. ССР, №6, Баку, 1948, с.90-92.

[20] Джафарзаде И.М. Кобустан, с.265; yenə onun. Наскальные изображения Кобустана. Труды Ин-та истории, т.XIII, Баку, 1958, с.49, 57.

[21] Выписка из путешествия Иоанна Лерха, продолжавшегося от 1733 по 1735 год из Москвы до Астрахани, а оттуда по странам, лежащим на западном берегу Каспийского моря. Новые ежемесячные сочинения, ч.XIII, м-ц январь, СПб., 1790, с.36-38.

[22] Abşeronun qədim rəsədxanası. "Qobustan" jurnalı, 1973, №3

[23] Асланов Г.М. Археологические раскопки на Апшероне. Материальная культура Азербайджана, т.VI, Баку, 1965, с.67-69.

[24] Yenə orada.

[25] Асланов Г.М. Археологические раскопки на Апшероне, с.70-73.

[26] Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, 1959, с.167, 170-172, 175-176, 180-181.

[27] Кляшторный С.Г. Древнетюркские рунические памятники. М., 1964, с.57; Гумилев Л.Н. Древние тюрки. М., 1967, с.329.

[28] Q.M. Aslanovun məlumatı.

[29] Гуммель Я.И. Отчёт о раскопке кургана №7 в 1935 г. Инв.840 НАИИ АН Азерб.

[30] Yenə orada.

[31] Садыхзаде Ш. Новые археологические находки на Апшеронском полуострове. ДАН Азерб. ССР, Баку, №4, 1964, с.81-84.

[32] Джафарзаде И.М. Археологические разведки на Апшероне. Изв. АН Азерб. ССР, 1948, №6, с.83-93.

[33] Ашурбейли С. Очерк истории средневекового Баку. Баку, 1964, с.26.

[34] Крупнов. Е. Глиняная головка "скифа" из Закавказья. Вестник древней истории, 3-4, М., 1940, с.370-371.

[35] Джафарзаде И.М. Археологические разведки на Апшероне. с.83-93.

[36] Yenə orada, s.92-94.

[37] Тер-Григорьян Т.И. Из далекого прошлого г. Баку. Изв. АзФАН АН СССР, Баку, 1943, №7, с.81.

[38] Эфенди М.Э. Отчет по обследованию площади бывшего Александро-Невского собора и окружающих сооружений в связи с производством работ по его сносу, 4.XII.1936 г. Архив Ин-та сооружений и стройматериалов АН Азерб. ССР.

[39] Bu məlumatı bizə 1946-cı il mayın 23-də yerqazan fəhlə Məşədi Xudaverdinin dilindən o vaxtlar 103 yaşlı Məşədi Xudaverdinin yaşadığı Biləcəri kəndinin etnoqrafik tədqiqi ilə məşğul olan Tarix İnstitutunun elmi əməkdaşı İ.Məcidova vermişdir. Bax: Джафарзаде И.М. Археологические разведки на Апшерона, c.92.

[40] İsmizadə O., Ciddi H. Bakı "Qız qalası". Bakı, 1968, s.19-20.

[41] Джафарзаде И.М. Гобустан. c.174.

[42] Луконин В.Г. Искусство древнего Ирана. История Иранского государсва и культуры. М., 1971, c.118-120.

[43] Левиатов В.Н. Археологические раскопки 1945 г. при дворце Ширваншахов в г. Баку, Изв. АН Азерб. ССР, 1948, №1, c.115.

[44] Ибрагимов Ф.А. Раскопки 1986 г. в Бакинской крепости. Тез. докл. конф. Великий Октябрь и развитие археологической и этнографической науки в Азербайджане. Баку, 1988, c.56-58.

[45] Джидди Г.А. О результатах раскопок в городе Шемахе в 1986 г. Тезисы докладов... Баку, 1988, c.54-56; Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982, c.75-89.

[46] İbrahimov F. Nadir tapıntı. "Elm və həyat", 1990, №1, s.18-19.

[47] Джафарзаде И.М. Древнелатинская надпись у подошвы горы Беюкдаш. ДАН Азерб. ССР, т.IV, Баку, 1948, №7, c.304-310; П.Х.Тумбиль. Римская надпись I в. н.э., обнаруженная в пределах Азербайджана (Кобыстан) ДАН Азерб. ССР, т.IV, 1948, №7, c.312-333; Ямпольский З.И. К римской надписи в Азербайджане. Изв. АН Азерб. ССР, 1949, №1, c.89; yenə onun. Вновь открытая латинская надпись у горы Беюкдаш (Азерб. ССР). Вестник древней истории (bundan sonra – ВДИ) №1, М., 1950, c.172-177; Пахомов Е.А. Римская надпись I в. н.э. и легион XII фульмината. Изв. АН Азерб. ССР, №1, Баку, 1949, c.79-88.

[48] Евтропий. ВДИ, 1949, т.3, VII, 23, c.280.

[49] Flinders Petrie. Origin of the Book of the Dead, Ancient Egypt, 1926. June, Part II, p.41-45, цит. по ст. И.И.Мещанинова "Египет и Кавказ", Баку, 1927, c.34-43.

[50] Мещанинов И.И. Египет и Кавказ, c.37.

[51] Ашурбейли С.Б. Скульптура Азербайджана древнего периода средневековья. Труды музея истории Азерабджана АН Азерб. ССР, т.I, Баку, 1956, c.64-65.

[52] Археологический фонд Музея истории Азербайджана АН Азерб. ССР.

[53] Ханыков Н.О. Перемежающихся изменения уровня Каспийского моря. (Записки Кавказ. отд. Императ. русского географического общ-ва), кн.II, Тифлис, 1853, с.86-89; Stritter. Memoriae populyrum etc., t.1. p.512-514, §56-58. Hinocorum Caput. Imp. Theodosio II, Priscus, p.64. An.449.

[54] Xanıkov N.O. Göstərilən əsəri, s.87.

[55] Ковалевский С.А. Лик Каспия. Баку, 1933, с.118-120; yenə onun. Кюрсанга и уровень Сарайской трансгрессии. Труды АзНИИИ, Баку, 1939; yenə onun. Карта Птолемея в свете исторических данных Албании (работа докладывалась в Институте географии АН СССР в 1939 г.).

[56] Мамедов А.В., Велиев С.С. Колебания уровня Каспийского моря в историческое время. Изв. АН Азерб. ССР, серия наук о Земле, 1980, №5, с.33-38.

[57] Бретаницкий Л.С., Датиев С.И., Елькин Г.А., Миконов Л.Г., Мотис Д.А. Укрепление в Бакинской бухте. Архитектура Азербайджана эпохи Низами. М., 1947, с.96.

[58] Березин Е. Путешествие по Дагестану и Закавказью, ч.III, Казань, 1849, гл.V, с.25

[59] Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951, s.39; E.Eichvald. Reise auf dem Caspichen Meere und in den Caucasus in 1825-1826 t.I. Stutdgart, 1834, s.149. Дорн Б. Каспий, СПб., 1875, с.66-67, 181-183.

[60] Дорн Б Каспий, СПб., 1875, с.66-67.

[61] Yenə orada, s.171-173.

[62] Bakıxanov A. Gülüstani-İrəm, Bakı, 1951, s.38. Дорн Б. Каспий. СПб., 1875, с.66-67,119-120.

[63] Lenz. E. Ueber die veranderungen Hohe welche die oberflache des Kaspischen Meeres bis zum April des Jahres 1830 erlitten hat. (Memoires de l'Asademie imperiale des sciences de St. Petersb. 6 serie. t.II) St.Petersb, 1833, p.78-82.

[64] Lenz E. Göstərilən əsəri, s.78-82.

[65] Выписка из путешествия Иоанна Лерха, продолжавшегося от 1733 по 1735 год...Новые ежемесячные сочинения, ч.XX, м-ц январь, СПб., 1790, с.36-38.

[66] Bakıxanov A. Göstərilən əsəri, s.30.

[67] Птолемей К. География, кн.V, гл.II, с.2; Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе, ч.I, Вестник древней истории, т.2, 1948, с.253.

[68] Птолемей К. География, кн VIII, гл.19, с.7; Латышев В.В. Göstərilən əsəri, s.257. Упоминается на Таб. Peut. (Cangaris) и у Anon. Rav.II, 10 (Tangarenon).

[69] Тревер К.В. Очерки по истории и культуре кавказской Албании. М.,1959, с.140.

[70] Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку, 1986, с.97.

[71] Peitro Della Valle. Voyages de Pietro Della Valle gentilhomme Romain, dans la Turquie. I'Egypte, la Palestine, la Perse, les lindes Orientales, et autres lieux, Paris, MDCCXLV, t.III, r. 204.

[72] Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Сочинения, т.II, ч.I, М., 1963, с.666.

[73] Bu məlumatı mərhum Z.İ.Yanpolski mənimlə şəxsi söhbətində vermişdir.

[74] Бартольд В.В. Göstərilən əsəri, s.666.

1. Bakı şəhərinin salınma (yaranma) tarixi və adı haqqında

[75] Övliya Çələbi. Səyahətnamə. İstanbul, h.1314, s.300.

[76] I Dara e.ə. 521-485-ci illərdə, II Dara isə 425-404-cü illərdə hakimiyyət sürmüşdür. Çələbi onlardan hansının olduğunu göstərmir.

[77] Haçı Zeynalabdin Şirvani. Bustan əs-Səyahə, Tehran, 1315, s.129 (*fars dilində*).

[78] Sasani şahı Ənuşirəvan 531-579-cu illərdə hakimiyyətdə olmuşdur.

[79] Масуди. Мурудж аз-Захаб (гл.XVII), пер. В.Ф. Минорский. История Ширвана и Дербенда. М., 1963, Приложение III, с.212.

[80] Левнатов В.Н. Об археологических раскопках 1946 г. в Баку. Изв. АН Азерб. ССР, 1948, №8, с.93.

[81] Пахомов Е.А. Монетные клады Азербайджана и др. республик, краев и областей Кавказа, вып.IV, Баку, 1949, №1079, с.32.

[82] Пахомов Е.А. Монетные клады Азербайджана. I Труды об-ва обс. и изуч. Азерб. Баку, 1926, №57, с.43; yenə onun. Клады Азербайджана... вып.II, Баку, 1938, №374, 375, с.18-20, yenə onun. Монеты Азербайджана, вып.I, Баку, 1959, с.12.

[83] Məhəmməd Həsən xan Etimad əs-Səltənə, Rzaqulu xan Hidayət, Əhməd Kəsrəvi Təbrizi, İ.Berezin, N.Xanıkov, Ə.Ə.Əlizadə və digər tədqiqatçılar, Bakının ərəb istilasından əvvəl mövçud olması ehtimalını irəli sürmüşlər. Bax: Məhəmməd Həsən xan Etimad əs-Səltanə. Kitab ət-tədvin fi əhvale Cibal-e Şərvin, İstambul, h.1311, s.10; Rzaqulu xan Hidayət. Fərhəng Ənçümən arayi-Nəsiri. Tehran, h.1288

(1870/71); Əhməd Kəsrəvi Təbrizi. Namha-ye şəhrha və dehha-ye İran. I, Tehran, 1928; И.Березин. Путешествие по Востоку Казань, 1850, ч.III, с.5; Н.Ханыков. О перемежающихся изменениях уровня Каспийского моря (Записки Кавказского отдела Императорского русского географического общества), кн.II, Тифлис, 1853, с.119; А.А. Ализаде. Некоторые сведения о Ширване. Изв. АН Азерб. ССР, №12, 1947, с.8-9.

[84] Ашурбейли С.Б. Топонимика Апшерона в связи с вопросом этногенеза азербайджанцев. Изв. АН Азерб. ССР, №2, 1967, с.54-57; Гейбуллаев Г.А. Топонимия Азербайджана, Баку, 1986, с.108-109.

[85] Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951, s.28; Aşurbəyli S.M. Göstərilən əsəri, s.59.

[86] История Егише, пер. с армян.: П.Шаншиева, Тифлис, 1853, с.213-215; Масуди. Мурудж аз-Захаб (гл. XVII); Минорский В.Ф. История Ширвана и Дербенда. М., 1963, Прил. III, с.212; Баладзори. Книга завоевания стран, текст и перевод с арабского П.К.Жузе, Баку, 1927, с.5-7; Ашурбяйли С.Б. Göstərilən əsəri, s.59; Кудрявцев А.А. Город, не подвластный векам. Махачкала, 1976, с.48-55; 96-117.

[87] Bakıxanov A. Göstərilən əsəri, s.27; Велиев-Бахарлы М.Г. Азербайджан (физико-географический, этнографический и экономический очерк). Баку, 1921, с.19-57. Ашурбейли С.Б. Göstərilən əsəri, s.59.

[88] Aşurbəyli S.B. Göstərilən əsəri, s.60-61.

[89] История Егише. Пер. с арм.: П. Шаншаива, Тифлис, 1853, с.333-334; Феофилат Симокатта. История. М., 1957, с.36, 77, 102.

[90] Сказания Приска Панийского (Г.С.Дестуниса). Уч. зап. второго отделения Имп. Академии наук, кн.VII, в. 1-й, СПб., 1861, с.61-65.

[91] История Егише. с.223-224; История Армении; Фавстоса Бузанда. Памятники древнеармянской литературы, I, Ереван, 1953, с.15; Aşurbəyli S.B. Göstərilən əsəri, s.62.

[92] Aşurbəyli S.B. Göstərilən əsəri, s.63-66.

[93] Ачарян Р. Этимологический словарь армянского языка. Ереван, 1935.

[94] Абаев В.И. Сборник. Иранские языки. Л., 1945.

[95] Ачарян Р. Этимологический словарь армянского языка. Ереван, 1935.

[96] Малов С.Е. Памятники древнетюркской письменности. М.-Л., 1951.

[97] Əhməd Kəsrəvi Təbrizi. Hamha-ye şəhrha və dehha-ye İran, I, Tehran, 1928 (*fars dilində*).

[98] Эмин.Н. Очерк религии языческих армян. М., 1864, с.63-64.

[99] Məlum olduğu kimi, Azərbaycanın erkən tarixinin öyrənilməsində erməni mənbələrindən istifadə edilir. Belə ki, ərəblərə qədərki dövrə, yəni Sasani dövrünə aid əsərlər bugünədək gəlib çatmamışdır.

[100]. Моисей Хоренский. История Армении, пер. с армянского Н.Эмина. М., 1983, с.143-144.

[101] Армянская география VII в. По Р.Х. текст и перевод Памканова П.К. СПб., 1877, с.51.

[102] Гевонд. История Халифов. СПб., 1862, с.71-72

[103] Моисей Хоренский. История Армении, пер. с арм. Эмина И. О., М., 1893, с.122-123.

[104] Bombeyli professor Modi Azərbaycan haqqında. "Maarif və Mədəniyyət", 1925, №2, s.37-38. Bombey universitetinin 92 yaşlı professoru Modi 1925-ci ildə Bakıda olarkən köhnə Bakı qalasındakı (İçərişəhər) Qız qalasına və Abşerondakı Suraxanı kəndində atəşpərəstlik məbədinə baxmışdır.

[105] Армянская география VII в. по Р.Х., текст и перевод Памканова П.К. СПб., 1877, с.50-51.

[106] Yenə orada, s.50-51.

[107] Армянская география VII в. По Р.Х., с.50.

[108] Al-İstakhri. Kitab Masalik al-Mamalik. BGA, 1, ed. M.J. de Goeje. Lugduni Batavorum., 1870, p.190.

[109] Гевонд. История Халифов. Пер с арм. СПб., 1862, с.71-72; Буниятов.З.М. О длительности пребывания хазар в Албании в VII-VIII вв. Изв. АН Азерб. ССР, сер. общ. наук, 1961, №1, с.30.

[110] Гевонд. История халифов. с.72

[111] M.J.Saint Martin. Memoires historiques et geographiques sur l'Armenie, I, Paris, 1818, p.153.

[112] Əhməd Kəsrəvi Təbrizi. Namha-ye şəhrha və dehha-ye İran. I, Tehran, 1928

[113] Yenə orada.

[114] Картлис Цховреба, т.1, Тбилиси, 1955, s.371 (*fransız dilində*); t.II, 1959, s.166 (*gürcü dilində).*

[115] Məhəmmədhəsən xan Etimad əs-Səltənə. Mərat əl-buldan, I, Tehran, 188 (*fars dilində*).

[116] Burhan-e qate. Fars dili lüğəti; Tərtibçi: Məhəmmədhüseyn Təbrizi (XVII əsr), daşbasması, c.1-2, h.1278 (*fars dilində*).

[117] Bastani Pərizi. İbniya-ye doxtər kala-ye doxtər, Kerman, Məcəlle-ye bastanşinasi, şomare 1-2, h.1838, s.106 (*fars dilində*).

[118] Geographie de Moise de Corene d'apres, Ptolemee, texle armenien, traduit þn francais par Le R. Arsene Soukry Mekhitariste. Venise, 1881, r.37.

Армянская география VII в. по Р.Х. изд. К. Патканов. СПб., 1877, с.37-38.

[119] Kaspilərin adı e.ə. V əsr müəllifi Herodotda çəkilir... (История, кн.III, гл.92, перев. и прим. Г.А. Стратановского), Л., 1972

